# NUR TƏFSİRİ

## İKİNCİ CİLD

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: HACI ARZU**

بسم الله الرحمن الرحيم


نام کتاب:..................................................تفسیر نور (جلد-2)
مولف:............................................................محسن قرائتی
مترجم:.................................................................حاج آرزو
ناشر:........................................................................ فائز.
تاریخ چاپ:..............................................................1385
نوبت چاپ:.................................................................اول
تیراژ:.....................................................................2000

**Kitabın adı:.....................................Nur təfsiri (ikinci cild)**
**Müəllif:...............................................................Möhsün Qəraəti**
**Tərcümə edən:......................................................................H. Arzu**
**Nəşr edən:.........................................................................Faiz**
**Çap tarixi:.........................................................................2006**
**Çap növbəsi:.......................................................................Birinci**
**Tiraj:..................................................................................2000**

## “ALİ-İMRAN” SURƏSİ

### *(3-cü surə, 200 ayə)*

### *Üç, dördüncü cüzlər*

### *“Ali-İmran” surəsinin siması*

“Ali-İmran” surəsi 200 ayədən ibarətdir. Surənin ayələrində xüsusi bir nizam və uyğunluq var. Surə Mədinədə nazil olmuşdur. Surənin nüzulu İslama dəvət nidasının dünyaya ucaldığı və bu nidanın düşmənləri oyadıb onların qulaqlarını cingildətdiyi bir dövrə təsadüf edir.

“Əl-Mizan” təfsirində deyilir ki, Yəmənin Nəcran məntəqəsi məsihilərindən bir dəstəsi İslam peyğəmbərinin buyruqlarını eşitmək üçün Mədinəyə gəldikləri vaxt onlara İslam maarifini bir dəfəyə aydınlaşdırmaq üçün bu surənin təqribən səksən ayəsi nazil oldu və mübahilə (haqdan uzaq düşəni lənətləmə) macərası baş verdi.

Eləcə də, Ühüd savaşı macərası və müsəlmanların səbir və dözümə dəvəti bu surədə bəyan olunmuşdur. Bu surənin “Ali-İmran” adlanmasının səbəbi onun 33-35-ci ayələrində İmran qızı Məryəmin dünyaya gəlişi əhvalatının bəyan olunmasıdır. “Ali-İmran” dedikdə həzrət Məryəm və həzrət İsa nəzərdə tutulur. Həmçinin həzrət Musanın da atasının adı İmran olmuşdur.

1. ﴿بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ﴾

**Rəhman və rəhim Allahın adı ilə**

1. ﴿الم﴾

**“Əlif, lam, mim” (müqəttəə, rəmzi hərflər)**

### *Nöqtələr*

◘Təfsirin birinci cildində “Bismillahir rəhmanir rəhim” ayəsi haqqında danışdıq. Bu ayənin xüsusi yeri var və müstəqil bir ayədir. İstənilən bir işin əvvəlində bu ayəni demək tapşırılmışdır. Surələrin başlanğıcında bu ayənin təkrarı onun əhəmiyyətini göstərir. “Bismillah” təkcə İslama məxsus deyil. Digər peyğəmbərlər də bu ayəni eyni şəkildə işlətmişlər. “Bismillah” ifadəsinin əvvəlindəki “ba” hərfi yardım istəmək mənasını bildirir. Aydın olur ki, Allahın istək və iradəsi olmadan heç bir iş gerçəkləşmir.

Allahdan yardım diləmək Onun bütün sifətlərindən kömək almaqdır. O, rəhman və rəhimdir. Bizim ümid gözümüz Onun rəhmətindədir. Bu, həm də o biri dünyaya aid olan geniş və ümumi bir rəhmətdir. Bəli! Başqalarının ya rəhmi yoxdur, ya da onların rəhmi xüsusi fərdlərə, zamana və ya məkana xasdır. Başqalarının rəhm göstərməkdə məqsədi nə vaxtsa bəhrələnməkdir. Heyvana

verilən ot, quşa verilən dən sonradan bəhrə götürmək məqsədi daşıyır. Təmənnasız, geniş və əbədi olaraq göstərilən rəhmət isə Allaha xasdır. Belə Rəhman və Rəhim Allahdan kömək istəyək və deyək: “Bismillahir-rəhmanir-rəhim”.

◘“Bəqərə” surəsində qeyd olunduğu kimi, Əlif, Lam, Mim müqəttəə hərflərdəndir. Müqəttəə hərflər haqqında ən məşhur və üstün nəzər bu ola bilər ki, bu hərflər Allah və Onun rəsulu arasında olan rəmzdir. İmam Sadiq (ə) buyurmuşdur: “Ali-İmran” surəsinin başlanğıcındakı Əlif, Lam, Mim “Mənəm Məcid Allah” mənasındadır”.[1] Müqəttəə hərflər belə bir məsələyə də işarə ola bilər ki, Allahın kəlamı olan Quran da həmin əlifba hərflərindən tərtib olunmuşdur və buna baxmayaraq möcüzədir. Əgər bacarırsınızsa, siz də həmin hərflərdən Quran kimi bir kitab tərtib edin. Necə ki, ilahi qüdrət torpaqdan insan, insan isə kərpic, kuzə yaradır. Bu, ilahi qüdrətlə bəşər qüdrəti arasında olan fərqdir.

◘Quranın altı surəsi (“Bəqərə”, “Ali-İmran”, “Ənkəbut”, “Rum”, “Loğman”, “Səcdə”) “Əlif, Lam, Mim” müqəttəə hərfləri ilə başlayır.

2. ﴿اللّهُ لا إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ﴾

**“Allahdan başqa məbud yoxdur, O, diri və qəyyumdur.”**

## *Nöqtələr*

◘“Qəyyum” o varlığa deyilir ki, bir başqasına söykənməmiş olsun. Hamının söykəndiyi və ya hamıya dayaq olan varlıq qəyyumdur.

◘Allah yaratmaqda kamil, tədbir və hakimiyyətə malikdir. Maddi amillər və səbəblər yaranış vasitələridir. Amma bu səbəblər müstəqil deyil, onları səbəb edən var. Digər mövcudlarda müstəqil olan elm, həyat və qüdrət yoxdur. Yalnız Allah bir mövcudun diriliyini təmin edən bir diridir və hamı Ondan asılıdır.

“Cövşən-Kəbir” duasında oxuyuruq: O, hər bir diridən qabaq diri və hər bir diridən sonra diridir. Heç bir diri Ona şərik deyil və O, ehtiyacsızdır. Bütün dirilərin canı və ruzisi Onun əlindədir. O elə bir diridir ki, öz diriliyini bir başqasından irs almamışdır.”

## *Bildirişlər*

1. Səmavi kitabların sərlövhəsi tövhiddir.
2. Məbud olmağın şərti zati kamilliklərə malik olmaqdır. Yalnız Allah Öz zatı üzərindədir və mütləq surətdə ehtiyacsızdır.

3. ﴿ نَزَّلَ عَلَيْكَ الْكِتَابَ بِالْحَقِّ مُصَدِّقاً لِّمَا بَيْنَ يَدَيْهِ وَأَنزَلَ التَّوْرَاةَ وَالإِنجِيلَ ﴾

**“O, kitabı sənə haqq olaraq nazil etdi. O, əvvəlki kitabları təsdiq edəndir. Tövrat və İncili O endirdi.”**

[1] “Təfsire-Nurus Səqəleyn”, c.1, s. 309.

## *Nöqtələr*

◘“Tövrat” sözü ibrani dilində şəriət, qanun deməkdir. Hazırda Tövrat beş hissədən ibarətdir: “Yaranış kitabı”, “Xüruc kitabı”, “Laviyyin (Yaqub oğlu Lavi) kitabı”, “Ədədlər kitabı”, “Cütlük kitabı”. Tövratda həzrət Musanın vəfatı və dəfni haqqında danışılması onu göstərir ki, bu kitabdakı məsələlər həzrət Musadan sonra toplanmışdır.

◘“İncil” sözü yunan sözüdür və “müjdə” mənasını verir. İncil məsihilərin səmavi kitabıdır. Quran istənilən bir yerdə İncil adını tək formada işlətmişdir. Amma hazırda məsihilərin əlində hər biri həzrət İsadan sonra onun ardıcılları tərəfindən yazılmış çoxsaylı incillər vardır. Bu incillər onları toplayanların adı ilə tanınır: «Mətta incili», «Mərqus incili», «Luka incili», «Yuhənna incili.»

## *Bildirişlər*

1. Səmavi kitabın göndərilməsi Allahın qəyyumluq cilvəsidir.
2. Quranın peyğəmbərə nazil edilməsi onun şəxsiyyətini və Allahın onu uca tutmasını göstərir.
3. Quran istənilən bir yanlışlıqdan uzaqdır və həqiqətə əsaslanır.
4. Peyğəmbərlərin səmavi kitabları bir-birini təsdiq edir.
5. Əvvəlki səmavi kitabların təsdiqi, allahpərəstlərin vəhdət amilidir və başqalarını dəvət şivələrindən biridir.
6. Quranın Tövrat və İncili təsdiq etməsi əvvəlki dinlər üzərində böyük haqdır. Əks təqdirdə, Tövrat və İncilə qatılmış xurafatlar onları biryolluq unutdurardı.
7. Allahın tərbiyə mərhələləri, Onun vasitə və göstərişləri müxtəlif zaman və şəraitlərdə fərqli olsa da, daim təkamül ahəngi və vahid hədəfə malik olmuşdur.

4. ﴿ مِن قَبْلُ هُدًى لِّلنَّاسِ وَأَنزَلَ الْفُرْقَانَ إِنَّ الَّذِينَ كَفَرُواْ بِآيَاتِ اللّهِ لَهُمْ عَذَابٌ
شَدِيدٌ وَاللّهُ عَزِيزٌ ذُو انتِقَامٍ ﴾

**“Bundan qabaq (Tövrat və İncili) xalqın hidayəti üçün (O göndərdi). İndi isə (haqqı batildən seçmə vasitəsi olan) fürqanı nazil etdi. Əlbəttə, ilahi ayələrə küfr edənlər üçün şiddətli əzab var. Allah yenilməz və intiqam sahibidir.”**

## *Nöqtələr*

◘Quranın adlarından biri Fürqandır. Fürqan fərqləndirmə, ayırma, seçmə mənasını bildirir. Quranda haqqın batildən fərqləndirilməsi prinsipi izlənildiyindən ona fürqan deyilmişdir.

◘Şiddətli əzab təkcə axirətə xas deyil. Ayədə buyurulmayıb ki, kafirlərin əzabı axirətə aiddir. Çünki bəzən mal toplamağa hərislik, Allahdan və mənəviyyatdan xəbərsizlik özü bir əzab olur. “Tövbə” surəsinin 85-ci ayəsində buyurulur: “Allah bir dəstəyə əzab olaraq mal və övlad verir”.

◘İmam Sadiq (ə) "ənzələl-Fürqan" təbiri haqqında belə buyurmuşdur: "Hər bir möhkəm buyuruq fürqandır. "Ənzələl-kitab" təbirində kitab Quranın məcmusudur.[1]

## *Bildirişlər*

1. Xalqın hidayəti həmişəlik ilahi sünnə, qanundur.
2. Səmavi kitablar hansısa qəbilə və ya irqə yox, bütün bəşəriyyətə üz tutmuşdur.
3. Quran haqqı batildən seçmə vasitəsidir.
4. Nə vaxt baxışlar, düşüncələr, əqidələr arasında istənilən bir şəkildə tərəddüdə düşsək, son sözü Quran deməlidir. (Hətta rəvayətlər arasında hansısa fərqlər müşahidə olunsa, Qurana uyğun gələn hədisi əsas götürməliyik.)
5. Bir bu qədər hidayət kitabları və vasitələri gəldikdən sonra inadkarlıq göstərən şəxsin cəzası şiddətli əzabdır.
6. Yalnız xalqa höccət (dəlillər) tamamlandıqdan, bəhanəyə yer qalmadıqdan sonra ilahi əzab gəlir.
7. Ayə qəddar kafirlərin cəzaya çatacaqlarını xəbər verməklə peyğəmbərə və möminlərə təsəlli verir.
8. Allahın cəza və intiqamının əsasını bizim əməllərimiz təşkil edir. Allah heç bir əskiyi olmayan yenilməzdir.
9. Xalqın küfrünün Allaha təsiri yoxdur.

**5. ﴿ إِنَّ اللّهَ لاَ يَخْفَىَ عَلَيْهِ شَيْءٌ فِي الأَرْضِ وَلاَ فِي السَّمَاء ﴾**

**"Həqiqətən, nə yerdə, nə də göydə heç bir şey Allaha gizli qalmaz."**

## *Nöqtələr*

◘Bir neçə ayə əvvəl Allahın qəyyumluğundan danışıldı. Bu ayədə isə hər şeyin Ona aşkar olması bildirilir. Bu da Onun qəyyumluq cilvələrindən biridir.

## *Bildirişlər*

1. Allah hər şeydən agahdır. Biz və bütün qalan varlıq aləmi hər bir an Allahın hüzurundayıq. Gəlin Allahın hüzurunda günah etməyək. Əvvəlki ayəyə nəzər salmaqla aydın olur ki, kimsənin küfr və günahı Allaha gizli deyil.
2. Fərdlərin, əməllərin, məkanların və zamanların çoxluğu nəyinsə Allahdan gizli qalmasına səbəb olmur.

**6. ﴿ هُوَ الَّذِي يُصَوِّرُكُمْ فِي الأَرْحَامِ كَيْفَ يَشَاء لاَ إِلَهَ إِلاَّ هُوَ الْعَزِيزُ الْحَكِيمُ ﴾**

**"O, sizi bətinlərdə istədiyi şəklə salan kəsdir. İqtidar və hikmət sahibi olan Allahdan savay məbud yoxdur".**

---

[1] "Təfsire-Əyyaşi", c. 1, s. 162.

## *Nöqtələr*

◘Körpənin bətndə formalaşması Allahın qəyyumluğunun digər bir nişanəsidir. Bu barədə əvvəlki ayələrdə oxuduq.

◘Ana bətnində insanın formalaşması mövzusu kitabın iki nüzul ayəsi arasında gəlmişdir. Bu, ana bətnində insana diqqət göstərən Allahın gələcəkdə də onun üçün ilahi qanunlar və səmavi kitablarla inkişaf şəraiti yaratması rəmzi ola bilər.

◘İnsanın formalaşmasında irsi, sağlamlıq, qidalanma və ya psixoloji amillərin təsiri də ilahi sünnələrdəndir və Allahın qüdrət, tədbir, hikmət dairəsindən kənar deyil.

## *Bildirişlər*

1. Yaranış və şəriət qanunlarının mənşəyi eynidir. Sizin hidayətiniz üçün kitab göndərən həmin Kəsdir ki, sizi yaratmışdır.
2. Ana bətnində insanın formalaşması yalnız Onun əlindədir.
3. Əgər insana surət, forma verən Odursa, bir-birinizi zahiri görkəminizə görə qınamayın.
4. Onun qüdrəti məkan və zaman məhdudiyyətinə sığmır.
5. İnsanın öz yaranışı haqqında düşünməsi onun Allaha iman gətirməsi səbəbidir.
6. Allah hər işə qadir olsa da, hikmətsiz iş görmür.
7. Fərdlərin müxtəlif surətlərdə olması Allahın qüdrət və hikmət nişanəsidir.

7. ﴿هُوَ الَّذِيَ أَنزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُّحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ
مُتَشَابِهَاتٌ فَأَمَّا الَّذِينَ في قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاء الْفِتْنَةِ وَابْتِغَاء
تَأْوِيلِهِ وَمَا يَعْلَمُ تَأْوِيلَهُ إِلاَّ اللّهُ وَالرَّاسِخُونَ فِي الْعِلْمِ يَقُولُونَ آمَنَّا بِهِ كُلٌّ مِّنْ عِندِ رَبِّنَا
وَمَا يَذَّكَّرُ إِلاَّ أُوْلُواْ الألْبَابِ﴾

**“O, bu kitabı sənə nazil edən kəsdir. Onun (kitabın) bir hissəsi kitabın əsasını təşkil edən möhkəm ayələrdən ibarətdir. (Digər ayələrə münasibətdə yaranmış şübhələr möhkəm ayələrə müraciət etməklə aydınlaşır.) Onun bir hissəsi isə mütəşabehdir. (Bu ayələr ilk baxışdan müxtəlif cür mənalandırıla bilər.) Qəlbində azğınlıq olanlar fitnə yaratmaq (xalqı azdırmaq) üçün, eləcə də, ayələri istədikləri kimi təfsir etmək məqsədi ilə mütəşabeh ayələrə üz tuturlar. Halbuki bu ayələrin təfsirini Allahdan və elmdə qüvvətlilərdən başqaları bilmir. Belələri deyirlər: “Biz ona iman gətirmişik və bütün ayələr Allahımız tərəfindəndir (istər möhkəm olsun, istər mütəşabeh.) Bundan yalnız düşüncə sahibləri öyüd götürər.”**

## *Nöqtələr*

◘Bu ayədə bir neçə sual bəyan olunur:

**Sual:** "Hud" surəsinin birinci ayəsində Quran öz ayələrini bütünlüklə möhkəm ayələr kimi təqdim edir. "Zumər" surəsinin iyirmi üçüncü ayəsində isə bütün ayələr mütəşabeh sayılmışdır. Hazırkı ayədə isə bəzi ayələr möhkəm, bəziləri isə mütəşabeh ayələr kimi tanıtdırılır. Bütün bu fərqlər nə deməkdir?

**Cavab:** Quranın bütün ayələrinin möhkəm sayılması bu ilahi kitabda heç bir əsassız söz deyilmədiyinə işarədir. Bütün ayələrin mütəşabeh sayılmasının səbəbi isə ayələrdəki həmahənglik, oxşarlıqdır.

Bununla belə, xalqın dərki baxımından ayələr eyni deyildir. Bəzi ayələr hamının başa düşəcəyi şəkildə aydın, bəziləri isə dərin və mürəkkəb mənalıdır. Bu dərinlik bəzilərinin şübhə və səhvinə səbəb olur.

**Sual:** Quranda mütəşabeh ayələrə yer verilməsində məqsəd nədir?

**Cavab:** Əvvəla, mütəşabeh ayələrin varlığı oxucunun ayələr haqqında düşünməsinə zəmin yaradır.

İkincisi, mütəşabeh ayələr səbəbindən xalq səmavi rəhbərlərə müraciət edir. Bəli, bütün dərslər asan olsa, şagird müəllimə ehtiyac duymaz.

Üçüncüsü, mütəşabeh ayələr xalqın sınaq vasitəsidir. Dolaşıq fikirli bəzi insanlar oxşar ayələr arasından öz hədəflərinə doğru hərəkət edirlər. Düşüncəli insanlar isə, imam Rizanın (ə) buyurduğu kimi, möhkəm ayələrə müraciət edərək, mütəşabeh ayələrin əsil mənasını öyrənirlər.[1]

**Sual:** Mütəşabeh ayələrin hansı nümunələri var?

**Cavab:** Quranda oxuyuruq: "Qiyamətdə gözlər öz Allahlarına baxar." ("Qiyamət", 23) Sağlam əql Allahın cisim olmadığını qavrayır. Quranın digər ayələrində buyurulur: "Gözlər onu dərk etməz." ("Ənam", 103) Anlaşılır ki, Allaha baxış qiyamətdə Onun lütf və mükafatına baxışdır. Başqa bir ayədə "Allahın əli" ifadəsi işlədilmişdir. Şübhəsiz ki, bu təbirdə məqsəd Allahın qüdrət əlidir. Öz dilimizdə də "filankəsin filan işdə əli var" deyirik. Məlum məsələdir ki, Allah cisim olmadığından Onun əl-ayağı haqqında danışmağa dəyməz. Quranda buyurulur: "Onun oxşarı yoxdur." ("Şura", 11) Bu sayaq ayələr həqiqi təfsirçi olan peyğəmbər Əhli-beytindən ayrı düşən və digər ayələrə nəzər salmayan sadəlövh insanların çaşqınlığına səbəb olmuşdur. Bəlkə də Quran bu təhlükələri nəzərə alaraq bizə tapşırır ki, Quran oxuyarkən şeytanın şərindən Allaha pənah aparaq.[2]

**Sual:** Quranın təvili nə deməkdir?

**Cavab:** "Təvil" dedikdə sonradan aydınlaşası, pərdə arxasındakı hədəflər, maarif və sirlər nəzərdə tutulur. Məsələn, həzrət Yusifin gördüyü yuxu sonradan aydınlaşdı. Xızır və Musanın əhvalatında gəminin sındırılması səbəbinin sonradan aydınlaşması da deyilənlərin bir nümunəsidir.

---

[1] "Bihar", c. 2, s. 185.

[2] bax: "Nəhl", 98.

◘Rəvayətdə oxuyuruq: Nəsx edən ayələr Quranın möhkəm, nəsx olmuş ayələr isə onun mütəşabeh ayələrindəndir. Elmdə möhkəm olanların nümunəsi məsum imamlardır.[1] İslam hakimlərinə qarşı çıxanlar isə mütəşabeh ayələr arxasınca gəzən dolaşıq fikirli insanlardır.[2]

◘Həzrət Əli (ə) "Nəhcül-bəlağə"də elmdə möhkəm olanlar haqqında xoş sözlər söyləyir. Beləlıri öz elmi acizliklərini etiraf edir, zəruri olmayan məsələlərdə dərinə getmirlər.

## *Bildirişlər*

1. Hər insan Quranın bütün ayələrini anlaya bilmir.
2. Azğın qəlblər fəsad və fitnə mənşəyidir.
3. Fitnə yalnız hərbi və fiziki təxribat deyil. Şəxsi rəy əsasında təfsir, əqidə və Quran ayələrinin təhrifi də fitnədir.
4. Bəzən haqq batilin əlində bəhanə olur.
5. İlahi ayələrin son məqsədini və uca qayəsini yalnız Allah və elmdə möhkəm olanlar bilir.
6. Elmdə möhkəm olanların ("rasix") adı Allahın müqəddəs adı ilə yanaşı çəkilir. Allahın məqamından sonra onların məqamı gəlir.
7. Elmin dərəcələri var və elmin ən yüksək dərəcəsi təvillə tanışlıq və son məqsədə çatmaqdır.
8. Həqiqi alimlərdə təkəbbür olmur.
9. Batilə meyl elmdə möhkəmliyin maneəsidir. Elmdə möhkəm olanlarla qəlbində azğınlıq olanlar əks qütblərdə qərar tuturlar.
10. Hər başa düşmədiyimizi inkar etməyək.
11. Ayələrin möhkəm və mütəşabeh şəkildə nazil olması tərbiyəvi xarakter daşıyır.

**8.** ﴿ رَبَّنَا لاَ تُزِغْ قُلُوبَنَا بَعْدَ إِذْ هَدَيْتَنَا وَهَبْ لَنَا مِن لَّدُنكَ رَحْمَةً إِنَّكَ أَنتَ الْوَهَّابُ ﴾

**"(Elmdə möhkəm olanlar deyir:) Pərvərdigara! Bizi hidayət etdikdən sonra qəlblərimizi azğınlığa sövq etmə. Öz tərəfindən bizə bir rəhmət bağışla. Həqiqətən də, Sən Özün çox bağışlayansan."**

## *Bildirişlər*

1. Öz elm və biliyimizlə qürrələnməyək. Allahdan hidayət istəyək.
2. Gerçək elmin və elmdə möhkəmliyin nişanəsi Allaha diqqət və Ondan yardım diləməkdir.
3. Hidayət və azğınlığın meydanı qəlb və düşüncədir.
4. Düz yolda olmaq mühüm deyil. Düz yoldan çıxmamaq çox əhəmiyyətlidir.

---

[1] "Təfsire-Nurus-Səqəleyn".
[2] "Təfsire-Dürrül-Mənsur", c. 2, s. 148.

5. Daimi və minnətsiz hədiyyə və bəxşiş Allah tərəfindəndir.

**9.** ﴿ رَبَّنَا إِنَّكَ جَامِعُ النَّاسِ لِيَوْمٍ لاَّ رَيْبَ فِيهِ إِنَّ اللّهَ لاَ يُخْلِفُ الْمِيعَادَ ﴾

**“Elmdə möhkəm olanlar duanın ardınca deyərlər:) Pərvərdigara! Həqiqətən, sən xalqı heç bir şübhə olmayan gün üçün toplayarsan. Həqiqətən, Allah Öz vədini pozmaz.”**

## *Nöqtələr*

▫Qiyamətə inanan şəxs öz aqibətindən nigaran olur və Allahdan yardım istəyir.

Vədə xilaflığın mənşəyi qəflət, acizlik, qorxu, cəhalət və ya peşmançılıqdır. Amma Allahın müqəddəs zatında bu halların heç birinə yer yoxdur.

## *Bildirişlər*

1. Elmdə möhkəm olanlar gələcəyə və qiyamətə göz dikmişlər.
2. Dünyadakı ruhi hallara diqqət və axirətdə əməllərə cavabdehlik həqiqi alimlərin nişanəsidir.
3. Qiyamət günü həm xalqın bir yerdə hesab-kitab üçün toplaşacağı, həm də mühakimədən sonra hər kəsin ayrıca öz yerini tutacağı fəzl günüdür.
4. Elmdə möhkəm olanların qiyamətə yəqinlikləri var. Onlar Allahın vəfasına əmindirlər.

**10.** ﴿ إِنَّ الَّذِينَ كَفَرُواْ لَن تُغْنِيَ عَنْهُمْ أَمْوَالُهُمْ وَلاَ أَوْلاَدُهُم مِّنَ اللّهِ شَيْئًا وَأُولَئِكَ هُمْ وَقُودُ النَّارِ ﴾

**Həqiqətən, küfr edənlərin nə malları, nə də övladları ilahi əzab qarşısında onların karına gəlməz. Onlar özləri od üçün çırpı, yanacaqdırlar.”**

## *Nöqtələr*

▫“Vəqud” yanacaq maddəsi mənasındadır. Cəhənnəm odu iki vasitə ilə alovlanır: Daşlar və insanlar.[1] Xasiyyətlər, düşüncələr, əməllər insanın şəxsiyyətini parçalayar və insan yanacağa dönüb özünün yanmasına səbəb olar.

▫İnsanın dünya və axirətdəki gerçək ehtiyaclarını Ondan qeyrisi təmin edə bilməz. İnsan bütün hallarda Ona möhtacdır.

## *Bildirişlər*

1. Mal və övladla qürrələnməyin. Allahdan qeyrisinə ünvanlanmış istənilən bir vurğunluq məhkumdur.
2. Küfr insanı insanlıq dairəsindən çıxarıb, onu əşya səviyyəsinə endirir.

---

[1] bax: “Bəqərə”, 24.

11. ﴿كَدَأْبِ آلِ فِرْعَوْنَ وَالَّذِينَ مِن قَبْلِهِمْ كَذَّبُواْ بِآيَاتِنَا فَأَخَذَهُمُ اللّهُ بِذُنُوبِهِمْ وَاللّهُ شَدِيدُ الْعِقَابِ﴾

**“(Kafirlərin qaydası) fironçuların və onlardan əvvəlkilərin qaydası kimidir. Ayələrimizi təkzib etdilər. Allah da onları günahlarına görə cəzalandırdı. Allahın cəzası ağırdır.”**

## *Bildirişlər*

1. Məsələ külli şəkildə bəyan olduqdan sonra nümunələr göstərmək lazımdır.
2. Maddi güclərə, mal və övlada arxalanmaq Firon qaydasıdır.
3. Tarix və keçmişdəkilərin təcrübəsi ən üstün dərsdir.

Həmin dövrün zorakı qəhrəmanları olan Firon və Firon ailəsi Allahın qəhr və qəzəbi qarşısında bir an dayana bilmədilər. Öz cüzi mal və gücünüzə arxalanmayın.

4. Bəzən zalım hakimlərin ətrafındakılar onların özlərindən daha çox rol oynayırlar.
5. Günah pisdir. Amma günaha adət və günah ruhiyyəsi daha pisdir.
6. Oxşar xasiyyət, qayda, əməl və günahların cəza və mükafatı da oxşardır.
7. Ümmətlərin həlak olması səbəbi onların günahları olmuşdur.
8. Günah ruhiyyə və adətə çevrildikdə Allahın cəzası ağırlaşır.

12. ﴿قُل لِّلَّذِينَ كَفَرُواْ سَتُغْلَبُونَ وَتُحْشَرُونَ إِلَى جَهَنَّمَ وَبِئْسَ الْمِهَادُ﴾

**“Kafir olanlara de ki, tezliklə məğlub olar və cəhənnəmə doğru sürüklənərlər. Necə də pis yerdir!”**

## *Nöqtələr*

◘“Məcməul-bəyan”, “Kəbir”, “Məraği” təfsirlərində deyilir: Müsəlmanlar hicri ikinci il Bədr savaşında qalib gəldikləri vaxt yəhudilərdən bir dəstəsi dedi: “Bu qələbə Məhəmmədin haqq olması nişanəsidir. Çünki Tövratda deyilmişdir: “O düşmənlərinə qalib gələr.” Yəhudilərin digər bir dəstəsi isə belə dedi: “Tələsməyin, bəlkə o biri döyüşlərdə məğlub oldu.” Hicri üçüncü ildə müsəlmanlar Ühüd savaşında məğlub olduqları vaxt həmin yəhudilər xoşhal oldular.

Ayə nazil oldu ki, tələsik mühakimə yürütməyin. Yaxın gələcəkdə məğlub olarsınız. Çox çəkmədi ki, müsəlmanlar Mədinənin Bəni-Qürəyzə və Bəni-Nəzir yəhudilərini məğlub etdilər. Məkkənin fəthində isə müşriklər məğlub oldular.

## *Bildirişlər*

1. Möminlərə təsəlli, kafirlərin hədələnməsi düzgün rəhbərlik və məqsədə inam nişanəsidir.
2. Quranın möcüzələrindən biri onun gələcək haqqındakı dəqiq xəbərləridir.

3. Xalq qalibdir və küfr məğlubiyyətə məhkumdur.
4. Düşmənin şayiələri və təbliğatları ilə mübarizə aparın.
5. Cəhənnəmlə sonuclanan məğlubiyyətlərdən qorxun. Adi halda hər bir döyüşdə məğlubiyyət ola bilər.

13. ﴿قَدْ كَانَ لَكُمْ آيَةٌ فِي فِئَتَيْنِ الْتَقَتَا فِئَةٌ تُقَاتِلُ فِي سَبِيلِ اللّهِ وَأُخْرَى كَافِرَةٌ يَرَوْنَهُم مِّثْلَيْهِمْ رَأْيَ الْعَيْنِ وَاللّهُ يُؤَيِّدُ بِنَصْرِهِ مَن يَشَاء إِنَّ فِي ذَلِكَ لَعِبْرَةً لَّأُوْلِي الأَبْصَارِ﴾

**“(Bədr döyüşündə) iki dəstənin üzbəüz durmasında sizin üçün nişanə var idi. Bir dəstə Allah yolunda savaşırdı, digər kafir dəstə (şeytan və nəfs istəkləri yolunda). Kafirlər müsəlmanları ikiqat artıq görürdülər. (Bu, onları qorxudurdu). Allah istədiyini Öz yardımı ilə möhkəmləndirər. Həqiqətən, bu işdə bəsirət əhli üçün öyüd və ibrət var.”**

## *Nöqtələr*

◘Ayə müsəlmanların və kafirlərin qarşılaşdığı Bədr döyüşü haqqındadır. Bu döyüşdə müsəlman dəstəsi üç yüz on üç nəfərdən ibarət idi. Onların yetmiş yeddisi mühacir (Mədinəyə hicrət edən), iki yüz otuz altısı isə ənsar (mədinəli müsəlman) idi. Mühacirlərin bayraqdarı Həzrət Əli (ə), ənsarın bayraqdarı isə Səd ibn Übadə idi. Müsəlmanların yetmiş dəvəsi, iki atı, altı zirehi və səkkiz qılıncı vardı. Amma düşmən qoşunu mindən yuxarı döyüşçü və yüz atlıdan təşkil olunmuşdu. Müsəlmanlar bu döyüşdə iyirmi iki şəhid verməklə (on dörd mühacir, səkkiz ənsar) kafirlərdən yetmişini öldürüb, yetmişini əsir götürərək qalib gəldilər.

◘Bədr döyüşü əvvəlcədən planlaşdırılmamışdı. Məkkə mühacirlərinin qəsb olunmuş malı əvəzində kafirlərin malının müsadirəsi cəhdi hərbi qarşıdurma ilə nəticələnmişdi(ərəbcə)

◘**Sual:** Ayədə oxuyuruq ki, kafirlər müsəlmanları iki qat artıq görürdülər. Halbuki “Ənfal” surəsinin 44-cü ayəsində buyurulur ki, müsəlmanlar kafirlərə az göründülər. Bu, ziddiyyət deyilmi?

**Cavab:** Bəli, döyüşün başlanğıcında müsəlmanlar kafirlərə az göründü və onlar Məkkə kafirlərindən kömək istəmədən hücuma keçdilər. Döyüş başlandıqdan sonra isə müsəlmanlar onlara çox görünməyə başladı. Beləcə, kafirlər uğursuzluğa düçar oldular. Müsəlmanların əvvəlcə az, sonra çox görünməsi tam məntiqidir.[1]

## *Bildirişlər*

1. Döyüşdə məqsəd Allah və Allahın dini olmalıdır.

[1] “Təfsire-Safi”.

2. Müsəlman mücahidlərin bir məqsədi var. (Düşmən döyüşçülərinin isə məqsədləri fərqlidir.)

3. Əgər Allah istəsə, qavrayışlar dəyişər və göz, qarşısındakını ikiqat görər.

4. Qeybi yardımlardan biri düşmən qəlbində qorxu yaradılmasıdır.

5. Bədr döyüşündən məlum oldu ki, Allahın iradəsi daim insanların iradəsinə qalibdir. Yalnız döyüş təchizatı, maddi imkanlar qələbəyə səbəb ola bilməz.

6. Allah istədiyi kəsə yardım göstərsə də, bu yardımın şərti xalqın Allah dininin qələbəsi yolunda ayağa qalxmasıdır.

7. Tarixin bəyanında məqsəd öyüd-nəsihət götürülməsidir.

8. Hadisələr hamı üçün ibrət olsa da, yalnız bəsirət sahibləri buna müvəffəq olur.

9. Bədr döyüşündən ibrət götürməyənlər bəsirət sahibi deyil.

**14.** ﴿زُيِّنَ لِلنَّاسِ حُبُّ الشَّهَوَاتِ مِنَ النِّسَاء وَالْبَنِينَ وَالْقَنَاطِيرِ الْمُقَنطَرَةِ مِنَ الذَّهَبِ وَالْفِضَّةِ وَالْخَيْلِ الْمُسَوَّمَةِ وَالأَنْعَامِ وَالْحَرْثِ ذَلِكَ مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا وَاللّهُ عِندَهُ حُسْنُ الْمَآبِ﴾

**“Qadınlara, oğlan övladlara, qızıl və gümüşdən, yaxşı atlardan, dördayaqlılardan və əkin sahələrindən olan çoxlu var-dövlətə eşq və bağlılıq xalqın gözündə cilvələnmiş nəfs istəklərindəndir. (Halbuki) bunlar dünya həyatının ötəri bəhrəsidir. Yaxşı sonuc yalnız Allahın yanındadır.”**

## *Nöqtələr*

◘“Qənatir” sözü “qintar” sözünün cəm forması olub çoxlu mal mənasını bildirir. Həmin sözün ardınca gələn “müqəntərə” sözü daha artıq təkid üçündür. Necə ki, “alaf və uluf” minlərcə min deməkdir.

“Xəyl” həm at, həm də süvariyə işarədir. Gözəl biçimə malik olan, yaxşı təlim görmüş, xüsusi üstünlüklərə malik atlara “xəylil-musəvvəmə” deyilir.

◘İnsana dünyanı gözəl göstərən bəzən onun şəxsi xəyalı, bəzən şeytan təlqinləri, bəzən isə ətrafdakıların təsiri olur.[1]

◘Ayədə sadalanmış dünya cilvələri həmin dövrə aiddir. Hər bir dövrün özünə aid görüntüləri ola bilər. “Qızıl və gümüş” sərvət toplamağa, “at” isə nəqliyyat vasitəsinə işarədir.

◘**Sual:** Allah mal və övladın zinət olduğunu qəbul etdiyi halda (“Kəhf”, 46), nə üçün ayədə bu şeylər tənqid olunur?

**Cavab:** Bir şeyin zinət olması ayrı məsələdir, insanın ona qul olması isə ayrı bir məsələ. Ayədə var-dövlətə, övladlara ifrat bağlılıq tənqid olunur.

◘“Bənin” sözü qızlara da şamil edilə bilər. Necə ki, “abirin” sözü yoldan ötən qadınlara da aid ola bilər.

---

[1] bax: “Kəhf”, 104; “Fatir”, 8; “Ənam”, 43; “Ğafir”, 37.

◘İmam Sadiq (ə) “Hubbuş-şəhəvati minən-nisa” cümləsi ilə bağlı buyurmuşdur: «İnsanlar dünya və axirətdə ən çox qadınlardan ləzzət alırlar... Behişt əhli də yemək-içməkdən daha çox izdivaca meyillidir.»[1] Bu rəvayət qadının ləzzət baxımından daha üstün rola malik olduğunu göstərir.

## *Bildirişlər*

1. Maddiyyata təbii meyl bütün insanlarda mövcuddur. Təhlükəli olan isə dünyanın zinətlərinə, görüntülərinə aldanıb, nəfsi özbaşına buraxmaqdır.
2. Dünya gözəllikləri böyük şəxsiyyətlər üçün deyil, adi insanlar üçündür. (Tarixin böyük qadın şəxsiyyətlərindən olan Asya (Fironun arvadı) saray və qızıl-gümüşü dəyərsiz sayırdı.)
3. Ailə-övlada ifrat bağlılıq insanın dünyaya vurğunluğunun ən böyük səbəbidir.
4. Unutmayaq ki, dünyanın zinətləri və gözəllikləri axirətdən xəbərsizliyin müqəddiməsidir.
5. Pis aqibətə düçar olmağın amillərindən biri dünyaya vurğunluqdur. Çünki yaxşı sonuc yalnız Allahın yanındadır.
6. Tərbiyə üsullarından biri maddiyyatın kiçik, mənəviyyatın əzəmətli göstərilməsidir.
7. Təhlükəli meyllərə ən yaxşı nəzarət yolu onların Allahın əbədi lütfü ilə müqayisə olunmasıdır.

15. ﴿قُلْ أَؤُنَبِّئُكُم بِخَيْرٍ مِّن ذَلِكُمْ لِلَّذِينَ اتَّقَوْا عِندَ رَبِّهِمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَأَزْوَاجٌ مُّطَهَّرَةٌ وَرِضْوَانٌ مِّنَ اللّهِ وَاللّهُ بَصِيرٌ بِالْعِبَادِ﴾

**“De ki, sizə bundan yaxşısı haqqında xəbər verimmi? Təqvalı kəslər üçün Allahın yanında altından çaylar axan bağlar vardır. Həmişə oradadırlar və pak zövcələri (olacaq). Allahın razılığı (onların halına şamildir). Allah bəndələrinin halını görəndir.”**

## *Nöqtələr*

◘Əvvəlki ayənin son cümləsində oxuduq ki, yaxşı aqibət Allahın yanındadır. Ayə yaxşı əməl sahiblərinin behiştindən bir lövhə təsvir edir.

## *Bildirişlər*

1. Xalqı haqqa dəvət edərkən onları dünya və axirətin müqayisəsinə çağıraq.
2. Behişt sabitliyi və Allahın razılığı hara, dünyanın müvəqqəti və davamsız ləzzətləri hara?!
3. Təqvalı insanlar dünyanın bər-bəzəyinə vurulmurlar. Əvvəlki ayədəki “nas” sözünün yerinə bu ayədə “müttəqilər” sözü işlənmişdir.

---

[1] “Kafi”, c.5, s. 321.

4. Axirət nemətlərinə çatmaq ölçüsü təqvadır.
5. Təşviq təbii və fitri istəklərlə uyğun olmalıdır.
6. Paklıq, pakizəlik ən böyük dəyərdir.
7. Müttəqilər üçün nəzərdə tutulmuş ləzzətlər yalnız maddi ləzzətlər deyil. İlahi razılıq ən üstün mənəvi ləzzətdir.
8. Çox da təqva iddiasında olmayaq. Allah görən və biləndir.

**16.** ﴿ الَّذِينَ يَقُولُونَ رَبَّنَا إِنَّنَا آمَنَّا فَاغْفِرْ لَنَا ذُنُوبَنَا وَقِنَا عَذَابَ النَّارِ ﴾

**“(Təqvalılar) o kəslərdirlər ki, deyərlər: Pərvərdigara! Həqiqətən, biz iman gətirdik. Günahlarımızı bağışla və bizi atəş əzabından qoru.”**

## *Bildirişlər*

1. Müttəqilər daim tövbə və dua halındadırlar.
2. İman ilahi əfvin zəminəsidir.
3. Əfv rübubiyyət şəni və tərbiyə şərtidir.
4. Allahın qəhr və qəzəbindən qorxu təqva nişanələrindəndir.
5. Öz yaxşı işlərinizə güvənməyin. Təqvalı olsanız da, Allahın qəhr və qəzəbindən qorxun.

**17.** ﴿ الصَّابِرِينَ وَالصَّادِقِينَ وَالْقَانِتِينَ وَالْمُنفِقِينَ وَالْمُسْتَغْفِرِينَ بِالأَسْحَارِ ﴾

**“(Təqvalılar) səbirlilər, doğru danışanlar, təvazö ilə itaət edənlər, infaq edənlər, səhərlər tövbə qılanlardır.”**

## *Nöqtələr*

◘Təqvalı insanlarda aşağıdakı xüsusiyyətlər var:
1. Çətinliklər, günahların tərki və ibadətlərin yerinə yetirilməsi zamanı səbir.
2. Danışıq və rəftarda düzlük.
3. Göstərişlərin icrasında qürura yol verməmək, özünü üstün bilməmək, xüzu və sadəlik.
4. Allahın ruzi etdiyi şeylərdən infaq.
5. Səhər münacatları və Allahdan bağışlanma istəyi. Bəli! Sübh dua üçün ən münasib vaxtdır. İmam Sadiq (ə) buyurmuşdur: “Səhər vaxtının istiğfarı dedikdə, sübh namazı nəzərdə tutulur.”[1]

◘Bəzi rəvayətlərdə nəql olunmuşdur: “Bir şəxs bir il müddətində gecə namazının qunutunda yetmiş dəfə istiğfar etsə, bu ayə ona aid olar.[2]

◘Əbu-Bəsir imam Sadiqdən (ə) səhər istiğfarı haqqında soruşduqda imam buyurdu: “Həzrət peyğəmbər vətr namazında yetmiş dəfə istiğfar edərdi.”[3]

---

[1] “Təfsire-Məcməul-bəyan”.
[2] “Təhzibul-əhkam”, c. 1, s. 309.
[3] “Təhzibul-əhkam”, c.2, s. 120.

▫Müfəzzəl ibn Ömər imam Sadiqə (ə) deyir: “Gecə namazını qıla bilmədiyimdən sübh namazından sonra onu qəza edə bilərəmmi?” Həzrət buyurur: “Eybi yoxdur. Amma bunu ailənə bildirmə. Yoxsa bunu bir sünnət, qayda kimi qəbul edərlər. Belə olsa, Allahın sübh istiğfarı haqqındakı buyuruğu diqqətdən yayınar.”[1]

## *Bildirişlər*

1. Həm xalqa əl tutmaq, həm də Xaliqə ibadət etmək lazımdır.
2. Təqva guşənişinlik, dünyadan xəbərsizlik deyil. Təqvalı insanda bütün kamilliklər cəm olmalıdır.

18. ﴿ شَهِدَ اللّهُ أَنَّهُ لاَ إِلَهَ إِلاَّ هُوَ وَالْمَلاَئِكَةُ وَأُوْلُواْ الْعِلْمِ قَآئِمَاً بِالْقِسْطِ لاَ إِلَهَ إِلاَّ هُوَ الْعَزِيزُ الْحَكِيمُ ﴾

**“Daim ədalətə istinad edən Allah şəhadət verib ki, Ondan başqa məbud yoxdur. Mələklər və elm sahibləri (də Onun yeganəliyinə şəhadət vermişlər). İqtidar və hikmət sahibi olan Allahdan başqa məbud yoxdur.”**

## *Nöqtələr*

▫Allah varlıq aləmində vahid nizam yaratmaqla Öz zatının yeganəliyinə şəhadət verir. Yəni varlıq aləmindəki həmahənglik və nizam bütünlüklə Onun yeganə qüdrətinin hakimiyyətinə şəhadət verir.

Əgər günəş üçün dəlil istəsən,
Ayın çöhrəsinə nəzər yetir sən.

▫İmam Baqir (ə) buyurmuşdur: “Ayədəki “ulul-ilm” təbiri peyğəmbər və peyğəmbər canişinlərinə aiddir.[2]

▫Məhdudiyyət say, çoxluq olan yerdədir. Hədsiz-hesabsız ev birdən çox ola bilməz. Əgər “filan çırağın işığı nəhayətsizdir” desək, ikinci çıraq üçün yer qalmır. Allah nəhayətsizdir. Əgər nəhayəti olsa, yoxluqla üzləşər. Heç bir nəhayətsizlik saya gəlmir. Ona görə də nəhayətsiz Allah vahiddir.

## *Bildirişlər*

1. Əməli şəhadət ən üstün şəhadətdir. Bütün yaranmışlar arasındakı həmahənglik və nizam Allahın birliyinə şəhadətin ən üstün nümunəsidir.
2. Allaha iman yolu elmdir. Həqiqi elm insanı varlıq aləminin həqiqi qaynağı ilə tanış edir.
3. Alimlər mələklərlə yanaşı durur.
4. İlahi ədalət tövhidlə yanaşı bəyan olunur. Özünü rəqibsiz gördükdə zorakılıq edən başqa qüdrətlilərdən fərqli olaraq, bir olan Allah ədaləti bərpa edir.

---
[1] “Mustədrək”, h. 3259.
[2] “Təfsire-Nurus-Səqəleyn”.

19. ﴿إِنَّ الدِّينَ عِندَ اللّهِ الإِسْلاَمُ وَمَا اخْتَلَفَ الَّذِينَ أُوْتُواْ الْكِتَابَ إِلاَّ مِن بَعْدِ مَا
جَاءهُمُ الْعِلْمُ بَغْيًا بَيْنَهُمْ وَمَن يَكْفُرْ بِآيَاتِ اللّهِ فَإِنَّ اللّهِ سَرِيعُ الْحِسَابِ﴾

**“Həqiqətən, Allah yanında (qəbul olunası) din İslamdır. Kitab əhli ixtilaf etmirdi. Bu onlara elm hasil olduqdan sonra baş verdi. (Bu ixtilaf) onların arasındakı həsəd və düşmənçilikdən doğdu. Kim Allahın ayələrinə küfr etsə, (bilsin ki,) həqiqətən, Allah tez hesab çəkəndir.”**

## *Bildirişlər*

1. Allahın birliyinə, ədalətinə, izzətinə və hikmətinə iman insanın Onun hüzurunda təslim olması zəminəsidir.
2. Allah qarşısında təslimçiliyin şərti İslamın son ilahi din kimi qəbul olunmasıdır.
3. Həqiqət dairəsindən çıxmaq ixtilafların yaranmasına səbəb olur.
4. Bir çox məzhəbi ixtilafların qaynağı cəhalət və nadanlıq yox, həsəd və zülmdür.
5. Həsəd küfr zəminəsidir.
6. Kitab və elm təklikdə qurtuluşu təmin etmir.
7. Bilərəkdən ixtilaf törədənlər tezliklə öz paylarını alasıdır.

20. ﴿فَإنْ حَآجُّوكَ فَقُلْ أَسْلَمْتُ وَجْهِيَ لِلّهِ وَمَنِ اتَّبَعَنِ وَقُل لِّلَّذِينَ أُوْتُواْ الْكِتَابَ
وَالأُمِّيِّينَ أَأَسْلَمْتُمْ فَإِنْ أَسْلَمُواْ فَقَدِ اهْتَدَواْ وَّإِن تَوَلَّوْاْ فَإِنَّمَا عَلَيْكَ الْبَلاَغُ وَاللّهُ بَصِيرٌ
بِالْعِبَادِ﴾

**“Əgər səninlə höcətləşməyə başlasalar, onlara de ki, mən və ardıcıllarım Allaha təslim olmuşuq. Kitab əhlinə (yəhudi və məsihilərə) və ümmilərə (savadsız Məkkə müşriklərinə) de ki, siz də Allah qarşısında təslim olmusunuzmu? Əgər təslim olub İslama gəlmişlərsə, həqiqətən, hidayət olmuşlar. Əgər boyun qaçırmışlarsa, (nigaran olma, çünki) sənin vəzifən yalnız ilahi dəvəti çatdırmaqdır. Allah Öz bəndələrinin halını görəndir.”**

## *Nöqtələr*

◘Deyirlər “ürəkdən ki, gəldi söz, oturar könüldə düz.” Bu, ümumi bir qanundur və istisna hallar da var. Çünki peyğəmbər öz sözünü ürəkdən desə də, bu söz kafirlərin qəlbinə yatmırdı. Halbuki həzrət can-dildən buyururdu: “Mən bütün vücudumla Allaha təsliməm.” Amma yenə də bir dəstə ona etiraz edirdi.

Dinin xas mehvəri əvvəlki və hazırkı ayədə bəyan olunduğu kimi, haqqa təslim olmaq mənasında İslamdır.

## *Bildirişlər*

1. Cidal və höcətləşmə peyğəmbər müxaliflərinin xasiyyətlərindəndir.
2. Risalətin bəyanı və sübutu yaxşıdır, amma höcət insanlarla cidal qadağan olunur.
3. Nəticəsiz mübahisələrə son qoyun.
4. Danışıqda özünüzün və yoldaşlarınızın mövqeyini aşkar elan edin.
5. Peyğəmbərin həqiqi ardıcılları Allaha təslim olanlardır.
6. Qərəzli söhbətlər qarşısında insanı hifz edən, Allaha bağlılıqdır.
7. Peyğəmbərlər bütün vücudları ilə, eşq və şadlıqla Allaha könül vermişlər.
8. Rəhbər həm elm əhli, həm də avam camaata qarşı diqqətli olmalıdır.
9. Səmavi kitablar bəşər nəsli üçün dəyərli bir mədəniyyət sənədidir. Ayədə insanlar iki qismə bölünmüşlər: Kitab verilənlər və avamlar.
10. Gerçək hidayət Allah hüzurunda təslimçilik sayəsində mümkündür.
11. İnsan yol seçimində məcbur yox, azaddır.
12. Elm və kitab təklikdə kifayət deyil. Elm olan yerdə təslimçilik olmaya da bilər.
13. Bizə vəzifəni yerinə yetirmək əmr olunub. Nəticəyə isə zamin deyilik.
14. Allah peyğəmbərlər vasitəsi ilə xalqa höccəti tamamlayır, bəhanəyə yer qalmır.

**21.** ﴿ إِنَّ الَّذِينَ يَكْفُرُونَ بِآيَاتِ اللّهِ وَيَقْتُلُونَ النَّبِيِّينَ بِغَيْرِ حَقٍّ وَيَقْتُلُونَ الِّذِينَ
يَأْمُرُونَ بِالْقِسْطِ مِنَ النَّاسِ فَبَشِّرْهُم بِعَذَابٍ أَلِيمٍ ﴾

**“Allahın ayələrini inkar edənləri, peyğəmbərləri nahaqdan öldürənləri və xalqı ədalətə çağıranları öldürənləri dərdli əzabla müjdələ.”**

## *Nöqtələr*

◘“Təfsire-Kəbir”, “Təfsire-Məcməul-bəyan”, “Təfsire-Qurtubidə” oxuyuruq: Bəni-İsrail günün əvvəlində, bir saat ərzində ilahi peyğəmbərlərdən 43-nü və yaxşı işə çağıranlardan 112-ni şəhadətə yetirdi.

Aydın məsələdir ki, İslam peyğəmbərinin dövründə peyğəmbərləri şəhid edənlər yox idi. Amma həmin dövrdə yaşayan bir dəstə insan öz babalarının bu əməllərinə razı olduğundan Allah bu ayədə qəlbən razılıq səbəbindən babalarının günahına şərik olanları “bəşşirhum” xitabı ilə hədələmişdir.

◘**Sual:** Əmr be məruf və nəhy əz münkərin vacib olması şərtlərindən biri bu işdə təhlükə olmamasıdır. Bu ayədə isə nəhy əz münkər yolunda canından keçən haqqında xoş sözlər söylənilmişdir. Bunun səbəbi nədir?

◘**Cavab:** Əvvəla, fərdlərin şəraiti və əmr be mərufla nəhy əz münkər növləri fərqlidir. Bəzən pis iş görən Yezidin hökuməti olur. İmam Hüseyn (ə) bu hökumətin pis işlərinin qarşısını almaq üçün Kərbəlaya gedir və şəhid olur. Həzrət buyurur: «Mənim bu hərəkət və qiyamda məqsədim əmr be məruf və nəhy əz münkərdir.» Bəzən isə vəziyyət başqa cür olur. İnsan aradan qaldırmaq istədiyi

günahın zərəri ilə mal və canının əldən çıxmasını müqayisə etməli, daha əhəmiyyətli saydığı vəzifəyə əməl etməlidir. İkincisi, olsun ki, bu ayədə haqqında xoş söz deyilənlər öz şəhadətlərini əvvəlcədən görməyənlərdir. Onlar öz aqibətlərini öncədən görməsələr də, zalımlar onları şəhadətə çatdırmışlar.

## *Bildirişlər*

1. Azğın və küframiz etiqadlardan peyğəmbərlərin qətlə yetirilməsi kimi təhlükəli əməllər doğur.
2. Bəzən peyğəmbərlər və övliyaların şəhadəti bahasına da olsa, haqqı demək lazım gəlir.
3. Düşmənlər haqqı ört-basdır etmək üçün peyğəmbərləri qətlə yetirirlər.
4. Bəzən zalım hakimlər dəyərli insanları qətlə yetirmək üçün təbliğatlar, şayiələr vasitəsi ilə öz çirkin işlərinə haqq donu geyindirirlər.
5. Ədalətə dəvət edən, yaxşı işləri əmr və pis işləri qadağan edənlərin adı peyğəmbərlərlə bir sırada çəkilir. Ona görə də bu insanları qətlə yetirənlər peyğəmbərləri qətlə yetirənlər kimidir.

**22.** ﴿ أُولَئِكَ الَّذِينَ حَبِطَتْ أَعْمَالُهُمْ فِي الدُّنْيَا وَالآخِرَةِ وَمَا لَهُم مِّن نَّاصِرِينَ ﴾

**“Onlar əməlləri dünya və axirətdə puça çıxmış və heç bir yardımçıları olmayan kəslərdir.”**

## *Bildirişlər*

1. Bəzən bir əməl insanın qalan bütün əməllərini puça çıxarır.
2. Peyğəmbərləri qətlə yetirmək kimi günahlar üçün şəfaət yoxdur.

**23.** ﴿ أَلَمْ تَرَ إِلَى الَّذِينَ أُوْتُواْ نَصِيبًا مِّنَ الْكِتَابِ يُدْعَوْنَ إِلَى كِتَابِ اللّهِ لِيَحْكُمَ بَيْنَهُمْ ثُمَّ يَتَوَلَّى فَرِيقٌ مِّنْهُمْ وَهُم مُّعْرِضُونَ ﴾

**“Səmavi kitabdan bəhrə verilmiş kəsləri görmədinmi ki, aralarında hökm etmək üçün ilahi kitaba dəvət olunduqda onlardan bir dəstəsi (elm və agahlıqla) etiraz edərək üz döndərirlər?”**

## *Nöqtələr*

◘Təfsirdə deyilir ki, bir yəhudi qadınla bir yəhudi kişi ayrı-ayrı nikahda olduqları halda zinaya yol vermişdilər. Tövrat qanunlarına əsasən onlar daşqalaq edilməli idilər. Amma bu adamlar yuxarı təbəqədən olduqları üçün Tövratın göstərişlərini yerinə yetirməmək məqsədləri vardı. Onlar İslam peyğəmbərinin yanına gəldilər ki, həzrət bu məsələ ilə bağlı hökm versin. Həzrət də daşqalaq hökmü verib buyurdu: “İslamın da qanunları Tövratın qanunları kimidir.” Onlar Tövratın hökmlərini inkar etdilər.

Yəhudi alimlərindən olan İbn Sürəyya Fədəkdən Mədinəyə çağırıldı. Ondan Tövrat oxuması tələb edildi. İbn-Sürəyya məsələdən xəbərdar olduğu üçün daşqalaq ayələrinə çatdıqda bu ayələrin görünməməsi üçün əlini onların üstünə qoydu. Həmin vaxt yəhudi alimlərindən olan Abdullah ibn Salam həmin məclisdə idi və əhvalatdan xəbər tutub məsələni aşkarladı.[1]

◘Bu ayə müsəlmanlara bir xəbərdarlıqdır. Onların nəzərinə çatdırılır ki, məbada onlar da yəhudilər tək Quran qanunlarının və ilahi göstərişlərin icrasından boyun qaçırıb, xalq arasında fərq qoyalar.

## *Bildirişlər*

1. Qanun, mühakimə və hökm kitabı səmavi kitabdır.
2. İslam insaf və başqalarına ehtiram dinidir. Başqa din alimlərindən istənilir ki, öz kitabları ilə mühakimə etsinlər.
3. Kitab əhli alimlərinin heç də hamısı pis olmayıb.
4. Üz döndərməkdən də təhlükəlisi höcətkeşlik və inadkarlıqdır.
5. Qanun kimsəyə fərq qoyulmadan eyni şəkildə icra olunmalıdır.

**24.** ﴿ ذَلِكَ بِأَنَّهُمْ قَالُواْ لَن تَمَسَّنَا النَّارُ إِلاَّ أَيَّامًا مَّعْدُودَاتٍ وَغَرَّهُمْ فِي دِينِهِم مَّا كَانُواْ يَفْتَرُونَ ﴾

**“Bunun (asiliklərin) səbəbi o idi ki, kitab əhli deyirdi: Cəhənnəm odu bir neçə gündən çox bizi yandırmaz... Bu iftiraları onları dinlərində aldadılmış etdi.”**

## *Nöqtələr*

◘Quranda yəhudilərin puç şüarları və batil xəyallarına dəfələrlə işarə olunmuşdur. Onlar deyirdilər: “Biz üstün irqik, Allahın əzizləriyik və qiyamətdə babalarımızın buzova pərəstiş etdiyi qırx gündən artıq əzab görmərik.” Bu puç xəyallar onlarda qürur doğurur, onları azğınlığa aparır. Bu günkü israillilər də özlərini üstün irq sayır və bu istiqamətdə heç bir zülmdən çəkinmirlər.

## *Bildirişlər*

1. Dönüklüyün səbəbi xürafi və əsassız əqidələrdir.
2. İnsanın özünü istər din, istər soy baxımından üstün tutması qadağandır.
3. İnsanın özünü cəzadan amanda bilməsi azğınlıq səbəbidir.
4. Yəhudilər qiyamət və cəhənnəmi qəbul edir, öz günahlarını etiraf edirdilər.
5. Allah məhkəməsində bütün xalqlar eynidir.

---

[1] Tövrat, “Sifre-Təsniyə”, b. 22, “Sifre-Laviyan”, b. 20.

25. ﴿ فَكَيْفَ إِذَا جَمَعْنَاهُمْ لِيَوْمٍ لاَّ رَيْبَ فِيهِ وَوُفِّيَتْ كُلُّ نَفْسٍ مَّا كَسَبَتْ وَهُمْ لاَ يُظْلَمُونَ ﴾

**“Biz onları heç bir şəkk-şübhə olmayan gündə bir yerə toplayacağımız vaxt halları necə olacaq? Hər kəsə qazandığı müqabilində mükafat və cəza veriləcək və onlara zülm olunmayacaq.”**

## *Bildirişlər*

1. Qiyaməti yaddan çıxarmayın və xürafatları bir kənara qoyun.
2. Mükafat və cəza arzu və güman əsasında yox, əməl əsasında olur.
3. Heç bir əməl yox olmur və vaxtında sahibinə qaytarılır.
4. İlahi mühakimə ədalət əsasında qurulur və hər kəs öz cəzasını alır.

26. ﴿ قُلِ اللَّهُمَّ مَالِكَ الْمُلْكِ تُؤْتِي الْمُلْكَ مَن تَشَاء وَتَنزِعُ الْمُلْكَ مِمَّن تَشَاء وَتُعِزُّ مَن تَشَاء وَتُذِلُّ مَن تَشَاء بِيَدِكَ الْخَيْرُ إِنَّكَ عَلَىَ كُلِّ شَيْءٍ قَدِيرٌ ﴾

**“De ki, Pərvərdigara, Sən əmr və səltənət sahibisən. İstədiyinə (məsləhət və hikmət əsasında) hakimiyyət verirsən və istədiyindən hakimiyyəti alırsan. İstədiyinə izzət bəxş edir və istədiyini zəlil edirsən. Bütün xeyirlər yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər işə qadirsən.”**

## *Nöqtələr*

◘Təfsirdə oxuyuruq ki, İslam peyğəmbəri Məkkəni fəth etdikdən sonra müsəlmanlara İran və Rumun fəthi vədini verdi. Həmin vaxt münafiqlər təəccüblə bir-birlərinə baxdılar. Bu ayə nazil oldu. Bəzi təfsirçilərin fikrincə, bu ayə məşhur xəndək qazılarkən nazil olmuşdur. O zaman həzrət peyğəmbər külüngü daşa vurarkən qığılcım qalxmışdı. Həzrət buyurmuşdu: “Mən bu qığılcımlarda Cəbraildən Mədain və Yəmən saraylarının fəthi xəbərini aldım.”

◘Ayədə haqqında danışılan izzət və zəlillik bəxş olunması Allahın qanun və sünnələrindəndir. Allah əsassız olaraq kimsəyə izzət bəxş etmir, kimsəni zəlalətə uğratmır. Məsələn, rəvayətdə oxuyuruq: “Hər kəs Allaha xatir təvazö və sadəlik göstərsə, Allah onu əziz edər. Hər kəs təkəbbür göstərsə, Allah onu zəlalətə uğradar.[1]

[1] “Bihar”, c. 16, s. 265.

## *Bildirişlər*

1. Bütün hakimiyyətlərin gerçək maliki Allahdır. Allahdan qeyriləri üçün hakimiyyət müvəqqəti və məhduddur.

2. Əgər malik Odursa, deməк, başqalarına hakimiyyət əmanət olaraq verilir və onlar əsl malikin razılığı əsasında əməl etməlidirlər.

3. Bir halda ki, insan həqiqi mülk sahibi deyil, nə üçün ona verilmiş əmanətlə qürrələnsin və ya əlindən çıxdıqda məyus olsun?!

4. Allah layiq olan kəsə hakimiyyət verir. Necə ki, Süleymana, Yusifə, Taluta, Zülqərneynə hakimiyyət əta etdi.

5. Hökumət və hakimiyyət insanda vurğunluq yaradır. Qoparmaq mənası verən "nəzə" sözü bir növ vurğunluq nişanəsidir.

6. İzzət və zillət Allahın əlindədir. Kimsədən izzət gözləməyin. (Bu məsələyə "Nisa" surəsinin 139-cu ayəsində də işarə olunmuşdur.)

7. Dua və ibadətdə tövhid prinsipini gözləmək bir zərurətdir.

8. Bir şey ki, Ondandır, demək, vermək də, almaq da xeyirlidir. Biz isə tələsik mühakimələrimizdə bunun fəlsəfəsini anlamırıq.

9. Pisliklərin qaynağı acizlik və zəiflikdir. Hər şeyə qadir olan varlıq yalnız xeyir iş görər.

**27.** ﴿ تُولِجُ اللَّيْلَ فِي الْنَّهَارِ وَتُولِجُ النَّهَارَ فِي اللَّيْلِ وَتُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ
وَتُخْرِجُ الَمَيَّتَ مِنَ الْحَيِّ وَتَرْزُقُ مَن تَشَاء بِغَيْرِ حِسَابٍ ﴾

**"(Pərvərdigara,) Sən gecəni gündüzə və gündüzü gecəyə gətirirsən. Diridən ölü, ölüdən diri çıxarırsan. İstədiyinə saysız-hesabsız ruzi verirsən."**

## *Nöqtələr*

◘İnsanda tövhid ruhunu çiçəkləndirmək üçün bu və bundan qabaqkı ayədə Allahın qüdrət nişanələri on iki dəfə yada salınır.

◘Gecənin gündüzə və ya gündüzün gecəyə daxil olunması dedikdə, müxtəlif fəsillərdə gecə və gündüzün uzunluğunun artıb-əskilməsi və ya tədrici qürubla tülu (gün çıxması) nəzərdə tutulur. Əvvəlki məna daha məntiqli görünür.

◘Allahın dirini ölüdən çıxarması qüdrətinin bir nümunəsi cansız qida maddəsindən diri hüceyrələr yaratmasıdır.

◘Bəzən ölü qəlbli kafirlərin mömin övladları, diri qəlbli möminlərin kafir övladları olur. Bu da ayədəki məfhumun nümunələrindən biridir.[1]

◘«Hesabsız ruzi» dedikdə firavan və saysız ruzi nəzərdə tutulur. Ruzinin hesabı Allahın əlindədir. Belə bir məna da nəzərdə tutula bilər ki, Allahın ruzisinin hesabı sizin əlinizdə deyil. Belə ki, bu ruzi güman etmədiyiniz yerdən sizə verilir.

---

[1] "Təfsire-Məcməul-bəyan", c. 2, s.728.

◘Ruziyə münasibətdə insanlar arasındakı fərq ilahi hikmətlərdən biridir. İnsanların bir-birinə möhtac olması ictimai həyatın formalaşması amillərindəndir. Bu yolla insanlarda səxavət, fədakarlıq, səbir, qənaət kimi sifətlər çiçəklənir. Əgər ruzi eyni bölünərdisə, yuxarıda sadalanan sifətlər insanlarda üzə çıxmazdı. Birində hansısa nemət olduqda və bir başqası həmin nemətdən məhrum qaldıqda bu çatışmazlığı aradan qaldırmaq üçün insanlar bir araya gəlir, varlılarda səxavət, kasıblarda qənaət, iffət və səbir kimi sifətlər çiçəklənir.

## *Bildirişlər*

1. Gecə və gündüzün əvəz olunması, fəsillərin yaranması ilahi bərəkət və lütflərdən biridir.
2. Yaranışdan əlavə bütün dəyişiklik və tədbirlər Onun əlindədir.
3. Allahın qüdrəti məhdud deyil. O, ölüdən diri, diridən ölü ərsəyə gətirir.
4. İlahi lütf çeşməsi nəhayətsizdir. Ruzi hesabsızdır, yəni ruzi çeşməsi üçün heç bir məhdudiyyət yoxdur.

**28.** ﴿لاَّ يَتَّخِذِ الْمُؤْمِنُونَ الْكَافِرِينَ أَوْلِيَاء مِن دُوْنِ الْمُؤْمِنِينَ وَمَن يَفْعَلْ ذَلِكَ فَلَيْسَ مِنَ اللّهِ فِي شَيْءٍ إِلاَّ أَن تَتَّقُواْ مِنْهُمْ تُقَاةً وَيُحَذِّرُكُمُ اللّهُ نَفْسَهُ وَإِلَى اللّهِ الْمَصِيرُ﴾

**“İman əhli möminləri qoyub, kafirləri dost tutmamalı və onları rəhbər seçməməlidirlər. Belə edənlərin Allah yanında heç bir dəyərləri yoxdur. Kafirlərdən qorxub təqiyyə edən istisnadır. (Daha mühüm məqsədlər naminə müvəqqəti olaraq onlarla keçinin.) Allah sizə xəbərdarlıq edir. Qayıdış Allaha doğrudur.”**

## *Nöqtələr*

◘Əvvəlki ayələrdə Allahın sonsuz qüdrəti ilə bağlı verilən məlumatları nəzərə aldıqda kafirlərin hakimiyyətinin qəbuluna yer qalmır.

◘Bu ayədə xarici siyasətin siması, kafirlərlə rəftar qaydası, təqiyyə və təqiyyədən sui-istifadənin qarşısının alınması şərtləri bəyan olunmuşdur.

◘Təqiyyə müxaliflərin əzab-əziyyəti qorxusundan həqiqi əqidəni gizlətmək, təhlükədən uzaq olmaq üçün onlarla mübarizəni tərk etməkdir. Təqiyyə bəzən vacib, bəzən isə haram olur. Quranda “Nəhl” surəsinin 106-cı ayəsində təqiyyə haqqında danışılmışdır. Bu ayə Əmmar Yasirin şəninə nazil olmuşdur.

## *Bildirişlər*

1. Möminlərin kafir hakimiyyətini qəbul etməsi qadağandır. (Əgər dünya müsəlmanları yalnız bu ayəyə əməl etsəydilər, indi İslam məmləkətlərinin vəziyyəti başqa cür olardı.)
2. İslam cəmiyyətində müdiriyyət və rəhbərlik üçün iman əsas şərtdir.
3. Siyasi əlaqələr kafirlərin hakimiyyətinin qəbuluna və onlara qəlbən bağlılığa səbəb olmamalıdır.

4. Hər hansı rabitə və ya rabitənin qırılması düşüncə və əqidə əsasında olmalıdır. Ailə, tayfa və irqi bağlılıqlar rabitə üçün əsas ola bilməz.

5. Hər kəs kafirlərin ardınca getsə, Allah onu özbaşına buraxar və Öz qeybi yardımlarından məhrum edər.

6. Bəzən uca məqsədlərə çatmaq naminə kafirlərlə zahiri əlaqələr qurmaq olar.

7. Təqiyyə dinin hifzi üçündür. Təqiyyə bəhanəsi ilə məbada kafirlərə meyl edəsiniz və təqiyyə adından sui-istifadə olunsun.

8. Din təhlükədə olduğu hallarda hər şey fəda olunmalıdır və Allahdan qeyrisindən qorxmaq olmaz.

9. Məadı xatırlamaq təqvanın ən üstün amilidir.

10. Dünyanın bir neçə günlük ləzzəti və rifahından ötrü məbada kafirlərin hakimiyyətini qəbul edəsiniz. Hamının qayıdışı Allaha doğrudur.

**29.** ﴿ قُلْ إِن تُخْفُواْ مَا فِي صُدُورِكُمْ أَوْ تُبْدُوهُ يَعْلَمْهُ اللّهُ وَيَعْلَمُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ﴾

**"De ki, köksünüzdə olanı gizlətsəniz də, aşkara çıxarsanız da, Allah onu bilir. Allah göylərdə və yerdə olanlardan xəbərdardır. Allah hər şeyə qadirdir."**

## *Nöqtələr*

¤Təqiyyə ayəsinin ardınca bu ayənin gəlməsi belə bir nöqtəyə işarə ola bilər ki, məbada, təqiyyə adı ilə kafirlərlə məxfi əlaqə bərqərar edəsiniz. Bilməlisiniz ki, Allah sizin bütün düşüncə və niyyətlərinizdən agahdır.

## *Bildirişlər*

1. Təqiyyə adı altında kafirlərlə əlaqə saxlayanlara xəbərdarlıq edin.

2. İnsanın köksü sirlər sandığıdır.

3. Allahın elmi aşkar və ya gizli, yer və ya göy üçün eynidir.

4. Allahın elminə diqqət, dini vicdanın oyanması səbəbi, günah və günaha don geyindirməyin maneəsidir.

5. Göylərin bütün sirlərindən agah olan Allahdan nə gizlətmək olar?!

6. Allahın mütləq qüdrəti Onun müxalifləri hədələməsinin dayağıdır.

**30.** ﴿يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَّا عَمِلَتْ مِنْ خَيْرٍ مُّحْضَرًا وَمَا عَمِلَتْ مِن سُوَءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَهَا وَبَيْنَهُ أَمَدًا بَعِيدًا وَيُحَذِّرُكُمُ اللّهُ نَفْسَهُ وَاللّهُ رَؤُوفُ بِالْعِبَادِ﴾

**"Elə bir gün ki, hər kəs etdiyi yaxşı işləri hazır görəcək və etdiyi pis işlərlə öz arasında uzaq məsafə olmasını arzulayacaq. Allah sizi (əmri ilə müxalifətçilikdən) çəkindirir. Allah bəndələrlə mehribandır."**

## *Nöqtələr*

◘Əvvəlki ayədə Allahın elm və qüdrətindən danışıldı. Bu ayə isə həmin elm və qüdrətin nümunəsini bəyan edir. Hazırkı ayə "Kəhf" surəsinin 49-cu ayəsinə oxşayır. Həmin ayədə buyurulur: ◘"Qiyamət günü bütün xalq öz əməllərini qarşısında hazır görər". "Təfsire-Bürhan"da nəql olunur ki, imam Səccad (ə) hər cümə günü peyğəmbər məscidində moizə zamanı xalq üçün bu ayəni tilavət edərdi.

## *Bildirişlər*

1. İnsanın əməlləri yox olub getmir. Həmin əməllər qiyamət günü insanın qarşısında hazır olur.
2. Qiyamətdə əməllərin hüzuruna olan etiqad insanı günahdan çəkindirir.
3. Günahkarlar qiyamət günü öz əməllərindən xəcalət çəkirlər. Amma bunun nə faydası?
4. Dünya həyatında insanın həvəs göstərdiyi bir çox əməllər qiyamətdə onun nifrətinə tuş gələr.
5. Qiyamət günü peşmançılığın faydası yoxdur və arzular həyata keçmir. Ayədəki "ləv" sözü mümkünsüz arzular haqqında işlədilmişdir.
6. Allah qorxusu günaha mane olur.
7. İlahi xəbərdarlıqların qaynağı Allahın məhəbbət və mərhəmətidir.
8. Qorxu və ümid birlikdə tərbiyəvi rola malikdir. Ümid təklikdə qürur doğurur. Qorxu isə təklikdə insanda tənhalıq hissini alovlandırır.
9. Allahın lütf və mərhəməti Onun bütün bəndələrinə aiddir.

**31.** ﴿ قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ ﴾

**"(Ey peyğəmbər,) de ki, əgər Allahı sevirsinizsə, mənə itaət edin, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayan və mehribandır."**

## *Nöqtələr*

◘Peyğəmbərin məqamı və ona itaətin zəruriliyi haqqında Quranda oxuyuruq: "Hər kəs peyğəmbərə itaət etsə, Allaha itaət etmişdir." ("Nisa", 80) Digər bir ayədə buyurulur: "Ona beyət, Allaha beyətdir." ("Fəth", 10)

◘Bir şəxs imam Sadiqə (ə) ərz etdi: "Canım sənə fəda olsun, biz övladlarımıza sizin və ata-babalarınızın adını qoyuruq. Bunun bizim üçün bir faydası varmı?" Həzrət buyurdu: "Məgər din məhəbbət deyilmi?!" Sonra imam Allahın bir buyruğunu dəlil gətirmişdir.[1]

1. Hər bir iddia əməl vasitəsi ilə sübuta yetir.
2. Allahın övliyalarına itaət Allaha iman şərtidir.

---
[1] bax: "Təfsire-Əyyaşi", c. 1, s. 167.

3. Əməldə süst olan insanın əslində məhəbbət sütunları süstdür.
4. Cəmiyyətin islahında mərhəmət hisslərindən faydalanaq.
5. Həzrət peyğəmbərin əməli, sözü və sükutu höccətdir və itaət ediləsidir.
6. Peyğəmbər məsumdur. Qeyri-məsuma nə üçün-niyəsiz itaət əsassızdır.
7. Allah sevgisinə ehtiyac duyursunuzsa, Onun rəsulunun sünnətinə əməl etməlisiniz.
8. İnsan elə bir məqama çata bilər ki, onun razılığı Allahın razılığı olsun, ona itaət Allaha itaət olsun.
9. İlahi dinin bəşər qanunlarından üstünlüyü ondakı məhəbbət ünsürləri, əməl nümunələri və qanunçuluq səlahiyyətidir.
10. Ən üstün mükafat mənəvi mükafatdır. Möminlər üçün ən üstün mükafat Allahın sevgisi və Onun mərhəmətinə layiq olmaqdır.
11. Pisliklərin üzərinə pərdə çəkib, mərhəmətlə rəftar etmək dostluq nişanəsidir.
12. Yaxşı işlər günahların bağışlanması səbəbidir.
13. Peyğəmbərə itaət ilahi əfvə çatmaq səbəbidir.

**32.** ﴿ قُلْ أَطِيعُواْ اللّهَ وَالرَّسُولَ فإِن تَوَلَّوْاْ فَإِنَّ اللّهَ لاَ يُحِبُّ الْكَافِرِينَ ﴾

**“De ki, Allaha və Onun rəsuluna itaət edin. Əgər boyun qaçırsanız, bilin ki, həqiqətən, Allah kafirləri sevmir.”**

## *Nöqtələr*

◘Həzrət Peyğəmbərin (s) ilahi ayələrindən əlavə, hökumət göstərişləri vardı. Bu göstərişlər zamandan, məkandan, fərdlərdən və şəraitdən asılı olaraq dəyişirdi. Əlbəttə ki, bu qanunlar da ilahi vəhyə əsaslanırdı. Allaha itaət əmri ilə yanaşı Onun rəsuluna itaət əmri Quranda bəyan olunmamış qanunlara əməl edilməsini zərurətə çevirirdi.

## *Bildirişlər*

1. Peyğəmbərin rəftarı, sözləri və əməlləri bir dəlildir. Çünki peyğəmbərə itaət Allaha itaətlə yanaşıdır.
2. Allah qarşısında məhbubluq və ya mənfurluq öz əlimizdədir.
3. Peyğəmbərin göstərişlərindən boyun qaçırmaq küfrə bərabərdir.

**33.** ﴿ إِنَّ اللّهَ اصْطَفَى آدَمَ وَنُوحًا وَآلَ إِبْرَاهِيمَ وَآلَ عِمْرَانَ عَلَى الْعَالَمِينَ ﴾

**“Doğrudan da, Allah Adəmi, Nuhu, İbrahim ailəsini, İmran ailəsini dünya əhli üçün seçdi.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə peyğəmbərə itaət göstərişi verildi. Bu ayədə əvvəlki göstərişin dəlili olaraq bildirilir ki, Allahın seçimi insanların kamal baxımından bir-birindən üstün olmasına əsaslanır.

◘Peyğəmbərlərin seçilməsi vəhy, elm, iman və ismət yolu ilə gerçəkləşir.[1]

◘İmam Baqir (ə) hazırkı ayə haqqında buyurmuşdur: "Biz həmin seçilmişlərdən və həmin ailədən qalanlarıq."[2]

## *Bildirişlər*

1. Bütün insanlar eyni səviyyədə olmur. Allah bəzi insanları ağır risalət yükü ilə vəzifələndirmək üçün üstün edir.
2. Bəşər nəslinin ilk övladı Allahın peyğəmbəri olmuşdur ki, insanlar heç vaxt hidayətsiz qalmasınlar.
3. Bəşər tarixi boyu peyğəmbərlik cərəyanı davam etmişdir.
4. Bəzi peyğəmbərlərin risaləti bütün dünyanı əhatə etmişdir.

**34.** ﴿ ذُرِّيَّةً بَعْضُهَا مِن بَعْضٍ وَاللّهُ سَمِيعٌ عَلِيمٌ ﴾

**"Övladlardan bəziləri bəzi digərlərindəndir. (Onlar seçilmiş ataların olub, paklıqda bir-birinin oxşarıdırlar.) Allah eşidən və biləndir."**

## *Bildirişlər*

1. Tarix boyu peyğəmbərlər pak nəsillərdən olmuşlar.
2. Bəzi xüsusiyyətlər və kamilliklər irsi yolla ötürülmüşdür.
3. Allah hətta üstün etdiklərinin də danışıq və əməllərinə nəzarət edir.

**35.** ﴿ إِذْ قَالَتِ امْرَأَةُ عِمْرَانَ رَبِّ إِنِّي نَذَرْتُ لَكَ مَا فِي بَطْنِي مُحَرَّرًا فَتَقَبَّلْ مِنِّي إِنَّكَ أَنتَ السَّمِيعُ الْعَلِيمُ ﴾

**"(Xatırla,) o zaman ki, İmranın zövcəsi dedi: "Pərvərdigara! Həqiqətən, mən nəzir etmişəm ki, bətnimdə olanı dünyaya Sənin üçün gətirəm. (Bütün vaxtını Sənə sərf etməsi üçün ona heç bir iş tapşırmayam.) Məndən qəbul et. Həqiqətən, Sən eşidən və bilənsən."**

## *Nöqtələr*

◘Təfsir və rəvayət kitablarında nəql olunur: Hənnə və Əşya adlı iki bacının birincisi Bəni-İsrailin böyük şəxsiyyətlərindən olan İmranın, ikincisi isə Zəkəriyya peyğəmbərin zövcəsi idi. Onların övladları olmurdu. Bir gün Hənnə bir

---

[1] "Kafi", c. 8, s. 117.

[2] "Təfsire-Əyyaşi", c. 1, s. 168.

ağacın kölgəsində oturduğu vaxt sərçənin öz balasına yem verdiyini görür. Bu səhnə onda övlad eşqini alovlandırır. Dua edir və duası qəbul olur. Digər bir tərəfdən onun ərinə ilham olur ki, övladı Allahın övliyalarından olacaq, xəstələrə şəfa verəcək, ölüləri dirildəcək.

Hənnə hamilə olduğu vaxt ehtimal edirdi ki, gələcəkdə qeyri-adi işlər görəcək bu övlad oğlan olacaq. Ona görə də nəzir edir ki, övladını Beytül-Müqəddəsdə xidmətçi qoysun. Amma onun dünyaya gətirdiyi övlad oğlan yox, qız olur. Onlar anlayırlar ki, ilahi ilham Məryəm yox, onun övladı haqqında olmuşdur.[1]

## *Bildirişlər*

1. Qadın o qədər inkişaf edə bilər ki, uzun illər intizardan sonra dünyaya gətirdiyi övladını Allah evinə xidmətçiliyə nəzir edər.
2. Uzaqgörən insanlar övladları dünyaya gəlməmiş onların həyat yolu haqqında düşünürlər.
3. Özümüzdən keçək və yalnız Allah yolunda sərf edək.
4. Məsciddə xidmət o qədər dəyərlidir ki, Allahın övliyaları öz əzizlərini dünyaya gəlməmiş bu yolda nəzir etmişlər.
5. Nəzir mövzusunun İlahi dinlərdə uzun bir tarixi var.
6. Ana övladı üzərində bir növ vilayətə, hakimiyyətə malikdir.
7. Övladdan keçmək və Allahın seçimi arasında rabitə var.
8. Dini xidmətdə o insanlar müvəffəq olurlar ki, vaxtlarının bir hissəsini yox, bütün varlıqlarını dinə xidmətə sərf etsinlər.
9. Övladın anaya xidməti ananın təbii haqqıdır və bağışlana bilər.
10. Əgər ən əziz və sevimli şeyləri verirsinizsə, onları qəbul etmək fikrində də olun.

**36.** ﴿فَلَمَّا وَضَعَتْهَا قَالَتْ رَبِّ إِنِّي وَضَعْتُهَا أُنثَى وَاللّهُ أَعْلَمُ بِمَا وَضَعَتْ وَلَيْسَ
الذَّكَرُ كَالأُنثَى وَإِنِّي سَمَّيْتُهَا مَرْيَمَ وِإِنِّي أُعِيذُهَا بِكَ وَذُرِّيَّتَهَا مِنَ الشَّيْطَانِ الرَّجِيمِ﴾

**“Dünyaya övlad gətirdiyi vaxt dedi: “Pərvərdigara! Mən qız doğdum. Halbuki Allah onun dünyaya gətirəcəyini daha yaxşı bilir. Oğlan qız kimi deyil. Mən onun adını Məryəm qoydum. Onu və onun övladını qovulmuş şeytanın şərindən Sənin pənahına verirəm.”**

## *Nöqtələr*

◘Ana övladının oğlan olacağını gözləyirdi. İstəyirdi ki, onu Beytül-Müqəddəsdə xidmətçi qoysun. Amma övladı qız olduqda həsrət çəkərək dedi: Pərvərdigara! Mən qız doğdum, belə isə, nəzrimə necə əməl edim?... Amma Allah bu anaya təsəlli verərək buyurdu: «Sənin gözlədiyin oğlan yaxşılıqda bu qız kimi

[1] “Kafi”, c. 1, s. 535.

deyil. Çünki bu qızın kamillikləri var və o, böyük bərəkətlər sahibi olacaq oğlanın anasıdır. Beləcə, mübarək nəsildən sənin bəhrən neçə qat olacaq...»

◘“Məryəm” sözü “abidə”, “xadimə” deməkdir. Bu ad Quranda 34 dəfə zikr olunmuşdur.

## *Bildirişlər*

1. İnsanın istəkləri yox, Allahın istəyi mühümdür.
2. Bəzən qız övlad paklıqda elə bir məqama çatır ki, oğlan övlad heç vaxt həmin məqama çata bilmir.
3. Həzrət Məryəmin çox üstün məqamı var. Ayədəki “əl unsa” sözü xüsusi məqama malik olan qadına işarədir.
4. Övladlarınız üçün yaxşı ad seçin.
5. Ana öz övladına ad qoymaq haqqına malikdir.
6. Cüzi dəyişikliklər sizi Allahdan və ali hədəflərdən uzaqlaşdırmasın. Övlad gözlənildiyinin əksinə qız olsa da, yenə də onun adı xadimə mənası daşıyan Məryəm qoyuldu.
7. Hər şeydən öncə övladınızın şeytanın şərindən amanda qalması fikrində olun.
8. Yalnız öz övladlarınızı nəzərdə tutmayın. Uzaqgörənliklə gələcək nəsilləriniz haqqında da düşünün.
9. Övladınızın xoşbəxtliyinin təmini üçün yalnız öz tərbiyənizlə kifayətlənməyib, onu Allaha tapşırın. Bizim imkanlarımız məhduddur və çaşmaq ehtimalımız çoxdur.
10. Məryəmin anasının xüsusi məqamı var. Onun üstünlüyü etdiyi nəzirdən, ixlasından, qoyduğu addan və seçdiyi sığınacaqdan məlum olur.
11. Şeytan bəşəriyyətin qədim düşmənidir.

37. ﴿فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَّلَهَا زَكَرِيَّا كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِندَهَا رِزْقاً قَالَ يَا مَرْيَمُ أَنَّى لَكِ هَذَا قَالَتْ هُوَ مِنْ عِندِ اللّهِ إنَّ اللّهَ يَرْزُقُ مَن يَشَاء بِغَيْرِ حِسَابٍ﴾

**“Rəbbi onu yaxşı şəkildə qəbul etdi və yaxşı yolla cücərtdi. Ona himayədarlığı Zəkəriyyaya tapşırdı. Nə vaxt Zəkəriyya ibadət mehrabında Məryəmin yanına gəlirdisə, onun yanında (heyrət doğuran) ruzi görürdü. Soruşurdu: “Ey Məryəm, bu haradandır?!” Məryəm onun cavabında deyirdi: “O, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kəsə saysız ruzi verər.”**

## *Nöqtələr*

◘Allah yolunda qədəm götürənin dünya ehtiyacları da təmin olunar. Məryəmin anası öz övladını Allah yolunda nəzir etdi. Allah bu ayədə buyurur: Həm onun

cismini inkişaf etdirdik, həm Zəkəriyya kimi qəyyum qərar verdik, həm də səmadan süfrə (maidə) nazil etdik...

◘Hesabsız ruzi hesab-kitabın olmaması demək deyil. Nəzərdə tutulan şey ümumi hesabın olmamasıdır.

◘Həzrət Məryəm zahiri və cismi baxımdan kamil və yaxşı inkişaf etmişdi.

◘Məryəm kimi anadan, Məscid kimi tərbiyə yerindən, Zəkəriyya kimi qəyyumdan, behişt ruzilərindən İsa kimi övlad ərsəyə gəlir. Tərbiyədə aşağıdakı təsirli amillər var: ananın pak ruhu, sağlam cisim, ilahi təlim-tərbiyə, pak qidalanma.

◘Tarixi mənbələrdə nəql olunur: Mədinəni qıtlıq bürüdüyü vaxt həzrət Fatimə (s) bir qədər çörək və ət götürüb həzrət Peyğəmbərin (s) yanına gəldi. Həzrət soruşdu: “Qəhətlik dövründə bu qidalar haradandır?” Həzrət Fatimə (s) buyurdu: “Allah tərəfindən.” Həzrət Peyğəmbər buyurdu: “Allaha şükür olsun ki, səni Məryəm kimi qərar verdi.” Sonra Peyğəmbər (s) həzrət Əli (ə), imam Həsən (ə) və imam Hüseyni (ə) çağırdı. Birlikdə həmin qidalardan yedilər və qonşulara da verdilər.[1]

## *Bildirişlər*

1. Duanın qəbulu ilahi rübubiyyət cilvələrindəndir.
2. Allahın qəbul etməsinin də dərəcələri var. Allah Məryəmin anasının nəzrini ən üstün şəkildə qəbul etdi.
3. Allah ixlaslı insanın işini yaxşı şəkildə qəbul edir.
4. Məryəmin anası nəzir etdi ki, övladını Allah evinə xidmətçi qoysun. Allah bunun cavabında Öz peyğəmbərini bu uşağa himayətçi təyin etdi.
5. Peyğəmbərlərin himayəsinə düşən insanlar şeytandan uzaq olar.
6. İbadət mövsümi və müvəqqəti olmamalıdır.
7. Nəzarət və araşdırma himayədarlıq şərtidir.
8. İbadət şeytanla savaş, ibadət yeri (mehrab) isə savaş meydanıdır.
9. Pak ruzi ibadət sayəsində ələ gəlir.
10. Qadın elə bir məqama çata bilər ki, Allahın peyğəmbərini heyrətə gətirər.
11. İlahi övliyalardan kəramət görünməsi çətin bir iş deyil.
12. Əlinizə gələn nemətləri öz çalışmalarınızın nəticəsi yox, Allahın ətası bilin.
13. Allah maddi səbəblərsiz də ruzi verə bilər.
14. Sağlam şərait və mühitdə qadın və kişi söhbət edə bilər.

**38.** ﴿ هُنَالِكَ دَعَا زَكَرِيَّا رَبَّهُ قَالَ رَبِّ هَبْ لِي مِن لَّدُنْكَ ذُرِّيَّةً طَيِّبَةً إِنَّكَ سَمِيعُ الدُّعَاء ﴾

**“Bu məqamda (bütün bu kəramətləri və səma süfrəsini gördükdə) Zəkəriyya öz Rəbbini çağırdı və dedi: «Pərvərdigara! Öz tərəfindən mənə pak və bəyənilmiş bir nəsil əta et. Həqiqətən, Sən duaları eşidənsən.»”**

[1] “Təfsire-ruhul-bəyan”, c. 2, s. 29.

## *Nöqtələr*

◘Əvvəlcə qeyd olunduğu kimi, Məryəmin anası Zəkəriyyanın zövcəsi ilə bacı idi və hər iki qadın sonsuzdu. Məryəmin anası quşun öz balasına dən verdiyini görüb pərişan oldu və Allahdan ona övlad əta etməsini istədi. Məryəmin məqam və mərtəbəsini görən Zəkəriyya da Allahdan övlad dilədi.

## *Bildirişlər*

1. Duanın qəbul olunmasında insanın halı və dua vaxtı təsirlidir.
2. Qibtə etmək kamal, həsəd isə nöqsandır. Zəkəriyya Məryəmin məqamını görüb heyrətə gəldi, qibtə etdi və dua üçün əlini açdı.
3. Qadın Allahın peyğəmbərini heyrətə sala bilər.
4. Başqalarının kamilliyinin müşahidəsi kamillik istəyi yaradır və insanın diqqətini Allaha yönəldir.
5. Pak övlad və nəsil istəyi peyğəmbərlərin qaydasıdır.
6. Nəsil və övladların dəyəri onların paklığından aslıdır.
7. Duada Allah böyük tutulmalıdır.

**39.** ﴿ فَنَادَتْهُ الْمَلآئِكَةُ وَهُوَ قَائِمٌ يُصَلِّي فِي الْمِحْرَابِ أَنَّ اللّهَ يُبَشِّرُكَ بِيَحْيَـى
مُصَدِّقًا بِكَلِمَةٍ مِّنَ اللّهِ وَسَيِّدًا وَحَصُورًا وَنَبِيًّا مِّنَ الصَّالِحِينَ ﴾

**“Zəkəriyya mehrabda namaza durduğu vaxt mələklər ona nida etdilər ki, Allah səni ilahi kəlməni (İsanı) təsdiq edən, seyyid, nəfsini qoruyan, salehlər arasından peyğəmbər olacaq Yəhya ilə müjdələyir.”**

## *Nöqtələr*

◘Tarixi mənbələrdə göstərilir ki, həzrət Yəhya həzrət İsadan altı ay tez dünyaya gəlmişdir. Xalq arasında öz təqvası ilə seçilən Yəhyanın öz xalası oğlu İsaya olan inamı xalqın İsaya diqqətinə dərin təsir qoymuşdur. Maraqlıdır ki, həm “İsa”, həm də “Yəhya” sözləri “diri qalmaq” mənasındadır.

◘Bəziləri “həsur” sözünün Yəhyanın tez-tez səfərdə olması ilə bağlı izdivacı tərk etməsinə işarə olduğunu bildirmişlər. İmam Baqir (ə) isə belə buyurmuşdur: “Yəhyanın izdivac etməməsinin, qadınlardan uzaq olmasının səbəbi onun iffəti olmuşdur.”[1]

## *Bildirişlər*

1. Ürəkdən gələn xalis dua qəbul olur.
2. Əvvəlki dinlərdə də namaz olmuşdur.
3. Məscidin mehrabı xüsusi müqəddəsliyə malikdir. Mehrab səmavi süfrənin nazil olduğu, duaların qəbul edildiyi yerdir.

---

[1] “Təfsire-Məcməul-bəyan”.

4. Namaz mələklərin nüzul zəminəsidir.

5. Allahın iradəsi hər şeyə qalibdir. Atanın qocalığı və ananın sonsuzluğu onların dünyaya övlad gətirməsinə mane olmur.

6. Bəzən insanlara Allah tərəfindən ad qoyulur.

7. Övlad ilahi nemətlərdən və müjdələrdəndir.

8. Peyğəmbərlər bir-birlərini təsdiq edirlər.

9. Həzrət İsa Allahın övladı yox, Allahın qüdrət nişanələrindəndir.

10. Allah bütün insanların gələcəyindən xəbərdardır.

11. Cinsi təmayüllərin cilovlanması və iffət Allahın bəyəndiyi xüsusiyyətlərdəndir.

**40.** ﴿ قَالَ رَبِّ أَنَّى يَكُونُ لِي غُلاَمٌ وَقَدْ بَلَغَنِيَ الْكِبَرُ وَامْرَأَتِي عَاقِرٌ قَالَ كَذَلِكَ اللّهُ يَفْعَلُ مَا يَشَاء ﴾

**“(Zəkəriyya) dedi: Pərvərdigara! Qocalığa çatdığım, zövcəmin doğma yaşı keçdiyi halda mənim oğlum ola bilərmi?! Buyurdu: “Allah istədiyini bu sayaq yerinə yetirər.”**

## *Bildirişlər*

1. Ümidsizlik zamanı da bir çox ümid var.

2. Zəifliklərdən danışarkən özümüzdən başlayaq.

3. Allahın istəyi təbii vasitələrin fövqündədir.

**41.** ﴿ قَالَ رَبِّ اجْعَل لِّيَ آيَةً قَالَ آيَتُكَ أَلاَّ تُكَلِّمَ النَّاسَ ثَلاَثَةَ أَيَّامٍ إِلاَّ رَمْزًا وَاذْكُر رَّبَّكَ كَثِيرًا وَسَبِّحْ بِالْعَشِيِّ وَالإِبْكَارِ ﴾

**“Zəkəriyya dedi: Pərvərdigara! Mənim üçün bir əlamət qərar ver. (Məndə əminlik yaransın.) Buyurdu: Üç gün xalqla danışmamaq, yalnız işarə ilə əlaqə saxlamaq sənin üçün nişanə oldu. Rəbbin çox yad et, gecə və gündüz Ona təsbih de.”**

## *Bildirişlər*

1. Xalqla ünsiyyətdə ikən insanın dilini bağlaya bilən, ilahi zikr üçün açan Allah qoca ata-anadan dünyaya övlad gətirə bilər.

2. Peyğəmbərlər yəqin və şühud məqamına çatmaq axtarışındadırlar.

3. Allah istədiyi vaxt işin səbəbini aradan götürür və dil danışmaq gücünü itirir.

4. Allahın lütfü artdıqca Onun zikri də artmalıdır.

5. Allah zikri nə qədər çox olsa, bir o qədər yaxşıdır.

6. İlahi zikrlər arasında “təsbihin” xüsusi yeri var.

42. ﴿ وَإِذْ قَالَتِ الْمَلاَئِكَةُ يَا مَرْيَمُ إِنَّ اللّهَ اصْطَفَاكِ وَطَهَّرَكِ وَاصْطَفَاكِ عَلَى نِسَاء الْعَالَمِينَ ﴾

**"(Yada sal,) o zaman ki, mələklər dedi: "Ey Məryəm! Həqiqətən, Allah səni seçmiş, paklamış və dünya qadınlarından üstün etmişdir."**

## Nöqtələr

◘"İstəfa" sözü "əla" şəkilçisi ilə işləndikdə «irəli olmaq», həmin şəkilçisiz isə «seçim» mənasını verir.

"Əl-Mənar", "Qurtubi", "Məraği", "Ruhul-bəyan", "Kəbir" təfsirlərində oxuyuruq ki, dünya qadınlarının önündə dörd qadın durur: Məryəm, Asya, Xədicə və Fatimə (s). Əhli-beyt rəvayətlərində də qeyd olunur ki, Məryəm öz dövrünün ən üstün qadını olmuşdur. Həzrət Fatimə (s) isə tarixin birinci xanımıdır.[1] Əlbəttə, hikmət sahibi olan Allah istənilən bir şəxsi ləyaqətinə, xüsusi qabiliyyətlərinə görə seçir.

## Bildirişlər

1. Mələklər peyğəmbər olmayanlarla da danışır.
2. Qadın ilahi rəhbər məqamına çata bilər və Allah ona bildiriş göndərər.
3. Həzrət Məryəm həm kamilliyinə görə seçilmişdi, həm də digər qadınlardan üstün idi. Ona görə də öncüllük mənası bildirən "istəfaki" sözü iki dəfə təkrarlanmışdır.
4. Həzrət Məryəm məsum olmuşdur.
5. Həzrət Məryəm qadınlar üçün nümunədir.

43. ﴿ يَا مَرْيَمُ اقْنُتِي لِرَبِّكِ وَاسْجُدِي وَارْكَعِي مَعَ الرَّاكِعِينَ ﴾

**"Ey Məryəm! (Bütün bu nemətlərin şükrü üçün) rəbbinə müti ol, səcdə qıl və rükuya gedənlərlə birlikdə rükuya get."**

## Nöqtələr

◘Əvvəlki ayədə Allah-təala Məryəmə verilmiş üç kamalı yad edir: İlahi seçim, İlahi paklama, başqalarından öndə olmaq. Eləcə də, həzrət Məryəmin üç məsuliyyəti bəyan olunur: qünut, səcdə, rüku. Deməkk, hər bir nemətin öz məsuliyyəti var.

## Bildirişlər

1. Seçilmiş və üstün fərdlərin təvazö və ibadətləri çox olmalıdır. (Allahın övliyalarına xüsusi ibadətlər tapşırılmışdır. Necə ki, həzrət Peyğəmbər (s) üçün gecə namazı vacib olmuşdu.)

---

[1] "Təfsire-Nurus-Səqəleyn".

2. Namaz, rüku və səcdə ən üstün şükür yoludur. Əvvəlki ayədə Allahın şükrə layiq seçiminə işarə olundu.

3. İbadət yalnız Allah üçün olmalıdır.

4. İbadət insanın tərbiyə mayasıdır.

5. Cəmiyyət namazı və kollektiv ibadətlər İslamdan qabaq da olmuşdur.

6. Qadınlara kişilərin də iştirak etdiyi ibadi və ictimai toplantılarda olmaq tapşırılmışdır. Bu şərtlə ki, Məryəm kimi rəftar etsinlər.

7. Seçilmişlər xalqın və cəmiyyətin içində olmalıdırlar. Onlar tənhalığa çəkilib guşənişin ola bilməzlər.

44. ﴿ ذَلِكَ مِنْ أَنبَاءِ الْغَيْبِ نُوحِيهِ إِلَيكَ وَمَا كُنتَ لَدَيْهِمْ إِذْ يُلْقُون أَقْلاَمَهُمْ أَيُّهُمْ
يَكْفُلُ مَرْيَمَ وَمَا كُنتَ لَدَيْهِمْ إِذْ يَخْتَصِمُونَ ﴾

**“Bunlar sənə vəhy ilə çatdırdığımız qeybi xəbərlərdəndir. Onlar Məryəmi himayəyə götürmək üçün (püşk olaraq) qələmlərini suya atdıqda sən onların yanında deyildin. (Bu hamilik üstə) mübahisə etdikləri vaxt sən onların yanında yox idin.”**

## *Nöqtələr*

◘Qeyd olunduğu kimi, Məryəm dünyaya gəlməmiş anası onu Beytül-Müqəddəsə xidmətçi verəcəyini nəzir etmişdi. Ona görə də övladını dünyaya gətirdikdən sonra onu bir parçaya büküb məscidə apardı və Bəni-İsrail başçılarına dedi: “Bu uşaq məscidə nəzir olunub.” Bu qadın möhtərəm bir ailədən olduğu üçün uşağa himayədarlıq üstündə mübahisə başlandı və iş püşk atmağa gedib çıxdı.

## *Bildirişlər*

1. Peyğəmbərlər Allah tərəfindən bəzi qeybi xəbərlərdən agah olurlar.

2. Quran hekayələri yalnız vəhy vasitəsi ilə peyğəmbərə çatırdı. Ondan qabaq bu mövzu nə bir kitabda vardı, nə də kimsə bundan xəbərdar idi.

3. Keçmişdəkilərin tarixini öyrənmə yollarından biri vəhydir.

4. İxtilafların həll yollarından biri də püşk atılmasıdır. İmam Baqir (ə) buyurmuşdur: “İlk dəfə haqqında püşk atılan kəs Məryəm olmuşdur. Bu püşk onun yetimliyi dövrünə təsadüf etmişdir.[1]

5. Ananın bir fədakarlığı və övlad üçün bir bu qədər kəramət!

6. Böyüklər müqəddəs məsuliyyətlərin qəbulunda bir-birləri ilə rəqabət aparırlar.

---

[1] “Mən la yəhzurul-fəqih”, c. 3, səh. 51; “Bihar” , c. 14, səh. 192.

45. ﴿ إِذْ قَالَتِ الْمَلآئِكَةُ يَا مَرْيَمُ إِنَّ اللّهَ يُبَشِّرُكِ بِكَلِمَةٍ مِّنْهُ اسْمُهُ الْمَسِيحُ عِيسَى ابْنُ مَرْيَمَ وَجِيهًا فِي الدُّنْيَا وَالآخِرَةِ وَمِنَ الْمُقَرَّبِينَ ﴾

**"(Xatırla,) o zaman ki, mələklər dedilər: Ey Məryəm! Həqiqətən, Allah Məsih - Məryəm oğlu İsa adlı kəlmə və nişanə ilə sənə müjdə verir. O kəs ki, dünya və axirətdə möhtərəmdir və (Allaha) yaxınlardandır."**

## *Nöqtələr*

◘Quranda həzrət İsa "kəlmə" sözü ilə yad edilir. Quran dilində bu söz "məxluq" mənasını verir. Necə ki, "Kəhf" surəsinin 109-cu ayəsində buyurulur: "Əgər ilahi kəlmələri yazmaq üçün dəryalar mürəkkəb olsa, onlar tükənər, amma ilahi kəlmələr tükənməz."

◘"Dünya və axirətdə hörmətli" vəsfi Quranda yalnız həzrət İsa haqqında işlədilmişdir. Bu sifət digər heç bir kəsə aid edilməmişdir.

## *Bildirişlər*

1. Qadının məqamı elə bir dərəcəyə çata bilər ki, Allah mələklər vasitəsi ilə onunla danışar.
2. Övlad bir nemətdir.
3. İsa Allahın oğlu yox, Onun məxluqudur. Amma o, yetərincə böyük və tanınmamış bir məxluqdur.
4. Allah Öz övliyalarına onlar dünyaya gəlməmiş ad qoyur.
5. Məryəmin doğduğu və bətnində bir dövr yaşamış varlıq Allahın övladı ola bilərmi?!
6. Dünyəvi ehtiram da bir dəyərdir və onu əldə etməyin eybi yoxdur.

46. ﴿ وَيُكَلِّمُ النَّاسَ فِي الْمَهْدِ وَكَهْلاً وَمِنَ الصَّالِحِينَ ﴾

**"(Sənə müjdə verilən körpə) beşikdə və orta yaşlarında (vəhy vasitəsi ilə) xalqla danışar. O salehlərdəndir."**

## *Nöqtələr*

◘Bu körpənin beşikdə danışması həm gələcək haqqında verilən xəbər, həm də həzrət İsanın möcüzəsidir. Böyüdüyü vaxt danışması digər bir qeybi xəbərdir. Qabaqcadan bildirilir ki, o yaşlaşanadək sağ qalacaq. Onun ləyaqət və möhtərəmliyi haqqında verilən xəbərlər də öncədən verilən bir xəbər və müjdədir.

## *Bildirişlər*

1. Məryəmə zövcəsi olmadan övlad verə bilən kəs həmin övladın beşikdə də dilini aça bilər.
2. Allah paklığı çirkin böhtanlardan qorumaq istədiyi vaxt körpənin də dilini açar.

3. İlahi bildirişi bir insan uşaq yaşında da başqalarına çatdıra bilər. (İmam Cavad (ə), imam Hadi (ə), imam Məhdi (ə) uşaq yaşlarında imamət məqamına çatmışlar.)

4. Allah istəyəndə körpə də böyük kimi danışır.

5. Məryəm kimi saleh bir qadından İsa kimi övlad dünyaya gəlir.

**47.** ﴿ قَالَتْ رَبِّ أَنَّى يَكُونُ لِي وَلَدٌ وَلَمْ يَمْسَسْنِي بَشَرٌ قَالَ كَذَلِكِ اللّهُ يَخْلُقُ مَا يَشَاء إِذَا قَضَى أَمْرًا فَإِنَّمَا يَقُولُ لَهُ كُن فَيَكُونُ ﴾

**"(Məryəm) dedi: Pərvərdigara! Mənimlə heç bir insan təmasda olmadığı halda necə övladım ola bilər?" Allah buyurdu: "Allah belədir, O, istədiyini yaradır. Bir iş görmək istədikdə yalnız ona "ol" deyir, o da (həmin an) mövcud olur."**

## *Nöqtələr*

◘Mövcudların yaradılış səbəbi Allahın iradəsidir. Allah heç bir maddi vasitə olmadan da yarada bilir. O, səbəbləri yarada da bilər, onları aradan götürə də bilər. Bəzən Allah bir şeyin təsirini ondan alır. Bəzən isə bir şeyə başqa bir təsir verir. Yaranış, davam və təsirlər Allahın iradəsinə bağlıdır.

◘Allah Zəkəriyyanın cavabında "istədiyini edər" buyururdusa, Məryəmin cavabında "istədiyini yaradır" buyurur. Bəlkə də sirri budur ki, zövcəsiz qadının övladı olması qoca kişinin övladı olmasından daha heyrətamizdir.

## *Bildirişlər*

1. Kökü inkar və inadkarlıq olmayan sual və təəccübün eybi yoxdur. Allahın övliyaları da Allahın iradəsinin təbii vasitələrlə həyata keçdiyinə inanırlar. Ona görə də təbii vasitələrsiz bir iş baş verdikdə bunun necə baş verməsini Allahdan soruşurlar.

2. Allahın qeyri-təbii yolla gördüyü işlər yeni bir şey deyil. Təbii amillərin özü də, hələ ki, sonadək tanınmamışdır.

3. Yaranış üçün Allahın qüdrəti sonsuzdur. İstər təbii vasitələrlə, istər qeyri-təbii şəkildə yaratmaq Allah üçün eynidir.

4. Yaranışın şərti Allahın qəti iradə və istəyidir.

**48.** ﴿ وَيُعَلِّمُهُ الْكِتَابَ وَالْحِكْمَةَ وَالتَّوْرَاةَ وَالإِنجِيلَ ﴾

**"Allah ona Kitab, hikmət, Tövrat və İncili öyrətdi."**

## *Nöqtələr*

◘Şiə və sünni təfsirlərində oxuyuruq ki, «Kitab təlimi» dedikdə yazı qaydalarının öyrədilməsi nəzərdə tutulur. «Hikmət» dedikdə mövcudların istər

dünya, istər axirətə aid təsirləri, xeyir və zərəri, hərəkətlər, əxlaq və əqidə başa düşülür.

## *Bildirişlər*

1. İlahi rəhbərliyin üsul və şərtlərindən biri zəruri agahlıqlara malik olmaqdır. Bu agahlıq elmə, hikmətə və səmavi kitablara əsaslanan agahlıqdır.

2. Hər dövrün rəhbəri keçmişin hadisə və qanunlarından da xəbərdar olmalıdır. Allah İsaya Musanın Tövratını öyrətdi.

49. ﴿وَرَسُولاً إِلَى بَنِي إِسْرَائِيلَ أَنِّي قَدْ جِئْتُكُم بِآيَةٍ مِّن رَّبِّكُمْ أَنِّي أَخْلُقُ لَكُم مِّنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِإِذْنِ اللّهِ وَأُبْرِىءُ الأكْمَهَ والأَبْرَصَ وَأُحْيِي الْمَوْتَى بِإِذْنِ اللّهِ وَأُنَبِّئُكُم بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ إِنَّ فِي ذَلِكَ لآيَةً لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ﴾

**“Bəni-İsrailə bir peyğəmbər (İsanı) göndərdi ki, desin: Həqiqətən, mən Allahınız tərəfindən sizin üçün nişanə gətirmişəm. Mən sizin üçün gildən quş şəklində (bir şey) düzəldərəm. Onu üfürərəm, o da Allahın iradə və izni ilə bir quş olar. Eləcə də, Allahın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanları sağaldaram. Ölüləri dirildərəm, yediklərinizi və evdə topladıqlarınız haqqında sizə xəbər verərəm. Həqiqətən, əgər iman gətirmiş olsanız, bu möcüzələrdə sizin üçün nişanə və ibrət var.”**

## *Nöqtələr*

◘Təhlükə qorxusu olduqda işə daha çox diqqət yetirilməlidir. Ölülərin dirildilməsində, korlara və sair xəstələrə şəfa verilməsində əqidə çaşqınlığı qorxusu var. Ona görə də bu ayədə iki dəfə, “Maidə” surəsinin 110-cu ayəsində dörd dəfə Allahın izni xatırladılmışdır.

◘İsanın ilahi lütf və qəhrlə müşayiət olunan risaləti Bəni-İsrailə məxsusdur. Amma onun təbliğ və irşad məsələləri ilə bağlı nübüvvəti bütün insanlar üçündür. Necə ki, həzrət Musaya xitab olunur: “Fironun yanına get, həqiqətən, o azğınlaşıb.”[1] Amma şəhər sehrbazları həzrət Musanın möcüzələrini görüb ona iman gətirirlər. Göründüyü kimi, həzrət Musanın Fironla bağlı xüsusi, xalqla bağlı ümumi vəzifəsi var.[2]

◘Hər bir peyğəmbərin möcüzəsi olmalıdır və həmin möcüzə dövrün şərait və düşüncəsinə uyğun gəlməlidir. İmam Riza (ə) buyurmuşdur: “İsa zühur etdiyi dövrdə xəstəliklər baş alıb gedirdi və xalq təbibə xüsusi ehtiyac duyurdu!”[3] Bu səbəbdən həzrət İsanın möcüzələri xəstələrin şəfası ilə bağlı idi.

---

[1] “Taha”, 24.
[2] “Təfsire-Əl-mizan”.
[3] “Uyune-əxbarrir-Riza”, c. 2, səh. 80.

◘Əgər ilahi rəhbər gildən quş düzəldirsə, qiyamət günü ilahi qüdrətlə ölülərin dirildilməsi çətin iş sayılmamalıdır.

## *Bildirişlər*

1. Möcüzə Allahın rübubiyyət cilvələrindən olub, bəşəriyyətin hidayət və tərbiyəsinə xidmət edir.
2. Allahın övliyaları Onun izni ilə yaranış nizamına təsir göstərə bilir.
3. Peyğəmbərlər qeyb elminə malikdirlər və xalqın xırda işlərindən də xəbərdardırlar. İmam Sadiq (ə) buyurur ki, «həzrət İsa yeddi yaşında olarkən xalqın evində olanlar haqqında məlumat verirdi.[1]»

**50.** ﴾ وَمُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَلِأُحِلَّ لَكُم بَعْضَ الَّذِي حُرِّمَ عَلَيْكُمْ وَجِئْتُكُم بِآيَةٍ مِّن رَّبِّكُمْ فَاتَّقُواْ اللّهَ وَأَطِيعُونِ ﴿

**"(İsa buyurdu:) Mən özümdən qabaq gəlmiş Tövratı təsdiq edənəm. (Gəlmişəm ki,) sizin üçün haram olmuş bəzi şeyləri halal edəm, Rəbbiniz tərəfindən sizə bir nişanə gətirəm. Allahdan çəkinin və mənə itaət edin."**

## *Nöqtələr*

◘Bu ayədə ötən qanunlara ehtiram, vəzifələrin yüngülləşdirilməsi ilə bağlı müjdə, ilahi təqva və rəhbərə itaət mövzuları bəyan olunmuşdur.

◘"Ənam" surəsinin 146-cı ayəsində Allah-təala buyurur: "Zülmlərinə görə yəhudiləri tənbeh edib, bütün dırnaqlı heyvanları onlara haram qıldıq. Eləcə də, inək və qoyunun piy və yağını - onların bel, bağırsaq və sümüklərinə yapışan bir hissəsi istisna olmaqla - yəhudilərə haram buyurduq..." Bəlkə də bu ayədə İsa tərəfindən halal edilənlər də həmin haramlardandır.

◘Harada islah və irşad məqsədi olsa, bəzi nöqtələr nəzərdə saxlanmalıdır: başqalarının müştərək və düzgün üsulları qəbul olunmalıdır: hətta hansısa həddə onların müqəddəsliklərinə də ehtiram göstərilməlidir; açıq fəza və azadlıqlarla müjdə verilməlidir; ilahi qanunlar çərçivəsində hərəkət edilməlidir.

## *Bildirişlər*

1. Peyğəmbərlər bir-birlərini qəbul və təsdiq edirlər.
2. Din bir qığılcım yox, cərəyandır və bütün peyğəmbərlərin vahid hədəfi olmuşdur.
3. Məhrumiyyətlərin aradan qaldırılması, düzgün və düşüncəli azadlıqların verilməsi xalqın istiqbal rəmzidir.
4. Əvvəlki dinlərdə bəzən Allah müvəqqəti cərimə olaraq məhdudiyyətlər qoymuşdur.

---

[1] "Bihar" , c. 14, səh. 251.

5. Peyğəmbərlər təkvini vilayətə malik olduqları kimi, varlıq aləmində də təsir gücünə sahibdirlər. Onlar həm də təşrii vilayət sahibidirlər və qanun tənzimləyirlər.

6. Qanunu yalnız Allahın rəsulu və möcüzələrə malik şəxs dəyişə bilər.

7. Möcüzə Allahın rübubiyyət şənidir və xalqın hidayəti, tərbiyəsi üçündür.

8. Təəssüb və höcətkeşlik səbəbindən dəyişiklikləri qəbul etməyənin təqvası yoxdur.

9. Peyğəmbərə itaət təqva şərtidir.

**51.** ﴿ إِنَّ اللّهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ ﴾

**"Həqiqətən, Allah həm mənim Rəbbim, həm də sizin Rəbbinizdir. Ona pərəstiş edin, bu, doğru yoldur."**

## *Nöqtələr*

◘Hazırda İsanı Allahın oğlu kimi tanıtdıran incillərin ziddinə olaraq, Quran "mənim Rəbbim və sizin Rəbbiniz" ifadəsini həzrət İsanın dilindən nəql edir və bununla da yanlış təfəkkürlərin və həzrət İsa haqqında yersiz iddiaların qarşısını alır. Çünki Allah həm İsanın, həm də başqalarının Rəbbidir.

◘Bir halda ki, hansısa yolu getməliyik, Allahın və Ona bəndəliyin doğru və azğınlıqdan uzaq yolunu qəbul edək. Çünki digər yollarda büdrəmələr, məhdudiyyətlər və zalım hakimlərin nəfs istəyinə tabeçilik var.

## *Bildirişlər*

1. Bizim ibadətimizin fəlsəfəsi Allahın rübubiyyətidir.
2. İsa məxluq olmaqda və tərbiyəyə tabeçilikdə başqaları kimidir.
3. Allaha ibadət və bəndəlik həqiqi səadət yoludur.

**52.** ﴿ فَلَمَّا أَحَسَّ عِيسَى مِنْهُمُ الْكُفْرَ قَالَ مَنْ أَنصَارِي إِلَى اللّهِ قَالَ الْحَوَارِيُّونَ نَحْنُ أَنصَارُ اللّهِ آمَنَّا بِاللّهِ وَاشْهَدْ بِأَنَّا مُسْلِمُونَ ﴾

**"İsa onlardan (Bəni-İsraildən) küfr hiss etdiyi üçün dedi: "Allaha doğru (hərəkətdə) mənim köməkçilərim kimlərdir?" Həvarilər (həzrət İsanın xüsusi şagirdləri) dedilər: "Bizik Allahın (dininin) köməkçiləri, Allaha iman gətirmişik və sən (ey İsa!) şahid ol ki, biz təslimik.**

## *Nöqtələr*

◘Bəni-İsrail həzrət İsanın ölüləri diriltdiyini, korlara şəfa verdiyini görsə də, yenə inadkarlıq edib küfr danışdı. İmam Sadiqin (ə) buyuruğuna görə, həzrət İsa onların küframiz sözlərini eşidirdi.[1]

---

[1] "Bihar" , c. 14, səh. 373.

◘“Həvari” sözünün cəm forması olan “həvariyyun” (“həvarilər”) “yolu dəyişən” mənasını bildirir. Həvarilər xalqı azğınlıq yolundan ayırıb, doğru yola yönəlirdilər.[1] Onlar on iki nəfər idilər. Onların adı Mətta və Luqa İncillərində bəyan olunmuşdur. İmam Riza (ə) buyurur: “Bu insanlar həm özlərini pak və nurani etmişdilər, həm də başqalarını pak etmək üçün çalışırdılar.”[2]

◘“Kafi” kitabında İmam Sadiqin (ə) belə buyurduğu nəql olunmuşdur: “İsanın həvariləri əməl mərhələsində onu yalnız qoydular. Bizim həvarilər isə can bahasına müxtəlif bəlalardan keçirlər.”[3]

## *Bildirişlər*

1. Xalqın düşüncə və əqidəsini tanımaqda ayıq-sayıq olmaq rəhbərliyin şərtidir.
2. İsanın nəfəsi ölünü dirildir, anadangəlmə kora şəfa verirdi. Bununla belə, inadkar insanlar ibrət götürmürdülər.
3. Peyğəmbərlər inadkar kafirlərlə üzbəüz dayanmışdılar və yardımçıları az idi.
4. Təqvasızlıq və rəhbərə itaətsizlik küfrün bir növüdür.
5. Rəhbər və onun hərəkatının davamı üçün vəfalı qüvvələri tanımaq, onların nizama salınması və haqq cəbhənin batildən seçilməsi zəruridir.
6. Rəhbərlə beyətin (ona itaəti bildirməyin) təzələnməsi siyasi, ictimai və dini əhəmiyyətə malikdir.
7. Peyğəmbərlər xalqa öz mənafeləri üçün yox, Allaha görə üz tuturlar.
8. İlahi çağırışçılara yardım Allaha yardımdır.
9. Dini rəhbərin himayəsində öncüllük dəyərə malikdir. Həzrət İsanın tərəfdarları olsa da, Allah bu tərəfdarlar arasından həvarilər haqqında xoş söz söyləmişdir. Bunun səbəbi onların öncüllüyü və sabitqədəmliyidir.
10. Allah qarşısında təslimçilik məqamı Ona iman mərhələsindən sonra gəlir.
11. Peyğəmbərlər qiyamətdə şahid olacaqlar.

**53.** ﴿ رَبَّنَا آمَنَّا بِمَا أَنزَلْتَ وَاتَّبَعْنَا الرَّسُولَ فَاكْتُبْنَا مَعَ الشَّاهِدِينَ ﴾

**“Pərvərdigara! Nazil etdiyinə iman gətirmişik və peyğəmbərə itaət edirik. Bizi şahidlər zümrəsində yaz.”**

## *Nöqtələr*

◘Ərəbcə “minəş-şahidin” sözündə yox, “məəş-şahidin” sözündə «himayə» mənası var. Əvvəlki ayədə həzrət İsa şahid kimi tanıtdırıldı. Demək, şahidlərlə olmaq, peyğəmbərlərlə olmaqdır.

---
[1] Ət-təhqiq fi kəlimatil-Quran.
[2] “Təfsire-nümunə”.
[3] “Kafi”, c. 8, səh. 268.

## *Bildirişlər*

1. Peyğəmbərə itaət iman şərtidir.
2. Bütün ilahi göstərişlərə iman lazımdır.
3. Allahdan diləyək ki, imanımızı sabit qərar verib, bizi peyğəmbər himayəçilərindən buyursun.

54. ﴿ وَمَكَرُواْ وَمَكَرَ اللّهُ وَاللّهُ خَيْرُ الْمَاكِرِينَ ﴾

**“(İsanın düşmənləri) öz tədbirlərini (onu qətlə yetirmək üçün) işə saldılar. Allah da öz tədbirini işə saldı. Allah ən yaxşı tədbir görəndir.”**

## *Nöqtələr*

◘İmam Riza (ə) buyurmuşdur: “Allahın məkri” dedikdə məkr və hiylənin cəzası nəzərdə tutulur. Allah məkr əhli deyil ki, bu ifadə başqa şəkildə təbir olunsun.[1]

◘Ayədə ilahi sünnələrdən birinə işarə olunsa da, əvvəlki ayəyə əsasən, həzrət İsa Bəni-İsrailin küfrünü hiss etdi. İsanın göyə aparılmasını bildirən növbəti ayəyə görə, burada məkr» dedikdə həzrət İsanın qətlə yetirilmə qurğusu nəzərdə tutulur. Həzrət İsanın zamanında bir dəstə kafir onu qətlə yetirmək fikrinə düşdü, hətta onun həbsinə kömək edən şəxs üçün mükafat da təyin etmişdilər. Bütün bunlar həzrət İsanın edamı və dara çəkilməsi üçün idi. Amma Allah onların planını pozdu və İsaya ən üstün şəkildə nicat verdi”.

## *Bildirişlər*

1. Allah öz övliyalarının dayağıdır.
2. İnsanın tədbir və hərəkəti ya qəzəb, ya da lütf səbəbidir.
3. İlahi cəza insanın günahına mütənasib olur.
4. Allahın iradə və tədbiri bütün səy və təlaşların fövqündədir.

55. ﴿إِذْ قَالَ اللّهُ يَا عِيسَى إِنِّي مُتَوَفِّيكَ وَرَافِعُكَ إِلَيَّ وَمُطَهِّرُكَ مِنَ الَّذِينَ كَفَرُواْ وَجَاعِلُ الَّذِينَ اتَّبَعُوكَ فَوْقَ الَّذِينَ كَفَرُواْ إِلَى يَوْمِ الْقِيَامَةِ ثُمَّ إِلَيَّ مَرْجِعُكُمْ فَأَحْكُمُ بَيْنَكُمْ فِيمَا كُنتُمْ فِيهِ تَخْتَلِفُونَ﴾

**“(Xatırla,) o zaman ki, Allah buyurdu: “Ey İsa! Mən səni (yerdən) götürüb Özümə doğru qaldıraram və səni kafir olanlardan pak edərəm. Qiyamət gününədək sənin ardıcıllarını kafirlərdən üstün edərəm. Sonra qayıdışınız Mənə doğrudur. İxtilafda olduğunuz məsələlərdə aranızda hakimlik edəcəyəm.”**

[1] “Uyune-əxbarir-Riza”, c. 1, səh. 126.

## *Nöqtələr*

◘Kafirlərin məkri qarşısında Allahın tədbiri bu ayədə bəyan olunmuşdur.

◘İmam Baqir (ə) buyurmuşdur: “ Həzrət İsanın meracı mübarək ramazan ayının iyirmi birinci gecəsi baş verdi.[1]

## *Bildirişlər*

1. Başqa peyğəmbərlər üçün də merac olmuşdur.
2. Kafirlərin yəhudilərə qələbəsi barədə qeybi xəbər Quranın möcüzələrindəndir.
3. Məsihilərin yəhudilərə qələbəsi barədə qeybi xəbər Quranın möcüzələrindəndir.
4. Peyğəmbərlərin ardıcılı olmaq qələbə rəmzidir.
5. İslamın bütün dünyaya ünvanlanması İslamın pənahındakı məzhəbi azlıqların vücudu ilə zidd deyil. “Qiyamət gününədək” təbirindən aydın olur ki, yəhudi və məsihilər qiyamət gününə qədər mövcud olasıdırlar.
6. Hamının qayıdışı Allaha doğrudur və O, sorğu-sualsız hakimdir.

**56.** ﴿ فَأَمَّا الَّذِينَ كَفَرُواْ فَأُعَذِّبُهُمْ عَذَابًا شَدِيدًا فِي الدُّنْيَا وَالآخِرَةِ وَمَا لَهُم مِّن نَّاصِرِينَ ﴾

**“Kafir olan dəstələri dünya və axirətdə ağır əzaba düçar edərəm və onlara heç bir yardımçı olmaz.”**

**57.** ﴿ وَأَمَّا الَّذِينَ آمَنُوا وَعَمِلُواْ الصَّالِحَاتِ فَيُوَفِّيهِمْ أُجُورَهُمْ وَاللّهُ لاَ يُحِبُّ الظَّالِمِينَ ﴾

**“Amma iman gətirib, saleh iş görənlərin mükafatını kamil şəkildə verəcəyəm. Allah zalımları sevməz.”**

## *Nöqtələr*

◘“Ətyəbul-bəyan” təfsirində Bəni-İsrailin dünya əzabı haqqında deyilir: Həzrət İsadan otuz yeddi il sonra rum qeysərlərindən olan Teytus adlı bir şəxs yəhudilərə qalib gəldi. Milyonlarla yəhudi öldürüldü, minlərlə əsir götürüldü. Onun göstərişi ilə yəhudilərin mal-mülkü yandırıldı, qarət edildi, əsirlər isə yırtıcı heyvanlara atıldı.

[1] “Təfsire-Nurus-səqəleyn”.

Kafirləri hədələməklə yanaşı, iman əhlini təşviq etmək lazımdır. Çünki imanla birlikdə saleh işlərin yerinə yetirilməsi də zəruridir.

## *Bildirişlər*

1. Kafirlərin hesabı Allahın öhdəsinədir.
2. Höccət daha çox tamamlandıqca, haqqın dəlilləri daha çox bəyan edildikcə Allahın inkar edənlərə qarşı qəhr və qəzəbi də çox olacaq. İsanın ölünü diriltdiyini görmüş iman gətirməyənlər hər cür əzaba layiqdirlər.
3. Bəzən Allah bu dünyada da cəza verir.
4. Allahın qəhr və qəzəbi qarşısında heç bir güc dayana bilməz.

**58.** ﴿ ذَلِكَ نَتْلُوهُ عَلَيْكَ مِنَ الآيَاتِ وَالذِّكْرِ الْحَكِيمِ ﴾

**“(Ey peyğəmbər,) sənin üçün oxuduqlarımız hikmətli ayələr və nəsihətlərdir.”**

## *Bildirişlər*

Düzgün və qəti rəhbərlik üçün ilahi nişanələr, möhkəm və dəlil-sübutlu bəyan lazımdır.

**59.** ﴿ إِنَّ مَثَلَ عِيسَى عِندَ اللّهِ كَمَثَلِ آدَمَ خَلَقَهُ مِن تُرَابٍ ثِمَّ قَالَ لَهُ كُن فَيَكُونُ ﴾

**“Həqiqətən, Allah üçün İsanın (yaranış) tərzi Adəmin (yaranış) tərzi kimidir. Allah onu torpaqdan yaratdı və sonra buyurdu: “Ol!” O da mövcud oldu.”**

## *Nöqtələr*

◘Məsihilərdən bir dəstəsi Mədinəyə gəlib peyğəmbərin hüzuruna yetişdilər. Onlar peyğəmbərlə söhbətdə İsanın dünyaya atasız gəlməsini onun ilahilik nişanəsi kimi təqdim etdilər. Bu ayə nazil oldu və məsihilərə belə cavab verildi: «Əgər atasız anadan olma Allahlıq və ya Allahın övladı olmağa dəlildirsə, bu işdə Adəm İsadan da qabaqda gəlir. Çünki onun nə atası, nə də anası olmuşdur. Bəs nə üçün Adəmi Allah və ya Allahın övladı saymırsınız?!»

## *Bildirişlər*

1. Müxalifləri qəbul etdikləri yolla haqqa çağıraq. Məsihilər qəbul edirdilər ki, Adəm Allahın məxluqudur. Halbuki Adəmin ata-anası yoxdur.
2. Tarixə, keçmişin tərcüməsinə istinad, eləcə də, qeybi nümunələrin bəyanı ən yaxşı dəvət yoludur.
3. Yaranış aləmində Allahın qüdrəti qeyri-məhduddur.

**60.** ﴿ الْحَقُّ مِن رَّبِّكَ فَلاَ تَكُن مِّن الْمُمْتَرِينَ ﴾

**“Həqiqət sənin Rəbbin tərəfindən olandır. Belə isə, şübhə edənlərdən olma.”**

## *Nöqtələr*

◘“Mumtərin” sözü “miryə” sözündən olub, şəkk-şübhə deməkdir. Bu ayə eynən “Bəqərə” surəsində də (ayə 147) buyurulmuşdur. Ayədən aydın olur ki, yalnız haqq və sabit olan Allah tərəfindən deyilən söz haqq və möhkəmdir, nəfs istəkləri tufanında daim dəyişən insanlardan isə möhkəm qanun və söz gözləmək olmaz.

## *Bildirişlər*

1. Haqqın bəyanı rübubiyyət və tərbiyə rəmzidir.
2. Sabitlik və həqiqət yalnız Allahın yolunda, Allahın kəlamında və Allahın qanunundadır.
3. Müxaliflərin çoxluğu, səyləri, sərvət və təbliğatları əqidəmizə təsir göstərməməlidir.

61. ﴿فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ نَدْعُ أَبْنَاءنَا وَأَبْنَاءكُمْ وَنِسَاءنَا وَنِسَاءكُمْ وَأَنفُسَنَا وأَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَةُ اللّهِ عَلَى الْكَاذِبِينَ﴾

**“Sənə yetişmiş elm və bilikdən sonra səninlə onun (İsanın) haqqında höcətləşənlərə de ki, gəlin oğlanlarınızı və oğlanlarımız, qadınlarımız və qadınlarınızı, özümüzü və özünüzü çağırın, sonra “mübahilə” edib Allahın lənətini yalançılara qərar verək.”**

## *Nöqtələr*

◘“Nəbtəhil” sözü “ibtihal” sözündən olub dua üçün əlləri səmaya açmaq mənasını bildirir. Bu səbəbdən də mübahilə ayəsi kimi tanınmışdır. Mübahilə iki müxalif qrupun Allah dərgahına üz tutub yalançı hesab etdiyi qarşı tərəfə lənət istəməsidir.[1]

Şiə və sünni təfsirlərində, eləcə də, bəzi hədis və tarix kitablarında oxuyuruq ki, hicri 10-cu ildə bir qrup şəxs həzrət Peyğəmbər (s) tərəfindən Yəmənin Nəcran məntəqəsində İslamı təbliğ etmək əmri aldı. Bu vaxt Nəcran məsihiləri də İslam peyğəmbəri ilə söhbət üçün Mədinəyə heyət göndərdilər. Həzrət peyğəmbərlə yetərincə söhbət etmələrinə baxmayaraq, yenə bəhanə gətirib, İslamın haqq olmasını təsdiqləmədilər. Ayə nazil oldu və Peyğəmbərə (s) buyuruldu: «Səninlə höcətləşənlərə, haqqı qəbul etmək istəməyənlərə de ki, övladlarımız, qadınlarımız və özümüz Allahı çağıraq və yalançıya lənət istəyək. Kim Allahın lənətinə gəlsə,

[1] “Ət-təhqiq fi kəlimatil-Quran”

onun da yolunun batilliyi məlum olsun. Bu yolla söz-söhbətə, mübahisələrə son qoyaq...»

Həzrət Peyğəmbərin (s) mübahilə təklifini eşidən Nəcran məsihiləri bir-birlərinə baxıb səslərini çıxarmadılar. Sonra möhlət istədilər ki, bu barədə düşünsünlür. Məsihilərin başçısı onlara dedi: «Siz təklifi qəbul edin. Əgər görsəniz ki, peyğəmbər səs-küy və böyük bir cəmiyyətlə gəlir, nigaran olmayın və əmin olun ki, qorxu yoxdur. Yox əgər meydana az sayda adamla gəlsə, mübahilə məsələsindən çəkinin və onunla sülhə gəlin.

Təyin olunmuş mübahilə günü məsihilər İslam peyğəmbərinin iki körpə, bir gənc və bir qadınla gəldiyini gördülər. Bu iki körpə Həsən (ə) və Hüseyn (ə), gənc isə Əli ibn Əbi Talib (ə) idi. Həzrətin yanındakı qadın onun qızı həzrət Fatimə (s) idi. Məsihi keşişi dedi: «Mən elə çöhrələr görürəm ki, dağın öz yerindən oynamasını Allahdan istəsələr, bu iş olar. Əgər onlar nifrin etsələr, yer üzündə bircə nəfər də olsun, məsihi qalmaz...» Ona görə də mübahilədən imtina edib məsləhətləşmək qərarına gəldilər. Həzrət Peyğəmbər (s) buyurdu: «And olsun haqq olaraq məni peyğəmbər seçənə, əgər mübahilə baş tutsaydı, həmin vadi onları alova bürüyərdi.[1]» Bu macəra təkcə şiə mənbələrində yox, həm də mötəbər sünni mənbələrində nəql olunmuşdur.[2]

◘Mübahilə günü zilhiccə ayının 24 və ya 25-ci gününə təsadüf edir. Peyğəmbər dövründə Mədinə kənarında olan mübahilə məhəlli hazırda şəhərin daxilindədir. Həmin yerdə Məscidül-İcabə adlı bir məscid tikilmişdir. Bu məscidlə peyğəmbər məscidi arasında təqribən iki kilometr məsafə var.

◘“Əl-mizan” təfsirində nəql olunmuş rəvayətə əsasən, Peyğəmbər (s) yalnız məsihiləri yox, həm də yəhudiləri mübahiləyə dəvət etmişdi.

Mübahilə təkcə peyğəmbər dövrünə aid deyil. Bəzi rəvayətlərə əsasən, başqa möminlər də mübahilə edə bilərlər. İmam Sadiq (ə) bu barədə göstərişlər vermişdir.[3]

◘**Sual:** Bu hadisədə yalnız həzrət Fatimə (s) iştirak etdiyi halda, nə üçün «qadınlar» sözü Quranda cəm formada işlədilmişdir?

**Cavab:** Quranda bir çox hallarda Allah bir nəfəri cəm formada yad edir. Məsələn “Ali-İmran” surəsinin 181-ci ayəsində nəql olunur ki, bir şəxs Allahı kiçiltmək məqsədi ilə dedi: “Allah fəqirdir”, amma ayənin ərəbi mətnində bu cümlə cəm formada işlədilmişdir. Quranın digər bir ayəsində həzrət İbrahim haqqında buyurulur: “İbrahim bir ümmətdir”, halbuki İbrahim tək bir şəxs idi.

◘Peyğəmbər (s) mübahilə günü qarşı tərəfə nifrin üçün tək də gedə bilərdi. Amma Allah və Onun rəsulu bu işlə bizə anladır ki, bu şəxslər haqqa dəvətdə Allah rəsulunun yardımçıları və şərikləridirlər. Onlar təhlükəni peyğəmbərlə birlikdə qarşılayır və onun hərəkətini davam etdirirlər.

---

[1] “Təfsire-Məcməül-bəyan” ; “Mənaqibe-ibn Məğazi”, səh. 263.

[2] “İbn Əsir, “Əl-kamil”, c. 2, səh. 293; “Müstədrəke-Hakim, c. 3, səh. 150, Əhməd Hənbəl, “Məsnəd”, c. 1, səh. 185...

[3] “Təfsire-Nurus-səqəleyn”, c. 1, səh. 351; “Üsuli-kafi”, c. 2, mübahilə babı.

## *Bildirişlər*

1. Əgər insan öz məqsədinə imanlı olsa, özünü və yaxınlarını bu yolda təhlükəyə salar.

2. Dua möminin kəsərli silahıdır.

3. İnsan üçün oğul və qız övladları da onun öz övladı kimidir. Bu səbəbdən imam Həsən (ə) və imam Hüseyn (ə) peyğəmbər övladı sayılırlar.

4. Müxtəlif dini səhnələrdə kişi ilə qadın çiyin-çiyinə dayanır.

5. Duada dua edənlərin sayı yox, onların halı mühümdür. Mübahilə edənlər cəmi beş nəfər idilər.

6. Əli ibn Əbu-Talib (ə) Allah rəsulunun canıdır.

7. Dua məclislərinə körpələri də özümüzlə aparaq.

8. Peyğəmbər Əhli-beytinin (ə) duaları qəbuldur.

9. Adi güclər işə salındıqdan sonra qeybdən yardım istənilir.

10. Məntiq və möcüzə qarşısında haqqı qəbul etməyənlərlə mübahilə edilməlidir.

11. Əgər möminlər möhkəm dayansalar, düşmən haqsız olduğu üçün geri oturasıdır.

12. Dəlilə dəlillə cavab verilməlidir. Amma höcətkeşlik aradan qaldırılmalıdır.

**62.** ﴿ إِنَّ هَذَا لَهُوَ الْقَصَصُ الْحَقُّ وَمَا مِنْ إِلَهٍ إِلاَّ اللّهُ وَإِنَّ اللّهَ لَهُوَ الْعَزِيزُ الْحَكِيمُ ﴾

**“Həqiqətən, haqq hekayə budur. Allahdan savay məbud yoxdur və şübhəsiz ki, Allah qüvvət və hikmət sahibidir.”**

**63.** ﴿ فَإِن تَوَلَّوْاْ فَإِنَّ اللّهَ عَلِيمٌ بِالْمُفْسِدِينَ ﴾

**“Əgər haqdan üz döndərdilər, həqiqətən, Allah fəsad əhlindən xəbərdardır.”**

## *Nöqtələr*

◘Dildən-dilə gəzən dastanlar üç növdür:

1.Təxəyyül məhsulu olan qeyri-həqiqi romanlar, əfsanələr və əsatirlər.

2. Bəzən həqiqi, bəzən isə yalan qatılmış tarixi əhvalatlar.

3. Vəhy dili ilə bizə çatmış, haqqa əsaslanan hadisələr. Qurandakı bütün əhvalatlar bu qəbildəndir. Bu dastanlarda təxəyyül, yalan və yanlışlığa yer yoxdur.

## *Bildirişlər*

1. Əgər Quran olmasaydı, həzrət İsanın çöhrəsi xurafat qarışıqlarından təmizlənməzdi.

2. Tövhid şüarının təkrarı və xurafatla mübarizə zəruridir.
3. Peyğəmbərlər haqqındakı dastanlar tövhid prinsipi ilə uyğun gəlmirsə, saxta və yalandır.
4. İnsanın haqdan üz döndərməsi onun azad olduğunu göstərir.
5. Haqdan üz döndərilməsi fəsad nümunəsidir. Üz döndərən şəxs isə fəsad əhlidir.
6. Allahın fəsad əhlinin işlərini bilməsi ən böyük xəbərdarlıqdır.

64. ﴿قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ﴾

**“De ki, ey kitab əhli, aramızdakı müştərək sözə doğru gəlin. Allahdan qeyrisinə pərəstiş etməyək, Ona şərik qərar verməyək, bəzilərimiz bəzilərini Allahın yerinə Rəbb götürməyək. Əgər (bu təklifdən) üz döndərsələr, deyin: Şahid olun ki, biz müsəlmanıq (və Allaha təslimik).”**

## *Nöqtələr*

◘İstər dəlil, istər mübahilə, istərsə də müştərək sözlərə üz tutmaq yolu ilə tövhid və haqqa çağırış zəruridir.

◘“Təfsire-Məraği”də nəql olunur: Udəyy ibn Hatəm İslamı qəbul etdikdən sonra peyğəmbərə belə ərz etdi: “Biz məsihi olduğumuz vaxt heç vaxt bir-birimizi özümüzə Rəbb qərar verməmişik. Bəs bu cümlənin mənası nədir?”

Həzrət Peyğəmbər (s) buyurdu: “Məgər sizin alimləriniz Allahın hökmünü dəyişmirdilərmi?” İbn Hatəm bunu təsdiq etdi. Həzrət buyurdu: “Allahın qanununu dəyişən alimə itaət bir növ ona bəndəlikdir.”

## *Bildirişlər*

1. Müsəlmanlar müştərək məsələlərdə kitab əhli ilə razılığa gəlməlidirlər.
2. Vəhdətə dəvətdə öncül olmaq lazımdır.
3. Əgər bütün haqq məqsədlərə çatmaq mümkün olmadısa, bu məqsədlərdən bəzilərinə çatmaq üçün öz səyinizi əsirgəməyin.
4. Təbliğ mərhələlərindən biri müştərək məsələlərə dəvətdir. Müştərək məsələlərə dəvətdə Quran yaxşı bir mehvər ola bilər. Çünki Quranda həm peyğəmbərlərin tarixi var, həm də o, təhriflərdən uzaqdır.
5. Təbliğ zamanı qarşı tərəfin haqq əqidələrinə və müqəddəsliklərinə ehtiram göstərmək lazımdır.
6. Bir Allaha sitayiş və şirkdən uzaqlıq bütün səmavi dinlərin müştərək cəhətləridir.
7. Tövhid insanın ucalıq səbəbidir. “Təaləv” sözü ucalığa dəvət zamanı işlədilir.

8. Başqalarına sorğu-sualsız itaət onları Rəbb kimi qəbul etmək nişanəsidir. Halbuki bütün insanlar bir-birləri ilə bərabərdirlər.

9. Azad düşüncə və müstəqil şəxsiyyət Quran şüarıdır.

10. Müxaliflərin etirazı bizim iradə və imanımıza təsir göstərməməlidir.

11. Hər bir təbliğatçı əvvəlcədən xalqın etirazını ehtimal etməlidir ki, bu etirazla rastlaşdıqda məyus olmasın.

12. Yetərli dəlillərdən sonra mübahisəni kəsin.

13. Allaha bəndəlik, şirkin və qeyri-ilahi hakimlərin rədd edilməsi həqiqi müsəlmanlıq xüsusiyyətlərindəndir.

65. ﴿ يَا أَهْلَ الْكِتَابِ لِمَ تُحَآجُّونَ فِي إِبْرَاهِيمَ وَمَا أُنزِلَتِ التَّورَاةُ وَالإنجِيلُ إِلاَّ مِن بَعْدِهِ أَفَلاَ تَعْقِلُونَ ﴾

**“Ey kitab əhli! Nə üçün İbrahim haqqında höcətləşirsiniz? (Hər biriniz onu öz dininizdən sayırsınız?) Halbuki Tövrat və İncil ondan sonra nazil olmuşdur. Nə üçün düşünmürsünüz?”**

## *Nöqtələr*

◘Həm yəhudilər, həm də məsihilər İbrahimi öz dinlərinə aid edirdilər. Bu mübahisələr o qədər qızışmışdı ki, Quran növbəti iki ayədə bu məsələyə münasibətini açıqladı. Ayə onların iddialarını rədd edərək bildirir: İbrahim onun vaxtında nazil olmamış bir kitaba necə tabe ola bilərdi?! Axı o, Tövrat və İncildən qabaq olmuşdur. Heç olmasa dediklərinizi tarixlə tutuşdurun.

## *Bildirişlər*

1. Moizə zamanı qarşı tərəfin sabit ləqəblərindən və əqidə ünvanlarından istifadə edin.

2. Elm və kitab elə bir dəyərə malikdir ki, ona yaxın olanlar da möhtərəm sayılır. Kitab əhli, qələm əhli, elm əhli bu qəbildəndir.

3. Öz mövqeyinizi sübuta yetirmək üçün böyük şəxsiyyətləri özünüzə aid etməyə çalışmayın. Şəxsiyyətləri özünüzə aid etmək əvəzində onların yoluna tabe olun.

4. Öz iddialarınızı məniq, fitrət və tarixlə sübuta yetirin.

66. ﴿ هَاأَنتُمْ هَؤُلاء حَاجَجْتُمْ فِيمَا لَكُم بِهِ عِلمٌ فَلِمَ تُحَآجُّونَ فِيمَا لَيْسَ لَكُم بِهِ عِلْمٌ وَاللّهُ يَعْلَمُ وَأَنتُمْ لاَ تَعْلَمُونَ ﴾

**“Siz o adamlarsınız ki, bildiyiniz şeylər haqqında höcətləşirsiniz. Bəs bilmədiyiniz şeylər haqqında nə üçün mübahisə edirsiniz? Halbuki Allah sizin bilmədiyinizdən xəbərdardır.”**

## *Nöqtələr*

◘Bu ayədə kitab əhlinə xəbərdarlıq olunur ki, onlar bildikləri şeylər haqqında yersiz suallar verirlər. Halbuki bu adamlar həzrət İsanın həyatından xəbərdardırlar və onun qidaya, məskənə və libasa ehtiyaclı olduğunu öz gözləri ilə görmüşlər. Bütün bunlara baxmayaraq, yenə də bu mövzuda mübahisə edirlər. Bir dəstə onu yalançı, digər bir dəstə isə Allahın övladı hesab edir.[1] Onlar nişanələri Tövrat və İncildə bəyan olunmuş və yaxşı tanıdıqları həzrət Məhəmməd (s) haqqında da mübahisə edirlər.[2] Onlara xatırladılır ki, siz cidal əhlisiniz və bir nəticəyə çatmayacaqsınız. Bilmədiyiniz şeylər haqqında isə danışmağınız yersizdir. Məsələn nə bilirsiniz ki, həzrət İbrahimin məzhəbi nə olub?

## *Bildirişlər*

1. Lovğa və höcətkeş insanları alçaldın.
2. Höcətkeş və inadkar adamlar ən aydın məsələ haqqında da mübahisə edirlər.
3. Həqiqəti üzə çıxarmaq məqsədi ilə mübahisə aparmaq dəyərlidir. İşə maneçilik məqsədi ilə aparılan mübahisə isə tənqid olunur.

67. ﴿ مَا كَانَ إِبْرَاهِيمُ يَهُودِيًّا وَلاَ نَصْرَانِيًّا وَلَكِن كَانَ حَنِيفًا مُّسْلِمًا وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ ﴾

**“(Yəhudi və Məsihilərin iddialarının əksinə olaraq) İbrahim nə yəhudi idi, nə də məsihi. O, haqpərəst və Allaha təslim olmuş bir fərd idi və heç vaxt müşriklərdən olmamışdı.”**

## *Nöqtələr*

◘“Haqqa meyl” mənası ayənin mətnində “hənəf” sözü ilə ifadə olunmuşdur. Həqiqətlə müxalifçilik, batilə meyl isə “cənəf” adlanır. Beləcə, doğru yolda olan insana “hənif” deyilir. Amma bütpərəstlər bu sözü özlərinə aid edir və müşriklərə də “hünəfa” (həniflər) deyirlər.

◘“Müslimən” sözünü “hənifən” sözü ilə yanaşı işlətməklə, Quran həm İbrahimin şirkdən pak olduğunu bildirmiş, həm də müqəddəs bir sözü şirk ləkəsindən qorumuşdur. Həzrət Əli (ə) buyurmuşdur: “İbrahimin dini həzrət Məhəmmədin (s) dini idi.”[3]

---

[1] “Təfsire-Əl-mizan”; “Təfsir-fi-zilal”, “Təfsire-Mərağı”; “Təfsire-əl-mənar”.
[2] “Təfsire-Məcməül-bəyan”; “Təfsire-Qurtubi”.
[3] “Bihar” , c. 12, səh. 11.

◘İmam Sadiq (ə) "hənifən muslimən" təbirinin təfsirində buyurmuşdur: İbrahim zərrəcə bütpərəstliyə yol verməmiş xalis və üstün bir şəxs idi."[1]

**68.** ﴿ إِنَّ أَوْلَى النَّاسِ بِإِبْرَاهِيمَ لَلَّذِينَ اتَّبَعُوهُ وَهَـذَا النَّبِيُّ وَالَّذِينَ آمَنُواْ وَاللّهُ وَلِيُّ الْمُؤْمِنِينَ ﴾

**"Həqiqətən, İbrahimə ən layiqli fərdlər ona itaət edənlər, bu peyğəmbər və bu peyğəmbərə iman gətirənlərdir. Allah möminlərin himayəçisidir."**

## *Nöqtələr*

◘Ayədən məlum olur ki, iman yaxınlığı qohumluq yaxınlığından daha geniş və daha möhkəmdir. Eyni hədəfə doğru hərəkət edən, həmfikir olan insanlar bir-birlərinə zahirdə qohum olanlardan daha yaxındırlar. Çünki qohumlar əqidə və düşüncə baxımından fərqli mövqedə də ola bilərlər. İmam Sadiq (ə) vəfalı yaxınlarından birinə buyurmuşdur: "And olsun Allaha ki, siz Məhəmməd (s) ailəsindənsiniz." Sonra imam yuxarıdakı ayəni tilavət etmişdir.[2] Həzrət Peyğəmbər (s) isə Salman Farsi haqqında belə buyurmuşdur: "Salman biz Əhli-beytdəndir."[3]

◘Ayədə İbrahimin ardıcılları ona ən yaxın adamlar kimi tanıtdırılsa da, İslam peyğəmbəri və müsəlmanların adı ayrıca çəkilir. Burada məqsəd İbrahimə itaətin ən üstün nümunəsi kimi həzrət peyğəmbər və müsəlmanları dünyaya tanıtdırmaqdır.

◘Rəvayətdə nəql olunmuşdur: Həzrət Məhəmmədin (s) dostu o kəsdir ki, qohumluq baxımından ondan uzaq olsa da, Allaha itaət etsin. Peyğəmbərin düşməni isə o kəsdir ki, Peyğəmbərə (s) qohum olmuş olsa da Allaha itaətsizlik göstərsin."[4]

İmam Sadiq (ə) buyurmuşdur: "Ayədəki "iman gətirmiş kəslər" təbiri imamlar və onların ardıcıllarına işarədir."[5]

## *Bildirişlər*

1. Xalqın rəhbərə bağlılığı qəbilə, dil, məntəqə, irq bağlılığından uzaq olan məktəb bağlılığıdır.

2. Peyğəmbərlərə yaxınlıq ölçüsü onlara itaətdir.

3. İslam peyğəmbəri və müsəlmanlar İbrahim yolundadırlar və onun məqsəd və məramını davam etdirirlər.

---

[1] "Təfsire-Nurus-səqəleyn", "Kafi", c. 2, səh. 15...
[2] "Təfsire-Məcməül-bəyan".
[3] "Bihar" , c. 10, səh. 123.
[4] "Təfsire-Məcməül-bəyan".
[5] "Kafi", c. 1, səh. 416.

69. ﴿ وَدَّت طَّآئِفَةٌ مِّنْ أَهْلِ الْكِتَابِ لَوْ يُضِلُّونَكُمْ وَمَا يُضِلُّونَ إِلاَّ أَنفُسَهُمْ وَمَا يَشْعُرُونَ ﴾

**"Kitab əhlindən bir dəstə sizi azdırmaq istəyindədirlər. Amma yalnız özlərini azdırırlar və (bunu) anlamırlar."**

## *Nöqtələr*

◘Bu və bundan sonrakı üç ayədə düşmənin ideoloji hücumlarının, müsəlmanları dindən çıxarmaq üçün qurduğu qurğuların simasını görürük. Bu ayə onların məktəb düşmənçiliyindən, növbəti ayə onların inadkarlıq və küfründən, yetmiş birinci ayə onların haqqı ört-basdır etməsindən, yetmiş ikinci ayə onların aldadıcı üslublarından danışır. Zülmətdən baş qaldırmış ideoloji bir hücum haqqı gizlətmə, xalqın əqidəsini sual altına alıb onu süstləşdirmə üsullarından qaynaqlanır.

## *Bildirişlər*

1. Allah din düşmənlərinin planlarını ifşa və rüsvay edir.
2. Düşməni və onun proqramını tanıma onun zərərlərindən amanda qalmaq üçün şərtdir.
3. Əqidə və ideoloji hücumun təhlükəsi ciddidir.
4. Müxaliflərin ikiüzlü bəyanatlarına etimad göstərməyin. Onlar qəlbən sizi azdırmaq fikrindədirlər.
5. Mühakimə yürüdərkən insafı yaddan çıxartmayın. Kitab əhlinin hamısı yox, bir qrupu uyğun arzudadır.
6. Elə bir iş görməlisiniz ki, düşmənin arzusu gözündə qalsın. "Ləv" sözü bir iş mümkünsüz olduqda işlədilir.
7. Başqalarını azdırmaq fikrində olanlar ilk öncə özləri hiylə, nifaq, kin, böhtan və qurğuya düçar olurlar.
8. Başqalarının azğınlığı istəyində olmaq özü böyük bir əxlaqi nöqsandır.

70. ﴿ يَا أَهْلَ الْكِتَابِ لِمَ تَكْفُرُونَ بِآيَاتِ اللّهِ وَأَنتُمْ تَشْهَدُونَ ﴾

**"Ey kitab əhli, nə üçün Allahın ayələrinə (onun rəsulunun nübuvvət nişanələrinə) küfr edirsiniz? Halbuki özünüz (Onun düzlüyünə) şahidsiniz!"**

## *Nöqtələr*

◘Zahirən bu ayədə Tövratda və İncildə kitab əhlinə həzrət Məhəmməd (s) haqqında verilmiş müjdə nəzərdə tutulur. Onlar öz ictimai mövqeləri və maddi mənafelərinin hifzi üçün bütün bu ilahi nişanələri görməməzliyə vurdular.

## *Bildirişlər*

1. İnsanın öz vicdanına müraciəti ən yaxşı dəvət yoludur.

2. Bilmək kifayət deyil, qəbul etmək lazımdır.

**71.** ﴿ يَا أَهْلَ الْكِتَابِ لِمَ تَلْبِسُونَ الْحَقَّ بِالْبَاطِلِ وَتَكْتُمُونَ الْحَقَّ وَأَنتُمْ تَعْلَمُونَ ﴾

**“Ey kitab əhli, nə üçün haqqa batil donu geyindirirsiniz və həqiqəti gizlədirsiniz? Halbuki özünüz (onun haqq olmasından) agahsınız.**

## *Nöqtələr*

◘İmam Sadiq (ə) “özünüz bilirsiniz” cümləsi haqqında buyurur: «Yəni kitab əhli İslam peyğəmbərinin Tövratda zikr olunmuş sifətlərindən agah idilər. (Amma onu gizlədirdilər).[1]»

◘Bir çox təhrifçilər islamşünas, şərqşünas, tarixçi, səyahətçi adları ilə kitablarda, tarixi məkan və zamanların qeydində özbaşınalığa yol verib, araşdırıcı adı ilə ensiklopediyalarda İslamı elə bir simada təsvir etmişlər ki, oxucu heç bir vəchlə İslam əqidəsinə üz tutmasın.

## *Bildirişlər*

1. Don geyindirmək, haqqı gizlətmək möminləri yoldan çıxartmaq üçün düşmənin iki güclü alətidir. Əvvəlki iki ayədə azdırmaqdan danışılırdısa, bu ayədə haqqın gizlədilməsinə işarə olunur.
2. Haqqı gizlətmək haramdır və onun bəyanı vacibdir.

**72.** ﴿ وَقَالَت طَّآئِفَةٌ مِّنْ أَهْلِ الْكِتَابِ آمِنُواْ بِالَّذِي أُنزِلَ عَلَى الَّذِينَ آمَنُواْ وَجْهَ النَّهَارِ وَاكْفُرُواْ آخِرَهُ لَعَلَّهُمْ يَرْجِعُونَ ﴾

**“Kitab əhlindən bir dəstəsi dedi: “Möminlərə nazil olana günün əvvəlində iman gətirin, günün axırında isə kafir olun. Bəlkə (bu hiylə ilə onlar İslamdan) dönələr.”**

## *Nöqtələr*

◘Yəhudi alimlərindən on iki nəfəri qərara gəldilər ki, müsəlmanlarda şəkk-şübhə yaratmaq üçün səhərlər həzrət Peyğəmbərin (s) yanına gəlib iman gətirdiklərini bildirsinlər, axşamlar isə İslama arxa çevirib desinlər: «Biz Məhəmməd (s) və onun ayinini gördük. Amma onun dedikləri Tövratda və İncildə bəyan olunanlara uyğun deyil.» Onlar bu mahiranə planla öz həmdinlərinə qəbul etdirmək istəyirdilər ki, İslam yaxşı məktəb olsaydı, elm və kitab əhli ondan əl çəkməzdi. Onlar bu yolla həm müsəlmanlarda şəkk-şübhə yaratmağa, həm də digər yəhudiləri müsəlman olmaq qərarından çəkindirməyə çalışırdılar. Allah bu ayəni nazil etməklə onların planlarını alt-üst etdi.

---

[1] “Təfsire-Qummi”, c. 1, səh. 105.

Bir rəvayətdə İmam Sadiqin (ə) belə buyurduğu nəql olunur: “İslam peyğəmbəri qiblənin Beytül-Müqəddəsdən Kəbəyə dəyişdiyini bildirən fərmanı günorta namazında bəyan etdi. Yəhudilər dedilər: “Günün əvvəlində deyilənlərə iman gətirin, amma günün axırındakılara (qiblənin dəyişməsinə) yox! «Onlar bu yolla müsəlmanları Kəbədən dönüb Beytül-Müqəddəsə doğru namaz qılmağa sövq etdirmək istəyirdilər.[1]»

## *Bildirişlər*

1. Düşmənlər müsəlmanları doğru yoldan çəkindirmək üçün daim plan çızırlar. Altmış doqquzuncu ayədə oxuduq ki, kitab əhli sizi azdırmaq arzusundadır. Bu ayədə isə onların uyğun məqsədə çatmaq üçün cızdıqları plandan danışılır.
2. Ola bilər ki, bir dəstə düşmən müsəlman adı ilə sıralarımıza nüfuz edib arxadan zərbə endirmək istəsin. Ona görə də ayıq olmalıyıq.
3. Müsəlman sadəlövh və tez inanan olmamalı, hər “iman gətirdim” deyənə etimad göstərməməlidir.
4. Allah həssas mərhələlərdə düşmənin sirləri və hiylələri üzərindən pərdəni götürür.
5. İmanda elə bir mərhələyə çatmalıyıq ki, bəzi müsəlmanların dindən çıxması bizi süstləşdirməsin.
6. Düşmənin siyasətlərindən biri əvvəlcə rabitə yaradıb, sonradan bu rabitəni qırmaqdır. Onlar bu vasitə ilə müsəlman cəmiyyətində qarışıqlıq salmaq istəyirlər.

73. ﴿وَلاَ تُؤْمِنُواْ إِلاَّ لِمَن تَبِعَ دِينَكُمْ قُلْ إِنَّ الْهُدَى هُدَى اللّهِ أَن يُؤْتَى أَحَدٌ مِّثْلَ مَا
أُوتِيتُمْ أَوْ يُحَآجُّوكُمْ عِندَ رَبِّكُمْ قُلْ إِنَّ الْفَضْلَ بِيَدِ اللّهِ يُؤْتِيهِ مَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ﴾

**“(Yəhudi böyükləri öz ardıcıllarını İslamın qəbulundan çəkindirmək üçün onlara deyirdilər:) «Sizin ayinlərinizə itaət edənlərdən başqasına iman gətirməyin.» (Ey peyğəmbər, onlara) de ki, səadət yolu Allahın göstərdiyi yoldur. Digər bir ümmətə də sizə verildiyi kimi (kitab və şəriət) verilməsi, Allah hüzurunda onların sizlə mübahisəsi mümkündür. (Ey peyğəmbər, onlara) de ki, fəzl və rəhmət Allahın əlindədir. O, istədiyinə əta edir. Allah geniş rəhmət və sonsuz elm sahibidir.”**

## *Nöqtələr*

◘Kitab əhli yəhudilərin İslama üz tutmasından narahat idilər. Bu meylin qarşısını almaq üçün təbliğ edirdilər.

## *Bildirişlər*

1. İslam düşmənləri öz qurğularında məxfi iş görülməsini və yalnız özlərinə etimadı tövsiyə edirlər. İman sözünün bir mənası da etimad və arxayınçılıqdır.

[1] “Müstədrək”, c. 3, səh. 169.

2. İlahi hidayət tarix boyu davam etmiş bir cərəyandır. O, xüsusi bir qövmə xas deyil.

3. Təəssüb və özünü üstün bilmək dindarlığın bəlalarından biridir.

4. Allahın lütfləri xüsusi bir dəstəyə aid deyil. Nübuvvət və hidayət ilahi bir fəzldir və Allah onu istədiyinə verər.

5. Allah peyğəmbərləri elm əsasında seçir.

74. ﴿ يَخْتَصُّ بِرَحْمَتِهِ مَن يَشَاء وَاللّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ ﴾

**“(Allah) Öz rəhmətini istədiyi şəxsə məxsus edər. Allah böyük fəzl sahibidir.”**

## *Nöqtələr*

◘Bu ayə ilahi lütfün yalnız yəhudilərə aid olması haqqındakı yanlış təsəvvürü alt-üst edir. Ayədə buyurulur: Allah Öz risalətini kimə tapşıracağını yaxşı bilir. O öz bəndələrindən ən layiqlisini seçib Öz xüsusi lütfünü onun halına şamil edir. Allahın həm lütfü genişdir, həm də hikməti ayırd edəndir.

75. ﴿وَمِنْ أَهْلِ الْكِتَابِ مَنْ إِن تَأْمَنْهُ بِقِنطَارٍ يُؤَدِّهِ إِلَيْكَ وَمِنْهُم مَّنْ إِن تَأْمَنْهُ بِدِينَارٍ
لاَّ يُؤَدِّهِ إِلَيْكَ إِلاَّ مَا دُمْتَ عَلَيْهِ قَآئِمًا ذَلِكَ بِأَنَّهُمْ قَالُواْ لَيْسَ عَلَيْنَا فِي الأُمِّيِّينَ سَبِيلٌ
وَيَقُولُونَ عَلَى اللّهِ الْكَذِبَ وَهُمْ يَعْلَمُونَ﴾

**“Kitab əhli arasında elələri var ki, əgər onlara böyük sərvət tapşırsan, onu sənə necə varsa elə qaytararlar. Onlardan bəzisinə isə bir dinar əmanət versən, daim başı üzərində durub tələb etməsən, geri qaytarmazlar. Bunun səbəbi odur ki, deyərlər: “Ümmilərin (kitab əhli olmayanların) haqqında nə etsək, bizə günah yoxdur.” Halbuki onlar agah şəkildə Allaha yalan deyirlər.”**

## *Nöqtələr*

◘Rəvayətdə bildirilir ki, əmanət sahibi günahkar da olsa, onun əmanətini özünə qaytarın.[1]

## *Bildirişlər*

1. Müxaliflərinizlə münasibətdə insaflı olun. Hamını xain saymayın.

2. İnsanları dəyərləndirmə ölçüsü onların əmanətdarlığıdır.

3. Əxlaqi dəyərlərin əhəmiyyəti var. Əmanətə vəfa göstərmək hamının nəzərində yaxşı, əmanətə xəyanət isə hamının nəzərində pisdir. Hətta yəhudiyə məxsus əmanətin də qaytarılması bir dəyərdir.

---

[1] “Təfsire-Məcməül-bəyan”, c. 2, səh. 778.

4. Haqqı geri almaq üçün qiyam və müqavimət zəruridir.
5. İstismar, irqçilik qadağandır.
6. Yəhudi və məsihilər özlərini alim, müsəlmanları isə savadsız, ümmi sayırdılar.
7. Günahdan qabaq günaha diqqət gəlir. Yəhudilər xalqın malını haqsız yerə yeyirdilər və deyirdilər: «Allah bu işimizdən razıdır.»

76. ﴿ بَلَى مَنْ أَوْفَى بِعَهْدِهِ وَاتَّقَى فَإِنَّ اللّهَ يُحِبُّ الْمُتَّقِينَ ﴾

**"Bəli, hər kəs öz əhdinə vəfa etsə və təqvalı olsa, şübhəsiz, Allah təqvalıları sevir."**

## *Nöqtələr*

◘Aşağıdakı hallarda əhdə vəfa etmək lazımdır:
a) Allahın fitrət və ya peyğəmbərlər vasitəsi ilə insanlarla bağladığı əhd.[1]
b) İnsanın Allahla bağladığı əhd.[2]
v) İnsanın xalqla bağladığı əhd.[3]
q) Rəhbərin ümmət və ümmətin rəhbərlə əhdi.[4]

## *Bildirişlər*

1. Yanlış düşüncələr qarşısında mövqe tutun. Adətən, öncəki məntiq və təfəkkür rədd olunduğu halda "bəla" sözü işlədilir.
2. Təqva insanı Allaha münasibətdə yalandan və xalqın haqqına təcavüzdən qoruyur.
3. Əsas məsələ şüar yox, əməl və təqvadır.
4. Əhdə vəfa təqva nişanələrindəndir.
5. Kitab əhli olmaq yox, əhdə vəfa etmək və təqvalı olmaq məhbubiyyət ölçüsüdür.

77. ﴿إِنَّ الَّذِينَ يَشْتَرُونَ بِعَهْدِ اللّهِ وَأَيْمَانِهِمْ ثَمَنًا قَلِيلاً أُوْلَئِكَ لاَ خَلاَقَ لَهُمْ فِي
الآخِرَةِ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ وَلاَ يَنظُرُ إِلَيْهِمْ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

---
[1] Bax: "Yasin",, 60.
[2] Bax: "Tövbə", 75.
[3] Bax: "Bəqərə", 177.
[4] Bax: "Ənfal", 56.

**“Həqiqətən, Allahla əhdi və öz andlarını ucuz qiymətə satanların axirətdə bir payı yoxdur. Allah qiyamətdə onlarla danışmaz, onlara nəzər salmaz və onları pak etməz. Onlar üçün dərdli bir əzab vardır.”**

## *Nöqtələr*

◘Bu ayədə əhdi sındıranlar beş növ ilahi qəhr və qəzəblə hədələnirlər: Axirətdə əli boşluq, Allahın xitabından məhrumluq, ilahi lütf nəzərindən uzaqlıq, günahdan paklanmamış qalmaq, dərdli əzaba düçar olmaq.

◘Şiə və sünni rəvayətlərində həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunmuşdur: “Əmanətə vəfa etməyənin imanı yoxdur və öz əhdinə vəfa qılmayan dinsizdir.”[1]

Bəzi rəvayətlərdə nəql olunmuşdur ki, “Əhdillah” dedikdə Tövratda İslam peyğəmbəri ilə bağlı bəyan olunmuş həqiqətlər nəzərdə tutulur. Bu həqiqətlər yəhudi alimləri tərəfindən təhrif olunmuşdur.

◘Allah tərəfindən salam ünvanlanmış kəslərin vəziyyəti ilə Allahın üz çevirdiyi kəslərin vəziyyətini müqayisə edək. Belələrinin naləsi ilahi bir nida ilə kəsilir.[2]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Hər kəs and içməklə öz qardaşının var-dövlətini nahaqdan yesə Allahın qəzəbinə düçar olar.” Sonra həzrət uyğun ayəni tilavət etmişdir.[3]

◘Həzrət Əli (ə) buyurmuşdur: “Qiyamətdə Allahın nəzəri dedikdə, Onun mərhəmət nəzəri başa düşülür. Əlbəttə ki, söhbət zahiri gözlə olan baxışdan getmir.[4]

## *Bildirişlər*

1. İnsanın yanında xalqın əmanəti ilahi əhddir. Əvvəlki ayələrdə oxuduq ki, bəziləri xalqın əmanətini qaytarmır. Bu ayədə isə “xalqın əmanəti” təbiri əvəzinə “əhdillah” təbiri işlədilmişdir.
2. Əhdi pozmaq kəbirə günahlardandır. Quranda heç bir günah haqqında bu sayaq ardıcıl hədələr sadalanmamışdır.
3. Yalan and qiyamətdə məhrumluq səbəbidir.
4. Dünyapərəstlik əhdi pozmağın kökküdür.
5. İnsan heç bir qiymətə əhdi pozmamalıdır. Əhdə vəfasızlığın dəyəri hər nə olsa azdır.
6. Qiyamət cəzaları insanın əməllərinə mütənasib olur. Allaha etinasızlığımız Allahın etinasızlığı səbəbidir.
7. Axirət əzabı həm cismə, həm də ruha aiddir. Cisimlə bağlı cəza dərdli əzab, ruhla bağlı cəza Allahın üz döndərməsidir.

---

[1] “Təfsire-Məraği”; “Təfsire-Nurus-səqəleyn”.
[2] Bax: “Yasin”, 58; “Möminun”, 108.
[3] “Təfsire-Nurus-səqəleyn”.
[4] “Təfsire-Bürhan”, c. 1, səh. 293.

78. ﴿وَإِنَّ مِنْهُمْ لَفَرِيقًا يَلْوُونَ أَلْسِنَتَهُم بِالْكِتَابِ لِتَحْسَبُوهُ مِنَ الْكِتَابِ وَمَا هُوَ مِنَ
الْكِتَابِ وَيَقُولُونَ هُوَ مِنْ عِندِ اللّهِ وَمَا هُوَ مِنْ عِندِ اللّهِ وَيَقُولُونَ عَلَى اللّهِ الْكَذِبَ
وَهُمْ يَعْلَمُونَ﴾

**“Həqiqətən, onların (kitab əhlinin) bir dəstəsi kitab oxuyarkən dillərini elə dolaşdırırlar ki, onların səmavi kitab oxuduqlarını güman edəsiniz. Halbuki oxuduqları kitabdan deyil. Deyirlər: “Bu, Allah tərəfindəndir.” Halbuki Allah tərəfindən deyil. Onlar bilərək Allahın adından yalan danışırlar.”**

## *Nöqtələr*

◘Təqvasız alimlərin günahı qat-qat böyükdür. Çünki onlar xalqı çaşdırır, Allahın adından yalan danışır və bütün bu işləri bilərəkdən edirlər.

## *Bildirişlər*

1. Mühakimə yürüdərkən insaflı olaq və hamıya bir gözlə baxaq.
2. Kitab əhli arasında xain alimlərin olması şübhə doğurmur.
3. Avamları sözlə aldatmaq alimlərin günahlarındandır.
4. İti və gözəl danışıq haqqı bəyan etmirsə, azğınlıq vasitəsidir.
5. Xalqı azdıranlar dini müqəddəslikləri və səmavi kitabları özləri üçün alət edirlər.
6. Batil məqsədlər həyata keçirmək üçün həqiqətdən istifadə etmək düşmənlərin mənfur planlarındandır.
7. Düşmən sizi azdırmaq üçün şərait gördükdə təhlükəli iddialar irəli sürür.
8. İnsanın əqidə və mədəniyyətinə ən böyük xəyanət alimlərin qərəzli və agahanə təhrifləridir.

79. ﴿مَا كَانَ لِبَشَرٍ أَن يُؤْتِيَهُ اللّهُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ ثُمَّ يَقُولَ لِلنَّاسِ كُونُواْ
عِبَادًا لِّي مِن دُونِ اللّهِ وَلَكِن كُونُواْ رَبَّانِيِّينَ بِمَا كُنتُمْ تُعَلِّمُونَ الْكِتَابَ وَبِمَا كُنتُمْ
تَدْرُسُونَ﴾

**“Allahın Kitab, hökm və nübuvvət verdiyi heç bir bəşər (və peyğəmbər) xalqa deyə bilməz ki, «Allah əvəzində mənə bəndə olun.» Lakin siz keçmişdə kitab təlim-tədris etdiyiniz üçün rəbbani olun.”**

## *Nöqtələr*

◘Peyğəmbərlərin digərlərindən fərqləri budur ki, onların ətrafındakıların sayı artdıqca xalqı Allaha bəndəliyə daha çox dəvət edərlər. Heç vəchlə tövhid yolunu dəyişməz, əksinə öz xəbərdarlıqlarını gücləndirərlər. Amma mənfəət güdən

dəvətçi ilk öncə müqəddəslik donu geyib ürək yanğısı ilə işə başlayır. Qüdrətə çatdıqdan sonra isə onlar öz istibdadlarını və zülmlərini gücləndirirlər.

◘Rəvayətdə nəql olunur ki, öz qullarınıza "əbdi" (mənim qulum) yox, "fəta" deyin. Qullar da öz ağalarına "rəbbi" yox, "səyyidi" (mənim ağam) desinlər.[1]

◘Əgər peyğəmbərə pərəstiş etmək qadağan olunmuşsa, başqalarına pərəstişdən danışmağa dəyməz. Bəndəlik amili mənəvi səciyyələr olmadıqda, meydanı maddi səciyyələr tutur.

◘"Rəbbaniyyun" sözü "rəbbani" sözünün cəm forması olub Allahla möhkəm bağlılığı olanlara deyilir. Belələri başqalarının islah və tərbiyəsi yolunda çalışırlar.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Mənə münasibətinə görə iki dəstə həlak oldu: 1. Məni bəşər həddindən yuxarı qaldıran ifratçı ardıcıllar; 2. Mənim peyğəmbərliyimi qəbul etməyən insafsız düşmənlər. Hər iki dəstə məndən uzaqdır." Həzrət İsa da öz ardıcıllarına belə bir xəbərdarlıq etmişdir. Bu məna "Nəhcül-bəlağə"də Həzrət Əli (ə) tərəfindən də zikr olunur. Başqa bir məqamda həzrət peyğəmbər buyurur: "Məni olduğumdan yuxarı qaldırmayın. Həqiqətən, Allah məni peyğəmbər qərar verməmişdən öncə bəndə yaratmışdır." Sonra həzrət bu ayəni tilavət etmişdir.[2]

◘Həzrət Peyğəmbər (s) bu ayə haqında buyurmuşdur: "İstər azad olsun, istərsə də bəndə, bütün müsəlman kişi və qadınların Allah tərəfindən müəyyən olunmuş vacib vəzifəsi vardır. O da budur ki, Quranı öyrənib, onun haqqında düşünsünlər.[3]

## *Bildirişlər*

1. Mövqedən, sevgidən və məsuliyyətdən sui-istifadə etmək qadağandır.
2. İnsana kitab, hikmət və nübuvvət verilməsi onu insanlıqdan xaric etmir.
3. Peyğəmbərlərin məqsədi bəşəriyyəti təkcə şirkdən xilas etmək deyil. Peyğəmbərlər bəşəriyyəti rəbbani bir mərhələyə inkişaf etdirmək üçün çalışırlar.
4. Rəbbani yol sufilik və guşənişinlik yox, din elmi və kitab dərsi ilə əldə olunur. [4]
5. Əgər elm və bilik insanı rəbbani edə bilməmişsə, demək, o elm elm olmamışdır. [5]
6. Rəbbani alimlər Quranın həqiqi təfsirçiləridirlər.
7. Səmavi kitabların təlim və tədrisi daimi olmalıdır.
8. Müəllimlik peyğəmbər peşəsidir.

**80.** ﴿ وَلاَ يَأْمُرَكُمْ أَن تَتَّخِذُواْ الْمَلاَئِكَةَ وَالنِّبِيِّيْنَ أَرْبَابًا أَيَأْمُرُكُم بِالْكُفْرِ بَعْدَ إِذْ أَنتُم مُّسْلِمُونَ ﴾

---
[1] "Təfsire-Qurtubi".
[2] "Təfsire-Nurus-səqəleyn".
[3] "Təfsire-fi zilalil-Quran".
[4] "Təfsire-fi zilalil-Quran".
[5] "Təfsire-Safi".

**“(Allah) sizə əmr etməz ki, mələkləri və peyğəmbərləri özünüzə Rəbb seçəsiniz. Allaha təslim olduqdan sonra mümkündürmü ki, O sizə kafir olmağı əmr etsin?!”**

## *Bildirişlər*

1. İstənilən bir kəs tərəfindən şirkə istənilən növ dəvət qadağandır.
2. Küfr təkcə Allahın inkarı deyil. İstənilən bir məxluqu Rəbb saymaq küfrdür.

**81.** ﴿وَإِذْ أَخَذَ اللّهُ مِيثَاقَ النَّبِيِّيْنَ لَمَا آتَيْتُكُم مِّن كِتَابٍ وَحِكْمَةٍ ثُمَّ جَاءكُمْ رَسُولٌ مُّصَدِّقٌ لِّمَا مَعَكُمْ لَتُؤْمِنُنَّ بِهِ وَلَتَنصُرُنَّهُ قَالَ أَأَقْرَرْتُمْ وَأَخَذْتُمْ عَلَى ذَلِكُمْ إِصْرِي قَالُواْ أَقْرَرْنَا قَالَ فَاشْهَدُواْ وَأَنَاْ مَعَكُم مِّنَ الشَّاهِدِينَ﴾

**“(Xatırla,) o zaman ki, Allah (əvvəlki) peyğəmbərlərdən “əgər sizə Kitab və hikmət versəm, sonra sizə doğru sizdə olanı təsdiq edən peyğəmbər göndərsəm, ona iman gətirməlisiniz və yardım etməlisiniz” deyə əhd aldı. (Sonra Allah) buyurdu: "Bu peymanı təsdiq edib, mənim ağır əhd yükümü götürürsünüzmü?” (Peyğəmbərlər) dedilər: “Təsdiq edirik.” (Allah buyurdu: “Özünüz şahid olun və Mən də sizinlə birgə şahidlərdənəm.”**

**82.** ﴿ فَمَن تَوَلَّى بَعْدَ ذَلِكَ فَأُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ ﴾

**“Bundan (əhddən) sonra üz döndərən kəslər həmin günahkarlardır.**

## *Nöqtələr*

◘Peyğəmbər məktəbləri arasındakı fərq iki ustad və ya hakimin proqramları arasındakı fərq kimidir. Onlar elmi və siyasi məsələlərin əsasında vahid cəhətə malikdirlər. Amma cüzi məsələlərdə şagirdlərin və ya məntəqələrin fərqli cəhətlərini nəzərə alaraq fərqli proqramlar irəli sürürlər.[1]

◘Həzrət Əli (ə) buyurmuşdur: “Allah əvvəlki peyğəmbərlərdən əhd aldı ki, xalqa İslam peyğəmbərinin besəti və xüsusiyyətləri haqqında xəbər versinlər. Onlara həzrət Məhəmmədi (s) qəbul etmək əmr olundu.[2] İmam Sadiq (ə) buyurmuşdur: “81-ci ayədəki “caəkum rəsulun musəddiqun” təbiri İslam peyğəmbərinə işarədir.”[3]

---

[1] “Təfsire-Məraği”.
[2] “Təfsire-Məcməül-bəyan”.
[3] “Təfsire-Nurus-səqələyn”.

## *Bildirişlər*

1. İlahi rəhbərlikdə əhd almaq məsuliyyət tapşırmaq, vəzifəyə təyin etməyin şərtidir.

2. Harada iş çətindirsə, əhd almaq zəruridir. Mövcud ayin və sünnədən üz çevirmək və yeni zühur etmiş şəxsə iman gətirmək sadə məsələ deyil. Ona görə də Allah əhd alır.

3. Son peyğəmbərin gəlişi qətidir. Ona görə də bəzi peyğəmbərlərdən yox, bütün peyğəmbərlərdən əhd alınmışdır.

4. Nübuvvət cərəyanı təfriqə səbəbi yox, vəhdət əsasıdır.

5. Peyğəmbərlər müştərək hədəfə malik olmuşlar. Ona görə də əvvəlki peyğəmbərlər sonrakı peyğəmbərin gəlişni müjdə verirdilər. Onların hər biri özündən sonrakı peyğəmbərə iman və yardımı əhd etmişlər. Sonrakı peyğəmbərlər də əvvəlki peyğəmbərləri təsdiq etmişlər.

6. Qədimdəkilər yeniləri təhvil götürür, onları xalqa tanıtdırır, gələcəkdəkilər üçün inkişaf zəminəsi hazırlayırdılar.

7. İman təklikdə kafi deyil, həm də himayə lazımdır.

8. Peyğəmbərlər arasında mərtəbələr silsiləsi var. Son peyğəmbər ("xatəmən-nəbiyyin") onların şərəflisidir. Ona görə bütün peyğəmbərlər ona iman gətirib, onu himayə etməlidirlər.

9. Əgər əvvəlki peyğəmbərlər İslam peyğəmbərinə iman gətirməli və onu himayə etməlidirlərsə, onların ardıcılları da eyni cür hərəkət etməlidirlər.

10. İmandan qaynaqlanan himayə dəyərlidir.

11. Ən əsası təslim ruhuna malik olmaq və haqqı qəbul etməkdir. Əməl üçün şərait yaranmaya da bilər. Əvvəlki peyğəmbərlər İslam peyğəmbərinin dövrünü görmədilər. Amma həmin ruhiyyəyə malik idilər. Məsələn, şəhid olmaq bir məsələdir, şəhadətə hazır olmaq isə başqa bir məsələ. Allah-təala İsmailin qanının axıdılmasını istəmir. Amma istəyir ki, İbrahim öz övladını qurban verməyə hazır olsun. Bəlkə də biz həzrət Məhdinin (ə) zühur dövrünü görməyək. Amma zühur intizarı, həzrətə eşq və əlaqə onlarla ayə və rəvayətlərdə sifariş olunmuş bir səciyyədir.

12. Əhdini pozan günahkardır.

**83.** ﴿ أَفَغَيْرَ دِينِ اللّهِ يَبْغُونَ وَلَهُ أَسْلَمَ مَن فِي السَّمَاوَاتِ وَالأَرْضِ طَوْعًا وَكَرْهًا وَإِلَيْهِ يُرْجَعُونَ ﴾

**"Yoxsa onlar Allahın dinindən başqasını axtarırlar? Halbuki göylərdə və yerdə olanların hər biri istər-istəməz yalnız Ona təslimdir və Ona doğru qaytarılacaq."**

## *Nöqtələr*

◘«Göylərin və yerin mövcudları hamılıqla Allaha təslimdirlər.» Peyğəmbərin haqq olmasına iman və şəhadətdən, aşkar möcüzələr və dəlillər gəldikdən sonra yenə kafir olanları Allah necə hidayət etsin?! Allah zalım qövmü hidayət etməz.

◘İmam Sadiq (ə) bu ayə haqqında buyurmuşdur: «Bizim Qaimimiz qiyam edən zaman bütün ölkələrdən «La ilahə illəllah, Muhəmmədun rəsulullah» şüarı yüksələcək.»[1]

## *Bildirişlər*

1. Hidayət dəlilləri artdıqca və aydınlaşdıqca küfr və etinasızlıq təhlükəli olur.
2. İman gətirmək kifayət deyil. İmanın davamı və xoş aqibət zəruridir. İman gətirmiş insan üçün daim dindən çıxmaq təhlükəsi var.
3. Müsəlmanlardan bir dəstəsi həzrət Peyğəmbərin (s) dövründə mürtəd oldu (dindən çıxdı).
4. Haqqa, məntiqə, əqlə, peyğəmbərə və aşkar dəlillərə arxa çevirmək zülmdür. Belə zülm ilahi lütf dairəsindən çıxmaq səbəbidir.
5. Zalımların hidayətdən məhrum edilməsi Allahın sünnəsi, qaydasıdır. («La yəhdi» cümləsi davam və ilahi sünnə nişanəsidir.)
6. Mürtəd üçün tövbə və geriyə dönüş çox çətindir.
7. Bixəbər kafirlərin hidayəti xəbərdar kafirlərin hidayətindən daha asan və yaxındır.
8. İlahi hidayətdən bəhrələnmə və ya ondan məhrum olma öz əlimizdədir.

**84.** ﴿قُلْ آمَنَّا بِاللَّهِ وَمَا أُنزِلَ عَلَيْنَا وَمَا أُنزِلَ عَلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَقَ وَيَعْقُوبَ وَالأَسْبَاطِ وَمَا أُوتِيَ مُوسَى وَعِيسَى وَالنَّبِيُّونَ مِن رَّبِّهِمْ لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّنْهُمْ وَنَحْنُ لَهُ مُسْلِمُونَ﴾

**«De, Allaha və bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və Əsbata (Yəqubun nəslindən olan peyğəmbərlərə) nazil edilənə, Musaya, İsaya və dirgər peyğəmbərlərə Rəbbləri tərəfindən verilənə iman gətirmişik, onlardan heç birinin arasında fərq qoymuruq və biz təkcə Ona (əmrlərinə) təslimik.»**

## *Nöqtələr*

◘Bir-iki söz istisna olmaqla, bu ayə tamamilə Bəqərə surəsinin oxşarıdır.

◘İşin zahiri forması əsas deyil. Əsas məsələ son və yekun hədəfdir. Mümkündür ki, müxtəlif zamanlarda peyğəmbərlərin dəvət və fəaliyyət forması fərqli olsun. Məsələn, həzrət Musa Fironun üstünə gedir, həzrət Süleyman isə

[1] Təfsire Əyyaşi, c.1.s.183.

Bilqeys kimi hökmdarı dəvət edir. Amma hər iki halda son hədəf birdir. Məsum imamların da fəaliyyət növü eynilə belədir.

◘Keçmiş peyğəmbərlərdən gələcək peyğəmbərləri təqdim edib tanıtdırmaq istənilirsə, gələcək peyğəmbərdən də öz ardıcılları ilə birgə keçmiş peyğəmbərlərə iman gətirmək tələb olunur.

## *Bildirişlər*

1. Öz imanınızı aşkar edin.
2. Peyğəmbərlərə iman Allaha imanın kənarında olmalıdır.
3. Özümüzdən əvvəlkilərin xidmətlərini unutmayaq.
4. Peyğəmbərlərin gəlməsi ilahi rübubiyyətin cilvəsidir.
5. İlahi hidayət və din bəşər tarixi boyu olmuşdur.

Peyğəmbərlər bir məktəbin müəllimləri kimidir; ibtidai siniflərdən tutmuş ali dərslərə qədər silsiləvari maarif tədris olunmalıdır.

6. Bütün peyğəmbərlər vahid hədəf uğrunda çalışıblar.
7. Bir peyğəmbərin digərindən üstün olması onlara iman gətirilməsində maneçilik yaratmır.
8. İslam peyğəmbəri digər peyğəmbərlərə öz imanını bildirməklə onların ardıcıllarını ümumi dəvətə çağırır.
9. İslam peyğəmbəri haqqa mütləq şəkildə təslimdir.
10. Peyğəmbərlər arasında fərq qoyanlar Allaha həqiqi mənada təslim olmamışlar.
11. Möminlər digər mövcudlarla həmahəng şəkildə Allaha təslim olublar.

**85.** ﴿وَمَن يَبْتَغِ غَيْرَ الإِسْلاَمِ دِينًا فَلَن يُقْبَلَ مِنْهُ وَهُوَ فِي الآخِرَةِ مِنَ الْخَاسِرِينَ﴾

**«Və hər kim İslamdan qeyri bir dinin ardınca getsə, heç vaxt ondan qəbul olunmaz və o, qiyamətdə zərər çəkənlərdən olacaq.»**

## *Nöqtələr*

◘«Yəbtəği» cümləsindən istifadə etməklə başa düşürük ki, ayədən məqsəd o şəxslərdir ki, İslam dini onlara gəlib çatıb, amma onlar bu dinə arxa çevirib digər əqidələrin arxasınca gediblər. Bu kimi şəxslər qiyamətdə ziyana düşmüşlərdən olacaq və onların dini qəbul olunmayacaq.

◘81-ci ayəyə diqqət yetirməklə məlum olur ki, bütün peyğəmbərlərlə bağladığı əhd-peymandır. Ona görə də islam Peyğəmbərinin gəlməsi ilə İslamdan qeyri dinlər qəbul olunmur.

◘Keçən ayələrdə İslam məktəbinin əsasları göstərilmişdir ki, onun ümumi prinsipləri aşağıdakılardır:

1.Keçmiş peyğəmbərlərin hamısından əhd-peyman alınmışdır ki, özündən sonrakı peyğəmbərə iman gətirsin.

2. Bütün varlıq aləmi Allaha təslimdir və ilahi dindən qeyri bir etiqad qəbulolunmazdır.

3. İslam dininin ardıcılları bütün ilahi peyğəmbərlərə və səmavi kitablara iman gətirmişlər.

Bu ayədə açıq-aşkar elan olunur: Hər kim bu dindən qeyrisinə imanlı olsa, qəbul olunmaz. Bəli, dəvətdən, isbatdan, mübahilə və digər səmavi əqidə və kitablarla həməqidə olmasını bildirdikdən sonra, növbə açıq-aşkar və kinayəsiz danışmağındır.

## *Bildirişlər*

1.İslam dini keçmiş əqidəvi məktəblərin hamısına xitam verdi.

2. Hərtərəfli əqidəvi məktəbi tərk etmək əbədi ziyankarlığa düçar olmağa səbəb olur.

3. Axirət aləmi həqiqi zərər-ziyanların aşkar olduğu yerdir.

4. İslam dinini qəbul etmək insanın uzaqgörənlik əlamətidir.

**86.** ﴿كَيْفَ يَهْدِي اللّهُ قَوْمًا كَفَرُواْ بَعْدَ إِيمَانِهِمْ وَشَهِدُواْ أَنَّ الرَّسُولَ حَقٌّ وَجَاءهُمُ الْبَيِّنَاتُ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ﴾

**«Allah necə hidayət etsin elə bir dəstəni ki, peyğəmbərin haqq olmasını, onun möcüzələrini və aydın sübutlarını görüb iman gətirdikdən sonra yenidən kafir oldular. Allah ziyankar qövmü hidayət etməz.»**

## *Bildirişlər*

1. Hidayət yolları geniş və aydın olan bir məktəbə laqeyid yanaşıb, ona kafir olmaq çox təhlükəlidir.

2. İlkin iman kifayət deyil, onu davam etdirib müsbət və yekun nöqtəyə çatdırmaq lazımdır. Çünki dindən yayınmaq təhlükəsi həmişə mövcuddur.

3. Müsəlmanlardan bir dəstəsi həzrət Peyğəmbərin (s) öz zamanında dindən çıxdı.

4. Haqqa, məntiqə, ağıla, ilahi elçiyə və aşkar dəlillərə arxa çevirmək zülümdür. Bu iş ilahi lütf mehvərindən xaric olmağa səbəb olar.

5. Allah-təalanın dəyişməz qaydalarından biri də budur ki, O, heç vaxt zalımları hidayət etməz.

6. Dindən xaric olan şəxslərin tövbə edib qayıtması çox müşküldür.

7. Məlumatsız kafirlər agah kafirlərlə müqayisədə hidayət olunmağa daha yaxındırlar.

8. İlahi hidayətə nail olmaq və ya ondan məhrum olmaq insanın öz əlindədir.

**87.** ﴿أُوْلَئِكَ جَزَآؤُهُمْ أَنَّ عَلَيْهِمْ لَعْنَةَ اللّهِ وَالْمَلآئِكَةِ وَالنَّاسِ أَجْمَعِينَ﴾

**"Onların (aşkar dəlillərdən və iman gətirdikdən sonra mürtəd olanların) cəzası budur ki, Allahın, mələklərin və ümum camaatın lənətinə düçar olsunlar."**

**88.** ﴿ خَالِدِينَ فِيهَا لاَ يُخَفَّفُ عَنْهُمُ الْعَذَابُ وَلاَ هُمْ يُنظَرُونَ ﴾

**“Onlar daim (Allah, mələklər və xalqın) lənətinə düçardırlar. Onların nə əzabı azalar, nə də onlara möhlət verilər.”**

## *Nöqtələr*

◘Mürtədlərə bütün xalqın, hətta kafirlərin də nifrin səbəbi bu ola bilər ki, agah vicdanlar və sağlam fitrətlər agahanə etiraz və küfrü məhkum edir. Belə bir səbəb də ola bilər ki, agah küfrün təsiri nəsillər və əsirlərə sirayət edib bir çox insanların oda çəkilməsinə səbəb olur.

◘Allahın, mələklərin və xalqın bu lənətinin oxşarı “Bəqərə” surəsinin 159-cu ayəsində haqqı gizlədən alimlərə ünvanlanmışdır. Beləcə, haqqı gizlədən alimin günahı ilə agah şəkildə imana arxa çevirən mürtədin günahı eynidir.

## *Bildirişlər*

1. Mələklər insanın çirkin düşüncə və əməllərinə qarşı öz etirazlarını bildirirlər.
2. Xalq mürtəd və azğın insanlara etiraz etməlidir.
3. İlahi əzabın keyfiyyət və kəmiyyəti haqqında məlumat insanda təsir qoyur.

**89.** ﴿ إِلاَّ الَّذِينَ تَابُواْ مِن بَعْدِ ذَلِكَ وَأَصْلَحُواْ فَإِنَّ اللهَ غَفُورٌ رَّحِيمٌ ﴾

**“(Küfr və mürtədlikdən sonra) tövbə edən və islah olanlar istisnadır. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Əgər kafir bir şəxs müsəlman olsa, İslam qanunları onun bütün keçmişini pak tanıtdırır. Amma mürtəd bir şəxs tövbə edib yenidən müsəlman olsa, yerinə yetirmədiyi bütün əməlləri icra etməli, öz düşüncə və əməllərini təmizləməli, buraxdığı namaz və orucların qəzasını yerinə yetirməlidir.

## *Bildirişlər*

1.Tövbə yolu hətta dindən çıxanlar üçün də açıqdır.
2. Həqiqi tövbənin nişanəsi günahların islahıdır.
3. Allah nəinki tövbələri qəbul edir, hətta günahları da bağışlayır. Allah tövbə edən şəxsi sevib ona mərhəmət göstərir.

**90.** ﴿ إِنَّ الَّذِينَ كَفَرُواْ بَعْدَ إِيمَانِهِمْ ثُمَّ ازْدَادُواْ كُفْرًا لَّن تُقْبَلَ تَوْبَتُهُمْ وَأُوْلَئِكَ هُمُ الضَّآلُّونَ ﴾

**“Əlbəttə, iman gətirdikdən sonra kafir olan, öz küfrünü artıranların heç vaxt tövbəsi qəbul olmayacaq. Onlar həmin azğınlardır.**

## *Nöqtələr*

◘Mürtədlər və dindən çıxanlar iki növdür:

a) Milli mürtəd – onun nütfəsi qoyulan zaman ata-anası kafir idilər. Büluğ həddinə çatdıqdan sonra həmin şəxs küfrünü bildirib, sonradan İslamı qəbul edir. Sonra isə yenidən İslamdan çıxır. Bu şəxs müsəlman doğulmadığından cəzası yüngüldür.

b) Fitri mürtəd– bu şəxsin nütfəsi qoyularkən ata-anası müsəlman idi. Büluğ həddinə çatdıqdan sonra İslamı qəbul edir, sonradan dindən çıxır. Bu şəxsin cəzası ağırdır. Məsələn, edam.

◘Tövbə yolu kimsəyə bağlı olmasa da, kimlərsə tövbədən sui-istifadə etməməlidir. İmandan əl götürüb, daim küfr və inadkarlıq edən, yalnız ölüm məqamında və ya müsəlmanlar qələbə çaldıqdan sonra tövbə edənlərin tövbəsi qəbul olmayacaq. Çünki tövbənin şərtləri və yolları var. Belələrinin tövbəsində uyğun şərtlər ödənmir.

## *Bildirişlər*

1. Yalnız ömrün sonunadək davam edən iman dəyərlidir. Küfrlə sonuclanan iman faydasızdır.
2. İnsan azaddır. O həm iman gətirə bilər, həm də kafir ola bilər. İnsan həm öz imanında, həm də küfründə möhkəm dayana bilər. O həm tövbə etmək, həm də günahını davam etdirmək imkanına malikdir.
3. Hər bir kamillik və ya azğınlıq artıb-azalmaq qabiliyyətinə malikdir. Məsələn, həm elm və hidayət[1], həm də azğınlıq arta bilər.
4. Allah tövbələri qəbul edəndir. Amma bəziləri tövbənin qəbul şərtlərini pozurlar. Cərrah nə qədər mahir olsa da, xəstədə bərpa gücü olmadıqda nəticə hasil olmur.
5. Küfrdə israr və onun davamı tövbənin qəbul olmasının qarşısını alır.

**91.** ﴿ إِنَّ الَّذِينَ كَفَرُواْ وَمَاتُواْ وَهُمْ كُفَّارٌ فَلَن يُقْبَلَ مِنْ أَحَدِهِم مِّلْءُ الأرْضِ ذَهَبًا وَلَوِ افْتَدَى بِهِ أُوْلَئِكَ لَهُمْ عَذَابٌ أَلِيمٌ وَمَا لَهُم مِّن نَّاصِرِينَ ﴾

**“Həqiqətən, küfr edib küfr halında (tövbəsiz) ölənlər yeri qızılla doldurub fidyə olaraq əvəz versələr, onların heç birindən heç vaxt qəbul olunmaz. Onlar üçün dərdli əzab var. Onların heç bir yardımçısı yoxdur.”**

## *Nöqtələr*

◘Dünya və axirət arasında fərqlər mövcuddur. O cümlədən:

---

[1] “Taha”, 114; “Muhəmməd”, 17.

1. Dünyada insanın qəm-qüssəsi başqalarına sirayət edir. Axirətdə isə belə deyil.

2. İnsan dünyada üzrxahlıq, kəffarə ödəmək, yalan və hiylə, tövbə və nalə vasitəsi ilə öz problemini həll edə bilir. Axirətdə isə başqa cürdür.

3. Dünya acılıqlarını aradan qaldırmaq olur. İnsan acılıqlara adət etdikdə onlar azalır. Axirətdə isə belə deyil.

## *Bildirişlər*

1. Ən böyük təhlükə kafir halda ölməkdir. Müsəlman ölmək isə peyğəmbərlərin arzusudur.

2. Qiyamətdə dünya malı kara gəlmir. Yer tutan qədər qızılın qiyamətdə qara qəpik qədər dəyəri yoxdur.

3. İmanın dəyəri bütün maddiyyatın fövqündədir. Qiyamətdə yalnız iman insana nicat verə bilir.

4. Kafir halda ölüm şəfaət yolunu da bağlayır.

**92.** ﴿ لَن تَنَالُواْ الْبِرَّ حَتَّى تُنفِقُواْ مِمَّا تُحِبُّونَ وَمَا تُنفِقُواْ مِن شَيْءٍ فَإِنَّ اللّهَ بِهِ عَلِيمٌ ﴾

**"Sevdiyiniz şeylərdən (Allah yolunda) infaq etməyincə yaxşılığa yol tapmazsınız. Bilin ki, infaq etdiyiniz hər bir şeydən Allah hökmən xəbərdardır."**

## *Nöqtələr*

◘Böyük xeyir-bərəkətə, əkin və ya yaşayış üçün hazır olan yerə "birr" deyilir. İstər insan, istərsə də digər canlıların qidası olan buğda isə "burr" adlanır.

Lüğət mənası "xeyirdə genişlənmədən" ibarət olan "birr" sözünün Quranda iman, saleh əməl, cihad, namaz, əhdə vəfa kimi nümunələri zikr olunur.[1] Hamıya tövsiyə olunur ki, "birr" yerinə yetirməkdə bir-birlərinə yardımçı olsunlar.[2] Bu ayədə də buyurulur ki, siz sevdiyiniz şeylərdən infaq etməyincə bu qiymətli incini əldə edə bilməyəcəksiniz.

Möminlərin infaqında nümunələr:

1. Mədinənin xurma ağaclarının çoxu Əbu-Təlhə Ənsariyə məxsus idi. O öz bağını çox sevirdi. Peyğəmbər məscidi ilə üzbəüz yerləşmiş bu bağda şirin sulu bir çeşmə vardı. Həzrət Peyğəmbər (s) arabir bu bağa daxil olub həmin çeşmənin suyundan içərdi. Bu gözəl və ali bağın xalqın diqqətini özünə cəlb edən böyük gəliri vardı. "Lən tənalul-birrə hətta..." ayəsi nazil olduqda Əbu-Təlhə Ənsari həzrət Peyğəmbərin (s) yanına gəlib ərz etdi: "Bu bağ mənim əlimdə olanlar arasında ən sevimlisidir. Onu Allah yolunda infaq etmək istəyirəm." Həzrət Peyğəmbər (s) buyurdu: "Yaxşı müamilədir. Afərin sənə! Amma mən təklif

[1] "Bəqərə", 177.
[2] "Maidə" 2.

edirəm ki, bu bağı yoxsul qohumların və yaxınlarına verəsən." O, qəbul etdi və bağı öz yoxsul yaxınları arasında bölüşdürdü.[1]

2. Bir gün Əbuzərin evinə qonaqlar gəldi. Əbuzər dedi: "Mənim başım qarışıqdır, özünüz dəvələrimdən birini kəsib yemək hazırlayın." Onlar arıq bir dəvə seçdilər. Əbuzər narahat oldu və soruşdu: "Nə üçün yaxşı bir dəvə götürmədiniz?" Dedilər: "Onu sənin gələcək ehtiyacların üçün saxladıq." Əbuzər buyurdu: "Mənim ehtiyaclı günüm qəbir günümdür."[2]

3. Həzrət Fatiməni (ə) toy günü ər evinə aparanda bir fəqir ondan köhnə bir köynək istədi. Həzrət Zəhra (ə) bu ayəni xatırlayıb öz təzə gəlinlik köynəyini infaq etdi.

4. Abdullah ibn Cəfər bir bağda işləyən qara qulam gördü. Yemək vaxtı bir it bağa daxil oldu və qulamın qarşısında oturdu. Qulam ona bir tikə çörək verdi. İt isə yenə oturub öz baxışları ilə nəsə gözləyirdi. Qulam öz yeməyini tikə-tikə itə verib qurtardı. Abdullah ondan soruşdu: "Özün nə yeyirsən?" Dedi: "Mənim bu gün payım yoxdur." Abdullah soruşdu: "Nə üçün bu işi gördün?" Qulam dedi: "Bu it uzaq yol gəlib və acdır." Abdullah qulamın səxavətinə heyran qaldı. Həm bağı, həm də qulamı satın aldı. Qulamı azad edib bağı ona bağışladı.[3]

◘Hədisdə oxuyuruq ki, "birrə" çatmaq yolu valideyn ağız açmamış ona kömək etməkdir. Hətta valideyn ehtiyacsız olsa da.[4]

◘İmam Sadiq (ə) Müfəzzəl ibn Ömərə buyurdu: "Atamın belə buyurduğunu eşitdim: "Bir il ötdükdən sonra malından az və ya çox bizə çatmayan kəsə qiyamət günü Allah nəzər salmaz. Yalnız bağışladıqdan sonra nəzər salar. Ey Müfəzzəl! Bu, Allahın Öz kitabında şiələrə zəruri etdiyi bir vəzifədir. Biz birr, təqva və hidayət yoluyuq."[5]

## *Bildirişlər*

1. Salehlərin məqamına çatmağın yeganə yolu təkcə zikr və dua yox, həm də xoşa gələn şeylərdən xalisanə infaq edilməsidir.

2. İslam məktəbində infaq təkcə yoxsulluğu aradan qaldırmaq məqsədi daşımır. İnfaq həm də bu işi görəni kamilləşdirir. Xəyali sevgiləri ürəkdən çıxarmaq, səxavət ruhunun çiçəklənməsi infaq edən üçün infaqın mühüm təsirlərindəndir.

3. Dünyaya bağlılıq «birr» məqamından məhrumluq səbəbidir.

4. İnsanın səadəti onun ictimai və mərhəmətli baxışından asılıdır.

5. İnsan üçün ən seviləsi şey candır. Allah yolunda canından keçən şəhidlər ən üstün «birr» məqamına çatırlar.

6. Yoxsulların sevdiyini yox, öz sevdiyini infaq et. Çünki fəqirlər dəyərsiz şeyləri də xoşlaya bilərlər.

---

[1] "Təfsire-kəbir"; "Təfsire-Məcməül-bəyan"; "Səhih Buxari", c. 2, səh. 81.
[2] "Təfsire-Məcməül-bəyan".
[3] "Təfsire-Əl-Mənar", c. 3, səh. 376.
[4] "Kafi", c. 2, səh. 157.
[5] "Təfsire-Əyyaşi", c. 1, səh. 182.

7. İlahi tərbiyə alan insan var-dövlət əsiri deyil. İlahi tərbiyəli şəxs var-dövlətin qulu yox, hakimidir.

8. İnfaqda əsas kəmiyyət yox, keyfiyyətdir.

9. İslam sərvəti yox, insanı yüksək dəyərləndirən məktəbdir.

10. İnfaqda nə ifrat, nə də təfritə yol ver. Yalnız sevdiyin şeydən bir hissəsini bağışla.

11. Hər bir insanın daxilində var-dövlət sevgisi var. Bu məhəbbətin güclənib infaqın qarşısını alması təhlükəlidir. [1]

12. Az da olsa infaq etmək mühümdür. (Bəli, əvvəldə dediyimiz kimi saralmış bir yarpaq su üzərində yüzlərlə qarışqa üçün gəmi ola bilər.)

13. Bir halda ki, Allah bizim infaqımızdan xəbərdardır, nə üçün infaqın kəmiyyət və keyfiyyətinə ciddi yanaşmayaq?! Gəlin, ən yaxşı şeylərdən infaq edək.

## *DÖRDÜNCÜ CÜZ*

93. ﴿كُلُّ الطَّعَامِ كَانَ حِلاًّ لِّبَنِي إِسْرَائِيلَ إِلاَّ مَا حَرَّمَ إِسْرَائِيلُ عَلَى نَفْسِهِ مِن قَبْلِ
أَن تُنَزَّلَ التَّوْرَاةُ قُلْ فَأْتُواْ بِالتَّوْرَاةِ فَاتْلُوهَا إِن كُنتُمْ صَادِقِينَ﴾

**“Bütün qidalar və xörəklər Bəni-İsrail üçün halal idi. Yalnız Tövrat nazil olmamışdan qabaq İsrailin (Yaqubun) özünə haram etdiyi şeylərdən başqa! De ki, əgər düz deyirsinizsə (ki, bunlar əvvəlcədən Tövratda haram olmuşdu), Tövratı gətirin və onu tilavət edin. (Görün ki, bir çox şeyləri vəhy nazil olmadan özünüzə haram etmisiniz.)**

94. ﴿ فَمَنِ افْتَرَىَ عَلَى اللّهِ الْكَذِبَ مِن بَعْدِ ذَلِكَ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ ﴾

**“Bundan sonra hər kəs Allaha yalan aid etsə, onlar zalımdırlar.”**

## *Nöqtələr*

◘Təfsirdə deyilir ki, Bəni-İsrail dəvə əti və dəvə südünü haram etməməsini İslam peyğəmbərinə eyb tuturdular. Onlar bununla İslam ayinlərinin İbrahim, Musa və İsa ayinləri ilə uyğun gəlməməsini bildirmək istəyirdilər. Bu ayə onlara cavab olaraq nazil edildi və bəyan olundu ki, bütün qidalar Bəni-İsrail üçün halal idi. Yalnız həzrət Yaqub bəzi qidaları özünə haram etmişdi. Bəzi təfsirlərdə bildirilir ki, həzrət Yaqub dəvə əti ona zərərli olduğu üçün bu ətdən istifadə etmirdi. Bəni-İsrail isə bunu şəri və əbədi bir qadağa kimi qəbul etmişdi.[2]

◘İnsanın ağzında dad verən şeylər “təam” adlanır. “Hill” sözü “iqd” sözünün müqabilində işləndikdə azadlıq mənasını verir.

---

[1] “Adiyat”, 8.

[2] “Təfsire-Əyyaşi”, c. 1, səh. 184.

## *Bildirişlər*

1. Qidaların halallığı səmavi dinlərdə dəyişməz bir əsasdır.
2. Dəlilsiz və şəri qadağasız halalları haram bilməyin.
3. Ən yaxşı dəlil qarşı tərəfin əqidə və səmavi kitabından olan dəlildir.

95. ﴿ قُلْ صَدَقَ اللّهُ فَاتَّبِعُواْ مِلَّةَ إِبْرَاهِيمَ حَنِيفًا وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ ﴾

**“(Ey peyğəmbər,) de ki, Allah doğru deyir. Haqpərəst İbrahimin ayinlərinə itaət edin, o, müşriklərdən deyildi.”**

## *Nöqtələr*

◘Azğınlıqdan uzaqlaşıb hidayət və doğru yola üz tutan şəxsə “hənif” deyilir.

## *Bildirişlər*

1.Özünü İbrahim davamçısı sayan kitab əhli müvəhhid (tək Allahçı) olmalıdır. Çünki, İbrahim müşrik deyildi.

2. İbrahimin haqpərəstliyi onun ayinini möhkəmləndirdi.

96. ﴿ إِنَّ أَوَّلَ بَيْتٍ وُضِعَ لِلنَّاسِ لَلَّذِي بِبَكَّةَ مُبَارَكًا وَهُدًى لِّلْعَالَمِينَ ﴾

**“Həqiqətən, xalq üçün təyin olunmuş ilk (ibadət) evi Bəkkə torpağındakı evdir. O, aləmlər üçün bərəkət və hidayət mayasıdır.”**

## *Nöqtələr*

◘Xalqın izdiham məhəlli “bəkkə” adlanır.

◘Bəni-İsrailin iradlarından biri bu idi ki, nə üçün müsəlmanlar Beytül-Müqəddəsin miladdan min il qabaq həzrət Süleyman tərəfindən tikildiyini bildikləri halda, onu bir kənara qoyub Kəbəni qiblə seçmişlər. Ayədə onlara cavab olaraq buyurulur: “Kəbə ilk gündən ilk ibadət evi olub və o, hər yerdən qədimdir.

◘İmam Sadiq (ə) “ilkin ev” təbiri haqqında buyurmuşdur: “Məkkə əhli Kəbədən sonra bu yerə toplaşdığı üçün Kəbə daha əvvəlki sayılmalıdır.

Ona görə də Məscidül-həramı genişləndirmək məqsədi ilə Kəbə ətrafındakı evləri uçurmaq olar.[1]

◘“Təfsire-Əl-mizanda” deyilir: Yerin Kəbədən genişləndirilməsi haqqında rəvayətlər çoxdur. Bu fikrə qarşı heç bir dəlil yoxdur və o Quranla da zidd deyil.[2]

◘Həzrət Əli (ə) “Nəhcül-bəlağə”nin 192-ci xütbəsində buyurur: “Allah Adəmdən başlamış dünya əhlinin son nəfərinədək bütün xalqı Kəbə daşları ilə

[1] “Vəsail”, 12, səh. 17.
[2] “Kafi”, c. 4, səh. 189.

sınayar." İmam Baqir (ə) buyurmuşdur: "Həzrət Adəm, Həzrət Süleyman və həzrət Nuh da Kəbə ətrafında həcc əməllərini yerinə yetirmişlər.[1]

◘Quranda Kəbə müxtəlif şəkillərdə yad olunmuşdur. Onlardan bəzilərinə nəzər salaq: Kəbə ilk evdir[2], Kəbə xalqın qiyam mərkəzidir[3], Kəbə maliksiz azad evdir[4], Kəbə ictima məhəlli, xalqın əmin-aman evidir.[5]

## *Bildirişlər*

1. Kəbə xalqın ibadət və duası üçün bünövrəsi qoyulmuş ilk evdir.
2. Məbudların tarixi keçmişi onların dəyər ölçülərindəndir.
3. Kəbənin xeyir və bərəkəti təkcə möminlər üçün yox, hamı üçündür.
4. Xalqın olması Kəbə üçün bir dəyərdir.
5. Kəbə xalqın hidayət mayasıdır.

97. ﴿فِيهِ آيَاتٌ بَيِّنَاتٌ مَّقَامُ إِبْرَاهِيمَ وَمَن دَخَلَهُ كَانَ آمِنًا وَلِلّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلاً وَمَن كَفَرَ فَإِنَّ الله غَنِيٌّ عَنِ الْعَالَمِينَ﴾

**"Onda aydın nişanələr, (o cümlədən) İbrahimin məqamı var. Hər kəs oraya daxil olsa, amandadır. Allah üçün o evə həccə getmək xalqın öhdəsinədir. (Əlbəttə,) hər kəsdə bu yol üçün güc olsa! Hər kəs küfr etsə (gücü çatdığı halda Həccə getməsə, bilsin ki,) həqiqətən Allah bütün aləmlərdən ehtiyacsızdır."**

## *Nöqtələr*

◘Məkkə və Kəbə ilahi qüdrət və nişanələrin sərgisidir. Bu müqəddəs məhəllin tarixi ibrətamiz xatirələr və əhvalatlarla zəngindir.

Kəbənin tikintisində İbrahim bənnalıq, İsmail isə fəhləlik etmişlər. Əbrəhənin filə süvar olmuş qoşunu Kəbəni viran qoymaq məqsədi ilə hücum çəkdikdə ilahi qüdrəti və əbabil quşları vasitəsi ilə məhv edilmişlər. Kəbə divarı Əlinin (ə) təvəllüdü zamanı onun anasının daxil olması üçün yarılmışdır. Orada doğulan körpə bir müddət sonra Kəbədəki bütləri yerə dağıtdı. Qara dərili həbəşi qul Bilal, Məkkə əyanlarının bərəlmiş gözləri qarşısında Kəbənin üstünə çıxıb azan dedi. Bir gün də gələr ki, Allahın son höccəti imam Məhdi (ə) əlini onun divarına qoyub bəşəriyyətin xilası üçün nida çəkər, bütün aləmi İslama dəvət edər!

◘Məkkə əmin-aman bir ilahi şəhərdir. Bu şəhərə daxil olan kəs amandadır. Hətta cinayətkar bir insan Məscidul-hərama daxil olsa, oradan çıxanadək

[1] "Təfsire-bürhan", c. 1, səh. 300.
[2] "Ali-İmran", 96.
[3] "Maidə", 97.
[4] "Həcc", 29.
[5] "Bəqərə", 125.

toxunulmazdır. Onu yalnız sıxıntıda saxlamaqla Məscidül-həramdan çıxmağa vadar etmək olar.[1]

◘Kəbə kənarında İbrahimin məqamı (“Məqame-İbrahim”) yerləşir. Rəvayətlərdə nəql olunduğuna görə, Kəbənin divarlarını ucaldarkən İbrahimin öz ayağı altında qoyduğu daş “Məqame-İbrahim” adlandırılmışdır. Bu daşın üstündə həzrət İbrahimin ayaq izi var. Bu daş və onun üzərindəki izin İsadan və Musadan əsrlərcə qabaqdan bu günədək qorunması, Kəbə ətrafında baş vermiş hadisələrin, döyüşlərin, sellərin təsirindən amanda qalması özü ilahi qüdrət nişanəsidir.

◘“Həcc” hərəkətlə müşayiət olunan məqsəd mənasını verir. “Məhəccə” hamar və düz yola deyilir. Bu yol insanı məqsədə çatdırır. İslamda «həcc» dedikdə Allah evinin ziyarəti və bu ziyarətə aid əməllərin yerinə yetirilməsi nəzərdə tutulur.

◘İslam Peyğəmbəri (s) Həzrət Əliyə (ə) buyurmuşdur: “Qüvvəsi çatdığı halda həcci inkar və tərk edən hər bir şəxs kafirdir. Bu işi bu gün-sabaha salıb ölən insan yəhudi və məsihi kimi ölmüşdür.”[2]

◘Həcc xərcinin insanın öz malından olması vacib deyil. Həcc xərci hədiyyə olunan kəs üçün həcc ziyarəti vacibdir.[3]

◘İmam Sadiq (ə) “ayatun bəyyinat” təbiri haqqında buyurmuşdur: “Bu sözdə məqsəd İbrahimin məqamı, həcərül-əsvəd (qara daş) və hicre-İsmaildir.” Həzrətdən soruşurlar ki, əmin-aman məhəl Kəbədir, yoxsa Məscidul-həram bütövlükdə? Həzrət buyurur ki, hərəm (Kəbə və onun ətrafı).[4]

◘Bir şəxs İmam Sadiqdən (ə) əmin-aman yer haqqında soruşduqda imam buyurdu: “Hər kəs bu evi ziyarət etsə və bilsə ki, bu evin ziyarətini Allah əmr etmişdir, eləcə də, Əhli-beyti (ə) lazımınca tanısa, dünya və axirətdə amanda olacaq.[5]

## *Bildirişlər*

1. Allah evində aydın nişanələr çoxdur. Müqəddəslik və mənəviyyat, Adəmdən Xatəmədək peyğəmbərlərin xatirələri, peyğəmbərlər üçün təvaf yeri və hamı üçün qibləgah olma nişanələri həmin qəbildəndir.
2. İbrahim elə bir məqam sahibidir ki, onun ayaq izi Məkkəni dəyərləndirir.
3. Vəhhabilərin düşüncəsinin əksinə olaraq, övliyaların yaxınlığındakı əşya müqəddəsləşir.
4. Yer üzündə müəyyən bir məntəqəni əmin-aman, toxunulmaz qərar verməsi İslamın imtiyazlarındandır. Belə bir göstəriş sayəsində zəiflər və güclülər bir yerdə toplana bilir.
5. Vacib əməllər insanın boynunda bir növ ilahi əhddir.
6. Həcc xalisanə və yalnız Allaha xatir olmalıdır.

---

[1] “Kafi”, c. 4, səh. 226.
[2] “Mən la yəhzuruhul-fəqih”, c. 4, səh. 368; “Kafi”, c. 4, səh. 265.
[3] “Kafi”, c. 4, səh. 266.
[4] “Kafi”, c. 4, səh. 223.
[5] “Kafi”, c. 4, səh. 540.

7. İnsana verilən göstərişlər onun gücündən yuxarı olmur. İnsanın iqtisadi, fiziki vəziyyəti və ətrafındakı şərait onun imkanını müəyyənləşdirir.
8. "İstitaət" (vəzifəli sayılmaq üçün zəruri güc) həccin şərtidir.[1]
9. Həccin inkarı və onun tərk edilməsi küfr səbəbidir.
10. Allah bizim əməllərimizdən ehtiyacsızdır. İnsanın yerinə yetirdiyi ilahi göstərişlərin faydası onun özünə aiddir.
11. Allah dəvət edir, amma minnət götürmür.

**98.** ﴿ قُلْ يَا أَهْلَ الْكِتَابِ لِمَ تَكْفُرُونَ بِآيَاتِ اللّهِ وَاللّهُ شَهِيدٌ عَلَى مَا تَعْمَلُونَ ﴾

**"De ki, ey kitab əhli, nə üçün Allahın ayələrinə kafir olursunuz? Halbuki Allah sizin əməllərinizə şahiddir."**

## *Bildirişlər*

1. Məzəmmətlə, amma ədəbli şəkildə verilən sual ən yaxşı xəbərdarlıq üsuludur.
2. Əgər Allahın əməllərimizə şahid olduğunu bilsək, onunla müxalifətçilikdən əl çəkərik.
3. Kitab əhli gizli şəkildə müsəlmanlara qarşı fəaliyyət göstərirdi.

**99.** ﴿ قُلْ يَا أَهْلَ الْكِتَابِ لِمَ تَصُدُّونَ عَن سَبِيلِ اللّهِ مَنْ آمَنَ تَبْغُونَهَا عِوَجًا وَأَنتُمْ شُهَدَاء وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ ﴾

**"De ki, ey kitab əhli! Nə üçün iman gətirənləri Allahın yolundan çəkindirirsiniz? Özünüz buna (bu yolun düz olduğuna) şahid olduğunuz halda onu əymək istəyirsiniz. Allah gördüyünüz işlərdən xəbərsiz deyil."**

## *Nöqtələr*

◘Əvvəlki ayədə kitab əhlinin küfrü haqqında soruşuldu. Bu ayədə isə küfr edənlərə belə müraciət olunur: Özünüz ki, iman gətirməmisiniz və ilahi ayələrə küfr edirsiniz, nə üçün başqalarının Allah yolunu getməsinə mane olursunuz?!

## *Bildirişlər*

1. Kitab əhli İslamın inkişafının qarşısını almaq üçün maneələr yaradır.
2. İslamla mübarizə yollarından biri də onun simasını təhrif etməkdir.
3. Düşmənlər hər an sizi azdırmaq üçün çalışırlar.
4. Düşmənlər sizin ayinlərinizin haqq olmasını bilirlər.
5. Fitnəni yaradan azğın alimlərdir.
6. Əgər Allahın hər an bizim əməllərimizdən xəbərdar olduğuna inansaq, xilaf işlərdən əl çəkərik.

---
[1] "Kafi", c. 4, səh. 267

**100.** ﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُوَاْ إِن تُطِيعُواْ فَرِيقًا مِّنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ يَرُدُّوكُم بَعْدَ إِيمَانِكُمْ كَافِرِينَ ﴾

**“Ey iman gətirənlər! Əgər kitab əhlindən bir dəstəsinə itaət etsəniz, sizi iman gətirdikdən sonra küfrə döndərərlər.”**

## *Nöqtələr*

◘Təfsirdə oxuyuruq: Şas ibn Qeys adlı bir yəhudi Mədinə müsəlmanlarının, xüsusi ilə də Ous və Xəzrəc qəbilələrinin səmimiyyətini görüb çox narahat oldu və öz-özünə dedi: “Bu iki qəbilə bir vaxt bir-birləri ilə savaşırdılar. İndi isə Məhəmmədin (s) rəhbərliyi sayəsində sülhə gəlib, mehriban yaşayırlar. Əgər bu vəziyyət davam etsə, yəhudilərin vəziyyəti pis olacaq.” O, ətrafına bir qədər adam toplayıb bir cavanı müsəlmanlar arasında ikitirəlik yaratmaq üçün göndərdi. Bu gənc iki qəbilə arasındakı keçmiş «Biğas» döyüşünü xatırlatmalı və ötən kin-küdurəti təzələməli idi. Həmin gənc öz işini yerinə yetirdi və az qaldı ki, iki tayfa arasında savaş qızışsın. Amma həzrət Peyğəmbər (s) öz sakitləşdirici sözləri ilə onlara xəbərdarlıq etdi və düşmənin qurğusunu açıqladı. Onlar silahı yerə qoyub bir-birləri ilə qucaqlaşdılar və öz əməllərindən peşman oldular. Təfsirçilərin bildirdiyinə görə, bu hadisə ilə bağlı hazırkı və əvvəlki iki ayə nazil oldu. Bu ayələr kitab əhlini məzəmmət etməklə yanaşı, müsəlmanlara xərdarlıq edirdi.[1]

## *Bildirişlər*

1.Azğın alimlərə itaət küfr səbəbidir.
2. Əməlin əqidəyə təsiri var. Azğınlara itaət əqidə çaşqınlığı yaradır.
3. Kafirlərə itaət küfrlə nəticələndiyindən onlardan çəkinmək zəruridir.
4. Biganələrə ardıcıllığın nəticəsi küfr və pis aqibətdir.

**101.** ﴿ وَكَيْفَ تَكْفُرُونَ وَأَنتُمْ تُتْلَى عَلَيْكُمْ آيَاتُ اللّهِ وَفِيكُمْ رَسُولُهُ وَمَن يَعْتَصِم بِاللّهِ فَقَدْ هُدِيَ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ ﴾

**“Allahın ayələri sizə oxunduğu və Onun rəsulu aranızda olduğu halda necə küfr edirsiniz?! Allaha (Onun dini və Kitabına) sığınan, şübhəsiz, doğru yola hidayət olmuşdur.”**

## *Bildirişlər*

1. Azğınlıq və küfrün zəminəsi ya yol, ya da rəhbərin olmamasıdır. Amma ilahi kitab və sünnə, eləcə də, ilahi rəhbər olan yerdə azğınlığa yer yoxdur.

---

[1] “Təfsire-Məcməül-bəyan”; “Təfsire-Ruhul-bəyan”; “Təfsire-Ruhul-məani”; “Təfsire-Kəbir”; “Təfsire-Qurtubi”; “Təfsire-Mərağİ”; “Təfsire-Nümunə”.

2. Küfr və azğınlığın qarşısını təkcə qanunlar ala bilmir. Bu işdə rəhbərin də olması zəruridir.

3. Allaha sığınma və təvəkkül, eləcə də, Ondan yardım diləmə bütün vəsvəsələrdən və azğınlıqlardan amanda qalmaq rəmzidir.

4. Allaha sığınma yolu hər kəsin üzünə açıqdır.

5. Allahdan qeyri istənilən bir şəxsə və ya məqama üz tutmaq çaşqınlıqdır.

6. Hərəkətdən də mühüm olan şey doğru yolun tapılması və həmin yolda hərəkətdir.

7. Hidayət Allaha bağlanmağın qəti nəticəsidir.

8. Allaha bağlanmaq agahanə seçimlə müşayiət olunan ciddi bir hərəkətdir və bu hərəkətin şərti övliyalarla yoldaşlıqdır. ("Cameə-Kəbirə" ziyarətində imam Hadi (ə) buyurmuşdur: "Allahın övliyalarına pənah aparma və təvəssül əslində insanın özünü Allahın himayəsində qərar verməsidir.")

**102.** ﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ حَقَّ تُقَاتِهِ وَلاَ تَمُوتُنَّ إِلاَّ وَأَنتُم مُّسْلِمُونَ ﴾

**"Ey iman gətirənlər! İlahi təqvaya layiq şəkildə Allahdan çəkinin və yalnız müsəlman olaraq ölün."**

## *Nöqtələr*

◘İman, elm, təqva kimi kamilliklərin mərhələləri var. İbtidai, üstün, mütləq kamal mərhələləri mövcuddur. Quranda oxuyuruq: "Pərvərdigara! Mənim biliyimi artır."[1] "Məkarimul-əxlaq" duasında isə belə oxuyuruq: "Pərvərdigara! Mənim imanımı kamala çatdır." Bu ayədə isə təqvanın ən ali dərəcəsini əxz etmək tövsiyə olunur.

## *Bildirişlər*

1. Mömin hər gün bir mərtəbə yuxarı qalxmalıdır.

2. Gerçək təqva yaranış və məada iman sayəsində əldə olunur.

3. Təqva xeyir aqibət rəmzidir.

4. İman gətirmək kifayət deyil, imanlı qalmaq lazımdır. İşə başlamaq bir o qədər də mühüm deyil. Ən mühümü işi sona çatdırmaqdır.

5. İslam təkcə necə yaşamağı yox, həm də necə ölməyi bizə öyrədir.

6. İnsanın öz tale və aqibətində rolu var.

7. İslam həm təqvanın keyfiyyətinə əhəmiyyət verir, həm də onun ömrünün sonunadək davamını mühüm sayır.

---

[1] "Taha", 114.

103. ﴿وَاعْتَصِمُواْ بِحَبْلِ اللّهِ جَمِيعًا وَلاَ تَفَرَّقُواْ وَاذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ إِذْ كُنتُمْ
أَعْدَاء فَأَلَّفَ بَيْنَ قُلُوبِكُمْ فَأَصْبَحْتُم بِنِعْمَتِهِ إِخْوَانًا وَكُنتُمْ عَلَىَ شَفَا حُفْرَةٍ مِّنَ النَّارِ
فَأَنقَذَكُم مِّنْهَا كَذَلِكَ يُبَيِّنُ اللّهُ لَكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَهْتَدُونَ﴾

**“Hamılıqla Allahın ipinə sarılın və pərakəndə olmayın. Allahın nemətlərini xatırlayın. Bir-birinizin düşməni olduğunuz vaxt Allah qəlbləriniz arasına ülfət saldı və Onun neməti sayəsində bir-birinizin qardaşı oldunuz. Od dolu uçurumun qırağında ikən sizə ondan nicat verdi. Allah Öz ayələrini sizə belə bəyan edir. Bəlkə hidayət olasınız.**

## *Nöqtələr*

◘Həzrət Əli (ə) buyurmuşdur: “Quran “həblüllahdır (Allahın ipidir).”[1] İmam Sadiq (ə) buyurmuşdur: “Biz əhli-beyt həblüllahıq.”[2] Başqa bir rəvayətdə deyilir: “Əli ibn Əbu Talib (ə) həblüllahdır.”[3]

◘Qəlblərin dostluğu yalnız Allahın əlindədir. Quran peyğəmbərə xitabla buyurur: «Əgər yerin bütün var-yoxunu sərf etsən, Allahın istəyi olmadan qəlblər arasında ülfət yarada bilməzsən.»[4]

## *Bildirişlər*

1. Vəhdət və təfriqədən uzaqlıq ilahi bir vəzifədir.
2. Vəhdət mehvəri irq, millət, dil yox, Allahın dini olmalıdır.
3. İslamın bərəkət və xidmətlərindən qəflətdə qalmayın.
4. Vəhdət qardaşlıq amilidir.
5. Birlik böyük ilahi nemətdir. Təfriqə göy və yer əzabları sırasında ilahi bir cəzadır. Hətta İslamda vəhdət xatirinə yalan danışmaq caiz, təfriqə törədən doğru söz isə haramdır.
6. Təfriqə və ədavət ataş dərəsidir.
7. Allahın nemətləri onun ayələridir.
8. İlahi nemətlərin xatırlanması eşq amilidir və hidayət üçün zəmin yaradır.

104. ﴿ وَلْتَكُن مِّنكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ
الْمُنكَرِ وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ ﴾

**“Aranızda (başqalarını) xeyirə dəvət edən, əmr be məruf və nəhy əz münkər edən bir dəstə olmalıdır. Onlar nicat tapmışlardır.”**

---

[1] “Nəhcül-bəlağə”, x. 176.
[2] “Təfsire-Məcməül-bəyan”.
[3] “Təfsire-Nurus-səqəleyn”.
[4] “Ənfal”, 63.

## *Nöqtələr*

◘Əmr be məruf və nəhy əz münkərlə bağlı ayənin vəhdət və birlik ayələri arasında yerləşməsinin səbəbi bu ola bilər ki, təfriqəyə düçar olmuş cəmiyyətdə ya xeyirə dəvət gücü yoxdur, ya da belə dəvətlər təsirsizdir.

◘Əmr be məruf və nəhy əz münkər iki şəkildə icra olunur:

1.Ümumi bir vəzifə olaraq hər kəs öz gücü həddində bu vəzifəni yerinə yetirir.

2. Bu vəzifəni təşkilatlanmış bir dəstə öhdəsinə götürüb yerinə yetirir. Necə ki, yol hərəkətini pozmuş sürücüyə həm digər sürücülər etiraz edir, həm də yol polisi onunla qanuni şəkildə davranır.

◘Əmr be məruf və nəhy əz münkər haqqında xeyli rəvayət nəql olunmuşdur. Uyğun mövzu ilə əlaqədar həzrət Əlinin (ə) bir buyruğunu xatırlamaqla kifayətlənirik. Həzrət buyurur: "Əgər əmr be məruf və nəhy əz münkər tərk olunsa, xeyir işlər dayanar və şər adamlar hakim olar."[1]

## *Bildirişlər*

1. İslam cəmiyyətində hakimiyyət tərəfindən təyin olunmuş nəzarətçi qrup xalqın ictimai rəftarlarını izləməlidir.
2. Cəmiyyətin islahı və günahın qarşısının alınması təşkilati güc və konkret məsul olmadan mümkünsüzdür.
3. Xeyir və yaxşılığa dəvət edən kəs islamşünas, xalqşünas və üsulşünas olmalıdır. Ona görə də bütün xalq yox, bəziləri bu vəzifəni öhdəsinə almışdır.
4. Xeyirə dəvət, əmr be məruf və nəhy əz münkər mövsümi və müvəqqəti yox, daimi olmalıdır.
5. Əmr be məruf (yaxşılığa əmr) nəhy əz münkərdən (pisliyin qadağasından) öndə gəlir. Yaxşılıq yolu açıq olsa, pisliyə aparan yol daralar.
6. Cəmiyyətin inkişaf və islahına ürək yandıranlar həqiqi nicat tapmışlardır. Biganə guşənişinlərin qurtuluşdan payı yoxdur.
7. Qurtuluş insanın yalnız özünün nicat tapmasından ibarət deyil. Başqalarının da nicatı və inkişafı qurtuluş şərtlərindəndir.

105. ﴿ وَلاَ تَكُونُواْ كَالَّذِينَ تَفَرَّقُواْ وَاخْتَلَفُواْ مِن بَعْدِ مَا جَاءهُمُ الْبَيِّنَاتُ وَأُوْلَئِكَ لَهُمْ عَذَابٌ عَظِيمٌ ﴾

**"Aydın dəlil gəldikdən sonra da ixtilaf salıb pərakəndə düşənlər kimi olmayın. Onlar üçün böyük əzab var."**

## *Bildirişlər*

1. Qədim ixtilafların acı tarixindən ibrət götürək.
2. İxtilafı təkcə cəhalət törətmir. Həvəslər də ixtilaf alovunu qızışdırır.

[1] "Nəhcül-bəlağə", Həzrət Əli əleyhissəlamın vəsiyyətindən.

3. İxtilaf və təfriqə sizin dünyəvi qüdrətinizi süquta uğratmaqdan əlavə, qiyamətdə də cəhənnəm əzabına səbəb olur.

**106.** ﴿ يَوْمَ تَبْيَضُّ وُجُوهٌ وَتَسْوَدُّ وُجُوهٌ فَأَمَّا الَّذِينَ اسْوَدَّتْ وُجُوهُهُمْ أَكْفَرْتُم بَعْدَ إِيمَانِكُمْ فَذُوقُواْ الْعَذَابَ بِمَا كُنْتُمْ تَكْفُرُونَ ﴾

**"(Qiyamət) bir gündür ki, bəzi üzlər ağ, bəzi üzlər qara olar. Üzü qaralanlardan (soruşular:) İman gətirdikdən sonra küfr etdinizmi? Onda öz küfrünüzə görə ilahi əzabı dadın."**

**107.** ﴿ وَأَمَّا الَّذِينَ ابْيَضَّتْ وُجُوهُهُمْ فَفِي رَحْمَةِ اللّهِ هُمْ فِيهَا خَالِدُونَ ﴾

**"Amma üzü ağ olanlar Allahın rəhmətinə qərq olub onda əbədi qalarlar."**

## *Nöqtələr*

◘Qiyamətdə insanların üzüağlığı və üzüqaralığı əslində dünyadakı hal və ruhiyyələrin təcəssümüdür. Dünya həyatında Allah vilayətini qəbul edənləri Allah zülmətlərdən nura çıxarır. Onlar həmin gün nurani çöhrə ilə görünürlər. Amma zalım hakimlərin vilayətinə tabe olanları həmin hakimlər nurdan həvəs, təfriqə, şirk, cəhalət zülmətlərinə sövq edirlər. Onlar qiyamətdə zülmət içində məhşur olurlar.

◘Quranda on altı dəfə imandan sonra küfr, iki dəfə İslamdan sonra küfr, üç dəfə Allaha pərəstişdən sonra buzovpərəstlik, iyirmi yeddi dəfə elm və aşkar dəlildən sonra inkar mövzuları bəyan olunmuşdur. Bütün bu hallar bizi dindən çıxmanın təhlükələrindən xəbərdar edir.

**108.** ﴿ تِلْكَ آيَاتُ اللّهِ نَتْلُوهَا عَلَيْكَ بِالْحَقِّ وَمَا اللّهُ يُرِيدُ ظُلْمًا لِّلْعَالَمِينَ ﴾

**"Sənə haqq olaraq oxuduqlarımız Allahın ayələridir. Allah aləmlərə heç bir sitəm istəməz."**

**109.** ﴿ وَلِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَإِلَى اللّهِ تُرْجَعُ الأُمُورُ ﴾

**"Göylərdə və yerdə olanlar Allaha məxsusdur. Bütün işlərin qayıdışı yalnız Allaha doğrudur."**

## *Nöqtələr*

◘İlahi ayələr peyğəmbərə artırılıb-əskildilmədən, haqq və həqiqət əsasında nazil olur. Eləcə də, əməllər və reaksiyalar, mükafatlar və cəzalar möhkəm üsul və qaydalara əsaslanır. Allah Öz bəndələrinə onların gücündən artıq vəzifə tapşırmır, mükafat və cəzada insanların fərqli şəraitləri və istedadları nəzərə alınır, zülmə yol verilmir.

◘Yalnız nöqsanı olan və ya haqq yolla məqsədinə çata bilməyən kəs zülm edir. Həmçinin zülmün pisliyindən xəbərdar olmayan kəs bu yola əl atır. Allahda isə bu sifətlərin heç biri yoxdur. Əgər hər şey Allahındırsa və qayıdış yalnız Ona doğrudursa, Allahın zülm etməyə nə ehtiyacı ola bilər?!

## *Bildirişlər*

1. Peyğəmbərə vəhy nazil olması haqdır. Vəhy təxəyyül məhsulu deyil.
2. Qiyamətdəki üzüağlıq və üzüqaralıq Allahın zülmü yox, insanın öz əqidə və əməllərinin nəticəsidir.

**110.** ﴿كُنتُمْ خَيْرَ أُمَّةٍ أُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَتُؤْمِنُونَ بِاللّهِ وَلَوْ آمَنَ أَهْلُ الْكِتَابِ لَكَانَ خَيْرًا لَّهُم مِّنْهُمُ الْمُؤْمِنُونَ وَأَكْثَرُهُمُ الْفَاسِقُونَ﴾

**“Siz xalq üçün zahir olmuş ən yaxşı ümmətsiniz. Yaxşılıqları əmr edir, pisliklərə qadağa qoyursunuz və Allaha imanınız var. Əgər kitab əhli (də belə nurani ayələrə iman gətirsəydilər, şübhəsiz onlar üçün yaxşı olardı. Onlardan bəziləri mömindirlər. Amma çoxları günahkardır.”**

## *Nöqtələr*

◘Bu surənin 104-cü ayəsində əmr be məruf və nəhy əz münkərin xüsusi bir rəsmi qrup tərəfindən gerçəkləşən ayrıca mərhələsi haqqında danışıldı. Bu ayədə isə hamının vəzifəsi olan ümumi mərhələyə işarə olundu.

## *Bildirişlər*

1. Bir ümmət şüarla yox, iman, əmr be məruf və nəhy əz münkərlə ən üstün ümmət ola bilər.
2. Səsini çıxarmayan, qorxaq ümmətdə xeyir yoxdur.
3. Əmr be məruf və nəhy əz münkər (yaxşılığa əmr və pisliyin qadağası) o qədər mühümdür ki, bu meyarın yerinə yetirilməsi ümmət üçün imtiyaz sayılır.
4. Yaxşılığa əmr və pisliyə qadağa müsəlmanlar vahid bir ümmət olub hakimiyyət əldə etdikdə gerçəkləşir.
5. Müsəlmanlar bütün dünyanı islah etməyə məsuldurlar.
6. Fəsadla mübarizə aparmadan yaxşılığa dəvət etmənin nəticəsi cüzidir.
7. Ümmətin hər bir fərdi yaxşılığa əmr etməli və pisliyə qadağa qoymalıdır.
8. Əmr be mərufda yaşın, insanın sakin olduğu yerin, irqin, millətin, savadın, iqtisadi və ictimai mövqeyin rolu yoxdur.
9. Müsəlman xahiş və yalvarışla yox, hökmlə əmr etməli və qadağa qoymalıdır.
10. Əmr be məruf nəhy əz münkərdən öndə gəlir.
11. Yalnız imandan qaynaqlanmış əmr və qadağanın təsiri var.

12. Allah kitab əhlini İslama dəvət edir.
13. İslam bütün digər dinləri gücdən salmışdır.
14. İnsan yol seçimində azaddır.

**111.** ﴿ لَن يَضُرُّوكُمْ إِلاَّ أَذًى وَإِن يُقَاتِلُوكُمْ يُوَلُّوكُمُ الأَدُبَارَ ثُمَّ لاَ يُنصَرُونَ ﴾

**“Onlar (Kitab əhli) cüzi əziyyətdən savay sizə heç bir zərər vura bilməyəcəklər. Əgər sizinlə vuruşsalar, arxa çevirib qaçarlar. Həmin vaxt heç bir yardımçıları da olmaz.”**

## *Nöqtələr*

◘Bu ayə müsəlmanlara təsəlli və müjdə verir ki, onlar iman, vəhdət, əmr be məruf sayəsində hifz olunasıdırlar. Deyilir ki, düşmənin hədələrindən qorxmayın, qələbə sizinlədir və düşmən xar olacaq.

## *Bildirişlər*

1. Ruhiyyələri gücləndirmək lazımdır.
2. Müsəlmanlar iman sayəsində sığortalanmışlar.
3. Müxalifləriniz sizi məhv etmək üçün çalışırlar. Amma onlar öz məqsədlərinin cüzi bir hissəsinə çata bilirlər.
4. İmanı olmayanın müqavimət ruhiyyəsi də olmur.
5. Quran kitab əhlinin müsəlmanlar qarşısında duruş gətirməyəcəyini öncədən xəbər verir.
6. Düşmənə qalib gəlib onu qaçmağa vadar etmək iman, əmr be mərufda sabitqədəmlik sayəsində mümkün olur.
7. Günah döyüş cəbhəsində zəiflik yaradan səbəbdir.
8. Düşmənin gücünü gözlərdə alçaldın.

**112.** ﴿ضُرِبَتْ عَلَيْهِمُ الذِّلَّةُ أَيْنَ مَا ثُقِفُواْ إِلاَّ بِحَبْلٍ مِّنَ اللّهِ وَحَبْلٍ مِّنَ النَّاسِ وَبَآؤُوا بِغَضَبٍ مِّنَ اللّهِ وَضُرِبَتْ عَلَيْهِمُ الْمَسْكَنَةُ ذَلِكَ بِأَنَّهُمْ كَانُواْ يَكْفُرُونَ بِآيَاتِ اللّهِ وَيَقْتُلُونَ الأَنبِيَاء بِغَيْرِ حَقٍّ ذَلِكَ بِمَا عَصَوا وَّكَانُواْ يَعْتَدُونَ﴾

**“(Düşmənləriniz o qədər qorxaqdırlar ki,) harada olsa zillət damğası ilə damğalanmışlar. Yalnız ilahi ipə sarıldıqda və xalqa bağlandıqda belə olmaz. Onlar Allahın qəzəbinə düçar oldular və çarəsizlik möhürü ilə damğalandılar. Bunun səbəbi onların Allah ayələrinə küfr etməsi, peyğəmbərləri nahaqdan öldürmələri idi. Bunun səbəbi üsyan edib, həddi aşmaları idi.”**

## *Nöqtələr*

◘Rəvayətlərdə nəql olunduğu kimi, bu ayə Allah və Onun rəsuluna itaətsizlik səbəbindən qəzəbə gəlmiş yəhudi qövmü haqqındadır. Onlar zəlalət möhürü ilə damğalanmışlar. Onların bir günahı da peyğəmbərləri qətlə yetirmələri idi. Rəvayətlərə əsasən, burada qılıncla öldürmək yox, peyğəmbərlərin sirlərinin açılması nəzərdə tutulur. Bu sirlərin açılması zalım hakimlərin müvəffəqiyyəti və peyğəmbərləri qətlə yetirməsinə səbəb olmuşdur.[1]

## *Bildirişlər*

1. Küfr və peyğəmbərləri qətlə yetirməyin nəticəsi zillət və çarəsizlikdir.
2. Yəhudilər həmişə zəlildir. Onlar bəzən təbliğat, iqtisadiyyat və siyasətdə önə keçsələr də, kəramət, izzət, məhbubiyyət və əmniyyət baxımından ən alçaq vəziyyətdədirlər. Necə ki, bir oğru böyük məbləğ əldə etsə də, heç vaxt böyük məqam qazana bilmir.
3. Müxaliflərin zəlil vəziyyətinin bəyanı ilə möminlərin ruhiyyəsini gücləndirin.
4. İki şey izzət rəmzidir: Allahın qüdrətinə daxilən inam, ümmət və millətlərlə gözəl rabitələr.
5. Yəhudilərin xilas yolu İslama iman gətirməkdir.
6. Əqidənin əmələ təsiri var.
7. Yəhudi qövmünə bir çox peyğəmbərlər gəlmişdir.
8. Ən böyük şəxsiyyətlərə münasibətdə də meyarları yaddan çıxarmayın. Peyğəmbərlərin öldürülməsi böyük günah olsa da "haqsız" sözü bu qətl meyarının batil olduğunu göstərir.
9. Günah və təcavüz küfr və peyğəmbərlərin qətli kimi böyük günahlara zəmin yaradır.
10. Təcavüz və küfrdən də pisi bu işlərdə israrlı olub onu davam etdirməkdir.

113. ﴿ لَيْسُواْ سَوَاء مِّنْ أَهْلِ الْكِتَابِ أُمَّةٌ قَآئِمَةٌ يَتْلُونَ آيَاتِ اللّهِ آنَاء اللَّيْلِ وَهُمْ يَسْجُدُونَ ﴾

**"Kitab əhlinin hamısı eyni deyil. Onlardan bir dəstəsi (Allaha itaət üçün) durub gecə yarı ilahi ayələri tilavət edir və səcdə qılırlar."**

## *Nöqtələr*

◘Bu və bundan sonrakı ayələr kitab əhlinin bir dəstəsinə aid olan yaxşı sifətləri bəyan edir. Bu sifətlər Allaha itaət üçün dayanmaqdan, səmavi kitabın tilavətindən, səcdədən, yaxşıya əmr və pislikdən çəkindirməkdən, xeyir işlərə tələsməkdən ibarətdir. Bəlkə də bu əməllər əvvəlki ayədəki "həblüllah" sözünü açıqlayır.

[1] "Kafi", c. 2, səh. 371.

◘Müsəlmanların Quran tilavəti ilə yanaşı namaza durması Allaha sitayiş sayıldığı kimi, səmavi kitabın tilavəti, ibadət və səcdə də kitab əhli üçün sitayiş sayılır.

◘Allah-təala bu ayədə elmin, əməlin, ardıcıllığın, eşq və əlaqənin, istiqamətliliyin dəyərinə işarə etmişdir.

## *Bildirişlər*

1. Yaxşılıq və kamilliyi istənilən bir tayfadan qəbul edək. Başqalarını tənqid edərkən onların yaxşı cəhətlərinə göz yummayaq.
2. Ətrafdakıların dəvət yollarından biri də onların yaxşı cəhətlərini etiraf etməkdir.
3. İbadət himmətə, ciddiliyə, eşq və hazırlığa ehtiyaclıdır.
4. Quran ayələrinin tilavəti və gecə səcdələri Allah tərəfindən bəyənilmişdir.
5. İlahi ayələrin tilavəti və Allah dərgahına səcdə ilahi əmrə itaətdir.
6. Gecə və sübh münacat üçün ən yaxşı vaxtdır.
7. İbadətin ən ali halı səcdədir.

114. ﴿ يُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَيُسَارِعُونَ فِي الْخَيْرَاتِ وَأُوْلَئِكَ مِنَ الصَّالِحِينَ ﴾

**“Onlar Allaha və qiyamət gününə imanlıdırlar. Yaxşılığa dəvət edir, pisliyə qadağa qoyur və xeyir işlərdə tələsirlər. Onlar saleh bəndələrdəndir.”**

115. ﴿ وَمَا يَفْعَلُواْ مِنْ خَيْرٍ فَلَن يُكْفَرُوْهُ وَاللّهُ عَلِيمٌ بِالْمُتَّقِينَ ﴾

**“Onların gördüyü xeyir işlər heç vaxt dəyərləndirilməmiş qalmaz. Allah təqvalılardan xəbərdardır.”**

## *Nöqtələr*

◘“Bəqərə” surəsinin üçüncü ayəsində imanla yanaşı, namazda xatırlandığı kimi, bu ayədə də imanla yanaşı əmr be məruf və nəhy əz münkər yada salınır.

◘Quranda əmr be mərufun nəhy əz münkərdən öncə gəlməsi bir qaydadır. Bəli, yaxşılıq qapıları açıldıqda, pisliyin yolu bağlanır. Asan izdivac günahın qarşısını alır. Namaz insanı çirkin işlərdən uzaqlaşdırır. Faydalı bir iş ictimai fəsadlara mane olur. İnsanların şəxsiyyətinin qiymətləndirilməsi onları süqutdan saxlayır.

◘Salehlər hamının qoşulmaq istədiyi kəslərdir.[1] Hər bir müsəlman hər gün onlara beş dəfə salam verir.

◘Allah dərgahında heç bir saleh əməl zay olmur. Quranda oxuyuruq: “Həqiqətən, Allah müttəqilərdən qəbul edir.”[2] Bəli, iman və təqva qəbul şərtidir.

---

[1] “Yusif”, 108; “Şüəra”, 83.
[2] “Maidə”, 27.

Ona görə də bu ayədə oxuyuruq: «Biz özümüz müttəqilərin kim olduğunu bilirik. Onların əməli qəbul olasıdır.»

## *Bildirişlər*

1. Digər dinlərdə də əmr be məruf və nəhy əz münkər (yaxşılığa əmr və pisliyin qadağası) öz əksini tapmışdır.
2. Sübhün səcdələri gün uzunu əmr və qadağalarla müşayiət olunmalıdır.
3. Xeyir işə tələsmək onun dəyərini artırır.
4. Salehlərin yaxşılıqda fəaliyyəti mövsümi yox, daimidir.
5. O şəxslər salehdirlər ki, bəzi xeyir işlərə yox, bütün xeyir işlərə həvəslə gedirlər.
6. İman, ibadət, tilavət, əmr be məruf və nəhy əz münkər, xeyir işdə sürət insanı salehlər zümrəsinə qatır.

116. ﴿إِنَّ الَّذِينَ كَفَرُواْ لَن تُغْنِيَ عَنْهُمْ أَمْوَالُهُمْ وَلاَ أَوْلاَدُهُم مِّنَ اللّهِ شَيْئًا وَأُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“Həqiqətən, kafir olanların malları və övladları heç vaxt onlardan Allahın əzabını dəf etməz. Onlar oda yoldaşdırlar və daim orada qalarlar.”**

117. ﴿مَثَلُ مَا يُنفِقُونَ فِي هِذِهِ الْحَيَاةِ الدُّنْيَا كَمَثَلِ رِيحٍ فِيهَا صِرٌّ أَصَابَتْ حَرْثَ قَوْمٍ ظَلَمُواْ أَنفُسَهُمْ فَأَهْلَكَتْهُ وَمَا ظَلَمَهُمُ اللّهُ وَلَكِنْ أَنفُسَهُمْ يَظْلِمُونَ﴾

**“Onların dünya həyatında infaq etdikləri şey özünə zülm etmiş qövmün əkin sahələrinə əsən, şiddətli soyuq və ya istisi olan küləyə bənzər. (Bu külək həmin əkin sahələrini) məhv edər. Allah onlara zülm etmədi, onlar özləri özlərinə zülm edirlər.”**

## *Nöqtələr*

◘Quran dəfələrlə elan etmişdir ki, Allahın qəhr və qəzəbi qarşısında var-dövlətin, övladın, qohumların, zövcənin, dostun, ağanın, bir sözlə, heç bir şeyin zərrəcə təsiri yoxdur.

◘Ayədəki “sirr” sözü yandırıcı isti və soyuq mənasını bildirir.[1]

◘Kafirlərin batil yolda sərf etdiyi büdcə yandırıcı küləyin məhv etdiyi əkinə bənzəyir. Elə əvvəl gündən indiyədək İslama qarşı hücumlar, təbliğatlar və qurğular məğlubiyyətə uğramışdır. İlahi din hər gün genişlənməkdədir və nəhayətdə qələbə İslamındır.

---

[1] “Ət-Təhqiq fi kəlimatil-Quran”.

## *Bildirişlər*

1. Əqidə əmələ təsirlidir. Küfr insanı infaqın bərəkətindən məhrum edir.
2. Təbii hadisələr və bəlaların amillərindən biri insanların günahlarıdır.
3. Günah insanın yaxşı işlərini puça çıxarır.
4. Allahın qəhr-qəzəbi zülm deyil. Bu qəzəbi doğuran insanların öz əməlləridir.

**118.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ بِطَانَةً مِّن دُونِكُمْ لاَ يَأْلُونَكُمْ خَبَالاً وَدُّواْ مَا عَنِتُّمْ قَدْ بَدَتِ الْبَغْضَاء مِنْ أَفْوَاهِهِمْ وَمَا تُخْفِي صُدُورُهُمْ أَكْبَرُ قَدْ بَيَّنَّا لَكُمُ الآيَاتِ إِن كُنتُمْ تَعْقِلُونَ﴾

**“Ey iman gətirənlər! Özünüzdən qeyrisini sirdaş seçməyin. Onlar sizə çətinlik yaratmaqda boş dayanmazlar. Onlar sizin əziyyətə düşməyinizi istəyirlər. Həqiqətən, onların kin və düşmənçiliyi ağızlarından (danışıqlarından) bilinir. Qəlblərində saxladıqları isə daha böyükdür. Həqiqətən, Biz ayələri sizin üçün bəyan etdik. Əgər düşünsəniz!”**

## *Nöqtələr*

◘“Bitanə” qarına yapışan alt libasa deyilir. Bu söz sirdaş mənasına da bir işarədir. “Xəbal” sözü isə düşüncə və ağılın puçluğu mənasını bildirir. “Ənət” çətinlik və əziyyət, “yəlun” bir işin icrasında tənbəllik, boş dayanmaq mənasını ifadə edir.

## *Düşmən bizə nə arzulayır?*

Əgər Quranda “vəddə” sözünə nəzər salsaq, düşmənin bizim haqqımızdakı arzularından agah olarıq:

1. Düşmən bizim xeyir və sərmayəmizdən qəflətdə qalmağımızı istəyir.[1]
2. Düşmən bizdən sazişçilik və həlimlik istəyir.[2]
3. Hətta bir müsəlman özgə sayılırsa, onu sirdaş seçmək olmaz. Çünki müsəlmanlar arasında da fitnəkar və satqın fərdlər var.
4. Müsəlmanların başqa cəmiyyətlərlə dostluq və rabitə meyarı iman olmalıdır.
5. İslam cəmiyyəti qeyri-islami cəmiyyətlərdən üstündür. “Dunikum”, yəni “özünüzdən başqaları” təbiri qeyri-müsəlmanların aşağı mərtəbədə olduğunu göstərir.
6. Düşmənin ilkin hərəkəti və təhlükəsi onun ideoloji hücumudur. Düşmən müsəlmanların düşüncəsinə zərbə vurmaqda tənbəllik göstərmir.
7. Düşmənlər bizimlə cürbəcür üsullarla rəftar edirlər: Fəsad və günah vasitəsi ilə, təzyiqlər vasitəsi ilə, nifaq salmaq vasitəsi ilə.

---

[1] “Nisa”, 102.
[2] “Qələm”, 9.

8. Düşmənlərinizi tanıyın və ayıq olun. Onlar sizə qarşı fitnə-fəsad törətməkdə süstlük göstərmirlər.

9. İlahi əmrlərin dəlili və fəlsəfəsi var. Əgər sizə düşmənlərlə səmimi rabitələr qadağan olunursa, bunun səbəbi odur ki, düşmənlər sizə qarşı fitnə-fəsad törətməkdə fəaldırlar.

10. Kuzədəki nəm onun içindəkindəndir. Düşməndən yalnız kin-küdurət gözləyin.

11. Düşmənləri onların təbliğatından tanıyın.

12. Fitnəkar düşmənlə səmimi əlaqə ağılsızlıq nişanəsidir. Düşmənlə xoş rəftar səfehlikdir.

13. Allah hamının qəlbindəkindən xəbərdardır. O, İslam düşmənlərinin planlarını ifşa edir.

14. Sizin düşmənləriniz münafiqdirlər. Onların zahiri ilə batini fərqlidir.

15. Allah düşmənin ruhiyyəsini tanıtdırmaqla sizə olan höccəti tamamlayır, suala yer qalmır.

16. Mömin olmaq bir məsələdir, aqil olmaq digər bir məsələ. Ona görə Allah bu ayədə möminlərə buyurur: Əgər ağlınız varsa, düşmənə sirr verməyin.

**119.** ﴿هَاأَنتُمْ أُوْلاء تُحِبُّونَهُمْ وَلاَ يُحِبُّونَكُمْ وَتُؤْمِنُونَ بِالْكِتَابِ كُلِّهِ وَإِذَا لَقُوكُمْ قَالُواْ آمَنَّا وَإِذَا خَلَوْاْ عَضُّواْ عَلَيْكُمُ الأَنَامِلَ مِنَ الْغَيْظِ قُلْ مُوتُواْ بِغَيْظِكُمْ إِنَّ اللّهَ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ﴾

**“(Ey müsəlmanlar,) bu sizsiniz ki, onları dost tutursunuz. Amma onlar sizi dost tutmurlar. Halbuki siz bütün (səmavi) kitablara iman gətirmisiniz, (amma onlar sizin kitabınıza iman gətirmirlər.) Sizinlə rastlaşdıqda (münafiqcəsinə) deyirlər: Biz iman gətirdik. Elə ki, (öz aralarında) xəlvətə çəkilirlər, sizə olan qəzəblərindən barmaqlarının ucunu gəmirirlər. De ki, «öz qəzəbinizlə ölün!» Həqiqətən, Allah sinələrdə olanlardan agahdır.”**

## *Bildirişlər*

1. Düşmən ruhiyyəsinin müəyyənləşdirilməsi və insan meylinin səbəbləri çox dəqiqdir. Ona görə də ayənin başlanğıcında xəbərdarlıq və tənbeh məqsədi ilə “ha” təbiri işlədilmişdir.

2. Dostluq qarşılıqlı olmalıdır. Dostluğa meyl göstərməyənlə dostluğa can atmaq alçaqlıq səbəbidir.

3. Müsəlmanlar bütün əvvəlki səmavi kitablara inanırlar. O biri dindən olanlar isə Qurana inanmırlar.

4. Hər “iman gətirdim” sözünə arxayın olmayın.

5. Elə düşünməyin ki, sizin məhəbbətiniz düşmənin qəlbindəki kini aradan qaldırar.

6. Daxili stimullar xaricdən qaynaqlanır.

7. Düşmən sizə qəzəbli yox, qeyzlidir. Qeyz o zaman yaranır ki, insanın köksü qəzəblə dolmuş olsun.

8. İlahi yardımlardan biri müsəlmanlar üçün düşmən ruhiyyəsinin açıqlanmasıdır. Bu ruhiyyə ifşa olduqda, müsəlmanlar qəflətdən qurtulub ayıq-sayıq ola bilər.

9. Öz düşmənlərinizi əskildin (alçaldın).

10. Bəzən həsəd və kin kimi psixoloji hisslər insanı ölüm sərhədinədək aparır.

11. İslam əziyyətçil münafiqlərlə yekrəng kafirlərdən də sərt rəftar edir.

12. Bəzən nifrət və nifrini elan etmək lazım gəlir. Kinli kafirlər və hiyləgər münafiqlər məhv olmağa layiqdir.

13. Kafirləri cəzb etmək bəhanəsi ilə onlara məhəbbət göstərməyin. Bəzən kafirlərlə yaxınlığın səbəbi tamah, qorxu və ya satqınlıq olur.

14. Allah qəlblərin sirlərindən xəbərdardır.

Əgər inansaq ki, Allah hər şeydən xəbərdardır, hiylə və yalana əl atmarıq. Fitnəkar münafiqlər də bilsinlər ki, Allah onların əməllərindən xəbərdardır və vaxtında cavab verəcək.

120. ﴿ إِن تَمْسَسْكُمْ حَسَنَةٌ تَسُؤْهُمْ وَإِن تُصِبْكُمْ سَيِّئَةٌ يَفْرَحُواْ بِهَا وَإِن تَصْبِرُواْ
وَتَتَّقُواْ لاَ يَضُرُّكُمْ كَيْدُهُمْ شَيْئًا إِنَّ اللّهَ بِمَا يَعْمَلُونَ مُحِيطٌ ﴾

**“Əgər sizə bir yaxşılıq çatsa, bu onları qəmgin edir. Əgər sizə pislik üz versə, onlar bundan şadlanarlar. Əgər (onların qarşısında) səbir etsəniz və təqvalı olsanız, onların bədxah hiylələri sizə heç bir zərər toxundurmaz. Həqiqətən, onların gördüyü işlər Allahın əhatəsindədir.”**

## *Nöqtələr*

◘Bu ayə dost-düşməni tanımaq yolunu bəyan edir. Bu işdə ən yaxşı yol müsəlmanlara bir xeyir və ya zərər toxunduqda onların keçirdiyi hisslərə, düşdüyü hallara diqqətdir. Xarici siyasətdə də bəyanatlara, tərəfdaşlıqlara, təbriklərə, təkziblərə, növbənöv köməklərə və təbliğata diqqət zəruridir.

◘Əvvəlki ayələrdə müsəlmanlara sifariş olundu ki, düşmənlə yoldaşlıq etməsinlər, dostluq əlaqələri qurmasınlar. Bu ayədə buyurulur: Bu rəftar mənfi reaksiya doğura bilər və düşməni sizin üzərinizə qaldırar. Ona görə də siz səbir və təqva əhli olmalısınız ki, onların hiylələri sizə zərər toxundurmasın.

## *Bildirişlər*

1. Düşmən o qədər həsədçildir ki, sizə zərrəcə xeyir gəlsə, bu onu narahat edir.

2. Düşmənin nüfuz yolu ya bizim qorxu və tamahımız, ya da təqvasızlığımızdır. Səbir və təqva düşmənin məğlubiyyət yoludur.

3. Bizim inkişafımızdan narahat olan həsədçilərin qarşısında səbir və təqvadan başqa çarə yoxdur.

4. Allah düşmənlərin ruhiyyəsini ifşa etməklə həm də müsəlmanlara ruhiyyə verir, onları ayıq olmağa çağırır.

**121.** ﴿ وَإِذْ غَدَوْتَ مِنْ أَهْلِكَ تُبَوِّىءُ الْمُؤْمِنِينَ مَقَاعِدَ لِلْقِتَالِ وَاللّهُ سَمِيعٌ عَلِيمٌ ﴾

**"(Xatırla) o zamanı ki, sübhlər (Ühüd savaşı üçün) ailənin yanından gedirdin ki, möminlərə savaş üçün mərkəzlərdə yer verəsən. Allah (sizin danışdıqlarınızı və əməllərinizi) eşidən və biləndir."**

## *Nöqtələr*

**Ühüd savaşının siması:**

Hicri tarixi ilə ikinci ildə Qüreyş kafirləri Bədr döyüşündə məğlub olub Məkkəyə qayıtdılar. Onlardan yetmiş nəfəri öldürüldü, yetmiş nəfəri isə əsir götrüldü. Əbu-Süfyan dedi: «Öldürülənlərə ağlamayın ki, kin-küdurətiniz yerində qalsın. Hamınız intiqam deyib durun. Mən də intiqam almayınca zövcəmə yaxınlaşmayacağam.»

Növbəti ildə Məkkə kafirləri üç min süvari, iki min piyada və tam hərbi təchizatla müsəlmanlarla döyüş üçün Mədinəyə üz tutdular. Həmin vaxtadək həzrət Peyğəmbərin (s) hələ ki, İslamı qəbul etməmiş əmisi Abbas Məkkədə yaşayırdı. Peyğəmbəri böyük məhəbbətlə sevən bu şəxs kafirlərin hərəkəti haqqında o həzrətə məktub yazıb Bəni-Ğəffar qəbiləsindən olan bir kişi ilə Mədinəyə göndərdi. İslam peyğəmbəri hadisədən xəbər tutub məlumat toplamaq üçün Məkkəyə bir qrup göndərdi. Həmin qrup geri qayıdıb Əbu-Süfyanın komandanlığı altında kafir qoşununun Mədinəyə doğru hərəkət etdiyini təsdiqlədi.

Həzrət Peyğəmbər (s) cümə günü yığıncaq keçirib bu barədə müsəlmanlarla məsləhətləşdi. Yığıncaqda iki nəzəriyyə irəli sürüldü:

1. Mədinədə qalıb küçələrdə mövqe tutmaq və bütün şəhər əhlindən kömək almaq.
2. Mədinədən çıxıb şəhərin kənarında vuruşmaq.

Qəhrəmanlıq və şücaət səpkili ikinci nəzəriyyə gəncləri daha çox cəlb etdi və bu nəzəriyyənin tərəfdarları çox oldu. Bir sözlə, qərar çıxarıldı ki, savaş şəhərdən kənarda olsun. Amma həzrət peyğəmbər şəhərdə qalıb vuruşmağa üstünlük verirdi. Gənclərin hisslərinə ehtiram göstərərək öz baxışında israr göstərmədi. Beləcə, həzrət Peyğəmbər (s) bir nəfər götürüb düşərgə hazırlamaq üçün Mədinədən bayıra çıxdı. O, Ühüd dağının ətəyində yerləşən məhəlli hərbi əməliyyat üçün münasib sayıb oranı seçdi. Sonra həzrət Peyğəmbər (s) cümə namazında xütbə oxuyub xalqa vəziyyət barədə məlumat verdi. Namazdan sonra mühacir və ənsardan təşkil olunmuş min nəfərlik ordu şəhərdən çıxdı. Döyüşə o həzrət özü komandanlıq edirdi. Həzrət bir neçə bayraq qaldırmışdı. Onlardan bəzilərini mühacirlər, bəzilərini ənsar götürmüşdü.

Mədinədən Ühüd düşərgəsinədək piyada hərəkət edirdi. Həzrət qoşunu nəzərdən keçirir, cərgələri nizama salırdı. Peyğəmbər (s) cərgələrdə təzə adamlar görüb onların kimliyini soruşdu. Onlar Mədinə yəhudiləri olduqlarını və müsəlmanlara köməyə gəldiklərini bildirdilər. Həzrət bir qədər düşünüb buyurdu:

"Müşriklərlə savaş üçün müşriklərin köməyindən istifadə etmərik." Bu səbəbdən də min nəfərlik İslam qoşunundan üç yüz nəfər azaldı. Bəziləri qeyd edirlər ki, bu üç yüz nəfərin hamısı yəhudi deyildi. Onların arasında Abdullah ibn Ubəyy kimi müsəlmanlar da vardı. Onlar savaşın şəhər küçələrində aparılmasını istədiklərindən yolda qoşundan ayrıldılar.[1]

İslam peyğəmbəri sübh namazını Ühüddə yeddi yüz nəfərlə birlikdə qıldı. Həzrət, Abdullah ibn Cübəyri əlli nəfər mahir oxatanla birlikdə Ühüd dağının əsas bir keçidində qoyub tapşırdı ki, mövqelərini tərk etməsinlər.

Əbu-Süfyan da öz növbəsində Xalid ibn Vəlidi iki yüz döyüşçü ilə birlikdə pusquda qoyub tapşırdı ki, əgər keçiddəki nəzarətçilərin diqqəti yayınsa, arxadan İslam qoşununa hücum etsinlər.

Nəhayət, iki qoşun qarşı-qarşıya cərgəyə düzüldü. Əbu-Süfyan bütlərin və gözəl qadınların, həzrət Peyğəmbər (s) Allahın adı ilə qoşunu təşviq edirdi. Müsəlmanların qoşunundan "Əllahu əkbər" sədaları, küfr qoşunundan dəf və ney səsi ucalırdı.

Döyüş başlayan kimi müsəlmanlar sürətli bir hücumla Qüreyş qoşununu pərən-pərən saldılar. Kafirlər qaçır, müsəlmanlar onları təqib edirdi. Bəzi müsəlmanlar düşmənin məğlubiyyətindən arxayınlaşıb qənimət toplayırdı. Dağ keçidindəki nəzarətçilər də peyğəmbərin göstərişindən çıxıb qənimət toplamaq üçün öz mövqeyini tərk etmişdi. Bu vaxt pusquda dayanmış Xalid ibn Vəlid fürsətdən istifadə edib arxadan İslam qoşununa hücum etdi.

Müsəlmanlar qəfildən özlərini kafirlərin mühasirəsində gördülər. Peyğəmbərin əziz əmisi Həmzə şəhid oldu. Azsaylı müsəlmanlar həzrət Peyğəmbərin (s) mübarək vücudu ətrafında toplansalar da, əksər müsəlmanlar savaş meydanından qaçdılar.

Bu savaşda Əli ibn Əbu-Talibin (ə) rolu başqalarından daha çox oldu. Həzrətin bu savaşda qılıncı sındı. Peyğəmbər «zülfüqar» adlı qılıncını Əliyə (ə) verdi. Əli (ə) meydanda Peyğəmbəri (s) qoruyurdu. Həzrət Əli (ə) bu savaşda 60 yara aldı. İmam Sadiq (ə) buyurmuşdur: "Həzrət Peyğəmbər (s) Cəbrailin yerlə göy arasında belə dediyini eşitdi: "Əlidən başqa comərd, zülfüqardan başqa qılınc yoxdur." İbni-Qəmə adlı bir Məkkə kafiri fədakar İslam döyüşçüsü Müsəbin peyğəmbər olduğunu güman edib onu şəhadətə yetirdi. Sonra fəryad çəkdi ki, and olsun Lat və Üzzaya, Məhəmməd öldürüldü. Kafirlər İslam peyğəmbərinin şəhadətinə əmin olub, Məkkə yoluna üz tutdular. Əslində bu şüar müsəlmanların xeyrinə tamamlandı. Bu vaxt həzrət Peyğəmbərin (s) şəhadət şayiəsini eşidən müsəlmanlar da qorxuya düşüb qaçmağa üz tutdular. Sonra isə bu xəbərin yalan olduğunu görüb peyğəmbərin yanına qayıtdılar və üzr istədilər. Bu döyüşdə müsəlmanlardan yetmiş nəfəri şəhid oldu, çoxları isə yaralandı.[2]

---

[1] Ayətullah Sübhani, "Füruğe-əbədiyyət", c. 2, səh. 38; Doktor Ayəti, "Tarixe-peyğəmbəri İslam", səh. 85.

[2] "Təfsire-nümunə".

## *Bildirişlər*

1. Keçmişdəki həssas günləri yaddan çıxarmayaq. Mühüm hadisələri təcrübə olaraq xatırlayaq.

2. Döyüş astanasında ailə fikrindən daşınmaq lazımdır.

3. Hərbi əməliyyatın peşəkar, coğrafi və təbii tənzimlənmələri düşmən həmləsindən qabaq həyata keçməlidir.

4. Döyüşə komandanlıq, düşərgə seçimi, strateji müdafiə məntəqələrinin təyini peyğəmbərin və ya müsəlmanların rəhbərinin öhdəsinədir.

**122.** ﴿ إِذْ هَمَّت طَّآئِفَتَانِ مِنكُمْ أَن تَفْشَلاَ وَاللّهُ وَلِيُّهُمَا وَعَلَى اللّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ ﴾

**“Sizdən olan iki dəstə (döyüşdə) süstlük göstərmək fikrində idi. Amma Allah onların himayəçisi idi. (Bu fikirdən daşınmaqda onlara kömək etdi.) Möminlər yalnız Allaha təvəkkül etsinlər.”**

## *Nöqtələr*

Ous qəbiləsindən Bəni Sələmə dəstəsi, Xəzrəc qəlbiləsindən Bənu Arifə dəstəsi Ühüd döyüşündə iştirak etməmək qərarına gəldilər. Onların bu sayaq rəftar etmələri ilə bağlı müxtəlif səbəblər göstərilir:

1. Düşmən müsəlmanlardan sayca çox olduğu üçün qorxu hissi keçirirdilər.

2. Onların məsləhətinə qulaq asılmaması və döyüşün şəhərdə yox, Ühüd ətrafında aparılmasından doğan narahatlıq.

3. Peyğəmbərin yəhudilərə bu döyüşdə iştirak icazəsi verməməsi.

Amma Allah Öz lütfü ilə bu iki dəstəni günahdan saxladı, döyüş meydanından qaçmamaqda onlara yardımçı oldu. Allah onları Öz bəndəlik yolunda hifz etdi.[1]

## *Bildirişlər*

1. Allah bizim çıxardığımız qərarlardan agahdır. O Öz peyğəmbərini xalqın düşüncələrindən xəbərdar edir.

2. Çətin günləri və həmin günlərin təcrübələrini unutmayın.

3. Döyüş meydanına gedənlərin hamısı eyni deyil.

4. Qətiyyətsiz insanların cəbhədə iştirakı məğlubiyyət və təhlükə amilidir.

5. Allahın hökmü altında olmayan insan süstləşir.

6.Allah möminləri özbaşına buraxmır. Çətin məqamlarda onların əlindən tutur.

7. Günah fikri əməl mərhələsinə çatmasa, insanı ilahi vilayətdən (hakimiyyətdən) xaric etmir.

8. Süstlüyün yeganə dərmanı Allaha təvəkkül etməkdir. Bu dərman isə yalnız möminlərin əlindədir.

9. Allaha təvəkkül etmək qələbə amilidir.

---

[1] “Təfsire-Məcməül-bəyan”.

123. ﴿ وَلَقَدْ نَصَرَكُمُ اللّهُ بِبَدْرٍ وَأَنتُمْ أَذِلَّةٌ فَاتَّقُواْ اللّهَ لَعَلَّكُمْ تَشْكُرُونَ ﴾

**"Həqiqətən, Allah Bədr döyüşündə zəif olduğunuz halda sizə yardım etdi. Belə isə, Allahdan çəkinin. Bəlkə şükür edəsiniz."**

## *Nöqtələr*

◘"Əzillətun" sözü ya Bədrdə möminlərin qüvvə azlığına, ya da döyüş vasitələrinin zəifliyinə işarədir. Bədr döyüşündəki çatışmazlıqların xatırlanması Ühüd döyüşü ilə müqayisədə müsəlmanların güclü olmasına işarədir.

◘Əvvəlki üç ayədə oxuduq ki, səbir və təqva insanı qoruyur. Bu ayədə isə nümunə olaraq Bədr mücahidləri göstərilir. Əvvəlki ayədə də təvəkküldən danışılırdı. Bədr mücahidləri təvəkkülün əməli nümunələridir. Ayə müsəlmanlara xitabən buyurur: Bədrdə Allahın yardımını gördüyünüz halda nə üçün Ühüddə qaçmaq fikrinə düşürsünüz?!

## *Bildirişlər*

1. Döyüş meydanlarında qeybi yardımları yaddan çıxarmayın.
2. İlahi yardım möminlər üzərində ilahi vilayətin nişanəsidir.
3. Döyüş meydanlarında Allahın yardımını gördüyümüz üçün Allaha təvəkkül edək.
4. Döyüşün taleyini təbii amillər yox, ilahi yardımlar müəyyənləşdirir.
5. İlahi yardım istəyən hər bir insan təqvalı olmalıdır.
6. İlahi yardımların şükrü təqvalı olmaqdır.

124. ﴿ إِذْ تَقُولُ لِلْمُؤْمِنِينَ أَلَن يَكْفِيكُمْ أَن يُمِدَّكُمْ رَبُّكُم بِثَلاَثَةِ آلاَفٍ مِّنَ الْمَلآئِكَةِ مُنزَلِينَ ﴾

**"(Xatırla,) o zaman ki, möminlərə deyirdin: Nazil olmuş üç min mələklə Rəbbinizin sizə yardım etməsi sizə bəs deyilmi?!"**

## *Bildirişlər*

1. Xalqı ümidvar etmək və onların diqqətini qeybi yardımlara yönəltmək rəhbərlik vəzifələrindən biridir.
2. Döyüşçü üçün Allah lütfünə ümidvarlıq mühümdür.
3. Mələklər Allahın əmri ilə möminlərin xidmətində dururlar.
4. İlahi dünyagörüşündə insanların həyatı mələklər aləmi ilə əlaqədədir.
5. İlahi yardımlar Onun rübubiyyətinə əsaslanır.
6. Döyüş meydanında ilahi yardım vasitələrindən biri mələklərin nazil olmasıdır.

125. ﴿ بَلَى إِن تَصْبِرُواْ وَتَتَّقُواْ وَيَأْتُوكُم مِّن فَوْرِهِمْ هَذَا يُمْدِدْكُمْ رَبُّكُم بِخَمْسَةِ آلافٍ مِّنَ الْمَلآئِكَةِ مُسَوِّمِينَ ﴾

**“Əlbəttə, əgər səbir və müqavimət etsəniz, təqvalı olsanız, düşmən üstünüzə qəzəblə gəlsə də, Rəbbiniz sizə beş min xüsusi mələklə yardım edər.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə üç min yardımçı mələkdən danışılırdısa, bu ayədə beş min xüsusi mələyin yardımı yada salınır. Bu yardım döyüşçülərin səbir və təqvası sayəsində əldə olunur.

◘Mələklərin sayının zikri onların qüdrətinin məhdud olduğunu göstərir. “Nazil edilmiş” sözündən anlaşılır ki, mələklər Allahın hökmü altındadırlar. Onlar özbaşına heç bir iş görə bilmirlər. “Xüsusi” ifadəsi isə yardım mələklərinin ayrıca bir qüvvə olduğunu göstərir. İmam Zeynəlabidin (ə) mələklərə salamında hər bir xüsusi mələk dəstəsinin xüsusi əmr yerinə yetirdiyini bəyan edir.[1]

## *Bildirişlər*

1. İstiqamət, təqva mələklərin və qeybi yardımların nazil olma amilidir.
2. İlahi yardımlar təkcə peyğəmbər dövrünə aid deyil.
3. Təqva ilə müşayiət olunan müqavimət dəyərlidir. Təqvasız müqavimət inadkarlıqdır.
4. Düşməndən qəflətdə qalmayaq. Düşmən qəzəb və coşqunluqla hücum edir.
5. Düşmən təqva əhlinə şiddətli hücuma keçdikdə Allah da Öz yardımını artırır.

126. ﴿ وَمَا جَعَلَهُ اللّهُ إِلاَّ بُشْرَى لَكُمْ وَلِتَطْمَئِنَّ قُلُوبُكُم بِهِ وَمَا النَّصْرُ إِلاَّ مِنْ عِندِ اللّهِ الْعَزِيزِ الْحَكِيمِ ﴾

**“Allah bunu (mələklərin nazil olmasını) sizin üçün bir müjdə qərar vermişdir ki, qəlbləriniz bununla aramlıq tapsın. (Bilin ki,) qələbə yalnız “əziz və həkim” Allah tərəfindəndir.”**

## *Bildirişlər*

1. Döyüş meydanındakı mücahidlərin aramlıq və ümidə ehtiyacları var.
2. Allahın iradəsi olmayan yerdə maddi, elmi, psixoloji və insani hazırlıqların səməri olmur.
3. Allahın qüdrəti Onun hikməti ilə yanaşıdır. Ona görə də müəyyən səbəblərdən müsəlmanlar da məğlub ola bilər.

[1] “Səhifeye-Səccadiyyə”, üçüncü dua.

127. ﴿ لِيَقْطَعَ طَرَفًا مِّنَ الَّذِينَ كَفَرُواْ أَوْ يَكْبِتَهُمْ فَيَنقَلِبُواْ خَآئِبِينَ ﴾

**“(İlahi yardımların səbəbi bu idi ki,) kafirlərdən bəzilərini məhv etsin və ya nakam qoysun və onlar naümid halda geri dönsünlər.”**

## Nöqtələr

◘Ayədəki “tərəf” sözü bir şeyin sonunu bildirir. Buna əsasən, ayədən anlaşılır ki, qeybi yardımlar bəzi kafirləri məhv etmək üçündür. “Tərəf” sözünü “əyanlar” kimi mənalandıran təfsirçilər də var. Yəni Bədr döyüşünün məqsədi küfr başçılarının məhvi idi. Bu ayə “Tövbə” surəsinin on ikinci ayəsinin oxşarıdır.

◘Ümidsizlik iki növdür: Əvvəlcədən yaranan ümidsizlik “yəs” ümidvar olduqdan sonra ümidin üzülməsi isə “xaib” adlanır.[1]

◘İslamda savaş bəzən müdafiə, bəzən düşmənin hücumunun qarşısının alınması üçündür, bəzən də ilk addımdır.

## Bildirişlər

1. Küfr başçıları ya biryolluq məhv edilməli, ya da zəlil və məyus olmalıdırlar. Küfrü kökündən silkələməyən zəif, mövsümi, birtərəfli müqavimətlər sizi sevindirməsin.
2. Müsəlmanların vəhdəti, qüdrəti, siyasəti və müdiriyyəti elə olmalıdır ki, düşmən ümidini üzsün.

128. ﴿ لَيْسَ لَكَ مِنَ الأَمْرِ شَيْءٌ أَوْ يَتُوبَ عَلَيْهِمْ أَوْ يُعَذَّبَهُمْ فَإِنَّهُمْ ظَالِمُونَ ﴾

**“Heç bir iş (xalqın hidayət və ya cəzalandırılması) sənin ixtiyarında deyil. (Yalnız Allah) onlara ya lütfünü göndərir, ya da onlara əzab verir. Çünki onlar zalımdır.**

## Nöqtələr

◘Ümmətin rəhbəri kamil sədaqət sahibi olduqda hətta ayələrin onun öhdəsində qoymadığı vəzifələri də yerinə yetirir. Şiə və sünni təfsirlərində oxuyuruq ki, Ühüd savaşında həzrət Peyğəmbərin (s) dişi sındığı zaman buyurdu: “Bu xalq necə hidayət olacaq?” Ayə nazil oldu ki, sən xalqın hidayətinə məsul deyilsən. Bildirildi ki, insanlar gələcəkdə həm bağışlana, həm də cəzalandırıla bilər.

## Bildirişlər

1. Bağışlamaq və ya əzab vermək Allahın əlindədir. Onun izni olmadan övliyalar da şəfaət verə bilmir. Peyğəmbərlərin Allah qarşısında heç bir istiqlalı yoxdur.

[1] “Təfsire-Ətyəbul-bəyan”; “Ət-təhqiq fi kəlimatil-Quran”.

2. Tövbə yolu hətta haqq cəbhəsindən qaçanlar üçün və ya müsəlmanlara ən böyük zərbə vurmuş kafirlər üçün bağlı deyil.

3. Xalqa verilən əzabın səbəbi onların öz zülm və sitəmləridir.

**129.** ﴿ وَلِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ يَغْفِرُ لِمَن يَشَاء وَيُعَذِّبُ مَن يَشَاء وَاللّهُ غَفُورٌ رَّحِيمٌ ﴾

**"Göylərdə və yerdə olanlar Onundur. O (öz hikməti əsasında) istədiyini bağışlayır, istədiyinə əzab verir. Allah bağışlayan və mehribandır."**

## *Nöqtələr*

◘Bu ayə əfv və ya cəzanın Allahın əlində olmasını bildirən əvvəlki ayəni təsdiqləyir. Çünki bütün varlıq aləminin yaranışı və onun üzərindəki hakimiyyət Allahın əlindədir. Maraqlıdır ki, ayədə əfv olunası və ya cəzalandırılası fərdlər müəyyənləşdirilmir. Beləcə, kimsədə qürur və ya ümüdsizlik yaranmır. Hamı qorxu və ya ümüd arasında qalır. Şübhəsiz ki, əfv və ya əzab ilahi hikmət əsasındadır və insanın özü tərəfdən həyata keçən şərtlərdən asılıdır.

## *Bildirişlər*

1.Əfv və ya cəza haqqı göylərin və yerin hakimiyyəti əlində olana məxsusdur.

2. İlahi nizamda da əfv və mərhəmət əsas götürülmüşdür və öndə gəlir.

**130.** ﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَأْكُلُواْ الرِّبَا أَضْعَافًا مُّضَاعَفَةً وَاتَّقُواْ اللّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ ﴾

**"Ey iman gətirənlər! Ardıcıl artırmaqla sələm yeməyin. Allahdan çəkinin, bəlkə nicat tapasınız."**

## *Nöqtələr*

◘Bu ayə özündən sonrakı səkkiz ayə ilə birlikdə Ühüd döyüşü ayələri arasında yerləşmişdir. Belə bir tərtibin səbəbi müdafiə sistemində əxlaqi və iqtisadi məsələlərin əhəmiyyətinin önə çəkilməsi ola bilər. Fərdləri ixlaslı, fədakar, xeyirxah, rəhbərə itaətçil olan bir cəmiyyət döyüşdə də müvəffəq olur. Pulpərəst, xəsis, itaətsiz, günahkar bir cəmiyyət isə, şübhəsiz, məğlub olacaqdır.

◘Sələmin qadağa ayələri bir neçə mərhələdə tədrici şəkildə nazil olmuşdur. İlk addımda yəhudilərin sələmçiliyi tənqid olunur.[1] İkinci addımda qat-qat artıq alınan sələm qadağan edilir. Üçüncü addımda isə hətta bir dirhəm sələm haram edilir və Allahla döyüş kimi tanıtdırılır.

[1] "Nisa", 161.

## *Bildirişlər*

1. İlahi göstərişlərə əməlin bünövrəsi imandır.
2. Sələm qadağan olunmamışdan onun çirkin növləri haram buyurulur.
3. İqtisadi məsələlərdə təqvaya riayət etmək zəruridir.
4. Sələmçilik qurtuluş yolu deyil. İnsan təqva yolu ilə nicat tapa bilər.
5. Sələm yeyən həm dünya, həm də axirətdə ziyankarlardandır və nicat tapmaz. (Dünyada təbəqələrarası ixtilafı gücləndirdiyi və axirətdə Allahın qəhr və qəzəbinə düçar olduğu üçün.)

**131.** ﴿ وَاتَّقُواْ النَّارَ الَّتِي أُعِدَّتْ لِلْكَافِرِينَ ﴾

**"Kafirlər üçün hazırlanmış oddan çəkinin."**

## *Bildirişlər*

1. Sələmçilik küfrün bir növüdür.
2. Sələmçi müsəlman kafirlər üçün hazırlanmış əzaba düçar olur.
3. Cəhənnəm kafirlər üçün hazırlanmışdır. Əgər bir müsəlman cəhənnəmə varid olursa, bunun səbəbi onun əməldə kafirlərə oxşamasıdır.
4. Cəhənnəm hal-hazırda mövcuddur. Necə ki, behişt salehlərin intizarındadır.[1]

**132.** ﴿ وَأَطِيعُواْ اللّهَ وَالرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ ﴾

**"Allaha və Onun rəsuluna itaət edin. Bəlkə sizə rəhm olunsun".**

## *Nöqtələr*

◘Ühüd döyüşündə müsəlmanların məğlubiyyət səbəbi onların həzrət Peyğəmbərin (s) göstərişinə itaətsizlikləri oldu. Məsələn, həzrətin pusquda qoyduğu və göstərişi gələnədək tərpənməmək tapşırığı verdiyi dəstə qənimət toplamaq məqsədi ilə öz mövqeyini boş qoydu. Düşmən məhz həmin keçiddən adlayıb müsəlmanlara arxadan zərbə vurdu.

## *Bildirişlər*

1. Peyğəmbər hökumətinin göstəriş və əmrləri Allah əmrləri kimidir və onlara itaət etmək vacibdir.
2. Sələmçilik Allah və Onun rəsulu qarşısında üsyan və tüğyandır.
3. Bir şəxs Allaha və Onun rəsuluna itaət üçün sələmçilikdən əl çəksə və xalqa rəhm etsə, Allahın mərhəmətini əldə edər.
4. Allah və Onun rəsuluna itaət cəhənnəmdən qurtuluş rəmzidir.
5. Allah və Onun rəsuluna itaətin bəhrəsi insanın özü üçün faydalıdır.
6. Allaha itaət mükafatsız qalmır. İtaət ilahi rəhməti əldə etmək vasitəsidir.

---

[1] "Şüəra", 90.

**133.** ﴿ وَسَارِعُواْ إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ ﴾

**"Rəbbinizin sizi bağışlamasına, göylər və yer qədər geniş olan və təqvalılar üçün hazırlanmış behiştə tələsin."**

## *Nöqtələr*

◘Bir qrup İslam aliminin fikrincə, behişt və cəhənnəm hal-hazırda mövcuddur. Onlar bu məsələdə "Şüəra" surəsinin 90-cı ayəsini dəlil göstərirlər.

◘Günahın bağışlanması Allahın işidir. Bağışlanmağa doğru tələsmək bağışlanmaya səbəb olacaq işlərə tələsmək mənasındadır.

◘Ayədəki "ərz" sözü uzunluq yox, genişlik mənasındadır.

◘Həzrət Əli (ə) bu ayənin təfsirində buyurmuşdur: "İlahi vəzifələri yerinə yetirməyə tələsin."[1]

## *Bildirişlər*

1. Xeyir işdə sürət həmin işin dəyərini artırır.
2. Əvvəlcə bağışlanmaq, sonra isə behiştə getmək!
3. Xalqın günahlarının bağışlanması ilahi rübubiyyət şənidir.
4. Tövbəyə tələsmək lazımdır.
5. Behiştə doğru sürətin şərti müttəqilər zümrəsində olmaqdır.

**134.** ﴿ الَّذِينَ يُنفِقُونَ فِي السَّرَّاء وَالضَّرَّاء وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ ﴾

**"(Müttəqilər) o kəslərdir ki, həm rahatlıq, həm də çətinlik zamanı infaq edər, öz qəzəblərini udar, xalqın xatalarını bağışlayarlar. Allah yaxşı əməl sahiblərini sevər."**

## *Nöqtələr*

◘Əvvəlki ayələrdə sələm məhkum edildikdən sonra bu ayə infaq, bağışlanma, yardım haqqında xoş sözlər söyləyir.

**Tarixi bir hadisə:**

Nəql edirlər ki, bir gün İmam Səccad (ə) başını yuyarkən xidmətçilərindən biri su qabını əlindən salır və imamın başı yaralanır. İmam xidmətçiyə baxdıqda xidmətçi anlayır ki, imam narahat olmuşdur. Xidmətçi dərhal deyir: "Onlar qəzəblərini udarlar". İmam buyurur: "Mən qəzəbimi uddum." Xidmətçi deyir: "Xalqın xatasını bağışlayarlar". İmam buyurur: "Səni əfv etdim." Xidmətçi deyir:

[1] "Təfsire-Məcməül-bəyan".

“Allah yaxşı əməl sahiblərini sevər”. İmam buyurur: “Səni Allah yolunda azad etdim.”[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Elə bir bəndə olmadı ki, qəzəbini udduqdan sonra Allah dünya və axirətdə onun izzətini artırmamış olsun.” Allah-təala buyurur: “Bu, qəzəbi udmağın mükafatıdır.”[2]

## *Bildirişlər*

1. Təqva infaqdan ayrı deyil.
2. İnfaq etmək üçün sərvət yox, səxavət lazımdır.
3. Məhrumları nə rifah, nə də yoxsulluq zamanı unudaq. Əlimiz aşağı olduqda infaq etməmək üçün “özümüz çətinlikdəyik” deməyək.
4. Nəfs istəkləri müttəqilərə yox, müttəqilər nəfs istəklərinə hakimdir.
5. Təqva qəlb genişliyi olan yerdədir.
6. Müttəqi guşənişin (“münzəvi”) deyil. Bu zümrə xalqla öz sərvəti və yaxşı əxlaqı ilə keçinir.
7. Xatakarı bağışlayarkən onun imanı şərt olmur.
8. Allahın sevgisini qazanmaq istəyən kəs malından keçməli, qəzəbini udmalıdır.
9. Məhrumlara infaq və xalqın xatalarının bağışlanması ehsan və saleh əməl nümunələrindəndir.

**135.** ﴿وَالَّذِينَ إِذَا فَعَلُواْ فَاحِشَةً أَوْ ظَلَمُواْ أَنْفُسَهُمْ ذَكَرُواْ اللّهَ فَاسْتَغْفَرُواْ لِذُنُوبِهِمْ وَمَن يَغْفِرُ الذُّنُوبَ إِلاَّ اللّهُ وَلَمْ يُصِرُّواْ عَلَى مَا فَعَلُواْ وَهُمْ يَعْلَمُونَ﴾

**“(Təqvalılar) o kəslərdir ki, pis iş gördükdə və ya özlərinə zülm etdikdə Allahı xatırlayıb, günahlarına görə tövbə edərlər. Allahdan başqa günahları bağışlayan kimdir? (Müttəqilər) günahın pisliyini bildiklərindən gördükləri işi təkrarlamazlar.**

## *Nöqtələr*

◘Bəzi təfsirçilər “fahişə” sözünün zinaya, “zülm” sözünün isə digər günahlara aid olduğunu bildirmişlər. Başqa bir qrup təfsirçinin fikrincə isə “fahişə” böyük günahlara, “zülm” isə kiçik günahlara işarədir.

◘Rəvayətdə oxuyuruq ki, ötən günahlara diqqətsizlik və tövbənin tərk olunması günahın israrı, təkrarlanması kimidir.[3]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Bu ayə nazil olduğu vaxt İblis bütün yaxınlarını toplayıb çarə axtardı, lakin heç bir şey tapmadı. Bu zaman vəsvase-xənnas dedi: “Mən çarə bilirəm! Onlara vədə verərəm, arzuları ilə başlarını

[1] “Təfsire-Məcməül-bəyan”; “Təfsire-ruhul-bəyan”.
[2] “Kafi”, c. 2, səh. 110.
[3] “Kafi”, c. 2, səh. 287.

qataram ki, günaha batsınlar. Elə ki, günaha batdılar, tövbəni yadlarından çıxararam."[1]

## Bildirişlər

1. Bəzən müttəqi fərdlər də günaha yol verir.

2. Günahdan da qorxulu odur ki, günah və onun pisliyinə diqqətsiz olasan. Müttəqilər isə günaha mürtəkib olan kimi tövbə edirlər.

3. İnsanın batdığı günaha görə dərhal tövbə etməsi təqva nişanəsidir.

4. Allahın zikri tövbə rəmzidir.

5. Nə qədər ki, günahkarın qəlbində Allah zikri diridir, o, müttəqilər zümrəsinə qatıla bilər.

6. Günah insanın özünə zülmüdür.

7. Günahları yalnız Allah bağışlaya bilər.

8. Müttəqilər günah üzərində israr etmir, onu təkrarlamırlar. Günahın təkrarlanması onun kiçik sayılması və Allah zikrindən qəflət nişanəsidir.

9. Davamlı olaraq günahı təkrarlamaq ilahi bağışlanmadan məhrumluq səbəbidir.

136. ﴿ أُوْلَئِكَ جَزَآؤُهُم مَّغْفِرَةٌ مِّن رَّبِّهِمْ وَجَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَنِعْمَ أَجْرُ الْعَامِلِينَ ﴾

**"Rəbbi tərəfindən onların (müttəqilərin) mükafatı bağışlanma və ağacları altından çaylar axan bağlardır. Onlar daim orada qalarlar. Əməl sahiblərinin mükafatı necə də gözəldir!"**

## Nöqtələr

◘«Müttəqilər», «yaxşı əməl sahibləri», «əməl əhli» təbirləri üç ayənin sonunda ardıcıl təkrarlanır. Bu təkrarlardan məlum olur ki, təqva guşənişinlik, özünə qapılma halı yox, əməl və ehsan səhnəsində iştirakdır.

## Bildirişlər

1. İnsan paklanmayınca behiştə daxil olmaq ləyaqəti tapmır.

2. Allahın əfvi və bağışlaması insanın tərbiyəsi üçündür.

3. İlahi lütflərə təkcə arzu vasitəsi ilə çatmaq olmaz. Bundan ötrü iş və əməl lazımdır.

137. ﴿ قَدْ خَلَتْ مِن قَبْلِكُمْ سُنَنٌ فَسِيرُواْ فِي الأَرْضِ فَانْظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذَّبِينَ ﴾

[1] "Vəsail", c. 11, səh. 66.

**“Sizdən əvvəl də sünnələr, qaydalar olmuşdur. Yer üzündə gəzin və görün ki, təkzib edənlərin aqibəti necə olmuşdur?”**

## *Nöqtələr*

◘Ayədə sosiologiyanın əhəmiyyətinə və cəmiyyətin yüksəliş və süqut səbəblərinin kəşfinə işarə olunmuşdur. Əvvəlki qövmlərdə mövcud olmuş sünnələr bu qəbildəndir:

a) Haqqın qəbulu və qurtuluş.
b) Haqqın təkzibi və bədbəxtlik.
v) İlahi sınaqlar.
q) Həqiqət əhli üçün qeybi yardımlar.
d) Zalımlara möhlət.
e) İlahi insanların müqaviməti və məqsədə çatması.
ə) Kafirlərin fitnələri və Allah tərəfindən onların aradan götürülməsi.

## *Bildirişlər*

1.Tarixə sabit qanun və sünnələr hakimdir. Bu qanunlarla tanışlıq bugünkü insan üçün faydalıdır.

2. Keçmişin tarixi gələcək həyat üçün çıraqdır.

3. Məqsədli səyahət və düşüncə ilə müşayiət olunan baxış insanın tərbiyəsi üçün ən yaxşı dərsdir.

4. Siz başqa ümmətlərdən fərqlənmirsiniz. Bütün ümmətlərin yüksəliş və süqut səbəbləri eynidir.

5. Keçmişdəkilərin rəftar və aqibəti ilə tanışlıq yol seçimi üçün faydalıdır.

6. Keçmişin tarixindən xəbərdar olmaqla öz gələcəyinizi müəyyənləşdirə bilərsiniz.

7. Tarixi əsərlərin qorunması gələcək insanların ibrəti üçün zəruridir.

8. Tarixdə baş vermiş hadisələrin araşdırılması zəruridir.

9. Tarixin araşdırılmasında müxtəlif səhnələr yox, işin sonu mühümdür.

10. İlahi cəzalar təkcə qiyamətə aid deyil. Bəzən bu dünyada da ilahi qəhr və qəzəb zalımların sorağına gəlir.

**138.** ﴿ هَذَا بَيَانٌ لِّلنَّاسِ وَهُدًى وَمَوْعِظَةٌ لِّلْمُتَّقِينَ ﴾

**“Bu (Quran), bütün xalq üçün aşkar bəyan, müttəqilər üçünsə hidayət və nəsihətdir.”**

## *Nöqtələr*

◘Ayədəki “bu” (“haza”) əvəzliyi ya 130-137-ci ayələrə, ya da əvvəlki ayədəki tarixin sünnə və ibrətlərinə işarədir.

## *Bildirişlər*

1. Quran bütün əsrlərdə, bütün insanlar tərəfindən anlaşılan bir kitabdır.

2. Quran bütün xalqlar, bütün zamanlar və məkanlar üçündür.
3. Məqsədli səyahət hidayət amillərindəndir.
4. Quran bütün xalq üçün olsa da, ondan yalnız müttəqilər ibrət götürür.
5. İlahi ayələrdən istifadə və bəhrələnmədə insanların ruhiyyəsi təsirlidir.

**139.** ﴿ وَلاَ تَهِنُوا وَلاَ تَحْزَنُوا وَأَنتُمُ الأَعْلَوْنَ إِن كُنتُم مُّؤْمِنِينَ ﴾

**“Əgər möminsinizsə, süst və qəmgin olmayın. Çünki siz üstünsünüz.”**

## *Nöqtələr*

◘Komandanlığa itaətsizlik səbəbindən Ühüd döyüşündə məğlub olmuş müsəlmanlar bir qədər ruhdan düşdülər. Ayə nazil oldu ki, məbada öz məğlubiyyətinizdən nəticə çıxarmayasınız. Möminlər imanlarını gücləndirməlidirlər. Çünki onlar üstündürlər.

## *Bildirişlər*

1. Bir döyüşdə məğlubiyyət müsəlmanların son məğlubiyyəti demək deyil.
2. Rəhbər ruhiyyələri gücləndirməlidir.
3. İman və itaətə qayıtsanız, döyüşlərdə qalib gələcəksiniz.
4. İman sayəsində bütün dünyanı dizə çökdürmək olar.
5. Zahiri qələbə və məğlubiyyət meyar deyil. Üstünlük sağlam əqidə və sağlam təfəkkürdədir.
6. Materialist dünyagörüşündə silah və hərbi təchizat qələbə amili sayılır. İlahi dünyagörüşündə isə qələbə amili imandır.

**140.** ﴿إِن يَمْسَسْكُمْ قَرْحٌ فَقَدْ مَسَّ الْقَوْمَ قَرْحٌ مِّثْلُهُ وَتِلْكَ الأيَّامُ نُدَاوِلُهَا بَيْنَ النَّاسِ وَلِيَعْلَمَ اللّهُ الَّذِينَ آمَنُواْ وَيَتَّخِذَ مِنكُمْ شُهَدَاء وَاللّهُ لاَ يُحِبُّ الظَّالِمِينَ﴾

**“Əgər (Ühüd döyüşündə) sizə yara (zərər) toxundusa, şübhəsiz ki, kafir dəstə də o sayaq yaralandı. Biz günləri (məğlubiyyət və qələbə günlərini) xalq arasında dövr etdiririk ki, Allah iman gətirənləri müəyyənləşdirsin və sizlərdən şahidlər tutsun. Allah zalımları sevmir (bəzən zahirən qalib olsalar da).”**

## *Nöqtələr*

◘Ayə müsəlmanlara təsəlli verməklə həqiqəti bəyan edir. Bildirilir ki, əgər müsəlmanlar haqq yolda canla bağlı hansısa zərərlərə düçar olurlarsa, düşmənlər də onlar kimi öldürülür və yaralanırlar. Əgər bu gün müsəlmanlar Ühüddə qələbə çalmadılarsa, düşmənlər də bir gün Bədrdə məğlub olmuşdular. Çətinliklərə səbir etmək lazım gəlir.

◘"Şəhidlər", "şəhid", "şahid" sözləri, adətən, Quranda "agah olma" mənasında işlədilsə də, söhbət döyüşdən və yaralanmadan getdiyi üçün buradakı "şəhidlər" sözünü Allah yolunda öldürülmüşlər kimi mənalandıranlar səhv etməmişlər.

**◘Müsəlmanlar aşağıdakı bilgiləri nəzərə alaraq ruhdan düşməməlidirlər:**

a) Siz uca mərtəbəlisiniz.

b) Sizin düşmənləriniz də yaralanmışlar.

v) Bu acı günlər ötüb keçər.

q) Allah həqiqi möminləri münafiqlərdən seçir.

d) Allah gələcək tarix üçün sizdən şahidlər tutur.

e) Allah sizin müxaliflərinizi sevmir.

◘İmam Sadiq (ə) bu ayə haqqında buyurmuşdur: "Allah Adəmi yaratdığı gündən ilahi və şeytani qüvvələr bir-birləri ilə mübarizədədirlər. Allah bir vaxt həzrət Qaimin (ə) zühuru ilə kamil ilahi hakimiyyəti bərqərar edər.[1]

## *Bildirişlər*

1. Müsəlmanlar səbir və dözümdə kafirlərdən geri qalmamalıdırlar.
2. Acı və şirin hadisələr daimi deyil.
3. Döyüşlərdə və həyatın eniş-yoxuşlarında həqiqi iman əhli münafiqlərdən seçilir.
4. Allah haqq yolda sizlərdən şəhidlər seçir ki, Allahın dinindən asanlıqla üz döndərməyəsiniz.
5. Allah sizin özünüzdən şahidlər tutub ki, rəhbərə itaətsizlik necə də məğlubiyyətə aparıb çıxarır.
6. Kafirlərin müvəqqəti qələbəsi Allahın onlara məhəbbətinin nişanəsi deyildir.
7. Tarixi hərəkatlar və cərəyanlar Allahın iradəsindən asılıdır.

**141.** ﴿ وَلِيُمَحِّصَ اللّهُ الَّذِينَ آمَنُواْ وَيَمْحَقَ الْكَافِرِينَ ﴾

**"(Döyüşdəki irəliləmə-geriləmələr ona görədir ki,) Allah mömin fərdləri pak və xalis, kafirləri isə (tədricən) məhv etsin."**

## *Nöqtələr*

◘Ayədəki "təmhis" sözü hər cür eybdən pak etmək mənasını bildirir. "Məhəq" isə tədricən azalmaq deməkdir.

◘Sanki Allah Ühüddə müsəlmanların zəif nöqtələrini onlara bildirmək istəmişdir. Onlar öz zəif nöqtələrini bildikdən sonra islah fikrinə düşə bilər və bu yolla da növbəti hərəkətlərə hazırlaşardılar. Bəzən insanı qəflətdən oyadan məğlubiyyət onu yuxuya verən qələbədən faydalı olur.

## *Bildirişlər*

1. Döyüş pak insanları napak insanlardan seçmək üçün bir mizandır.

---

[1] "Təfsire-Əyyaşi", c. 1, səh. 199.

2. İman əhli üçün məğlubiyyət də, qələbə də səadətdir. Çünki onlar ya şəhadət vasitəsi ilə uca məqama çatır, ya da düşmənə qələbə çalırlar.
3. İmanın çiçəklənməsi və küfrün məhv olması zamanın gedişində əldə olunur.
4. Tarix küfrün məhvinə doğru addımlayır.
5. Bugünkü məğlubiyyət mühüm deyil. Əsas işin sonudur.

**142.** ﴿ أَمْ حَسِبْتُمْ أَن تَدْخُلُواْ الْجَنَّةَ وَلَمَّا يَعْلَمِ اللّهُ الَّذِينَ جَاهَدُواْ مِنكُمْ وَيَعْلَمَ الصَّابِرِينَ ﴾

**“Yoxsa güman edirsiniz ki, Allah aranızdakı mücahidləri və səbir edənləri müəyyənləşdirməmiş (“imanlıyam” deməklə) behiştə daxil olacaqsınız?!”**

## *Nöqtələr*

◘Ayədə möminlərin cihadına, səbir və müqavimətinə işarə olunur. Çünki behiştin yolu səbir və cihaddan keçir. Quran buyurur: “Səbir və müqavimətinizə görə sizə salam olsun, ey behişt əhli!”[1] Göründüyü kimi, salam yalnız hacılara, oruc tutanlara, xums və zəkat ödəyənlərə yox, səbir və dözüm əhlinə verilir ki, bütün əməllərdə səbrə ehtiyac vardır.

## *Bildirişlər*

1. Batil ümid və arzulardan əl çəkin.
2. Təkcə qəlb imanı kifayət deyil, əməl meydanında da çalışmaq lazımdır. Behişt bəhanəyə yox, bahasını ödəyənə verilir.
3. Behiştin açarı səbir və cihaddır. Müsibət və günah qarşısındakı səbir, ibadətdəki dözüm, kiçik və böyük cihad cəbhələrində iştirak behiştin açarlarıdır.
4. Səbir və müqavimətlə yanaşı, cihad da lazımdır. Çünki döyüşün başlanması, davamı, müharibədən sonrakı ağrılar, bir sözlə, hər bir addım səbir və dözümə ehtiyaclıdır.

**143.** ﴿ وَلَقَدْ كُنتُمْ تَمَنَّوْنَ الْمَوْتَ مِن قَبْلِ أَن تَلْقَوْهُ فَقَدْ رَأَيْتُمُوهُ وَأَنتُمْ تَنظُرُونَ ﴾

**“Həqiqətən, siz ölümü (və şəhadəti) onunla üzləşməzdən qabaq (Bədr döyüşündən sonra) çox arzulayırdınız. Sonra onu (Ühüd döyüşündə) gördünüz, amma (narazılıqla) baxdınız.”**

## *Nöqtələr*

◘Bu ayənin nazil olma şəni haqqında deyilir: Bədr döyüşündə bəziləri şəhid oldu və müsəlmanlar qalib gəldilər. Döyüşdən sağ çıxanlardan bəziləri dedilər: “Kaş ki, biz də Bədr döyüşündə Allah yolunda şəhadətə çataydıq.” Amma həmin

[1] “Rəd”, 24.

adamlar növbəti ildə - Ühüd döyüşündə baş götürüb qaçdılar. Bu ayədə həmin adamlar məzəmmət olunur.

Kərbəla şəhidlərinin ziyarətində deyirik: “Kaş ki, biz də sizinlə olaydıq və şəhadətə çataydıq.” Əgər belə bir fürsət verilsəydi, nə edərdik? Bu barədə düşünmüşükmü?

## Bildirişlər

1. Arzularınız sizi aldatmasın və hər şüara, hər şüar verənə inanmayın.
2. İnsanlar əməl meydanında sınaqdan çıxır.

144. ﴿وَمَا مُحَمَّدٌ إِلاَّ رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ الرُّسُلُ أَفَإِن مَّاتَ أَوْ قُتِلَ انقَلَبْتُمْ عَلَى أَعْقَابِكُمْ وَمَن يَنقَلِبْ عَلَىَ عَقِبَيْهِ فَلَن يَضُرَّ اللّهَ شَيْئًا وَسَيَجْزِي اللّهُ الشَّاكِرِينَ﴾

**“Məhəmməd yalnız bir peyğəmbərdir. Ondan qabaq da peyğəmbərlər (gəlmiş və) getmişlər. (Beləcə, peyğəmbərlər üçün də ölüm olmuşdur (var). Məgər o ölsə və ya öldürülsə, siz öz keçmişdəkilərinizəmi (onların ayinlərinəmi) dönəcəksiniz? Hər kəs geri dönsə, Allaha heç bir zərər yetirməz. Allah tezliklə şükür edənlərin mükafatını verəcək.”**

## Nöqtələr

◘Təfsirdə deyilir: Ühüd döyüşündə kafirlər Peyğəmbərin (s) alnına atdıqları daşla onu yaraladılar. Bir nida qopdu ki, Məhəmməd (s) öldürüldü. Bəziləri də Müsəb şəhadətə çatarkən peyğəmbərin şəhadətə çatdığını güman etdilər. Bu şayiə kafirlərin şadlanmasına və ruhlanmasına səbəb oldu. Müsəlmanlardan bir dəstəsi qorxuya düşüb qaçmağa başladı. Bəziləri də kafir komandanı Əbu-Süfyandan aman diləmək fikrinə düşdülər. Amma başqa bir qrup müsəlman uca bir səslə fəryad çəkib deyirdilər: “Əgər Məhəmməd (s) də olmasa, Məhəmmədin (s) yolu, Məhəmmədin (s) Allahı yerindədir. Qaçmayın!”

◘İmam Sadiq (ə) buyurmuşdur: “Qətl ölümdən fərqli bir həqiqətdir. Hər bir şəhid gələcəkdə geri dönüb yenidən öləsidir.[1] Quranda buyurulur: “Hər kəs ölümü dadacaqdır.”[2]

## Bildirişlər

1. Peyğəmbərin vəzifəsi Allahın əmrini bəyan etməkdir. Biz isə bu yolu davam etdirməliyik.
2. Məgər əvvəlki peyğəmbərlər öldükdə onların ardıcılları dindən çıxdımı?!
3. İslam cəmiyyəti elə təşkil olunmalıdır ki, hətta rəhbərin dünyasını dəyişməsi onun möhkəmliyini sarsıtmasın.

---

[1] “Təfsire-Əyyaşi”, c. 2, səh. 113.
[2] “Ənbiya”, 35.

4. İslam peyğəmbəri də ilahi sünnələrə, eləcə də, ölüm və həyat kimi təbiət qanunlarına tabedir.

5. Şayiə yaymaq düşmənin üslublarındandır.

6. Peyğəmbərin yolu yox, ömrü məhduddur.

7. Fərdə pərəstiş qadağandır. Allahın yolu aydınlaşdırıldıqdan sonra rəhbərlərin gəliş-gedişi ilahi xəttin davamına zərbə vurmamalıdır.

8. İmanınızı o qədər möhkəmləndirin ki, hadisələr onu lərzəyə gətirməsin.

9. Peyğəmbərlərin yolundan əl çəkmək süqut və geriləməkdir.

10. Xalqın küfrünün Allaha heç bir zərəri yoxdur.

11. Haqq yolda müqavimət əməli şükrün ən yaxşı növüdür və onun mükafatı Allahın yanındadır.

**145.** ﴿ وَمَا كَانَ لِنَفْسٍ أَنْ تَمُوتَ إِلاَّ بِإِذْنِ اللهِ كِتَابًا مُّؤَجَّلاً وَمَن يُرِدْ ثَوَابَ الدُّنْيَا
نُؤْتِهِ مِنْهَا وَمَن يُرِدْ ثَوَابَ الآخِرَةِ نُؤْتِهِ مِنْهَا وَسَنَجْزِي الشَّاكِرِينَ ﴾

**“Allahın hökmü olmadan kimsə ölmür. (Bu,) təyin olunmuş bir taledir. Dünya mükafatı istəyənə ondan verərik. Axirət mükafatı istəyənə isə axirət mükafatından verərik. Tezliklə şükür edənləri mükafatlandıracağıq.”**

## *Bildirişlər*

1. Döyüş meydanından qaçmaqla ölümdən qaçmaq olmaz.

2. Ölüm bizim əlimizdə deyil. İradə və hədəf seçimi isə bizim əlimizdədir.

3. Bir halda ki, dünya və axirət qarşımızdadır, əbədiyyət və Allah razı olduğu yolu davam etdirək.

4. Hər növ təsir və əməlin xüsusi əks-təsiri var. Hansı yolda qədəm atsaq, xüsusi bir məqsədə çatacağıq.

**146.** ﴿ وَكَأَيِّن مِّن نَّبِيٍّ قَاتَلَ مَعَهُ رِبِّيُّونَ كَثِيرٌ فَمَا وَهَنُواْ لِمَا أَصَابَهُمْ فِي سَبِيلِ اللّهِ
وَمَا ضَعُفُواْ وَمَا اسْتَكَانُواْ وَاللّهُ يُحِبُّ الصَّابِرِينَ ﴾

**“Nə çox peyğəmbərlər olmuşdur ki, onlarla birlikdə bir çox allahpərəstlər vuruşmuşlar. Allah yolunda onların başına nə gəlmişsə, süstləşməmiş, zəifləməmiş, zillətə boyun əyməmişlər. Allah səbir edənləri sevir.”**

## *Nöqtələr*

◘“Rəbiyyun” “rəbbi” sözünün cəm forması olub Allahla əlaqəsi möhkəm olan alim, müqavimətli, ixlaslı adama deyilir.[1]

[1] “Təfsire-nümunə”.

## *Bildirişlər*

1. Peyğəmbərlərin tarixi mübarizələrlə zəngindir.

2. Süstlük hiss etdikdə tarixin böyük insanlarının həyatından, onların müqavimətindən dərs götürək.

3. Yalnız ilahi rəhbərin nəzarəti altında olan döyüş və cihad haqdır.

4. Tarix alim və arif mücahidlərlə zəngindir.

5. Bütün mücahidlər əziz olsalar da, arif və alim mücahidlərin yeri başqadır.

6. Allaha iman müqavimət çeşməsidir.

7. Çətinliklər süstlük və zəiflik doğurmamalıdır. Əksinə, çətinliklər hərəkət amili olmalı və yeni səylər yaratmalıdır.

8. Əgər çətinliklər Allah yolunda olarsa, insan bundan ruh alar və həmin çətinliklərə asanlıqla sinə gərər.

9. İlahi insanları heç bir təzyiq təslim edə bilmir.

10. Bədr döyüşündə qalib gəlsəniz də, siz müsəlmanların gələcək yolu cihad və mübarizə yoludur. Ona görə də səbirli və möhkəm olun.

11. Bəsirətli mücahidlər nə ruhiyyələrini itirir, nə də döyüş güclərini əldən verirlər. Onlar təzyiqlər qarşısında təslim olmurlar.

12. Vəzifəni yerinə yetirmək və haqq yolda dayanmaq mühümdür. Qalib gəlib-gəlməməyin fərqi yoxdur. Allah buyurmur ki, O, fatehləri sevir. Buyurur ki, səbir edənlər Onun dostudurlar.

147. ﴿ وَمَا كَانَ قَوْلَهُمْ إِلاَّ أَن قَالُواْ ربَّنَا اغْفِرْ لَنَا ذُنُوبَنَا وَإِسْرَافَنَا فِي أَمْرِنَا وَثَبِّتْ أَقْدَامَنَا وانصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ ﴾

**"Onların sözü yalnız bu idi ki, Pərvərdigara, günahlarımızı, işimizdə həddi aşmağımızı bağışla və addımlarımızı möhkəm et. Kafirlərə qarşı bizə yardım göstər."**

## *Bildirişlər*

1. Döyüşdə məğlubiyyət amillərindən biri günah və israfdır. İxlaslı mücahidlər tövbə etməklə bu maneələri aradan qaldırırlar.

2. Öz məğlubiyyətinizi qəzavü-qədər və ya başqalarının günahı ilə əlaqələndirməyin. Öz qüsurlarınıza və təqsirlərinizə də nəzər salın.

3. Əvvəlcə tövbə, sonra isə qələbə, əvvəlcə bağışlanma istəyin, sonra qələbə diləyin.

4. Düşmən qarşısında təslim olmaq əvəzinə Allah hüzurunda bəndəliyinizi izhar edin.

5. Cihad və döyüş səhnələri insanı dua və tövbəyə sövq edir.

6. İlahi insanlar küfrü aradan qaldırmaq üçün Allahdan yardım diləyirlər. Onların məqsədi iftixar qazanmaq deyil.

7. Sayınızın çoxluğuna yox, ilahi lütfə arxalanın.

**148.** ﴿ فَآتَاهُمُ اللّهُ ثَوَابَ الدُّنْيَا وَحُسْنَ ثَوَابِ الآخِرَةِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ ﴾

**“Allah onlara dünya mükafatı və üstün axirət mükafatı əta etdi. Allah xeyir əməl sahiblərini sevir.”**

## *Nöqtələr*

◘Bəlkə də mücahidlərin dünyəvi mükafatı dedikdə onların sabitqədəmliyi və qələbəsi, axirət savabı dedikdə isə onların günahlarının bağışlanması nəzərdə tutulur.

## *Bildirişlər*

1. Dünyəvi mükafatlarla axirət mükafatları arasında böyük fərq var.

Dünya bəhrələri arasında acılıqlar da olur. Axirət mükafatı isə başdan-başa xeyirdir.

2. Dua, cihad, səbir, tövbə, Allaha iman və təvəkkül Allah sevgisi amillərindəndir. Əvvəlki ayələrdə bu mövzuya toxunuldu.

**149.** ﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِن تُطِيعُواْ الَّذِينَ كَفَرُواْ يَرُدُّوكُمْ عَلَى أَعْقَابِكُمْ فَتَنقَلِبُواْ خَاسِرِينَ ﴾

**“Ey iman gətirənlər! Əgər kafirlərə itaət etsəniz, onlar sizi keçmişdəkilərinizin kafir ayinlərinə qaytararlar. Siz də yenidən ziyankarlığa qayıdarsınız.”**

## *Nöqtələr*

◘Bu ayənin nazil olma şənində bildirilir ki, Ühüd döyüşündə müsəlmanlar məğlub olduqları vaxt münafiqlərin rəhbəri Abdullah ibn Ubəyy fəryad çəkib dedi: “Öz müşrik qardaşlarınıza qoşulun və əvvəlki bütpərəstliyi davam etdirin.”[1]

## *Bildirişlər*

1. Dindən çıxma və azğınlıq təhlükəsi möminlərə qarşı pusqudadır.
2. Eniş-yoxuşlarda düşmən təbliğatlarından və vəsvəsələrindən ehtiyatlı olun. Məbada tədricən onlara meyl edəsiniz.
3. İman gətirdikdən sonra küfrə uğrama irtica və süqutdur.
4. Əsl zərər iman və düşüncə sərmayəsini əldən vermək, behişti əldən buraxıb, cəhənnəmi götürməkdir.
5. Döyüş meydanında məğlubiyyət ziyan deyil. Etiqad məğlubiyyəti yetərincə böyük ziyandır.

[1] “Təfsire-Nurus-səqələyn”.

150. ﴿ بَلِ اللّهُ مَوْلاَكُمْ وَهُوَ خَيْرُ النَّاصِرِينَ ﴾

**“(Sizi dost bilməyənlərə itaət etməyin.) Əslində Allah sizin himayədarınızdır və Odur yardımçıların ən yaxşısı.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə kafirlərə itaətdən danışıldı. Bu ayədə isə belə buyurulur: “Allahdır sizin himayəçiniz.” Məlum olur ki, kafirlərə itaət edən kəs əslində onları özünə hami seçmişdir.

◘Şöhrət və qüdrət qazanmaq istəyi insanı kafirlərə itaətə, dindən çıxmağa vadar edir. Quran bu və bunun oxşarı olan ayələrdə uyğun puç xəyalı rədd edir və buyurur: “Özlərinə zülm edənlərin qarşıdakı əzabdan xəbərləri olsaydı, bütün qüvvə və qüdrətin Allaha məxsus olduğunu bilərdilər.”[1] Qüvvə və izzət bütünlüklə yalnız Allaha məxsusdur.”[2]

## *Bildirişlər*

1. Vilayət və itaət yalnız Allaha aiddir.
2. Allahı hami götürmək qələbə səbəbidir.

151. ﴿ سَنُلْقِي فِي قُلُوبِ الَّذِينَ كَفَرُواْ الرُّعْبَ بِمَا أَشْرَكُواْ بِاللّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ سُلْطَانًا وَمَأْوَاهُمُ النَّارُ وَبِئْسَ مَثْوَى الظَّالِمِينَ ﴾

**“Küfr edən kəslərin qəlbinə tezliklə qorxu salacağıq. Çünki onlar dəlili nazil edilməmiş bir şeyi Allaha şərik qoşmuşlar. Onların yeri cəhənnəm odudur. Zalımların yeri necə də pisdir!”**

## *Nöqtələr*

◘Ühüddə müsəlmanlar məğlub olduqdan sonra Əbu-Süfyan və onun qoşunu bir müddət Mədinə ətrafında qaldı. Onlar deyirdilər: “Müsəlmanlar məhv oldular, onlardan kim qaldısa qaçdı. Yaxşı olar ki, geri dönüb onların kökünü kəsək.” Amma Allah onların qəlbinə elə bir qorxu saldı ki, məğlub olmuş kimi Məkkəyə qayıtdılar. Çünki onlar müsəlmanların hücum edəcəyindən qorxurdular.[3]

## *Bildirişlər*

1. Allah düşmənin qəlbinə qorxu salmaqla müsəlmanlara yardım edir.
2. Allahdan qeyrisinə arxalanmaq şirk və qorxu amilidir. Necə ki, iman və Allah zikri arxayınlıq yaradır.
3. Müşriklər öz iddialarına dəlil gətirməkdə acizdirlər.

---

[1] “Bəqərə”, 165.
[2] “Yunus”, 65.
[3] “Mənaqib”, c. 1, səh. 126.

4. Əqidə məsələləri məntiq və dəlilə əsaslanmalıdır.
5. Dəlil qəlblərə nazil olmuş ilahi nurdur. Müşriklərdə belə bir nur yoxdur.
6. Şirk zülmdür. Ona görə ayənin sonunda zalımların pis sığınacağına işarə olunur.

**152.** ﴿وَلَقَدْ صَدَقَكُمُ اللّهُ وَعْدَهُ إِذْ تَحُسُّونَهُم بِإِذْنِهِ حَتَّى إِذَا فَشِلْتُمْ وَتَنَازَعْتُمْ فِي
الأَمْرِ وَعَصَيْتُم مِّن بَعْدِ مَا أَرَاكُم مَّا تُحِبُّونَ مِنكُم مَّن يُرِيدُ الدُّنْيَا وَمِنكُم مَّن يُرِيدُ
الآخِرَةَ ثُمَّ صَرَفَكُمْ عَنْهُمْ لِيَبْتَلِيَكُمْ وَلَقَدْ عَفَا عَنكُمْ وَاللّهُ ذُو فَضْلٍ عَلَى الْمُؤْمِنِينَ﴾

**“Allah Öz vədini hökmən gerçəkləşdirər. Çünki düşməni Onun istəyi ilə öldürürdünüz. Allah sevdiyiniz şeyi sizə göstərdiyi halda süstləşdiniz. (Qənimətləri bölməkdə) çəkişməyə başladınız və itaətsizlik etdiniz. Sizin bəziləriniz dünya istəyindədir. Bəziləriniz isə axirəti istəyirsiniz. Həmin vaxt Allah sizi sınamaq üçün geri döndərdi və sizi bağışladı. Həqiqətən, Allah möminlərə münasibətdə fəzl və bəxşiş sahibidir.”**

## *Nöqtələr*

◘Müsəlmanlar hicri tarixi ilə ikinci ildə Bədr döyüşündə qalib gəldilər. Allah vəd etmişdi ki, qarşıdakı döyüşlərdə də onlar qalib olacaqlar. Növbəti ildə Ühüd döyüşündə müsəlmanlar qələbə çalmaqda ikən həzrət Peyğəmbərin (s) dağ keçidində qoyduğu əlli nəfərlik dəstə arasında ixtilaf yarandı. Onlardan bir hissəsi qələbəni qəti sayıb qənimət ardınca getmək istədi. Digər bir hissəsi isə səngərləri boş qoymamaq mövqeyində dayandı. Həmin mühafizə dəstəsi mövqeyi boş buraxdıqdan sonra düşmən həmin keçiddən adlayıb müsəlmanlara ağır bir zərbə vurdu. Çoxlu şəhidlər verildi. Hətta peyğəmbərin də həyatı üçün təhlükə yarandı. Əksər müsəlmanlar döyüş meydanından qaçmağa başladı.

Döyüş başa çatdıqdan sonra müsəlmanlar peyğəmbərə irad etməyə başladılar ki, Allah qələbə vədi verdiyi halda nə üçün onlar məğlub oldular? Ayə cavab olaraq bildirir ki, Allahın vədi düzdür. Hazırkı məğlubiyyətin səbəbi isə süstlük, çəkişmə və itaətsizlik olmuşdur.

## *Bildirişlər*

1. Allahın vədlərinin araşdırılması ilahi qanunların nəzərdən qaçırılması mənasında deyil. Siz vəzifənizi yerinə yetirənədək Allah sizə yardım göstərir.
2. Süstlük, çəkişmə, rəhbərə itaətsizlik məğlubiyyət amillərindəndir.
3. Fərdlər müxtəlif məqsədlərlə döyüşə girir. Bəziləri dünya üçün, bəziləri isə axirət üçün vuruşur.
4. Döyüşdə dözüm, vəhdətin qorunması, rəhbərə itaət mücahidlərin axirət istəyi nişanələrindəndir.
5. Qələbə nemətinə şükür əvəzinə ixtilaf, itaətsizlik və süstlük edənlərin cəzası məğlubiyyətdir.

6. Zahirdəki məğlubiyyətlərin səbəbi batindəki məğlubiyyətlərdir. Daxilən süst və itaətsiz olduqlarından onlar zahirdə də məğlubiyyətə uğradılar.

7. Məğlubiyyətlər həm də ilahi sınaq vasitəsidir.

8. İxtilaf və məğlubiyyət zamanı da Allahın lütfündən ümidinizi üzməyin.

9. İman Allahın xüsusi fəzlinin əldə olunması zəminəsidir.

10. Mömini bir xilaf işinə görə iman əhli cərgəsindən çıxarmaq olmaz. Ona bir tərəfdən xəbərdarlıq edilməli, digər tərəfdən ümid verilməlidir.

153. ﴿إِذْ تُصْعِدُونَ وَلاَ تَلْوُونَ عَلَى أحَدٍ وَالرَّسُولُ يَدْعُوكُمْ فِي أُخْرَاكُمْ فَأَثَابَكُمْ
غَمَّاً بِغَمٍّ لِّكَيْلاَ تَحْزَنُواْ عَلَى مَا فَاتَكُمْ وَلاَ مَا أَصَابَكُمْ وَاللّهُ خَبِيرٌ بِمَا تَعْمَلُونَ﴾

**“(Xatırlayın,) o zaman ki, (Ühüd döyüşündə qaçan zaman) yuxarı qalxır və kimsəyə diqqət yetirmirdiniz. (Halbuki) Peyğəmbər sizi arxadan səsləyirdi. Bunun cəzası olaraq Allah qəminizə qəm artırdı. Bir daha əlinizdən çıxanlara və ya başınıza gələnlərə görə qəm çəkməyin. Bilin ki, Allah etdiyiniz işlərdən agahdır.”**

## *Nöqtələr*

◘“Qəminizə qəm artırdı” cümləsi haqqında müxtəlif təfsirlər bəyan olunmuşdu. O cümlədən:

1. Allah Öz lütfünə xatir qənimətlərin əldən çıxması ilə bağlı bəyənilməmiş bir qəmi kafirlərin qələbəsi kimi bəyənilmiş bir qəmlə əvəz etdi.

2. Onlar Peyğəmbəri (s) qəmləndirdikləri üçün ağır bir qüssəyə düçar edildilər.

3. Allah döyüşdən qaçmağın, peyğəmbərə itaətsizliyin cəzası olaraq onlara bir-birinin ardınca qəm-qüssə göndərdi.

◘Rəvayətlərə əsasən, Xalid ibn Vəlidin müsəlmanlara qələbə çalması onların Ühüd məğlubiyyətindən yaranan qəmlərini artırdı.[1]

## *Bildirişlər*

1. Süstlüyün, ixtilafın və komandana itaətsizliyin nəticəsi döyüş meydanından qaçmaq və qəm –qüssədir.

2. Zəif nöqtələrin xatırlanması təcrübələrdən faydalanmaq səbəbidir.

3. Təhlükə zamanı adi insanlar yalnız özünü düşünür.

4. Rəhbərin fəryadı qorxaq və zəif imanlı insanlara təsir göstərmir.

5. Əmin-amanlıq zamanı məhəbbət bildirmək mühüm deyil. Çətin günlərdə həmdərdlik dostluq nişanəsidir.

6. Hamı qaçdığı zaman da rəhbər meydanda qalıb qaçanları geri çağırmalıdır.

7. Vəzifəni yerinə yetirərkən bir an diqqətsizlik və məsuliyyətsizlik bir çox çətinliklərin ardıcıl şəkildə hücum çəkməsinə səbəb olur.

---

[1] “Təfsire-bürhan”; “Təfsire-rahnüma”.

8. Keçmişin çətinliklərindən dərs götürün. Dünya malını itirdiyiniz üçün və ya çətinliklərə düşdüyünüz üçün qəm yeməyin.

154. ﴿ثُمَّ أَنزَلَ عَلَيْكُم مِّن بَعْدِ الْغَمِّ أَمَنَةً نُّعَاسًا يَغْشَى طَآئِفَةً مِّنكُمْ وَطَآئِفَةٌ قَدْ
أَهَمَّتْهُمْ أَنفُسُهُمْ يَظُنُّونَ بِاللّهِ غَيْرَ الْحَقِّ ظَنَّ الْجَاهِلِيَّةِ يَقُولُونَ هَل لَّنَا مِنَ الأَمْرِ مِن
شَيْءٍ قُلْ إِنَّ الأَمْرَ كُلَّهُ لِلَّهِ يُخْفُونَ فِي أَنفُسِهِم مَّا لاَ يُبْدُونَ لَكَ يَقُولُونَ لَوْ كَانَ لَنَا
مِنَ الأَمْرِ شَيْءٌ مَّا قُتِلْنَا هَاهُنَا قُل لَّوْ كُنتُمْ فِي بُيُوتِكُمْ لَبَرَزَ الَّذِينَ كُتِبَ عَلَيْهِمُ الْقَتْلُ
إِلَى مَضَاجِعِهِمْ وَلِيَبْتَلِيَ اللّهُ مَا فِي صُدُورِكُمْ وَلِيُمَحَّصَ مَا فِي قُلُوبِكُمْ وَاللّهُ عَلِيمٌ
بِذَاتِ الصُّدُورِ﴾

**“Sonra o qəm-qüssənin ardınca (Allah) sizin üçün yüngül bir yuxu göndərdi. (Bu yuxu) sizdən bir dəstəsini bürüdü. (Bununla da sizin yorğunluğunuz və iztirabınız aradan götürüldü.) Amma işi yalnız canını qorumaq olan digər bir dəstəniz cahiliyyət dövründə olduğu kimi Allah haqqında pis düşünüb (tənə ilə) dedilər: “Bu işdə bizim üçün bir şey varmı?” De ki, həqiqətən, hamısının işi Allahın əlindədir. Onlar sənə aşkarlamadıqları bir şeyi qəlblərində gizlədirlər. Onlar deyirlər: «Əgər qərar çıxarmaq haqqımız olsaydı, burada öldürülməzdik.» (Onlara) de ki, əgər evlərinizdə də olsaydınız, ölümləri müəyyənləşənlər öz qətlgahlarına yola düşərdilər. (Ühüd hadisəsi) Onun üçündür ki, Allah sinələrinizdə olanı sınağa çəksin və qəlbinizdəkiləri pak və xalis etsin. Allah sinələrdə olanı biləndir.”**

## *Bildirişlər*

1. Allah sizi Ühüd döyüşündəki ixtilaflara görə tənbeh etdi, amma boş buraxmadı.
2. Allah acı hadisələrin şiddətli vaxtında möminlərin qəlbinə rahatlıq bəxş edər.
3. Yuxu rahatlıq səbəbi və ilahi hədiyyədir.
4. Mücahidlərin ruhiyyələri, etiqadları, inamları, təhlilləri fərqlidir.
5. İnsanın özünə bənd olması ilahi vədlərə bədgümanlıq səbəbidir.
6. Ən böhranlı şəraitlərdə və məğlubiyyət zamanı da Allaha və Onun vədlərinə qarşı bədgüman olmayın.
7. İlahi vədlərə qarşı bədgümanlıq cahiliyyət əqidələrindəndir.
8. Özünə vurğunluq və rifah istəyi insanı ilahi razılıq dairəsindən xaric edər.
9. Hətta süstlük, ixtilaf və itaətsizlik zamanı da müsəlmanların məğlub olmaması fikri cahil düşüncədir.
10. Zəif imanlı fərdlər öz məğlubiyyətini ilahi yardımın olmaması ilə izah edirlər.

11. Mücahidlərin ruhiyyəsini zəiflədən suallar vermək qadağandır.
12. Vəsvəsələr, şəkk-şübhələr yaranmasına qarşı qəti olmaq lazımdır.
13. Rifah axtaran, özünə bənd olan müsəlmanlar daim nigarançılıq içindədirlər.
14. Özünü düşünən insanlar məsləhətləşmə zamanı öz təkliflərinin qəbul olunmasını gözləyirlər.
15. Qəti müqəddəratdan qaçmağa yol yoxdur.
16. Allahın qəti müqəddəratına etiqad insana rahatlıq verir.
17. Cəbhədəki çətinliklər və məğlubiyyətlər insanların iman dərəcəsini müəyyənləşdirmə yollarındandır.
18. Acı və şirin hadisələr sizin ruh və düşüncənizin təcəllası üçün bir səhnədir. Allah isə əvvəlcədən bütün ruhiyyə və düşüncələrdən xəbərdardır.

155. ﴿ إِنَّ الَّذِينَ تَوَلَّوْاْ مِنكُمْ يَوْمَ الْتَقَى الْجَمْعَانِ إِنَّمَا اسْتَزَلَّهُمُ الشَّيْطَانُ بِبَعْضِ مَا كَسَبُواْ وَلَقَدْ عَفَا اللّهُ عَنْهُمْ إِنَّ اللّهَ غَفُورٌ حَلِيمٌ ﴾

**“Həqiqət, iki qoşun qarşılaşdığı zaman sizlərdən (Ühüddə) üz döndərən (qaçan) kəslər oldu. Yalnız bu səbəbdən ki, şeytan onları bəzi xoşagəlməz işlərinə görə büdrətmişdi. Əlbəttə Allah onları bağışladı. Həqiqətən, Allah bağışlayan və həlimdir.”**

## *Nöqtələr*

◘Ayədə Ühüd döyüşündə meydandan qaçan bəzi müsəlmanlar haqqında danışılır. Təfsirlərdə bildirildiyi kimi, Ühüd döyüşündə beş nəfəri mühacir, səkkiz nəfəri ənsar olan 13 nəfərdən savay hamı qaçdı. Bu 13 nəfərin kimliyi (Əlidən (ə) savay) ixtilaflıdır.

◘Ühüd döyüşündə müsəlmanlar dörd dəstəyə bölündülər: şəhidlər, səbir edənlər, qaçıb sonradan bağışlananlar, münafiqlər.

## *Bildirişlər*

1. Döyüş meydanından qaçmağın səbəblərindən biri günahdır.
2. Günah döyüş meydanında şeytani vəsvəsələrə, tərəddüdlərə yol açır.
3. Xatakarı birdəfəlik rədd etmək və onu cəzalandırmağa tələsmək olmaz.
4. Allah günahkarı bağışlayır. Belə isə siz də daha onları danlamayın.

156. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَكُونُواْ كَالَّذِينَ كَفَرُواْ وَقَالُواْ لإِخْوَانِهِمْ إِذَا ضَرَبُواْ فِي
الأَرْضِ أَوْ كَانُواْ غُزًّى لَّوْ كَانُواْ عِندَنَا مَا مَاتُواْ وَمَا قُتِلُواْ لِيَجْعَلَ اللّهُ ذَلِكَ حَسْرَةً فِي
قُلُوبِهِمْ وَاللّهُ يُحْيِي وَيُمِيتُ وَاللّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾

**“Ey iman gətirənlər! O kəslərdən olmayın ki, küfr etdilər və səfərə, ya döyüşə gedən qardaşları haqqında belə dedilər: “Əgər yanımızda qalsaydılar, nə ölərdilər, nə də öldürülərdilər.” (Cəbhəyə həvəslə gedin ki,) Allah onu (sizin şücaətinizi) kafirlərin qəlbində bir həsrətə çevirsin. Allah dirildir və öldürür. Allah etdiyiniz işləri görəndir.”**

## *Bildirişlər*

1. Döyüş başa çatdıqdan sonra düşmən şayiələrə əl atmaqla həvəsdən salmağa çalışır. Deyirlər ki, əgər mücahidlər yanımızda qalsaydı, öldürülməzdilər.
2. Düşmən canıyananlıq libası geyib cəmiyyəti zəhərləyir.
3. Maddi rifah eşqi ilə yaşayanlar ölüm və şəhadəti zərər sayırlar.
4. Münafiqlər kafirdirlər. Çünki uyğun sözləri münafiqlər danışsa da, Quran onları kafir kimi yad edir.
5. Ölüm və həyat Allahın müqəddəratındandır. Döyüş və səfər insan həyatını qıra bilməz.
6. İlahi müqəddərata iman insan qəlbindəki qorxunu aradan götürür. Məbada sağ qalmaq xatirinə cihad vəzifəsindən boyun qaçırasınız. Nə çox insanlar döyüşdə olduqları halda diri qalmışlar. Amma bir çoxları döyüşə getmədikləri halda gənc yaşlarında dünyalarını dəyişmişlər.
7. Allah görən və agahdır. Öz halınıza, düşüncələrinizə və əməllərinizə diqqətli olun.

157. ﴿ وَلَئِن قُتِلْتُمْ فِي سَبِيلِ اللّهِ أَوْ مُتُّمْ لَمَغْفِرَةٌ مِّنَ اللّهِ وَرَحْمَةٌ خَيْرٌ مِّمَّا يَجْمَعُونَ
﴾

**“Əgər Allah yolunda öldürülsəniz və ya ölsəniz (ziyan etməmisiniz, çünki) Allahın bağışlaması və rəhməti (ömür boyu) topladıqlarınızdan daha yaxşıdır.”**

## *Nöqtələr*

◘Allah iki nöqtəni bəyan etməklə münafiqlərin əvvəlki ayədə haqqında danışılan süstləşdirici şayiələrinə cavab verir:

a) Ölüm və həyat Allahın əlindədir. Cəbhəyə getmək uzun ömrü qısaltmır.

b) Allah yolunda qədəm götürən insan ölsə də, şəhid olsa da xeyir tapmışdır. Çünki o öz ömrünü verib Allahın bağışlama və rəhmətini almışdır. Demək, heç nə uduzulmamışdır.

◘Hər kəs cəbhəyə, təhsil almağa, həccə və ziyarətə, təbliğə və digər müqəddəs hədəflər ardınca gedərkən dünyasını dəyişsə, Allahın rəhmət və bağışlamasını əldə edər.

## *Bildirişlər*

1. İlahi dünyagörüşündə Allah yolunda ölüm və şəhadət bütün dünya və onda olanlardan üstündür.
2. Əsas məsələ Allah yolunda olmaqdır. Bu yolun şəhadət və ya ölümlə başa çatmasının fərqi yoxdur.
3. Əvvəlcə bağışlanmaq, sonra ilahi rəhməti əldə etmək lazımdır. Ayədə bağışlanma sözü rəhmət sözündən əvvəl gəlmişdir.
4. Bağışlanma və rəhmətin nəticəsi əbədidir. Dünya malının ömrü isə müvəqqəti olur.

**158.** ﴿ وَلَئِن مُّتُّمْ أَوْ قُتِلْتُمْ لإِلَى الله تُحْشَرُونَ ﴾

**“Əgər ölsəniz və ya öldürülsəniz, hökmən Allaha doğru gətirilərsiniz.”**

## *Nöqtələr*

◘Bu ayədə “fi səbilillah”, yəni “Allahın yolunda” ifadəsi işlədilməmişdir. Söhbət istənilən bir yolda öldürülənlərin və ya ölənlərin Allaha doğru gətiriləcəyindən gedir. Bir halda ki, ölüm hamı üçün qətidir və qiyamət günü hamı Allahın qarşısında duracaq, nə üçün ən gözəl yolu seçməyək? Əgər ölüm və şəhadət Allaha doğru qayıdışdırsa, nə üçün şəhadətdən qorxaq? İmam Hüseyn (ə) buyurmuşdur:

Ölümə gedirsə bütün bu tənlər,
Haqq yolda şəhadət ən gözəl əsər.[1]

**159.** ﴿فَبِمَا رَحْمَةٍ مِّنَ اللّهِ لِنتَ لَهُمْ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لاَنفَضُّواْ مِنْ حَوْلِكَ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الأَمْرِ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللّهِ إِنَّ اللّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ﴾

**“(Ey peyğəmbər:) Allah tərəfindən olan rəhmətə xatir xalqla mehriban keçinirsən. Əgər sərt və daşürəkli olsaydın, (xalq) sənin ətrafından dağılardı. Beləsə, onların təqsirini bağışla, onlar üçün bağışlanma dilə, işlərdə onlarla**

[1] “Bihar” , c. 44, səh. 374.

**məsləhətləş. Qərara gəldiyin zaman Allaha təvəkkül et. Həqiqətən, Allah təvəkkül edənləri sevir.”**

## *Nöqtələr*

◘Ayənin məzmunu ümumi göstərişlərdən ibarət olsa da, o, Ühüd döyüşü haqqındadır. Çünki Ühüd döyüşündə məğlub olub qaçanlar peşmançılıq odunda yanırdılar. Onlar peyğəmbəri əhatəyə alıb üzr istəyirdilər. Allah da bu ayə ilə ümumi əfv göstərişi verdi.

“Şuvr” sözü əslində arının güldən şirə çəkməsini bildirir. İnsan da məşvərət yolu ilə ən üstün nəzəriyyələri əldə edir. Mövləvi deyir:

Çıraq tək nur saçır hər bir düşüncə,
İyirmi çıraqda baxasan gücə.

## *Bildirişlər*

1. Xalqla xoş rəftar ilahi bir hədiyyədir.
2. Sərt və qaraqabaq adamlar xalqa rəhbərlik edə bilməz.
3. İslam hökumətinin nizamı məhəbbət və xalqa bağlılığa əsaslanır.
4. Düzgün rəhbərlik və müdiriyyət əfv və mərhəmətlə yanaşıdır.
5. Peşman olmuş xatakarları və xəcalət çəkən günahkarları qəbul edin və özünüzdən kənarlaşdırmayın.
6. Məşvərətin dəyərini mövsümi, ötəri nakamlıqlara görə nəzərdən qaçırmayın. Ühüd döyüşündə məşvərət nəticəsində şəhərdən bayırda döyüş aparılması uğursuzluqla sona çatsa da, bu o demək deyil ki, məşvərət faydasızdır.
7. Peyğəmbərin məşvərətində qüvvələrin cəzbi, istedadların çiçəklənməsi, dost-düşmənin seçilməsi, ən yaxşı rəyin aşkara çıxması, məhəbbət və bağlılıq yaranması, eləcə də başqaları üçün əməli bir dərs nəzərdə tutulmuşdur.
8. Sənə edilən zülmü bağışla. Allaha qarşı yol verdikləri günahlara görə bağışlanma dilə.
9. Peyğəmbər Allah əmri əsasında ümməti üçün bağışlanma diləyir. Demək, bu dua qəbuldur.
10. Məşvərət vahid və qəti hakimiyyət prinsipinə zidd deyil.
11. Düşüncə və məşvərətlə yanaşı Allaha təvəkkül də unudulmamalıdır.
12. Əvvəlcə məşvərət, sonra təvəkkül düzgün yoldur. Nəticəyə çatıb-çatmamaq isə başqa bir məsələdir.

**160.** ﴿ إِن يَنصُرْكُمُ اللّهُ فَلاَ غَالِبَ لَكُمْ وَإِن يَخْذُلْكُمْ فَمَن ذَا الَّذِي يَنصُرُكُم مِّن
بَعْدِهِ وَعَلَى اللّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ ﴾

**“Əgər Allah yardım göstərsə, heç kim sizə qalib gəlməyəcək. Əgər sizi zəlil etsə, bundan sonra sizə yardım göstərə biləcək kimdir?! (Buna görə də) möminlər yalnız Allaha təvəkkül etməlidirlər.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə təvəkkülə sifariş olundu. Bu ayədə Allaha təvəkül edilməsinin dəlili kimi izzət və zillətin yalnız Onun əlində olması göstərilir.

◘Hədisdə deyilir ki, həzrət Peyğəmbər (s) Cəbraildən soruşdu: "Allaha təvəkkül nədir?" Cəbrail dedi: "Biləsən ki, xalq sənə heç bir fayda və ya zərər verə bilməz və Allahdan qeyrilərindən ümidini tam üzəsən. Əgər insan bu dərəcəyə çatıb yalnız Allah üçün iş görsə, Allahdan qeyrisindən qorxmasa, yalnız Allaha ümidli olsa, bu, əsil təvəkküldür."[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: "Əgər insanla günah arasında maneə olmasa və insan günaha batsa, bu ilahi yardımdan məhrumiyyət nəticəsidir.[2]

## *Bildirişlər*

1. Təbii qələbələr digər amillərin təsiri altındadır. İlahi yardımlar isə amillərə tabe deyil.
2. İstər qələbə, istərsə də məğlubiyyət Allahın iradəsindən asılıdır.
3. İman Allaha təvəkküldən ayrı deyil.

**161.** ﴿ وَمَا كَانَ لِنَبِيٍّ أَن يَغُلَّ وَمَن يَغْلُلْ يَأْتِ بِمَا غَلَّ يَوْمَ الْقِيَامَةِ ثُمَّ تُوَفَّى كُلُّ نَفْسٍ مَّا كَسَبَتْ وَهُمْ لاَ يُظْلَمُونَ ﴾

**"Heç bir peyğəmbərə yaraşmaz ki, xəyanət etsin. Hər kəs xəyanət etsə, xəyanət etdiyi şey qiyamət günü onunla gələr. Sonra hər kəsə qazandığının kamil qarşılığı verilər və onlar sitəm görməzlər."**

## *Nöqtələr*

◘Bəlkə də bu ayə qənimət toplamaq üçün Ühüddəki mövqeyini buraxanlara cavabdır. Onlar qənimətdən məhrum qalacaqlarından qorxaraq komandanın göstərişindən çıxdılar. Halbuki onlara "payınız saxlanılacaq, peyğəmbərin nəzərindən kənarda qalmayacaqsınız" deyilmişdi. Bu ayədə buyurulur: Peyğəmbər sizin qənimət payınıza xəyanət etməyəcək. Əmin olun və vəzifənizə əməl edin...

◘İmam Baqir (ə) buyurmuşdur: "Oğurlanmış mal cəhənnəmdə oğrunun gözü qarşısında mücəssəm olar və ona deyilər: Oda daxil ol və onu çıxart![3]

◘Qatqıçılıq, saxtakarlıq, qəsb və xəyanət ayədəki "ğill" nümunələrindəndir. Zəkat yığmaq tapşırılmış bir şəxs həzrət Peyğəmbərin (s) xidmətinə gəlib dedi: "Topladığım bu hissə zəkatdır və sizə çatacaq. Bu biri hissə isə xalqın mənə

---

[1] "Bihar" , c. 18, s.138.
[2] "Təfsire-bürhan", c. 1, səh. 323.
[3] "Təfsire-Nurus-səqəleyn".

verdiyi hədiyyələrdir.” Həzrət minbərə qalxıb buyurdu: “Əgər bir şəxs evində otursaydı, ona hədiyyə verilərdimi?! And olsun Allaha, həmin şəxs o haram malla qiyamət günü məhşur olacaq.”[1]

◘Peyğəmbərlərə qarşı bədbinlik olan yerdə özünüzə qarşı hansı münasibət gözləyə bilərsiniz?! İmam Sadiqin (ə) belə buyurduğu nəql olunmuşdur: “Xalqın razılığını qazanmaq olmaz, onların dilinə nəzarət etmək mümkünsüzdür.”[2]

## *Bildirişlər*

1.Təckə İslam peyğəmbəri yox, bütün peyğəmbərlər əmin, əmanətdardırlar. Peyğəmbərlik xəyanətlə uyuşmur. Əmin insan tərbiyə etmək istəyən şəxs özü xəyanətə yol verməməlidir. Gördüyünüz kimi, qeyri-ilahi rəhbərlər arasında xəyanət əhli çoxdur.

2. Hətta peyğəmbərlər də xalqın bədbin münasibətindən amanda qalmamışlar. (Bir tərəfdən zəif iman, digər bir tərəfdən dünya məhəbbəti insanı peyğəmbərlərə qarşı bədbinliyə aparır.)

3. Allahın övliyalarını və pak insanları müdafiə edin.

4. Qiyamətə haram mal gətirmək cəzanın bir növüdür. Qiyamətdə peyğəmbərlərin, şəhidlərin və bütün xalqın gözü qarşısında insanın xəyanət etdiyi malla gətirilməsi necə də pisdir!

5. Qiyamətin yada salınması insanı xəyanətdən çəkindirir.

6. Xəyanət xəyanətdir və onun qədəri mühüm deyil. “Yəti bima ğəllə” cümləsindəki “ma” hissəsi həm az, həm də çoxa xəyanəti bildirir.

7. Qiyamət səhnəsinə yaxşılar öz xeyir işləri ilə[3], xainlər isə öz xəyanətləri ilə çıxarlar.

8. Allah adildir. Həm cəzanı kamil surətdə verir, həm də zərrəcə ifrata varmır.

**162.** ﴿ أَفَمَنِ اتَّبَعَ رِضْوَانَ اللّهِ كَمَن بَاء بِسَخَطٍ مِّنَ اللّهِ وَمَأْوَاهُ جَهَنَّمُ وَبِئْسَ الْمَصِيرُ ﴾

**«Allahın razılığı sorağında olan kəs, Allahın qəzəbinə düçar olmuş və yeri cəhənnəm olan kəs kimidirmi? Necə də pis dönüş yeridir.»**

**163.** ﴿ هُمْ دَرَجَاتٌ عِندَ اللّهِ واللّهُ بَصِيرٌ بِمَا يَعْمَلُونَ ﴾

**“Onlar Allah yanında dərəcələrdirlər. Allah onların etdiyi işləri görəndir.”**

---

[1] “Təfsire-Fürqan”.
[2] “Təfsire-Nurus-səqələyn”.
[3] “Ənam”, 160.

## *Nöqtələr*

◘Bu ayənin nüzul şəni haqqında deyilir ki, həzrət Peyğəmbər (s) Ühüdə doğru hərəkət göstərişi verdiyi vaxt münafiqlər müxtəlif bəhanələrlə Mədinədə qaldılar. Bir qrup zəif imanlı müsəlman da onlara qoşulub cəbhəyə getmədi.

◘155-ci ayədə oxuduq ki, Allah cəbhədən qaçıb sonradan peşman olanları bağışlayır. Bu ayədə isə buyurulur: Bəhanəçi rahattələblər və münafiqlər bağışlanmaz.

◘Quranın bir çox ayələrində möminlərin dərəcələri haqqında danışılır.[1] Bu ayədə isə möminlərin özü dərəcə kimi tanıtdırılır. Necə ki, pak insanlar əvvəlcə Əli ibn Əbi-Talib (ə) kimi hərəkət edir, sonradan özləri ölçü olurlar. Əvvəlcə hansısa mehvər ətrafında dolanır, sonradan özləri xalq mehvəri olurlar.

## *Bildirişlər*

1. Həqiqi mücahidlərin məqsədi ilahi razılığı əldə etməkdir. Onları qələbə, qənimət, şan-şöhrət maraqlandırmır.
2. İslam cəmiyyətində mücahidlərlə rahatlıq axtaranlara eyni gözlə baxılmamalıdır.
3. Cəbhədən qaçmaq Allahın qəzəbinə üz tutmaqdır.
4. Müsəlman üçün yeganə əməl meyarı Allahın razılığı və ya qəzəbi olmalıdır.

**164.** ﴿لَقَدْ مَنَّ اللّهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ يَتْلُوا عَلَيْهِمْ
آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُواْ مِن قَبْلُ لَفِي ضَلالٍ مُّبِينٍ﴾

**“Həqiqətən, Allah möminlərə minnət qoyub onların öz aralarından bir peyğəmbər seçdi ki, ayələrini onlara oxusun, onları paklaşdırıb inkişaf etdirsin, onlara kitab və hikmət öyrətsin. Halbuki bundan qabaq aşkar azğınlıqda idilər.”**

## *Nöqtələr*

◘“Mənn” sözü əşyanın çəkisini təyin etmək üçün işlədilən daş mənasını bildirir. Hər bir ağır və dəyərli nemətin əta olunması “minnət” adlanır. Amma dəyərsiz nemətləri dəyərli, ağır göstərmək bəyənilməmiş bir işdir. Ona görə də böyük nemətləri bağışlamaq yaxşı, kiçik neməti böyük göstərmək isə bəyənilməmiş işdir.[2]

◘Xalqın arasından peyğəmbər seçilməsinin bir çox bərəkətləri var:

---

[1] “Ənfal”. 4; “Taha”, 75.
[2] “Təfsire-nümunə”.

a) Xalq onun keçmişini tanıyır və etimad göstərir.

b) Onlar ilahi göstərişlərin icrasında xalqa nümunə olur.

v) Onlar xalqın dərdlərinə şərikdirlər və bu dərdlərdən xəbərdardırlar.

q) Xalqın yanındadırlar.

◘Həzrət Əlinin (ə) "Nəhcül-bəlağə"dəki buyruqlarından məlum olur ki, cahiliyyət dövründə xalqın nə sağlam mədəniyyəti, nə də fiziki sağlamlığı vardı. Həzrətin qardaşı Cəfəre-Təyyar Həbəşistana hicrət zamanı cahiliyyət dövrünü Nəcaşi üçün belə təsvir edir: "Biz bütpərəst idik. Həmin dövrdə ölü heyvan əti yeyir, fitnə-fəsad içində yaşayırdıq. Qohumlarımızdan uzaqlaşmışdıq. Qonşularımızla pis rəftar edirdik. Bizim varlılarımız zəiflərin haqlarını ayaq altına alırdılar. Nəhayət, Allah Öz peyğəmbərini məbus etdi..."[1]

## Bildirişlər

1. Peyğəmbərlərin besəti ən böyük səmavi hədiyyə və ilahi nemətdir.
2. Besət bütün xalq üçün olsa da, yalnız möminlər bu nemətə görə şükür edir və hidayət nurundan bəhrələnirlər.
3. Peyğəmbərlər xalqa yaxın olmuşlar.
4. Quran ayələrinin tilavəti paklanma və təlim vasitəsidir.
5. Paklanma təlimdən öndə gəlir.
6. Paklanma və təlim peyğəmbər proqramlarında ön yerdə dayanır.
7. İnkişaf və özünütərbiyə peyğəmbər məktəbi və ilahi ayələr sayəsində həyata keçməlidir. (Qaynağı ilahi ayələr, müəllifi peyğəmbərlər olmayan riyazət və rahiblik özü bir azğınlıqdır.)
8. Peyğəmbərlərin besət nemətini yaxşı dərk etmək üçün onlardan əvvəlki xalqların tarixinə müraciət etmək lazımdır.
9. Günahkar və azğın mühitlərdə də iş görmək olar.
10. Peyğəmbər məktəbində ruhi tərbiyə və düşüncə təlimi insanın baxış və bəsirəti ilə yanaşıdır.

**165.** ﴿ أَوَلَمَّا أَصَابَتْكُم مُّصِيبَةٌ قَدْ أَصَبْتُم مِّثْلَيْهَا قُلْتُمْ أَنَّى هَذَا قُلْ هُوَ مِنْ عِندِ أَنْفُسِكُمْ إِنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ﴾

**"Sizə bir müsibət üz verdikdə ki, düşmən onun iki qat artığına düçar oldu, (yenədəmi) dediniz ki, bu müsibət haradandır? De ki, bu, özünüzdəndir. Şübhəsiz, Allah hər bir işə qadirdir."**

## Nöqtələr

◘Ühüddə yetmiş şəhid verib məğlub olan müsəlmanlar peyğəmbərdən soruşurdular ki, nə üçün məğlub olmuşuq? Allah Öz peyğəmbərinə xitabla buyurdu ki, onlara de: Siz ötən il düşmənə bundan iki qat artıq zərbə vurdunuz.

[1] "Kamilut-tarix", c. 2, səh. 80.

Onlardan yetmişini öldürüb, yetmişini əsir götürdünüz. Bu ilki məğlubiyyətinizin səbəbi isə təfriqə, süstlük, rəhbərliyə itaətsizliyiniz oldu.

## *Bildirişlər*

1. Mühakimə yürüdərkən həm uğurları, həm də uğursuzluqları nəzərə alın. Təkcə Ühüddəki məğlubiyyəti yox, həm də Bədrdəki qələbəni yada salın.
2. Məğlubiyyət amillərini araşdırdıqda ilk öncə batininizə, ruhunuza və düşüncənizə aid amilləri nəzərdən keçirin. Yalnız bundan sonra başqa səbəbləri araşdırmaq olar.
3. Allah hər şeyə qadirdir. Amma biz zəruri şərtlərin ödənməsinə və nemətdən faydalanma şəraitinə layiq olmalıyıq.
4. Elə zənn etməyin ki, qələbə üçün yalnız müsəlman olmaq kifayətdir. Uğursuzluğa görə «nə üçün» ,«niyə» - deyə soruşmayın. İmandan əlavə əqidə əsaslarına, hərbi qanunlara və ilahi qaydalara riayət etmək lazımdır.

**166.** ﴿ وَمَا أَصَابَكُمْ يَوْمَ الْتَقَى الْجَمْعَانِ فَبِإِذْنِ اللّهِ وَلِيَعْلَمَ الْمُؤْمِنِينَ ﴾

**“İki dəstənin qarşılaşdığı gün başınıza gələn hadisə Allahın izni ilə oldu ki, möminlər müəyyənləşdirilsin.”**

## *Nöqtələr*

◘Allah hər bir işin gerçəkləşməsi üçün səbəblər müəyyənləşdirmişdir. Hər bir məğlubiyyət və qələbənin dəlilləri var. Siz ona görə Ühüddə məğlub oldunuz ki, süstlük göstərdiniz, intizamı pozdunuz və qənimət toplamaq üçün hərislik göstərdiniz. Əvvəlki ayədə bildirilirdi ki, bunun səbəbkarı müsəlmanlar özləridir. Bu ayədə isə belə buyurulur: “Birlik və ya təfriqədə, ciddilik və ya süstlükdə hər bir seçiminiz ilahi iradə əsasındadır. Sizə seçim gücü verən Odur. Hansı yolu seçirsinizsə, ona uyğun nəticəyə çatırsınız.

## *Bildirişlər*

1. Hər bir qələbə və uğursuzluq Allahın iradəsi əsasında gerçəkləşir və bu, Onun sünnəsidir.
2. Acı və şirin hadisələr sınaq və insanın tanınması meydanıdır.

**167.** ﴿وَلِيَعْلَمَ الَّذِينَ نَافَقُواْ وَقِيلَ لَهُمْ تَعَالَوْاْ قَاتِلُواْ فِي سَبِيلِ اللّهِ أَوِ ادْفَعُواْ قَالُواْ لَوْ نَعْلَمُ قِتَالاً لاَّتَّبَعْنَاكُمْ هُمْ لِلْكُفْرِ يَوْمَئِذٍ أَقْرَبُ مِنْهُمْ لِلإِيمَانِ يَقُولُونَ بِأَفْوَاهِهِم مَّا لَيْسَ فِي قُلُوبِهِمْ وَاللّهُ أَعْلَمُ بِمَا يَكْتُمُونَ﴾

**“(Allah istədi ki,) münafiqlərin çöhrəsi məlum olsun.” Gəlin Allah yolunda döyüşün və ya (heç olmasa öz evlərinizi) müdafiə edin” deyənlərə belə cavab verdilər: “Əgər döyüş (yolunu) bilsəydik, hökmən, sizin kimi**

**edərdik.” Onlar həmin gün imana nisbətən, küfrə daha yaxın idilər. Dillərində dedikləri qəlblərində yox idi. Allah onların gizlətdiklərindən agahdır.”**

## *Nöqtələr*

◘Ayədəki “əgər döyüş bilsəydik” (“Ləv nələmu qitalən”) cümləsi üç cür mənalandırılmışdır:

a) Sizin Ühüd üçün şəhərdən xaric olmağınız bərabər döyüş deyil, özünə qəsddir. Ona görə də biz bunu döyüş saymırıq və onda iştirak etmirik.

b) Əgər biz hərb elmini bilsəydik, iştirak edərdik.

v) Biz yəqin bilirik ki, döyüş olmayacaq, ona görə də cəbhədə iştirakı zəruri saymırıq.

## *Bildirişlər*

1. Döyüş meydanı münafiqlərin iç üzünü açır.
2. Rəhbər xalqı düşmənə qarşı səfərbər etməlidir.
3. Cihad bəzən zalım hakimləri hakimiyyətdən uzaqlaşdırmaq üçün ibtidai (ilk addım), bəzən müsəlmanların canını və malını qorumaq üçün müdafiə məqsədi olur.
4. Onların səbəbləri, dərəcələri və dəyərləri fərqli olur.
5. Vətənin və canın müdafiəsi bir dəyərdir.
6. Münafiqlər öz məqsədlərinə don geydirirlər.
7. Cəbhədən boyun qaçırmaq küfr nişanəsidir.
8. İnsanın imanı müxtəlif şərait və zamanlarda fərqli olur.
9. Peyğəmbərin səhabələri arasında ədalətli olmayanlar da var idi.
10. Allah münafiqləri həm hədələyir, həm də ifşa edir.
11. Ühüddə aşkar olan şey nifaqın bir hissəsi idi. Nifaqdan tam şəkildə yalnız Allah xəbərdardır.

**168.** ﴿ الَّذِينَ قَالُواْ لإِخْوَانِهِمْ وَقَعَدُواْ لَوْ أَطَاعُونَا مَا قُتِلُوا قُلْ فَادْرَؤُوا عَنْ أَنفُسِكُمُ الْمَوْتَ إِن كُنتُمْ صَادِقِينَ ﴾

**“Münafiqlər o kəslərdir ki, (Ühüd döyüşündən sonra bədbin əhval-ruhiyyə yaradan təbliğata başladılar,) özləri oturdular və qardaşları haqqında dedilər: “Əgər bizə qulaq assaydılar, öldürülməzdilər.” Onlara de ki, əgər düz deyirlərsə, ölümü özlərindən kənarlaşdırsınlar.”**

## *Bildirişlər*

1. Xalq cəbhəyə gedən vaxt münafiqlər evdə oturardılar.
2. Münafiqlər şəhid ailələrinin ruhiyyəsini zəiflədirlər.
3. Münafiqlər özlərini başqalarına ideoloji rəhbər sayırlar.

4. Münafiqlərin dünya görüşüncə, əsas məsələ maddi dünya həyatı və rifahlı yaşayışdır.

5. Ölüm yazısına iman şücaət və cəbhəyə dəvətin qəbul səbəbidir. Münafiqlərin nəzərində şəhadət və axirət səadəti boş şeydir.

6. Münafiqlərin zərərli təbliğatına qarşı çıxmaq lazımdır.

7. İnsan ölümü özündən uzaqlaşdıra bilməz.

8. Ölüm Allahın əlindədir. Cəbhədə və ya evdə olmağın ölümə heç bir təsiri yoxdur.

**169.** ﴿ وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ ﴾

**“Heç vaxt güman etmə ki, Allah yolunda qətlə yetirilənlər ölülərdir. Onlar Rəbləri yanında ruzi verilmiş dirilərdir.”**

## *Nöqtələr*

◘Biz, şəhidləri diri sayan Quran əsasında İslam yolunun, xüsusi ilə Kərbəla hadisəsinin şəhidlərinə salam verir, onlarla danışır və onları vasitə qərar veririk.

◘Əbu-Süfyan Ühüd döyüşünün sonunda uca səslə belə fəryad çəkdi: ”Ühüddə öldürülmüş yetmiş müsəlman Bədrdə öldürülən yetmiş nəfərinizin əvəzidir.” Amma həzrət Peyğəmbər (s) belə buyurdu: “Bizim öldürülənlərimiz behiştdə, sizin öldürülənləriniz isə cəhənnəmdədirlər.”[1]

**Şəhid və şəhadət haqqında bəzi nöqtələr:**

1. Rəvayətdə bildirilir ki, şəhidə Allah tərəfindən yeddi xüsusiyyət əta olunmuşdur: şəhidin ilk damla qanı günahlarının bağışlanmasına səbəb olar. O, başını hurul-eynin ağuşuna qoyar. Şəhid behişt libasları ilə bəzənər. O, ən xoş qoxulu ətirlərlə ətirlənər. Şəhid behiştdə öz yerini müşahidə edər. Pərdələr kənara çəkilər və şəhid Allahın lütfünə nəzər salar.[2]

2. Peyğəmbər bir şəxsin belə dua etdiyini eşitdi: Pərvərdigara! Səndən istənilləsi ən yaxşı şeyi mənə əta et.” Həzrət buyurdu: "Əgər bu dua qəbul olunsa, o, Allah yolunda şəhid olar.”[3]

3. Rəvayətdə deyilir: “Hər bir yaxşılıqdan daha üstünü var. Yalnız şəhadətdən savay. Əgər bir şəxs şəhid olsa, ondan üstün xeyir təsəvvür olunmur.”[4]

4. Qiyamət günü şəhidin şəfaət məqamı var.[5]

5. İmam Sadiqin (ə) belə buyurduğu nəql olunmuşdur: “Şəhidin nöqsanları qiyamət günü onun özünə də göstərilməz.”[6]

6. Hücumda ön sıra şəhidlərinin məqamı daha yuxarıdır.[7]

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Vəsail”, 11, səh. 10.
[3] “Mustədrək”, c. 2, səh. 243.
[4] “Bihar” , c. 74, səh. 61.
[5] “Bihar” , c. 2, səh. 15.
[6] “Vəsail”, 11, səh. 9.
[7] “Mizanul-Hikmə”.

7. Mücahidlər behiştə xüsusi qapıdan daxil olar.[1] Onlar behiştə hamıdan qabaq gedər.[2] Onların behiştdəki yeri xüsusidir.[3]

8. Yalnız şəhid dünyaya ikinci dəfə qayıdıb növbəti dəfə şəhid olmağı arzulayar.[4]

9. Ölümlərin ən üstünü şəhadətdir.[5]

10. Allah üçün ən məhbub damla Allah yolunda axan qan damlasıdır.[6]

11. Qiyamət günü şəhid əlində silah, hərbi geyimdə və xoş qoxu ilə səhnəyə gələr və mələklər ona salam göndərərlər.[7]

12. Bizim imamlarımız şəhid oldular. Peyğəmbərlərin və onların ardıcıllarının da bir çoxu şəhid oldu.[8]

13. Həzrət Əli (ə) bir sıra üstünlüklərə malik olmasına baxmayaraq, yalnız şəhadət astanasında olduğu vaxt izzətə çatdığını bildirir. O, həzrət ilk iman gətirmiş, təhlükəli məqamda peyğəmbərin yerində yatmış kəs idi. Yalnız peyğəmbərin qardaş adlandırdığı həzrət Əlinin (ə) qapısı peyğəmbər məscidinə açılırdı. O, imamların atası, həzrət Zəhranın (ə) əri idi. Əli (ə) bütsındıran idi. Onun Xəndək döyüşündə vurduğu zərbə Səqəleynin ibadətindən üstün sayılmışdı. Amma sadalanan məqamların heç birində izzətə çatdığını bildirməmişdi.

14. Əli (ə) buyururdu: "And olsun Əbu-Talib oğlunun canı əlində olan Allaha, Allah yolunda min qılınc zərbəsinə dözmək yorğan-döşəkdə ölməkdən daha asandır.[9]

15. Həzrət Əli (ə) Ühüd döyüşündə şəhid olmadığı üçün narahat idi. Yalnız peyğəmbərdən qarşıdakı şəhadət xəbərini eşitdikdə aram oldu.

16. Şəhid Mütəhhəri "Həmaseye-Hüseyni" kitabında yazır: "Səxavətli şəxs, sənətkar, alim öz vücudunun bir hissəsi olan malını, sənətini və elmini əbədiləşdirir. Şəhid isə özünü əbədiyyətə çevirir."[10]

17. Oxşar hal heyvanlarda da müşahidə olunur. Ölü qoyun heç nəyə dəyməz. Üzü qibləyə, Allahın adı ilə kəsilmiş qoyun isə dəyərə malikdir.

18. Kor şəxs görüntülərin necəliyini anlamadığı kimi, dünya sakinləri də şəhidlərin həyatını anlamaz.

19. Əgər Allah yolunda verilmiş malın əvəzi yeddi yüz qat artıq olursa, Allah yolunda verilmiş canın və qanın əvəzini özünüz düşünün!

---

[1] "Bihar" , c. 97, səh. 8.
[2] "Bihar" , c. 97, səh. 11.
[3] "Təfsire-Nurus-səqəleyn", c. 2, səh. 241.
[4] "Kənzül-ümmal", c. 4, səh. 290.
[5] "Bihar" , c. 100, səh. 8.
[6] "Vəsail", c. 11, səh. 6.
[7] "Bihar" , c. 97, səh. 13.
[8] "Ali-İmran", 146; "Bəqərə", 61.
[9] "Nəhcül-bəlağə".
[10] "Həmaseye-Hüseyni", c. 3, səh. 40.

## *Bildirişlər*

1. Şəhadət həyatın sonu yox, başlanğıcıdır. Bir çox dirilər ölmüşlər. Amma Allah yolunda öldürülənlər diridirlər.
2. Şəhadət uduzmaq və ya əldən vermək deyil. Şəhadət qazanmaq və əldə etməkdir.
3. Öldürülmək o zaman dəyərli olur ki, Allah yolunda olsun.
4. Şəhidin ölməsi və ya zərərə düşməsi barədəki təsəvvürlər yanlışdır və islah edilməlidir.

**170.** ﴿ فَرِحِينَ بِمَا آتَاهُمُ اللّهُ مِن فَضْلِهِ وَيَسْتَبْشِرُونَ بِالَّذِينَ لَمْ يَلْحَقُواْ بِهِم مِّنْ خَلْفِهِمْ أَلاَّ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ ﴾

**"Onlar Allahın Öz fəzlindən onlara verdiyinə görə şaddırlar. Ardlarınca gələnlərə, hələ ki, onlara qatılmamış kəslərə müjdə verirlər ki, onlara nə qorxu var, nə də bir qəmləri olacaq."**

## *Nöqtələr*

◘Rəvayətdə deyilir: Bu ayə Quran və peyğəmbər Əhli-beytini (ə) heç bir kitab və rəhbərə dəyişməyən möminlərə müjdədir. Ayədən həmçinin məlum olur ki, bərzəx həyatı ruzisi, şadlığı, müjdəsi olan gerçək bir həyatdır. Məqsəd təkcə yaxşı adın tarixdə qalması deyil.

## *Bildirişlər*

1. Şəhidlər öz əməllərinə görə yox, ilahi lütflərə görə şad olurlar.
2. Şəhidlər ilahi lütfləri öz qanlarının əvəzi yox, Allahın mərhəməti sayırlar.
3. Şəhidlər öz silahdaşlarını yaddan çıxarmır və onları xoş gələcəklə müjdələyirlər.
4. Şəhidlər birlikdə yaşayasıdırlar. Onlar bir-birinə qovuşası və digər şəhidlərin yolunu gözləyəsidirlər.
5. Başqalarının səadətinə sevinmək və onların izzət və şərəf karvanına qatılmaq bir dəyərdir.
6. Şəhidlərin alacağı ləzzət əbədilikdir. Onlar üçün neməti əldən vermək qüssəsi yoxdur.

**171.** ﴿ يَسْتَبْشِرُونَ بِنِعْمَةٍ مِّنَ اللّهِ وَفَضْلٍ وَأَنَّ اللّهَ لاَ يُضِيعُ أَجْرَ الْمُؤْمِنِينَ ﴾

**"Allahın nemət və fəzli, Onun möminlərin mükafatını puça çıxarmayacağı ilə (gələcəkdəkiləri) müjdələyirlər."**

## *Bildirişlər*

1. Bərzəx aləmində müjdə və şadlıq var.

2. Şəhidlər bizim tanımadığımız nemət və fəzlə çatarlar. Ayədə nemət və fəzl sözləri qeyri-müəyyən formada işlənmişdir.

3. Möminlərin əməllərinin mükafatı sığortalanmışdır.

4. Mükafat veriləcəyi barədə vəd əməl üçün bir stimuldur.

**172.** ﴿ الَّذِينَ اسْتَجَابُواْ لِلّهِ وَالرَّسُولِ مِن بَعْدِ مَآ أَصَابَهُمُ الْقَرْحُ لِلَّذِينَ أَحْسَنُواْ مِنْهُمْ وَاتَّقَواْ أَجْرٌ عَظِيمٌ ﴾

**“Yaralanmalarına baxmayaraq, Allahın və Onun rəsulunun (döyüş haqqında) dəvətini qəbul edənlər içərisindən gözəl əməl sahibi olanların və təqvalıların böyük mükafatı var.”**

## *Nöqtələr*

◘Qüreyş kafirləri Ühüddə qalib gəldikdən sonra Məkkəyə qayıtdılar. Yarıyolda ağıllarına gəldi ki, yenidən Mədinəyə qayıdıb qalan müsəlmanları da qılıncdan keçirsinlər və İslamın işini bitirsinlər. Bu xəbər həzrət Peyğəmbərə (s) çatdı. Peyğəmbər səfərbərlik keçirdi və buyurdu: “Ühüddə iştirak edənlər yola düşsün.” Müsəlmanlar hazır oldular. Müsəlmanların ümumi səfərbərliyindən xəbərdar olan Əbu-Süfyan Ühüd qələbəsinin şirinliyinin zəhərə çevriləcəyindən qorxub yenidən Məkkəyə döndü.

◘Tarixdə oxumuşuq ki, Ühüd döyüşündə Həzrət Əli (ə) 60-dan çox yara almışdı. Amma o bir an olsun belə, peyğəmbəri tək buraxmamışdı. “Təfsire-Kənzul-dəqaiq”də bildirilir ki, bu ayə Həzrət Əli (ə) və başqa doqquz nəfər haqqında nazil olmuşdur.

## *Bildirişlər*

1. Həqiqi möminlər ən çətin şəraitlərdə də İslamdan üz döndərmirlər.

2. Yaralıların cəbhədə iştirakı sağlamların ruhiyyəsini gücləndirir, onları təşviq edir.

3. Peyğəmbərə itaət, Allaha itaət kimidir.

4. Yaralıların cəhbədə iştirakı onların İslam məktəbi, İslam rəhbəri və islami məqsədlərə olan vəfadarlıq, eşq və mərifətlərinin nişanəsidir.

5. Bəzən müharibə şəraiti elə olur ki, hətta yaralılar da cəbhədə iştirak etməli olur.

6. Bir əməl çətinləşdikcə onun dəyəri də artır.

7. Cəbhədə iştirak və yaralanma təqva ilə müşayiət olunmasa dəyərsizdir.

8. Peyğəmbərin bəzi səhabələrinin cəbhədə iştirak etmələrinə baxmayaraq sağlam fikir və təqvadan uzaq idilər.

9. Əsil mücahiddə bəzi xüsusiyyətlər olmalıdır. O, döyüşməkdən yorulmamalı, gözəl əməl əhli olmalı, Allahın və Onun rəsulunun göstərişlərinə qarşı çıxmamalıdır.

173. ﴿ الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَاناً وَقَالُواْ حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ ﴾

**"Möminlər o kəslərdir ki, xalq onlara "şəksiz, camaat sizə qarşı hazırlaşıb, onlardan qorxun" - dedikdə onların imanları daha da artdı və dedilər: "Allah bizə bəs edər. O nə yaxşı vəkil və yardımçıdır."**

## *Nöqtələr*

◘Bəzi düşmən təbliğatçıları və xalqın sadəlövh, qorxaq bir hissəsi mücahidlərə təlqin edərək deyirdilər ki, düşmən güclüdür və kimsə onunla üz-üzə gələ bilməz. Onlar mücahidləri döyüşdən çəkindirirdilər. Amma həqiqi müsəlmanlar qorxu-hürkü bilmədən, aram bir qəlb və Allaha təvəkküllə onların cavabını verirdilər.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Təəccüb edirəm o kəslərə ki, nə üçün Allahın "Allah bizə bəs edər, O nə yaxşı vəkil və yardımçıdır." - buyruğuna pənah aparmayıb qorxurlar!"[1]

## *Bildirişlər*

1. Düşmənin puç təbliğatından çəkinməyin.
2. Cəbhədə sıralarınıza düşmənin nüfuzundan ehtiyat edin.
3. Düşmənin hədələri qarşısında ən güclü sipər Allaha iman və təvəkküldür.
4. Möminlər bəla girdabına düşdükdə Allaha təvəkküllərini və bağlılıqlarını daha da gücləndirirlər.
5. Həm hərəkət və səy, həm də imanla təvəkkül lazımdır.

174. ﴿ فَانقَلَبُواْ بِنِعْمَةٍ مِّنَ اللّهِ وَفَضْلٍ لَّمْ يَمْسَسْهُمْ سُوءٌ وَاتَّبَعُواْ رِضْوَانَ اللّهِ وَاللّهُ ذُو فَضْلٍ عَظِيمٍ ﴾

**"(İkinci dəfə döyüşə hazır olan yaralılar) Allahın nemət və fəzli ilə (öz yerlərinə) qayıtdılar. Onlara heç bir zərər toxunmadı və Allahın razılıq yolunu getdilər. Allah böyük fəzl sahibidir."**

## *Nöqtələr*

◘Ühüd döyüşünün yaralıları həzrət Peyğəmbərin (s) göstərişi ilə növbəti dəfə səfərbər olub Həmraəl-əsəd məhəllinədək düşmənin ardınca getdikdə, düşmən müsəlmanların hazırlığından ehtiyat edib növbəti hücum fikrindən daşındı. Bu ayə Ühüd döyüşünün yaralı və xalis mücahidləri haqqında xoş sözlər deyir.

---

[1] "Mən la yəhzuruhun-fəqih", c. 4, səh. 392.

## *Bildirişlər*

1. Allaha təvəkkül etməklə vəzifənin icrası yolunda hərəkət, çətinliklərin asanlığa dönməsi səbəbidir.
2. Allah yolunda təhlükəyə üz tutub sağ-salamat qalan insanlar çoxdur.
3. İlahi insanlar üçün əsas məsələ şəhadət yox, Allahın razılığıdır.
4. Allahın böyük fəzli haqq cəbhədə iştirak edənlərin nəsibidir.

**175.** ﴿ إِنَّمَا ذَلِكُمُ الشَّيْطَانُ يُخَوِّفُ أَوْلِيَاءهُ فَلاَ تَخَافُوهُمْ وَخَافُونِ إِن كُنتُم مُّؤْمِنِينَ ﴾

**“Öz dostlarını (kafirlərin gücündən) qorxudan şeytandır. Əgər imanınız varsa, onlardan qorxmayın, yalnız Məndən qorxun.”**

## *Bildirişlər*

1. Müsəlmanların qorxu və ümidsizliyinə səbəb olan hər bir şayiə şeytandandır.
2. Qorxutma üsulu şeytani qüdrətlərin daimi siyasətidir.
3. Döyüş meydanındakı qorxaqlar şeytanın dostları və onun nüfuzu altında olanlardır.
4. Şücaətli möminlər şeytanın hakimiyyətindən uzaqdırlar.
5. Allah qorxusu Allaha itaət, Allahdan qeyrisindən qorxu isə Allaha itaətsizlik zəminəsidir.
6. Həqiqi mömin Allahdan qeyrisindən qorxmur və bilir ki, iman şücaətdən ayrı deyil.

**176.** ﴿ وَلاَ يَحْزُنكَ الَّذِينَ يُسَارِعُونَ فِي الْكُفْرِ إِنَّهُمْ لَن يَضُرُّواْ اللّهَ شَيْئاً يُرِيدُ اللّهُ أَلاَّ يَجْعَلَ لَهُمْ حَظّاً فِي الآخِرَةِ وَلَهُمْ عَذَابٌ عَظِيمٌ ﴾

**«Ey peyğəmbər, küfrdə tələsənlər səni qəmgin etməsin. Onlar əsla Allaha bir zərər yetirə bilməzlər. Allah istəmişdir ki, qiyamətdə onların heç bir bəhrələri olmasın və onlar üçün böyük bir əzab vardır.»**

## *Nöqtələr*

◘Ühüd döyüşündə iştirak edənlər bir-birlərinə deyirdilər: «Bir halda ki, biz məğlub olduq və kafirlər qalib şəkildə Məkkəyə döndülər, nə olacaq? Ayə onlara cavab olaraq buyurur: “Narahat olmayın. Bu bir ilahi möhlətdir ki, onların küfrləri artsın və axirətdə heç bir bəhrələri olmasın.”»

## *Bildirişlər*

1. Aramlığınızı hifz edin. İslamı məhv etmək yolunda kafirlərin göstərdiyi səylər səmərəsizdir.
2. İnsanların küfrü Allaha zərrəcə zərər toxundurmaz.
3. Küfr meydanında iştirak, insanı tövbə və mərhəmət əldə etmə imkanlarından məhrum qoyar.
4. Kafirlərə möhlət verilməsi ilahi qanundur. Bunu Allahın xəbərsizliyi və ya zəifliyi kimi yozmaq olmaz.
5. İnsanın axirətdə məhrumluq səbəbi onun dünyadakı əməllərinin nəticəsidir.
6. Allahın həm fəzli, həm də qəhr və qəzəbi böyükdür. (Əvvəlki iki ayədə cəbhəyə yola düşən yaralılara müjdə verilirdisə, bu ayədə kafirlərə böyük əzab vəd olunur.)

**177.** ﴿ إِنَّ الَّذِينَ اشْتَرَوُاْ الْكُفْرَ بِالإِيمَانِ لَن يَضُرُّواْ اللّهَ شَيْئًا وَلهُمْ عَذَابٌ أَلِيمٌ ﴾

**“Şübhəsiz, imanı küfrlə dəyişənlər heç vaxt Allaha zərər vurmazlar. Onlar üçün dərdli bir əzab var.”**

## *Nöqtələr*

◘Quranda ömür sərmayəsinin alış-verişi, xeyir-zərəri haqqında dəfələrlə danışılmışdır. Quran dünyanı bazar, xalqı satıcı, insanın əqidə və əməllərini bu bazarın malı kimi təqdim edir. Bu bazarda satış məcburi olsa da, müştəri seçimi azaddır. İnsan öz ixtiyarında olanları, gücünü, əməlini, əqidəsini boş saxlaya bilməz. Amma biz olanlarımızı həm xeyirli, həm də zərərli yolda sərf edə bilərik. Quranda canını verib əvəzində behişt alanlar mədh olunur. Azğınlıq yolunu tutub zərərə düşənlər isə tənqid olunur.[1] Yuxarıdakı ayə kimi bir çox ayələrdə imanını küfrə satanlar məzəmmət olunur və möminlərə təsəlli verilir ki, insanların küfrü Allah və Allahın yoluna heç bir zərər toxundurmaz.

## *Bildirişlər*

1. İnsanın əsil sərmayəsi iman və ya imanın fitri zəminələridir.
2. İdeoloji bir inqilabda cüzi zərərlərə görə nigaran olmayın.

**178.** ﴿ وَلاَ يَحْسَبَنَّ الَّذِينَ كَفَرُواْ أَنَّمَا نُمْلِي لَهُمْ خَيْرٌ لِّأَنفُسِهِمْ إِنَّمَا نُمْلِي لَهُمْ لِيَزْدَادُواْ إِثْمًا وَلَهُمْ عَذَابٌ مُّهِينٌ ﴾

**“Kafir olanlar elə güman edirlər ki, onlara verilən möhlət onlar üçün yaxşıdır. Həqiqətən, onlara möhlət verərik ki, öz günahlarını artırsınlar. Onlar üçün zəliledici əzab var.”**

[1] “Bəqərə”, 16.

## *Nöqtələr*

◘Quran kafirlərə, münafiqlərə və süst imanlı insanlara müraciət edərkən "güman etməyin" ifadəsini dəfələrlə işlətmişdir. Məlum olur ki, bu fərdlər həqiqəti görməkdən, düzgün təhlil aparmaqdan məhrumdurlar. Onlar yaranışı mənasız, şəhadəti yox olmaq, dünyanı əsas, kafirlərə sığınmağı izzət, ömürlərini xeyir-bərəkət mayası sayırlar. Quran bütün bu təsəvvürlərin üstündən xətt çəkir.

◘Küfr əhli imkanlı olmağı, qələbələr əldə etməyi, rifahlı yaşayışı özləri üçün ləyaqət sayırlar. Halbuki Allah onlara küfrə və fəsada batdıqlarına görə möhlət vermiş və öz pislikləri içində qərq olmalarını istəmişdir.

Tarixdə oxuyuruq ki, Yezid İmam Hüseyni (ə) şəhadətə çatdırdıqdan sonra onun ailəsini bacısı Zeynəblə birlikdə əsir götürüb Şama gətirdi. Yezid zahiri qələbəsindən qürur duyaraq həzrət Zeynəbə belə dedi: "Allahın bizimlə olduğunu gördünüzmü?!" Həzrət Zeynəb Yezidin cavabında hazırkı ayəni oxudu və buyurdu: "Mən səni alçaq, kiçik və hər cür təhqirə layiq bilirəm. İstədiyini et. Amma and olsun Allaha, Allahın nurunu söndürə bilməzsən." Bəli, dünya səfasına aludə olan belə fərdlər üçün zəliledici axirət əzabı hazırlanmışdır ki, onların dünyəvi və xəyali izzətləri axirət zəlilliyi ilə sonuclansın.

◘Günahkarlar iki qisimdir: Onlardan bir dəstəsi islah olasıdır. Allah belələrinə moizə və acı-şirin hadisələr vasitəsi ilə xəbərdarlıq edir, onları oyadır. Amma hidayət olmayası zümrə Allah tərəfindən başlı-başına buraxılır ki, bütün mənfi qabiliyyətlər üzə çıxsın. Ona görə də imam Baqir (ə) hazırkı ayə ilə bağlı buyurmuşdur: "Ölüm kafirlər üçün bir nemətdir. Çünki onlar çox qaldıqca günahlarını da artırırlar."[1]

◘Həzrət Əli (ə) "həqiqətən, onlara möhlət verilmişdir" cümləsi haqında buyurmuşdur: "Nə çoxdur ehsan gəldikdə yavaşıyanlar, nə çoxdur eybləri örtüldüyündən aldadılanlar, nə çoxdur öz haqlarındakı xoş sözlərə məftun olanlar. Allah heç kimi möhlət verilmə, öz başına buraxılma kimi bəlaya mübtəla etməsin."[2]

## *Bildirişlər*

1. Küfr həqiqəti tanımağa mane olur.
2. Ömrün uzun-qısalığı, rifah dövrü Allahın əlindədir.
3. Bütün insanlar xeyir axtarışındadır, amma bəziləri onu zərərlə səhv salırlar.
4. Allahın verdiyi möhlət onun sevgisi üçün nişanə deyildir.
5. Nemətlər yalnız xeyir yolda istifadə olunduqda səmərə verir. Əsk-təqdirdə nemət şər və günaha gətirib çıxarır.
6. Əsas məsələ ömrün uzunluğu yox, onun bəhrəli olmasıdır. İmam Səccad (ə) "Məkarimul-əxlaq" duasında belə ərz edir: «Pərvərdigara! Əgər ömrüm şeytan üçün otlaq olacaqsa, onu qısa et.»
7. Tələsik mühakimə yürütməyin, işin sonunu və axirəti də nəzərə alın.

---

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Tuhəful-Uqul", səh. 203.

8. Zalımların rifah içində yaşaması və hakimiyyəti Allahın onlardan razı olması nişanəsi deyil. Belə ki, bu, onlar qarşısında sakit dayanmağımız üçün dəlil ola bilməz.

9. Axirət əzabının müxtəlif növləri və mərhələləri vardır. Əvvəlki ayədə böyük əzab, bu ayədə isə zəliledici əzab yada salınır.

179. ﴿مَّا كَانَ اللّهُ لِيَذَرَ الْمُؤْمِنِينَ عَلَى مَآ أَنتُمْ عَلَيْهِ حَتَّىَ يَمِيزَ الْخَبِيثَ مِنَ الطَّيِّبِ
وَمَا كَانَ اللّهُ لِيُطْلِعَكُمْ عَلَى الْغَيْبِ وَلَكِنَّ اللّهَ يَجْتَبِي مِن رُّسُلِهِ مَن يَشَاء فَآمِنُواْ بِاللّهِ
وَرُسُلِهِ وَإِن تُؤْمِنُواْ وَتَتَّقُواْ فَلَكُمْ أَجْرٌ عَظِيمٌ﴾

**"Allah çirkini pakdan ayırmaq istəməsəydi, sizi bu gün olduğunuz halda boş buraxardı. Allah sizi qeybdən agah etmək istəyində deyil. Amma peyğəmbərlərindən kimi istəsə (qeybdən agah etmək üçün) seçər. Allaha və Onun peyğəmbərinə iman gətirin. Əgər iman gətirib təqva yolunu seçsəniz, sizin üçün böyük mükafat olacaq."**

## *Nöqtələr*

◘Bu ayə Ühüd döyüşü haqqındakı son ayədir. Ayədə bildirilir: Dünya böyük bir sınaq meydanıdır. İman iddiasında olan hər kəs öz başına buraxılmır. İnsan cəmiyyətdə adi həyat tərzi yaşamır, məğlubiyyət və qələbələrlə sınağa çəkilir ki, onun batini bəlli olsun. Bəzi möminlər qeybdən və insanların qəlbindən xəbər tutmaq istəyirdilər. Onlar münafiqləri qeybi yolla tanımağa can atırdılar. Ayədə isə belə buyurulur: "Tanıma yolu qeyb yox, sınaqdır. Tədrici sınaqlar vasitəsi ilə yaxşı pisdən seçilir. İnsanlar qeyb elmi vasitəsi ilə tanınsaydılar, ümid şölələri sönər, ictimai bağlar qırılar və həyat hərc-mərcliyə düçar olardı.

## *Bildirişlər*

1. Allah kafirləri özbaşına buraxır. Möminlər isə belə deyil.
2. Yaxşının pisdən seçilməsi ilahi bir qanundur.
3. İnsanların iman və küfrü onların batini bir keyfiyyətidir. İman və küfr qeybi elm yolu ilə yox, sınaq yolu ilə məlum olur.
4. Xalq arasında yaşayış insanların zahirinə əsaslanmalıdır. İnsanların iç sirrindən xəbərdarlıq həyatı iflic edər.
5. Qeyb elmi yalnız Allaha məxsusdur və Allah bəzi seçilmiş peyğəmbərlərinə bu elmdən müəyyən bir həddə bəhrə verər.
6. Həyat adi tərzdə keçməli olsa da, Allah bəzi bəndələrinə qeyb elmi əta edər.
7. Peyğəmbərlərin dərəcələri fərqlidir.
8. Allah risalət sahibi etdiklərini qeyb elmindən bəhrələndirər.
9. Qəlb imanı əməli təqva ilə müşayiət olunmalıdır.
10. Paklıq davamlı, pislik isə ötəridir. Pakın qeyri-pakdan ayrılması qeyri-pakın ötərilik nişanəsdir.

180. ﴿وَلاَ يَحْسَبَنَّ الَّذِينَ يَبْخَلُونَ بِمَا آتَاهُمُ اللّهُ مِن فَضْلِهِ هُوَ خَيْرًا لَّهُمْ بَلْ هُوَ
شَرٌّ لَّهُمْ سَيُطَوَّقُونَ مَا بَخِلُواْ بِهِ يَوْمَ الْقِيَامَةِ وَلِلّهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالأَرْضِ وَاللّهُ بِمَا
تَعْمَلُونَ خَبِيرٌ﴾

**“Allahın Öz fəzlindən verdiyini sərf etməyə xəsislik göstərənlər güman etməsinlər ki, (bu xəsislik) onlar üçün yaxşıdır. Əksinə, bu, onlar üçün çox pisdir. Tezliklə qiyamət günü həmin qıymadıqları şey boyunbağı şəklində boyunlarından asılar. Göylərin və yerin irsi Allaha məxsusdur. Allah etdiyiniz işlərdən agahdır.”**

## *Bildirişlər*

1. Həqiqəti görün və azğın düşüncələrdən uzaq olun.
2. Sənə məxsus olmayan malı verməkdə nə üçün xəsislik göstərirsən?!
3. Xəsisliyin səbəbi xeyir və şər haqqındakı yanlış bilgilərdir.
4. Peyğəmbərlik vəzifələrindən biri insanların baxış və təfəkkürünün islahıdır.
5. Dünya sevgisi şər adamı insanın gözünə xeyirxah kimi göstərir.
6. Qiyamətdə bəzi cansızlar da səhnəyə gələr.
7. Məad cismanidir.
8. Qiyamət, xeyir və şərin zühur səhnəsi həqiqətdir.
9. İnsan öz var-dövlətini sərf etməkdə mütləq surətdə azad deyil.
10. Qiyamət əməllərin zühur səhnəsidir. Hədisdə bildirilir: Hər kəs malının zəkatını verməsə, qiyamət günü var-dövləti ilan şəklində boynuna sarılar.[1]
11. Qiyamətin bərpa zamanı uzaq deyil.
12. Dünyada var-dövlət əsiri olmaq axirətdə əsarət səbəbidir.
13. Ən ağır işkəncə məhbub tərəfindən qamçılanmaqdır. Dünyada xəsislik göstərdiyimiz şey əzabımıza səbəb olar.
14. Allah həm dünyanın qalarlı miras sahibidir, həm də bizim infaqımıza ehtiyaclı deyil. Demək, infaq göstərişi bizim öz səadətimiz üçündür.
15. Hər şeyin və hər kəsin həqiqi sahibi Allahdır. Biz əliboş gəlmişik və əliboş gedərik, bəs xəsislik nə üçündür?!

181. ﴿لَّقَدْ سَمِعَ اللّهُ قَوْلَ الَّذِينَ قَالُواْ إِنَّ اللّهَ فَقِيرٌ وَنَحْنُ أَغْنِيَاء سَنَكْتُبُ مَا قَالُواْ
وَقَتْلَهُمُ الأَنبِيَاء بِغَيْرِ حَقٍّ وَنَقُولُ ذُوقُواْ عَذَابَ الْحَرِيقِ﴾

**“Həqiqətən, Allah “Allah fəqirdir, biz isə imkanlı” deyənlərin sözünü eşitdi. Tezliklə onların bu sözünü, peyğəmbərləri nahaqdan öldürmələrini yazacağıq və onlara deyəcəyik: Dadın yandırıcı atəşin əzabını.”**

---

[1] “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 3, səh. 502.

182. ﴿ ذَلِكَ بِمَا قَدَّمَتْ أَيْدِيكُمْ وَأَنَّ اللّهَ لَيْسَ بِظَلاَّمٍ لِّلْعَبِيدِ ﴾

**"O (əzab) özünüzün əvvəllər əldə etdikləriniz səbəbindəndir. Həqiqətən, Allah bəndələrinə qarşı sitəmkar deyil."**

## *Nöqtələr*

◘Təfsirdə oxuyuruq ki, həzrət Peyğəmbər (s) Bəni-Qiynəqa yəhudilərinə bir məktub yazdı və onları imana, namaza, zəkata və infaqa dəvət etdi. Bu məktub Fəthas adlı yəhudi aliminə - onun tədris yerində çatdıqda, üzünü şagirdlərə tutub istehza ilə dedi: "Bu dəvətə əsasən Allah fəqirdir, biz isə varlı. O bizdən borc alır və əlavə qaytarmağı vəd edir."

◘Həzrət Peyğəmbər (s) dövründəki yəhudilər babalarının peyğəmbərləri qətlə yetirməsi ilə razı olduqlarından Allah bu qətli həm də onlara aid edir.

◘İmam Baqir (ə) bu ayə haqqında buyurmuşdur: " İmamı ona verdikləri şeyə görə ehtiyaclı sayanlar "həqiqətən Allah fəqirdir" deyənlərin nümunəsidirlər."[1]

## *Bildirişlər*

1. Allah bütün deyilənləri eşidir. Ona görə də hər sözü dilə gətirməyək.
2. Cəhalət və qürurun sonu yoxdur. İnsan nə qədər cahil və qürurlu olmalıdır ki, "Allah fəqirdir, biz isə varlı" desin?!
3. İnsanın özünü varlı və ehtiyacsız hiss etməsi onun ilahi əmrlərdən boyun qaçırması və bu əmrlərə istehza etməsi səbəbidir.
4. Bəzi dar düşüncəli insanlar güman edirlər ki, ilahi göstərişlərin səbəbi Allahın ehtiyaclı olmasıdır.
5. Bütün deyilənlər və əməllər qeyd olunur.
6. Allah haqqında pis danışmağın günahı peyğəmbərləri öldürmək günahı ilə eynidir.
7. İstənilən bir adamın sözünün və əməlinin ölçüsü haqdır. Hətta peyğəmbərlərin öldürülməsi də nahaq olduğu üçün cəzaya məhkumdur.
8. İnsan bir iş görməkdə azaddır. Ona görə də görülən işlər onun özünə aid edilir.
9. İlahi mükafat və cəza ədalətə, insanın azad və agah şəkildə gördüyü işlərə əsaslanır.
10. İlahi cəzalar bəşəriyyətə zülm deyil. Əslində bəşər özü özünə zülm edir.
11. Əgər Allah xəsis fərdləri və peyğəmbərləri qətlə yetirənləri cəzalandırmazsa, fəqirlərə və peyğəmbərlərə zülm etmiş olur.

---

[1] "Təfsire-Nurus-səqəleyn"; "Bihar" , c. 24, səh. 278.

183. ﴿الَّذِينَ قَالُواْ إِنَّ اللّهَ عَهِدَ إِلَيْنَا أَلاَّ نُؤْمِنَ لِرَسُولٍ حَتَّىَ يَأْتِيَنَا بِقُرْبَانٍ تَأْكُلُهُ النَّارُ قُلْ قَدْ جَاءكُمْ رُسُلٌ مِّن قَبْلِي بِالْبَيِّنَاتِ وَبِالَّذِي قُلْتُمْ فَلِمَ قَتَلْتُمُوهُمْ إِن كُنتُمْ صَادِقِينَ﴾

**"Həqiqətən Allah bizdən əhd alıb ki, bizə atəşin yeyəcəyi bir qurban gətirənədək heç bir peyğəmbərə iman gətirməyək" deyən kəslərə söylə: (Bu sözlər bəhanədir.) Şübhəsiz, məndən qabaq aşkar dəlillər və həmin dediyinizlə peyğəmbərlər gəlmişlər. Əgər doğru deyirsinizsə, nə üçün onları öldürdünüz?"**

## *Nöqtələr*

◘Bəziləri İslamı qəbul etməmək üçün bəhanə gətirərək deyirdilər: Allah bizdən əhd alıb ki, gətirdiyi qurbanı səmadan enmiş od yandıran peyğəmbərə iman gətirək. Bu iş onun peyğəmbərliyi üçün əminlik səbəbidir. Ayə nazil oldu və peyğəmbər həmin inadkarlara dedi: «Əgər doğru deyirsinizsə, nə üçün məndən əvvəlki peyğəmbərləri - onların digər möcüzələrinə də baxmayaraq - rədd etdiniz?»

◘İmam Sadiq (ə) bu ayəni tilavət etdikdən sonra buyurmuşdur: "Peyğəmbər dövründəki inadkar yəhudilərlə peyğəmbərləri qətlə yetirmiş qədim yəhudilər arasında beş yüz illik fasilə vardı. Amma peyğəmbərin müasiri olan yəhudilər öz babalarının əməli ilə razı olduğundan Allah onları da, həmin qətldə suçlu saymışdır.[1]

◘Tövratda padşahların ilk kitabında, on səkkizinci fəslin üç və dördüncü cümlələrində Bəni-İsrail peyğəmbərlərinin şəhadəti haqqında danışılır. Eləcə də, "Sifre-Laviyan" kitabında, doqquzuncu fəsildə, ikinci cümlədə qurbanlıq qoç mövzusuna toxunulur.

## *Bildirişlər*

1. Həqiqətin qəbulundan boyun qaçırmaq məqsədi ilə müxtəlif dini həqiqətlərə don geyindirməyin.
2. Yəhudilər Musanı sonuncu peyğəmbər saymırdılar. Onlar deyirdilər: Allah bizimlə növbəti peyğəmbər haqqında əhd bağlamışdır.
3. Zalım ruhiyyəyə köklənmiş insan həm Allaha böhtan atır, həm də heç bir peyğəmbərə təslim olmur. Beləlləri həm də möcüzələrin onların istəklərinə uyğun olmasını tələb edir.
4. Heyvan qurbanlığının uzun tarixi vardır.
5. Hər bir qövm və millətin keçmişi onların iddialarının yalan və ya doğruluğunun ən yaxşı göstəricisidir.
6. Tarixin ayrı-ayrı dönəmlərində müxaliflər oxşar bəhanələr gətirmişlər.

[1] "Təfsire-bürhan", c. 1, səh. 328; "Kafi", c. 2, səh. 405.

7. Peyğəmbərlərin yəhudilər üçün gətirdiyi dəlillər və onlarla mübahisələri Allahın təlimi əsasında idi.

8. Bəzən bir işin sübutu üçün maldan keçmək lazım gəlir. Əgər bir malın yanması ilə bəsirət gözü açılırsa, bu, israf sayılmır.

9. Əcdadların günahına razılıq həmin günahlara şərik olmaq səbəbidir.

**184.** ﴿فَإِن كَذَّبُوكَ فَقَدْ كُذِّبَ رُسُلٌ مِّن قَبْلِكَ جَآؤُوا بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَالْكِتَابِ الْمُنِيرِ﴾

**"(Buna görə də,) əgər səni təkzib etdilərsə, (bu, yeni şey deyil, çünki) səndən qabaq da möcüzələr, yazılar və nur saçan kitabla gəlmiş peyğəmbərlər təkzib edildilər."**

## *Bildirişlər*

1. Keçmişdəkilərin tarixi ilə tanışlıq insanda səbir və müqavimət ruhiyyəsini gücləndirir.

2. Bütün peyğəmbərlərin müxalifləri olmuşdur.

3. Tarix boyu peyğəmbərlərin hərəkəti mədəni, elmi və ideoloji bir hərəkət olmuşdur.

4. Peyğəmbərlərin çeşidli möcüzələri olmuşdur. Amma bütün dinlərin əsası birdir. "Bəyyinat" sözü cəm, "kitab" sözü isə tək halda işlədilmişdir.

**185.** ﴿كُلُّ نَفْسٍ ذَآئِقَةُ الْمَوْتِ وَإِنَّمَا تُوَفَّوْنَ أُجُورَكُمْ يَوْمَ الْقِيَامَةِ فَمَن زُحْزِحَ عَنِ النَّارِ وَأُدْخِلَ الْجَنَّةَ فَقَدْ فَازَ وَما الْحَيَاةُ الدُّنْيَا إِلاَّ مَتَاعُ الْغُرُورِ﴾

**"Hər bir şəxs ölümü dadasıdır. Şübhəsiz ki, qiyamət günü sizin mükafatınız kamil şəkildə ödənəcək. Hər kəs oddan uzaqlaşıb, behiştə daxil oldusa, nicat tapmışdır. Dünya həyatı aldanış səbəbindən başqa bir şey deyil."**

## *Nöqtələr*

◘Bu ayə kafirlər tərəfindən incidilən və təkzib olunan peyğəmbər və digər salehlərə səbir və müqavimət ruhu verir. Ayədə buyurulur: «Hamı öləsidir və inadkarlıqlar müvəqqətidir. Bu çətinliklərə dözümün əvəzini Allah əskiltmədən əta edər.»

◘İmam Sadiq (ə) "hər kəs ölümü dadasıdır" ayəsi haqqında buyurur: «Bütün göy və yer əhli ölər. Yalnız ölüm mələyi, ərşi daşıyanlar, Cəbrail və Mikail qalar. Sonra ölüm mələyinə əmr olunar ki, onların da ruhunu çıxarsın. Nəhayətdə ölüm mələyi tək qalar. Nəhayət, Allahın əmri ilə o da ölər.»[1] İmamın başqa bir

[1] "Kafi", c. 3, səh. 252.

buyruğuna nəzər salaq: “Ölümü dadmadan qətlə yetirilmiş kəs dünyaya qaytarılar ki, ölümü dadsın.”[1]

## *Bildirişlər*

1. Ölüm yolumuz üstədirsə, haqq qarşısında bir bu qədər inadkarlıq və təkəbbür nə üçündür?

2. Ölüm yoxluq deyil. O, dünyadan axirətə keçid yolu, duyulası bir gerçəklikdir.

3. Günahkarlar və cəhənnəmə sövq edən amillər cazibələrə malikdir. İnsan iman və saleh əməl gücü ilə özünü bu cazibədən qurtarmalıdır.

4. Tam cəza axirətdədir, dünyəvi mükafatlar isə dəyərsizdir.

**186.** ﴿لَتُبْلَوُنَّ فِي أَمْوَالِكُمْ وَأَنفُسِكُمْ وَلَتَسْمَعُنَّ مِنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَمِنَ الَّذِينَ أَشْرَكُواْ أَذًى كَثِيرًا وَإِن تَصْبِرُواْ وَتَتَّقُواْ فَإِنَّ ذَلِكَ مِنْ عَزْمِ الأُمُورِ﴾

**“Əlbəttə, siz mallarınız və canlarınızla sınanacaqsınız. Sizdən qabaq kitab verilənlərdən və şirkə uğrayanlardan bir çox əziyyətlər görəcəksiniz. Əgər səbir və təqva yolunu tutsanız, şübhəsiz ki, bu sizin işlərdə möhkəm əzminizdir.”**

## *Nöqtələr*

◘Müsəlmanlar Məkkədən Mədinəyə hicrət etdikləri vaxt müşriklər onların mülkünə təcavüz etdilər. Ələ keçirdikləri müsəlmanlara isə əziyyət verdilər. Digər bir tərəfdən, Mədinədə də yəhudilər müsəlmanları acı sözlərlə hədəfə almışdılar. Hətta bəzi yəhudilər xəcalət çəkmədən müsəlmanların qadın və qızları haqqında həcv yazırdılar. İşə Kəb ibn Əşrəf adlı biri başçılıq edirdi. Həzrət bu şəxsin qətlə yetirilməsinə göstəriş vermişdi. Bu ayə müsəlmanlara təsəlli verərək onları düşmənlərin əzab-əziyyətləri qarşısında səbir və təqvaya çağırır. Bildirilir ki, onların imanda möhkəmliyinin səbəbi məhz səbir və təqvadır.

◘İmam Riza (ə) zəkat ödənişini var-dövlətlə bağlı sınaqlardan biri sayır. Ayədə bu məsələyə işarə olunmuşdur.[2]

---

[1] “Təfsire-Əyyaşi”, c. 2, səh. 202.

[2] “Təfsire-Nurus-səqəleyn”.

## *Bildirişlər*

1. Sınaq Allahın ciddi qaydalarındandır. Özümüzü sınaqlara hazırlayaq. (Ayədəki "lətub-ləvunnə" sözünün əvvəlindəki lam» və sonundakı təşdidli nun hərfi məsələnin ciddiliyinə işarədir.)

2. Ölüm və dünyanın ötəriliyini yada salmaq çətinlikləri insanın nəzərində asanlaşdırır.

3. İnsan ən çox mal və canı ilə sınağa çəkilir.

4. Can və malla bağlı təhlükələri qəbul etməkdən əlavə, özümüzü zəhərli sözlər dinləməyə də hazırlamalıyıq.

5. Təhqir və həcv eşitmək, düşməndən əziyyət görmək sınaq vasitələrindən biridir.

6. Müqəddəs məqsədlərə çatmaq üçün bütün növ çətinliklərə dözmək lazımdır. Mala, cana, şəxsiyyətə dəyən zərbələr bu qəbildəndir.

7. Müxaliflərdən acı söz gözləmək müsəlmanların hazırlıq səbəblərindəndir.

8. İslam düşmənləri müsəlmanlara zərbə vurmaqda məqsəd birliyi və bəzən üsul birliyindən faydalanırlar.

9. Düşmən aza qane deyil.

10. Səbir və təqva qoşa halda müvəffəqiyyət rəmzidir. Təqvasız sabitqədəmlik inadkar adamlarda da müşahidə olunur.

11. Səbir və təqva biri o biri üçün şərtdir. Səbir və təqva iki məfhum olsa da, ayənin ərəbi mətnində onlara tək halda ("zalikə") işarə olunur.

187. ﴿ وَإِذْ أَخَذَ اللّهُ مِيثَاقَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ لَتُبَيِّنُنَّهُ لِلنَّاسِ وَلاَ تَكْتُمُونَهُ فَنَبَذُوهُ وَرَاء ظُهُورِهِمْ وَاشْتَرَوْاْ بِهِ ثَمَناً قَلِيلاً فَبِئْسَ مَا يَشْتَرُونَ ﴾

**"(Xatırla,) o zaman ki, Allah kitab verdiyi kəslərdən onu hökmən xalqa bəyan etmələri və gizlətməmələri barədə əhd aldı. Onlar bu əhdə arxa çevirib, onu ucuz qiymətə dəyişdilər. Necə də pis müamilə etdilər!"**

## *Nöqtələr*

◘İmam Baqir (ə) bu ayə haqqında buyurmuşdur: "Allah kitab əhlindən əhd aldı ki, Tövrat və İncildə həzrət Məhəmməd (s) haqqında bildirilənləri xalqa bəyan etsin və gizlətməsin.[1]

◘Əgər bu gün dünyada milyonlarla məsihi, yəhudi və məcusi varsa, bunun səbəbi onların alimlərinin susması, haqqı gizlətməsidir. "Ətyəbul-bəyan" təfsirində nəql olunduğuna görə, iki əhd kitabında İslam və İslam peyğəmbəri haqqında altmışdan çox müjdə vardır. Amma kitab əhlinin alimləri bütün bunlara arxa çevirmişlər.

---

[1] "Bihar" , c. 9, səh. 192; "Təfsire-Qummi", c. 1, səh. 128.

## *Bildirişlər*

1. Allah xalqın hidayəti üçün alimlərdən xüsusi əhd almışdır.
2. Həqiqətlər elə bəyan olunmalıdır ki, xalq üçün gizli bir məsələ qalmasın.
3. Alimlərin vəzifəsi səmavi kitabı xalq üçün aydınlaşdırmaqdır.
4. Alimlər var-dövlətə və məqama çatmaq və ya onları qorumaq məqsədi ilə haqqı bəyan etməmişlər.
5. Səadət və qurtuluş üçün təkcə elm kifayət etmir. Var-dövlətə, vəzifəyə etinasızlıq da əsas məsələlərdəndir.
6. İlahi ayələrin gizlədilməsi müqabilində insan hər nə alarsa, uduzar.
7. Din və ilahi əhdlərə əməlin böyük dəyəri var. İstənilən mal və məqam müqabilində haqqı gizlədən şəxs zərərdədir.

**188.** ﴿ لاَ تَحْسَبَنَّ الَّذِينَ يَفْرَحُونَ بِمَا أَتَواْ وَّيُحِبُّونَ أَن يُحْمَدُواْ بِمَا لَمْ يَفْعَلُواْ فَلاَ تَحْسَبَنَّهُمْ بِمَفَازَةٍ مِّنَ الْعَذَابِ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ ﴾

**“Güman etmə ki, etdikləri işlərdən şad olanlar, etmədiyi işlərə görə təriflənmək istəyənlər ilahi əzabdan qurtulmuşlar. Onlar üçün dərdli əzab var.”**

## *Nöqtələr*

◘Xalq üç dəstədir:

1. Bir dəstə insan gördüyü iş müqabilində xalqdan heç bir təşəkkür gözləmir. [1]
2. Bir dəstə insan gördüyü işdən xalqın xəbərdar olmasını və tərif edilməsini istəyir.[2]
3. Bir dəstə insan isə heç bir iş görmədiyi halda xalqdan tərif gözləyir.

◘Səlahiyyəti çatmayan məqam, ixtisas, məsuliyyət iddiasında olan kəsin qeybətini etmək caizdir.

◘Görülməyən işə görə tərif umacağını aradan qaldırmaq üçün İslam istənilən növ yağlı dil tökülməsini qadağan edir.

## *Bildirişlər*

1. Xudbinlik, qürur, xalqdan tərif umacağı kimi əxlaqi çirkinliklər insanı məhvə aparır.
2. Quran istənilən bir kəsə qarşı istənilən bir halda yersiz təhlil və təfsiri məhkum edir.
3. Allah insanın təkcə əməllərini yox, həm də xeyir və şər istəklərini hesaba alır.[3]

---

[1] “İnsan”, 9.
[2] “Nisa”, 38.
[3] “Nur”, 19.

4. Həmddə bir növ sitayişlə pərəstiş çaları olduğundan şükür və mədh istəyi yox, həmd istəyi çox təhlükəlidir.

5. Günahkar şəxs peşman olub tövbə də edə bilər. Lovğa insanlar isə hətta tövbə etmək fikrinə də düşmürlər. Ona görə də bələlərinin qurtuluşuna ümid yoxdur.

6. Dünyada xudbinlik, mənəm-mənəmlik xəstəliyinə tutulanlar qiyamətdə ilahi əzaba düçar olarlar.

**189.** ﴿ وَلِلّهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ﴾

**"Göylərin və yerin hakimiyyəti Allah üçündür. Allah hər işə qadirdir."**

## *Nöqtələr*

◘Allahın dünyaya hakimiyyəti etibari (tapşırılmış) yox, həqiqidir. Çünki hər bir şeyin mövcudluğu və həyatı Onun əlindədir. Allah var etmək üçün yalnız "ol" buyurur.[1] Bir şeyi məhv etmək üçün də Allahın yalnız iradəsi bəs edir.[2]

Allahın hökuməti daimi, həmişəlikdir. Allahdan qeyrilərinin hakimiyyəti isə müvəqqətidir.[3] Bəli, həqiqi və daimi hökumət yalnız Allaha məxsusdur.

## *Bildirişlər*

1. Quranda nə vaxt ilahi hakimiyyətdən danışılırsa, səmalar yerdən əvvəl zikr olunur. Bu, səmaların genişlik və əzəmətini göstərir.

2. Bir çoxlarının əlində hakimiyyət olduğu halda, hətta öz istəklərini də gerçəkləşdirə bilmirlər. Allah isə həm hökumət sahibidir, həm də hər bir işi görməyə qadirdir.

**190.** ﴿ إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ لآيَاتٍ لِّأُوْلِي الألْبَابِ ﴾

**"Həqiqətən, göylərin və yerin yaranışında, gecə və gündüzün bir-birinin ardınca gəlməsində düşüncə sahibləri üçün (Allahın elm, rəhmət, qüdrət, malikiyyət, hakimiyyət və tədbirinə) nişanələr var."**

## *Nöqtələr*

◘Fəxr Razi, Qurtubi və Mərağinin təfsirlərində deyilir: Ayişədən həzrət Peyğəmbər (s) haqqındakı ən yaxşı xatirəsini soruşdular. Ayişə dedi: "Peyğəmbərin bütün işləri heyranedici idi. Amma mənim üçün bu hadisə daha mühüm görünürdü. Bir gün peyğəmbər mənim mənzilimdə istirahət edirdi.

---

[1] "Bəqərə", 117.
[2] "Fatir", 16.
[3] "Ali-İmran", 140.

Yenicə uzanmışdı ki, yerindən qalxdı, dəstəmaz aldı və namaza durdu. O qədər ağladı ki, yaxası islandı. Sonra səcdəyə getdi və səcdə halında o qədər ağladı ki, yer islandı. Sübh Bilal gəlib bu göz yaşlarının səbəbini soruşdu. Həzrət buyurdu: "Dünən Qurandan bir ayə nazil oldu." Sonra həzrət "Ali-İmran" surəsinin 190-dan 194-dək ayələrini qiraət etdi və buyurdu: "Bu ayələri oxuyub düşünməyənin vay halına!"

◘"Təfsire-Kəbire-Fəxr Razi", "Təfsire-Məcməül-bəyan"da Həzrət Əlinin (ə) belə buyurduğu nəql olunur: "Həzrət Peyğəmbər (s) daim gecə namazından qabaq bu ayələri oxuyardı." Hədislərdə sifariş olunmuşdur ki, biz də bu ayələri oxuyaq.

◘"Təfsire-nümunə"də Həzrət Əlinin (ə) xas səhabəsi olan Nouf Bəkkali belə nəql edir: Bir gecə Həzrət Əlinin (ə) xidmətində idim. İmam yataqdan qalxdı və bu ayələri oxudu. Sonra məndən soruşdu: "Yatmısan, yoxsa oyaqsan?" Ərz etdim ki, oyağam. Buyurdu: "Xoş o kəslərin halına ki, yerin çirkinliklərini qəbul etməyib, səmalarda seyr edərlər."

◘Ayədəki "Əl-bab" sözü "lubb" sözünün cəm forması olub, hər cür boş xəyaldan uzaq, xalis ağıl mənasını bildirir.

## *Bildirişlər*

1. Dünyanın yaranışı məqsədlidir.
2. Varlığı tanımaq Allahı tanımağın müqəddiməsidir.
3. İl boyu gecə və gündüz saatları arasındakı fərq düşüncə sahiblərinin nəzərində təsadüfi deyil.
4. Quran insanları yaranış haqqında düşünməyə rəğbətləndirir.
5. Daha düşüncəli olan insan daha çox nişanəni dərk etməlidir.
6. Yaranış aləmi sirlərlə doludur. Yalnız düşüncə sahibləri bu sirləri dərk edə bilərlər.

**191.** ﴿الَّذِينَ يَذْكُرُونَ اللّهَ قِيَامًا وَقُعُودًا وَعَلَى جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَذا بَاطِلاً سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِ﴾

**"(Düşüncə sahibləri) o kəslərdir ki, ayaq üstə, oturaq və uzanmış halda Allahı yad edər, göylərin və yerin yaranışı haqqında düşünərlər. (Can-dildən deyərlər:) «Pərvərdigara! Bu varlıq aləmini boş yerə yaratmamısan, Sən pak-pakizəsən. Bizi atəş əzabından qoru.»"**

## *Nöqtələr*

◘İmam Baqirin (ə) buyruğuna əsasən, sağlam adamlar ayaq üstə, xəstələr oturaq, acizlər isə uzanmış vəziyyətdə namaz qılmalıdırlar.[1]

[1] "Təfsire-bürhan", c. 1, səh. 333.

## *Bildirişlər*

1. Bütün hallarda Allahı yada salmaq düşüncə nişanəsidir.
2. Düşüncə əhli həm də zikr əhli olmalıdır.
3. İman düşüncə əsasında dəyərli olur.
4. İman və bütün vücudla etiraf dəyərlidir. Dil etirafı ilə kifayətlənmək olmaz.
5. Zikr və düşüncə yanaşı olduqda dəyərli olur. Təəssüf ki, bəziləri zikr edirsə də düşünmür, digərləri düşünürsə də zikr etmir.
6. İnsanı Allaha yaxınlaşdıran müvəqqəti yox, daimi düşüncə və zikrdir.
7. Təbiəti hiss üzvləri ilə tanımaq kifayət deyil. Bu barədə düşünmək də lazımdır.
8. Göylərin və yerin yaranışı haqqında düşünən kəs anlayar ki, varlıq aləminin Rəbbi həm də bizim Rəbbimizdir.
9. Yaranışın bütün sirlərini dərk etməsək də, o, boş yerə deyildir.
10. Əvvəlcə düşüncə, sonra isə iman və irfan. Daha sonra dua və münacat.
11. Əgər varlıq aləmi boş yerə deyilsə, biz də boş yerə yaşamamalıyıq.
12. Varlıq aləmi məqsədlidir. İlahi məqsəddən nə qədər uzaq olsaq, cəhənnəmə bir o qədər yaxınlaşmış oluruq.
13. Duadan qabaq Allaha sitayiş edək, Onun pak-pakizə olduğunu dilə gətirək.
14. Əql və düşüncənin bəhrəsi qiyamətdən qorxudur.

**192.** ﴿ رَبَّنَا إِنَّكَ مَن تُدْخِلِ النَّارَ فَقَدْ أَخْزَيْتَهُ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ ﴾

**“Pərvərdigara! (Pis əməllərinə görə) hər kəsi cəhənnəmə atsan, şəksiz ki, onu zəlil və rüsvay etmisən. Sitəmkarlar üçün heç bir yardımçı yoxdur.”**

## *Nöqtələr*

◘İmam Baqirdən (ə) “sitəmkarlar üçün heç bir yardımçı yoxdur” cümləsi haqqında soruşulduqda həzrət buyurdu: “Yəni onların adla çağırılası imamları yoxdur.”(Şəfaət istəmək üçün)[1]

## *Bildirişlər*

1. Qiyamət atəşi çətindir. Amma insanlıq kəraməti arzusunda olan düşüncə sahibləri üçün qiyamət rüsvayçılığı daha dərdlidir.
2. Sitəmkarlar başqalarının şəfaətindən məhrumdurlar.

**193.** ﴿رَّبَّنَا إِنَّنَا سَمِعْنَا مُنَادِيًا يُنَادِي لِلإِيمَانِ أَنْ آمِنُواْ بِرَبِّكُمْ فَآمَنَّا رَبَّنَا فَاغْفِرْ لَنَا ذُنُوبَنَا وَكَفِّرْ عَنَّا سَيِّئَاتِنَا وَتَوَفَّنَا مَعَ الأبْرَارِ﴾

---

[1] “Təfsire-Əyyaşi”, c. 1, s.211.

**“Pərvərdigara! Həqiqətən, biz “rəbbinizə iman gətirin” - iman nidasını eşitdik və iman gətirdik, Pərvərdigara! Günahlarımızı bağışla, çirkli işlərimizi pərdələ və bizi yaxşılarla (birgə) öldür.”**

## *Nöqtələr*

◘Ayədəki “zünub” sözü kəbirə günahlara işarə ola bilər. Mümkündür ki, “səyyiat” sözü səğirə (kiçik) günahlara işarə olsun. Çünki “Nisa” surəsinin 31-ci ayəsində “kəbirə” sözünün qarşısında “səyyiat” sözü işlədilmişdir. “Səyyiat” günah əsərləri də ola bilər.

◘İman dəvətini qəbul edib “eşitdik” deyən düşüncə sahibləri ilə yanaşı bu dəvətə etinasızlıq göstərib qiyamətdə həsrət çəkənlər də var.[1]

## *Bildirişlər*

1. Düşüncə sahibləri haqqı qəbul etməyə hazırdırlar. Onlar fitrətlərinin, peyğəmbərlərin, alimlərin və şəhidlərin nidasına cavab verirlər.
2. Tövbə və etiraf düşüncə nişanəsidir.
3. Duanın ilahi əfv səbəblərindən olan bir qaydası da ilahi rübubiyyətə diqqətdir.
4. İman bağışlanma səbəbidir.
5. Duada başqalarını da özümüzə şərik edək.
6. Eyibin pərdələnməsi və bağışlama rübubiyyət şəni və tərbiyə üsullarındandır.
7. İnsanın ölümü Allahın iradəsindən asılıdır.
8. Uzaqgörən düşüncə sahibləri yaxşılarla birlikdə ölümü arzulayırlar. Onlar daim xeyir aqibət fikrindədirlər.
9. Düşüncə sahibləri xeyir əməl sahiblərinin məqamını arzulayırlar.

**194.** ﴿ رَبَّنَا وَآتِنَا مَا وَعَدتَّنَا عَلَى رُسُلِكَ وَلاَ تُخْزِنَا يَوْمَ الْقِيَامَةِ إِنَّكَ لاَ تُخْلِفُ الْمِيعَادَ ﴾

**“(Düşüncə sahibləri deyirlər:) «Pərvərdigara! Peyğəmbərlərin vasitəsi ilə bizə verdiyin vədi mərhəmət buyur. Bizi qiyamət günü xar etmə. Əlbəttə ki, sən vədinə xilaf çıxmırsan.»”**

## *Nöqtələr*

◘Bu bir neçə ayədə Allah-təala düşüncə sahiblərinin inkişaf yolunu belə təsvir edir: Allahın zikri, düşüncə, hikmətə çatma, peyğəmbərlərə təslimçilik, tövbə, yaxşı ölüm, ilahi lütf intizarı, rüsvayçılıq və zəlillikdən qurtuluş.

◘Əvvəlki ayələrdə düşüncə sahiblərinin Allah və qiyamətə imanından danışıldı. Bu ayədə peyğəmbərliyə iman məsələsi açıqlanır.

[1] “Mulk”, 10.

▫Düşüncə sahiblərinin dilində “Rəbbəna” sözünün təkrarı onların ilahi rübubiyyətə heyranlıq nişanıdır.

▫Düşüncə sahibləri həm dünya, həm də axirət izzəti istəyirlər. “Peyğəmbərlərin vasitəsi ilə vəd etdiyini əta buyur” cümləsi dünyaya aiddir. Allah haqq əhlinə yardım vəd etmişdir.[1] “Xar etmə” istəyi isə axirət izzəti ilə bağlıdır.

## *Bildirişlər*

1. Əhdə vəfa ilahi rübubiyyət şənindəndir.
2. Allah Öz əhdinə vəfa edirsə də, biz dua etməliyik.
3. Düşüncə sahibləri bütün ilahi peyğəmbərlərə və bütün ilahi vədlərə imanlıdırlar.
4. Düşüncə sahiblərinin son arzusu ilahi lütflərə çatmaq, cəhənnəm və qiyamət rüsvayçılığından nicat tapmaqdır.
5. Qorxu və ümid yanaşı olmalıdır.

**195.** ﴿فَاسْتَجَابَ لَهُمْ رَبُّهُمْ أَنِّي لاَ أُضِيعُ عَمَلَ عَامِلٍ مِّنكُم مِّن ذَكَرٍ أَوْ أُنثَى
بَعْضُكُم مِّن بَعْضٍ فَالَّذِينَ هَاجَرُواْ وَأُخْرِجُواْ مِن دِيَارِهِمْ وَأُوذُواْ فِي سَبِيلِي وَقَاتَلُواْ
وَقُتِلُواْ لأُكَفِّرَنَّ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلأُدْخِلَنَّهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ ثَوَابًا مِّن
عِندِ اللّهِ وَاللّهُ عِندَهُ حُسْنُ الثَّوَابِ﴾

**“Rəbləri onların duasını qəbul edib buyurdu ki, mən sizlərdən - istər kişi, istər qadın, hamısı bir-birindəndir - kimsənin əməlini puç etmərəm (mükafatsız qoymaram.) Hicrət edib evlərindən qovulanların, mənim yolumda əzab-əziyyət görənlərin, döyüşüb öldürülənlərin büdrəmələrini, şübhəsiz ki, pərdələyərəm. Onları altından çaylar axan cənnətlərə daxil edərəm. Bu, Allah tərəfindən bir mükafatdır. Yaxşı mükafat yalnız Allahın yanındadır.”**

## *Bildirişlər*

1. Qəlbən edilən dua hökmən qəbuldur. Daim Allah zikri, düşüncə və sitayişlə yerinə yetirilən duanın qəbulu şübhə doğurmur.
2. Düşüncə və zikr əhlinin duası tezliklə qəbul olar.
3. Duaların qəbulu ilahi rübubiyyət cilvələrindəndir.
4. İlahi dünyagörüşündə əvəzsiz əməl yoxdur.
5. Dua özü bir əməldirsə də, səy və təlaşla müşayiət olunduqda qəbul edilir.
6. Həm əməl, həm də əməl sahibi diqqət mərkəzindədir. Həm əməlin, həm də əməl sahibinin gözəlliyi nəzərdən qaçmır.

[1] “Qafir”, 51.

7. Kafirlərin əməlləri puça çıxdığından yalnız möminlər öz əməllərinin mükafatını alırlar.

8. İlahi dünyagörüşündə uca insanlıq məqamına çatmaqda kişi və qadın bərabərdir.

9. Kişi cinsi qadın cinsindən üstün deyil.

10. İslam cəmiyyətində bütün müsəlmanlar bir-birlərindəndir.

11. Günahlar və eyblər aradan götrülməyincə kimsə behiştə daxil olmaz.

12. Allah yolunda hicrət, cihad, sürgün, əzab-əziyyət bağışlanma vasitələridir.

13. Vətən məhəbbəti Quran tərəfindən qəbul olunmuş bir həqiqətdir. Bu haqqı insandan almaq zülmdür.

14. İlahi yolu adlamaq üçün hicrət, sürgün, işkəncə, cihad və şəhadət zəruridir.

15. Şəhadət ən üstün mərtəbə olsa da, düşmənin əzab-əziyyəti qarşısında müqavimət üçün səbrə ehtiyac var. «Allah yolunda» sözü əzab-əziyyət» sözü ilə yanaşı işlənmişdir. Bəli, cəbhədə vücudunun bir parçasını itirənlər şəhidlərdən də səbirli olmalıdırlar.

16. Bəzi səhvlərinə görə insanları rədd etməyək. Ayədən göründüyü kimi ilahi övliyalardan və behişt əhlindən olan düşüncə sahiblərinin də büdrəmələri var. Amma Allah onları pərdələyir.

17. Allahın xüsusi diqqət və yardımı düşüncə sahibi olan möminlər üçündür. Bu ayədəki əksər fellər birinci şəxsin tək halında işlənmişdir. Bundan əlavə "onların Rəbbi" ifadəsi Allahın düşüncə sahiblərinə xüsusi diqqət nişanəsidir.

18. Allahın vədlərinə zərrəcə şəkk etməyin. Bütün vədlər təkidlə bəyan olunmuşdur.

19. Bütün mükafatlar zaman və məkandan asılı olaraq dəyərini itirə bilər. Amma ilahi mükafatlar insanın fitrət və yaranışına uyğundur və heç vaxt dəyərini itirmir.

20. Behişt çayları həm ağacların, həm də behişt əhlinin məskənlərinin altından axır.

21. Bağışlanma və behişt ümumi bir savabdır. Amma Allahın və möminlərin şəninə uyğun savab Allahın yanında olan xüsusi bir savabdır və biz bundan xəbərsizik.

22. İlahi mükafatlar tam şəkildə təsəvvür olunmur. Bunu bilək ki, uyğun mükafatlar bütün mükafatlardan üstündür.

23. İlahi mükafatlar növbənöv kəramətlərlə müşayiət olunur.

**196.** ﴿ لاَ يَغُرَّنَّكَ تَقَلُّبُ الَّذِينَ كَفَرُواْ فِي الْبِلاَدِ ﴾

**"Şəhərlərdə kafirlərin get-gəli səni aldatmasın."**

**197.** ﴿ مَتَاعٌ قَلِيلٌ ثُمَّ مَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمِهَادُ ﴾

**“(Bu get-gəldən onların bəhrəsi) dəyərsiz bir matahdır.” Sonra onların əbədi yeri cəhənnəmdir. Cəhənnəm çox pis bir sığınacaqdır.”**

## *Nöqtələr*

◘Məkkə müşrikləri və Mədinə yəhudiləri ticarət səfərləri hesabına yaxşı yaşayırdılar. Müsəlmanlar isə Mədinəyə hicrət etdiklərindən, var-dövlətləri Məkkədə qaldığından iqtisadi cəhətdən çətinlik çəkirdilər. Bu ayə onlara təsəlli verir.

◘Həzrət Əli (ə) bir rəvayətdə buyurur: “Ardınca ataş gələn xeyir və xoşluğun dəyəri yoxdur.”[1] Kafirlər üçün qısamüddətli ləzzət və əbədi əzab olduğu halda, möminlər üçün müvəqqəti çətinlik və əbədi rahatlıq var.

## *Bildirişlər*

1. Peyğəmbərlərin də xəbərdarlığa ehtiyacı var. Bu xəbərdarlıqlar nəticəsində onlar başqalarının təsirindən amanda qalırlar.
2. Düşmənin siyasi, iqtisadi, hərbi heyətlər göndərib məclislər təşkil etməsi və müsahibələri sizi aldatmasın.
3. Maddi ləzzətlər nə qədər olursa olsun, məhdud və dəyərsizdir.
4. Kafirlərin rifah içində yaşaması onların haqq olması və sevilməsinə dəlil deyildir.

**198.** ﴿ لَكِنِ الَّذِينَ اتَّقَوْاْ رَبَّهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا نُزُلاً مِّنْ عِندِ اللّهِ وَمَا عِندَ اللّهِ خَيْرٌ لِّلأَبْرَارِ ﴾

**“Amma öz Rəblərindən çəkinənlər üçün ağacları altından çaylar axan bağlar var. Onlar daim orada qalarlar. Bu qəbul Allah tərəfindəndir. Amma Allahın yanında olan xeyir, əməl sahibləri üçün daha üstündür.”**

## *Nöqtələr*

◘Ayənin ərəbcə mətnindəki “nüzul” sözü qonağın qarşılanması üçün olan ilk şeyə aiddir. Şərbət və meyvə buna misal ola bilər. Möminlərə bildirilir ki, kafirlərin ticari gediş-gəlişləri sizi təqva və imandan çıxarmasın. Sizin qəbulunuzun müqəddiməsi behişt bağlarından başlayır.

## *Bildirişlər*

1. Dünyəvi nemətlər axirət nemətləri ilə müqayisədə heç bir şeydir.

---

[1] “Bihar” , c. 8, səh. 199.

2. Dünyəvi qazanc məqsədi ilə səy və təlaş təqvanın hifzinə və axirət mənafelərinə diqqətə mane olmur.

3. Əbədi behişt nemətlərinə diqqət insanı təqvaya sövq edir və cüzi dünya nemətlərinə aldanışın qarşısını alır.

4. Yaxşıların (“əbrar”) məqamı müttəqilərin məqamından ucadır.

**199.** ﴿وَإِنَّ مِنْ أَهْلِ الْكِتَابِ لَمَن يُؤْمِنُ بِاللّهِ وَمَا أُنزِلَ إِلَيْكُمْ وَمَآ أُنزِلَ إِلَيْهِمْ خَاشِعِينَ لِلّهِ لاَ يَشْتَرُونَ بِآيَاتِ اللّهِ ثَمَنًا قَلِيلاً أُوْلَئِكَ لَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ إِنَّ اللّهَ سَرِيعُ الْحِسَابِ﴾

**“Həqiqətən, kitab əhlindən bəziləri Allaha, sizə nazil olana və özlərinə nazil olana mütiliklə iman gətirmiş kəslərdir. Onlar ilahi ayələri ucuz qiymətə dəyişmirlər. Allahın yanında mükafatı olan da onlardır. Həqiqətən, Allah tez hesab çəkəndir.”**

## *Nöqtələr*

◘Bəzi təfsirçilər bildirirlər ki, bu ayə kitab əhlinin İslamı qəbul edənlərinə aiddir. Onların qırx nəfəri Nəcran əhli, otuz iki nəfəri Həbəşə əhli, səkkiz nəfəri isə Rum əhli idi.[1] Amma digər bir qrup təfsirçi bildirir ki, ayə Həbəşə padşahı Nəcaşi haqqındadır. Bu şəxs hicri tarixi ilə doqquzuncu ildə, rəcəb ayında vəfat etmişdir. Onun vəfatından xəbər tutan İslam peyğəmbəri xalqa buyurdu: “Sizin hicazdan xaricdəki bir qardaşınız vəfat etdi. Onun xidmətlərinə görə namaz qılmaq üçün hazır olun.” Bu şəxsin kim olduğu barədə soruşdular. Həzrət buyurdu: “O Nəcaşidir.” Sonra müsəlmanlar İslam peyğəmbəri ilə birlikdə Bəqi qəbristanlığına gedib Nəcaşi üçün namaz qıldılar.[2]

## *Bildirişlər*

1. İnsafı gözləmək və kitab əhlinin yaxşılarını dəyərləndirmək lazımdır.

2. Əgər bir qrup iman gətirməyib həqiqəti gizlədirsə, digər bir qrup mütiliklə iman gətirir.

3. Müti şəkildə yerinə yetirilən və əhatəli imanın dəyəri var. İman möhkəm olmalı, maddiyyata görə dəyişməməlidir.

4. Dinini satan kəs əvəzində nə alsa aldanır.

**200.** ﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اصْبِرُواْ وَصَابِرُواْ وَرَابِطُواْ وَاتَّقُواْ اللّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ ﴾

**“Ey iman gətirənlər! (Çətinliklər və nəfs istəkləri qarşısında) səbirli olun, (düşmənlər qarşısında) möhkəm dayanın (başqalarını da səbrə dəvət edin), sərhədləri qoruyun və Allahdan çəkinin. Bəlkə nicat tapasınız.”**

---

[1] “Təfsire-Məcməül-bəyan”; “Təfsire-Kəbire-Fəxr Razi.”

[2] “Təfsire-Dürrül-Mənsur”, c. 2, səh. 416.

## *Nöqtələr*

◘Bu ayə müxtəlif hadisələr və müsibətlər qarşısında səbir göstərməyi tövsiyə edir.

İlk mərhələdə şəxsi problemlər və həvəslər qarşısında səbir edin.

İkinci mərhələdə kafirlərin təzyiqlərinə qarşı daha ciddi müqavimət göstərin.

Üçüncü mərhələdə elmi mübahisələr vasitəsi ilə etiqad sərhədlərini qoruyun, qəlbləri də vəsvəsələrin hücumundan hifz etməyə çalışın.

"Rabitu" sözü "ribat" kökündən olub, «bir şeyi bir yerə bağlamaq» mənasını bildirir. Karvansaraya da bu dəlilə əsasən «ribat» deyirlər. Karvanlar həmin yerdə dayanıb, öz ticarət mallarını və miniklərini orada saxlayırlar. Eləcə də, Allahın lütfünə bağlanmış qəlb ribat adlandırılmışdır. "İrtibat", "mərbut", "ribat" sözləri eyni kökdəndir.

◘Rəvayətdə bildirilir ki, "rabitu" sözü namazın intizarında olmaq mənasını bildirir.[1] Müsəlmanlar sanki öz qəlblərini namazda yaranan bağlılıqla möhkəmləndirirlər.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Vacib vəzifələrin icrasında və çətinliklər müqabilində səbir edin, rəhbərlərinizin müdafiəsinə qalxın.[2]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Gündəlik namazlarınızda möhkəm olun, düşmənlə cihadda fəallıq göstərin, Allah yolunda bir-birinizlə həmahəng olun ki, nicat tapasınız."[3]

## *Bildirişlər*

1. İman sayəsində kamilliklər əldə edin.

2.Fərdi çətinliklər qarşısında səbir edə bilməsəniz, din düşmənlərinə müqavimət göstərə bilməzsiniz.

3. Düşməndən geri qalmayın. Əgər kafirlər öz küfr yollarınnda müqavimət göstərib, qurban verirlərsə, mallarını xərcləyirlərsə, siz də Allah yolunda canınızla, malınızla möhkəm dayanın.

4. Müsəlmanlar bir-birlərinin müşküllərinə dözməli və bir-birlərini səbrə dəvət etməlidirlər.

5. İslam rabitə dinidir. Xalq, Allah və peyğəmbərlərlə rabitə bu qəbildəndir.

6. Səbir, dözüm və rabitə məqsədli olmalıdır. Təqva və Allahın razılığı yolunda səbir edib rabitə qurun. Başqa yolda kafirlər də bu işləri görür.

7. İslam əhatəli bir dindir. Səbir və təqva sərhədlərə diqqət məsələsi ilə yanaşı bəyan olunmuşdur.

8. Təqva imandan bir mərtəbə yuxarıdır.

9. Səbir səadət və qələbəyə çatmaq zəminəsidir.

---

[1] "Təfsire-Məcməül-bəyan".
[2] "Kafi", c. 2, səh. 81.
[3] "Dürrül-Mənsur", c. 2, səh. 418.

# “NİSA” SURƏSİ

(4-cü surə, 176 ayə)

## Dörd, beş və altıncı cüzlər

## *Nisa surəsinin siması*

176 ayədən ibarət olan bu surə Mədinədə nazil olmuşdur. Surədə iman və ədalətə dəvətdən, keçmiş ümmətlərdən ibrət götürülməsindən, Allah düşmənləri ilə dostluq rabitələrinin qırılmasından, yetimlərin himayəsindən, izdivac və irs hökmlərindən, ilahi rəhbərə itaətin zəruriliyindən, Allah yolunda hicrət və cihaddan danışılır. Surənin ilk 35 ayəsində ailə məsələləri bəyan olunduğundan surə “Nisa”, yəni “qadınlar” adlandırılmışdır.

﴿بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحيمِ﴾

**1.** ﴿يَا أَيُّهَا النَّاسُ اتَّقُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُم مِّن نَّفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالاً كَثِيرًا وَنِسَاء وَاتَّقُواْ اللّهَ الَّذِي تَسَاءلُونَ بِهِ وَالأَرْحَامَ إِنَّ اللّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا﴾

**“Ey xalq! Rəbbinizdən qorxun ki, sizi bir təndən yaratdı, zövcəsini də ondan xəlq etdi və onların ikisindən çoxlu kişilər və qadınlar törətdi. (Ona and içməklə) bir-birinizdən istədiyiniz Allahdan çəkinin və qohumlarınıza münasibətdə təqvalı olun. Allah sizdən daim muğayatdır.”**

## *Nöqtələr*

¤Əmirəl-möminin Əli (ə) buyurmuşdur: “Təkcə salam verməklə olsa da sileye-rəhim edin (qohumları yoxlayın)” sonra həzrət həmin bu ayəni tilavət etmişdir.[1]

## *Bildirişlər*

1. Ailə ilə bağlı bu surə təqva tövsiyəsi ilə başlayır. Yəni ailə bünövrəsi təqvadan ibarətdir və onu gözləmək lazımdır.
2. İnsanın həm yaranışı, həm də tərbiyəsi Allahın əlindədir. Deməli, elə Ona da itaət edib Ondan çəkinmək lazımdır.
3. Bütün insanlar bir kökdəndir. Ona görə də bəşəriyyəti irqlərə, millətlərə, dillərə və sair əlamətlərinə görə üstün saymaq qadağandır.
4. Qadın və kişi yaranışda birdir. Cinsiyyət baxımından kişi və qadın arasında üstünlük yoxdur.
5. Bütün bəşəriyyət bir atadan və bir anadan törənmişdir.

---

[1] “Kafi”, c. 2, səh. 150.

Adəm övladlarının izdivacı haqqında iki növ rəvayət var. Bir qrup rəvayətdə Adəm övladlarının bir-birləri ilə ailə qurduğu bildirilir. Digər rəvayətlərdə isə Adəm övladlarının Adəmdən əvvəlki insan nəsli ilə izdivac etdiyi bəyan olunur.

6. Tərbiyəvi məsələlərdə təkrarın öz yeri var.

7. Ailə və qohumların hüquqlarına riayət təqva şərtidir. İmam Baqir (ə) buyurmuşdur: “Peyğəmbər aşiqlərinin yaxınlığı dostluqla təmin olunur.”[1]

**2.** ﴿ وَآتُواْ الْيَتَامَى أَمْوَالَهُمْ وَلاَ تَتَبَدَّلُواْ الْخَبِيثَ بِالطَّيِّبِ وَلاَ تَأْكُلُواْ أَمْوَالَهُمْ إِلَى أَمْوَالِكُمْ إِنَّهُ كَانَ حُوبًا كَبِيرًا ﴾

**“Yetimlərin mallarını onlara verin. Pis malları yaxşı mallarla dəyişməyin. Onların mallarını öz mallarınızla yeməyin. Həqiqətən, bu (zalımcasına sərf,) böyük günahdır.”**

## *Bildirişlər*

1. Yetimlərin mallarını - özləri bilməsələr və ya yaddan çıxarsalar da - onlara qaytarın.
2. İslam məhrum və zəif təbəqənin himayəçisidir.
3. Yetim uşaqların mülkiyyət hüququ var.
4. Haqqın qarşısını almaq, yetimin malını dəyişmək və ya əskiltmək böyük günahdır.
5. Günahlar kəbirə və səğirə (böyük və kiçik) olur.

**3.** ﴿وَإِنْ خِفْتُمْ أَلاَّ تُقْسِطُواْ فِي الْيَتَامَى فَانكِحُواْ مَا طَابَ لَكُم مِّنَ النِّسَاء مَثْنَى وَثُلاَثَ وَرُبَاعَ فَإِنْ خِفْتُمْ أَلاَّ تَعْدِلُواْ فَوَاحِدَةً أَوْ مَا مَلَكَتْ أَيْمَانُكُمْ ذَلِكَ أَدْنَى أَلاَّ تَعُولُواْ﴾

**“Əgər yetim qızlara münasibətdə ədalətə riayət edə bilməyəcəyinizdən qorxursunuzsa, (onlarla izdivacdan daşının,) ürəyiniz istəyən qadınlarla evlənin. Ya iki, ya üç, ya da dörd. Əgər qorxsanız ki, (zövcələrin arasında) ədalətli rəftar edə bilməyəcəksiniz, onda bir zövcə, ya da malınız olan bir kəniz kifayətdir. (Əlbəttə ki, kənizin də hüquqları yerinə yetirilməlidir) Bu, zülm etməməyiniz üçün daha münasibdir.”**

## *Nöqtələr*

◘Bəzi kişilər yetim qızları himayələrinə götürür, sonra isə cüzi bir mehriyyə ilə onlarla evlənirdilər. Onları boşamaq da asan olurdu. Ayə nazil oldu ki, əgər ədalətsizlik qorxusu varsa, digər qadınlarla evlənsinlər. Əvvəlki ayədə

[1] “Bihar” , c. 23, səh. 257.

yetimlərin malına münasibətdə ədaləti gözləmək tapşırılırdı. Bu ayədə isə yetim qızlarla izdivacda ədalətli olmaq tapşırılır.

◘Bir neçə qadınla evlənmənin hikməti müxtəlif şəkillərdə izah oluna bilər:

a) Döyüşlərdə və müxtəlif hadisələrdə kişilərin tələfatı çox olduğundan qadınlar dul qalır.

b) Gənclər dul qadınla evlənmək istəmir.

v) Bəzi dul qadınlar ərsiz vəziyyətdə özünə nəzarət edə bilmir.

q) Qadınlar hər ay müəyyən müddət ərzində üzürlü olaraq yaxınlıq edə bilmirlər.

Beləcə, dul qadınların haqlarının hifzi üçün müəyyən şərtlər daxilində kişi ikinci qadınla evlənə bilər.

◘**Sual:** Bu ayədə ədalətsizlik məsələsi bir qədər qaranlıq qalır. Bu ayədə "ədalətsizlikdən qorxursunuzsa" deyilirsə, 129-cu ayədə "sizdə o güc yoxdur" buyurulur. Bu ayələr bir-birinə zidd deyilmi?

**Cavab:** Libas, məskən, qida və yaxınlıq kimi maddi məsələlərdə ədalətli olmaq lazımdır. Ədalətin pozulmasından qorxursunuzsa, özünüz üçün başqa bir proqram tənzimləyin. 129-cu ayədə isə ədalət qəlblə bağlı məsələlərə şamildir. Məlum məsələdir ki, insan öz sevgisini bərabər bölməkdə acizdir. Bu cavab İmam Sadiqdən (ə) nəql olunmuş bir hədisə əsaslanır.[1]

## *Bildirişlər*

1. İslam məhrumların, xüsusi ilə də yetimlərin, ən öndə isə yetim qızların hamisidir. Bu himayə xüsusi ilə iffət, yaxınlıq və onlardan sui-istifadə edilməsi məsələləri ilə bağlıdır.
2. Yetimlərlə izdivacdan daşınmaq üçün ədalətsizliyə əmin olmaq zəruri deyil. Ədalətsizlik ehtimalı və qorxusu kifayətdir.
3. Ədalətsizlik qorxusu olmadıqda yetim qızlarla evlənmək olar.
4. Həyat yoldaşı seçimində qəlb istəyi əsasdır.
5. İslam müəyyən şərtlər daxilində kişinin bir neçə arvad almasına icazə verir.
6. Zövcələrin sayı həm dörddən artıq olmamalı, həm də bu işdə müəyyən şərtlərə əməl edilməlidir. [2]

4. ﴿ وَآتُواْ النَّسَاء صَدُقَاتِهِنَّ نِحْلَةً فَإِن طِبْنَ لَكُمْ عَن شَيْءٍ مِّنْهُ نَفْسًا فَكُلُوهُ هَنِيئًا مَّرِيئًا ﴾

**"Qadınların mehriyyə və kəbin haqqını hədiyyə şəklində, rəğbətlə verin. Əgər öz istəkləri ilə bundan sizə bir şey bağışlasalar, onu halallıq və ləzzətlə sərf edin."**

---

[1] "Vəsail", c. 21, səh. 345.

[2] "Təfsire-Nurus-səqəleyn", c. 1, səh. 439; "Kafi", c. 5, səh. 363.

## *Nöqtələr*

◘Rağib İsfahaninin dediyinə görə, “nihlə” sözü “nəhl” sözündən olub bal arısı mənasını verir. Bal arısı insanlara bal verdiyi halda heç bir umacağı olmadığından hədiyyəyə də “nihlə” deyilmişdir. Bəzi təfsirçilər isə “nihlə” sözünü borc mənasında açıqlamışlar. Yəni mehriyyə kişinin ödəməli olduğu mütləq bir borcdur.

◘Hədisdə bildirilir: Öz mallarınızın ən yaxşısını üç istiqamətdə sərf edin: Mehriyyə, həcc, kəfən. Əgər mehriyyəyə ən yaxşı malınızı sərf etsəniz, övladlarınız saleh olar.[1]

## *Bildirişlər*

1. Qadına mehriyyə ödəmək onun haqqıdır və zəruridir.
2. Mehriyyə qadının qiyməti deyil. Mehriyyə kişinin qadına sədaqət və məhəbbət nişanəsidir.
3. Qadın öz mehriyyəsinin sahibidir. Qadının atası və qohumları mehriyyəni ondan almaq haqqına malik deyillər. Cahiliyyət dövründə və indi də bəzi yerlərdə qadının mehriyyəsini onun atası və ya qohumları alır. Allah Quranda mehriyyənin qadının özünə verilməsini əmr edir.
4. Mehriyyə qadının qiyməti yox, ərin ona verdiyi hədiyyədir.
5. Qadın mehriyyə almaqda və ya onu bağışlamaqda azaddır.
6. Ləzzətli o maldır ki, mal sahibi onu məmnunluqla vermiş olsun.
7. Zahiri razılıq kifayət deyil, qəlb razılığı zəruridir. İkrahla, məcburi şəkildə və ya üzə salınmaqla verilən hədiyyə etibarsızdır.
8. Mehriyyə mülkiyyət səbəblərindəndir.
9. Qadınlar məhəbbətin təsiri altında bütün mehriyyəni bağışlamasınlar.

5. ﴿ وَلاَ تُؤْتُواْ السُّفَهَاء أَمْوَالَكُمُ الَّتِي جَعَلَ اللّهُ لَكُمْ قِيَاماً وَارْزُقُوهُمْ فِيهَا وَاكْسُوهُمْ وَقُولُواْ لَهُمْ قَوْلاً مَّعْرُوفًا ﴾

**“Həyatınızın qurulması üçün Allahın vasitə qərar verdiyi mallarınızı səfehlərin əlinə verməyin. Amma onun gəlirindən həmin adamları yedirin, xərclərini verin, geyindirin və onlarla xoş danışın.”**

## *Nöqtələr*

◘Rəvayətlərdə şərabxor və günahkar insanlar səfeh adlandırılmışdır.[2] Ümumi mallar belə insanlara tapşırılmamalıdır. Mal-mülk cəmiyyətin gücüdür. İstənilən bir məqam və maddi məsuliyyəti səfeh insanlara tapşırmaq cəmiyyətə xəyanətdir.

[1] “Təfsire-Ətyəbul-bəyan”.
[2] “Kafi”, c. 5, səh. 299.

◘İmam Sadiq (ə) bir şəxsə buyurdu: “Malını qoru, çünki mal sənin dinini möhkəmləndirər.” Sonra həzrət həmin ayəni tilavət etdi.[1]

◘İmam Baqir (ə) səfehlər təbiri haqqında buyurmuşdur: “Məqsəd etibarsız adamlardır.”[2]

## *Bildirişlər*

1. Səfeh insanın öz malını sərf etmək hüququ yoxdur.
2. Cəmiyyətin həyatı üçün nəzərdə tutulmuş mal səfehin ixtiyarına verilə bilməz.
3. Səfehin hətta öz malına hakim olması cəmiyyətə iqtisadi zərbədir. Fərdlərin mal-mülkü üzərində də cəmiyyətin haqqı var.
4. Münasibətlərdə cəmiyyətin iqtisadi mənafelərini və fərdlərin əqli inkişafını nəzərə almaq lazımdır. Ötəri hisslərə və mərhəmətə istinad etmək olmaz.
5. Var-dövlət, mal-mülk ictimai nizamın dayağıdır.
6. Sərmayə hərəkətsiz qalmamalıdır. Yetimlərin və səfehlərin də malı dövr etməlidir. Onların sərmayəsi qorunmalı, qazancları isə onların təminatına sərf edilməlidir.
7. Məhrumların ruhi meyilləri və şəxsiyyətlərinə diqqət yetirilməlidir.
8. İnsanı öz malı üzərində ixtiyardan məhrum etdikdə etiraz yaranır. Ağılsızların bu sayaq etirazlarını xoş danışıqla aradan qaldırın.

**6.** ﴿وَابْتَلُواْ الْيَتَامَى حَتَّىَ إِذَا بَلَغُواْ النِّكَاحَ فَإِنْ آنَسْتُم مِّنْهُمْ رُشْدًا فَادْفَعُواْ إِلَيْهِمْ
أَمْوَالَهُمْ وَلاَ تَأْكُلُوهَا إِسْرَافًا وَبِدَارًا أَن يَكْبَرُواْ وَمَن كَانَ غَنِيًّا فَلْيَسْتَعْفِفْ وَمَن كَانَ
فَقِيرًا فَلْيَأْكُلْ بِالْمَعْرُوفِ فَإِذَا دَفَعْتُمْ إِلَيْهِمْ أَمْوَالَهُمْ فَأَشْهِدُواْ عَلَيْهِمْ وَكَفَى بِاللّهِ
حَسِيبًا﴾

**“Yetkinliyə çatanadək yetimləri sınayın. Onlarda yetkinlik göründükdə mallarını özlərinə qaytarın. Onların malını yetkinləşmələrindən qorxaraq israf etməyin, tələsik sərf etməyin. Ehtiyacsız olan iffətini gözləsin (himayəyə görə haqq almasın), ehtiyaclı isə orta həddə yeyə bilər. Mallarını onlara qaytardıqda şahid tutun. (Bu şəhadət yetimlərin haqqını qorumaq üçündür. Yoxsa) Allah hesab çəkmək üçün yetər.”**

---

[1] “Vəsail”, c. 7, səh. 126.
[2] “Vəsail”, c. 16, səh. 369.

## *Bildirişlər*

Yetimlərin mallarının ödənmə qaydaları:

1. Yetimləri büluğ həddinə çatmamış iqtisadi inkişaf baxımından sınayıb onlara alış-veriş yolunu öyrədin.

2. Yetim öz himayəçisinin nəzarəti altında malını sərf edə bilər. Yetimin öz malını haminin nəzarəti altında sərf etməsi onun öyrədilməsi şərtidir.

3. Yetimin malının onun tam ixtiyarına verilməsi üçün cinsi yetkinlikdən əlavə iqtisadi və ictimai yetkinlik də lazımdır.

İmam Sadiq (ə) buyurmuşdur: "Yetimdə inkişaf görünməsi o deməkdir ki, yetim öz malını qorumağa hazır olsun."[1]

4. Hansısa güman və ehtimalla yetimə malını sərf etmək icazəsi verilməməlidir. Yetimin inkişaf etməsinə əminlik olmalıdır.

5. Mülkiyyət haqqında sərf etmə hüququ olmaya da bilər. Yetim öz malının sahibidir. Amma nə qədər ki, inkişaf etməyib, malını sərf etməkdə azad deyil.

6. İmkanlı insanlar cəmiyyətə umacaqsız xidmət edir.

7. Haqq alarkən orta həddi gözləmək lazımdır.

İmam Sadiq (ə) buyurmuşdur: "Orta hədd dedikdə aclığın aradan götürüləcəyi hədd nəzərdə tutulur."[2]

8. Həm yetimlərin malını hifz edin, həm də şahid tutmaqla mülkü ixtilafların və böhtanların qarşısını alın.

9. Xalqın şahidliyi dünya izzətinin Allahın şahidliyi isə axirət izzətinin, hifzi üçündür.

10. Cəmiyyətdəki şahidlik çəkişmələrə son qoyur. Qiyamət hesabı isə öz yerindədir.

7. ﴿ لِّلرِّجَالِ نَصيِبٌ مِّمَّا تَرَكَ الْوَالِدَانِ وَالأَقْرَبُونَ وَلِلنِّسَاء نَصِيبٌ مِّمَّا تَرَكَ الْوَالِدَانِ وَالأَقْرَبُونَ مِمَّا قَلَّ مِنْهُ أَوْ كَثُرَ نَصِيبًا مَّفْرُوضًا ﴾

**"Kişilər üçün ata-ana və qohumlardan qalandan pay var. Qadınlar üçün (də) ata-ana və qohumlardan qalandan pay var. İstər az olsun, istər çox, bir pay müəyyəndir."**

## *Bildirişlər*

1. Qadınların da kişilər kimi irs hüququ var. Din onların hüquqlarını qoruyur.

2. İrs mülkiyyət səbəblərindəndir.

3. Daha yaxın qohum irs payında da daha öndədir.

4. Mirasın qədəri yox, ədalətli bölgüsü mühümdür.

5. İrs payı dəyişməzdir.

---

[1] "Mən la yəhzuruhul-fəqih", c. 4, s.223.

[2] "Kafi", c. 5, səh. 130.

8. ﴿ وَإِذَا حَضَرَ الْقِسْمَةَ أُوْلُواْ الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينُ فَارْزُقُوهُم مِّنْهُ وَقُولُواْ لَهُمْ قَوْلاً مَّعْرُوفًا ﴾

**"Əgər bölgü zamanı (irsdən pay düşməyən) qohumlar, yetimlər və ehtiyaclılar orada olsalar, həmin maldan onlara bir şey ruzi verin və onlarla xoş danışın."**

## *Nöqtələr*

◘Ayədə qohumların yetimlərlə və miskinlərlə yanaşı yad edilməsindən aydın olur ki, burada fəqir və irsdə payı olmayan qohumlar nəzərdə tutulur. Ayənin sonundakı mehribanlıq tapşırığı da həmin bu mənanı təsdiqləyir.

## *Bildirişlər*

1. Məhrumların baxışlarına, iştirakına və təbii istəklərinə diqqət yetirin.
2. İrs qalmış malı məxfi şəkildə bölməyin. Qoy bu bölgünü başqaları da görə bilsin.
3. İrs bölgüsündə bu irsdə qanuni payı olanlardan əlavə, məhrumlar və yetimlər haqqında da düşünün.
4. Hədiyyələr və şirin dillə kin və həsədi aradan qaldırın və ailə bağlılıqlarını möhkəmləndirin.
5. Maddi hədiyyələri məhəbbət və mehribanlıqla çatdırın.

9. ﴿ وَلْيَخْشَ الَّذِينَ لَوْ تَرَكُواْ مِنْ خَلْفِهِمْ ذُرِّيَّةً ضِعَافًا خَافُواْ عَلَيْهِمْ فَلْيَتَّقُوا اللّهَ وَلْيَقُولُواْ قَوْلاً سَدِيدًا ﴾

**"Özündən sonra zəif övladlar qoyan və onlar üçün qorxan kəslər (xalqın yetimlərinə qarşı zülmdən də) qorxmalıdırlar. Allahdan çəkinsinlər və möhkəm söz danışsınlar."**

## *Nöqtələr*

◘Rəvayətlərə əsasən, yetimin malını yeməyin həm dünya, həm də axirət təsirləri var. Ayədə bəyan olunduğu kimi, bu günahın zərəri dünyada övlada toxunur. Növbəti ayədə isə uyğun günah müqabilində cəhənnəm əzabı vəd olunur.[1]

◘Ayədə məqsəd infaq və vəsiyyətdə həddi aşmanın qadağası ola bilər. Yəni ayə belə bir məna daşıya bilər ki, əgər himayənizdə körpə yaşlı uşaqlarınız olduğu halda bütün var-dövlətinizi infaq etsəniz, ölümünüzdən sonra

---

[1] "Təfsire-Nurus-səqəleyn".

övladlarınızı fəqirlik və bədbəxtliyə düçar etmiş olarsınız.[1] Bu müraciət inkişafdan geri qalmış övladları olan valideynlərə də ünvanlana bilər. Ayə belə valideynlərə xəbərdarlıq edir ki, xüsusi proqramlarla öz övladlarının gələcəyini təmin etsinlər.[2]

◘Xeyir və şərə çatmaqda nəsillər arasında əlaqə var. Çünki əməllərin təsiri bir ömürə sığışmır. Atanın həm şər, həm də xeyir əməllərinin nəticələrindən övlada da pay düşür. Musa, Xızır və bir yetimin xəzinəsi gizlədilmiş divarın əhvalatı Quranda öz əksini tapmış nümunələrdəndir.[3]

## *Bildirişlər*

1. İnsan dərdləri dərk etmək üçün özünü başqalarının yerinə qoymalıdır. Sizdən sonra övladlarınızla yaxşı rəftar edilməsini istəyirsinizsə, başqalarının yetimləri ilə də o sayaq rəftar edin.
2. Ocağın tüstüsü onu qalayanın gözünə dolur. Xalqın yetim övladlarına zülm cəmiyyətdə qanun şəklini alarsa, sabah bizim də yetimlərimizə tuşlanasıdır.
3. Təbliğdə insani və fitri meyllərdən istifadə edilməlidir.
4. Həm yetimlərin malına xəyanət etməmək, həm də onlarla xoş danışmaq lazımdır.
5. Yetimlər libas və xörəklə yanaşı məhəbbət, mehribanlıq və tərbiyəyə də ehtiyaclıdırlar.

**10.** ﴿ إِنَّ الَّذِينَ يَأْكُلُونَ أَمْوَالَ الْيَتَامَى ظُلْمًا إِنَّمَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ نَارًا وَسَيَصْلَوْنَ سَعِيرًا ﴾

**“Həqiqətən, yetimlərin malını sitəmlə yeyənlər qarınlarına atəş tökürlər. Onlar tezliklə şölələnmiş alova daxil olacaqlar.”**

## *Nöqtələr*

◘Əllamə Təbatəbai bu ayəni əməllərin qiyamətdə təcəssüm dəlili saymışdır. Çünki Quranda buyurulur: «Yetimin malı atəş şəklinə düşüb onu yeyəni yandırar.»

## *Bildirişlər*

1. Dünyada yetimin malını yeməyin əsil çöhrəsi qiyamətdə od yemək şəklində aşkar olacaq.
2. Yetimlərə zərər olmazsa, onların evində olub süfrələrində yeməyin eybi yoxdur.

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Təfsire-Kəbire-Fəxri Razi”.
[3] “Kəhf”, 82.

11. ﴿يُوصِيكُمُ اللّهُ فِي أَوْلاَدِكُمْ لِلذَّكَرِ مِثْلُ حَظِّ الأُنثَيَيْنِ فَإِن كُنَّ نِسَاء فَوْقَ
اثْنَتَيْنِ فَلَهُنَّ ثُلُثَا مَا تَرَكَ وَإِن كَانَتْ وَاحِدَةً فَلَهَا النِّصْفُ وَلأَبَوَيْهِ لِكُلِّ وَاحِدٍ مِّنْهُمَا
السُّدُسُ مِمَّا تَرَكَ إِن كَانَ لَهُ وَلَدٌ فَإِن لَّمْ يَكُن لَّهُ وَلَدٌ وَوَرِثَهُ أَبَوَاهُ فَلأُمِّهِ الثُّلُثُ فَإِن
كَانَ لَهُ إِخْوَةٌ فَلأُمِّهِ السُّدُسُ مِن بَعْدِ وَصِيَّةٍ يُوصِي بِهَا أَوْ دَيْنٍ آبَآؤُكُمْ وَأَبناؤُكُمْ لاَ
تَدْرُونَ أَيُّهُمْ أَقْرَبُ لَكُمْ نَفْعاً فَرِيضَةً مِّنَ اللّهِ إِنَّ اللّهَ كَانَ عَلِيما حَكِيمًا﴾

**“Allah (irs məsələsində) övladlarınız haqqında sizə sifariş edir. Oğul üçün iki qızın payı var. Əgər varislər qadın cinsindən və iki nəfərdən artıq olsalar, mirasın üçdə biri onların payıdır. Əgər bir nəfər olsa, mirasın yarısı onundur. Əgər ölənin övladı olmuş olsa, ata-ananın hər biri üçün altıda bir irs var. Amma övladı olmasa və varisi yalnız ata-ana olsa, ana üçün üçdə biridir (və ata qalanını götürür). Əgər ölənin qardaşları olmuş olsa, anası altıda bir pay alır. (Əlbəttə, irsin bölünməsi) vəsiyyət edildikdən və onun borcları ödəndikdən sonra olur. Siz bilmirsiniz ki, atalarınız və oğlanlarınızın hansı sizin üçün daha faydalıdır. Bu hökm Allah tərəfindən vacib olmuşdur. Həqiqətən, Allah bilən və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘Qadın irsdən kişiyə nisbətən yarı pay alsa da, əslində kişidən iki qat artıq bəhrələnir. Fərz edin ki, otuz hissədən ibarət olan irsdən on hissəsi qadına, iyirmi hissəsi isə kişiyə düşmüşdür. Amma qadın hansısa öhdəlik götürmədiyindən öz payını toxunulmamış vəziyyətdə saxlayır və öz həyat ehtiyacını kişinin payından təmin edir. Deməli, irs bölgüsündə kişidən az pay götürən qadın öz payını ehtiyata saxlayıb, kişinin payından istifadə edir.

◘İmam Cavaddan (ə) nəql olunmuş bir hədisdə deyilir: Qadının öhdəsində heç bir fərdi və ictimai maddi öhdəçilik yoxdur. İzdivac zamanı qadın mehriyyə aldığı, kişi mehriyyə ödədiyi halda, qadının izdivacdan sonrakı xərclərini də kişi ödəməlidir. Qadın heç bir maddi məsuliyyət daşımadan irs alır və aldığını ehtiyata saxlayır. Onun ehtiyacları isə kişiyə düşmüş paydan ödənir.[1]

◘Tövratda da irs hökmləri bəyan olunmuşdur.[2] İncildə isə həzrət İsanın belə dediyi bəyan olunur: “Mən Tövratın hökmlərini dəyişməyə gəlməmişəm.”

◘Cahil ərəblər qadınları və uşaqları irsdən məhrum edirdilər. İslam isə övlad və qadına onların ehtiyacı qədərində irs payı ayırır.

◘Övlada irs çatması bir çox fəaliyyətlərə səbəb olur. Var-dövlətinin övladına çatmayacağını bilən insan bir o qədər də çalışmaz. Fransada varislik

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] Tövrat, “Sifre-Ədad”, b 27, a. 8-11.

qanunu ləğv olunduqdan sonra bir çox iqtisadi fəaliyyət sahələrində tənəzzül müşahidə olundu.

◘Dünyasını dəyişmiş şəxsin var-dövlətindən onun övladlarına ata-anasından çox pay düşməsinin səbəbi bu ola bilər ki, insanın qoca yaşlarında ehtiyacı az olur. Əgər ölənin qardaşı yoxdursa, ananın payı üçdə bir, əgər qardaşı varsa, ananın payı altıda bir olur. Qalan hissə isə ata üçündür. Atanın daha çox irs payı almasının səbəbi bu ola bilər ki, ölənin qardaşlarının xərci də, adətən, atanın öhdəsinə düşür.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Ölənin borclarını ödəmək onun vəsiyyətini yerinə yetirməkdən öndə gəlir.[1] Şəriətə zidd vəsiyyətə əməl edilməməlidir.[2]

◘Bir şəxs qızı olduğu üçün narahatlıq keçirirdi. İmam Sadiq (ə) həmin şəxs üçün ayənin bir hissəsini oxudu: «Siz ata və oğullarınızdan hansının daha xeyirli olduğunu bilmirsiniz.»[3]

## *Bildirişlər*

1. İslam fitrət ayini, dinidir. Övladın vücudu valideynin vücudunun davamı olduğundan və valideynin cismi və ruhi xüsusiyyətləri övlada ötürüldüyündən onun var-dövləti də övlada çatmalıdır.
2. Vəsiyyət insanın öz haqqı olduğundan varislərin hüququndan öndə gəlir.
3. Xalqın haqqı varislərin və qohumların haqqından öndə gəlir.
4. İrs alası insanlar üçün fərqli paylar müəyyənləşdirilməsinin hikmətləri var. Ümumiyyətlə, bir çox işlərin hikməti qaranlıqdır. İrs hökmündə ilk öncə bəşəriyyətin gerçək faydası nəzərdə tutulmuşdur. İnsan bu məsələyə diqqətsiz də ola bilər.
5. Qanunun təsbit olunması üçün elm və hikmət iki mühüm şərtdir. İrs hökmləri ilahi elm və ilahi hikmətə əsaslanır.

12. ﴿وَلَكُمْ نِصْفُ مَا تَرَكَ أَزْوَاجُكُمْ إِن لَّمْ يَكُن لَّهُنَّ وَلَدٌ فَإِن كَانَ لَهُنَّ وَلَدٌ
فَلَكُمُ الرُّبُعُ مِمَّا تَرَكْنَ مِن بَعْدِ وَصِيَّةٍ يُوصِينَ بِهَا أَوْ دَيْنٍ وَلَهُنَّ الرُّبُعُ مِمَّا تَرَكْتُمْ إِن
لَّمْ يَكُن لَّكُمْ وَلَدٌ فَإِن كَانَ لَكُمْ وَلَدٌ فَلَهُنَّ الثُّمُنُ مِمَّا تَرَكْتُم مِّن بَعْدِ وَصِيَّةٍ تُوصُونَ
بِهَا أَوْ دَيْنٍ وَإِن كَانَ رَجُلٌ يُورَثُ كَلاَلَةً أَو امْرَأَةٌ وَلَهُ أَخٌ أَوْ أُخْتٌ فَلِكُلِّ وَاحِدٍ مِّنْهُمَا
السُّدُسُ فَإِن كَانُوَاْ أَكْثَرَ مِن ذَلِكَ فَهُمْ شُرَكَاء فِي الثُّلُثِ مِن بَعْدِ وَصِيَّةٍ يُوصَى بِهَآ
أَوْ دَيْنٍ غَيْرَ مُضَآرٍّ وَصِيَّةً مِّنَ اللّهِ وَاللّهُ عَلِيمٌ حَلِيمٌ﴾

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Bihar" , c. 100, səh. 201; "Təfsire-Qummi", c. 1, səh. 65.
[3] "Təfsire-Nurus-səqəleyn".

**“Arvadlarınızdan qalan irsin, əgər onların övladları olmasa, yarısı sizindir. Əgər övladları olarsa, onlardan qalan irsin dörddə biri sizə çatır. Əlbəttə ki, vəsiyyətlərinə əməl olunduqdan və borcları ödəndikdən sonra! (Ər öldükdə isə) ondan qalanın dörddə biri arvadlarının payıdır. Əlbəttə ki, övladı olmasa! Əgər övladı olsa, arvadlarının payı səkkizdə bir olur. (Bu bölgü) vəsiyyətə əməl olunduqdan və ya borc ödəndikdən sonra aparılır. Amma irs qoymuş şəxs valideyni və ya övladı olmayan kişi və ya qadın olsa, əgər qardaş-bacısı varsa, onlardan hər birinə altıda bir irs düşür. Əgər onlar (bacı və qardaş birdən artıq olsa, onlar hamısı irsin üçdə birinə bərabər şərikdirlər. Əlbəttə ki, vəsiyyətə əməl olunduqdan və ölünün borcları qaytarıldıqdan sonra! Vəsiyyət varisə zərər olmamalıdır. Bu tapşırıq Allah tərəfindəndir. Allah biləndir və həlimdir.”**

## *Nöqtələr*

◘Ötən ayədə övladların və valideynlərin irsi haqqında danışıldı. Bu ayədə isə arvadın, ərin, qardaşın və bacının irsi haqqında məlumat verildi. Əlbəttə ki, irs hökmləri rəvayətlərin köməyi ilə icra olunmalıdır. Çünki, irs məsələsinin xırdalıqları Quran ayələrində açıqlanmamışdır.

◘“Kəlalə” sözü Quranda iki dəfə işlədilmişdir. Həmin sözlə “Nisa” surəsinin hazırkı və sonuncu ayələrində rastlaşırıq. Bu sözün lüğət mənası “əhatə” deməkdir. Burada insan və onun övladını əhatə edən qohumlar nəzərdə tutulur. “Əklil” isə insanın başını əhatə edən tacdır. “Küll” bütün digər ədədləri əhatə edən ədəddir. Bu söz irs mövzusunda iki məna daşıyır:

1. Ölənin bu ayədə haqqında danışılan (anadan) qardaş və bacıları.
2. Son ayədə nəzərdə tutulan ölənin atadan və anadan və ya atadan olan bacı-qardaşları.

◘Ölünün borclarının ödənməsi onun vəsiyyətinə əməl olunmasından öndə gəlsə də, vəsiyyəti yerinə yetirmək çətin olduğundan Allah bu ayədə əvvəlcə vəsiyyətə əməl edilməsini, sonra borcların ödənməsini tapşırır.[1]

◘Hədisdə deyilir: “Malın üçdə birini vəsiyyət etmək çoxdur. Çalışın ki, varisləriniz daha çox bəhrələnsin. Belə olsa, hamı ehtiyacsız olar. Vəsiyyətdə zərər vurmaq kəbirə günahdır. Varislərin zərərinə tamamlanacaq vəsiyyətə əməl etmək lüzumsuzdur.[2]

◘Əgər bir kişinin bir neçə arvadı olarsa, irsin səkkizdən və ya dörddən biri onların arasında bərabər bölünür.

◘Ölənin borcları da ilahi borclardan sayılır. Həcc, xüms, zəkat, kəffarə borcu necədirsə, adi borc da elədir.[3]

---

[1] “Təfsire-Safi”.
[2] “Təfsire-Kəbire-Fəxr Razi”.
[3] “Təfsire-Kəbire-Fəxr Razi”.

## *Bildirişlər*

1. Xalqın borcunu qaytarmaq o qədər mühümdür ki, bu iki ayədə dörd dəfə həmin məsələyə toxunulmuşdur.

2. Başqa həyat yoldaşından qalan övlad da ər və arvadın hər birinin payını yarı azaldır. Bu yolla övladlar da öləndən pay alır. Övladın qız və ya oğlan olmasının fərqi yoxdur.

3. İnsan öz vəsiyyətində varislərin halını nəzərə almalıdır ki, onlara zərər toxunmasın.

4. İslam nəinki həyat dövründə, hətta ölümdən sonra da insanın kimsəyə zərər vurmasına yol vermir.

5. İrsin ilahi şəkildə bölünməsi həm elmi əsasa malikdir və həm də əgər bu işdə xilafa yol verilsə, Allah həlimdir və tələsmir.

13. ﴿ تِلْكَ حُدُودُ اللّهِ وَمَن يُطِعِ اللّهَ وَرَسُولَهُ يُدْخِلْهُ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَذَلِكَ الْفَوْزُ الْعَظِيمُ ﴾

**“O (deyilənlər,) ilahi hədlərdir. Hər kəs Allaha və Onun rəsuluna itaət etsə, (Allah onları) ağacları altından çaylar axan bağlara daxil edər. Onlar həmişə orada qalarlar. Budur böyük qurtuluş!”**

## *Bildirişlər*

1. İrs hökmləri ilahi hüdudlardandır. Bu sərhəddi aşmaq olmaz.

2. Allahın rəsuluna itaət Allaha itaət yerindədir.

3. Səadət və qurtuluş irsdən daha çox kam almaqda yox, ilahi yolda hərəkətdədir.

14. ﴿ وَمَن يَعْصِ اللّهَ وَرَسُولَهُ وَيَتَعَدَّ حُدُودَهُ يُدْخِلْهُ نَارًا خَالِدًا فِيهَا وَلَهُ عَذَابٌ مُّهِينٌ ﴾

**“Hər kəs Allaha və Onun rəsuluna itaətsizlik etsə, ilahi hədləri pozsa, Allah onu həmişə qalacağı oda daxil edər. Onun üçün zəliledici əzab var.”**

## *Bildirişlər*

1. Vəsiyyətə əməl etməyən və ya ölünün borcunu ödəməyənlər, varislərin haqqını görməməzliyə vurub ölünün malına sahib çıxmağa çalışanlar daim ilahi əzab və qəhrdədirlər.

2. Xoşbəxtlik və bədbəxtlik ölçüsü Allaha itaət edib-etməməkdədir.

3. Allah rəsuluna itaətsizlik Allaha itaətsizlikdir.

4. Ardıcıl itaətsizlik əbədi əzab səbəbidir.

5. Başqalarının haqqına təcavüz edənlər kafirlərlə bir sırada əbədi əzaba düçar olarlar.

6. İlahi qəhr və qəzəb həm cismə, həm də ruha aiddir.

**15.** ﴿وَاللاَّتِي يَأْتِينَ الْفَاحِشَةَ مِن نِّسَآئِكُمْ فَاسْتَشْهِدُواْ عَلَيْهِنَّ أَرْبَعةً مِّنكُمْ فَإِن شَهِدُواْ فَأَمْسِكُوهُنَّ فِي الْبُيُوتِ حَتَّىَ يَتَوَفَّاهُنَّ الْمَوْتُ أَوْ يَجْعَلَ اللّهُ لَهُنَّ سَبِيلاً﴾

**“Qadınlarınızdan zinaya yol verənlər üçün öz aranızdan dörd şahid tutun. Əgər şəhadət verdilərsə, həmin qadınları evlərində ya ölənədək, ya da Allah onlar üçün bir yol açanadək saxlayın.”**

## *Nöqtələr*

◘İmam Sadiq (ə) buyurmuşdur: “Ayədə digər bir yol deyilərkən ilahi hədlər, daşqalaq və şallaq nəzərdə tutulur.”[1]

◘Bəziləri bu ayənin qadınlar arasındakı həmcinsbazlığa (lesbos məhəbbətinə) aid olduğunu bildirirlər. “Məcməül-bəyan”da peyğəmbərdən nəql olunmuş rəvayətlər də bu ehtimalı təsdiqləyir.[2]

◘Rəvayətdə oxuyuruq ki, zinakar qadının evdə həbs olunması cahiliyyət dövründə də mövcud idi. İslam ilk addımda bu qaydanı qəbul etsə də, gücləndikdən sonra həbs cəzası hədd qoyulması ilə əvəz olundu.[3]

## *Bildirişlər*

1. İslam insanların şərəf və ləyaqətini qorumaq üçün zinanın isbatında dörd şahid tələb edir. Hətta üç şəxs şahidlik edərsə, hər üçünə şallaq vurulur. Qətlin isbatı üçün isə iki şahid kifayət edir.

2. Zinanın şahidi həm kişi, həm müsəlman olmalıdır ki, günahın isbatına lazımınca diqqət yetirsin.

3. Zina üçün şəhadət vacibdir.

4. Mühakimə yürüdərkən öz elminizlə kifayətlənməyin, şahid də lazımdır.

5. Zinakar qadının cəzası onun öz evində həbsidir. Zinakar qadın ümumi həbsxanaya salınarsa, fəsad daha da artar.

6. Zinakar qadın ona görə evdə həbs olunur ki, cəmiyyətin sağlam hissəsini yoldan çıxarmasın, insanlar başqa yolla ləzzət almaqla izdivacdan çəkinməsinlər.

7. Cəmiyyətin sağlamlığını qorumaq, onu çirkinlikdən təmizləmək üçün günahkar həbs edilməlidir.

---

[1] “Təfsire-bürhan”, c. 1, səh. 353.

[2] “Təfsire-rahnüma”.

[3] “Vəsail”, c. 28, səh. 61.

8. Ərli qadın zina etdikdə əbədi həbsə məhkum olunur. Əlbəttə ki, bu hökm şallaq və daşqalaq hökmlərinədək müvəqqəti icra olunur.

**16.** ﴿ وَاللَّذَانَ يَأْتِيَانِهَا مِنكُمْ فَآذُوهُمَا فَإِن تَابَا وَأَصْلَحَا فَأَعْرِضُواْ عَنْهُمَا إِنَّ اللّهَ كَانَ تَوَّابًا رَّحِيمًا ﴾

**"Sizlərdən günah və zina ardınca gedən hər iki nəfərə əziyyət verin (onlara hədd təyin edin). Əgər tövbə edib, islah olsalar, onları bağışlayın, (çünki) Allah tövbələri qəbul edən və mehribandır."**

## *Nöqtələr*

◘Təfsirlərdə bu ayə müxtəlif şəkillərdə mənalandırılmışdır. Yuxarıdakı məna isə "Təfsire-nümunə"yə aiddir. Əlbəttə ki, başqa mənalar da nəzərə gəlir: Əgər iki kişi günah etmək(homoseksualizmlə məşğul olmaq) qərarına gəlmişlərsə, amma hələ ki, yalnız müqəddimə işləri görülmüşdür, bu işin gələcəkdə baş verəcəyinə əmin olduğunuz halda onları nəhy əz münkər baxımından tənbeh edib hədələyin. Əgər peşman olub günahdan əl çəksələr, siz də onları bağışlayın. Allah tövbələri qəbul edən və rəhimlidir. Ayədəki "vəlləzani" sözü qadın və kişiyə yox, iki kişiyə aiddir. "Fəazuhuma" sözü isə həddin icrası yox, tənbeh mənasını bildirir. Tövbə və islah isə qazinin hökmündən qabaq fikirdən daşınmaya aiddir."Yətiyaniha" sözünü isə günaha müqəddimənin icrası mənasında başa düşmək olar. Xalq arasında bu söz günah astanasında olan insana aid edilir. Məsələn, bir şəxs kimlərisə qonaq çağırıb hazırlıq görürsə, "filankəs qonaqlıq edir" deyirlər.

◘Zinakarın tövbəsi və onun günaha görə cəzalandırılmaması iş mühakiməyə gedənədəkdir. Hökm çıxarıldıqdan sonra isə tövbə cəzanın qarşısını almır.

**17.** ﴿ إِنَّمَا التَّوْبَةُ عَلَى اللّهِ لِلَّذِينَ يَعْمَلُونَ السُّوَءَ بِجَهَالَةٍ ثُمَّ يَتُوبُونَ مِن قَرِيبٍ فَأُوْلَئِكَ يَتُوبُ اللّهُ عَلَيْهِمْ وَكَانَ اللّهُ عَلِيماً حَكِيماً ﴾

**"Şübhəsiz ki, Allaha tövbə cəhalət üzündən pis iş görənlər üçündür. Onlar dərhal tövbə edirlər. Allah onların tövbəsini qəbul edər. Allah biləndir və hikmət sahibidir."**

## *Nöqtələr*

◘Bu ayədə tövbənin bəzi qəbul şərtlərinə işarə olunur, o cümlədən:

a) Günah küfr və inadkarlıqdan yox, nadanlıq və işin sonuna diqqətsizlikdən baş vermişsə;

b) Günah insanı əhatə etməmiş, ya onun xarakterinə hopmamış, ya da ilahi qəzəbə gəlməmiş dərhal tövbə edilsə.

◘İmam Sadiq (ə) buyurmuşdur: “İnsan bir günaha agah şəkildə batarsa da, əslində cahildir. Çünki özünü ilahi qəzəb qarşısında qoymuşdur.”[1]

## *Bildirişlər*

1. Həqiqi tövbənin qəbulu Allahın Öz öhdəsinə götürdüyü bəndə haqlarındandır.
2. Nəfs istəkləri qarşısında tab gətirməyən elm cəhldir.
3. Nə qədər ki, günah artmayıb, tövbə asandır. Bu ayədə bir günah nəzərdə tutulursa, növbəti ayədə tövbə yolunu çətinləşdirən çox günahdan söhbət gedir.
4. Allah günahkarları dərhal tövbəyə təşviq edir.
5. Tövbədə sürət onun qəbul səbəbidir.
6. Tövbə qəlbən olmalıdır. Formal tövbədən Allah xəbərdardır.
7. İnadkar olmayan günahkarların üzrünün qəbulu hikmətə uyğundur.

18. ﴿وَلَيْسَتِ التَّوْبَةُ لِلَّذِينَ يَعْمَلُونَ السَّيِّئَاتِ حَتَّى إِذَا حَضَرَ أَحَدَهُمُ الْمَوْتُ
قَالَ إِنِّي تُبْتُ الآنَ وَلاَ الَّذِينَ يَمُوتُونَ وَهُمْ كُفَّارٌ أُوْلَئِكَ أَعْتَدْنَا لَهُمْ عَذَابًا أَلِيمًا﴾

**“Çirkin işlər görüb, ölümü çatanda “həqiqətən, indi tövbə etdim” deyənlərin tövbəsi qəbul deyil. Eləcə də, kafir olaraq ölənlərin tövbəsi qəbul deyil. Əksinə, onlar üçün dərdli əzab hazırlamışıq.”**

## *Bildirişlər*

1. Məcburi halda, təhlükə ilə üzləşdikdə edilən tövbə yox, azad halda edilən tövbə dəyərlidir.
2. Günahın təkrarı insanı tövbə tövfiqindən məhrum edir. “Yəməlun” (“işlər görərlər”) davam nişanəsidir. “Səyyiat” sözü isə günahın çoxluğu və təkrarını bildirir.
3. Tövbəni təxirə salmaq olmaz. Ölüm anı məlum deyil və ölüm qapını döydükdə tövbə qəbul olmaz.
4. Təhlükə və ölüm zamanı insanın allahşünaslıq fitrəti aşkar olur.
5. Kafir halda ölmək və pis aqibət bütün yaxşı əməlləri, o cümlədən tövbəni puça çıxarır.

[1] “Təfsire-bürhan”, c. 1, səh. 354.

**19.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ يَحِلُّ لَكُمْ أَن تَرِثُواْ النِّسَاء كَرْهًا وَلاَ تَعْضُلُوهُنَّ لِتَذْهَبُواْ بِبَعْضِ مَا آتَيْتُمُوهُنَّ إِلاَّ أَن يَأْتِينَ بِفَاحِشَةٍ مُّبَيِّنَةٍ وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ فَإِن كَرِهْتُمُوهُنَّ فَعَسَى أَن تَكْرَهُواْ شَيْئًا وَيَجْعَلَ اللّهُ فِيهِ خَيْرًا كَثِيرًا﴾

**“Ey iman gətirənlər! Qadınlardan zorla irs almaq sizə halal deyil. Aşkar günaha batmayınca bağışladığınızın bir hissəsini almaq üçün onlara çətinlik yaratmayın. Onlarla yaxşılıqla rəftar edin. Əgər onlardan xoşunuz gəlməsə, çox olsun ki, siz bir şeyi xoşlamayasınız, amma Allah həmin şeydə böyük xeyir qoymuş olsun.”**

## *Nöqtələr*

◘Qadının özünün irs olaraq ötürüldüyü cahilliyyət ənənələrinin ziddinə olaraq, ayədə yalnız var-dövlətin irs olduğuna işarə edilmişdir. Ölənin arvadı kimsənin irsi deyil. Qadın əri öldükdən sonra özünə başqa bir ər seçə bilər.

## *Bildirişlər*

1. İslam qadınların hüquqlarını müdafiə edir.
2. Mehriyyəni zorla geri almaq haramdır.
3. Yalnız qadın iffətsizlik astanasında olduqda kişi ona əziyyət verə bilər.
4. Qadınlarla xoş rəftar etmək lazımdır.
5. Kişi dəyirmanın alt daşı kimidir. O, xoşrəftarlı olub çətinliklərə dözməlidir. Ayədə kişilərə xitab olunur.
6. Bir çox xeyirlər həyatın çətinlikləri ağuşundadır.
7. Övladların səadəti üçün ailə problemlərinin həlli, səbirli və xoşrəftar olmaq ayrılıq və boşanmadan yaxşıdır.
8. Bəzən xeyir və şər bizim istəklərimizə uyğun olmur. Bizim xoşlamadığımız bir şeydə Allah böyük faydalar qoya bilər. Bir sözlə, insan nəyin xeyirli olmasından tam xəbərdar deyil.

**20.** ﴿وَإِنْ أَرَدتُّمُ اسْتِبْدَالَ زَوْجٍ مَّكَانَ زَوْجٍ وَآتَيْتُمْ إِحْدَاهُنَّ قِنطَارًا فَلاَ تَأْخُذُواْ مِنْهُ شَيْئًا أَتَأْخُذُونَهُ بُهْتَاناً وَإِثْماً مُّبِيناً﴾

**“Əgər bir zövcənin yerinə başqa birini seçmək istəsəniz, onlara çoxlu mal verin və ondan bir şey almayın. Məgər böhtan və aşkar günah yolu ilə onu geri almaqmı istəyirsiniz?!”**

## *Nöqtələr*

◘“Qintar” çoxlu mal mənasını bildirir.

◘Cahiliyyət dövründə yeni bir arvad almaq istəyənlər əvvəlki arvadı sıxıntıya salmaqla onun öz mehriyyəsini kişiyə bağışlamasına nail olmaq

istəyirdilər. Əvvəlki qadın öz mehriyyəsindən keçdikdən sonra kişi onu boşayır və həmin mehriyyə ilə yeni bir arvad alırdı. Bu ayədə cahil ənənələr məzəmmət olunur.

## *Bildirişlər*

1. İslam yenidən evlənməyə icazə verir.
2. Boşanma kişidən asılıdır.
3. Çox mehriyyənin eybi yoxdur. Bununla belə az mehriyyə ilə kifayətlənmək tapşırılmışdır.
4. İlahi qanunlar çərçivəsində mülkiyyət üçün məhdudiyyət yoxdur.
5. İslam qadın hüquqlarının himayəçisidir. Birinci qadının hüququnu pozmaqla ikinci dəfə evlənmək qadağandır.
6. Qadının mülkiyyət hüququ var. Mehriyyə əl vurulmadan ona təhvil verilməlidir.
7. Əgər bir şəxs düz yolla böyük mülkiyyət sahibi olmuşsa, «bu mülkiyyət çoxdur» - deyə ondan nəsə almaq olmaz.
8. Ən böyük zülm don geyindirməklə, böhtan atmaqla, şəxsiyyəti tapdalamaqla xalqın malının onun əlindən alınmasıdır.

21. ﴿ وَكَيْفَ تَأْخُذُونَهُ وَقَدْ أَفْضَى بَعْضُكُمْ إِلَى بَعْضٍ وَأَخَذْنَ مِنكُم مِّيثَاقًا غَلِيظًا ﴾

**“Hər biriniz o birinizdən kam apardığı və zövcələriniz sizdən möhkəm əhd aldığı bir halda, həmin malı necə geri alırsınız?!”**

## *Bildirişlər*

1. Nəhy əz münkər zamanı (pis işlərə qadağa qoyarkən) insani hisslərdən bəhrələnmək lazımdır. Siz ki, öz zövcənizlə kamil əlaqədə olub, ondan kam almısınız, nə üçün indi haqsız yerə onun mehriyyəsini geri alırsınız?!
2. Həyat çətinlikləri zamanı xoş günləri və anları xatırlamaq lazımdır.
3. Ailə məsələlərinin bəyanında ədəbi gözləyək.
4. Mehriyyə yaxınlıq müqabilində qadın üçün təyin olunmuş haqdır.
5. İzdivac əqdi möhkəm bir əhddir.
6. Mehriyyəni geri almaq əhdi pozmaqdır.

22. ﴿ وَلاَ تَنكِحُواْ مَا نَكَحَ آبَاؤُكُم مِّنَ النِّسَاء إِلاَّ مَا قَدْ سَلَفَ إِنَّهُ كَانَ فَاحِشَةً وَمَقْتًا وَسَاء سَبِيلاً ﴾

**“Atalarınızın izdivac etdiyi qadınlarla izdivac etməyin. Keçmişdə (bu hökm nazil olmamış) edilənlər istisnadır. Həqiqətən, bu sayaq izdivac çox çirkindir, mənfurdur və pis bir yoldur.”**

## *Nöqtələr*

◘Cəhalət ənənələrindən biri də bu idi ki, bir şəxs dünyadan köçərkən onu övladları öz atalarının arvadları ilə izdivac edərdilər. Ənsardan Əbu Qeys adlı bir şəxs dünyasını dəyişdi. Onun övladı atasının arvadına evlənmək təklif etdi. Qadın dedi: “Peyğəmbərdən vəzifəmi öyrənməliyəm.” Peyğəmbərə bu barədə sual verildikdən sonra ayə nazil oldu və atanın arvadı ilə izdivac qadağan edildi.

## *Bildirişlər*

1. İslam fitrət dinidir. İnsan təbiət etibarı ilə ana və analıqla izdivaca nifrət etdiyindən İslam da bunu haram buyurmuşdur.
2. Atanın arvadı ana yerindədir. Ona görə də kin və qarşıdurma əvəzinə övladlara analıq edilməlidir.
3. Övladlar evlənərkən atanın hörmətini hifz etməlidirlər.
4. Övladlar atanın arvadına ana kimi baxmalıdırlar.
5. İslam keçmişdə baş verənlərə göz yumur. Uyğun hökm nazil olmamışdan qabaq analıqla evlənmələr bağışlanır.
6. Danışarkən icmali və ya ayrıca dəlil gətirmək lazımdır.
7. Analıqla evlənmə başqa məhrəmlərlə də evlənməyə yol aça bilər.

23. ﴿حُرِّمَتْ عَلَيْكُمْ أُمَّهَاتُكُمْ وَبَنَاتُكُمْ وَأَخَوَاتُكُمْ وَعَمَّاتُكُمْ وَخَالاَتُكُمْ وَبَنَاتُ
الأَخِ وَبَنَاتُ الأُخْتِ وَأُمَّهَاتُكُمُ اللاَّتِي أَرْضَعْنَكُمْ وَأَخَوَاتُكُم مِّنَ الرَّضَاعَةِ وَأُمَّهَاتُ
نِسَآئِكُمْ وَرَبَائِبُكُمُ اللاَّتِي فِي حُجُورِكُم مِّن نِّسَآئِكُمُ اللاَّتِي دَخَلْتُم بِهِنَّ فَإِن لَّمْ
تَكُونُواْ دَخَلْتُم بِهِنَّ فَلاَ جُنَاحَ عَلَيْكُمْ وَحَلاَئِلُ أَبْنَائِكُمُ الَّذِينَ مِنْ أَصْلاَبِكُمْ وَأَن
تَجْمَعُواْ بَيْنَ الأُخْتَيْنِ إَلاَّ مَا قَدْ سَلَفَ إِنَّ اللّهَ كَانَ غَفُورًا رَّحِيمًا﴾

**“Analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaşlarınızın qızları, bacılarınızın qızları, sizə süd vermiş analarınız, süd bacılarınız, arvadlarınızın anaları, arvadlarınızın öz ağuşunuzda tərbiyə etdiyiniz qızları ilə (evlənmək) sizə haram olmuşdur. Anaları ilə yaxınlıq etdiyiniz qızlarla yox, anaları ilə yaxınlıq etmədiyiniz qızlarla evlənməyinizin eybi yoxdur. Nəslinizdən olan oğlanlarınızın arvadları və eyni vaxtda iki bacı ilə evlənmək də haram edildi. Əvvəllərdə baş verənlər istisnadır. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Bu ayədə insana məhrəm olan və izdivac haram sayılan qadınların adları sadalanmışdır. Məhrəmlik və izdivacın haramlığı üç yolla hasil olur: doğum (nəsil əlaqəsi); izdivac (səbəb rabitəsi); süd əmmə (süd rabitəsi).

◘Əvvəlki dinlərdə də məhrəmlərlə izdivac haram olmuşdur.[1]

◘Məhrəm olmayanlarla izdivac ailə rabitələrini genişləndirir.

◘İki bacı ilə eyni vaxtda evlənmək, adətən, onlar arasında şəxsi və cinsi həsəd və rəqabət yaradır. Eləcə də, bacılar arasında ədavət güclənir. Belə bir izdivac zikr olunmuş səbəbə görə haram buyurula bilər.

## *Bildirişlər*

1. Bir şeyin haram-halal buyurulmasının ixtiyarı yalnız Allahındır.
2. Ana südü anadan doğulma kimi məhrəmlik səbəbidir. Dayə seçərkən diqqətli olaq.
3. Arvadlarınızın əvvəlki ərlərindən olan qızlarına öz qızınız kimi baxın və onları tərbiyə edin.
4. Qanun verildiyi vaxtdan qüvvəyə minir. Qanuna qədər iki bacı ilə evlənənlər günahkar sayılmasa da, bu qanun verildikdən sonra bacılardan biri boşanmalıdır.

24. ﴿وَالْمُحْصَنَاتُ مِنَ النِّسَاء إِلاَّ مَا مَلَكَتْ أَيْمَانُكُمْ كِتَابَ اللّهِ عَلَيْكُمْ وَأُحِلَّ
لَكُم مَّا وَرَاء ذَلِكُمْ أَن تَبْتَغُواْ بِأَمْوَالِكُم مُّحْصِنِينَ غَيْرَ مُسَافِحِينَ فَمَا اسْتَمْتَعْتُم بِهِ
مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ فَرِيضَةً وَلاَ جُنَاحَ عَلَيْكُمْ فِيمَا تَرَاضَيْتُم بِهِ مِن بَعْدِ الْفَرِيضَةِ
إِنَّ اللّهَ كَانَ عَلِيمًا حَكِيمًا﴾

**“(Allahın hökmü ilə kafirlərlə döyüşdə) malik olduğunuz qadınlar istisna olmaqla ərli qadınlarla izdivac haram edilmişdir. (Bu hökmlər) sizin üçün Allahın yazısı və qanunudur. (Deyilənlərdən) başqaları sizin üçün halaldır. (Digər qadınları) öz mallarınız vasitəsi ilə - zina məqsədi ilə yox - paklıq və nikah qəsdi ilə tələb edin. Kam aldığınız qadınların (müvəqqəti nikahda) mehrlərini vacib şəkildə ödəyin. Mehriyyə təyin etdikdən sonra bir-birinizlə razılığa gəlməyinizdə sizin üçün günah yoxdur. Həqiqətən, Allah biləndir və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘“Muhsənat” sözü lüğət baxımından başqalarının toxunması qadağan olan qorunmuş şeyə deyilir. Bu sözün kökü Quranda üç dəstə haqqında işlədilmişdir:

---

[1] Tövrat, “Sifre-Laviyan,” b. 18, a 6-23.

1. İffətli və pak qadınlar; Necə ki, Allah həzrət Məryəmi belə qadınlardan saymışdır.[1]

2. Ərli qadınlar; Çünki ər qadının iffətini qorumağı öz öhdəsinə götürmüşdür. Uyğun söz ayədə həmin bu mənanı ifadə edir.

3. Müharibədə əsir düşməmiş və kəniz olmayan azad qadınlar; Çünki əsirlik qadının iffət pərdəsini yırtır. Kənizlər arasında iffətsizlik geniş yayılmışdı. Növbəti ayədəki "əl muhsənatil-möminat" ifadəsi bu mənanı bildirir.

◘Ayədəki "musafihinə" sözü "sifah" sözündən olub, zina mənasını ifadə edir.

◘Kafir qadının əsir düşməsi onun ərindən boşanması kimidir. Məsələn, əri kafir qaldığı halda iman gətirən qadın öz imanı vasitəsi ilə ərindən ayrılmış olur. İslamda ərli qadınla izdivac haramdır. İstənilən məzhəb və millətdən olan ərli qadınla ailə qurmaq olmaz. Amma əsirlik boşanma kimidir. Əsir düşmüş qadın bir dəfə aylıq adəti görüb təmizlənənədək və ya hamilədirsə, azad olanadək heç bir yaxınlıq edə bilməz. Belə bir qayda həmin qadını kafirlərə qaytarmaqdan və ya öz başına buraxmaqdan üstündür.

◘"Mutə" sözü də həcc, namaz, sələm, qənimət sözləri kimi lüğət yox, şəri mənaya malikdir. Əllamə Təbatəbainin "Təfsire-Əl-mizan" əsərində bildirdiyi kimi, ayədə "istəmtətum" deyərkən "mutə" nəzərdə tutulmuşdur. (Mutə müvəqqəti nikah deməkdir.)

◘Nikaha görə əcr verilməsi mütədən söhbət getdiyini bildirir. Əgər söhbət daimi nikahdan getsəydi, mehriyyə vacib olardı. Daimi nikahda, hətta kam almaq olmadıqda və yaxınlıqsız talaq verildikdə, mehriyyənin yarısı ödənir.

◘Əhli-beyt (ə) buyruqları və əksər sünni təfsirlərinə əsasən, ayədə ikinci xəlifənin sonradan haram etdiyi müvəqqəti nikah nəzərdə tutulmuşdur. Əslində, kimsə Allahın hökmünü dəyişmək səlahiyyətinə malik deyil. Əgər mütə haram edilməsəydi, rəvayətlərin bildirdiyinə əsasən, zalımlardan savay kimsə zina etməzdi.[2] Müvəqqəti nikah ən düzgün çıxış yoludur. Dünya məhz müvəqqəti nikah olmadığından zinanı azad etmişdir. Müvəqqəti nikah ictimai bir zərurətdir. Sünni rəvayətlərinə əsasən, mütə zövcədən uzaqlıq və döyüşlər səbəbindən caiz sayılmışdır. Həmin şərait bu gün də mövcuddur. Mütə hökmündə məqsəd ictimai problemlərin və fəsadların qarşısını almaqdır. Bu hökm qiyamətədək şəri bir zərurətdir.

◘Bəziləri əsas gətirirlər ki, Quranda iddə, irs, cinsi üzvün qorunması mövzuları daimi nikahla əlaqədar bəyan olunmuşdur və mütə daimi nikah deyil. Bu irada belə cavab veririk:

Əvvəla, mütəyə də izdivac deyilir. İkincisi, mütədə də iddə saxlanılır. Mütəni daimi nikahdan fərqləndirən yalnız irs məsələsidir.

**Bir neçə sual:**

1. Məgər müvəqqəti izdivac pərdələnmiş fahişəlik deyilmi?

**Cavab:** Xeyr, belə deyil. Çünki:

---

[1] "Təhrim", 12.

[2] "Kafi", c. 5, səh. 448; "Vəsail", c. 21, səh. 5; "Təfsire-Kəbire-Fəxr Razi".

a) Müvəqqəti izdivacda qadın yalnız bir kişinin ixtiyarında olur;

b) Müvəqqəti izdivacda ən azı 45 gün iddə saxlanılır;

v) Mütədən doğulan uşaq daimi kəbindən doğulan uşaq kimidir.

2. Əhlikef kişilər bu qanundan sui-istifadə etmirlərmi?

**Cavab:** Bütün qanunlardan sui-istifadə etmək mümkündür. Məgər şərabı üzümdən hazırlamırlarmı?! Əgər bəziləri həcc səfərinə başqa məqsədlə gedirsə, bu səfər qadağanmı edilməlidir?

3. Müvəqqəti nikahdan, mütədən doğulan övladların daimi nikahdan doğulan övladlardan fərqi nədir?

**Cavab:** Mütədən doğulan övladların hüquq, irs və bu kimi digər məsələlərdə daimi nikahdan doğulan övladlardan heç bir fərqi yoxdur.

## *Bildirişlər*

1. Evlənmək üçün ərli qadınların sorağına getmək olmaz.
2. Kafirlərlə döyüşdə əsir götürülmüş qadın ərsiz qalmamalıdır. Onu ya kafirlərə qaytarmaq, ya da müsəlmanlarla şəri rabitəsinə icazə vermək lazımdır.
3. Məhrəmlərlə, ərli qadınlarla, iki bacı ilə eyni zamanda izdivacın haramlığı sabit, qəti və dəyişməz ilahi hökmlərdəndir.
4. İffətsizlik və günah yolda büdcə sərfi haramdır.
5. Müvəqqəti izdivac şəridir və qadının mehriyyəsi ödənməlidir.
6. Mehriyyə təyinində tərəflərin razılığı şərtdir.
7. Müvəqqəti izdivac müddəti başa çatdıqdan sonra həmin müddət və mehriyyəni hər iki tərəfin razılığı ilə artırmaq olar.
8. Müvəqqəti izdivac və izdivac qanunu hökmləri Allahın elm və hikmətinə əsaslanır.
9. Qanunu hazırlayan üçün elm və hikmət kimi iki şərt zəruridir.

# BEŞINCI CÜZ

25. ﴿وَمَن لَّمْ يَسْتَطِعْ مِنكُمْ طَوْلاً أَن يَنكِحَ الْمُحْصَنَاتِ الْمُؤْمِنَاتِ فَمِن مِّا
مَلَكَتْ أَيْمَانُكُم مِّن فَتَيَاتِكُمُ الْمُؤْمِنَاتِ وَاللّهُ أَعْلَمُ بِإِيمَانِكُمْ بَعْضُكُم مِّن بَعْضٍ
فَانكِحُوهُنَّ بِإِذْنِ أَهْلِهِنَّ وَآتُوهُنَّ أُجُورَهُنَّ بِالْمَعْرُوفِ مُحْصَنَاتٍ غَيْرَ مُسَافِحَاتٍ وَلاَ
مُتَّخِذَاتِ أَخْدَانٍ فَإِذَا أُحْصِنَّ فَإِنْ أَتَيْنَ بِفَاحِشَةٍ فَعَلَيْهِنَّ نِصْفُ مَا عَلَى الْمُحْصَنَاتِ
مِنَ الْعَذَابِ ذَلِكَ لِمَنْ خَشِيَ الْعَنَتَ مِنْكُمْ وَأَن تَصْبِرُواْ خَيْرٌ لَّكُمْ وَاللّهُ غَفُورٌ
رَّحِيمٌ﴾

**"İmanlı azad qadınlarla evlənməyə maddi imkanı çatmayanlarınız maliki olduğu imanlı kənizlərlə (evlənə bilər). Allah sizin imanınızı daha yaxşı bilir. Hamınız bir-birinizdənsiniz (azad olduğunuz üçün özünüzü kənizlərdən üstün saymayın) Sahiblərinin izni ilə kənizlərlə evlənin, onlara**

**yaxşı və layiqli mehriyyə verin. Bir şərtlə ki, onlar pak olsunlar, zinakarlıq etməsinlər, gizlində aşna tutmasınlar. Ərə getmiş kənizlər zinaya yol verdikdə onların cəzası azad qadınların cəzasının yarısı qədərdir. Bu, günah və zinaya düşməkdən qorxanlarınız üçündür. Bununla belə, səbir etmək (kənizlərlə evlənməmək) sizin üçün daha yaxşıdır. Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Əvvəlki ayənin nöqtələrində deyildiyi kimi, “əl muhsənatil-möminat” sözü azad qadınlara işarədir. Çünki bu söz qarşısında kənizlər mənasını bildirən “fətəyatikumul-möminat” ifadəsi zikr olunmuşdur. Quran başqa bir yerdə də kənizlər haqqında danışarkən “fətəyat” sözünü işlətmişdir: “Öz kənizlərinizi zinaya məcbur etməyin.”[1]

◘“Əxdan” sözü “xidn” sözünün cəm forması olub, dost və rəfiq deməkdir. Amma, adətən, bu söz gizli və qeyri-şəri yolla əlaqə saxlayan adamlar (aşna) haqqında işlədilir. Bu söz aşkar zinaya yol verənlərə aid “müsafihat” sözü qarşısında işlədilmişdir.

◘“Tovl” sözü güclü və imkanlı olmaq, "ənət" sözü isə çətinlik və əziyyət mənasını bildirir.

◘Kəniz sahibi olanlar izdivac əqdi olmadan yaxınlıq hüququna malikdirlər. Bu ayədə başqalarının mülkü olan kənizlərlə izdivacda sahiblərinin icazəsi ilə əqd zəruri sayılmışdır.

◘Kənizlərlə izdivac bəyənilməmişsə də, kənizlər arasında ləyaqətli qadınlar çox olmuşdur. Bəzi övliyalar məhz kənizlərin kamal sahibləri olduqları üçün onlarla ailə qurmuşlar. Belə kənizlərin övladları böyük şəxsiyyətlər olmuşdur.

## *Bildirişlər*

1. İslamda izdivac üçün çıxılmaz vəziyyət yoxdur.
2. Qanunu hazırlayan kəs bir tərəfdən fərdlərin təbii ehtiyaclarına, digər tərəfdən onların iqtisadi çətinliklərinə diqqətli olmalıdır.
3. Kənizlə izdivacı qəbul edin, amma günah ləkəsini yox!
4. Qadının azad olması şərtindən ötüb keçmək olar, amma iman şərtindən yox!
5. Hər bir izdivacda iman əsas şərtdir.
6. Evlənmək üçün zahiri iman kifayətdir. Biz qəlbləri araşdırmağa vəzifəli deyilik.
7. Kənizlə evlənmək alçaqlıq deyil.
8. Qızın ərə getməsində atanın icazəsi şərt olduğu kimi, kənizin də ərə getməsində onun sahibinin icazəsi şərtdir.
9. Sahiblər bilsinlər ki, kənizlər onların öz əhlidirlər.
10. Kənizlərə də azad qadınlar kimi yaxşı mehriyyə verilməlidir.

---
[1] “Nur”, 33.

11. Mehriyyəni kənizin özünə verin. Qulların da iqtisadi və ictimai haqlarına riayət olunmalıdır.

12. Mehriyyə təyinində cəmiyyətdəki orta həddvə qadının şəni meyardır.

13. İzdivacın davamında paklıq, günahdan və qeyri-qanuni əlaqələrdən uzaqlıq şərtdir.

14. Zinaya yol vermiş kəniz bir sıra məhrumiyyətlərə məruz qaldığından yarı cəzalandırılır.

15. Cəmiyyətdə evlənmə şərtləri yüngül olarsa, bir çox cinsi azğınlıqların qarşısı alınar.

16. Psixoloji sağlamlıq İslamın əsas hədəflərindəndir.

17. Kənizlə izdivacdan çəkinmək daha yaxşıdır.

26. ﴿ يُرِيدُ اللّهُ لِيُبَيِّنَ لَكُمْ وَيَهْدِيَكُمْ سُنَنَ الَّذِينَ مِن قَبْلِكُمْ وَيَتُوبَ عَلَيْكُمْ وَاللّهُ عَلِيمٌ حَكِيمٌ ﴾

**"Allah sizin üçün (bu qanunlarla səadət yolunu) aşkarlamaq və əvvəlkilərinizin (yaxşı) sünnələrinə hidayət etmək istəyir. Allah istəyir ki, sizi günahdan pak etsin. Allah biləndir və hikmət sahibidir."**

## *Bildirişlər*

1. Allahın sünnəsi hidayət, bəyan və bildirişdir.

2. Keçmişdəkilərin yaxşı ənənələrinə itaət və təqlid edilməlidir.

3. İslamın izdivac haqqındakı hökm və göstərişləri sair səmavi dinlərdəki hökm və göstərişlərdən fərqlənmir.

4. Allah insana Öz lütfünü əta edir.

5. İzdivacdakı icazələr və qadağalar elm, hikmət və məsləhətə əsaslanır.

27. ﴿ وَاللّهُ يُرِيدُ أَن يَتُوبَ عَلَيْكُمْ وَيُرِيدُ الَّذِينَ يَتَّبِعُونَ الشَّهَوَاتِ أَن تَمِيلُواْ مَيْلاً عَظِيمًا ﴾

**"Allah sizi bağışlamaq (çirkinliyinizi təmizləmək) istəyir. Amma nəfsinə itaət edənlər sizi böyük azğınlığa sövq etdirmək istəyirlər."**

## *Nöqtələr*

▫İlkin baxışda cinsi azadlıqlar bir növ ləzzət və kam almaqdır. Amma bu işin fərdi və ictimai təsirlərinə nəzər saldıqda, onun böyük bir süqut olduğu aydınlaşır. Açıq-saçıqlıq cismi korlayır, düşüncəni azdırır, mal-mülkü puça çıxarır, arxayınlığı aradan qaldırır. Cinsi azadlıq ailə əsaslarını sarsıdır, cəmiyyətə qeyri-qanuni doğulmuş uşaqlar verilir, cinsi xəstəliklər, psixoloji sarsıntılar tüğyan edir. Bir sözlə, cinsi azadlığın bəhrəsi ən böyük əsarətlərdir.

## *Bildirişlər*

1. İzdivacla bağlı müəyyənləşdirilmiş məhdudiyyətlər Allahın insan və bəşər cəmiyyətinə lütfünün rəmzidir.

2. Şəhvətpərəstlərin yolunu getməyin, onlara təqlid etməyin. Onlar sizin düşmənlərinizdir.

3. Açıq-saçıq, pozğun həvəsbazlar yalnız sizi şəhvət dəryasında qərq edəndən sonra rahat olasıdırlar. Onlar sizi özlərinə yoldaş etmək istəyirlər.

4. İslamda cinsi əxlaq orta həddə əsaslanır, nə ifrata varır, nə də təfritə yol verir. Həvəspərəstlər isə sizi ifrat yola çağırırlar.

5. Yol seçimində diqqətli olaq. Ayədə "yurid" sözü iki dəfə işlədilmişdir. Bunların biri Allahın, digəri isə həvəsbazların iradəsinə işarədir. Kimin iradəsinə tabe olmalıyıq?!

**28.** ﴿ يُرِيدُ اللّهُ أَن يُخَفِّفَ عَنكُمْ وَخُلِقَ الإِنسَانُ ضَعِيفًا ﴾

**"Allah sizi (izdivac qanunlarını asanlaşdırmaqla) yüngülləşdirmək istəyir. İnsan zəif yaradılmışdır."**

## *Nöqtələr*

◘Bu son üç ayədə izdivac məsələsində Allahın lütflərindən bir hissəsi nəql olunmuşdur. Allah sizin üçün hökmlər bəyan edir, yol göstərir, sizə lütfünü nazil edir, işlərinizi yüngülləşdirir. Bütün bunların səbəbi insanın nəfs istəkləri qarşısında zəifliyi, səbir və müqavimət gücünün az olmasıdır.

## *Bildirişlər*

1. İslam asan dindir və İslam yolunda çıxılmaz vəziyyət yoxdur.

2. Dini vəzifələr insanın gücünə uyğundur.

3. Evlənmədə çətinliklər yaratmaq Allahın istəklərinə ziddir.

4. İzdivac məsələlərində ilahi hökmlərlə tabeçiliyiniz yüngüllük və cəmiyyətin fitnə-fəsaddan uzaqlıq zəminəsidir.

5. İnsan cinsi istəklər qarşısında zəifdir.

6. Təbiət və insanın yaranışı ilə şəriət və ilahi hökmlər arasında uyğunluq vardır.

**29.** ﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَأْكُلُواْ أَمْوَالَكُمْ بَيْنَكُمْ بِالْبَاطِلِ إِلاَّ أَن تَكُونَ تِجَارَةً عَن تَرَاضٍ مِّنكُمْ وَلاَ تَقْتُلُواْ أَنفُسَكُمْ إِنَّ اللّهَ كَانَ بِكُمْ رَحِيمًا ﴾

**"Ey iman gətirənlər! Bir-birinizin mallarını öz aranızda nahaqdan yeməyin. Yalnız bir-birinizin razılığı ilə olan ticarət istisnadır. Özünüzü (bir-birinizi) öldürməyin. Həqiqətən, Allah sizə münasibətdə daim mehriban olmuşdur."**

## *Nöqtələr*

¤Qətlin qadağasının haram yeməyin qadağasından sonra gəlməsi buna işarə ola bilər ki, qeyri-sağlam iqtisadi sistem məhrumların zalımlar əleyhinə qiyamına, çaxnaşmalara, qətllərə və cəmiyyətin məhvinə səbəb olur.

¤İmam Sadiq (ə) bu ayəni oxuyarkən buyurmuşdur: "Bir şəxs qaytara bilməyəcəyini anladığı halda borc alırsa, batil mal yeyir."[1] İmam Baqir (ə) bu ayə haqqında buyurmuşdur: "Sələm, qumar, əskik satmaq və zülm batilin nümunələrindəndir."[2]

¤Həzrət Peyğəmbər (s) cana təhlükəli olduğu halda soyuq su ilə dəstəmaz, qüsl yerinə yetirməyi insanın özünü qətlə yetirməsi saymışdır.[3]

¤İmam Sadiq (ə) buyurmuşdur: "Əgər bir müsəlman təkbaşına kafir məntəqəsinə daxil olub öldürülərsə, sanki özünü öldürmüşdür."[4]

¤Məsum rəhbərləri qətlə yetirmək insanın özünü öldürməsi, cəmiyyəti fəlakətə aparması nümunələrindəndir. İmam Sadiq (ə) uyğun göstərişi açıqlayarkən belə buyurmuşdur: "Yəni öz peyğəmbərinizin Əhli-beytini (ə) öldürməyin."[5]

## *Bildirişlər*

1. Hər bir fərdin mülkiyyəti toxunulmazdır. Başqalarının mülkünə düzgün olmayan yolla, onun razılığı olmadan əl uzatmaq haramdır.
2. Cəmiyyətin vahid ruhu və müştərək taleyi var. Başqalarının mallarını öz malınız kimi möhtərəm sayın.
3. Haqqa əsaslanmayan istənilən bir sərf qadağandır.
4. Alış-veriş tərəflərin razılığı əsasında olmalıdır. Bu işdə məcburiyyətə yol yoxdur.
5. İnsanın canı möhtərəmdir. Ona görə də istər intihar, istərsə də başqasını qətlə yetirmək haramdır.
6. İslam hökmləri və göstərişləri ilahi rəhmət şöləsidir.

**30.** ﴿ وَمَن يَفْعَلْ ذَلِكَ عُدْوَانًا وَظُلْمًا فَسَوْفَ نُصْلِيهِ نَارًا وَكَانَ ذَلِكَ عَلَى اللّهِ يَسِيرًا ﴾

**"Hər kəs təcavüz və sitəm yolu ilə belə etsə (xalqın malına və canına əl uzatsa və ya intihar edib qan töksə), tezliklə onu oda daxil edərik. Bu iş Allah üçün asandır."**

[1] "Kafi", c. 5, səh. 95.
[2] "Təfsire-Nurus-səqəleyn".
[3] "Təfsire-Nurus-səqəleyn".
[4] "Təfsire-bürhan", c. 1, səh. 363.
[5] "Təfsire-Furat-Kufi", c. 101.

## *Nöqtələr*

◘Ədavət və zülm arasında fərq bu ola bilər ki, ədavət yalnız başqalarına yönəlir, zülm isə insanın özünə də aid ola bilir.

◘Ayədəki “nuslihi” sözü təcavüzkarın oda salınacağı mənasını bildirir.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Hər kəs bilərəkdən intihar etsə (özünü öldürsə), həmişəlik cəhənnəmdə qalar.” Sonra isə həzrət bu ayəni tilavət etmişdir.”[1]

## *Bildirişlər*

1. Bir işin səbəbi zülm və ədavət deyilsə, bu işə görə ilahi qəhr və qəzəb də yoxdur.
2. İnsanın məqsədi ona veriləcək mükafat və ya cəzada mühüm rol oynayır.

**31.** ﴿ إِن تَجْتَنِبُواْ كَبَآئِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُم مُّدْخَلاً كَرِيمًا ﴾

**“Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, kiçik günahlarınızı pərdələyər və sizi dəyərli bir yerə daxil edərik.”**

## *Nöqtələr*

◘Bu ayədən məlum olur ki, günahlar iki növdür: Səğirə və kəbirə (kiçik və böyük). “Kəhf” surəsinin 49-cu ayəsində oxuyuruq ki, günahkarlar qiyamətdə öz əməl namələrini görüb deyərlər: “Bu necə əməl naməsidir ki, heç bir kiçik və böyük günah ötürülməyib.”

◘İmam Kazimdən (ə) soruşurlar ki, bu ayədə Allah kəbirədən çəkinənlərin səğirə günahlarını bağışlayacağını vəd etmişsə, bəs şəfaət nə üçündür? İmam (ə) buyurmuşdur: “Şəfaət ümmətin kəbirə günah edənləri üçündür.”[2]

◘Rəvayətlərə əsasən, hansı günah müqabilində Allah od vəd etmişsə, həmin günah kəbirə günahdır.[3] Qətl, intihar və ya başqalarının malına təcavüz müqabilində od vədinin səbəbi əvvəlki ayədə kəbirə günah nümunələrinin sadalanması ola bilər.

◘Rəvayətlərdə kəbirə günahların sayı müxtəlif şəkillərdə göstərilmişdir. Çünki kəbirə günahların da dərəcələri vardır. Onlardan bəziləri “əkbərul-kəbair” adlandırılmışdır.

---

[1] “Mən la yəhzur”, c. 3, səh. 364.
[2] “Tövhidi-Səduq, səh. 407.
[3] “Kafi”, c. 2, səh. 276.

## *Bildirişlər*

1. Düşüncə və əməl üsulu düzgün olanların kiçik xətaları bağışlanmalıdır.
2. Böyük günahları tərk edənlərin mükafatı odur ki, Allah onların kiçik günahlarını bağışlayır.
3. Kəbirə və səğirə günahlardan təmizlənməmiş behiştə getməyəcəyik.

**32.** ﴿وَلاَ تَتَمَنَّوْاْ مَا فَضَّلَ اللّهُ بِهِ بَعْضَكُمْ عَلَى بَعْضٍ لِّلرِّجَالِ نَصِيبٌ مِّمَّا اكْتَسَبُواْ وَلِلنِّسَاء نَصِيبٌ مِّمَّا اكْتَسَبْنَ وَاسْأَلُواْ اللّهَ مِن فَضْلِهِ إِنَّ اللّهَ كَانَ بِكُلِّ شَيْءٍ عَلِيمًا﴾

**"Allahın birinizin o birinizdən üstünlük səbəbi qərar verdiyini arzulamayın. Kişilər üçün əldə etdiklərindən bir bəhrə var. Qadınlar üçün də kəsb etdiklərinin (qazandıqlarının) bir bəhrəsi var. (Arzu və həsəd əvəzində) Allahın fəzlindən istəyin. Allah hər şeyi biləndir."**

## *Nöqtələr*

◘Əvvəlki ayələrdə haram yemək qadağan olundu. Bu ayədə isə haram yeməyin köklərinə işarə olunur. Bildirilmişdir ki, bunun səbəbi tamah, arzu və rəqabətdir.

◘Ədalət bərabərlik demək deyil. Ədalət daim dəyərlidir. Bərabərlik isə bəzən dəyərsiz də ola bilər. Hətta bərabərlikdə zülm də müşahidə olunur. Məsələn, həkim bütün xəstələrə eyni dərman verərsə, müəllim bütün şagirdlərə eyni qiymət yazarsa, bu iş bərabərlik olsa da, ədalət olmaz. Ədalət odur ki, hər bir kəsə onun haqqını verək. İnsanın ləyaqət və kamalına görə onu dəyərləndirmək haqqın bərpası, batilin süqutudur. "Təbiz" heç bir əsas olmadan fərqləndirməkdir. Adi halda isə hansısa meyarlara əsasən fərqləndirməyin heç bir eybi yoxdur. Bütün deyilənləri nəzərə alsaq, bərabərlik yox, ədalət arzusunda olmalıyıq. Hamının və hər şeyin eyniliyini arzulamaq yersizir. Bir əzanın üzvləri, bir mexanizmin hissələri forma, material və funksiya baxımından fərqlənə bilər. Amma bütün bu fərqlərdə bir hikmət var. Əgər Allah hər şeyi eyni şəkildə yaratmayıbsa bu onun hikmətini göstərir. Ona görə də bizdən asılı olmayan xüsusiyyətlərə görə, məsələn, gözəlliyə, istedada, nitqə, yaddaşa, ömrün uzunluğuna görə və bütün bunların bölgüsünə şükür edib Allahın təqdirindən razı olmalıyıq. Əgər Allahı ədalətli və hikmət sahibi kimi tanıyırıqsa, anlamadığımız işlərdə tələsik mühakimə yürütməməliyik. Hansısa bir bölgünün hikmətini anlamadığımız üçün hikmət sahibi olan Allaha sui-zənn etməməliyik. Əgər hansısa xüsusiyyətlərinə görə bir insan bizdən üstündürsə, ona həsəd aparmağa dəyməz. Çünki kimə çox verilmişsə, çox da tələb olunacaq. Yəni çox nemət çox məsuliyyət deməkdir. Neməti əldə etməyin

sevinci ilə onu itirməyin qəmi arasında elə də böyük fasilə olmur. Bu məsələ "Nəhcül-bəlağə" də yetərincə işıqlandırılmışdır.

Əgər öz əlimizdədirsə çalışmalı, səy göstərməli, tənbəllikdən çəkinməli və sağlam rəqabətlə güc və müstəqillik əldə etməliyik. Amma məhrumiyyəti aradan qaldırmaq öz əlimizdə olmadıqda yaranmış fərqləri cəmiyyətin inkişaf, imtahan və təhrik amili saymalıyıq. Çünki bütün xalq eyni imkanlara malik olsaydı, səxavət, şücaət, isar kimi səciyyələr istifadəsiz qalardı. İnsanın xarakteri eniş-yoxuşlarda açılır. İnsanı başqaları ilə bağlılığa sövq edən onun ehtiyaclarıdır.

◘İmam Sadiqdən (ə) bu ayə haqqında soruşulduqda buyurmuşdur: "Kimsə başqasının zövcə və övladına göz dikməsin. Amma Allahdan onlar kimisini istəsin."[1]

◘Bu ayə nazil olduğu vaxt səhabələr peyğəmbərdən soruşmaq istədilər ki: "Allahın fəzlindən istəyin" təbirində məqsəd nədir?" Belə bir qərara gəlindi ki, Həzrət Əli (ə) bu mövzunu həzrət Peyğəmbərə (s) açıqlasın. Peyğəmbər (s) uyğun sualın cavabında buyurdu: "Allah ruziləri xalq arasında halal yolla bölmüşdür. Haram da onların qarşısındadır. Kim haram ruzidən əldə etsə, halal ruzisindən həmin qədər azalar və harama görə hesaba çəkilər."[2]

## *Bildirişlər*

1. Allahın verdiklərinə razı olaq. Həsəd göstərib başqalarından üstün olmaq istəməyək.
2. İslamda iqtisadi və əxlaqi məsələlər bir-birlərindən təcrid olunmuş şəkildə deyil.
3. Zalımların, istismarçıların yaratdıqları fərqlər Allahın qərar verdiyi fərqlərdən köklü şəkildə ayrıdır.
4. Yaranış və xarakter baxımından qadın və kişi arasındakı fərqlər Allahın Öz yaratdıqlarına üstünlük verməsi nümunələrindəndir.
5. Həm qadın, həm də kişi öz nailiyyətlərinə bərabər şəkildə malikdirlər.
6. Başqalarında olanı təmənna etmək əvəzinə, səy və təlaş göstərək.
7. İnsan öz qazancının yalnız bir hissəsinə sahibdir. Onun qazancının digər bir hissəsi fəqirlərin və İslam hökumətinin payıdır.
8. Həm iş lazımdır, həm də dua.
9. Başqalarının əlində olana göz dikmək əvəzinə, Allahın fəzl və lütfünə göz dikmək lazımdır.
10. Meyllərimizi düzgün istiqamətə yönəldək. İnsanda arzu var. Amma bu arzunun yönünü Allahdan nemət diləməyə istiqamətləndirək. Başqalarından nemətlərin alınması istəyində olmayaq.
11. Allahın Öz bəndəsinə bir şeyi verməsi və ya ondan bir şeyi alması hikmət və agahlıq əsasında baş verir. (Allahın elminə iman insanın tamahının və başqalarının əlində olana göz dikməsinin qarşısını alır.)

[1] "Vəsail", c. 12, səh. 241.
[2] "Təfsire-Əyyaşi", c. 1, səh. 215.

33. ﴿ وَلِكُلٍّ جَعَلْنَا مَوَالِيَ مِمَّا تَرَكَ الْوَالِدَانِ وَالأَقْرَبُونَ وَالَّذِينَ عَقَدَتْ أَيْمَانُكُمْ
فَآتُوهُمْ نَصِيبَهُمْ إِنَّ اللّهَ كَانَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدًا ﴾

**“Ata-ana, qohumlar və peyman bağladığınız kəslərdən qalan şeylərin hər biri üçün varislər qərar vermişik. Onların payını ödəyin. Çünki Allah hər şeyə şahiddir.”**

## *Nöqtələr*

◘“Movla” sözünün cəm forması olan “məvali” sözünün müxtəlif mənaları vardır. Amma burada “məvali” deyərkən varislər nəzərdə tutulmuşdur.

◘“Əqədət əymanukum” təbiri İslamdan qabaq iki nəfər arasında bağlanmış peymana işarədir. İslam azacıq dəyişikliklə onu qəbul etdi və bu, fiqhi kitablarda öz əksini tapdı. Qərarın mətni belə olub ki, iki nəfər həyatda bir-birlərinə yardım edəcəklərini, zərərlərinin ödənməsində bir-birlərinə yardımçı olacaqlarını və bir-birlərindən irs aparacaqlarını əhd ediblər. Bugünkü sığorta həmin dövrdəki qərarın oxşarıdır. Əgər peyman bağlanmış şəxslərdən birinə zərər dəyərdisə, onun yoldaşı dəymiş zərərin ödənməsində yardımçı olardı. İslam bu peymanı qəbul etdi. Amma irs məsələsində həmin şəxsin varisinin olmaması şərt qoyuldu.

◘İmam Riza (ə) “vəlləzinə əqədət əymanukum” cümləsi haqqında buyurmuşdur: “Məqsəd xalqın ilahi və məsum rəhbərlə bağladığı peymandır.”[1]

## *Bildirişlər*

1. İrsin qədəri Allah hökmü ilə təyin olunur.
2. Ən yaxın qohumlar irsdən pay almaqda üstünlüyə malikdirlər.
3. Mülkiyyət haqqına malik olan insan peyman və qərar vasitəsi ilə öz işini başqasına tapşıra bilər.
4. İnsanın öz həyatı dövründəki əhdləri onun ölümündən sonra da möhtərəmdir.
5. Əhd-peymana vəfa vacibdir.
6. Borclular öz borclarını ödəmək üçün tələbkarların (borc sahiblərinin) sorağına getməlidirlər.

[1] “Vəsail”, c. 12, səh. 241.

7. Allahın hazır olmasına iman təqva rəmzi və əhdini pozanlara bir xəbərdarlıqdır.

34. ﴿الرِّجَالُ قَوَّامُونَ عَلَى النِّسَاء بِمَا فَضَّلَ اللّهُ بَعْضَهُمْ عَلَى بَعْضٍ وَبِمَا أَنفَقُواْ
مِنْ أَمْوَالِهِمْ فَالصَّالِحَاتُ قَانِتَاتٌ حَافِظَاتٌ لِّلْغَيْبِ بِمَا حَفِظَ اللّهُ وَاللاَّتِي تَخَافُونَ
نُشُوزَهُنَّ فَعِظُوهُنَّ وَاهْجُرُوهُنَّ فِي الْمَضَاجِعِ وَاضْرِبُوهُنَّ فَإِنْ أَطَعْنَكُمْ فَلاَ تَبْغُواْ
عَلَيْهِنَّ سَبِيلاً إِنَّ اللّهَ كَانَ عَلِيًّا كَبِيرًا﴾

**“Allah onlardan bəzilərini (kişiləri) bəzilərindən (qadınlardan) üstün etdiyindən və öz mallarından nəfəqə etdikləri üçün kişilərin qadınlar üzərində vilayəti, ixtiyarı vardır. Layiqli qadınlar Allaha mütidirlər, Allahın hifz etdiyini qoruyandırlar, gizlində olanı (ərin hüquq və sirlərini) qoruyandırlar. Amma itaətsizliyindən qorxduğunuz qadınları (əvvəlcə) moizə edin, (əgər təsir etməsə) yataqda onlardan uzaq olun, (əgər öyüd-nəsihət də təsir etməsə) onları vurun (tənbeh edin), sizə itaət etsələr bəhanə axtarmayın. Həqiqətən, Allah böyükdür və uca mərtəbə sahibidir.”**

## *Nöqtələr*

◘Öhdəsində bir başqasının islahı vəzifəsi olan kəsə “qəvvam” deyirlər.

◘“Nüşuz” uca yerə deyilir. Həddi aşmaq, yuxarıdan getmək də nüşuz adlandırılır.

Həyatın təmini və idarə edilməsi ləyaqəti himayə və müdiriyyət şərtidir. Bu baxımdan kişilər nəinki ailə həyatında, hətta ictimai işlərdə, mühakimədə və döyüşdə də qadından irəlidirlər. Cütlük məsələsi ailə həyatına aiddir. Allah uyğun üstünlüyü evə məxsus etməmişdir.

◘Bəzi qadınlar fiziki güc və qazanc baxımından kişidən üstün olsalar da, qanun və proqramda nadir hallar yox, əksər ümumi hallar nəzərdə tutulmalıdır.

◘“Hafizatun lilğəybi bima həfizəllah” cümləsi müxtəlif şəkillərdə mənalandırılmışdır:

a) Qadınlar. hifzini Allah istəyən şeyləri hifz edirlər.

b) Qadınlar ərlərinin hüquqlarını hifz edirlər. Necə ki, Allah kişilərə müəyyən vəzifələr təyin etməklə qadınların haqqını hifz etmişdir.

v) Qadınlar hifz edəndirlər, amma bu tövfiq onlara ilahi hifzdəndir.

◘Mülayim tədbirlər nəticə vermədikdə, ya vəzifədən əl çəkmək, ya da nəsihət təsir etmədikdə sərtlik göstərmək lazım gəlir. Psixoloqların fikrincə, bəzi insanlarda “mazoxizm” (əziyyət istəyi) səciyyəsi var. Cüzi fiziki tənbeh sanki onlar üçün məlhəmdir. İslam fiziki cəza verilməsini tövsiyə edərkən bildirir ki, tənbeh zamanı bədən göyərməməli, yaralanmamalıdır. Bundan əlavə, qadın ər tərəfindən tənbeh olunursa, kişilər nəzərdə tutulmuş hallarda qazi tərəfindən tənbeh olunur.

▫Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Sizin kötəyinizin qadın cismində əsəri qalmamalıdır... [1]

▫İmam Sadiq (ə) buyurmuşdur: "Ərlə yaxınlıqdan imtina qadın üçün itaətsizlik sayılır. «Vurmaq» dedikdə diş fırçası və ona oxşar şeylərlə vurmaq nəzərdə tutulur."[2]

## *Bildirişlər*

1. İki nəfərlik bir cəmiyyətdə də biri məsul, rəhbər olmalıdır. Ailənin müdiri kişidir.
2. Ailə işlərinin idarəsində ağıl və tədbir hiss və məhəbbətə hakim olmalıdır.
3. İslam dininin hüquq nizamı yaranış nizamı ilə həmahəngdir. Kişinin müdriyyət haqqı onun fiziki və ruhi möhkəmliyinə əsaslanır.
4. Təbii üstünlüklər ilahi fəzldir.
5. Ailənin xərcləri kişinin öhdəsinədir.
6. Qanun hazırlayan kəs qadın və kişi arasındakı təbii fərqləri nəzərə almalıdır.
7. Ərə itaət və təvazö qadının ləyaqət nişanəsidir.
8. Layiqli zövcənin əlaməti onun özünü əri olmayan yerdə hifz etməsidir.
9. Qadının ərə itaəti və ərin haqqını hifz etməsi onun ailə ehtiyaclarının kişi tərəfindən təmin olunmasından asılıdır.
10. Hadisə baş verməmiş çarə tapılmalıdır. Qadın itaətdən çıxmamış tədbir görün.
11. İtaətçil zövcəyə əziyyət vermək olmaz.
12. Qadına nəsihət, onun yatağının tərk olunması və tənbehi qadını itaətə gətirmək üçün müəyyən olunmuş yollardır. Qadın digər bir yolla itaət edirsə, kişinin ona qarşı çıxmaq haqqı yoxdur. Ayədən aşkar görünür ki, başqa bir yolla olmuş olsa, əsas məsələ itaətdir.
13. Qadının təvazökarlığı onun zəifliyi yox, dəyərli olma əlamətidir.
14. Sirr saxlamaq, mal, abır və namusun hifzi layiqli zövcənin nişanələrindəndir. Layiqli qadın ər olmayan yerdə də özünü qoruyur.
15. Pis işlə addım-addım, mərhələ-mərhələ mübarizə aparılmalıdır, əvvəlcə moizə, sonra arxa çevirmə, daha sonra isə tənbeh.
16. Moizə təsir edən yerdə sərtlik qadağandır. Əgər ər öz arvadından kənarlaşmaqla onu itaətə gətirə bilirsə, tənbeh qadağan olur.
17. Sərt rəftar və tənbeh intiqam almaq üçün yox, vəzifəni yerinə yetirmək üçündür.
18. Kişinin qadından üstünlüyü onu qürrələndirməməlidir. Çünki Allah ən üstün varlıqdır.
19. Allahın üstünlüyünə diqqət təqva və zövcəyə qarşı zülmdən çəkinmək səbəbidir.

---
[1] "Təfsire-Təbəri", c. 5, səh. 68.; "Təfsire-Dürrül-Mənsur", c. 2, s.522.
[2] "Mən la yəhzuruhun-fəqih", c. 3, səh. 521.

35. ﴿ وَإِنْ خِفْتُمْ شِقَاقَ بَيْنِهِمَا فَابْعَثُواْ حَكَمًا مِّنْ أَهْلِهِ وَحَكَمًا مِّنْ أَهْلِهَا إِن يُرِيدَا إِصْلاَحًا يُوَفِّقِ اللّهُ بَيْنَهُمَا إِنَّ اللّهَ كَانَ عَلِيمًا خَبِيرًا ﴾

**“Əgər onların (ərlə arvadın) ikisi arasında ayrılıqdan qorxsanız, ər ailəsindən bir, arvad ailəsindən bir hakim seçin (bu yolla ixtilaf öz həllini tapsın). Həmin iki nəfər islah fikrində olsalar, Allah o iki nəfər arasında razılıq yaradar. Çünki Allah (hamının niyyətindən) xəbərdar və agahdır.”**

## *Nöqtələr*

◘Bu ayə ərlə arvad arasındakı ixtilafı aradan qaldırmaq, boşanmanın qarşısını almaq üçün aşağıdakı imtiyazlara malik olan ailə məhkəməsi təyin edir:

1. Hakimlər hər iki ailədən olmalıdır ki, bu işə daha çox can yandırıb, xeyirxahlıq göstərsinlər.
2. Bu məhkəmənin büdcəyə ehtiyacı yoxdur.
3. Bu məhkəmədə ixtilafların həlli sürətlə, heç bir sənəd hazırlanmadan, idarə süründürməçiliyi olmadan həll olunur.
4. Bu məhkəmədəki söhbətlər biganələrə çatmır. Əxlaqi məsələlər tərəflərin öz arasında qalır.
5. Hakimlər qohumlar olduğundan onlara etimad göstərilir.

◘İstənilən bir problemin həlli üçün hakim seçmək olar. İmam Baqir (ə) Həzrət Əlinin (ə) Siffeyndə həkəmiyyəti qəbul etməsinə qarşı çıxanlara bu ayəni tilavət etmişdir.[1]

◘İmam Sadiqdən (ə) “hakimlər seçin” ifadəsi haqqında soruşulduqda həzrət buyurdu: “Bu hakimlər qarşı tərəflərdən icazə almamış boşanma hökmü verə bilməzlər.”[2]

## *Bildirişlər*

1. İş baş verməmiş çarə görmək lazımdır. Hakimlər seçiminə başlamaq üçün ayrılıqla bağlı nigaranlıq kifayətdir.
2. Nə qədər ki, ayrılıq qorxusu yoxdur, başqalarının ailə həyatına müdaxilə etməyək.
3. Boşanmaya xatir qorxmağa və nigarançılığa dəyər.
4. Ərlə arvad iki bədəndə bir ruhdur. Ayədəki “şiqaq” sözü bir həqiqət ikiyə parçalandıqda işlədilir.
5. Ərlə arvadın münasibətlərini islah etmək üçün dərhal addım atmaq lazımdır. “Fəbəsu” (“seçin”) sözünün əvvəlindəki “fa” hərfi sürət əlamətidir.
6. Cəmiyyət ailə ixtilaflarına görə məsuliyyət daşıyır.
7. Ailə ixtilaflarının həllində yaxınların daha çox məsuliyyəti var.
8. Hakim seçimində qadın və kişi eyni haqqa malikdir.

---

[1] “Təfsire-Nurus-səqələyn”; “Ehticace-Təbərsi”, c. 2, səh. 58.
[2] “Kafi”, c. 6, səh. 146.

9. Cəmiyyətdə kiməsə etimad göstərib onların hakimliyini qəbul etməliyik.

10. Xalqın problemlərini xalqın köməyi ilə həll edək.

11. Küsənləri barışdırmaqda ümidsiz və biganə olmayaq.

12. Nə qədər ki, nigaranlıq yoxdur, hay-küy qaldırmayaq. Hərə üçün bir hakim kifayətdir.

13. İslam şura və ağsaqqallıq kimi məsələlərə diqqətlidir.

14. Hər məsələdən ötrü qaziyə müraciət etməyin, özünüz öz aranızda həll yolu tapmağa çalışın.

15. Harada haqq və hüquqdan söhbət gedirsə, qarşı tərəflər orada olmalıdırlar.

16. Ərlə arvad seçilmiş adamların hakimliyini qəbul etməlidir. Hakimə itaət onun seçim şərtidir.

17. Hakim seçərkən onların agahlığına, sirr saxlamasına, islahçıllığına diqqət yetirmək lazımdır.

18. Xoş niyyət və islah arzusu olan yerdə ilahi tövfiq köməyə gəlir.

19. Qəlblər Allahın əlindədir.

20. Öz ağıl və tədbirinizlə qürrələnməyin. Allahdan tövfiq istəyin.

21. Ailə islahında Quranın göstərişləri ilahi elm və hikmətə əsaslanır.

22. Xoş niyyətdə olmaq lazımdır. Çünki Allah bütün niyyətlərdən xəbərdardır.

36. ﴿وَاعْبُدُواْ اللّهَ وَلاَ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَبِذِي الْقُرْبَى وَالْيَتَامَى
وَالْمَسَاكِينِ وَالْجَارِ ذِي الْقُرْبَى وَالْجَارِ الْجُنُبِ وَالصَّاحِبِ بِالجَنبِ وَابْنِ السَّبِيلِ وَمَا
مَلَكَتْ أَيْمَانُكُمْ إِنَّ اللّهَ لاَ يُحِبُّ مَن كَانَ مُخْتَالاً فَخُورًا﴾

**“Allaha pərəstiş edin və heç nəyi Ona şərik qoşmayın. Ata-anaya yaxşılıq edin. Yaxınlara, yetimlərə, çarəsizlərə, yaxın qonşulara, uzaq qonşulara, dost-yoldaşa, yolda qalanlara, əli aşağı olanlara, qullarınıza da (yaxşılıq edin.) Həqiqətən, Allah təkəbbürlü və lovğa olanı sevmir.”**

## *Nöqtələr*

◘Bu ayə ilahi haqlardan başlamış qul haqlarınadək olan məsələləri bəyan edir. Bu, İslamın ümumilik və hərtərəflilik nişanəsidir.

◘«Yaxın və uzaq qonşular» dedikdə, qohum və ya qohum olmayan, eləcə də, həməqidə və həməqidə olmayan qonşular nəzərdə tutulur. Rəvayətlərin bildirdiyinə görə, hər tərəfdən 40 evədək qonşu sayılır.[1] Belə çıxır ki, kiçik bir məntəqədə hamı qonşudur.

◘Ayədəki “əssahibi bil-cənb” ifadəsi daimi və müvəqqəti rəfiqlərə, yol yoldaşlarına, xeyir ümidi ilə insana yaxınlaşanlara aiddir.

---

[1] “Vəsail”, c. 12, səh. 131.

◘“İbnis-səbil” (yol oğlu) deyərkən elə bir insan nəzərdə tutula bilər ki, vətənində imkanlı olsun, amma biz onu və yaxınlarını tanımayaq, yalnız bunu bilək ki, səfər zamanı yolda qalmışdır. O, bir yol oğludur ki, himayə olunmalıdır.

◘“Muxtal” xəyal aləmində özünü böyük düşünüb, lovğalanan kəsə deyilir. At öz yolunu təkəbbürlə getdiyindən bəzən ona da “xəyl” demişlər.

◘«Ata-anaya ehsan dedikdə» onlara məhəbbət, xidmət, maddi, elmi və mənəvi kömək, onlarla məşvərət nəzərdə tutulur.

◘Valideynə ehsanda onların yaxşı-pis olması şərt deyil. Valideynə ehsan başqa bir məsələdir, itaət başqa bir məsələ. Valideyn öz övladını Allah rizasına zidd bir işə dəvət etdikdə ona itaət göstərilməməlidir.

◘İmam Hüseyn (ə) buyurmuşdur: “Peyğəmbər (s) və Əli (ə) bu ümmətin atalarıdır.” Sonra Həzrət Qurandan həmin bu ayəni oxumuşdur.[1]

## *Bildirişlər*

1. Allaha təkcə ibadət etmək bəs deyil. Hər cür şirk və riyadan da uzaq olmaq lazımdır.
2. Ata-anaya yaxşılıq Allaha bəndəlik və tövhid sayəsində olmalıdır.
3. Həqiqi allahpərəst öz yaxınlarına, məhrumlara, qonşulara vəfalı və məsul olmalıdır.
4. Uzaq qonşuların da insanın öhdəsində haqları vardır.
5. Ehsan edərkən bu məsələdə üstünlükləri nəzərə alın. Valideyn qohumlardan, qohumlar isə yetimlərdən öndə gəlir.
6. Valideynə, qohumlara, yetimlərə, məhrumlara diqqətsizlik təkəbbür və lovğalıq nişanəsidir.
7. İnsan təvazökarlıqla ehsan etməlidir. Ayənin əvvəlində ehsan etmək tapşırılırsa, sonunda təkəbbür qadağan edilir.

37. ﴿ الَّذِينَ يَبْخَلُونَ وَيَأْمُرُونَ النَّاسَ بِالْبُخْلِ وَيَكْتُمُونَ مَا آتَاهُمُ اللّهُ مِن فَضْلِهِ
وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَابًا مُّهِينًا ﴾

**“(Özünü üstün tutan təkəbbürlülər) o kəslərdir ki, həm özləri xəsislik edir, həm də xalqı xəsisliyə çağırırlar. Onlar Allahın Öz fəzlindən bağışladığını gizlədirlər. Biz nemətə küfr edənlər üçün zəliledici əzab hazırlamışıq.”**

## *Nöqtələr*

◘Xəsislik təkcə mal-pulu qıymayıb saxlamaq deyil. Xəsislik həm də elmə, şəxsiyyətə, qüdrətə, imkanlara aiddir.

[1] “Təfsire-Əyyaşi”, c. 1, səh. 241.

## *Bildirişlər*

1. İnsanın ruhi xəstəlikləri güclənə bilər. Xəsis, xəstə adamlar başqalarının da xəsis olmasını istəyirlər.
2. Xəsis insan Allahın məhəbbətindən məhrumdur.
3. Xəssislik təkəbbür və lovğalıq nişanələrindəndir.
4. İlahi nemətləri bağışlamaq şükrün, onları gizləmək isə naşükürlüyün bir növüdür.
5. Xəsis insan ehsan etməmək üçün özünü fəqir göstərir.
6. Nemətlər yalnız öz səy və tədbirlərimizin nəticəsi yox, həm də Allahın fəzlidir.
7. Əgər Allahı nemət sahibi kimi tanısaq və bütün nemətlərin Ona məxsus olduğunu bilsək, xəsislik etmərik.
8. Xəsislik bəzən küfr üçün də zəmin yarada bilər. [1]
9. Dünyada təkəbbürlü olmağın cəzası axirətdə zillətdir.

**38.** ﴿ وَالَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمْ رِئَاء النَّاسِ وَلاَ يُؤْمِنُونَ بِاللّهِ وَلاَ بِالْيَوْمِ الآخِرِ وَمَن يَكُنِ الشَّيْطَانُ لَهُ قَرِينًا فَسَاء قِرِينًا ﴾

**"(Özünü üstün tutan təkəbbürlülər) o kəslərdir ki, mallarını riya və özlərini xalqa göstərmək üçün infaq edirlər. Onlar Allaha və qiyamət gününə inanmırlar. Hər kəsin həmdəmi şeytan olsa, necə də pis həmdəmdir!"**

## *Nöqtələr*

◘Şeytan bəzən insana uzaqdan nə isə təlqin edir, bəzən isə yaxından həmdəm olur. Möminlər şeytanın vəsvəsə və təlqinlərindən qaçırlar. "Zuxruf" surəsinin 36-cı ayəsində oxuyuruq: "Allah zikrindən üz döndərənə bir şeytan göndərərik ki, onun daimi yoldaşı olsun."

## *Bildirişlər*

1. Həm xəsislik və infaqın tərki pisdir, həm riyakarlıqla edilən infaq. Əvvəlki ayədə xəsislik məzəmmət edildi. Bu ayədə isə riyakarcasına verilən bəxşişlər qınanır.
2. Allah və Qiyamətə gerçək imanın olmaması riya səbəbidir.
3. İnfaq etməkdə məqsəd təkcə acları doyurmaq deyil. Çünki riyakarcasına edilən infaq da acları doyurur. İnfaqda bir məqsəd də infaq edəni mənəvi cəhətdən yetkinləşdirməkdir.
4. Allah riyakarları sevmir.
5. Allah eşqi olmayan qəlb şeytanın həmişəlik yeridir.

[1] "Fussilət", 7.

39. ﴿ وَمَاذَا عَلَيْهِمْ لَوْ آمَنُواْ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَأَنفَقُواْ مِمَّا رَزَقَهُمُ اللّهُ وَكَانَ اللّهُ بِهِم عَلِيمًا ﴾

**“Əgər Allaha və qiyamət gününə iman gətirsəydilər və Allahın onlara verdiyi ruzidən infaq etsəydilər, onlara nə olardı?! Allah onların niyyətini biləndir.”**

## *Bildirişlər*

1. Azğınların vəziyyətinə təəssüf edilməsi onlara xəbərdarlıq və təbliğ yollarından biridir.
2. Allaha iman şərtlərindən biri məhrumlara infaq etməkdir.
3. İnfaq təkcə mal-pula aid deyil. Elm, məqam, güc kimi Allahın verdiyi bütün nemətlərdən infaq etmək bəyənilmişdir.
4. Əgər bütün nemətlərin Allah tərəfindən verildiyinə inansaq, infaq ruhiyyəmiz güclənər.
5. Xəsis və riyakar insanlar bilsinlər ki, Allahın nəzəri altındadırlar.

40. ﴿ إِنَّ اللّهَ لاَ يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ وَإِن تَكُ حَسَنَةً يُضَاعِفْهَا وَيُؤْتِ مِن لَّدُنْهُ أَجْرًا عَظِيمًا ﴾

**“Həqiqətən, Allah zərrə qədərincə də sitəm etməz. Yaxşı iş olsa, onu ikiqat artırar. Öz tərəfindən də böyük mükafat əta edər.”**

## *Nöqtələr*

◘Adətən, zülmün kökü ya cəhalət, ya qorxu, ya ehtiyat, ya da hərislik olur. Amma Allah ehtiyacsız, bilən və pakdır, bu səbəbdən də zülm etmir. Bundan əlavə, Allah-təala Özü ədalət və ehsana çağırmışdır. Necə olar ki, Allah mərhəmətə çağırdığı halda Özü zülm etmiş olsun?! Allahın mükafatı isə görülən xeyir işdən neçə qat artıqdır. Bu mükafat on qatdan yeddi yüz qatadək artıq ola bilər. Bu isə Allahın ehsan və lütfüdür.

## *Bildirişlər*

1. Allah ədalətlidir. Onun cəzalarını doğuran bizim öz əməllərimizdir.
2. Allah günaha münasib cəza verirsə, yaxşı işin mükafatını qat-qat artıq əta edir.
3. Allah mükafatı artırmaqla yanaşı Öz tərəfindən də böyük bir əcr verir.

41. ﴿ فَكَيْفَ إِذَا جِئْنَا مِن كُلِّ أمَّةٍ بِشَهِيدٍ وَجِئْنَا بِكَ عَلَى هَؤُلاء شَهِيدًا ﴾

**“Bəs necə olacaq o zaman ki, hər bir ümmətdən şahid gətirərik və səni də onlara şahid edərik?!”**

## *Nöqtələr*

◘Həzrət Peyğəmbərin (s) ümmətə şahid olmasını bəyan edən bu ayənin məzmununa başqa yerlərdə də təsadüf olunur.[1]

◘İbn Məsud bu ayəni həzrət Peyğəmbər (s) üçün tilavət edərkən həzrətin gözlərindən yaş axdı.[2]

◘Allahın şahidə ehtiyacı olmasa da, şahdlərin çoxluğu insanın tərbiyə və təqvasına təsir göstərir. Mavi ekranda çıxış edən insan milyonlarla tamaşaçının qarşısında olduğundan, əgər asqırsa və ya bir səhvə yol versə, adi vaxtlardakından daha çox xəcalət çəkir.

◘Quran ayələrinə əsasən, qiyamətdə şahidlər çoxdur: Allah,[3] peyğəmbərlər,[4] məsum imamlar,[5] mələklər,[6] yer,[7] zaman,[8] bədən üzvləri.[9] Bəli, qiyamət şahidlərin sıralandığı bir gündür.[10]

◘Allahın qanunu budur ki, hər bir peyğəmbər öz ümmətinə şahid olsun. Demək, İslam peyğəmbərinin vəfatından sonra da aramızda olan bir şəxs bizə şahid durmalıdır. İmam Sadiq (ə) buyurmuşdur: "Hər bir əsrdə (dövrdə) biz Əhli-beytdən (ə) olan imam xalqa şahiddir. Peyğəmbər isə bizə şahiddir."[11]

◘Həzrət Əli (ə) bu ayəni oxuduqdan sonra həmin zümrə haqqında məlumat vermişdir.[12]

## *Bildirişlər*

1. Peyğəmbərlər dünyada xalq üçün nümunə, axirətdə isə şahiddirlər.
2. Şahid durmaq üçün xəbərdarlıq lazımdır. Peyğəmbərlər bizim işlərimizdən xəbərdardırlar.
3. İslam peyğəmbəri peyğəmbərlərin şərəflisidir. Əgər başqa peyğəmbərlər öz ümmətlərinin əməllərindən xəbərdardırlarsa, İslam peyğəmbəri peyğəmbərlərin də əməllərinə şahiddir.

---

[1] "Bəqərə, 143; "Nəhl", 89; "Həcc", son ayə.
[2] "Təfsire-Kəbire-Fəxr Razi"; "Təfsire-Mərağî"; "Səhih Buxari", Tirmizi, Nəsaidən nəql olunmuşdur.
[3] "Həcc", 17.
[4] "Nisa", 41.
[5] "Bəqərə", 143.
[6] "Qaf", 21.
[7] "Zəlzələ", 4.
[8] "Təfsire-Nurus-səqəleyn", c. 5, səh. 112.
[9] "Nur", 24.
[10] "Qafir", 51.
[11] "Nurus-səqəleyn", c. 1, səh. 399.
[12] "Təfsire-bürhan", c. 1, səh. 380; "Təfsire-Əyyaşi", c. 1, səh. 242.

42. ﴿ يَوْمَئِذٍ يَوَدُّ الَّذِينَ كَفَرُواْ وَعَصَوُاْ الرَّسُولَ لَوْ تُسَوَّى بِهِمُ الأَرْضُ وَلاَ يَكْتُمُونَ اللّهَ حَدِيثًا ﴾

**"Belə bir gündə küfrə batıb, peyğəmbərə itaətsizlik göstərən kəslər torpaqla bir olmağı arzu edərlər. Onlar Allahdan heç bir söz gizləyə bilməzlər."**

## *Nöqtələr*

¤Günahkar kafirlər şahidlər gətirilməmişdən öz günahlarını və fəsadlarını inkar edərlər. Onlar etdikləri işləri boyunlarından atıb deyərlər: «And olsun Allaha biz müşrik deyildik.»[1] Amma elə ki, şahidlər həqiqəti söyləyərlər, artıq qaçmağa yer qalmaz.

¤Quran ayələrində günahkarların həsrət dolu arzuları belə bəyan olunur: Kaş torpaq olaydım. Kaş torpağa qatılaydım. Kaş filankəslə dost olmayaydım. Kaş dünyada düşüncə sahiblərindən olaydım. Kaş həmin ölümlə yox olmuş olaydım...

## *Bildirişlər*

1. Peyğəmbər göstərişlərinə itaətsizlik Allaha küfr cərgəsində dayanır.
2. Qiyamət günü həsrət və arzu günüdür.
3. Qiyamət günü heç bir söz və mətləb gizli qalmaz.

43. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقْرَبُواْ الصَّلاَةَ وَأَنتُمْ سُكَارَى حَتَّىَ تَعْلَمُواْ مَا تَقُولُونَ وَلاَ جُنُبًا إِلاَّ عَابِرِي سَبِيلٍ حَتَّىَ تَغْتَسِلُواْ وَإِن كُنتُم مَّرْضَى أَوْ عَلَى سَفَرٍ أَوْ جَاء أَحَدٌ مِّنكُم مِّن الْغَآئِطِ أَوْ لاَمَسْتُمُ النِّسَاء فَلَمْ تَجِدُواْ مَاء فَتَيَمَّمُواْ صَعِيدًا طَيِّبًا فَامْسَحُواْ بِوُجُوهِكُمْ وَأَيْدِيكُمْ إِنَّ اللّهَ كَانَ عَفُوًّا غَفُورًا﴾

**"Ey iman gətirənlər! Məst halda namaza yaxınlaşmayın, o vaxta qədər ki, dediyinizi biləsiniz. Eləcə də, cünub halda (zəruri qüslü verməmiş) namaza yaxınlaşmayın. Qüsl edənədək yalnız (məsciddə dayanmadan) ötüb keçə bilərsiniz. Əgər xəstələnsəniz və ya səfərdə olsanız, ya da biriniz dərədən (ayaq yolundan) gəlsəniz, ya qadınlarla təmasda olsanız, (bu hallarda) su tapmasanız pak və xoşagələn yerə (torpağa) təyəmmüm edin. (İki ovcunuzu torpağa vurun), üzünüzə və əllərinizə məsh çəkin. Həqiqətən, Allah bağışlayan və mehribandır."**

---

[1] "Ənam", 23.

## *Nöqtələr*

◘Şərabın haram buyurulması İslamın əvvəllərində tədrici şəkildə həyata keçdi. Əvvəlcə şərab xoşagəlməz içki kimi tanıtdırıldı.[1] Sonra ayə nazil oldu və məst halda namaz qılmaq qadağan edildi.[2] Həmin vaxt şərabın ziyanının faydasından çox olduğu bildirildi.[3] Daha sonra şərab çirkin və şeytani bir iş kimi qəti qadağan edildi.[4]

◘Rəvayətlərdə bildirilir ki, yuxulu, süst halda olarkən namazdan çəkinin.[5] Digər ayələrdə süst halda qılınan namaz münafiqlik nişanələrindən sayılmışdır.[6]

◘"Ğait" çökək yerə deyilir. Qədimdə ayaqyolu kimi istifadə üçün dərələr qazıldığından "ğait" sözü ayaqyoluna getmək mənasında işlədilmişdir.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Səid" suyun axıb töküldüyü hündür yerə deyilir."[7]

◘İmam Sadiq (ə) buyurmuşdur: "Laməstum" yaxınlıq mənasındadır. Amma Allah örtəndir və bu sayaq sözləri örtülü buyurmağı sevir."[8]

## *Bildirişlər*

1. Namaz məqamı o qədər ucadır ki, şərabxor ona yaxınlaşmamalıdır.
2. Namazda təkcə zikr və hərəkətlər kifayət deyil. Həm də diqqət və düşüncə lazımdır.
3. Vəzifə öhdədən götürülsə də, qəflət içində olan ibadət dəyərsizdir.
4. Məscidə cünub halda daxil olmaq olmaz.
5. Qüsldə bütün bədəni yumaq lazımdır. Çünki ayədə qüsl zamanı xüsusi üzvlərin adı çəkilməmişdir.
6. Təhlükə və zərər ehtimalı insanın öhdəsindən vəzifəni götürür. Bəzən də belə bir ehtimal vəzifənin yüngülləşməsinə səbəb olur.
7. Danışarkən ədəbi gözləmək lazımdır. (Dərədən qayıtmaq ayaqyoluna getmək, qadınlarla təmasda olmaq isə onlarla cinsi yaxınlıq mənasındadır. Şübhəsiz ki, qadına toxunmaqla qüsl vacib olmaz.)[9]
8. İlahi hökm yüngülləşdirilə bilər, aradan götürülə bilməz. Əgər su yoxdursa, təyəmmüm etmək lazımdır.
9. Namaz vasitəsi ilə Allahla rabitə yaratmaq üçün paklıq, dəstəmaz və ya təyəmmüm şərtdir.
10. Təyəmmüm pak torpağa edilməlidir.

---
[1] "Nəhl", 67.
[2] "Təfsire-Əyyaşi", c. 1, səh. 242.
[3] "Bəqərə", 219.
[4] "Maidə". 90.
[5] "Kafi", c. 3, səh. 371.
[6] "Nisa", 142; "Tövbə", 54.
[7] "Bihar" , c. 76, səh. 347.
[8] "Vəsail", c. 20, səh. 133.
[9] "Təhzibul-əhkam", c. 1, səh. 22.

11. İlahi hökmlərin yüngülləşdirilməsi Allahın rəhmət və bağışlama təcəssümlərindəndir.

**44.** ﴿ أَلَمْ تَرَ إِلَى الَّذِينَ أُوتُواْ نَصِيبًا مِّنَ الْكِتَابِ يَشْتَرُونَ الضَّلاَلَةَ وَيُرِيدُونَ أَن تَضِلُّواْ السَّبِيلَ ﴾

**“Məgər Allahın Kitabından bəhrə verilmiş kəsləri görmədinmi?! Hidayət əldə etmək əvəzinə azğınlığı satın alırlar və sizin də yoldan azmağınızı istəyirlər.”**

## *Bildirişlər*

1. Hidayət üçün təkcə səmavi kitaba bələdçilik kifayət deyil.
2. Kitab əhli alimlərinin ilahi təlimlərdən xəbərdarlığı nöqsanlıdır. Həmin nöqsan onların azğınlığına səbəb olmuşdur.
3. Azğın alimlər öz elm və məqamlarından sui-istifadə edib başqalarını da azdırmağa çalışırlar.

**45.** ﴿ وَاللّهُ أَعْلَمُ بِأَعْدَائِكُمْ وَكَفَى بِاللّهِ وَلِيًّا وَكَفَى بِاللّهِ نَصِيرًا ﴾

**“Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır. Allahın sizin haminiz olması yetər. Allahın sizə yardımçı olması kifayətdir.”**

## *Bildirişlər*

1. Biz düşməni düzgün tanımaya da bilərik. Amma Allah bizim həqiqi düşmənlərimizi çox yaxşı tanıyır.
2. Vilayət və möminlərə yardım əsasında ilahi vədlər olan yerdə qurğu və düşmənçiliklərdən qorxmaq olmaz.
3. Vilayət və hakimiyyət qüdrət və yardımla müşayiət olunmalıdır.

**46.** ﴿مِّنَ الَّذِينَ هَادُواْ يُحَرِّفُونَ الْكَلِمَ عَن مَّوَاضِعِهِ وَيَقُولُونَ سَمِعْنَا وَعَصَيْنَا
وَاسْمَعْ غَيْرَ مُسْمَعٍ وَرَاعِنَا لَيًّا بِأَلْسِنَتِهِمْ وَطَعْنًا فِي الدِّينِ وَلَوْ أَنَّهُمْ قَالُواْ سَمِعْنَا

وَأَطَعْنَا وَاسْمَعْ وَانظُرْنَا لَكَانَ خَيْرًا لَّهُمْ وَأَقْوَمَ وَلَكِن لَّعَنَهُمُ اللّهُ بِكُفْرِهِمْ فَلاَ يُؤْمِنُونَ إِلاَّ قَلِيلاً﴾

**"Yəhudilərdən bəziləri sözlərin yerini təhrif edirlər ("eşitdik və itaət etdik" demək əvəzinə), deyirlər: "Eşitdik və itaətsizlik etdik." (Və ədəbsizcəsinə İslam peyğəmbərinə deyirlər:) «Eşit, heç vaxt eşitməyəsən və bizi axmaq say.» ("Raina") (Bu sayaq deyirdilər) ki, öz dilləri ilə həqiqətləri çevirsinlər və dininizə tənə etsinlər. Əgər desəydilər ki, (Allahın kəlamını) eşitdik, itaət etdik və (sözümüzü) eşit, halımıza nəzər sal (həqiqətləri daha yaxşı dərk edək deyə), onlar üçün yaxşı olardı və məntiqə uyğun gələrdi. Amma Allah onlara küfrləri və inadkarlıqları səbəbindən lənət etdi. Az bir hissəsindən savay iman tövfiqi tapmadılar."**

## *Nöqtələr*

◘"Səmina və əsəyna" təbiri "sən de, biz qulaqardına vuraq" mənası verən bir məsxərədir.

◘Müsəlmanlar həzrət Peyğəmbərə (s) "raina" deyərdilər və məqsədləri bu idi ki, Peyğəmbər (s) onlara diqqət yetirsin. Yəhudilər isə bu sözü təhrif etməklə ona çirkin bir məna verərdilər. Bu söz "rəyy" kökündən alındıqda "nəzər salmaq", "rəunət" kökündən alındıqda və təşdidli nunla oxunduqda "bizi axmaq say" mənasını verir. Yəhudilər dillərini dolaşdırıb sözləri və hərfləri dəyişməklə müsəlmanları təhqir edir və Peyğəmbəri (s) məsxərəyə qoyurdular.

## *Bildirişlər*

1. Dəstənin bir hissəsinin günahını bütün dəstənin ayağına yazmaq olmaz.
2. Sözlərin mənalarını təhrif etmək günahların açarı və digər günahların ortaya çıxması zəminəsi, eləcə də, məktəbin zəifləməsi amilidir.
3. Müqəddəsliklərin təhqiri və toxunulmazlıqların aradan götürülməsi kafirlərin daimi üsullarından olmuşdur.
4. Peyğəmbərlərin dəvətini dinləmək yaxşılıq və möhkəmlik səbəbidir.
5. İnsanın taleyi onun seçiminin və əməllərinin nəticəsidir.

**47.** ﴿يَا أَيُّهَا الَّذِينَ أُوتُواْ الْكِتَابَ آمِنُواْ بِمَا نَزَّلْنَا مُصَدِّقًا لِّمَا مَعَكُم مِّن قَبْلِ أَن نَّطْمِسَ وُجُوهًا فَنَرُدَّهَا عَلَى أَدْبَارِهَا أَوْ نَلْعَنَهُمْ كَمَا لَعَنَّا أَصْحَابَ السَّبْتِ وَكَانَ أَمْرُ اللّهِ مَفْعُولاً﴾

**"Ey kitab verilmiş kəslər! Sizdə olanı təsdiqləyici olaraq nazil etdiyimizə (Tövrat və İncilə) iman gətirin, nə qədər ki, çöhrələri məhv və kor edib arxalarına çevirməmişik, ya lənətimizə düçar etməmişik, necə ki, şənbə günü səhabələrini lənətə düçar etdik. Allahın əmri olasıdır."**

## *Nöqtələr*

◘Çöhrələrin məhvi və çevrilməsi dedikdə, qəlblərin, sağlam fitrətlərin, əql və düşüncələrin səadət yolundan çıxarılması nəzərdə tutula bilər. Onlar ilahi ayələr qarşısında inadkarlıq göstərməklə, bir addım irəli getmək əvəzinə bir addım geri çəkilirlər. Beləcə, onların insani çöhrələri məsx və məhv olur. Çöhrələrin çevrilməsi onların məsx olmasına işarə ola bilər. Qiyamətdə surətlərin dəyişməsi də ehtimal olunan mənalardandır.

◘"Səbt əshabı" ("şənbə günü əshabı") Allahın şənbə günləri balıq ovunu qadağan edən əmrinə qarşı çıxmış yəhudilərdir. Onlar hiylə işlədərək balıqları şənbə günü bağlı bir yerə salır və növbəti gün ovlayırdılar. Onlar Allahın qəzəbinə düçar oldular və çöhrələri meymun çöhrəsinə məsx oldu.[1]

## *Bildirişlər*

1. İslam digər din ardıcıllarını ilahi dinə dəvət edir.
2. Allah daha çox cəmiyyətin alim və agah çöhrələrinə xitab edir.
3. Dəvət və təbliğ zamanı başqalarının etiqadlarına və müştərək xüsusiyyətlərinə hörmət qoyulmalıdır.
4. Bütün peyğəmbərlərin proqramlarının əsası bir-biri ilə həmahəngdir.
5. İnadkar insanlara qarşı hədələmə üsulundan istifadə olunmalıdır.
6. Hədələrin təsir etməsi üçün gerçək və əməli nümunələr xatırladılmalıdır.
7. İnadkarlara münasibətdə Allahın qəzəbi bir sünnədir.
8. Allahın hökmü dəyişməzdir.

48. ﴿ إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء وَمَن يُشْرِكْ بِاللّهِ فَقَدِ افْتَرَى إِثْمًا عَظِيمًا ﴾

**"Həqiqətən, Allah Ona şərik qoşulmasını bağışlamır. Amma bundan aşağı nə olsa, istədiyinə bağışlayır. Hər kəs Allaha şərik qoşsa, şübhəsiz, böyük günah etmişdir."**

## *Nöqtələr*

◘Şirk mövzusu Quranda iki yüz dəfədən çox bəyan olunmuşdur. İstənilən bir şəkildə Allahdan qeyrisinə diqqət (bütpərəstlik, riyakarlıq, qeyri-ilahi meyllər, materialistlik)məzəmmət olunmuşdur. Bu ayənin məzmunu uyğun surənin 116-cı ayəsində eynən təkrarlanmışdır. Təkrar hidayət amilidir.

◘Şirk haqq dairəsindən xaric olma, Allahdan üz döndərmə, Allahdan qeyrilərinə müraciət olduğundan tövbəsiz bağışlanmır. Müşrik öz şirkindən əl çəkib həqiqi tövbə etsə, Allah onu bağışlayar. "Zumər" surəsinin 54-cü ayəsində buyurulur: "Allah bütün günahları bağışlayır. Onun rəhmətindən məyus olmayın və dərgahına tövbə qılın."

[1] "Əraf", 163.

◘Allahın rəhmət nəzərinin kimə yönələcəyini kimsə bilmədiyindən qürur və günaha cürət üçün yer qalmır.

◘Bir neçə şey bağışlama amillərindəndir: tövbə, yaxşı işlər görmək, kəbirə günahlardan uzaqlıq, şəfaət, ilahi əfv (bu ayədə uyğun amillərin hər birinə işarə olunmuşdur).

◘İmam Sadiq (ə) ayə haqqında buyurmuşdur: "Məqsəd kəbirə günahlar və digər günahlardır. (Allah istəsə, tövbəsiz də bağışlayar).[1]

## *Bildirişlər*

1. Şirk ən mənfur günahdır və Allahın bağışlamasına mane olur.
2. Günahların bağışlanması Allahın hikmətli iradəsinə aiddir.
3. Şirk dəlilsiz iddia və böyük bir yalandır.

**49.** ﴿ أَلَمْ تَرَ إِلَى الَّذِينَ يُزَكُّونَ أَنفُسَهُمْ بَلِ اللّهُ يُزَكِّي مَن يَشَاء وَلاَ يُظْلَمُونَ فَتِيلاً ﴾

**"Özünü pak və eyibsiz sayanları görmədinmi? Xeyr, Allah istədiyini paklayar və onlara xurma özəyindəki sapca zülm olunmaz."**

## *Nöqtələr*

◘Xudpərəstlik, özünü eyibsiz və hamıdan üstün bilmək Quran tərəfindən məzəmmət olunur. Necə ki, buyurulur: "Özünüzü tərifləməyin, Allah kimin müttəqi olduğunu daha yaxşı bilir."[2]

Həzrət Əli (ə) «Həmmam» xütbəsində müttəqilərin nişanələrindən biri kimi onların sitayiş qarşısında qorxu keçirdiyini bildirir.

## *Bildirişlər*

1. Qürur və insanın özünü böyük saymasından doğan özünəsitayiş caiz deyil.
2. Bəşəri yox, ilahi göstərişlər əsasında paklanma dəyərlidir.
3. İlahi cəzalar Allahın zülmü yox, insanın pis əməllərinin nəticəsidir.

**50.** ﴿ انظُرْ كَيفَ يَفْتَرُونَ عَلَى اللّهِ الكَذِبَ وَكَفَى بِهِ إِثْمًا مُّبِينًا ﴾

**"Sən onların Allahın adından necə yalan danışdıqlarına bax! Həmin aşkar günah onlar üçün bəsdir."**

---

[1] "Kafi", c. 2, səh.
[2] "Nəcm", 32.

## *Nöqtələr*

◘Yəhudilərin özlərini üstün irq, Allahın övladları və əzizləri sayması Allaha qarşı ən böyük iftiradır. Çünki Allah heç kimsəni övlad götürməmişdir. Hamı onun qarşısında bərabərdir və yeganə imtiyaz iman və təqvadır.

◘İftirada yalandan əlavə, böhtan, əziyyət, zülm, şəxsiyyətin alçaldılması da var. Allaha qarşı iftira, Onun adından yalan danışmaq orucu batil edir.

◘İmam Baqir (ə) buyurmuşdur: "Yalan şərabxorluqdan pisdir. İftira isə yalandan da ağırdır."

## *Bildirişlər*

1. Kitab əhlinin tanınması, əməl və əqidəsinin dəyərləndirilməsi peyğəmbərin vəzifəsidir.
2. Özünü pak və Allaha yaxın bilmə Allaha qarşı iftiradır və insanın təkamülünə mane olur. "İsm" (اثم) sözünün lüğət mənası insanı savabdan saxlayan şeydir.

**51.** ﴿ أَلَمْ تَرَ إِلَى الَّذِينَ أُوتُواْ نَصِيبًا مِّنَ الْكِتَابِ يُؤْمِنُونَ بِالْجِبْتِ وَالطَّاغُوتِ
وَيَقُولُونَ لِلَّذِينَ كَفَرُواْ هَؤُلاء أَهْدَى مِنَ الَّذِينَ آمَنُواْ سَبِيلاً ﴾

**"Kitabdan bəhrə verildiyi halda büt və zalım hakimlərə iman gətirənləri görməmisənmi?! Onlar kafirlər haqqında deyirlər: "Onlar iman gətirənlərdən daha doğru yol tapmışlar."**

## *Nöqtələr*

◘Ühüd döyüşündən sonra yəhudilərdən bir dəstəsi Məkkəyə getdilər ki, müsəlmanların əleyhinə müşriklərlə əl-ələ versinlər. Onlar kafirləri razı salmaq üçün onların bütləri qarşısında səcdə edib dedilər: "Sizin bütpərəstliyiniz müsəlmanların İslamından üstündür."

◘Büt, sahir, kahin mənalarını bildirən "cibt" sözü Quranda bir dəfə, "tüğyan" sözündən olan "tağut" sözü isə səkkiz dəfə işlədilmişdir. Cibt və tağut dedikdə yəhudilərin səcdə etdiyi həmin iki büt də nəzərdə tutula bilər. Bu da ola bilər ki, cibt büt, tağut isə bütpərəstlərə, büt himayədarlarına işarə olsun.

## *Bildirişlər*

1. Din haqqında naqis məlumat azğınlıq üçün zəmindir.
2. Düşmənlər İslamla mübarizə yolunda hətta öz əqidələrindən də əl çəkirlər. (Yəhudilər müsəlmanlara qarşı birlik yaratmaq və müşrikləri razı salmaq üçün bütlərə səcdə etdilər.)
3. İnadkarlıq ruhiyyəsi mühakimə istiqamətini dəyişir.

52. ﴿ أُوْلَئِكَ الَّذِينَ لَعَنَهُمُ اللّهُ وَمَن يَلْعَنِ اللّهُ فَلَن تَجِدَ لَهُ نَصِيرًا ﴾

**“Onlar Allahın lənət etdiyi kəslərdir. Hər kəsə Allah lənət etsə, heç vaxt onun üçün yardımçı tapılmayacaq.”**

## *Bildirişlər*

1. Haqqa qarşı istənilən bir ittifaq lənətlənmişdir. Kitab əhlinin İslama qarşı müşriklərlə əl-ələ verməsi onların lənətlənməsi səbəbi oldu.
2. Düşmənlərin haqqa qarşı çirkin razılıqları heç vaxt nəticə verməyəcək. Allahın iradəsi qarşısında bütün ittifaqlar və əhdlər faydasızdır.
3. Allahın lənətlədiyi kəs daim məğlub olacaq.

53. ﴿ أَمْ لَهُمْ نَصِيبٌ مِّنَ الْمُلْكِ فَإِذًا لاَّ يُؤْتُونَ النَّاسَ نَقِيرًا ﴾

**“Onlar (yəhudilər) üçün hakimiyyətdən bir bəhrə varmı? Belə olsaydı, xalqa bir zərrə də verməzdilər.”**

## *Nöqtələr*

◘“Nəqir” dedikdə, ya xurma dənəsinin arxasındakı çökək, ya da quşların dimdiyinə götürdüyü şey başa düşülür. Bu söz bir şeyin dəyərsiz, cüzi olmasına işarədir.

◘İmam Baqir (ə) “nəsibun minəl-mulk” təbiri haqqında buyurmuşdur: “Nəzərdə imamət və xilafət tutulur. “Ənnas” dedikdə isə biz Əhli-beytə (ə) işarə olunur.”[1] Yəni bu kəslər hakimiyyətə çatsalar, Əhli-beytə bir xurma özəyinin sapı qədər belə qüdrət verməzlər.

◘“Məcməül-bəyan” təfsirində nəql olunur ki, yəhudilər olduqca inhisarçıdırlar və qüdrətə çatsalar, kimsəyə ondan pay verməzlər. Bu təbir yəhudilərin xəsislik və dar baxışlılıq ruhiyyəsi ilə uyğundur.

## *Bildirişlər*

1. Dininiz haqqında başqalarının yersiz mühakimələri sizi narahat etməsin.
2. Sonsuz hakimiyyət Allaha məxsusdur. Başqalarının əldə etdiyi hakimiyyət məhdud və müvəqqətidir.
3. Düşmənlərinizi yaxşı tanıyın. Onlar hakimiyyətə gəlsələr, sizi birdəfəlik görməməzliyə vurarlar.
4. Əlinə hakimiyyət və qüdrət düşən insan xalqın rifahı haqqında düşünməlidir.

[1] “Kafi”, c. 1, səh. 205.

54. ﴿ أَمْ يَحْسُدُونَ النَّاسَ عَلَى مَا آتَاهُمُ اللّهُ مِن فَضْلِهِ فَقَدْ آتَيْنَآ آلَ إِبْرَاهِيمَ الْكِتَابَ وَالْحِكْمَةَ وَآتَيْنَاهُم مُّلْكًا عَظِيمًا ﴾

**"Yoxsa ki, onlar (yəhudilər) xalqa (müsəlmanlara) münasibətdə Allahın Öz fəzlindən onlara verdiyinə görə həsəd aparırlar? Həqiqətən, Biz əvvəllər Ali-İbrahimə səmavi kitab, hikmət və böyük səltənət verdik. (Bəs nə üçün indi Ali-Mühəmmədə (s) verməyək?)**

## *Nöqtələr*

◘Əvvəlki ayədə yəhudilərin xəsisliyinə işarə olundu. Bu ayədə isə onların həsədçilliyindən danışılır. Həsəd xəsislikdən də pisdir. Çünki xəsis adam malını bağışlamır, həsədçil insan isə başqasının verdiyi hədiyyəyə görə də narahat olur.

Yəhudilər başqalarından daha əvvəl ilahi lütf və nemətə çatdıqları halda nə üçün başqalarına nemət və qüdrət verilməsindən narahat olurlar? Nə üçün Ali-İbrahimə verilənlər Ali-Mühəmmədə (s) və Bəni-Haşimə verilməsin? Həzrət Əli (ə) rəvayətlərində buyurmuşdur: "Həsədə tuş gələnlər bizik."[1]

◘İmam Sadiqdən (ə) nəql olunmuş hədisdə oxuyuruq: "Kitab" dedikdə nübüvvət, "hikmət" dedikdə düşüncə və mühakimə, "mulkən əzim" dedikdə isə xalqın itaəti başa düşülür."[2] İmam Baqir (ə) "Mulkən əzim" təbiri haqqında buyurmuşdur: "Məqsəd budur ki, Allah onların arasında həqiqi imamlar qərar vermişdir.[3] Həzrət Əlidən (ə) nəql olunmuş digər bir hədisdə oxuyuruq: "Ali-İbrahim dedikdə biz peyğəmbər Əhli-beyti nəzərdə tutulmuşdur."[4]

## *Bildirişlər*

1. Həsədçil insan Allahın iradəsinə qarşı çıxır.
2. Bütün nemət və bəhrələrin mənşəsi Allahın fəzlidir. Başqalarından nemətin alınmasını istəyincə, Allahdan Onun fəzlini arzulayın.
3. Kitab əhlinin müşriklərə üz tutması, onların müsəlmanların tövhidindən üstün bilməsi onların həsədçilliyindən doğur. Əvvəlki ayədə yəhudilər müşriklərə "daha doğru yoldasınız" deyirdilərsə, bu ayədə onların həsəd etməkləri bəyan olunur.
4. Bütün lütflər Allah tərəfindəndir. ("Atina" sözü üç dəfə təkrarlanmışdır.)
5. İlahi hakimiyyət elə insanların əlində olmalıdır ki, hakimiyyətdə olmadıqları vaxtda mənəvi, elmi məqama və dərin baxışa malik olmuşlar. Ayədə kitab və hikmət səltənətdən qabaq zikr olunmuşdur. (Bəli, mənəvi nemətlər maddi nemətlərdən öndə gəlir.)

---

[1] "Kafi", c. 1, səh. 186.
[2] "Kafi", c. 1, səh. 306.
[3] "Kafi", c. 1, səh. 306.
[4] "Bihar" , c. 28, səh. 275.

55. ﴿ فَمِنْهُم مَّنْ آمَنَ بِهِ وَمِنْهُم مَّن صَدَّ عَنْهُ وَكَفَى بِجَهَنَّمَ سَعِيرًا ﴾

**“Yəhudilərdən bəziləri ona (İslam peyğəmbərinə) iman gətirdilər, bəziləri (nəinki iman gətirmədilər, hətta) xalqın iman gətirməsinin qarşısını aldılar. Onlara cəhənnəmin yandırıcı şöləsi cəza olaraq yetər.”**

56. ﴿ إِنَّ الَّذِينَ كَفَرُواْ بِآيَاتِنَا سَوْفَ نُصْلِيهِمْ نَارًا كُلَّمَا نَضِجَتْ جُلُودُهُمْ بَدَّلْنَاهُمْ جُلُودًا غَيْرَهَا لِيَذُوقُواْ الْعَذَابَ إِنَّ اللّهَ كَانَ عَزِيزًا حَكِيمًا ﴾

**«Həqiqətən, tezliklə Bizim ayələrimizi inkar edənləri atəşə atacağıq. Bədənlərinin dəriləri nə qədər yansa, onun yerində başqa bir dəri qərar verərik ki, əzabı dadsın. Həqiqətən, Allah qüvvə və hikmət sahibidir.»**

## *Nöqtələr*

◘Onlar hər an inadkarlıq göstərdiklərindən hər an yeni bir dəri ilə əzabı dadmalıdırlar. Necə ki, “Təfsire-Safi”də deyilir: “İmamların dövründə din müxaliflərindən olan ibn Əbul-Əvca adlı biri İmam Sadiqdən (ə) soruşdu: “Yeni dərinin günahı nədir?” İmam buyurdu: “Yeni dəri əvvəlki dərinin yanıqlarından düzəlir. Necə ki, kərpic ovulduqdan sonra yenidən düzələ bilər.”

## *Bildirişlər*

1. Kafirlərin cəzası daimidir.
2. Yeni dəri şiddətli əzabı dadmaq məqsədi ilə qərar verilir. (Çünki yanma zamanı ən böyük ağrı dəriyə aiddir. Əgər alov sümüyə çatsa ağrı azalar.)
3. Məad, ölümdən sonrakı həyat cismanidir.
4. Əzab davamlı olduğu üçün kafirlərə adiləşməz.
5. Kafirlərin daimi cəzalandırılması hikmətə əsaslanır. Heç bir qüvvə cəhənnəmdə Allahın qəzəbinin qarşısını ala bilməz.

57. ﴿ وَالَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ سَنُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا لَّهُمْ فِيهَا أَزْوَاجٌ مُّطَهَّرَةٌ وَنُدْخِلُهُمْ ظِلاًّ ظَلِيلاً ﴾

**“İman gətirib yaxşı işlər görənləri tezliklə altından çaylar axan bağlara daxil edərik. Onlar orada əbədi qalarlar. Orada onlar üçün pak zövcələr var. Onları daimi kölgələrə daxil edərik.”**

## *Nöqtələr*

◘Tərbiyə prosesində həm ümid verilməli, həm də qorxudulmalıdır. Əvvəlki ayədə qorxutma vardısa, bu ayədə ümid verilir.

◘“Zəlil” dedikdə uzanmış kölgə nəzərdə tutulur.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Pak zövcələr dedikdə heyz və ifrazat çirkinliyindən pak zövcələr nəzərdə tutulur.”[1]

## *Bildirişlər*

1. İman və saleh əməl behiştə daxil olmaq üçün iki mühüm şərtdir.
2. Allahın lütfü Onun qəhr və qəzəbindən daha tez nazil olur. (Əvvəlki ayədə cəhənnəm əhli haqqında uzaq gələcəyi bildirən “səvfə”, bu ayədə isə yaxın gələcəyi bildirən “siyn” hərfi işlədilmişdir.)
3. Behişt zövcələri həm fiziki, həm də ruhi baxımdan pakdırlar. Həm cisim, həm də ruh baxımından pak olan kəsə “mutəhhərə” deyilir.

58. ﴿إِنَّ اللّهَ يَأْمُرُكُمْ أَن تُؤدُّواْ الأَمَانَاتِ إِلَى أَهْلِهَا وَإِذَا حَكَمْتُم بَيْنَ النَّاسِ أَن تَحْكُمُواْ بِالْعَدْلِ إِنَّ اللّهَ نِعِمَّا يَعِظُكُم بِهِ إِنَّ اللّهَ كَانَ سَمِيعًا بَصِيرًا﴾

**“Həqiqətən, Allah sizə əmr edir ki, əmanətləri sahiblərinə qaytarın. Xalq arasında hakimlik edərkən ədalətlə hökm verin. Allahın sizə öyüd verdiyi şey necə də yaxşıdır! Şübhəsiz, Allah eşidən və görəndir.”**

## *Nöqtələr*

◘Əmanətə vəfa və ədalətli rəftar imanın mühüm nişanələrindəndir. Necə ki, xəyanət nifaq əlamətidir. Hədisdə nəql olunur ki, insanların uzun rüku və səcdələrinə yox, doğru danışmağına və əmanətə münasibətinə baxın.[2]

◘Çoxsaylı rəvayətlərdə nəql olunur ki, «əmanət» dedikdə cəmiyyətə əhli-beyt tərəfindən rəhbərlik nəzərdə tutulur. Belə bir əmanətə sədaqət uyğun ayəyə əməl olunmasının bariz nümunələrindəndir.

◘Bəli, cəmiyyətin xoşbəxtliyinin açarı iş başında layiqli və ədalətli şəxsin dayanmasıdır. İctimai çaxnaşmaların mənşəyi isə ləyaqətsizlərin hakimliyi və zalımcasına mühakimələrdir. Həzrət Əli (ə) buyurmuşdur: “ Bir şəxs cəmiyyətdə özündən layiqlisi olduğunu bildiyi halda rəhbərliyi qəbul edərsə, şübhəsiz, Allaha, peyğəmbərə və möminlərə xəyanət etmişdir.”[3]

◘Elm və həqiqəti gizlətmək, xalqın malına sahib olmaq, qeyri-ilahi rəhbərlərə itaət, övlad üçün ləyaqətsiz zövcə və ya ləyaqətsiz müəllim seçmək və bu kimi başqa işlər əmanətə xəyanət nümunələridir.

◘İmam Baqir (ə) və İmam Sadiq (ə) buyurmuşlar: “Allahın əmr və hədləri ilahi əmanətlərdir.”[4]

◘İmam Sadiq (ə) bu ayənin təfsirində buyurmuşdur: “Allah əmr etmişdir ki, hər bir imam özündə olanı növbəti imama tapşırsın.”[5]

---

[1] “Mən la yəhzuruhul-fəqih”, c. 1, səh. 50.
[2] “Kafi”, c. 2, səh. 105.
[3] “Əl-Qədir”, c. 8.
[4] “Təfsire-Nurus-səqəleyn”.
[5] “Kafi”, c. 1, səh. 277.

◘**Əmanət üç növdür:**

a) İnsanla Allah arasında (insan üçün təyin olunmuş vəzifələr və vacib işlər);[1]

b) İnsanla başqaları arasında (insana əmanət tapşırılmış mal və sirr);

v) İnsanla özü arasında (əlimizdə əmanət olan elm, ömür, qüdrət).

## *Bildirişlər*

1. İşi bilicilərə tapşırmaq və ədalətli mühakimə saleh əməl nümunələrindən və iman nişanələrindəndir. (əvvəlki ayəyə görə)
2. Hər bir əmanətin sahibi var. Hər kəsdə bir iş və məqam ləyaqəti və istedadı var.
3. Əmanətin qaytarılmasında və ədalətli olmaqda iman şərt deyil. Bütün xalqa münasibətdə əmanətdar və ədalətli olmaq lazımdır.
4. Qazi və hakim ədalətli olmalıdır.
5. Hökumət təşkili zəruridir. Vəzifəni onun əhlinə tapşırmaq və ədalətli mühakimə üçün ilahi hökumətin bərqərar olması şərtdir.
6. Yaxşı moizə odur ki, əxlaqi öyüdlərdən əlavə, ictimai və hüquqi məsələlərə də diqqət yetirilsin.
7. Əmanətə xəyanət və ya ədalətsiz mühakiməni xalq da anlamasa, Allah görən və eşidəndir.

**59.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً﴾

**“Ey iman gətirənlər! Allaha itaət edin, peyğəmbərə və əmr sahiblərinə (peyğəmbər canişinlərinə) tabe olun. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allahın və peyğəmbərin hökmünə verin. Bu, (ixtilafın həlli üçün Quran və sünnəyə müraciət) üstündür və sonu daha yaxşıdır.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə bəyan olundu ki, hakim ədalətli və əmanətdar olmalıdır. Bu ayədə isə xalqın Allah və peyğəmbər qarşısındakı vəzifəsinə işarə olunur. Allah, peyğəmbər və əmr sahibi kimi müraciət yeri olduğu halda xalq üçün heç vaxt çıxılmaz vəziyyət qalmır.

Bu üç ünvana itaət olunması Quran tövhidi ilə zidd deyil. Çünki peyğəmbər və əmr sahibinə itaət də Allaha itaətdir. İnsan Allahın əmri əsasında peyğəmbər və əmr sahibinə üz tutur.

[1] “Təfsire-Məcməül-bəyan”.

◘"Təfsire-nümunə"də İbn Abbasdan nəql olunur ki, İslam peyğəmbəri Təbuk döyüşündə gedərkən Mədinədə həzrət Əlini (ə) öz yerində qoydu və buyurdu: "Harun Musa üçün necə idisə, sən də mənim üçün eləsən." Sonra bu ayə nazil oldu.

◘Ötən ayədə tapşırıldı ki, əmanətlər öz əhlinə tapşırılsın. Ayədən belə anlaşılır ki, əmanəti əhlinə tapşırmaq Allaha, peyğəmbərə və əmr sahibinə itaət sayəsində gerçəkləşir.

"İtaət edin" göstərişinin təkrarı göstərişlərin növbənöv olması rəmzidir. Peyğəmbər bəzən ilahi hökmləri bəyan edir, bəzən dövləti tapşırıq verirdi. Onun risalət və hökumət kimi iki mənsəbi vardı. Quran bəzən peyğəmbərə xitabən buyururdu: "Nazil etdiyimizi xalqa bəyan et."[1] Bəzən isə belə buyururdu: "Xalq arasında ilahi qanunlar əsasında rəhbərlik və mühakimə et."[2]

◘Quran günahkarlara, israfçılara, azğınlara, cahillərə, zalımlara itaət etməmək göstərişi verir. Buna görə də itaət göstərişi verilərkən itaəti qadağan olunmamış zümrə, itaəti Allah və peyğəmbər göstərişləri ilə zidd olmayan fərdlər nəzərdə tutulur.

◘İtaət ayəsində əmr sahibi haqqında danışılır. Çəkişmə vaxtı isə əmr sahibləri yox, yalnız Allah və Onun rəsulu tanıtdırılır. Belə bir nəticə alınır ki, əgər əmr sahibini tanımaqda çətinlik varsa, Allaha və Onun rəsuluna müraciət olunmalıdır. Peyğəmbər rəvayətlərində peyğəmbər Əhli-beytinin (ə) əmr sahibi olduğu bildirilir.[3]

◘Hüseyn ibn Əbül-Əla deyir: "Mən peyğəmbər vəsiləri və onlara itaətin vacibliyi haqqında əqidəmi İmam Sadiqə (ə) bildirdim. Həzrət buyurdu: "Bəli, belədir. Onlar həmin kəslərdir ki, Allah onlara itaət olunmasına əmr etmişdir."[4]

◘Həzrət Əli (ə) "Nəhcül-bəlağə"nin 125-ci xütbəsində və Malik Əştərin əhdnaməsində buyurmuşdur: «Allah və Onun rəsuluna müraciət» dedikdə möhkəm ayələrə və hamının yekdil qəbul etdiyi sünnələrə müraciət nəzərdə tutulur."

◘Həzrət Əli (ə) buyurmuşdur: "Peyğəmbərin məsum Əhli-beytinin nəzərinə uyğun olmayan mühakimə yürüdən hakimlər tağutdur (zalım hakimdir)."[5]

## *Bildirişlər*

1. Xalq İslam nizamını qəbul etməlidir. İlahi rəhbərə sözdə və əməldə tabeçilik zəruridir.
2. İslam dini əqidə və siyasəti ayrılmaz bir məktəbdir. Peyğəmbər və əmr sahiblərinə itaət kimi siyasi göstəriş Allaha və qiyamətə iman kimi etiqadi əmrlə yanaşıdır.
3. İtaətdə mərtəbələr silsiləsi hifz olmalıdır.

---

[1] "Nəhl", 44.
[2] "Nisa", 105.
[3] "Kəmaləddin-Səduq", səh. 222.
[4] "Kafi", c. 1, s.187.
[5] "Dəaimul-İslam", c. 2, səh. 530.

4. Əmr sahibi peyğəmbər tək məsum olmalıdır ki, ona itaət peyğəmbərə itaət sırasında - nə üçün-niyəsiz - olsun.

5. Mömin və imanlı xalqın özündən olan hakimə itaət vacibdir.

6. Əmr sahibinin Allah və Onun rəsulu ilə yanaşı yada salınması göstərir ki, İslam hökuməti və nizamının məsulu çox pak olmalıdır.

7. Gerçək iman nişanəsi çəkişmələr qızışdığı zaman Allaha və Onun rəsuluna müraciət edilməsidir. Adi vəziyyətlərdə itaət mühüm deyil.

7. İslam hökumətinin vəzifələrindən biri vəhdət yaradılması və çəkişmələrin həllidir.

9. Kamil bir dində bütün ixtilafların həlli yolu olmalıdır.

10. Qeyri-ilahi, zalım hökumətlərin əmrinə itaət haramdır.

11. Əgər bütün firqələr Quran və sünnəyə müraciət etsə, bütün ixtilaflar həll olar, vəhdət və birlik yaranar.

12. Allahın, Onun rəsulunun və ilahi rəhbərlərin göstərişlərinə qarşı çıxanlar öz imanlarında şəkk etməlidirlər.

13. İslamın əməl proqramları onun etiqadi proqramlarına əsaslanır. Başqa sözlə, Allaha və qiyamətə iman İslam hökmlərinin icrasının və itaətsizlikdən çəkinmənin dayağıdır.

14. Gələcəyi düşünmək və uzun müddətli məsləhətlərə riayət etmək dəyər ölçüsüdür.

60. ﴿أَلَمْ تَرَ إِلَى الَّذِينَ يَزْعُمُونَ أَنَّهُمْ آمَنُواْ بِمَا أُنزِلَ إِلَيْكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ
يُرِيدُونَ أَن يَتَحَاكَمُواْ إِلَى الطَّاغُوتِ وَقَدْ أُمِرُواْ أَن يَكْفُرُواْ بِهِ وَيُرِيدُ الشَّيْطَانُ أَن
يُضِلَّهُمْ ضَلاَلاً بَعِيدًا﴾

**“Sənə və səndən qabaq nazil olana iman gətirdiyini güman edənlərin hakimliyi (tağuta, zalım hakimlərə) vermək istədiklərini görmürsənmi?! Halbuki, onlara tağutu inkar etmək əmr olunub. Şeytan onları uzun-uzadı bir azğınlıqla yoldan çıxarmaq istəyir!”**

## *Nöqtələr*

◘Ötən ayə çəkişmələr zamanı Allah və peyğəmbərə müraciət edilməsini tapşırır. Bu ayədə isə mübahisələrin həlli üçün tağuta (zalım hakimlərə) müraciət edənlər tənqid olunur.

◘Bir münafiq müsəlmanla yəhudi arasında mübahisə düşdü. Məsələ mühakimə ilə həll ediləsi oldu. Yəhudi şəxs əmanətdarlıq və ədalətinə görə İslam peyğəmbərinin hakimliyini qəbul etdi. Amma münafiq müsəlman dedi: “Mən yəhudi başçılarından olan Kəb ibn Əşrəfin hakimliyinə razıyam.” Çünki bu müsəlman hədiyyələrlə Kəbi özünə tərəf çəkəcəyini bilirdi. Ayə nazil oldu və həmin şəxs məzəmmət edildi.

◘İmam Sadiqin (ə) təbirincə, tağut haqq əsasında hökm etməyən, Allah əmrinə qarşı çıxan və göstərişinə itaət olunan şəxsdir.[1]

## *Bildirişlər*

1. Tağutu rədd etməyən iman iman yox, onun xəyalıdır.
2. Dinlərin müştərək hədəfləri və mahiyyəti vardır. Bütün peyğəmbərlərin göstərişlərinə iman zəruridir.
3. Tağutla saziş haramdır.
4. Əvvəlcə haqq yolu göstərin, sonra batil yolu inkar edin.
5. Hətta tağuta müraciət etmək fikri belə məzəmmət olunmuşdur.
6. Şeytanın müvəffəqiyyət səbəbi xalqın tağuta itaət etməsidir.
7. Münafiq, tağut və şeytan eyni cərgədədir və peyğəmbərlərə qarşıdır.
8. Bütün səmavi dinlər tağutun inkarını əmr etmiş və belə məhkəmələrə müraciəti haram saymışdır.
9. Daxili ixtilafların həlli üçün biganələrə müraciət etmək şeytanın istəyidir, həm də qadağandır.
10. Münafiqlər şeytanın iradəsinə tabedirlər. Tağutlar şeytanın tələləri və alətləridir.
11. Tağuta müraciətin nəticəsi dəhşətli bir uçuruma yuvarlanmaqdır.

**61.** ﴿وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ إِلَى مَا أَنزَلَ اللّهُ وَإِلَى الرَّسُولِ رَأَيْتَ الْمُنَافِقِينَ يَصُدُّونَ عَنكَ صُدُودًا﴾

**“Onlara “(mühakimə üçün) Allahın nazil etdiyinə və peyğəmbərə doğru gəlin” deyildikdə, görərsən ki, bu münafiqlər sənin dəvətinin qəbulundan şiddətlə üz döndərirlər.”**

## *Bildirişlər*

1. Münafiqlər Allahın qanunlarına və peyğəmbər göstərişlərinə təslim olmasalar da, biz onları dəvət etməliyik.
2. Peyğəmbərlərin dəvətinin qəbulunda inkişaf və üstünlük var.
3. Kitab və sünnə həmahəngdir. Xalqın iki zidd şeyə müraciət etməsi hikmətdən uzaqdır.
4. Tağuta müraciət və biganələrdən mühakimə istənilməsi münafiqlik xisləti və ruhiyyəsidir. Bu ruhiyyədə olanlar səmavi rəhbərlə müxalif olur və haqq yoldan üz döndərirlər.
5. Münafiq özü arxa çevirməklə kifayətlənmir, başqalarına da bu yolda mane olur.
6. Münafiqlərin iç üzünü açan isə ilahi rəhbərlə müxalifətçilikləridir.
7. Xalqın qəlb imanı münafiqləri bir o qədər də narahat etmir. Onları narahat edən xalqın ilahi rəhbər ətrafında toplaşmasıdır.

---

[1] “Təfsire-nümunə”.

**62.** ﴿ فَكَيْفَ إِذَا أَصَابَتْهُم مُّصِيبَةٌ بِمَا قَدَّمَتْ أَيْدِيهِمْ ثُمَّ جَآؤُوكَ يَحْلِفُونَ بِاللّهِ إِنْ أَرَدْنَا إِلاَّ إِحْسَانًا وَتَوْفِيقًا ﴾

**“Əvvəllər gördüyü işlərə görə onlara bir müsibət və çətinlik üz verdikdə sənin sorağına gəlir və Allaha and içirlər ki, hədəfləri yaxşılıq və razılıqdan başqa bir şey olmayıb.”**

## *Nöqtələr*

◘Münafiqlər tağutlara müraciətlərinə belə don geydirirdilər ki, mühakimədə tərəflərdən biri hakimdən narazı qalır və onlar kimisə peyğəmbərdən narazı salmamaq üçün və peyğəmbərin mövqeyini və şəxsiyyətini qorumaq məqsədi ilə zalım hakimlərə üz tutmuşlar.

## *Bildirişlər*

1. Təhlükə amili insanın öz işləri olur.
2. İkiüzlü və münafiq müsəlmanlar çətinliyə düşdükləri vaxt ilahi rəhbərin ətəyindən yapışırlar.
3. Zalım hakimlərə (tağuta) müraciətin müsibətləri var. Peyğəmbərlərin yoluna dönüş labüddür.
4. Münafiqlər öz xilaf işlərinə don geyindirirlər.
5. Münafiq öz məqsədlərini pərdələmək üçün Allaha and içir.
6. Bəzən çirkin insanlar müqəddəs sözləri vasitəyə çevirirlər.

**63.** ﴿ أُولَئِكَ الَّذِينَ يَعْلَمُ اللّهُ مَا فِي قُلُوبِهِمْ فَأَعْرِضْ عَنْهُمْ وَعِظْهُمْ وَقُل لَّهُمْ فِي أَنفُسِهِمْ قَوْلاً بَلِيغًا ﴾

**“Onlar qəlblərindəkini Allah bilən kəslərdir. Onlardan üz döndər (keç), onlara öyüd ver və onlarla qəlblərinə yatan yetərli söhbətlər et.”**

## *Bildirişlər*

1. Münafiqlərin səyləri hədərdir. Çünki Allah həm onların niyyətlərindən xəbərdardır, həm də vaxtında onları ifşa edir.
2. Münafiqlər səmimi üzr istəmirlər. Əgər üzrləri həqiqi olsaydı, onlardan üz döndərmək əmri verilməzdi.
3. Rəhbər münafiqlərlə etiraz və moizə üslubunda danışmalıdır.
4. Moizədə münafiqlərə aşkar şəkildə onların aqibətləri ilə bağlı xəbərdarlıq olunmalıdır.

64. ﴿وَمَا أَرْسَلْنَا مِن رَّسُولٍ إِلاَّ لِيُطَاعَ بِإِذْنِ اللّهِ وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ جَآؤُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّابًا رَّحِيمًا﴾

**"Biz bütün peyğəmbərləri yalnız Allahın izni ilə itaət üçün göndərdik. Onlar özlərinə zülm etdikləri vaxt sənin yanına gəlsəydilər və Allahdan bağışlanmaq diləsəydilər, peyğəmbər də onlar üçün bağışlanma istəsəydi, şübhəsiz, Allahın tövbələri qəbul edən və mehriban olduğunu görərdilər."**

## *Nöqtələr*

◘Xalqın imanlı, azdırmaq fikrində olanları peşman qoyan, tövbə əhli olması, rəhbərin səmavi, mehriban olması sağlam cəmiyyət və müdiriyyətin səciyyələridir.

◘Peyğəmbərin möminlər haqqında duası qəbul olduğu kimi, xeyir əməl sahibləri və mələklərin də onlar haqqında duaları təsirlidir. Bir ayədə mələklərin xalq üçün, digər bir ayədə isə möminlər üçün bağışlanma istəyi bəyan olunur.[1]

## *Bildirişlər*

1. Peyğəmbərləri göndərməkdə məqsəd xalqın onlara itaətlə doğru yolu tutmasına nail olmasıdır.
2. İtaət Allaha məxsusdur. Hətta peyğəmbərlərə belə, Allahın izni ilə itaət olunmalıdır. Əks-təqdirdə bu, şirkdir.
3. Rəhbərə itaətsizliyin tövbəsi ona müti olmaqdır.
4. Peyğəmbərlərə arxa çevirib tağuta üz tutmaq insanın öz insanlıq məqamına zülmüdür. (Bu ayənin əvvəlki ayələrlə bağlılığına diqqət edin.)
5. İstər mömin olsun, istərsə də günahkar, bütün xalqın Allahın rəsulu ilə bağlılığı möhkəm olmalıdır. Mömin feyz əldə etmək, günahkar isə şəfaətə çatmaq üçün peyğəmbərlə bağlılığını möhkəmləndirməlidir.
6. Dönüş və tövbə yolu xatakarlar üçün, hətta münafiqlər üçün də açıqdır. (Münafiqlərə aid olan əvvəlki ayələrə görə.)
7. Səmavi rəhbərlərin ziyarəti, onların vasitəsi ilə təvəssül və yardım istəyi Quranın təsdiqlədiyi həqiqətlərdəndir.
8. Peyğəmbər günahları bağışlamır, sadəcə, ilahi əfv üçün vasitə olur.
9. Xatakar əvvəlcə peşman olmalı, haqqa üz tutmalı, sonra Allahla rabitəni möhkəmləndirmək üçün risalət məqamından kömək almalıdır.
10. Günahkarlar məyus olmamalıdırlar. Qayıdış, tövbə, övliyaların ziyarəti ruhi dirçəliş vasitələridir.
11. Həzrət Peyğəmbərin (s) ziyarəti, büdrəmələrin etirafı və tövbə insanın günahlarının yuyulmasında böyük rol oynayır.
12. Əgər xatakarı bağışladınızsa, ona məhəbbət də göstərin.

---

[1] Bax: "Şura", 5; Qafir", 7.

13. Günah insanla ilahi rəhmət arasında bir hicabdır. Hicab aradan götürülən kimi ilahi mərhəmət əldə olunur.

14. İlahi övliyaların hüzurunda günahların etirafı və tövbə ilahi əfv üçün bir vasitə, zəmindir.

65. ﴿ فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّىَ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُواْ فِي أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُواْ تَسْلِيمًا ﴾

**"Xeyr! And olsun Rəbbinə, nə qədər ki, öz mübahisələrində səni hakim seçməyirlər, qəlblərində sənin mühakimənlə bağlı narahatlıqları var, (sənin mühakimən qarşısında) tam təslim deyildirlər, (həqiqi) iman gətirməmişlər."**

## *Nöqtələr*

◘Mühacirlərdən olan Zübeyr ibn Əvvamla ənsardan olan bir şəxs arasında xurma bağlarını suvarmaq üstündə mübahisə düşdü. Peyğəmbər (s) belə bir mühakimə yürütdü ki, bağın üst hissəsi Zübeyrin olduğundan əvvəlcə bağı o suvarmalıdır. Ənsardan olan şəxs peyğəmbərin mühakiməsindən narahat oldu və dedi: "Zübeyr sənin əmioğlun olduğu üçün onun xeyrinə mühakimə yürütdün!" Peyğəmbərin rəngi dəyişdi və bu ayə nazil oldu. Təəccüblüdür, özləri Allahın rəsulunu mühakimə üçün seçdikləri halda boyun qaçırırlar!

◘İmam Sadiq (ə) buyurmuşdur: "Namaz, həcc və zəkat əmrlərini yerinə yetirib peyğəmbərin işlərinə sui-zənlə yanaşanlar əslində mömin deyildirlər." Sonra imam bu ayəni tilavət etdi.[1]

## *Bildirişlər*

1. Üç iş həqiqi iman nişanəsidir:

a) Mühakimə üçün tağuta, zalım hakimə yox, peyğəmbərə müraciət edilməsi.

b) Peyğəmbərin mühakiməsi haqqında sui-zən edilməməsi.

v) Peyğəmbərin hökmünü ürəkdən qəbul etmək və təslim olmaq.

2. İslam zahirən təslim olmaqdan əlavə, ruhi hala, qəlb təslimçiliyinə kamil diqqət yetirir.

3. Mühakimə risalət və vilayət şənindəndir.

4. Peyğəmbərin mühakiməsinə təslim olmağın vacibliyi həzrətin ismət, paklıq nişanıdır.

---

[1] "Təfsire-Nurus-səqələyn" ; "Kafi", c. 1, səh. 390.

**66.** ﴿وَلَوْ أَنَّا كَتَبْنَا عَلَيْهِمْ أَنِ اقْتُلُواْ أَنفُسَكُمْ أَوِ اخْرُجُواْ مِن دِيَارِكُم مَّا فَعَلُوهُ إِلاَّ قَلِيلٌ مِّنْهُمْ وَلَوْ أَنَّهُمْ فَعَلُواْ مَا يُوعَظُونَ بِهِ لَكَانَ خَيْرًا لَّهُمْ وَأَشَدَّ تَثْبِيتًا﴾

**“Əgər onlara hökm etsəydik ki, ölümə getsinlər (Bizim əmrimizlə bir-birlərini öldürsünlər), evlərindən və məmləkətlərindən çıxsınlar, kiçik bir hissəsi istisna olmaqla bu göstərişi yerinə yetirməzdilər. Əgər onlar öyüd verilən şeyə əməl etsəydilər, onlar üçün üstün və möhkəmlikdə təsirli olardı.”**

## *Nöqtələr*

◘Bu ayədə əvvəlki ümmətlər üçün müəyyənləşmiş çətin vəzifələrə işarə olunur. Məsələn, Allah buzovpərəstliyin cəzası olaraq Bəni-İsrailə bir-birlərini öldürmək əmri verdi. Bütpərəstlik kimi böyük bir günahı yumaq üçün bir-birlərini öldürmək və məmləkətdən çıxmaq kimi ağır cəza zəruri idi.

## *Bildirişlər*

1. Möminlər özlərini düzgün dəyərləndirməlidirlər. Bilməlidirlər ki, əgər çətin bir göstəriş verilsə, bunu necə qarşılayacaqlar.
2. İmtahan zamanı çox az insan vəzifənin öhdəsindən gəlir və iddiasını sübuta yetirir.
3. Tağutun küfrü və peyğəmbərə müraciət göstərişi, peyğəmbərin mühakimələrinə təslim olmağın zəruriliyi ilahi moizə və xeyirxahlıqdır.
4. Xeyir və səadət əməldən asılıdır.
5. İlahi hökmlər Allahın moizələridir.
6. Allah yolunda qədəm götürdükcə addımlarımızın möhkəmliyi və imanımız artır.
7. Əməl insanın ruhuna təsir göstərir. Hökmlərə əməl edilməsi imanın möhkəmlənməsi səbəbidir.
8. İlahi təklif zahirdə ağır gəlsə də, insanın xeyrinədir.

**67.** ﴿ وَإِذاً لَّآتَيْنَاهُم مِّن لَّدُنَّا أَجْراً عَظِيمًا ﴾

**“Bu surətdə, şübhəsiz, Biz Öz tərəfimizdən onlara böyük mükafat verərdik.”**

**68.** ﴿ وَلَهَدَيْنَاهُمْ صِرَاطًا مُّسْتَقِيمًا ﴾

**“Hökmən onları doğru yola hidayət edərdik.”**

## *Bildirişlər*

1. Xeyir, sabitqədəmlik, böyük mükafat, doğru yola çıxmaq moizə və insanın səyi sayəsində mümkün olur.

2. Xeyir yolda qədəm götürmək daha uca və daha çox xeyirə çatmaq səbəbidir.

69. ﴿ وَمَن يُطِعِ اللّهَ وَالرَّسُولَ فَأُوْلَئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاء وَالصَّالِحِينَ وَحَسُنَ أُولَئِكَ رَفِيقًا ﴾

**“Hər kəs Allaha və peyğəmbərə itaət etsə, belələri (qiyamətdə) Allahın nemət verdiyi kəslərlə həmdəm olarlar. Peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlər kimiləri ilə! Bunlar necə də yaxşı həmdəmlərdir!”**

70. ﴿ ذَلِكَ الْفَضْلُ مِنَ اللّهِ وَكَفَى بِاللّهِ عَلِيمًا ﴾

**“Bütün bu fəzllər Allah tərəfindəndir. Agahlıq üçün Allah bəs edər.”**

## *Nöqtələr*

◘“Həmd” surəsində “doğru yol” ifadəsi ilə yanaşı “nemət verilmişlər” ifadəsi zikr olunmuşdur. Bu yanaşılıqla ikinci dəfə 68-69-cu ayələrdə rastlaşırıq. Belə görünür ki, peyğəmbərlər, şəhidlər, siddiqlər və salehlərdən savay doğru yolla gedən yoxdur. Doğru yol qəti şəkildə bu dörd zümrədən birinə aiddir.

◘Rəvayətlərdə siddiqlər kimi məsum imamlar və həzrət Fatimə (ə) təqdim olunur. Şəhidlər dedikdə ya cihad meydanında öldürülənlər, ya da qiyamətdə əməllərə şahid olanlar nəzərdə tutulur.

◘Peyğəmbərlərlə yoldaşlıq dünya həyatında hamıya müyəssər olmur. Deməl, ayədə axirət yoldaşlığı nəzərdə tutulmuşdur.

## *Bildirişlər*

1. Peyğəmbərlər və şəhidlərin yolu, yaxşı insanlarla yoldaşlıq yalnız Allah və Onun rəsulunun göstərişlərinə itaət sayəsində əldə olunur.
2. Yaxşı yoldaş peyğəmbərlər, şəhidlər, siddiqlər və salehlərdir. Dünya dostlarını da bu meyarlarla seçmək lazımdır.
3. Peyğəmbərə itaət Allaha itaətdir. Demək, peyğəmbərə itaətin tövhid əqidəsi ilə ziddiyyəti yoxdur.
4. Peyğəmbərə itaətin mükafatı bütün peyğəmbərlərlə yoldaşlıqdır. Çünki bütün peyğəmbərlər eyni bir nurdurlar və bir hədəfə malikdirlər. Bir peyğəmbərə itaət bütün peyğəmbərlərin yolunu getməkdir.
5. Allahın hər şeydən xəbərdar olması vəzifənin yerinə yetirilməsində ən təsirli təşviqdir.
6. Peyğəmbərlik məqamı siddiqlərin, şəhidlərin və salehlərin məqamından ucadır. (Çünki peyğəmbərlər o biri zümrələrdən öndə zikr olunmuşlar.)

71. ﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ خُذُواْ حِذْرَكُمْ فَانفِرُواْ ثُبَاتٍ أَوِ انفِرُواْ جَمِيعًا ﴾

**"Ey iman gətirənlər! (Düşmən qarşısında ayıq olun və hazırlıq əlaməti olaraq) silahınızı götürün. Ayrı-ayrı, nizamsız dəstələr şəklində və ya birlikdə düşmənə doğru hərəkət edin."**

## *Nöqtələr*

◘Əvvəlki ayədə Allaha itaət, məsumun rəhbərliyi, peyğəmbərin hakimiyyəti, bu ayədə isə İslam ümməti və haqq rəhbərliyin ayıqlığı və hərbi hazırlığının zəruriliyi bəyan olundu.

◘Ayədəki "hizr" sözü ayıqlıq, hazırlıq, müdafiə vasitəsi mənasını bildirir. Dağınıq dəstələr (düşməni çaşdıran partizan dəstələri) ayədə "subat" adlandırılmışdır.

◘Müsəlmanlar öz ölkələrinin sərhədlərini hifz etməlidirlər. Bu ayəyə əməl edilməsi izzət rəmzi, ayədən qəflətdə qalmaq isə süqut və müsəlmanların məğlubiyyət nişanəsidir.

## *Bildirişlər*

1. Müsəlmanlar bütün hallarda hazır və ayıq olmalıdırlar. Müsəlmanlar düşmənin planlarından, canlı qüvvəsindən, döyüş texnikasından, psixoloji hazırlığından, daxili və xarici əlaqələrindən agah olmalı və bu məlumatlara münasib planlar cızıb əməl etməlidirlər.
2. Hərbi hazırlıq iman sayəsində dəyərli olur.
3. Müsəlmanlar səfərbər olmalıdırlar.
4. Düşmənə qarşı müxtəlif taktikalardan istifadə olunmalıdır.
5. Səfərbərlik və mübarizə üsulunu özünüz seçin.

72. ﴿ وَإِنَّ مِنكُمْ لَمَن لَّيُبَطِّئَنَّ فَإِنْ أَصَابَتْكُم مُّصِيبَةٌ قَالَ قَدْ أَنْعَمَ اللّهُ عَلَيَّ إِذْ لَمْ أَكُن مَّعَهُمْ شَهِيدًا ﴾

**"Həqiqətən, sizdən bəziləri həm özləri süst olur, həm də mücahidlərin süstlüyünə səbəb olurlar. Sizə bir çətinlik üz verəndə deyirsiniz: "Allah mənə minnət qoyub ki, onlarla birlikdə (cəbhədə) olmadım, (ya da onlarla birgə şəhadətə çatmadım.)"**

## *Nöqtələr*

◘Əvvəlki ayədə xarici düşmənlərin təhlükəsi bəyan olundu. Bu ayədə isə daxili düşmənlər, nüfuz amilləri və münafiqlər haqqında danışılır.

◘Ayədəki "yubəttiənnə" sözü "bət" kökündən olub süstlük mənasını bildirir. Dilçilər bu sözün həm süst hərəkət, həm də süst hərəkətə çağırış mənasını verdiyini qeyd edirlər.

## *Bildirişlər*

1. Döyüş səhnəsi zəif imanlı və münafiq fərdləri tanımaq üçün yaxşı vasitədir.
2. Allah münafiqlərin düşüncə və danışıqlarının üzərindən pərdəni götürür.
3. Münafiqlər bəzən mömin cildinə elə girirlər ki, eynən onlar kimi görünürlər.
4. Peyğəmbərin səhabələri arasında ədalət və doğru xətdən uzaq olanlar da var idi.
5. Münafiqlər müsəlmanların ruhiyyəsini zəiflədən amildirlər. Onları tanımaq və cəbhəyə buraxmamaq lazımdır.
6. Münafiqlər döyüşdə iştirak etməməyi, cəbhədən qaçmağı və ölümdən qurtuluşu müvəffəqiyyət və səadət sayırlar.
7. Hər rifah əbədi, ilahi lütf və nemət deyildir.
8. Möminlərlə çiyin-çiyinə çətinliyi dadmaq nemətdir. Möminlərdən kənardakı rifah isə nemət deyildir.

**73.** ﴿ وَلَئِنْ أَصَابَكُمْ فَضْلٌ مِّنَ اللهِ لَيَقُولَنَّ كَأَن لَّمْ تَكُن بَيْنَكُمْ وَبَيْنَهُ مَوَدَّةٌ يَا لَيتَنِي كُنتُ مَعَهُمْ فَأَفُوزَ فَوْزًا عَظِيمًا ﴾

**“Əgər Allah tərəfindən sizə bir fəzl və qənimət yetişsə, aranızda dostluq yoxmuş kimi (sizə gələn xeyiri öz xeyiri saymayaraq) deyəcək: “Kaş ki, cihadda onlarla olaydım ki, böyük qurtuluşa yetişəydim.”**

## *Nöqtələr*

◘Fəzl və qənimət barədə danışılarkən Allahın adı çəkilir. Amma əvvəlki ayədə çətinliklər zikr olunanda Allahın adı tutulmurdu. Aydın olur ki, Allahdan bizə yalnız fəzl və rəhmət nazil olur.

## *Bildirişlər*

1. Döyüşdə qələbə və qənimətlər Allahın fəzlindəndir.
2. Dünyəvi mənafeyə görə münafiqlər mənəviyyatı əldən verirlər.
3. Münafiqin arzuları sidq-qəlbdən deyil.
4. Münafiqlər yalnız dünyəvi qazanc güdürlər. Onlar çətinliklər zamanı deyirlər: “Allah lütf etdi ki, biz onlarla olmadıq.” Möminlər qələbə və qənimət əldə etdikdə isə münafiqlər belə deyirlər: ” Kaş onlarla olaydıq.”
5. Qənimətdə möminlərə şərik olub, qəm-qüssədə onlardan kənar dayanmaq istəyi münafiq xislətidir.
6. Münafiqlərin nəzərində qurtuluş dünya rifahına çatmaqdır.

74. ﴿ فَلْيُقَاتِلْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يَشْرُونَ الْحَيَاةَ الدُّنْيَا بِالآخِرَةِ وَمَن يُقَاتِلْ فِي سَبِيلِ اللّهِ فَيُقْتَلْ أَو يَغْلِبْ فَسَوْفَ نُؤْتِيهِ أَجْرًا عَظِيمًا ﴾

**"Allah yolunda o kəslər döyüşə qalxmalıdırlar ki, dünya həyatını axirət həyatına satmışlar və Allah yolunda vuruşub öldürülən və ya qalib gələn kəsə tezliklə böyük mükafat verəcəyik."**

## *Bildirişlər*

1. İslamda döyüşün yeganə hədəfi Allahın razılığıdır. İslam döyüşündə fatehlik, istismar və intiqam məqsədi olmur.
2. Cihad elə bir tövfiqdir ki, hamıya verilmir. Dünyapərəstlərin nə cəbhə, nə də şücaət ləyaqətləri var.
3. Böyük cihad dünyapərəstliklə mübarizə, kiçik cihad isə düşmənlərlə mübarizənin müqəddiməsidir.
4. Allah yolunda döyüşən mücahid heç vaxt məğlub olmur.
5. Haqq cəbhəsində fərarilik və məğlubiyyət yox, şəhadət və qələbə nəzərdə tutulur.
6. Münafiqlər yalnız qəniməti dəyərli sayırlar. Quran isə həm qələbə, həm də şəhadəti böyük əcr sayır.
7. Böyük mükafat vədi cəbhəyə üz tutmaq üçün təşviqdir.
8. Axirət həyatı dünya həyatından üstündür. Dünyanı verib, axirəti almaq böyük və dəyərli işdir.
9. Şəhidlə qalib döyüşçünün mükafatı eynidir.

75. ﴿وَمَا لَكُمْ لاَ تُقَاتِلُونَ فِي سَبِيلِ اللّهِ وَالْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ الَّذِينَ يَقُولُونَ رَبَّنَا أَخْرِجْنَا مِنْ هَـذِهِ الْقَرْيَةِ الظَّالِمِ أَهْلُهَا وَاجْعَل لَّنَا مِن لَّدُنكَ وَلِيًّا وَاجْعَل لَّنَا مِن لَّدُنكَ نَصِيرًا﴾

**"Sizə nə olub ki, Allah yolunda və "Pərvərdigara, bizi əhalisi zalım olan şəhərdən çıxar və Özünə doğru apar, bizim üçün rəhbər qərar ver, Öz tərəfindən bizə yardımçı təyin et" deyən zəif düşmüş kişilər, qadınlar və uşaqlar yolunda savaşmırsınız?!"**

## *Nöqtələr*

◘Ayə Məkkə əhlinin təzyiq və işkəncələri altında baş götürüb qaçan müsəlmanlar haqqındadır. Azadlıqları uğrunda cihaddan boyun qaçıranlar məzəmmət olunurlar.

◘Müstəzəflərin kimliyi barədə verilən suallara İmam Sadiq (ə) belə cavab verir: “O kəslər ki, nə mömindirlər, nə də kafir.” [1]

## *Bildirişlər*

1. Müsəlmanlar bir-birlərinə münasibətdə dini qeyrət və təəssüb göstərməlidirlər. Onlar bir-birlərinin nalələrinə və fəryadlarına biganə qalmamalıdırlar.
2. İslami cihadın hədəflərindən biri müstəzəfləri zalım hakimlərin zülmündən xilas etməkdir.
3. İslam sərhəd tanımır. Harada müstəzəf varsa, cihad da vardır.
4. İslam ordusu o qədər güclü olmalıdır ki, bütün dünya məhrumlarına nicat verə bilsin.
5. Cihada dəvət üsulunda xalqın hisslərindən faydalanmaq lazımdır.
6. Müsəlmanlara rəhbərlik Allah tərəfindən olmalıdır.

76. ﴾ الَّذِينَ آمَنُواْ يُقَاتِلُونَ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ كَفَرُواْ يُقَاتِلُونَ فِي سَبِيلِ الطَّاغُوتِ فَقَاتِلُواْ أَوْلِيَاء الشَّيْطَانِ إِنَّ كَيْدَ الشَّيْطَانِ كَانَ ضَعِيفًا ﴾

**“İman gətirənlər Allahın yolunda cihad edirlər. Kafir olanlar isə tağut yolunda döyüşürlər. Beləcə, şeytanın dostları və köməkçiləri ilə döyüşün (və qorxmayın), çünki şeytanın hiyləsi zəifdir.”**

## *Nöqtələr*

◘Kafirlərin şeytani hiylələri böyük olsa[2] və az qala dağları yerindən oynatsa da,[3] bütün bu hiylələr Allahın iradəsi qarşısında süst və zəifdir.

## *Bildirişlər*

1. Kafirlərlə cihad iman şərtidir.
2. İslamda cihad Allahın razılığı və dinin qorunması üçündür. Bu cihadda fatehlik və intiqam istəkləri yoxdur.
3. İlahi və qeyri-ilahi cəmiyyətləri döyüş növündən tanımaq olar.
4. Döyüş və ziddiyyət həmişə olmuşdur və indi də var. Amma əsas məsələ hansı yolda və hansı məqsədlə vuruşmaqdır.
5. Küfr, tağut və şeytan üçbucağı möhkəm ittifaqa malikdir.
6. Mübarizənin iki növünü müqayisə etməklə öz işinizi dəyərləndirin və döyüşə qatılın.
7. Düşmənin planları olsa da qorxmayın, çünki bu planlar zəifdir.
8. Tağut xəttinin və şeytan yolunun sonu əliboşluqdur.

---
[1] “Təfsire-Əyyaşi”, c. 1, səh. 257.
[2] Bax: “Nuh”, 22.
[3] Bax: “İbrahim”, 46.

77. ﴿أَلَمْ تَرَ إِلَى الَّذِينَ قِيلَ لَهُمْ كُفُّواْ أَيْدِيَكُمْ وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ فَلَمَّا كُتِبَ عَلَيْهِمُ الْقِتَالُ إِذَا فَرِيقٌ مِّنْهُمْ يَخْشَوْنَ النَّاسَ كَخَشْيَةِ اللّهِ أَوْ أَشَدَّ خَشْيَةً وَقَالُواْ رَبَّنَا لِمَ كَتَبْتَ عَلَيْنَا الْقِتَالَ لَوْلا أَخَّرْتَنَا إِلَى أَجَلٍ قَرِيبٍ قُلْ مَتَاعُ الدَّنْيَا قَلِيلٌ وَالآخِرَةُ خَيْرٌ لِّمَنِ اتَّقَى وَلاَ تُظْلَمُونَ فَتِيلاً﴾

**"Əl saxlayın, namazı bərpa edin, zəkat ödəyin" deyilən kəsləri görmürsənmi? Amma (Mədinədə) onlar üçün cihad müəyyənləşəndə onlardan bir dəstəsi xalqdan (Məkkə müşriklərindən) elə qorxdu ki, sanki Allahdan qorxdu, bəlkə bundan da çox. (Etirazla) dedilər: "Pərvərdigara! Nə üçün bizə döyüşü vacib etdin? Nə üçün bizə yaxın sonluğadək (təbii ölümədək) möhlət vermədin?" De ki, dünyanın bəhrəsi az və dəyərsizdir. Təqva yolunu tutan kəs üçün axirət daha yaxşıdır. Sizə xurma özəyindəki lif qədərincə zülm olunmayacaq."**

## *Nöqtələr*

◘İlkin İslam dövrünün müsəlmanları Məkkənin çətin vaxtlarında peyğəmbərdən müşriklərlə döyüş üçün icazə istəyirdilər və deyirdilər: "İslamdan qabaq rahat idik, indi isə İslama xatir çətinliyə düşmüşük. Döyüşə icazə ver, qoy izzətimizi ələ alaq. Həmin vaxt döyüş barədə vəhy almayan peyğəmbər döyüşə icazə vermədi. Amma hicrətdən sonra cihad əmri gəldiyi vaxt bir zaman cihad tələb edənlərin müəyyən hissəsi etiraz edib bəhanə axtarmağa başladı. Onlar Məkkə kafirlərini güclü sayıb qorxudan tir-tir əsirdilər.

◘Qarşı tərəfin əzəmət və böyüklüyündən yaranan qorxuya "xəşyət" deyilir.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Onlar boş şüarlar verirdilər. Ayə nazil oldu ki, əl götürün."[1]

◘İmam Baqir (ə) ayənin nümunələrindən biri kimi imam Həsənin (ə) sülhünü göstərir. İmam bildirir ki, bu sülh İslam ümməti üçün günəşin işıq saçdığı şeydən də üstündür."[2]

Bəli, məsum imam bəzən imam Həsən (ə) tək atəşkəs əmri verir, bəzən də imam Hüseyn (ə) kimi döyüş və şəhadəti zəruri sayır.

◘Müxtəlif rəvayətlərdə oxuyuruq ki, "əcəlin qərib" ifadəsi imam Mehdinin (ə) qiyamına işarədir. Xalq cihadın həmin vaxtadək təxirə salınmasını istəyirdi.[3] Yəni bir dəstə insan elə düşünür ki, imam Mehdinin (ə) qiyamınadək döyüş hökmü verilməməlidir.

---

[1] "Təfsire-Nurus-səqəleyn" ; "Kafi", c. 2, səh. 114.
[2] "Kafi", c. 8, səh. 330.
[3] "Təfsire-Əyyaşi", c. 1, səh. 257.

## *Bildirişlər*

1. Tarixə diqqət faydalıdır.
2. Bütün inqilabların başlanğıcında çətinliklərə dözmək lazım gəlir.
3. Ötəri hissləri və boş şüarları nəzərdən qaçırmaq olmaz.
4. Allahın göstərişləri xalqın istəyinə yox, həqiqi ehtiyaclara əsaslanır.
5. Qılınc heç də həmişə faydalı olmur. Çətin şəraitdə və hazırlıq olmayanda güclü düşmənə bəhanə yeri qoymaq olmaz.
6. Allahın rəsulundan və ilahi göstərişlərdən qabağa qaçmayın. Dini işlərdə şəxsi üslubunuzu önə çəkməyin.
7. Allahın zikri olan namazla daxili rahatlıq əldə edin. Zəkat vasitəsi ilə iqtisadi boşluqları doldurun.
8. İslamın ibadi məsələləri iqtisadi məsələlərindən təcrid deyil.
9. İbadətlər arasında namaz və zəkatın xüsusi yeri var.
10. Namaz zəkatdan öndə gəlir. (Bu iki ibadətin adı çəkilərkən daim namaz öndə zikr olunur.)
11. Namaz və zəkat göstərişləri cihad göstərişindən qabaq çıxarılmışdır.
12. İnsanın özünü tərbiyə etməsi cəmiyyəti qaydaya salmasından irəlidir. Namaz və zəkat əhli olmayan kəs ixlas və isar əhli də olmayacaq.
13. Tez qızanlar tez də soyuyur. Bəli, qızmış şey soyuyur, amma bişmiş şey yenidən çiy olmur.
14. İnqilabçı olmaq mühüm deyil. İnqilabçı qalmaq mühümdür. Bəzən şüarla əməl arasında böyük fasilə yaranır.
15. Cihad göstərişi xalqın sınaq vasitəsidir.
16. Cihadın tərk olunmasının əsas səbəbi dünyaya bağlılıqdır.
17. Cihad əmrinə etiraz qaynağı qorxudur.
18. Allahın göstərişlərinə və onların verilmə vaxtına etiraz etməyin. İlahi əmr olan yerdə zaman və məkanla bağlı hesabatlarınızı bir kənara qoyun.
19. Allahın əmrinə etiraz təqvasızlıq nişanəsidir.
20. Əgər baxışınız maddi dünyadan uzaq görə bilsə, dünyanın cüzi matahına könül verməzsiniz.
21. Yalnız təqva əhli axirətdə kam alır.

**78.** ﴿أَيْنَمَا تَكُونُواْ يُدْرِككُّمُ الْمَوْتُ وَلَوْ كُنتُمْ فِي بُرُوجٍ مُّشَيَّدَةٍ وَإِن تُصِبْهُمْ
حَسَنَةٌ يَقُولُواْ هَذِهِ مِنْ عِندِ اللّهِ وَإِن تُصِبْهُمْ سَيِّئَةٌ يَقُولُواْ هَذِهِ مِنْ عِندِكَ قُلْ كُلًّ
مِّنْ عِندِ اللّهِ فَمَا لِهَؤُلاء الْقَوْمِ لاَ يَكَادُونَ يَفْقَهُونَ حَدِيثًا﴾

**“Harada olsanız ölüm sizi yaxalayar. Hətta möhkəm qalalarda olsanız da. Onlara (münafiqlərə) yaxşılıq və qələbə yetişdikdə deyirlər: “Bu, Allah tərəfindəndir.” Bir pislik yetişdikdə isə deyirlər: “Bu, sənin tərəfindəndir.” De ki, hər şey Allah tərəfindəndir. Bu qövmə nə olub ki, heç bir sözü anlamaq iqtidarında deyil?”**

## *Nöqtələr*

◘Bu ayə həm cihada təşviq edir, döyüş qorxusunun qarşısını alır, həm də münafiqlərin pis falına cavab verir. Onlar məsələləri düzgün araşdırıb dərk etmək əvəzinə müvəffəqiyyətsizliklərin günahını peyğəmbərin boynuna atırlar.

## *Bildirişlər*

1. Ölümün qəti olduğunu biliriksə, nə üçün döyüşdən qaçmalıyıq?!
2. Rəhbəri bədnam etmək münafiqlərin faydalarındandır.
3. Məsuliyyəti boyundan atıb büdrəmələrə don geyindirməklə öz günahlarımızı başqalarının boynuna atmamalıyıq.
4. Qələbə və məğlubiyyətlər, ölüm və həyat, aclıq və şirinliklər Allahın hikmətli müqəddərat dairəsindən kənar deyil.
5. Bütün acı və şirin hadisələrin mənşəyi Allahdır. Əhrimən, Yəzdan kimi inanclar boş şeydir.
6. Münafiqlər inadkardırlar və haqq sözü qəbul etmirlər.
7. Allahı hər şeyin mehvəri bilmək üçün insanın dəqiq və dərin təfəkkürə ehtiyacı var.
8. Tövhid və Allahın mehvər olmasını dərk etməyənlər heç bir maarifi dərk edə bilməzlər.

79. ﴿ مَّا أَصَابَكَ مِنْ حَسَنَةٍ فَمِنَ اللّهِ وَمَا أَصَابَكَ مِن سَيِّئَةٍ فَمِن نَّفْسِكَ
وَأَرْسَلْنَاكَ لِلنَّاسِ رَسُولاً وَكَفَى بِاللّهِ شَهِيدًا ﴾

**“(Ey insan,) Sənə nə yaxşılıq yetsə, Allahdandır. Pislikdən sənə çatan isə nəfsin ucbatındandır. (Ey peyğəmbər,) Biz səni xalq üçün rəsul göndərdik. Bu barədə Allahın şahidliyi kafidir.”**

## *Nöqtələr*

◘İlahi dünyagörüşündə hər şey Allahın məxluqudur.[1] Allah hər şeyi gözəl yaratmışdır.[2] Allaha aid olan hər bir şey gözəlliklə müşayiət olunan bir yaranışdır. Bizim rastlaşdığımız çətinliklər isə, əvvəla kamilliklərin olmamasıdır. İkincisi, ilahi xeyirlərdən məhrumiyyətin səbəbi fərd və cəmiyyətin özünün əməlinə qayıdır.

◘Alimlərdən birinin dediyi kimi, günəş ətrafında dövr edən yerin bir hissəsi ona görə qaranlıq qalır ki, həmin hissənin arxası günəşə doğrudur. Həmin hissənin qaranlıq qalmasının səbəbi günəşdə axtarılmamalıdır. Günəş daim işıq verir. Beləcə, yerə deyə bilərik: Ey yer! Sənin hansı hissən işıqlıdırsa, o işıq günəşdəndir, hansı hissən qaranlıqdırsa, özün səbəbkarsan. Bu ayədə də insana

---

[1] Bax: “Zumər”, 63.
[2] Bax: “Səcdə”, 7.

xitab olunur ki, ona yetişən bütün yaxşılıqlar Allahdan, bütün pisliklər isə onun özündəndir.

◘Quranın həzrət Peyğəmbər (s) haqqındakı xoş sözlərini nəzərə alaraq deyə bilərik ki, "sənin nəfsindəndir" təbiri peyğəmbərə yox, insanın nəfsinə işarədir.

◘Əvvəlki ayədə oxuduq ki, bütün yaxşılıqlar və pisliklər Allah tərəfindəndir. Bu ayədə isə yalnız yaxşılıqların Allah tərəfindən olduğu bildirilir. Qeyd etməliyik ki, pisliklər insandan baş verdiyi üçün ona aid edilmişdir. Amma insan özü və onun iradəsi Allahın hakimiyyəti altında olduğundan bütövlükdə Allaha aid edilir. Necə ki, müəssisədə işləyən fəhlənin buraxdığı nöqsan həm onun özünə, həm də həmin müəssisəyə aiddir.

◘İmam Riza (ə) buyurmuşdur: "Allah insana xitab edir ki, sənin iradə və istəyin də Məndəndir."[1] Bəli, insan Allahın istəyi ilə qərara gələ bilər.

## *Bildirişlər*

1. İlahi dünyagörüşündə bütün yaxşılıqlar və gözəlliklər Allahdandır.
2. Ruhiyyələrin zəifləşdirilməsinə ruhiyyələrin gücləndirilməsi ilə cavab verilməlidir. Münafiqlər pislikləri həzrət Peyğəmbərə (s) aid etdiklərindən ayədə bu baxış rədd edilir.
3. İslam peyğəmbərinin risaləti bütün dünyaya aiddir.
4. Peyğəmbərlər bütün insanlar üçün xeyir vasitəsidirlər.

**80.** ﴿ مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ وَمَن تَوَلَّى فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا ﴾

**"Hər kəs peyğəmbərə itaət etsə, şəksiz, Allaha itaət etmişdir. Hər kəs üz döndərib boyun qaçırsa, Biz səni onlara nəzarətçi göndərməmişik."**

## *Bildirişlər*

1. Peyğəmbərin danışığı və rəftarı eynən Quran kimi höccətdir və onların icrası lazımdır.
2. Peyğəmbər hökumətinin fərmanlarına itaət vacibdir. (Peyğəmbərə itaət dedikdə onun hökumətinin fərmanlarına itaət nəzərdə tutulur. Peyğəmbərin bəyan etdiyi ilahi göstərişlərə itaət isə peyğəmbərə yox, Allaha itaətdir.)
3. Peyğəmbərlər məsumdurlar.
4. Peyğəmbərin əmrləri ilahi əmrlərdən doğmuşdur.
5. İnsan məcbur yox, azaddır.
6. Peyğəmbərlərin vəzifəsi zor yox, təbliğdir.

**81.** ﴿وَيَقُولُونَ طَاعَةٌ فَإِذَا بَرَزُواْ مِنْ عِندِكَ بَيَّتَ طَآئِفَةٌ مِّنْهُمْ غَيْرَ الَّذِي تَقُولُ
وَاللّهُ يَكْتُبُ مَا يُبَيِّتُونَ فَأَعْرِضْ عَنْهُمْ وَتَوَكَّلْ عَلَى اللّهِ وَكَفَى بِاللّهِ وَكِيلاً﴾

---
[1] "Təfsire-Əyyaşi", c. 1, səh. 258.

**“(Münafiqlər gündüz, sənin hüzurunda) deyirlər: “Mütiyik!” Elə ki, sənin yanından çıxırlar, onlardan bir dəstəsi gecə yığıncaqlarında sənin dediklərinin ziddinə iş görürlər. Amma Allah bu yığıncaqlarda baş verənləri yazır. Onlardan üz döndər və Allaha təvəkkül et. Allahın arxa durması kafidir.”**

## *Bildirişlər*

1. Vəfadarlıq və imandan danışan hər yağlı dilə aldanmayın. Çünki münafiqlər şirin dillə özlərini müti göstərmək istəyirlər.
2. Münafiqlərin məxfi gecə yığıncaqları və təşkilatları vardır.
3. Düşmənlər diqqətdən kənarda qalmış, qaranlıq nöqtələrdən faydalanırlar. Düşmənin hiylələrindən qəflətdə qalmayın.
4. Quran hamını eyni şəkildə məzəmmət etmir.
5. Allah münafiqlərin hiylə və qurğularının hesabına çatasıdır.
6. Münafiqlərin məxfi qurğuları müqabilində yalnız Allaha təvəkkül edilməlidir. Təvəkkül müvəffəqiyyət səbəbidir.
7. Allah müsəlmanların və peyğəmbərin himayədarıdır. Allah münafiqlərin qurğuları üzərindən pərdəni qaldırır, qeybi yardımlarla müsəlmanlara kömək edir.

**82.** ﴿أَفَلاَ يَتَدَبَّرُونَ الْقُرْآنَ وَلَوْ كَانَ مِنْ عِندِ غَيْرِ اللّهِ لَوَجَدُواْ فِيهِ اخْتِلاَفًا كَثِيرًا﴾

**“Nə üçün Quranın mənaları haqqında düşünmürlər? Əgər bu Quran Allahdan qeyrisi tərəfindən gəlmiş olsaydı, şübhəsiz, onda bir çox ixtilaflar tapardılar.”**

## *Nöqtələr*

◘Peyğəmbərə ünvanlanan böhtanlardan biri də bu idi ki, guya Quranı həzrət Məhəmmədə (s) bir başqası öyrətmişdir.[1]

◘Adətən, bəşər övladının sözlərində və yazılarında zaman keçdikcə dəyişikliklər olur, islahlar aparılır, təzadlar üzə çıxır. Amma iyirmi üç il ərzində döyüş və sülh, qüdrət və zəiflik, qürbət və şöhrət kimi müxtəlif şəraitlərdə nazil olmuş Quranda heç bir ixtilaf və ziddiyyət mövcud deyil. Bəli, Quran dərs oxumamış bir şəxsin dilindən nəql olunmuşdur. Bütün bunlar Quranın bəşər yox, Allah kitabı olduğunu sübuta yetirir.

◘Allah-təala əmr edir ki, hamı bütün əsrlərdə Quranın mənaları haqqında düşünsün. Bu, müxtəlif dövrlərdəki alimlərin Qurandan müəyyən nöqtələri anlayacağına işarədir. Həzrət Əli (ə) Quran mənalarının nəhayətsizliyi haqqında buyurur: “Quran, zənginliyi dərk olunmayan bir dəryadır.”[2]

---

[1] Bax: “Nəhl”, 103.
[2] “Nəhcül-bəlağə”, xütbə. 198.

## *Bildirişlər*

1. Quranın mənaları haqqında düşünməmək Allahın məzəmmətinə səbəb olur.

2. Quranın mənaları haqqında düşüncə nifaqın, qarşıdurmanın şəfalı məlhəmidir.

3. İslamda Qurana qovuşma yolu təqlidçilik yox, düşüncədir.

4. Quran hamını düşüncəyə səsləyir. İnsan dərrakəsi ilahi maarifi dərk etmək gücündədir.

5. Quranda ziddiyyət və ixtilaf olmasını güman etmək səthi baxış və diqqətsizlik nəticəsidir.

6. Quran peyğəmbər risalətinin haqlı olması dəlilidir.

7. Quran ayələrinin ziddiyyətsiz olması bu ilahi kitabın dəyişməz bir vücud tərəfindən göndərilməsi nişanəsidir.

8. Allah tərəfindən olan hər bir şey haqq, sabit, ziddiyyətsiz və nöqsansızdır.

9. Qeyri-ilahi qanunlarda daim ziddiyyət və nöqsan müşahidə olunur.

10. İxtilaf, dəyişmə və islah bəşərə aid nəzəriyyələrin şərtidir.

11. Hər bir ideologiyanı puça çıxarmaq üçün onda ziddiyyət və nöqsanlar tapılması kifayətdir.

**83.** ﴿وَإِذَا جَاءهُمْ أَمْرٌ مِّنَ الأَمْنِ أَوِ الْخَوْفِ أَذَاعُواْ بِهِ وَلَوْ رَدُّوهُ إِلَى الرَّسُولِ
وَإِلَى أُوْلِي الأَمْرِ مِنْهُمْ لَعَلِمَهُ الَّذِينَ يَسْتَنبِطُونَهُ مِنْهُمْ وَلَوْلاَ فَضْلُ اللّهِ عَلَيْكُمْ
وَرَحْمَتُهُ لاَتَّبَعْتُمُ الشَّيْطَانَ إِلاَّ قَلِيلاً﴾

**“Onlara (münafiqlərə) aman və ya qorxu haqqında bir xəbər gəldikdə onu faş edib yayırlar. Halbuki onu (yaymazdan qabaq) peyğəmbər və öz iş başçılarına bildirsəydilər, şübhəsiz, onlar düşüncə və dəlil əhli olduqlarından həqiqəti anlayardılar. Əgər Allahın fəzl və rəhməti sizə olmasaydı, bir qisminiz istisna olmaqla, şeytana itaət edərdiniz.”**

## *Nöqtələr*

◘Gizli xəbər və şayiələrin yayılması daimi müsəlmanlara zərbə vurmuşdu. Sadəlövhlük, intiqam, zərbə vurmaq, vasitə olmaq, maddi tamah, özünü göstərmək, məlumatları faş etmək adətən sirlərin açıqlanmasına səbəb olur. İslam hərtərəfli bir din olduğundan bu məsələyə yer ayırıb uyğun ayədə hərbi sirlərin açıqlanmasını məzəmmət edir. Qələbə və ya məğlubiyyət xəbəri rəhbərə verilməmiş yayılırsa, bu, yersiz qürur və əsassız qorxu amilidir. Əgər ilahi xəbərdarlıqlar və diqqət olmasaydı, müsəlmanlar bu yolda şeytanın hədəfinə daha çox tuş gələrdilər.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Bizim sirrimizi faş edən kəs üstümüzə qılınc çəkmiş kəs kimidir.”[1]

◘İmam Baqir (ə) buyurmuşdur: “Ayədə dəlil əhli deyilərkən məsum imamlar nəzərdə tutulur.”[2]

## *Bildirişlər*

1. Əmniyyətlə bağlı məlumatların sirr saxlanılması və qorunması müsəlmanların vəzifəsidir. Bu sayaq sirləri faş etmək haramdır.
2. Şayiələr yaymaq münafiqlərin üsuludur. (Əvvəlki ayələrə görə.)
3. Cəbhə xəbəri və hərbi sirr əvvəlcə rəhbərliyə çatdırılmalı, götür-qoydan sonra məsləhət olarsa yayılmalıdır.
4. Avam və sadə xalq sübut əhlinə müraciət etməlidir.
5. Əmr sahibləri (“ulul-əmr”) möminlərin öz arasından olmalıdır.(ərəbcə)
6. Müsəlmanların hökuməti, təşkilatı və rəhbəri olmalıdır. Əmr sahibi dövlət, hökumət və qüdrət sahibidir.
7. Hərbi, siyasi və təhlükəsizliklə bağlı məsələlər ictihad və düşüncə sahibi olan müdiriyyətin nəzarəti altında olmalıdır.
8. Təhlükəsizlik xəbərlərinin və ictimai sirlərin nəzarət altında saxlanılması, taleyüklü xəbərlərin toplanılması üçün təşkilatın təsisi, zəruri məlumatların xalqa çatdırılması rəhbərlik vəzifələrindəndir.
9. Vilayət və fəqihlik arasında sıx rabitə var. Əmr sahibi düşüncə əhli olmalıdır.
10. Mahiyyətin dərki (istinbat) təkcə fiqhi hökmlərə aid deyil.
11. Xəbərlərin cərəyanı və onların araşdırılmasında səlahiyyətli mərcənin qərar verilməsi yolu ilə fitnənin aradan qaldırılması ilahi fəzl və rəhmət nümunələrindəndir.
12. Allahın rəsulu və əmr sahiblərinin xalqın müraciət yeri kimi təyini və xalqın şeytana itaətdən xilas edilməsi Allahın ən böyük fəzl və rəhmətidir.
13. Düzgün mərkəzləşmə çaşqınlığa mane olur. Rəhbərsiz cəmiyyət şeytanın tilovuna düşür.
14. Hərbi xəbərlərin yayılması və ilahi rəhbərlərə müraciət edilməməsi şeytana itaətdir.
15. Xalqın əksəriyyəti şayiələrə uyur.

**84.** ﴿ فَقَاتِلْ فِي سَبِيلِ اللّهِ لاَ تُكَلَّفُ إِلاَّ نَفْسَكَ وَحَرِّضِ الْمُؤْمِنِينَ عَسَى اللّهُ أَن يَكُفَّ بَأْسَ الَّذِينَ كَفَرُواْ وَاللّهُ أَشَدُّ بَأْسًا وَأَشَدُّ تَنكِيلاً ﴾

**“Allah yolunda döyüş ki, səndən başqası (bu işə) vəzifəli deyil. Möminləri (cihada) rəğbətləndir. Bəlkə Allah kafirlərin zərərinin qarşısını alsın. Allah çox qüdrətlidir və cəzası çox dərdlidir.”**

---

[1] “Vəsail”, c. 28, səh. 197.
[2] “Vəsail”, c. 27, səh. 200.

## Nöqtələr

◘Kafirlər Ühüddə qalib gəldikdən sonra Əbu-Süfyan qürurla dedi: "Müsəlmanlarla kiçik Bədr mövsümündə (Bədrdə zil-qədə ayında keçirilən bazar) növbəti dəfə üzbəüz gələcəyik." Vəd olunmuş vaxt çatdıqda peyğəmbər xalqı cihada dəvət etdi. Bir dəstə Ühüddə məğlubiyyət səbəbindən cihada getmək istəmədi. Yuxarıdakı ayə nazil oldu. Peyğəmbər xalqı növbəti dəfə cihada çağırdı. Yetmiş nəfər hazırlığını bildirsə də, döyüş baş vermədi və müsəlmanlar sağ-salamat Mədinəyə qayıtdılar.

◘"Nükul" qorxu səbəbindən imtina mənasını bildirir. "Tənkil" isə qarşı tərəfi fikrindən döndərmək mənasını ifadə edir. Cəza, hədd "tənkilə" misal ola bilər.

◘İmam Sadiq (ə) buyurmuşdur ki, tənha qaldığı halda heç bir peyğəmbərə cihad əmri verilməmişdir. ("Təfsire Safi")

◘İmam Baqir (ə) buyurmuşdur: "Bu ayə nazil olduqdan sonra həzrət Peyğəmbər (s) bütün döyüşlərə şəxsən özü komandanlıq edirdi."[1]

## Bildirişlər

1. Rəhbər başqalarının önündə getməlidir.
2. Əgər müsəlmanlar müstəzəflərin nalələrinə biganə qalsalar, rəhbər təkbaşına hərəkət etməlidir.
3. Rəhbər o qədər qəti olmalıdır ki, cihad zamanı yanında kimsənin olub-olmaması təsirsiz olsun.
4. Hər kəs öz işinə məsuldur.
5. Xalqa yox, Allaha bağlanmaq lazımdır.
6. Peyğəmbərlərin vəzifəsi məcbur etmək yox, təşviq və dəvətdir.
7. Cəbhə və cihadın güclü təbliğata ehtiyacı var.
8. Bizim vəzifəmiz qiyam və cihaddır. Düşmənin məğlubiyyəti Allahın işidir.
9. İlahi qüdrət bütün güclərin fövqündədir; bu qüdrət möminlər üçün ümid, müxaliflər üçün hədə-qorxudur.

**85.** ﴿ مَّن يَشْفَعْ شَفَاعَةً حَسَنَةً يَكُن لَّهُ نَصِيبٌ مِّنْهَا وَمَن يَشْفَعْ شَفَاعَةً سَيِّئَةً
يَكُن لَّهُ كِفْلٌ مِّنْهَا وَكَانَ اللّهُ عَلَى كُلِّ شَيْءٍ مُّقِيتًا ﴾

**"Hər kəs yaxşı işə havadar olsa, mükafatdan pay alacaq. Hər kəs pis işə havadar olsa, cəzadan pay götürəcək. Allah hər şeyə nəzarətçidir."**

## Nöqtələr

◘"Muqit" dedikdə digərinə güc verən, onun canını qoruyan, bir sözlə, hifz edən, hesab aparan kəs nəzərdə tutulur.

[1] "Təfsire-Bürhan", c. 1, s. 398; "Təfsire-Əyyaşi", c. 1, s. 261.

◘Ötən ayədə hər kəsin öz işinə məsul olduğu bildirildi. Bu ayədə isə yaxşı və pis işə dəvət və havadarlığın təsirləri bəyan olunur.

◘Moizə, dostluğa çağırış, tədris, cəbhəyə təşviq, yaxşı işə yardım yaxşıya havadarlığın nümunələridir. Hədisdə başqaları haqqında dua, əmr be məruf, hətta yaxşı işə işarə yaxşıya havadarlığın nümunəsi kimi göstərilmişdir. ("Təfsire-Safi") Qeybət, söz gəzdirmək, iş pozmaq, böhtan, fitnə, cəbhədən çəkindirmək, vəsvəsə və fitnə pisliyə havadarlıq nümunələridir.

## *Bildirişlər*

1. Fərdiyyətçilik və guşənişinlik İslamda qadağandır.
2. Yaxşı və pisə dəvət mükafat və cəzaya şərik olmaqdır.
3. Məhdudiyyətlər səbəbindən hər işə birbaşa müdaxilə etmək olmur. Amma xeyir havadarlıqla ondan bəhrələnmək olar.
4. Dəllala haqq ödənməlidir. Xeyriyyə və ya ticarət işlərində vasitəçilik edənlərin haqqı var.
5. Havadarlıqda Allahı nəzərdən qaçırmaq olmaz.

**86.** ﴿ وَإِذَا حُيِّيْتُم بِتَحِيَّةٍ فَحَيُّواْ بِأَحْسَنَ مِنْهَا أَوْ رُدُّوهَا إِنَّ اللّهَ كَانَ عَلَى كُلِّ شَيْءٍ حَسِيبًا ﴾

**"Əgər sizə salam versələr, onu verildiyindən də yaxşı şəkildə cavablandırın. Ya da (heç olmasa) olduğu kimi cavab verin. Allah daim hər şeyi hesaba alır."**

## *Nöqtələr*

◘"Təhiyyət" dedikdə başqalarına salam vermək və ya istənilən bir şəkildə başqasına salamatlıq arzulamaq nəzərdə tutulur. Məsələn, hədiyyə vermək də təhiyyətdir. Bir kəniz imam Həsənə (ə) bir dəstə gül verdiyi üçün imam onu azad etdi. Xalqın sualına isə həmin bu ayə ilə cavab verdi.

◘İslamda başqalarına salam vermək tövsiyə olunur. Qarşı tərəfi tanıyıb, tanımamaq şərt deyil. Salam verməkdə xəsislik göstərən şəxs xəsis adam kimi sayılmışdır. Peyğəmbər (s) hətta uşaqlara da salam verirdi.

İslamın tərbiyə proqramında salamı təkcə kiçiklər böyüyə vermir. Hətta Allah, peyğəmbər və mələklər möminləri salamlayır.[1] (Rəvayətlərdən salam qaydalarını öyrənin.)

[1] Bax: "Saffat", 79.

## *Bildirişlər*

1. Bir-birinizlə dostluq əlaqələrini isidin.
2. Xalqın ehsanını qaytarmaq rəva deyil. Onu qəbul edib bir yolla əvəzini çıxmaq lazımdır.
3. Məhəbbət və hədiyyələrin cavabını təxirə salmaq olmaz.
4. İslamda daha yaxşı mükafat vermək müstəhəbdir.
5. Başqalarının yaxşılığına cavab verərkən əvvəlcə daha yaxşı cavab axtarın. Əgər alınmasa, oxşar şəkildə cavab verin.
6. Döyüşdə düşmən sülh təklif edərsə, siz daha çox rəhmət göstərib qəbul edin. Ya da eynən qarşı tərəf kimi hərəkət edin.
7. Cavabsız qalmış salamlara görə nigaran olmayın. Xalq cavab vermədikdə Allah bu hesabı aparır. Xalqın hisslərini cavabsız buraxmayın ki, Allah hesabınıza yetişər.

**87.** ﴿ اللّهُ لا إِلَهَ إِلاَّ هُوَ لَيَجْمَعَنَّكُمْ إِلَى يَوْمِ الْقِيَامَةِ لاَ رَيْبَ فِيهِ وَمَنْ أَصْدَقُ مِنَ اللّهِ حَدِيثًا ﴾

**"Allahdan savay heç bir məbud yoxdur. Heç bir şübhə olmayan qiyamət günündə hamınızı toplayar. Allahdan düz danışanı kimdir?!"**

## *Bildirişlər*

1. Həm ilkin yaranış, həm də məad Allahın əlindədir.
2. Qiyamət hamının hesab üçün toplandığı gündür. Demək, yalnız Allahın razılığını qazanmaq üçün çalışmaq və yalnız Ona pərəstiş etmək lazımdır.
3. Məadın həqiqət olmasına o qədər dəlil var ki, (məsələn, Allahın ədaləti, Allahın hikməti, təbiətdə qiyamət nişanələri, təbiətin qışda ölümdən sonra yenidən dirçəlişi, yuxu və oyanmaq, hüceyrələrin yenidən yaranması...) bu mövzuda şübhəyə heç bir yer yoxdur.
4. Qəflət, bixəbərlik çox olan yerdə tərbiyəçi daha qəti xəbərdarlıqlar etməlidir. (Ayədə "lam" və "nun" hərfləri vasitəsi ilə gerçəkləşən təkidlərin səbəbi insanı qiyamətə münasibətdə qəflətdən oyatmaqdır.)

**88.** ﴿ فَمَا لَكُمْ فِي الْمُنَافِقِينَ فِئَتَيْنِ وَاللّهُ أَرْكَسَهُم بِمَا كَسَبُواْ أَتُرِيدُونَ أَن تَهْدُواْ مَنْ أَضَلَّ اللّهُ وَمَن يُضْلِلِ اللّهُ فَلَن تَجِدَ لَهُ سَبِيلاً ﴾

**"Nə üçün əməllərinə görə Allah tərəfindən pis hala salınmış münafiqlərə münasibətdə iki dəstəyə bölünmüsünüz?! Yoxsa Allahın**

**azdırdığını yola gətirmək istəyirsiniz?! Allahın azdırdığı kəsi xilas etmək üçün heç vaxt yol tapmayacaqsan.”**

## *Nöqtələr*

◘“İrkas” sözü devrilmiş, pis hala salınmış mənasını verir. “Ərkəsəhum” sözü ayədə münafiqlərin fikir dağınıqlığına işarədir.

◘Bir neçə ayə əvvəl xeyir və şər işdə vasitə və şəfaət haqqında bir ayə oxuduq. Bu ayədə isə münafiqlər üçün şəfaətin bir nümunəsi bəyan olunur.

◘Məkkədə bir dəstə insan zahirdə müsəlman olmuşdu. Onlar Mədinəyə hicrət etməmişdilər və əməldə müşriklər ilə bir idilər. (Bəlkə də casusluq məqsədi ilə) sonradan hicrət etdikləri vaxt möminlər onlara birmənalı yanaşmadılar. Bəziləri dedilər ki, bu insanlar tövhid və məada şəhadət verdiklərindən onlarla müsəlman qardaş kimi rəftar olunmalıdır. Başqaları hicrət etmədikləri və kafirlərlə həmkarlığa qatıldıqları üçün onlarla mənfi rəftar edilməsini tələb edirdilər. Bu vaxt həmin ayə nazil oldu.

## *Bildirişlər*

1. Peyğəmbər kimi rəhbər olan yerdə parçalanma ciddi məzəmmət olunmuşdur.
2. Münafiqlərlə üzbəüz dayanmaq üçün qətilik və birlik lazımdır.
3. İnsanın süqut səbəbi onun öz əməlləridir.
4. “Anadan da mehriban dayə olmayın”. Özünü süquta aparana ağlamaq nə üçün?
5. Günah boxçası dolan vaxt Allahın qəhr və qəzəbi qəti olur. Allahın qüdrəti qarşısında bütün amillər təsirsizdir.
6. İlahi qanunlar əsasında, öz əməllərinə görə doğru yoldan çıxan şəxsi hətta peyğəmbər də xilas edə bilməz.

**89.** ﴿وَدُّواْ لَوْ تَكْفُرُونَ كَمَا كَفَرُواْ فَتَكُونُونَ سَوَاء فَلاَ تَتَّخِذُواْ مِنْهُمْ أَوْلِيَاء حَتَّىَ يُهَاجِرُواْ فِي سَبِيلِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَخُذُوهُمْ وَاقْتُلُوهُمْ حَيْثُ وَجَدتَّمُوهُمْ وَلاَ تَتَّخِذُواْ مِنْهُمْ وَلِيًّا وَلاَ نَصِيرًا﴾

**“Onlar (münafiqlər) sizin də onlarla bərabər kafir olmağınızı istəyirlər. Nə qədər ki, (tövbə və) Allah yolunda hicrət etməyiblər, onları dost tutmayın. Əgər boyun qaçırsalar (kafirlərlə həmkarlıqlarını davam etdirsələr), onları harada tapsanız öldürün. Onlardan heç bir dost və yardımçı tutmayın.”**

## *Nöqtələr*

◘Nifaq əhli ilə rəftar yolunun mərtəbələri var. Bu ayədə bəyan olunmuş sərt hökmlər fitnə-fəsadda müşriklərlə həmkarlıq edən münafiqlərə aiddir.

◘Quran cümlələrini bir-birinin vasitəsi ilə mənalandıraq. Ayədəki tədbirlərdən məlum olur ki, Allah insanı yalnız onun əməllərinə görə azdırır.

## *Bildirişlər*

1. Allah münafiqlərin sirləri və gizli istəkləri üzərindən pərdəni götürür.
2. Münafiqlər və düşmənlər sizin düşüncə və əqidənizi hədəf almışlar.
3. İslam cəmiyyəti münafiqlərdən təmizlənməlidir. Onlarla hər hansı bir dostluq əlaqəsi qırılmalıdır.
4. Küfr, şirk və fəsad olan məntəqədən hicrət vacibdir.
5. Allah yolunda hicrət gerçək iman nişanəsidir.
6. Tövbə yolu həmişə açıqdır.
7. Hər bir günahın tövbəsi günahı tərk etməkdir. Hicrətin tərkinin tövbəsi hicrətdir.
8. Pozucu və fitnəkar münafiqlər edam olunmalı, aradan götürülməlidirlər. Bu işi həyata keçirmək üçün İslam cəmiyyəti qüdrətli olmalıdır.
9. İslam düşmənlə mübarizə və fəsad əhlinin təqibi üçün ən sərt tədbirlərə əl atır.
10. Münafiqlərin maddi imkanları və hərbi qüvvələrinə bel bağlamaq olmaz. Onların yardımından gözümüzü çəkməliyik.
11. İslamda münafiqlərlə qurulan hər hansı bir mənəvi, siyasi, hərbi, iqtisadi, mədəni rabitə məhkum edilir.

90. ﴿إِلاَّ الَّذِينَ يَصِلُونَ إِلَىَ قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَاقٌ أَوْ جَآؤُوكُمْ حَصِرَتْ صُدُورُهُمْ
أَن يُقَاتِلُونَكُمْ أَوْ يُقَاتِلُواْ قَوْمَهُمْ وَلَوْ شَاء اللّهُ لَسَلَّطَهُمْ عَلَيْكُمْ فَلَقَاتَلُوكُمْ فَإِنِ اعْتَزَلُوكُمْ
فَلَمْ يُقَاتِلُوكُمْ وَأَلْقَوْاْ إِلَيْكُمُ السَّلَمَ فَمَا جَعَلَ اللّهُ لَكُمْ عَلَيْهِمْ سَبِيلاً﴾

**“O kəslər istisnadır ki, peyman bağladığınız qövmə sığınmışlar, ya o kəslər ki, sizinlə və ya öz qövmləri ilə döyüşdə təngə gəlmiş halda yanınıza gəlirlər. (Onların heç bir tərəflə döyüş halı yoxdur və bu hal Allahın lütfüdür.) Çünki Allah istəsəydi, onları sizin üstünüzə qaldırar, onlar da sizinlə döyüşərdilər. Demək, əgər onlar kənara çəkilib sizinlə döyüşmədilərsə, sülh və saziş təklif etdilərsə, Allah onlarla döyüş üçün sizə heç bir yol qoymadı.”**

## *Bildirişlər*

1. Hətta kafirlərlə hərbi müqavilələrə ehtiram göstərmək lazımdır.
2. Döyüşlərdə bitərəflik göstərənlərə hücum etməyin.
3. Müsəlmanlar elə qüdrətli olmalıdırlar ki, müxaliflər hücum fikrinə düşməsinlər.
4. Allahın qüdrətinə diqqətli olun ki, qürrələnməyəsiniz.
5. Allahın istək və iradəsi ilə münafiqlər və kafirlər sizinlə döyüşdən çəkindilər.

6. İslamın cihadı hakimlik və əqidənin zorla qəbul etdirilməsi üçün deyil. İslam şər və maneələri aradan götürmək istəyir. Əgər düşmən sizdən əl götürdüsə, siz ona hücum etməyin. Əgər hücum etsəniz, mümkündür ki, onlar Allahın verdiyi qüvvə ilə sizi məğlub edələr.

7. Qarşı tərəfin sülh istəklərinə və atəşkəs təklifinə ehtiramla yanaşın. Çünki İslamda döyüş yox, sülh əsas məqsəddir. Döyüş yalnız zəruri hallarda caiz sayılır.

8. Düşmənin sülh təklif etməsi kifayət deyil. Əminlik üçün düşmən döyüşü tərk etməli, sülh mövqeyi tutmalıdır.

9. Döyüş və sülh meyarları Allah tərəfindən təyin olunmalıdır.

91. ﴿سَتَجِدُونَ آخَرِينَ يُرِيدُونَ أَن يَأْمَنُوكُمْ وَيَأْمَنُواْ قَوْمَهُمْ كُلَّ مَا رُدُّواْ إِلَى الْفِتْنَةِ
أُرْكِسُواْ فِيِهَا فَإِن لَّمْ يَعْتَزِلُوكُمْ وَيُلْقُواْ إِلَيْكُمُ السَّلَمَ وَيَكُفُّواْ أَيْدِيَهُمْ فَخُذُوهُمْ
وَاقْتُلُوهُمْ حَيْثُ ثِقِفْتُمُوهُمْ وَأُوْلَئِكُمْ جَعَلْنَا لَكُمْ عَلَيْهِمْ سُلْطَانًا مُّبِينًا﴾

**“Tezliklə başqa bir dəstə ilə rastlaşacaqsınız ki, sizdən (müsəlmanlıqlarını bildirməklə) və öz qövmlərindən (küfr etməklə) amanda qalmaq istəyərlər. Onlar hər dəfə fitnəyə (bütpərəstliyə) tərəf qayıdar, ona qərq olarlar. Əgər sizinlə döyüşdən çəkinməsələr, sizə sülh təklif etməsələr və sizdən əl çəkməsələr onları harada görsəniz tutun və öldürün. Onlar o kəslərdir ki, Biz onların üzərində sizə qüdrət və aşkar qabiliyyət müəyyənləşdirmişik.”**

## *Nöqtələr*

◘Məkkəlilərdən bir dəstəsi öz canlarını hifz etmək üçün peyğəmbərin yanına gəlib münafiqcəsinə İslamı qəbul etdiklərini bildirirdilər. Onlar Məkkəyə qayıtdıqları vaxt bütpərəstliyə üz tutur və bu yolla kafirlərin işkəncələrindən yaxa qurtarırdılar. Onlar bu yolla hər iki tərəfin mənafelərindən bəhrələnir və hər iki tərəfin təhlükəsindən amanda qalırdılar. Əlbəttə ki, onların küfrə meylləri daha çox idi.

## *Bildirişlər*

1. Allah müsəlmanları düşmənlərin gələcək planlarından agah edir.
2. Müsəlmanlar müxtəlif növ düşmənlərini tanıyıb onların hər biri ilə münasib şəkildə rəftar etməlidirlər.
3. Deyilən hər sözə inanmayın.
4. Münafiqlərin məqsədi rifah və asudə yaşayışdır.
5. Fərqli mühit və şəraitlərdə insanların iç xasiyyətləri üzə çıxır.
6. Münafiqlərin ruhu küfrə meyllidir. Şərait olan kimi onlar küfrə batırlar.
7. İslam quruluşuna qarşı çıxan münafiqlərlə sərt rəftar olunmalıdır.

8. Münafiqləri tanımaq üçün agahlığa, dəqiq məlumatlara ehtiyac var. Ayədəki “səqiftumuhum” sözü “səqafə” sözündən olub elm və mədəniyyət mənasını daşıyır.

9. Müsəlmanlar bütün sahələrdə kafirlərə hakim olmalıdırlar.

10. İslam hökuməti fitnəkar münafiqlərin məhvində və cəmiyyətin paklanmasında ixtiyar sahibidir.

92. ﴿وَمَا كَانَ لِمُؤْمِنٍ أَن يَقْتُلَ مُؤْمِنًا إِلاَّ خَطَئًا وَمَن قَتَلَ مُؤْمِنًا خَطَئًا فَتَحْرِيرُ
رَقَبَةٍ مُّؤْمِنَةٍ وَدِيَةٌ مُّسَلَّمَةٌ إِلَى أَهْلِهِ إِلاَّ أَن يَصَّدَّقُواْ فَإِن كَانَ مِن قَوْمٍ عَدُوٍّ لَّكُمْ وَهُوَ
مْؤْمِنٌ فَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ وَإِن كَانَ مِن قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُمْ مِّيثَاقٌ فَدِيَةٌ مُّسَلَّمَةٌ إِلَى
أَهْلِهِ وَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةً فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ شَهْرَيْنِ مُتَتَابِعَيْنِ تَوْبَةً مِّنَ اللّهِ وَكَانَ
اللّهُ عَلِيمًا حَكِيمًا﴾

**“Digər bir mömini öldürmək heç bir möminə yaraşmaz. Bu iş yalnız səhvən mümkündür. Bir mömini səhvən öldürən kəs mömin bir qul azad etməli, qətlə yetirilənin qan bahasını ailəsinə verməlidir. (Qətlə yetirilənin ailəsi ölənin diyəsini) bağışlasa, bu hal istisnadır. Əgər öldürülən sizinlə düşmənçilik edən qövmdəndirsə, (cəriməsi yalnız) bir mömin qul azad etməkdir. Əgər öldürülən aranızda müqavilə olan bir qövmdəndirsə, onun diyəsini ailəsinə ödəyin və bir mömin qul azad edin. Əgər (azad etmək üçün qul və diyə üçün pul) tapmasanız, iki ay ardıcıl oruc tutun. Bu (yüngülləşdirmə) qayıdış xalqa Allah tərəfindəndir. Allah biləndir və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘Əyyaş ibn Əbu Rəbiə adlı bir müsəlman Məkkədə uzun illər Haris adlı biri tərəfindən işkəncələrə məruz qalmışdı. Bir gün o, Mədinəyə hicrətdən sonra Harisin İslamı qəbul etməsindən xəbərsiz olduğu halda onu şəhərdə görüb kafir ünvanı ilə öldürdü. Xəbər həzrət Peyğəmbərə (s) çatdı. Bu ayə nazil oldu.

◘Diyə (qan bahası) ödəməyin təsirləri var:

a) Diyə öldürülənin ailəsi üçün məlhəmdir.

b) Diyə xalqda yersiz düşüncələrin qarşısını alır. Kimsə deyə bilmir ki, səhvən adam öldürməyin əvəzi yoxdur.

v) Diyə fərdlərin həyatına və cəmiyyətin əmin-amanlığına ehtiramdır.

q) Diyə qətl nəticəsində ortaya çıxan iqtisadi ödənişdir.

◘Öldürülənin yaxınları müsəlmanların düşmənlərindən olsa, onlara qanbahası verilmir. Əgər belə bir diyə ödənsəydi, düşmənlərin iqtisadi durumu güclənərdi. Bundan əlavə, İslam öldürülən möminlə onun kafir ailəsi arasında rabitəni qırır. Belə bir halda əvəz ödəmək üçün səbəb qalmır.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Bir qul azad etmək Allah haqqının, diyə vermək isə öldürülənin ailəsinin haqqının ödənməsidir."[1]

◘Kamil bir diyə, qanbahası adi bir şəxsin qazancı qədərdir. Bu diyə min misqal qızıl, ya yüz dəvə, ya da iki yüz inək miqdarında təyin olunmuşdur.[2]

◘Ayədə diyə miqdarı bəyan olunmamışdır. Bu məsələnin örtülü qalması həqiqi Quran təfsirçilərinə, peyğəmbər və Əhli-beyt buyruqlarına ehtiyacı daha çox hiss etdirir.

◘Öldürülən müsəlmandırsa, onun ailəsinə ödənəsi diyə əvvəlcə bir qul azad etmək, sonra qanbahası ödəməkdir. Ailə kafir olduqda, əvvəlcə söhbət qanbahasından, sonra qul azad edilməsindən gedir. Bəlkə də bunun səbəbi qeyri-müsəlmanların maddiyyata daha çox önəm verməsidir. Diyə ödəməklə mövcud olan peymanlar hifz oluna bilər.

## *Bildirişlər*

1. Günahsızın qətlə yetirilməsi İslamda haramdır.
2. Qətl imanla uyuşmur.
3. Mömin xata edə bilər. Ona görə diqqətli olmalıdır.
4. Müsəlmanın həyatı o qədər hörmətlidir ki, onun səhvən öldürülməsi də asanlıqla bağışlanmır.
5. Səhv cəzanın yüngülləşdirilməsində əsas meyardır.
6. Mömінin həyatının bahası imanlı qulun azad edilməsidir.
7. Azad edilmə də bir növ həyatdır. Əgər bir nəfərin həyatı alınırsa, bir başqasının həyatı əvəz olaraq azad edilməlidir.[3]
8. Qulların azad edilməsi İslam proqramı boyu izlənilir.
9. Diyə verilməsi öldürülənin ailəsinin istəyindən asılı deyil. Qatilin vəzifəsi diyə ödəməkdir.
10. Hər kəsə diyə verilməməlidir. Diyə öldürülənin ailəsinə verilməlidir ki, haqq öz sahibinə çatsın.
11. Öldürülənin ailəsi qanbahasının sahibidir.
12. Xatakara diyə təyin olunması İslam quruluşunda cərimənin mövcudluğu rəmzidir.
13. Əsəbi, həyəcanlı hallarda da insani hisslər və mərhəmət unudulmamalıdır. Xatakarı bağışlamaq özü də bəyənilmiş bir sədəqədir.
14. İman o qədər dəyərlidir ki, bəzən kafiri də möminlər cərgəsinə qatır. Həmpeyman kafirə də qanbahası ödənməlidir.
15. Cərimə növü bir tərəfdən möminlərin faydasına olmalı, digər bir tərəfdən kafir cəmiyyəti gücləndirməməlidir. Ona görə də silahlı (hərbi) düşmənə diyə ödəmək qadağandır.
16. Qul azad olunmasında imanın şərt qoyulması qulları İslamın qəbuluna həvəsləndirir.

---

[1] "Nurus-Səqəleyn", c. 1, s. 530.
[2] "Təfsire-Əl-Mizan".
[3] "Təfsire-Əl-Mizan".

17. İslam və onun qanunlarında çıxılmaz vəziyyət yoxdur. İslam hökmləri yüngülləşdirə bilsə də, tamamilə aradan götürmür.

18. İslamda cərimə fərdlərin fiziki və iqtisadi gücü miqdarındadır.

19. Ardıcıl tutulan oruc ruhu paka çıxarmaq vasitəsidir.

20. İslam fərdlərin imanına istinad edir. Qul azad olunması və diyə ödənməsi müşahidə olunan işlərdirsə, oruc tutmaq pərdə arxasında qalır. Bu vasitə ilə insan öz dini və əxlaqi vicdanını cərimələyir.

21. Möminin həyatı çox mühümdür. Kəffarələr ilahi yüngülləşdirmələr növüdür.

22. Bilməyərəkdən baş verən qətl də insanı ilahi lütfdən uzaqlaşdırır. Diyə ödənməsi və qul azad olunması qatili ilahi lütf fəzasına qaytaran yoldur.

23. İlahi qanunlar elm və hikmətə əsaslanır, məsələ bütün tərəflərdən mülahizə olunur.

93. ﴿ وَمَن يَقْتُلْ مُؤْمِنًا مُّتَعَمِّدًا فَجَزَآؤُهُ جَهَنَّمُ خَالِدًا فِيهَا وَغَضِبَ اللّهُ عَلَيْهِ وَلَعَنَهُ وَأَعَدَّ لَهُ عَذَابًا عَظِيمًا ﴾

**“Hər kəs bir mömini bilərəkdən öldürsə, cəzası cəhənnəmdir və həmişə orada qalacaq. Allah ona qəzəb və lənət etmiş, onun üçün böyük bir əzab hazırlamışdır.”**

## *Nöqtələr*

◘Ühüd döyüşünün böhranlı şəraitində müsəlmanlardan biri digər bir müsəlmanı cahiliyyət dövründən qalmış bir mübahisəyə görə öldürdü. Həzrət Peyğəmbər (s) vəhy yolu ilə məsələdən xəbər tutub Ühüddən qayıdarkən Qoba məhəllində həmin möminin qətlinin qisası haqqında göstəriş verdi. Göstərişə əsasən qatil öldürülməli və onun peşmançılığına məhəl qoyulmamalı idi.[1]

◘İslam müsəlmanların həyatının və əmin-amanlığının qorunmasına ciddi əhəmiyyət vermiş və əbədi əzab vəd etməklə qətl və ağır cinayətlərin qarşısını almışdır. Bu ayədə möminin bilərəkdən qətlə yetirilməsi ilə bağlı işlədilmiş təbirlər heç bir günah haqqında deyilməmişdir. İmam Sadiq (ə) buyurmuşdur: “Bilərəkdən mömini qətlə yetirən kəsin tövbəsi qisasdır.”[2]

◘“Təəmmud” “əmud” sözündəndir. İşin əsasını niyyət təşkil etdikdə, iş əvvəlcədən müəyyənləşdirilmiş məqsədlə həyata keçirildikdə ona “əmdi”, yəni “bilərəkdən olan iş” deyilir.

◘Çoxsaylı rəvayətlərdə qətlin böyük günah olduğu bəyan olunmuşdur. O cümlədən:

1. Qiyamətdə haqqında sorğu-sual olunası ilk məsələ günahsızın qətlə yetirilməsidir.

2. Ən qəddar fərd insanı öldürən və ya vurandır.

---

[1] “Məğazi”, c. 1, s. 304; “Peyğəmbərlik və cihad” s. 327.

[2] “Təfsire-Nurus-Səqəleyn”; “Kafi”, c. 7, s. 276.

3. Qatil qətl günahından əlavə, öldürdüyü şəxsin günahlarına da sahib olur.

4. Möminin qətlində göy və yer əhli şərik olarsa, hamısı əzaba çatar.

5. Bütün dünyanın məhv olunması günahsız bir insanın öldürülməsindən asandır.[1]

## *Bildirişlər*

1. İslam quruluşunda heç bir məqam boş yerə başqasını qətlə yetirməyə və edama icazə vermir.[2]

2. İnsanın dəyəri onun düşüncə və əqidəsindən asılıdır.

3. Bilərəkdən baş verən günahların sorğu-sualı, hesabı ayrıdır.

4. Qətl və qan tökülməsi kəbirə günahlardandır.

5. Ağır cəzalar cəmiyyətdə fəsadın qarşısını alan, əmin-amanlığı hifz edən amillərdəndir.

**94.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا ضَرَبْتُمْ فِي سَبِيلِ اللّهِ فَتَبَيَّنُواْ وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا تَبْتَغُونَ عَرَضَ الْحَيَاةِ الدُّنْيَا فَعِندَ اللّهِ مَغَانِمُ كَثِيرَةٌ كَذَلِكَ كُنتُم مِّن قَبْلُ فَمَنَّ اللّهُ عَلَيْكُمْ فَتَبَيَّنُواْ إِنَّ اللّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا﴾

**"Ey iman gətirənlər! Nə vaxt Allah yolunda (cihad üçün) qədəm götürsəniz, (düşmənin işlərini) araşdırın. Sizə müsəlman olduğunu və sülhə gəldiyini bildirənə deməyin ki, «sən mömin deyilsən» və bu bəhanə ilə dünya malı və qənimət ələ gətirməyin. Çünki böyük qənimətlər Allahın yanındadır. Siz də əvvəllər belə idiniz. Allah sizə minnət qoydu (iman canınıza nüfuz etdi), belə ki, araşdırın (tələsik silaha əl atmayın), Allah daim gördüyünüz işlərdən yaxşıca agahdır."**

## *Nöqtələr*

◘Xeybər döyüşdən sonra Həzrət Peyğəmbər (s) Üsamə ibn Zeydi müsəlmanlardan bir dəstəsi ilə Fədək kəndlərindən birindəki yəhudilərin üstünə göndərdi. Onlar yəhudiləri ya İslama, ya da zimmə şərtlərini qəbul etməyə dəvət etməli idilər. İslam qoşununun gəlişindən xəbər tutan Mirdas adlı bir yəhudi var-dövlətini və ailəsini bir dağda gizlətdi. Sonra da tövhid və nübüvvətə şəhadət verən halda müsəlmanların pişvazına çıxdı. Üsamə həmin yəhudinin qorxudan belə etdiyini güman edib onu öldürdü və mal-mülkünü qənimət kimi götürdü. Həzrət peyğəmbər müsəlmanlığı qəbul etmiş bir şəxsin qətlə yetirilməsindən narahat oldu.

◘Cihadda maddi təmənnalar və qənimət əldə olunması məqsədi məzəmmət olunmuşdur. İnqilabi hərəkət adı altında tələsik qərar çıxarmaq və araşdırmadan kimsəni öldürmək tənqid edilmişdir.

---

[1] "Vəsail", c. 19, s. 2.

[2] Bax: "Bəqərə", 258.

◘"Siz də əvvəl belə idiniz" cümləsindən aydın olur ki, siz də əvvəllər zahirdə müsəlman olmuşdunuz. Belə bir nöqtə də nəzərdə tutula bilər ki, ("Əl-Mizana" əsasən) siz də cahiliyyət dövründə qənimət uğrunda savaşırdınız və İslam bu amili aradan qaldırdı.

◘«İslamın izharı» dedikdə, şəhadət kəlmələrinin deyilməsi nəzərdə tutula bilər. Burada həm də İslamın qəbulu yox, atəşkəs və sülh təklifi mənası da düşünülür. Bu halda ayənin mənası belə olur: Savaşdan çəkinib təslim olduğunu bildirənə deməyin ki, «sən dediyinə inanmırsan, yalan deyirsən.» Qarşı tərəfin iddiasını qənimət əldə etmək məqsədi ilə inkar etdib onu qətlə yetirmək caiz deyil.[1]

◘Ayənin sonundakı "araşdırın" göstərişi cahiliyyət tarixinin araşdırmasına işarə ola bilər. Müsəlmanların nəzərinə belə bir məna çatdırıla bilər ki, İslamdan qabaq siz də dünya malı üstə savaşırdınız. Belə ki, tarixi araşdırın və İslamın necə inkişaf etdiyini görün, beləliklə İslamı təzə qəbul edənlərdən böyük tələbləriniz olmasın.[2]

## *Bildirişlər*

1. Cihad düşmənin vəziyyəti və məqsədləri haqqında məlumatlara əsaslanmalıdır.
2. İslamı qəbul etdiyini deyənləri qoynunuza alın.
3. Cihad cəbhəsində gücünüzdən sui-istifadə etməyin.
4. Başqalarına dinsizlik damğası vurmaq, tələsik halda insanları küfrdə ittiham etmək qadağandır.
5. Biz insanların batini yox, zahiri əsasında rəftar etməliyik. Əgər qarşı tərəfin dediyini qəbul etmiriksə, dərhal rədd etmək də olmaz.
6. Elə düşünməyin ki, yalnız bir şəxsin iddiasının qəbulu üçün dəlil lazımdır. Bu iddianı rədd etmək üçün də dəlilə ehtiyac var.
7. Maddi məqsədlərlə başqalarını küfrdə suçlamayın.
8. Döyüşlərdə maddi məqsədləri kənara qoyun. Cihadın müqəddəsliyini qənimət tamahı ilə sındırmayın.
9. Canını ovcunda tutmuş mücahidlər də dünya cazibələrindən xilas ola bilmirlər.
10. Cihadda məqsəd başqalarını İslama gətirməkdir, qənimət əldə etmək yox! Qənimət xatirinə başqalarını dinsizlikdə suçlamayın.
11. Cihadda niyyəti maddi rənglərdən qorumaq çox mühümdür.
12. Dünya ötəri, davamsızdır.
13. Mömin mücahidin əxlaqı zöhd və dünyaya etinasızlığa əsaslanmalıdır.
14. Araşdırmamış, tələsik addım atmayın. Allah maddi problemləri həll edər.
15. İlahi mükafatlar haqqında düşüncə insanın nəzərində dünyanı kiçildir.
16. Maddi nemətləri də Allahdan istəyin.

---

[1] "Təfsire-Rahnüma".
[2] "Təfsire-Rahnüma".

17. İnsan fitrətən maddi mənafelər sorağındadır. Bu ehtiyac bir yolla ödənməlidir. Yaxşı olar ki, üstün dəyərləri tanımaqla, fitri meyllərə istiqamət verməklə ruhumuzu cüzi və dəyərsiz faydalar uçurumuna süqut etməkdən qoruyaq.

18. Dünyapərəstlik cahillik xüsusiyyətidir.

19. Özünüzü başqalarının yerinə qoyub, sonra mühakimə yürüdün. Siz də bir gün qarşınızdakı kimi geridə idiniz.

20. İmanınıza görə qürrələnməyin. Bu iman Allahdandır.

21. İlahi hidayətlər Allahın bizə olan minnətidir.

22.Nemətlər verildikcə məsuliyyət də artır.

23. Nahaq qətlin təhlükə və zərəri düşmənlər tərəfindən nifaq və qənimətləri itirmək təhlükəsindən və zərərindən daha böyükdür. Xalqın malını, canını və şəxsiyyətini qorumağı öhdəsinə götürənlər ehtiyatlı olmalı, dəqiq araşdırma aparmalıdırlar.

24. Nə tez inanan olun, nə də inkarçı.

25. Döyüş meydanlarında günahsızların da qətlə yetirilməsi şəraiti böyük olur. Ağıl və hövsələ ilə bu işdən çəkinin. Hissə qapılmayın. Allah agah və görəndir.

95. ﴿لاَّ يَسْتَوِي الْقَاعِدُونَ مِنَ الْمُؤْمِنِينَ غَيْرُ أُوْلِي الضَّرَرِ وَالْمُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ عَلَى الْقَاعِدِينَ دَرَجَةً وَكُلاًّ وَعَدَ اللّهُ الْحُسْنَى وَفَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا﴾

**“Heç bir üzr olmadan cihaddan geri çəkilən möminlər öz malı və canı ilə Allah yolunda cihad edən mücahidlərlə eyni deyil. Allah malı və canı ilə cihad edənləri (döyüşdən) geri oturanlardan bir dərəcə üstün etmişdir. Allah bütün möminlərə daha yaxşı vəd vermişdir. Amma Allah mücahidləri evdə oturanlardan böyük bir mükafatla üstün qərar vermişdir.”**

## *Nöqtələr*

◘Cihad cəbhəsinə getməyənlər bir neçə dəstədir:

İmansız münafiqlər, qorxaq müsəlmanlar, rifahtələblər, şəkkaklar, himmətsizlər. Cəbhədən çəkinənlərin bir qismi deyir: “Biz malımız, sözümüz,

qələmimiz, duamızla mücahidləri himayə edirik.” Onlar cihadı hamıya vacib saymırlar. Ayə son qrup haqqında bəyanatla başa çatır və onlar tənqid olunurlar. Çünki digər qruplar başqa məqamlarda, çoxsaylı bəyanatlarla şiddətlə tənqid olunmuşlar. Onların heç bir dərəcəsi yoxdur ki, mücahidlər onlardan bir dərəcə üstün olalar.

◘Rəvayətdə deyilir ki, xəstəlik səbəbindən savaşa qatılmayanlar, amma qəlbləri mücahidlərlə döyünənlər cihadda onlarla bərabər savaba malikdirlər.[1]

◘Ayə “kifayi” vacib əmələ aiddir.”(Kifayi vacib əməl odur ki, bir qismin həmin işə qatılması ilə ehtiyac aradan qaldırılsın və qalan hissənin bu işə qatılmasına ehtiyac qalmasın.) Əgər cihad “eyni” vacib (hamıya vacib) olsaydı, bu işə qatılmayanlar xilafkar kimi tanıtdırılardı.

## *Bildirişlər*

1. Təbliğ və təşviq üsulu mərhələli olmalıdır.
2. Hər insanla onun öz dilində danışılmalıdır. Quran cəbhəyə getməyən möminlər, münafiqlər, qorxaqlar və rifahtələblərlə fərqli davranır. “Qaidun” sözü ilə yalnız cəbhəyə getməmiş möminlər yad edilir.
3. Fiziki problemi olanlar cəbhədən azaddırlar.
4. Malla cihad canla cihadla yanaşı zikr olunur. Çünki cəbhə iqtisadi dayaqsız zəif olur.
5. Xalqın könüllü yardımları cəbhə büdcəsinin təmin mənbələrindəndir.
6. Xalqın inamsızlığı təhlükə yaratdıqda israr və təkrar zəruridir. Bu və bundan sonrakı ayədə “fəzlüllah”, “dərəcətən” sözləri təkrarlanmışdır.
7. Hər bir insanın xidməti və səyi möhtərəmdir. Bir dəstənin cəbhədə iştirak etməsi başqalarının işini dəyərdən salmamalıdır. Mücahidlərin üstünlüyü şübhə doğurmur, amma başqalarının da xidməti inkar olunmamalıdır.
8. İnsan istənilən bir mövqe, məqam və xidmətdə olarkən xalis mücahidlərin məqamca üstünlüyünü unutmamalıdır.
9. Əgər Allah mücahidləri fəzilətli saymışsa, cəmiyyətdə mücahidlər və şəhidlər üçün imtiyazlar nəzərdə tutulmalıdır. Əlbəttə ki, bu imtiyazlar mücahidləri yersiz tələblərə sövq etdirməməlidir.

**96.** ﴿ دَرَجَاتٍ مِّنْهُ وَمَغْفِرَةً وَرَحْمَةً وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا ﴾

**“Bağışlanma və rəhmətlə birgə dərəcələr Onun tərəfindəndir. Allah daim bağışlayan və mehribandır.”**

## *Bildirişlər*

1. Mübarizlərlə evdə oturanlar arasında kiçik yox, böyük bir fərq vardır.
2. İlahi mərhəməti əldə etmə və ondan faydalanmanın şərti pak olmaq və paklanmaqdır. Əvvəlcə bağışlanma, sonra isə rəhmətdən danışılır.

[1] “Təfsire-Safi”.

3. Allah bağışlayan və mehribandır. Amma bu bağışlanma və rəhmətə çatmanın şərti cəbhəyə getmək və cihaddır.

97. ﴿إِنَّ الَّذِينَ تَوَفَّاهُمُ الْمَلآئِكَةُ ظَالِمِي أَنْفُسِهِمْ قَالُواْ فِيمَ كُنتُمْ قَالُواْ كُنَّا
مُسْتَضْعَفِينَ فِي الأَرْضِ قَالْوَاْ أَلَمْ تَكُنْ أَرْضُ اللّهِ وَاسِعَةً فَتُهَاجِرُواْ فِيهَا فَأُوْلَئِكَ
مَأْوَاهُمْ جَهَنَّمُ وَسَاءتْ مَصِيرًا﴾

**"Həqiqətən, özünə zülm etmiş kəslərin mələklər tərəfindən canı alınarkən onlardan soruşular: "Siz hansı vəziyyətdə idiniz?" Deyərlər: "Biz yer üzündə müstəzəf idik." Mələklər deyər: "Məgər hicrət etməyiniz üçün Allahın yer üzü geniş deyildimi?" Onların yeri cəhənnəmdir. Necə də pis aqibətdir!"**

## *Nöqtələr*

◘Bədr döyüşündən sonra Məkkə kafirləri həmin şəhərin camaatını müsəlmanlarla döyüşə çağırdılar və hədələdilər ki, bu göstərişə qarşı çıxıb savaşda iştirak etməyənlərin evləri viran qoyulacaq və var-dövlətləri müsadirə ediləcək. Həmin vaxt hələ ki, hicrət etməyib Məkkədə qalan bəzi müsəlmanlar can qorxusundan kafirlərlə birlikdə müsəlmanlara qarşı döyüşə getdilər. Həmin müsəlmanlardan Bədrdə öldürülənlər oldu. Bu barədə ayə nazil oldu və küfr mühitində qalıb hicrət etməyənlər, özünə zülm edənlər məzəmmət edilib, təqsirləndirildi.

◘Rəvayətdə deyilir: Dinini qorumaq üçün hicrət məqsədi ilə hətta bir addım atan kəs behişt əhli, həzrət Məhəmməd (s) və İbrahimin yoldaşıdır.[1]

## *Bildirişlər*

1. Mələklər insanların işlərindən agahdırlar.
2. Hicrəti tərk etmək, məqsəd və əqidəni əldən vermək insanın özünə zülmüdür. (Quran "rüsvayçılıqdan qaçan, geyinir xalq tək əlvan" şüarını rədd edir.)
3. Vacib olduğu halda hicrəti tərk etməyin günahı bütün günahlardan əvvəl sorğuya çəkilir. Can alınan zaman ruhu çıxarmağa vəzifəli olan mələklər əvvəlcə həmin mövzuda soruşurlar.
4. Küfr mühitindən hicrət vacibdir və kafir qoşununa qatılmaq haramdır.
5. Əgər bacarırsınızsa, mühitinizi dəyişin. Mümkün olmadıqda hicrət edin ki, sonra cəzalandırılmayasınız.
6. Günaha don geydirməklə yaxa qurtarmaq olmaz.
7. Mühitin və çoxluğun insana böyük təsiri var. Ona görə də insan hicrət etməklə günahkar mühitin təsirindən qurtulmalıdır.

[1] "Təfsire-Safi".

8. Əsas məsələ vətənpərəstlik yox, Allahpərəstlikdir.
9. Hicrət düşüncə və əqidə müstəzəfliyinin dərmanlarından biridir.

**98.** ﴿ إِلاَّ الْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ لاَ يَسْتَطِيعُونَ حِيلَةً وَلاَ يَهْتَدُونَ سَبِيلاً ﴾

**"O müstəzəf kişilər, qadınlar və uşaqlar istisnadır ki, tədbir görmək, çarə tapmaq qüdrətləri yoxdur, (hicrət üçün) bir yol tapmırlar."**

**99.** ﴿ فَأُوْلَئِكَ عَسَى اللّهُ أَن يَعْفُوَ عَنْهُمْ وَكَانَ اللّهُ عَفُوًّا غَفُورًا ﴾

**"Allahın onları bağışlayacağına ümid var. Allah daim əfv edən və bağışlayandır."**

## *Nöqtələr*

◘Küfrü dəf etmək üçün bir tədbiri, haqqa təslim olmaq üçün bir yolu olmayanlar müstəzəfdirlər və Allah onların öhdəsindən vəzifəni götürmüşdür.[1]

◘İmam Baqir (ə) buyurmuşdur: "Ağlı uşaq səviyyəsində olan kişilər və qadınlar müstəzəfdir."[2]

## *Bildirişlər*

1. Vəzifəli olmaq üçün şərtlərdən biri insanın qüdrətidir.
2. Küfrün ağuşunda olan qadınlar və uşaqların da qüvvəsi çatdıqda hicrət onlara vacib olur.
3. Həqiqi müstəzəf hicrət gücü yetməyən, kafirlərin və müşriklərin işkəncəsindən qaçmaq yolu olmayan kəsdir.
4. İmkan olduğu halda dini maarifə yiyələnməmək günah və insanın özünə zülmüdür.
5. Gerçək üzrlər qəbul olur. Amma saxta üzrxahlıq və bəhanəçilik məqbul deyil.
6. Hicrət o qədər mühümdür ki, giriftar və aciz insanların hicrəti tərk etmə günahının bağışlanması haqqında danışılarkən qəti bir söz deyilmir, "bəlkə də; ümid var" ifadəsi işlədilir.

**100.** ﴿وَمَن يُهَاجِرْ فِي سَبِيلِ اللّهِ يَجِدْ فِي الأَرْضِ مُرَاغَمًا كَثِيرًا وَسَعَةً وَمَن يَخْرُجْ مِن بَيْتِهِ مُهَاجِرًا إِلَى اللّهِ وَرَسُولِهِ ثُمَّ يُدْرِكْهُ الْمَوْتُ فَقَدْ وَقَعَ أَجْرُهُ عَلى اللّهِ وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا﴾

[1] "Təfsire-Safi".
[2] "Nurus-Səqəleyn", c. 1, s. 537; "Məaniyul-Əxbar", s. 201.

**“Hər kəs Allah yolunda hicrət etsə, yer üzündə çoxlu və geniş sığınacaqlar tapar. Hər kəs hicrət edərək evindən çıxıb Allaha və Onun peyğəmbərinə üz tutsa, sonra onu ölüm yaxalasa, hökmən mükafatı Allahın öhdəsinədir. Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Məkkə müsəlmanlarından biri xəstələnmişdi. O dedi: «Məni Məkkədən bayıra çıxarın ki, hicrət edənlərdən sayılım.» Onu şəhərdən çıxararkən yolda keçindi. Sonra bu ayə nazil oldu.

◘Cihad, təhsil, təbliğ üçün hicrətlər kimi müqəddəs hicrətlər bu ayənin nümunəsidir.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Bir şəxs imam Mehdini (ə) tanımaq üçün evdən və şəhərdən xaric olsa, amma əcəl ona möhlət verməsə, həmin bu ayənin nümunəsi olar.”[1]

## *Bildirişlər*

1. Hicrət genişlik və artım zəminəsi yaradır. “Kim düşməsə izinə, çətin tapa xəzinə.”
2. Biz nəticə gözləmədən vəzifəmizi yerinə yetirməliyik. Əsas məsələ məqsədə çatmaq yox, evdən çıxmaqdır.
3. Allahın və Onun rəsulunun yolunu gedin. Ölüm və həyatdan ötrü nigaran olmayın.
4. Hicrət edənin mükafatı Allah tərəfindəndir. Bu, behiştdən də yuxarı bir mükafatdır.

**101.** ﴿ وَإِذَا ضَرَبْتُمْ فِي الأَرْضِ فَلَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَقْصُرُواْ مِنَ الصَّلاَةِ إِنْ خِفْتُمْ أَن يَفْتِنَكُمُ الَّذِينَ كَفَرُواْ إِنَّ الْكَافِرِينَ كَانُواْ لَكُمْ عَدُوًّا مُّبِينًا ﴾

**“Yer üzündə səfərə çıxdığınız vaxt əgər kafirlərin əziyyətindən qorxsanız, namazı qısaltmağınızın sizin üçün günahı yoxdur. Həqiqətən, kafirlər daim sizin aşkar düşməninizdir.”**

## *Nöqtələr*

◘Cihad və hicrət haqqında söhbətlərdən sonra bu ayə müsafir namazının hökmünü bəyan edir.

◘“Zərəbtum fil-ərz” təbiri səfərə işarədir. Çünki müsafir səfər zamanı ayağını yerə döyür.[2]

---

[1] “Kafi”, c. 1, s. 378.
[2] “Müfrədate-rağib”, “zərbun” maddəsi.

◘Quranda bəzən vaciblik əvəzinə “eybi yoxdur” təbiri işlədilir. Bu ayə də uyğun təbirlə rastlaşdığımız ayələrdəndir. İlkin İslam dövrünün müsəlmanları namaza o qədər bağlı idilər ki, onun qısaldılmasını günah sayırdılar.

◘Qısaldılmış (qəsr) namaz təkcə düşmən qorxusu olduqda qılınmır. Adətən, səfərlərdə qorxu və nigarançılıq olduğundan və ya qəsr namaz qanunu əvvəlcə qorxu ilə bağlı bəyan edildiyindən, sonralar hər bir səfərə aid edilmişdir. Ayədə “in xiftum” qeyd edilmişdir.

◘Rəvayətlərdə namazın qəsr hala düşdüyü səfər miqdarı bəyan olunmuşdur. Bir gün ərzində səfər uzunluğu (səkkiz fərsəx) müəyyən edilmişdir.[1]

◘Müsafir sübh və məğrib (şam) namazlarından savay bütün namazları iki rəkət qılır.[2] Namazın qısaldılması dedikdə, dörd rəkətlik namazların iki rəkət qılınması nəzərdə tutulur.

## *Bildirişlər*

1. Həqiqəti görmə və yarıya bölünmənin qəbulu ilahi qanunlara bir əsasdır.
2. Namaz halında da düşməndən qəflətdə olmayın. Siyasət, dəyanət, ibadət, dərketmə bir-birindən ayrı deyil.
3. Bəzən yəqinlik lazım olmur. Proqramı dəyişmək üçün fitnə ehtimalı kifayət edir.
4. Hətta təhlükə ehtimal olunduqda da namaz qılınmalıdır.
5. Küfr və iman bir-biri ilə ziddiyyətdədir.
6. Kafirlər sizinlə düşmənçilikdə əl-ələ vermişlər.
7. Kafirlərin sizinlə düşmənçiliklərinin kökləri var və uzun keçmişi olan bu düşmənçilik daimidir.

**102.** ﴿وَإِذَا كُنتَ فِيهِمْ فَأَقَمْتَ لَهُمُ الصَّلاَةَ فَلْتَقُمْ طَآئِفَةٌ مِّنْهُم مَّعَكَ وَلْيَأْخُذُواْ
أَسْلِحَتَهُمْ فَإِذَا سَجَدُواْ فَلْيَكُونُواْ مِن وَرَآئِكُمْ وَلْتَأْتِ طَآئِفَةٌ أُخْرَى لَمْ يُصَلُّواْ
فَلْيُصَلُّواْ مَعَكَ وَلْيَأْخُذُواْ حِذْرَهُمْ وَأَسْلِحَتَهُمْ وَدَّ الَّذِينَ كَفَرُواْ لَوْ تَغْفُلُونَ عَنْ
أَسْلِحَتِكُمْ وَأَمْتِعَتِكُمْ فَيَمِيلُونَ عَلَيْكُم مَّيْلَةً وَاحِدَةً وَلاَ جُنَاحَ عَلَيْكُمْ إِن كَانَ بِكُمْ
أَذًى مِّن مَّطَرٍ أَوْ كُنتُم مَّرْضَى أَن تَضَعُواْ أَسْلِحَتَكُمْ وَخُذُواْ حِذْرَكُمْ إِنَّ اللّهَ أَعَدَّ
لِلْكَافِرِينَ عَذَابًا مُّهِينًا﴾

**“(Ey peyğəmbər,) əgər (cihad səfərlərində) İslam qoşunu içində olsan və onlar üçün namaza dayansan, onlardan bir dəstəsi səninlə dursunlar və silahlarını yanlarında saxlasınlar. Elə ki, səcdə etdilər, (ikinci rəkəti tək qılıb) sizin arxanızda (keşikçi) dayansınlar. Namaz qılmamış ikinci dəstə**

---
[1] “Təhzibul-Əhkam”, c. 3, s. 207
[2] “Mən la yəhzuruhul-fəqih”, c. 1, s. 2.

**(ikinci rəkətdən) səninlə namaz qılsınlar və müdafiə vasitələri ilə silahlarını özləri ilə saxlasınlar. Düşmən sizə birdəfəyə hücum etmək üçün silahlarınızdan xəbərsiz qalmağınızı istəyir. Əgər yağışdan sizə əziyyət olsa, xəstə və yaralı olsanız, silahınızı yerə qoymağın sizin üçün günahı yoxdur. (Yalnız) müdafiə vasitələrini özünüzlə saxlayın. Həqiqətən, Allah kafirlər üçün zəliledici bir əzab hazırlamışdır.”**

## *Nöqtələr*

◘Hicri tarixi ilə altıncı ildə Peyğəmbər (s) bir dəstə ilə Məkkəyə üz tutdu. Hüdeybiyyə adlanan məntəqədə İslam qoşunu yolu kəsmiş və onları Məkkəyə buraxmamaq əzmində olan Xalid ibn Vəlid və onun iki yüz döyüşçüsünün səngərdə dayandığını gördü. Bilal azan verdikdən və camaat namaza dayandıqdan sonra Xalid ibn Vəlid fürsətdən istifadə edib hücuma keçmək qərarına gəldi. Ayə nazil oldu və düşmənin qurğusundan müsəlmanlar xəbər tutdular. Xalid bu möcüzəni gördükdən sonra İslamı qəbul etdi.[1]

◘Bu namazda birinci dəstə birinci rəkəti başa vurduqdan sonra qalxıb namazın qalanını fərdi qıldı. Cəmiyyət namazının imamı ikinci dəstənin ikinci rəkətə qoşulması üçün səbir etdi. Onlar silahları ilə birlikdə cəmiyyət namazına qatıldılar.

## *Bildirişlər*

1. Namaz hətta savaş meydanında da təxirə salınmır. Mücahid binamaz deyil.
2. Düşmənlə savaş cəbhəsində döyüşçülərin hətta bir rəkət namazı cəmiyyətlə qılması cəmiyyət namazının əhəmiyyətini göstərir.
3. Qarşıya iki vəzifə (cihad və namaz) çıxdıqda bu vəzifələrin biri o birinə fəda olunmamalıdır.
4. Bütün hallarda ayıqlıq lazımdır. Hətta namaz zamanı da müsəlmanlar düşməndən qəflətdə qalmamalıdırlar.
5. Rəhbər vəhdət və ibadətin mehvəridir.
6. İş bölgüsü, qarşılıqlı yardım, xeyir işə başqalarını şərik etmək hətta ən həssas məqamlarda da cəmiyyətin ülfət amilidir. Ayə iki rəkət namazı cəmiyyət arasında yarıya bölür. Bununla da hər iki dəstə xeyirə şərik olur.
7. İlahi göstərişlər şəraitə münasib olaraq fərqlənir. (Bu ayə düşmən qarşısında qorxu olan vəziyyətə aiddir.)
8. Cəbhədə qılınan camaat namazı məqsədə, Allaha, rəhbərə eşq və dəyərlərə bağlılıq nişanəsidir.
9. Cəbhədə bir rəkət namaz vaxtında qüvvələr mövqelərini dəyişə bilməlidir.
10. Cəbhədə namaz müddəti nə qədər çox olsa, düşmənin həmlə imkanı da artar. Ona görə də diqqətli olmaq lazımdır. Birinci rəkətdə silahlı olmaq kifayətdir. İkinci rəkətdə isə həm silah, həm də müdafiə vasitələri olmalıdır.

---

[1] “Təfsire-Məcməul-bəyan”.

11. Allah Öz peyğəmbərini düşmənin gizli planlarından agah edir. (Namaz məqamında hücum etmək istəyən Vəlidin planı ayə vasitəsi ilə puça çıxdı.)

12. Sizin ixlaslı hərəkətiniz ilahi yardımların vaxtında əldə olunması səbəbidir. (Bu ayənin nazil olması və qorxu ilə bağlı namaz göstərişi düşmənin planları qarşısında ilahi bir yardım idi.)

13. Cəbhədə ibadi mərasimlər uzun çəkməməlidir. Döyüşçünü düşməndən qəflətdə qoyan işlər qadağandır.

14. Düşmənin istəklərindən agah olun.

15. İbadət düşməndən xəbərsizliyə səbəb olmasın.

16. Həqiqi müsəlmanlarda qəflət ehtimalı zəifdir. (Ayədəki "ləv" sözü uyğun mənanı bildirir.)

17. Hərbi və iqtisadi imkanları ayıqlıqla qorumaq lazımdır.

18. İslam ümmətinin qəfləti kafirlərin qələbəsi və qan tökməsi ilə nəticələnir.

19. Müsəlmanları qəflətdə qoyan, ayıqlığını əlindən alan hər bir söz, proqram və hərəkət düşmənin istəklərinə xidmət edən addımdır.

20. Cəbhə və döyüşdən kənarda qalmaq istəyi xəstəlik və zərərdir.

21. Yağış silahın yerə qoyulması üçün səbəb ola bilər. Zərərsiz yağışda döyüşçü silahını yerə qoymur.

22. Heç bir halda döyüşçü hərbi ləvazimatlarından kənarda olmamalıdır. Hətta silah yoxdursa da, zireh döyüşçünün üstündə olmalıdır.

23. Kafirləri hədələmək və möminlərə ümid vermək Quran şivələrindəndir.

24. Gələcəkdə zillət kafirlərin olacaq.

**103.** ﴿فَإِذَا قَضَيْتُمُ الصَّلاَةَ فَاذْكُرُواْ اللّهَ قِيَامًا وَقُعُودًا وَعَلَى جُنُوبِكُمْ فَإِذَا
اطْمَأْنَنتُمْ فَأَقِيمُواْ الصَّلاَةَ إِنَّ الصَّلاَةَ كَانَتْ عَلَى الْمُؤْمِنِينَ كِتَابًا مَّوْقُوتًا﴾

**"Elə ki, namazı başa çatdırdınız, Allahı ayaq üstə, oturaq vəziyyətdə və uzanmış halda yad edin. Elə ki, aramlıq tapdınız (qorxu halı ötüşdü), namazı kamil şəkildə bərpa edin. Həqiqətən, namaz möminlər üçün müəyyən vaxtda vacib olmuşdur."**

## *Nöqtələr*

◘"Qaim" sözünün cəm forması olan "qiyamən" sözü durmuş, "qaid" sözünün cəm forması olan "quudən" sözü oturmuş, "cənb" sözünün cəm forması olan "cünub" sözü uzanmış mənalarını bildirir. Eləcə də, "kitabən" sözü yazılmış, vacib əmr, "məvqutən" sözü müəyyən vaxta aid iş mənasını ifadə edir.

◘Həzrət Əli (ə) ayənin zikrlə bağlı göstərişi haqqında buyurmuşdur: "Sağlam şəxs ayaq üstə, xəstə oturaq vəziyyətdə, oturaq vəziyyətdə qala bilməyən şəxs isə uzanmış vəziyyətdə namaz qılsın."[1]

---

[1] "Vəsail", c. 5, s. 488.

◘İmam Baqir (ə) namazın müəyyənləşmiş vaxtları haqqında buyurmuşdur: "Yəni, vacib (olmuşdur.)"[1]

## *Bildirişlər*

1. Qorxu vaxtı qılınan namazın əskiklikləri Allahın zikri ilə aradan qaldırılır.
2. Bütün hallarda namaz və Allahın zikri zəruridir. İstər döyüş cəbhəsində, istər xəstəlik yatağında namaz qılınmalıdır.
3. Müsəlman döyüşçünün silahı namaz və Allahın zikridir.
4. Qorxu namazı bir istisnadır. Qorxu halı aradan qaldırıldıqdan sonra namaz adi halda qılınmalıdır.
5. Namaz bütün əsrlərdə, bütün nəsillər üçün qəti vacib olmuş ilahi əmrlərdəndir.
6. Hər bir namaz öz xüsusi vaxtında vacibdir.
7. Namaz üçün xüsusi vaxtın təyini davam, nəzm və diqqət rəmzidir. Namaz özü müsəlmanların işlərinə nəzm verən amil və nəzm dərsidir.

104. ﴿ وَلاَ تَهِنُواْ فِي ابْتِغَاء الْقَوْمِ إِن تَكُونُواْ تَأْلَمُونَ فَإِنَّهُمْ يَأْلَمُونَ كَمَا تَأْلَمونَ وَتَرْجُونَ مِنَ اللّهِ مَا لاَ يَرْجُونَ وَكَانَ اللّهُ عَلِيمًا حَكِيمًا ﴾

**"Düşməni təqib etməkdə süstlük göstərməyin. Əgər siz əziyyət çəkirsinizsə, həqiqətən, onlar da sizin kimi əziyyət çəkirlər. Halbuki siz Allahdan bir şey (qeybi yardımlar və behişt) gözləyirsiniz, onlarsa ümidsizdirlər. Allah biləndir və hikmət sahibidir."**

## *Nöqtələr*

◘Ühüd döyüşündən sonra Əbu-Süfyan Ühüd dağına çıxıb şüar verdi ki, biz ötən il Bədrdəki məğlubiyyətimizin əvəzində qələbə qazandıq. Peyğəmbərin tərəfdarları dedilər: "Bizim şəhidlər behiştdədir, sizin öldürənlər isə cəhənnəmdə."

Onlar şüar verdilər: "Bizim «Üzza» bütümüz var, sizinsə yoxdur." Müsəlmanlar belə cavab verdilər: "Allah bizim mövlamızdır, sizin isə mövlanız yoxdur."

Sonra kafirlər «Hobə»lin adı ilə şüar verdilər: "Var olsun «Hobəl» bütü!" Müsəlmanlar onların cavabında fəryad çəkdilər: "Allah daha uca və daha cəlallıdır." Bu ayə nazil olduqdan sonra həzrət Peyğəmbər (s) ümumi səfərbərlik göstərişi verdi. Məqsəd kafirləri geri qayıtmaq fikrindən döndərmək idi.

[1] "Kafi", c. 3, s. 394.

## *Bildirişlər*

1. Müsəlmanların güclü ruhiyyəsi olmalıdır. Ühüd döyüşündəki kimi ötəri məğlubiyyətlər onları süstləşdirməməlidir.
2. Müdafiə mövqeyi tutmaq əvəzinə düşməni təqib edib, hücum vəziyyətində olun.
3. Möminlərə ruhiyyə verən səbəblərdən biri öz dərdlərini başqalarının dərdləri ilə müqayisə etmək, ilahi yardımlara diqqətli olmaqdır.
4. Bütün zərərlərə və acılıqlara baxmayaraq siz qalibsiniz. Çünki Allahın lütfü ümidindəsiniz.
5. Müsəlmanlar Allahdan növbənöv yardımlar ümidindədirlər. Qeybi yardımlar ümidi, qələbə ümidi, düşmənin məğlub olması ümidi, mənəvi mükafatlar ümidi və bu kimi başqa ümidlər. (Ayədə ümid ünvanı müəyyənləşdirilmədiyindən bütün ümidlər nəzərdə tutulur.)
6. Ümid hərəkət üçün ən böyük təşviqdir. Ümid döyüşçünün ruhi sərmayəsidir. Ya şəhadət və səadət, ya da qələbə!
7. Döyüşlərdə möminlərin çəkdiyi əziyyət Allahın elm və hikmətinə əsaslanır. Ona görə də Allah bu məşəqqətlərin qarşısını almır.

**105.** ﴿ إِنَّا أَنزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ لِتَحْكُمَ بَيْنَ النَّاسِ بِمَا أَرَاكَ اللّهُ وَلاَ تَكُن لِّلْخَآئِنِينَ خَصِيمًا ﴾

**“Həqiqətən, Biz bu kitabı haqq olaraq sənə nazil etdik ki, xalq arasında Allahın sənə öyrədib göstərdiyi ilə mühakimə yürüdəsən. Xəyanətkarların xeyrinə düşmənçiliyə qalxma.”**

**106.** ﴿ وَاسْتَغْفِرِ اللّهِ إِنَّ اللّهَ كَانَ غَفُورًا رَّحِيمًا ﴾

**“Allahdan bağışlanma dilə. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Tanınmış qəbilədən olan bir şəxs oğurluq etdi. Məsələdən həzrət Peyğəmbər (s) xəbər tutdu. Oğru öz günahını evində yaşadığı başqa bir şəxsin boynuna atdı. İttiham olunan şəxs qılıncını çıxarıb böhtançıya hücum etdi və onun öz iddiasını sübuta yetirməsini tələb etdi. Onu sakitləşdirdilər. Amma qəbilənin natiqlərindən biri bir qrup adamla Peyğəmbərin (s) yanına gəlib həmin şəxs üçün bəraət istədilər. Peyğəmbər (s) onların şahidliyinə əsaslanaraq həqiqi oğruya bəraət verdi. Oğurluq haqqında xəbər verən şəxs (Qütadə) Peyğəmbər (s) tərəfindən məzəmmət olundu. Amma Qütadə bilirdi ki, şahidlər yalançıdır. Buna görə də çox narahat idi. Bu vaxt ayə nazil oldu və Qütadənin məzlumiyyəti, gələnlərin yalançı şahidliyi üzə çıxdı.

◘Ayənin nüzul şəni haqqında başqa bir fikir budur ki, döyüşlərdə birində müsəlmanlardan biri zireh oğurladı. Bu şəxs rüsvay olmaq astanasında ikən oğurladığı zirehi yəhudinin həyətinə atdı. Bir dəstə adamı öyrətdi ki, yəhudinin oğurluğuna şəhadət versinlər. Peyğəmbər (s) onların şəhadətinə əsaslanaraq müsəlmanın günahsız olması haqqında hökm verdi. Amma ayə nazil oldu və yəhudinin günahsızlığı üzə çıxdı.

◘Bir iddiaya tərəfdarlıq edən şəxsə "xəsim", qazinin hüzuruna batil bir işi iddia edən şəxs isə "xain" adlanır. ("Təfsire-Rahnüma")

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Mən zahirə əsasən hökm verirəm. Amma siz haqsız olduğunuzu bildiyinizdən mənim mühakiməm əsasında kimsədən bir şey almayın. Bu, cəhənnəmin bir parçasıdır."

◘İmam Sadiq (ə) buyurmuşdur: "Peyğəmbərin haqq canişinləri onun özü kimi Quran əsasında mühakimə yürütməlidir.[1]

## *Bildirişlər*

1. Quran xalq arasında mühakimə və ədalətin dayağıdır.
2. Qazi Quran qanunlarından tam xəbərdar olmalıdır.
3. Quranı və sünnəni tam əxz etmək qaziliyin şərtidir.
4. Quran haqq əsasında nazil olduğundan mühakimələr də haqqa əsaslanmalıdır. Mühakimədə partiya və qövm yaxınlığı, yerliçilik və millətçilik rol oynamır.
5. Hətta qeyri-müsəlmanla da ədalətlə rəftar olunmalıdır. (Ayənin ikinci nüzul şəninə əsasən)
6. Mühakimə peyğəmbərlik şənindəndir. Hökmləri bəyan etmək azdır, onları yerinə yetirmək də vəzifədir.
7. İnsanın kafirliyi ona böhtan atılması üçün əsas ola bilməz. (Ayənin ikinci nüzul şəninə əsasən)
8. Peyğəmbər qanun və kitabdan əlavə, ilahi yardımlardan da faydalanır.
9. Allah Öz peyğəmbərinə Qurandan əlavə proqramlar da buyurmuşdur.
10. Allah Öz peyğəmbərini hifz edir və hiylələri aşkarlayır.
11. Qanun möhtərəmdir. Amma qanundan sui-istifadə edənin qarşısı alınmalıdır. Bu yerdə ilahi yardımlar əl tutur.
12. Xainin müdafiəsi və himayəsi qadağandır.
13. Xainlər dini rəhbərlərin müdafiəsinə ümid etməməlidirlər.
14. Qazilik elə bir məqamdır ki, bu məqamı tutan məsum da olsa, bağışlanma istəyir.
15. Hətta bir yəhudiyə zülm olunduqda, müsəlmanların rəhbəri səhvə yol vermiş müsəlmanlar üçün bağışlanma diləməlidir. Bu, İslamın iftixarıdır.
16. Əgər Quran peyğəmbərin öz kitabı olsaydı, bu kitabda peyğəmbərə istiğfar əmri verilməzdi.
17. Qazi nəfs istəklərindən uzaq olmaq üçün daim istiğfar etməlidir.
18. İstiğfar ilahi bağışlanma və rəhmətdən faydalanma üçün bir əsasdır.

[1] "Kafi", c. 1, s. 268.

19. Allah günahları bağışlamaqla yanaşı mehribandır.

107. ﴿ وَلاَ تُجَادِلْ عَنِ الَّذِينَ يَخْتَانُونَ أَنفُسَهُمْ إِنَّ اللّهَ لاَ يُحِبُّ مَن كَانَ خَوَّانًا أَثِيمًا ﴾

**“Özünə xəyanət edən kəsləri müdafiə etmə. Allah xəyanət edən günahkarı dost tutmur.”**

## *Nöqtələr*

◘Xalqa zülm və xəyanət insanın özünə xəyanətdir. Çünki belə bir xəyanətin acı sonluqları var:

a) Xalqa zülm və xəyanət ruhun səfasını və ədalətə meylini aradan götürür.

b) Zülm və xəyanət sabah ayağa qalxası məzlumları məhrumiyyətə düçar edən amildir.

v) Zülm və xəyanət insan üçün ilahi qəhr-qəzəb və cəhənnəm hazırlayan səbəbdir.

q) Zülm və xəyanət cəmiyyəti çirkaba batırır. Bu çirkab xainin öz ətəyindən də yapışır.

## *Bildirişlər*

1. Xainin müdafiəsi haramdır. Xəyanətlə razılaşmaq günaha şəriklik mənası daşıyır.
2. İslam hakimi məzlumların arxası olmalıdır. Hakim zalımları himayə etməməlidir.
3. Heç bir zor, hədə, şərait, ictimai fikir xainlə həmkarlığa yol açmır.
4. Cəmiyyətin rəhbərləri və qazilər xainləri tanımalıdırlar. Düzgün mövqe tutmaq üçün onların planlarından xəbərdar olmaq lazımdır.
5. Həm keçmişə görə istiğfar etməli, həm də gələcəyə diqqətli olmalı!
6. Quran anlamında cəmiyyətin fərdləri bir bədənin üzvləri kimidir. Cəmiyyətə xəyanət insanın özünə xəyanətidir.
7. Cüzi və bilməyərəkdən baş verən xəyanət fitnəkarların xəyanəti ilə eyni deyil.
8. Xəyanətlə xalqa məhəbbət bağını qırandan Allah da Öz məhəbbətini qət edəcək.
9. İnsanda sevilmək istəyi var. İnsanın tərbiyəsi üçün bu istəkdən istifadə olunmalıdır.
10. Allahın sevgisi və qəzəbi peyğəmbərin və möminlərin seçimində meyardır.

108. ﴿ يَسْتَخْفُونَ مِنَ النَّاسِ وَلاَ يَسْتَخْفُونَ مِنَ اللّهِ وَهُوَ مَعَهُمْ إِذْ يُبَيِّتُونَ مَا لاَ يَرْضَى مِنَ الْقَوْلِ وَكَانَ اللّهُ بِمَا يَعْمَلُونَ مُحِيطًا ﴾

**“(Onlar öz xəyanətlərini) xalqdan gizlədirlər. Amma Allahdan gizlədə bilməzlər. Belə ki, Allah bəyənilməmiş sözlər danışdıqları vaxt onlarladır. Allah onların gördüyü işlərdən xəbərdardır.”**

## *Bildirişlər*

1. Məxfi gecə məclislərində fitnə hazırlamaq xain münafiqlərin iş üsullarıdır.
2. Allahın hüzuruna, bütün sözlərdən və işlərdən xəbərdar olmasına iman ən mühüm təqva amilidir.
3. Allah bizim əməllərimizi yaxından görür.
4. Danışıq da əməldəndir. Ayədə bəyənilməmiş danışıqlar qeyd olunsa da, əməllər də bu qəbildəndir.

109. ﴿ هَاأَنتُمْ هَؤُلاء جَادَلْتُمْ عَنْهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا فَمَن يُجَادِلُ اللّهَ عَنْهُمْ يَوْمَ الْقِيَامَةِ أَم مَّن يَكُونُ عَلَيْهِمْ وَكِيلاً ﴾

**“Bəli, siz həmin kəslərsiniz ki, dünya həyatında onların tərəfini tutdunuz. Bəs qiyamət günü Allahın qarşısında onların tərəfini kim saxlayacaq? (Həmin gün) onların vəkili və müdafiəçisi kim olacaq?”**

## *Nöqtələr*

◘107, 108 və 109-cu ayələrdə üç zümrəyə üç xəbərdarlıq olundu: Qaziyə deyildi: diqqətli olsun ki, haqqa təcavüz etməsin. Xainə deyildi ki, Allah sənin işlərini görür. Xaini müdafiə edənlərə deyildi ki, sizin səylərinizin qiyamətdə faydası olmayacaq.

## *Bildirişlər*

1. Ey xainlər, bu gün sizi himayə edənlərə görə sevinməyin. Çünki sabah da var. Xainlərin müdafiəsi müvəqqəti və davamsızdır.
2. Dünyada məhkəmənin hökmü nüfuzludur. Amma günahkar tənha qalacağı qiyamət gününün hesabı haqqında düşünməlidir.
3. Xainin vəkili, müdafiəçisi olmayaq. Vəkillərin yalanına aldanmayaq.
4. Dünyada haqqını ala bilməyən məzlumlar narahat olmasınlar. Qiyamətdə onların arxası var və zalımlar öz hesablarına çatar.

**110.** ﴿ وَمَن يَعْمَلْ سُوءًا أَوْ يَظْلِمْ نَفْسَهُ ثُمَّ يَسْتَغْفِرِ اللّهَ يَجِدِ اللّهَ غَفُورًا رَّحِيمًا ﴾

**“Hər kəs pislik etsə, ya özünə sitəm qılsa, sonra Allahdan bağışlanma diləsə, Allahın bağışlayan və mehriban olduğunu görəcək.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə xain hədələnirdisə, bu ayədə onun üçün tövbə qapısı açılır.

◘«Su» (“pis”) sözü həm də başqalarına zərər vurmaq mənasını bildirir. Deməк, ayədə həm xalqa zülm, həm də insanın özünə zülmü bəyan olunur. Bəziləri «su» sözünün kiçik günaha, “nəfsə zülm” təbirinin böyük günaha aid olduğunu bildirirlər.[1]

## *Bildirişlər*

1. İnsan özünə də zülm edə bilməz. Günah əslində insanın özünə zülm etməsidir.
2. Xatakarlar üçün geri dönüş yolu var.
3. Bəndənin istiğfarı ilə Allahın bağışlaması arasında fasilə yoxdur.
4. Həqiqi tövbə o qədər şirindir ki, insan ilahi rəhməti öz qəlbində hiss edir.
5. Allah təkcə pislikləri bağışlamır, O, həm də mehribandır.

**111.** ﴿ وَمَن يَكْسِبْ إِثْمًا فَإِنَّمَا يَكْسِبُهُ عَلَى نَفْسِهِ وَكَانَ اللّهُ عَلِيمًا حَكِيمًا ﴾

**“Hər kəs günaha batsa, özünə ziyan etmişdir. Allah bilən və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘İlahi hədlərin pozulması olan günah qəlbin səfasını, ruhun təqvasını və ədaləti aradan götürür. Bu, ən böyük zərərdir. Bundan əlavə, varlıq nizamında və ilahi düzümdə xalqa zülmün nəticəsi gec ya tez zalımın özünə çatır.

## *Bildirişlər*

1. Hər bir günah insanın ruhuna və canına birbaşa təsir göstərir.
2. İnsan məcbur deyil və azad şəkildə günaha batır.
3. Məqsədsiz əməl yox, günahla nəticələnən pis niyyət ruha mənfi təsir göstərir.
4. Günahın pis nəticəsini günahkara qaytarma səhv yox, hikmətli bir işdir.
5. Agahlıq və elm işin hikmətli olması şərtidir.

**112.** ﴿ وَمَن يَكْسِبْ خَطِيئَةً أَوْ إِثْمًا ثُمَّ يَرْمِ بِهِ بَرِيئًا فَقَدِ احْتَمَلَ بُهْتَانًا وَإِثْمًا مُّبِينًا ﴾

---

[1] “Təfsire-Rahnüma”.

**“Hər kəs xata və ya günaha yol versə, sonra bunu gxünahsız bir şəxsin boynuna atsa, şübhəsiz ki, böhtan və aşkar günah yükünü çiynina almışdır.”**

## *Nöqtələr*

◘“Xata” sözü büdrəmə mənasını bildirir. Bu həm bilərəkdən, həm də bilməyərəkdən ola bilər. “İsm” (“اثم”) isə bilərəkdən baş verən günahı ifadə edir.

◘Böhtan imanın, ədalətin, etimadın puç olmasına gətirən böyük günahlardandır. Böhtan axirət əzabı səbəbidir. İmam Sadiq (ə) buyurmuşdur: “Günahsıza böhtan əzəmətli dağlardan ağırdır.”[1]

◘Böhtan elə bir yalana deyilir ki, bunu eşidən insan heyrətə gəlir.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Qeybət odur ki, din qardaşının Allah tərəfindən örtülmüş eybini açasan. Amma onda olmayan bir şeyi dilə gətirmək böhtandır.”[2]

## *Bildirişlər*

1. Böhtan xalqın abır-həyasına atılmış oxdur.
2. İstənilən bir millətdən, istənilən bir dindən, istənilən bir yaşda, istənilən bir şəraitdə olan günahsız insana böhtan deyilməsi haramdır.
3. Böhtan atan şəxs çiyninə ağır bir günah yükü götürmüşdür. (“Buhtanən və ismən” sözlərindəki “tənvin” günahın böyüklüyünü göstərir.)

**113.** ﴿وَلَوْلاَ فَضْلُ اللّهِ عَلَيْكَ وَرَحْمَتُهُ لَهَمَّت طَّآئِفَةٌ مُّنْهُمْ أَن يُضِلُّوكَ وَمَا يُضِلُّونَ إِلاُّ أَنفُسَهُمْ وَمَا يَضُرُّونَكَ مِن شَيْءٍ وَأَنزَلَ اللّهُ عَلَيْكَ الْكِتَابَ وَالْحِكْمَةَ وَعَلَّمَكَ مَا لَمْ تَكُنْ تَعْلَمُ وَكَانَ فَضْلُ اللّهِ عَلَيْكَ عَظِيمًا﴾

**“Əgər sənə Allahın fəzl və rəhməti olmasaydı, onlardan bir qrupu səni haqq yoldan azdırmaq istəyirdilər. Amma özlərindən başqasını azdırmazlar. Sənə heç bir ziyan vurmazlar. Allah kitab və hikməti sənə nazil etdi. Bilmədiyini sənə öyrətdi. Sənə Allahın fəzli qədərincə böyük olmuşdur.”**

---

[1] “Səfinətul-bihar”, “boht” maddəsi; “Kafi”, c. 2, «Töhmət» babı.
[2] “Vəsail”, c. 13, s. 286.

## *Nöqtələr*

Bəlkə də bu ayə yüz beşinci ayə kimi nahaqdan oğurluqda ittiham olunan şəxsin macərasına aid olsun. Həmin vaxt Peyğəmbər (s) bir qrup dəstənin şahidliyinə əsasən mühakimə yürütmüşdü. Ayə başqa bir məsələyə də işarə ola bilər. Bir dəstə şəxs Peyğəmbərin (s) görüşünə gəlib demişdilər ki, iki şərtlə sənə beyət etməyə hazırıq. Bütləri öz əlimizlə qırmayacağıq və bir il də Üzzaya pərəstiş edəcəyik." Ayə nazil oldu və bu istək rədd edildi.

## *Bildirişlər*

1. Düşmənlərin hətta Peyğəmbərə (s) qarşı onu büdrətmək üçün planları var. Deməк, cəmiyyətin rəhbərləri diqqətli olmalıdırlar.
2. İnsan başqalarını azdırmaq qərarına gəlmişsə, əslində özünü azdırmaq qərarına gəlmişdir.
3. Allah Quranı sığortaladığı kimi, Peyğəmbərini (s) də sığortalayır.[1]
4. Hikmət təlimi və kitab göndərilməsi ilahi fəzl və lütfün aşkar nümunəsi, peyğəmbərin paklıq rəmzidir.
5. Allah Öz peyğəmbərinə qeyb elmi və sirlər öyrədir.
6. Peyğəmbərin haqlı olması nişanələrindən biri budur ki, ona deyilir: "Sən ilahi təlimsiz işlərdən xəbər tuta bilməzdin." Bəli, əgər Quran peyğəmbərin sözü olsaydı, heç vaxt özünü savadsız kimi tanıtdırmazdı.
7. Allah peyğəmbərin müəllimidir. İlahi təlimdə heç bir xata və səhv baş vermir.
8. Bəşəriyyətin elm dairəsi, hətta peyğəmbərin da elmi məhduddur.

**114.** ﴿لاَّ خَيْرَ فِي كَثِيرٍ مِّن نَّجْوَاهُمْ إِلاَّ مَنْ أَمَرَ بِصَدَقَةٍ أَوْ مَعْرُوفٍ أَوْ إِصْلاَحٍ بَيْنَ النَّاسِ وَمَن يَفْعَلْ ذَلِكَ ابْتَغَاء مَرْضَاتِ اللّهِ فَسَوْفَ نُؤْتِيهِ أَجْرًا عَظِيمًا﴾

**"Onların xəlvətdəki söhbətlərinin çoxunda bir xeyir yoxdur. Yalnız sədəqə verməyi, yaxşı iş görməyi, xalq arasında islah və dostluq yaratmağı əmr edənin söhbətindən başqa! Hər kəs Allahın razılığını qazanmaq üçün belə etsə, ona tezliklə böyük mükafatlar verəcəyik."**

## *Nöqtələr*

◘İmam Sadiq (ə) buyurmuşdur: "Ayədə yaxşı iş dedikdə "qərzül-həsənə", yəni gözəl borc nəzərdə tutulmuşdur.[2]

◘İmam Sadiq (ə) buyurmuşdur: "Hətta yalan vasitəsi ilə insanlar arasında xoş münasibətlər yaratmaq bəyənilmişdir."[3]

---

[1] Bax: "Hicr", 9.
[2] "Kafi", c. 4, s. 34.
[3] "Kafi", c. 2, s. 341.

## *Bildirişlər*

1. Pıçıldaşma - bir neçə hal istisna olmaqla - bəyənilməmişdir. Çünki bu hal möminlər arasında sui-zən yaradır.
2. Fikir bildirərkən insafla rəftar etmək lazımdır. Bütün pıçıltılara şübhə ilə yanaşmayaq.
3. Bəzən iki tərəf arasında dostluq yaratmaq üçün onların hər biri ilə ayrı-ayrılıqda məxfi görüşmək lazım gəlir.
4. Bəzən əmr be məruf və ya aşkar sədəqə qarşı tərəfin xəcalətinə və ya inadkarlığına səbəb olur. Belə hallarda pıçıltı ilə, gizli iş görmək lazımdır.
5. Xalqın heysiyyəti o qədər əhəmiyyətlidir ki, onun qorunması üçün xoşagəlməz pıçıltı da bəyənilməmişdir. Məxfi sədəqə və əmr be məruf pıçıldaşmanın çirkinliyini öz kölgəsində itirir.
6. İşlərin dəyəri bu işlərdəki ixlasdan asılıdır.
7. Bir işin gizli şəkildə görülməsi həmin işdə ixlas olması demək deyil. Bəzən bu özü də görüntü yaratmaq məqsədi daşıya bilər.
8. Cəmiyyətə xidmət, xeyirxahlığa dəvət, sülh şəraitində birgə yaşayış böyük mükafat qazanılması səbəbidir.

**115.** ﴿ وَمَن يُشَاقِقِ الرَّسُولَ مِن بَعْدِ مَا تَبَيَّنَ لَهُ الْهُدَى وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ
الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّى وَنُصْلِهِ جَهَنَّمَ وَسَاءتْ مَصِيرًا ﴾

**“Hər kəsə doğru yol aşkar olduqdan sonra peyğəmbərlə müxalifətçilik etsə, onu üz tutduğu səmtə döndərərik. Onu pis bir sonluq olan cəhənnəmə atarıq.”**

## *Nöqtələr*

◘Bu ayə İslamı və peyğəmbərin risalətini qəbul etdikdən sonra bilərəkdən onun göstərişinə qarşı çıxanlara aiddir. Beləleri öz yollarını müsəlman camaatın yolundan ayırmışlar.

◘“Yuşaqiqir - rəsul” təbiri insanın özünü bir yarı, peyğəmbəri digər bir yarı qərar verməsidir. Belə bir şəxs işi pozur, bilərəkdən ədavətlə müşayiət olunan müxalifətçiliyə əl atır.

◘Peyğəmbərlə müxalifətçiliyin müxtəlif yolları vardır. Məsələn: dini külli halda inkar etmək, bəzi hökmlərə iman, bəzi hökmlərə inamsızlıq, təhrif, don geyindirmək, şəri hiylələr.

◘Rəvayətdə nəql olunur ki, iki şəxs məsxərə məqsədi ilə kərtənkələyə üz tutub onu “əmirəl-möminin” adlandırdılar. Həzrət Əli (ə) buyurdu: “İstehza edən bu iki şəxsi azad buraxın. Qiyamətdə həmin kərtənkələ bu iki şəxsin imamı olacaq.” Sonra imam həmin ayədən bir parça oxudu: “Nuvəllihi ma təvəlla”.[1]

---

[1] “Təfsire-Nurus-Səqəleyn”.

◘Həzrət Əli (ə) "Nəhcül-Bəlağənin" altıncı məktubunda buyurur: "Əgər xalq bir şəxs haqqında yekdil rəyə gəlib onu imam adlandırsa, Allahın razılığı da ondadır. Əgər bir şəxs tənə və bidətlə bu şəxsə itaət etməsə, onu qaytarın. Əgər qayıtmasa, onunla döyüşün. O, möminlərin yolunu getməmişdir."

## *Bildirişlər*

1. Elm və mərifət insanda məsuliyyət yaradır. Peyğəmbərin müxaliflərinə o zaman cəza verilə bilər ki, onlar peyğəmbərin haqq olduğunu anlamış olsunlar.
2. Müsəlmanların əməli üslubu o zaman höccət ola bilər ki, peyğəmbərin sünnəsi və yolu ilə zidd olmasın.
3. İslam peyğəmbəri və möminlər bir cəbhədədirlər. İslam cəmiyyəti ilə müxalifətçilik peyğəmbərlə müxalifətçilikdir.
4. Peyğəmbər qarşısında təslimçilik vacib, onunla müxalifətçilik haramdır.
5. Müsəlmanlar arasında təfriqə yaratmaq insanı cəhənnəmə aparar.
6. Allah kimsə üçün höccəti tamamlamamış (haqqı ona bildirməmiş) onu cəhənnəmə aparmır.
7. Haqqın səsini eşitməyən müstəzəflərin və ya ayırd etmə gücü olmayanların hesabı agah və inadkar fərdlərin hesabından fərqlidir.
8. Süqutun müqəddimələri insanın öz əlindədir.
9. Həqiqi möminlərin yolundan başqa bütün yollar cəhənnəmə aparır.
10. Peyğəmbər və İslam ümməti ilə müxalifətçiliyin nəticəsi qeyri-ilahi hakimiyyətə tabeçilik və cəhənnəmə süqutdur.
11. Allah azğınları Öz nemətlərindən məhrum etmir. Hər kəsə onun tutduğu yolda yardım göstərilir.

**116.** ﴿ إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء وَمَن يُشْرِكْ
بِاللّهِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا ﴾

**"Həqiqətən, Allah Ona şərik qoşulmasından (tövbəsiz) keçmir. Amma bundan aşağı və azını istədiyi kəsə bağışlayır. Allaha şərik qoşan hər kəs, şübhəsiz, azmışdır. Uzun-uzadı bir azğınlıq!"**

## *Nöqtələr*

◘Bu ayə azca fərqlə hazırkı surənin 48-ci ayəsində bəyan olunmuşdur. Bəli, hidayət və tərbiyədə təkrar zəruridir.

◘Dərin ruhi xəstəlik olan şirkin kökü kəsilməyincə saleh əməllərin və əxlaqın faydası yoxdur. Tövbə şirkin dərmanıdır. Müşrik ilahi əfv və rəhmətə çatmaq üçün şirk dairəsini tərk etməlidir.

◘Bu ayə Quranın ən ümidverici ayələrindəndir.[1]

[1] "Təfsire-Ətyəbul-Bəyan".

## *Bildirişlər*

1. Allahın rəsulu ilə müxalifətçilik, müsəlmanların vəhdətinin pozulması (əvvəlki ayədə bu məsələyə işarə olundu) şirkin bir növüdür.

2. Şirk bağışlanmayan ən böyük günahdır.

3. İnsan Allahın bağışlamasına münasibətdə qorxu və ümid arasında olmalıdır.

4. Şirk hər növ kamaldan uzaqlıq səbəbidir.

**117.** ﴿ إِن يَدْعُونَ مِن دُونِهِ إِلاَّ إِنَاثًا وَإِن يَدْعُونَ إِلاَّ شَيْطَانًا مَّرِيدًا ﴾

**“(Müşriklər) Allahın əvəzinə yalnız qadın məbudlara (Lat, Mənat, Üzza kimi qadın adları qoyulmuş bütlərə) üz tuturlar. Onlar azğın və tüğyançı şeytandan başqasını çağırmırlar.”**

## *Nöqtələr*

¤Əvvəlki ayədə müşriklərin zəlalət və azğınlıq içində olduğu bildirilirdi. Bu ayədə isə həmin azğınlığın səbəbi bütlərə pərəstiş və şeytana itaət göstərilir.

¤“İnasən” ayəsində qadın məbudlar dedikdə ya müşriklərin qadın adları ilə çağırdığı bütlər, ya da, müşriklərin əqidəsincə, Allahın qızları olan mələklər nəzərdə tutulur. “İnasən” dedikdə məbudların zəifliyi də nəzərdə tutula bilər. Çünki bütlərin pərəstiş səlahiyyətləri yox idi.

## *Bildirişlər*

1. Qeyri-ilahi bütlər ya zəifdir, ya da tüğyançı.

2. Həqiqi məbuddan qaçan kəsin batil məbudlara və şeytana sığınmaqdan başqa yolu yoxdur.

3. Bütün azğın yollar şeytana itaət yoluna aparır.

4. Allahdan qeyri istənilən bir məbuda pərəstiş əslində şeytana pərəstişdir.

**118.** ﴿ لَّعَنَهُ اللّهُ وَقَالَ لَأَتَّخِذَنَّ مِنْ عِبَادِكَ نَصِيبًا مَّفْرُوضًا ﴾

**“Mən hökmən Sənin bəndələrindən müəyyən bir pay alacağam” deyəndə Allah ona (şeytana) lənət edib.”**

**119.** ﴿وَلأُضِلَّنَّهُمْ وَلأُمَنِّيَنَّهُمْ وَلآمُرَنَّهُمْ فَلَيُبَتِّكُنَّ آذَانَ الأَنْعَامِ وَلآمُرَنَّهُمْ فَلَيُغَيِّرُنَّ خَلْقَ اللّهِ وَمَن يَتَّخِذِ الشَّيْطَانَ وَلِيًّا مِّن دُونِ اللّهِ فَقَدْ خَسِرَ خُسْرَانًا مُّبِينًا﴾

**«Onları hökmən azdıraram. Hökmən arzularla başlarını qataram. Göstəriş verərəm ki, dördayaqlıların qulağını çərtsinlər (bilinsin ki, bu**

**heyvan bütlərin payıdır). Onlara göstəriş verərəm ki, Allahın yaratdığını bir-birinə qatsınlar. (Allah buyurur:) Hər kəs Allahın əvəzinə şeytanı dost və rəhbər tutsa, şübhəsiz, ziyan etmişdir, aşkar bir ziyan!»**

## *Nöqtələr*

◘"Lə umənniyyənnəhum" təbiri puç arzuların təlqini mənasını bildirir.

◘Heyvanların qulağının yarılması cahiliyyət dövrünün xurafi işlərindən idi. Heyvan bu sayaq nişanlandıqdan sonra ona minmək, onu kəsmək və ondan istənilən cür istifadə etmək haram sayılardı.

◘Xalqın azdırılması ilə bağlı şeytanın bütün təkidləri bu iki ayədə bəyan olunmuşdur və iman sahiblərinə xəbərdarlıq edilir.

◘"Bəndələrindən müəyyən pay alacağam" cümləsi iki cür anlaşıla bilər:

a) Bəzi bəndələr azdırılar.

b) Hər bəndənin müəyyən anları şeytani olar.

◘Rəvayətdə oxuyuruq: "Allahın yaratdığını bir-birinə qatmaq" cümləsi dinin dəyişdirilməsinə də aiddir.[1]

## *Bildirişlər*

1. Şirk şeytanın toruna düşməkdir.
2. Şeytanın bütün bədbəxtçiliklərinin kökü onun lənətə gəlməsidir.
3. Şeytan insanın qədim düşmənidir. Diqqətli olun ki, onun toruna düşməyəsiniz.
4. Şeytan insanı azdırmaq üçün bacardıqca çalışır.
5. Şeytan hamını azdıra bilməz.
6. Şeytan Allahın xaliqliyini qəbul edir.
7. Vəsvəsə təhlükəsi ciddi və daimidir. Öz düşmənimizi tanıyaq. (Bütün fellərin əvvəlində gəlmiş "lam" ciddilik nişanəsidir)
8. Şeytan hərəni bir cür aldadır. Kimini dində bidətlə, kimininin yaranışını dəyişməklə.
9. Uzun-uzadı arzular şeytanın təlqinlərindəndir.
10. Şeytan əvvəlcə insanın düşüncə və ruhuna təsir göstərir. Sonra onu özünə təslim edir. (Əvvəlcə uzun-uzadı arzular, sonra əmr məsələsi bəyan olunur.)
11. İnsan fitrətən haqq yoldadır. "İzlal" sözü o yerdə işlədilir ki, insan əvvəlcə haqq yola gəlmiş olsun.
12. Şeytan xalqı Allahın haram buyurduqlarını halal etməyə çağırır.
13. Arzular şeytana itaət etmək üçün zəmindir.
14. Xurafat şeytani təlqinlərdəndir.
15. İslam heç bir heyvanın istifadəsiz qalmasına icazə vermir. Belə bir halda, insanların səmərəsiz qalmasından danışmağa belə dəyməz.

---

[1] "Təfsire-Bürhan"; "Təfsire-Əyyaşi.

16. Məxluqu dəyişmək (məsələn, qadını kişiyə, kişini qadına çevirmək) haram və şeytani işdir.
17. Şeytana itaət əslində onun hakimiyyətini qəbul etməkdir.
18. İnsan üzərində hakimliyə yalnız Allah layiqdir.

**120.** ﴿ يَعِدُهُمْ وَيُمَنِّيهِمْ وَمَا يَعِدُهُمُ الشَّيْطَانُ إِلاَّ غُرُورًا ﴾

**“(Şeytan) onlara vəd verir, onları arzulara qərq edir. Şeytan onlara yalnız yalan vədlər verir.”**

**121.** ﴿ أُوْلَئِكَ مَأْوَاهُمْ جَهَنَّمُ وَلاَ يَجِدُونَ عَنْهَا مَحِيصًا ﴾

**“Yerləri cəhənnəmdə olanlar onlardır. Oradan qaçmağa yol tapmazlar.”**

## *Nöqtələr*

◘“Həys” sözündən olan “məhis” sözü daşınmaq, fikrini dəyişmək mənasını bildirir.

◘Günahların bağışlanması haqqında “Ali-İmran” surəsinin 135-ci ayəsi nazil olanda İblis fəryad qoparıb, yaxınlarını başına topladı və dedi: “İnsanın tövbəsi ilə bizim bütün zəhmətlərimiz hədər gedir.” Hərə bir söz dedi. Şeytanlardan biri dedi: “Əgər bir şəxs tövbə qərarına gəlsə, onu arzulara, vədələrə düçar edərəm ki, tövbəsi təxirə düşsün.” İblis bu sözdən razı qaldı.[1]

◘Həm Allah, həm də şeytan vədə vermişlər. Amma Allahın vədi doğru[2], şeytanın vədi isə yalandır.

◘Şeytani vədin əlaməti dar baxış və fəsada dəvətdir.[3]

## *Bildirişlər*

1. Arzulara bağlılıq şeytanın toruna düşməkdir.
2. Başqalarına, hətta uşaqlara yalan vəd verənlər şeytani iş görürlər.
3. Cəhənnəm bir qrup üçün əbədi məskəndir.
4. Cəza ilə qorxutma fəsadın qarşısını alma yollarındandır.
5. Dünya çətinliklərindən qaçmaq olar, axirət əzabından isə heç vaxt!
6. Axirətdən geri qayıtmaq mümkünsüzdür. Nə qədər ki, dünyadan getməmişik, pisliklərdən çəkinək.

**122.** ﴿ وَالَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ سَنُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا
الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا وَعْدَ اللّهِ حَقًّا وَمَنْ أَصْدَقُ مِنَ اللّهِ قِيلاً ﴾

---

[1] “Təfsire-Safi”.
[2] Bax: “Həcc”, 47.
[3] Bax: “Bəqərə”, 268.

**“İman gətirib saleh iş görən kəslər tezliklə altından çaylar axan bağlara daxil edilərlər. Həmişə orada olarlar. Allahın vədi haqdır. Sözdə Allahdan düzü kimdir?!”**

## *Bildirişlər*

1. İman əməldən ayrı deyil.
2. Əgər bütün əməllər saleh olarsa, səmərə verər. “Əssalihat” sözünün “əlif” və “lam”la gəlməsi bütün xeyir işlərin nəzərdə tutulduğunu göstərir.
3. Hədələmə ilə yanaşı təşviq Quranın tərbiyəvi üsullarındandır. (Əvvəlki ayədə hədə vardısa, bu ayədə təşviq var.)
4. Allahın vədi Onun qadir və ehtiyacsız, müqəddəs zatındandır. Başqalarının vədləri isə ya cəhalət və ehtiyacdan, ya da acizlik və zəiflikdəndir.
5. Dünya ləzzətlərində onları itirmək qorxusu var. Behişt nemətləri isə əbədidir.
6. Şeytanın yalan vədləri ilə Allahın haqq vədlərini müqayisə edib ilahi vədlərə könül verək.

**123.** ﴿ لَّيْسَ بِأَمَانِيِّكُمْ وَلا أَمَانِيِّ أَهْلِ الْكِتَابِ مَن يَعْمَلْ سُوءًا يُجْزَ بِهِ وَلاَ يَجِدْ لَهُ مِن دُونِ اللّهِ وَلِيًّا وَلاَ نَصِيرًا ﴾

**“(Mükafat və üstünlük) sizin və kitab əhlinin arzularından asılı deyil. Kim pislik etsə, cəzalandırılar və özü üçün Allahdan başqa hami və yardımçı tapmaz.”**

## *Nöqtələr*

◘Müsəlmanlar İslam peyğəmbərinin son peyğəmbər olması və özlərinin üstün ümmət olmaları ilə fəxr edirlər.[1] Kitab əhli isə öz keçmişi ilə fəxr edib deyir: Qısa bir müddət odda olacağıq.[2] Bu ayə hər iki qrupun düşüncəsini nəzərdən keçirib meyar olaraq əməli önə çəkir.

◘Əvvəlki iki ayədə arzular şeytandan sayılır. Bu ayədə batil arzular rədd edilir.

◘“Yuczə bihi” təbiri ya dünya, ya axirət, ya da həm dünya və həm axirət cəzasına aiddir. Rəvayətlərdə möminin günahlarının cəzası kimi dünya və bərzəx çətinlikləri göstərilir.[3]

◘Bəzi müsəlmanlar kitab əhli ilə mübahisələrdə peyğəmbərin onlara tərəfdar olmasını gözləyirdilər. Halbuki peyğəmbər üçün əsas məsələ ədalət idi.[4]

---

[1] Bax: “Ale-İmran”, 110.
[2] Bax: “Bəqərə”, 80.
[3] “Təfsire-Ətyəbul-bəyan”.
[4] “Təfsire-Əl-Mizan”.

◘Həzrət Peyğəmbər (s) “pislik edənə cəza verilər” buyruğundan qorxuya düşmüş şəxsə buyurdu: “Bədən xəstəlikləri, çətinliklər insanın əməllərinin cəza növüdür.”[1]

## *Bildirişlər*

1. Əsassız xəyal və arzulardan çəkinin. Onlar faydasızdır.
2. Hər bir dəstə və zümrədə tamahkar və imtiyaz gözləyən insanlar tapılır.
3. Danışıq və mühakimədə insafa riayət edin. Əgər tənqid edirsinizsə, hamının zəifliyini deyin.
4. Eybdən danışarkən özünüzdən başlayın. “Sizin arzularınız” təbiri “kitab əhlinin arzuları” təbirindən öndə gəlmişdir.
5. Yerli-yerində qətiyyət və puç imtiyaz istəklərinin qarşısında dayanmaq ən üstün tərbiyə metodlarındandır.
6. İslam gerçəkliyə əsaslanır. Fərdlərin xəyalı və istəkləri əsas deyil.
7. Allah adildir. O, əməl əsasında mükafat və cəza verir.
8. Vəhy məktəbində qanun qarşısında hamı bərabərdir. (Ad-sandan sui-istifadə qadağandır.)
9. Əsas məsələ şüar yox, əməldir.
10. Günahkar cəzalandırılarkən müdafiə, şəfaət qadağandır.

**124.** ﴿ وَمَن يَعْمَلْ مِنَ الصَّالِحَاتَ مِن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَأُوْلَئِكَ يَدْخُلُونَ الْجَنَّةَ وَلاَ يُظْلَمُونَ نَقِيرًا ﴾

**“Hər kəs saleh işlər görsə, kişi ya qadın olmasından asılı olmayaraq, mömin olduğu halda behiştə daxil olar. Onlara azca da sitəm olunmaz.”**

## *Nöqtələr*

◘“Nəqir” dimdikləmək mənasını verir. Xurma dənəsinin ucu kiçik dimdiyə oxşadığından “nəqir” adlanır.

◘Əvvəlki ayədə pis əmələ, bu ayədə saleh əmələ işarə olundu. Yəni mükafat və cəza hər biri əmələ əsaslanır.

◘Bu ayədə behiştdən, “Nəhl” surəsinin 97-ci ayəsində isə behiştdən əlavə pak həyatdan da danışılır.

[1] “Müstədrək”, c. 2, s. 60.

## *Bildirişlər*

1. Behiştə daxil olma amili iman və saleh əməldir. Milli mənsubiyyət, iddia və arzunun bu işdə rolu yoxdur.

2. Bütün millətlər, rənglər, təbəqələr ilahi lütfdən bəhrələnmədə eynidir.

3. Saleh əməllərdən bəzilərini yerinə yetirməklə behiştə ümid edin. Çünki kamal nəhayətsiz, kəsb qüdrəti isə məhduddur.

4. Qadın və kişi mənəvi kamilliklərə çatmaqda bərabərdir. Yəhudilər və məsihilər isə bu məsələ ilə bağlı başqa cür düşünürlər.[1]

5. Əməllərin qəbul şərti imandır. İmansız insanların xidmətləri dünyada dəyərləndirilir. Onlar üçün axirət mükafatı yoxdur.[2]

6. Saleh möminin mükafatı behiştdir.

7. Xeyir işlər cüzi də olsa dəyərlidir.

125. ﴿ وَمَنْ أَحْسَنُ دِينًا مِّمَّنْ أَسْلَمَ وَجْهَهُ لله وَهُوَ مُحْسِنٌ واتَّبَعَ مِلَّةَ إِبْرَاهِيمَ حَنِيفًا وَاتَّخَذَ اللّهُ إِبْرَاهِيمَ خَلِيلاً ﴾

**“Özü Allaha təslim olmuş, xeyir iş sahibi olduğu halda İbrahim ayininə tabe olan kəsin dinindən kimin dini üstündür?! Allah İbrahimi özünə dost seçdi.”**

## *Nöqtələr*

◘Əvvəlki iki ayədə əməl əsas götürüldü. İslama və ya məsihiliyə aidiyyat yada salınmadı. Bu ayədə isə bütün din və əqidələrin eyni olduğunu anlatmaq üçün bəzi məsələlər bəyan olunur.

◘Bilməliyik ki, Allaha təslimçilik Onun qəzavü-qədərindən razılıqdan üstündür. Çünki razılıq məsələsində insan özünü bir şəxs bilir. Təslimçilikdə isə insan özünü Allah qarşısında fani sayır.[3]

◘Azğın yoldan haqq yola üz tutana “hənif” deyilir. Haqq yoldan batil yola keçən isə “cənif” adlanır.

◘“Xəlil” ya “xullət” kökündən olub “dostluq” mənasını, ya da “xəllət” kökündən olub ehtiyac mənasını bildirir. Birinci məna daha münasibdir.

◘Rəvayətlərə əsasən, həzrət İbrahim “xəlilullah” məqamını çoxlu səcdələrinə, miskinləri yedirtdiyinə, gecə namazına, dilənçini rədd etmədiyinə, qonaqpərvərliyinə görə əldə etmişdi.[4]

◘İslam peyğəmbəri İbrahim ayinlərinə tabe olmuşdur.[5]

◘İbrahim “xəlilullah”, Məhəmməd (s) isə “həbibullah” adlandırılmışdır.[6]

---

[1] “Təfsire-Fürqan”.
[2] “Təfsire-Əl-Mizan”.
[3] “Təfsire-Ətyəbul-bəyan.
[4] “Təfsire-Nurus-Səqəleyn”.
[5] Bax: “Nəhl”, 123.
[6] “Dürrül-Mənsur”, c. 2, s. 230.

◘İşlərini ilahi niyyətlə görənlər mənfəətdədir.[1] Bütün qeyri-ilahi işlər fanidir.

## *Bildirişlər*

1. Ən üstün ayin İbrahimin dininə ardıcıllıqdır.
2. Allah qarşısında təslimçilik və xalqa ehsan ilahi dinlərin üsulundandır.
3. Əqidə məktəbi həm iman, həm də əməl bünövrəsi üzərində möhkəmlənir. Hər biri o biri olmayanda naqisdir.
4. Xalq üçün ən üstün nümunə Allahın Özü üçün seçdikləridir.
5. Batildən üz döndərən hər bir şəxs özünü xəlilullah məqamına hazırlamışdır.

**126.** ﴿وَلِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَكَانَ اللّهُ بِكُلِّ شَيْءٍ مُّحِيطًا﴾

**"Göylərdə və yerdə olan yalnız Allaha məxsusdur. Allah daim hər şeyi əhatə edir."**

## *Nöqtələr*

◘Allah bütün məxluqunu tam şəkildə əhatə edir. Qəhr və qələbə əhatəsi, elm və tədbir əhatəsi, yaradılış və dəyişmə əhatəsi uyğun əhatələrdəndir.

## *Bildirişlər*

1. Əgər hər şey Allahındırsa, yalnız Onun hikmətə əsaslanan iradəsi qarşısında təslim olaq. (Əvvəlki ayəyə işarə)
2. İbrahimin dost olaraq seçilməsi (əvvəlki ayədə) Allahın ehtiyacına görə deyil. Seçilmiş insanlar da Onun mülküdür.
3. Elm ilə müşayiət olunan və öz mülkünü kamil şəkildə əhatə edən mütləq malikiyyət Allaha məxsusdur.

**127.** ﴿وَيَسْتَفْتُونَكَ فِي النِّسَاء قُلِ اللّهُ يُفْتِيكُمْ فِيهِنَّ وَمَا يُتْلَى عَلَيْكُمْ فِي الْكِتَابِ فِي يَتَامَى النِّسَاء الَّلاتِي لاَ تُؤْتُونَهُنَّ مَا كُتِبَ لَهُنَّ وَتَرْغَبُونَ أَن تَنكِحُوهُنَّ وَالْمُسْتَضْعَفِينَ مِنَ الْوِلْدَانِ وَأَن تَقُومُواْ لِلْيَتَامَى بِالْقِسْطِ وَمَا تَفْعَلُواْ مِنْ خَيْرٍ فَإِنَّ اللّهَ كَانَ بِهِ عَلِيمًا﴾

**«Qadınlar (onların irsi) haqqında səndən fətva istəyirlər. De ki, onlar haqqında Allah sizə fətva verər. Sizin üçün oxunan Quran ayələri haqqını vermədən evlənmək istədiyiniz yetim qadınlar, müstəzəf uşaqlar**

---

[1] Bax: "Qəsəs", 88.

**haqqındadır. (Sizə fətva verir ki,) yetimlərlə insaflı rəftar edin. Gördüyünüz bütün xeyir işlərdən Allah agahdır.»**

## *Bildirişlər*

1. Qadın haqları mövzusu ilkin İslam dövrü müsəlmanlarının müzakirə mövzularından olmuşdur.
2. Qadınların, uşaqların və yetimlərin haqlarının daimi müdafiəsi onlara tarix boyu zülm edilməsinin nişanəsidir.
3. Qadın haqlarının müdafiəsi Allahın dəyişməz hökmüdür.
4. Qanun Allah tərəfindən verilir, peyğəmbər tərəfindən bəyan olunur. Peyğəmbər Allahın hökmlərini bəyan etməyə borcludur.
5. Cahil ənənələrini qəti fətvalarla aradan götürmək lazımdır.
6. Cahilanə düşüncələrə əsasən qadınları irsdən məhrum etməyin.
7. Allah qadınları mülkiyyət sahibi bilmiş və onlar üçün irs müəyyənləşdirmişdir.
8. Yetim qızlarla izdivaca maraqsızlıq onları irsdən məhrum etməklə eyni cərgədədir. Eləcə də, onların irsinə sahib olmaq üçün izdivaca meyl bir növ onlara zülmdür. (Həm meylli olmaq, həm meylsiz olmaq mənasında.)
9. Yetimlərin haqqını qorumaq hamının vəzifəsidir.
10. Müsəlman cəmiyyət yetimlərə münasibətdə ədaləti təmin etmək üçün qiyama qalxmalıdır.
11. Yetimlə ədalətli rəftar xeyir iş nümunəsidir.
12. Məhrumlara xidmət və onların himayəsi unudulmur.
13. İlahi elmə (Allahın xəbərdarlığına) iman xeyir iş üçün ən yaxşı təşviqdir.
14. Allah hadisə baş verməmiş ondan xəbər tutur.

**128.** ﴿وَإِنِ امْرَأَةٌ خَافَتْ مِن بَعْلِهَا نُشُوزًا أَوْ إِعْرَاضًا فَلاَ جُنَاْحَ عَلَيْهِمَا أَن يُصْلِحَا بَيْنَهُمَا صُلْحًا وَالصُّلْحُ خَيْرٌ وَأُحْضِرَتِ الأَنفُسُ الشُّحَّ وَإِن تُحْسِنُواْ وَتَتَّقُواْ فَإِنَّ اللّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا﴾

**"Əgər qadın ərinin pis rəftarından və ya üz döndərməsindən qorxsa, bir yolla sülhə gəlmələri o iki nəfər üçün qorxulu deyil. (Hətta bəzi haqlara göz yumulsa da,) sülh üstündür. Amma xəsislik və dar baxış nəfslərdə hazırdır (sülhə mane olur). Əgər yaxşılıq etsəniz, təqvalı olsanız, bilin ki, həqiqətən, Allah etdiyiniz işdən agahdır."**

## *Nöqtələr*

¤"Nüşuz" sözü "nəşz" yəni "uca yer" kökündəndir və tüğyan mənasını daşıyır. 34-cü ayədə qadının tüğyanından danışılırdısa, bu ayədə kişinin tüğyanına işarə olur.

◘Qadın haqqında işlədilən "şuhh" sözü qadının yaxşı geyim və bəzəyi tərk etməsidir. Bu söz kişiyə münasibətdə mehriyyənin, nəfəqənin ödənilməməsini və soyuqluğu bildirir.

◘Rafe ibn Xədicin iki arvadı vardı. Onlardan biri yaşlı, digəri cavan idi. Rafe ixtilaflar səbəbindən yaşlı arvadını boşadı. İddəsi tamam olduqdan sonra ona dedi: "Səni bir şərtlə qəbul edib barışaram ki, gənc arvadımı irəli bilməyimə səbir edəsən. Belə olmasa, iddə müddəti tamam olduqdan sonra bir-birimizdən ayrılırıq." Qadın barışıq təklifini qəbul etdi. Sonra bu ayə nazil oldu.

◘İmam Sadiq (ə) bu ayə ilə bağlı buyurmuşdur: "Bu ayə arvadından ləzzət almayan, onu boşamaq istəyən kəsə aiddir. Bu qadın deyir: "Məni boşama, əgər istəyirsənsə, başqa bir arvad al, məni də saxla."[1]

## *Bildirişlər*

1. İş baş verməmiş əlac etmək lazımdır. Ailədə qarşıdurma boşanmaya çatmamış bir çarə düşünmək zəruridir.
2. Daha üstün məsləhətlə ailəni qorumaq üçün haqdan keçməyin eybi yoxdur.
3. Ailə məsələlərində ilk mərhələ ərlə arvad arasında islahdır. Bu işdə başqalarının müdaxiləsinə yol verilmir. Əgər ərlə arvad razılaşmırsa, başqaları müdaxilə etsin.
4. Ər-arvadın bir-birindən bəhrələnməsi keçiləsi haqdır. Hökm olunmayıb ki, bu işdə dəyişiklik olmasın.
5. Ailə haqqı ərlə arvadın ayrı-ayrılıqda şəxsi haqqından çoxdur. Ailəni qorumaq üçün şəxsi haqdan keçmək lazımdır.
6. Sülh həmişə mal ödəməklə əldə edilmir. Bəzən barışıq üçün haqdan keçmək lazım gəlir. Xəsislik bu işə mane olur.
7. Bir çox ailələrin sarsılmasının rəmzi dar baxış, xəsislik və insanı bürümüş hərislikdir.
8. Kişinin öz cinsi meylini boğub iki arvad arasında ədalətə riayət etməsi təqva və ehsan nümunəsidir.
9. İslamın hüquq nizamı onun əxlaqi nizamından ayrı deyil.
10. İstər haqdan keçmək, istərsə də zövcəyə yaxşılıq Allahın hüzurunda olan işlərdir.
11. Həvəsbaz kişi ləzzət almaq məqsədi ilə əvvəlki arvadını sıxıntıya salsa, ona bir məsələni məcbur surətdə qəbul etdirmək istəsə, bilsin ki, Allah onun əməlindən agahdır.

**129.** ﴿وَلَن تَسْتَطِيعُواْ أَن تَعْدِلُواْ بَيْنَ النِّسَاء وَلَوْ حَرَصْتُمْ فَلاَ تَمِيلُواْ كُلَّ الْمَيْلِ فَتَذَرُوهَا كَالْمُعَلَّقَةِ وَإِن تُصْلِحُواْ وَتَتَّقُواْ فَإِنَّ اللّهَ كَانَ غَفُورًا رَّحِيمًا﴾

[1] "Kafi", c. 6, s. 145; "Vəsail", c. 21, s. 351.

**“(Qəlbən bağlılıqda) arvadlarınız arasında ədalətli rəftar edə bilməzsiniz. Nə qədər çalışsanız da, bu mümkün deyil. Beləsə, öz meylinizi daim bir tərəfə yönəltməyin ki, o biri tərəfi asılı vəziyyətdə (nə ərli kimi və nə boşanmış kimi boşanmış) qoyasınız. Əgər sülh, barışıq və təqva yolunu tutsanız, şübhəsiz, Allah daim bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Səmavi qanunlar insan fitrətinə zidd deyil. İnsan gənc həyat yoldaşına yaşlı həyat yoldaşından daha çox meyl göstərir. Bu səbəbdən də onlarla qəlb bağlılığı yox, rəftarda ədalətli olmaq tapşırılır. Əgər qəlb bağlılığında ədaləti gözləmək mümkünsüzdürsə, əməldə ədalət gözlənilməlidir.[1] İslamda insanın gücündən yuxarı vəzifə yoxdur. İnsan öz məhəbbətini bərabər paylamaqda acizdir. Amma rəftarda ədaləti gözləmək zəruridir.

◘Rəvayətdə deyilir: Peyğəmbər hətta xəstə və ölüm astanasında ikən hansı zövcəsinin evində yatmaqda ədaləti gözləyirdi. Həzrət Əli (ə) bir zövcəyə aid olan gündə hətta o biri zövcənin evində dəstəmaz almazdı.[2]

## *Bildirişlər*

1. Qadını (havada) asılı kimi (nə ərsiz və nə də ərli kimi) qoymaq haramdır.
2. Sülh və təqva ilə həm keçmişdəki zəifliklər bağışlanır, həm də bugünkü qəflətlər əfv olunur.

**130.** ﴿ وَإِن يَتَفَرَّقَا يُغْنِ اللّهُ كُلاًّ مِّن سَعَتِهِ وَكَانَ اللّهُ وَاسِعًا حَكِيمًا ﴾

**“Əgər onlar ikisi bir-birindən ayrılsalar, Allah onların hər birini Öz kərəm və vüsətindən ehtiyacsız edər. Allah daim açılış verəndir və hikmət sahibidir.”**

## *Bildirişlər*

1. İslamda ailə üçün çıxılmaz vəziyyət yoxdur. (İndiki məsihiliyin ziddinə olaraq.) Əgər əfv, sülh, hədd icrası, xəbərdarlıqlar səmərə verməsə, boşanma var.
2. Ailə həyatında çətinlik yarandıqda məyus olmamalıyıq. Sadəcə, yolu dəyişmək lazımdır.
3. İlk addım islah və təqvadır. Son addım ayrılıq və boşanma!

---

[1] “Təfsire-Nurus-Səqəleyn”, c. 1, s. 558; “Kafi”, c. 5, s. 362.
[2] “Təfsire-Nümunə”; “Təfsire-Tibyan”.

4. Boşanma heç də həmişə pis deyil. Bəzən çıxış yolu yalnız boşanma olur. Boşanma olmayan yerdə ixtilaflar bəzən intihar və qeyri-şəri əlaqələrlə nəticələnir. Boşanma yeni bir həyatın təşkilinə ümid verir.

5. Allah düyünləri açmağa zamindir.

6. Ailə həyatının vüsəti hərə üçün bir cürdür. Kimi üçün izdivac[1], kimisi üçün də boşanma çıxış yoludur. Nə izdivacdan, nə də boşanmadan qorxmaq lazım deyil. Vəzifəsinə əməl edən insana Allah ehtiyacsızlıq vəd etmişdir.

7. Ruzi Allahın əlindədir.

8. Boşanmanın qanuniliyi ilahi bir fəzldir və hikmətə əsaslanır.

9. Vüsət və qüdrətdən bəhrələnmə hikmətə əsaslandıqda dəyərli olur. Əks-təqdirdə, uyğun bəhrələnmə təhlükəlidir.

131. ﴿وَلِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَلَقَدْ وَصَّيْنَا الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَإِيَّاكُمْ أَنِ اتَّقُواْ اللّهَ وَإِن تَكْفُرُواْ فَإِنَّ لِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَكَانَ اللّهُ غَنِيًّا حَمِيدًا﴾

**“Göylərdə və yerdə olan Allahındır. Həqiqətən, sizdən qabaq səmavi kitab verilənlərə və sizə də ilahi təqvanı sifariş etdik. Əgər kafir olsanız, göylərdə və yerdə olan Allahındır. Allah daim ehtiyacsızdır və sitayiş olunmuşdur.”**

132. ﴿ وَلِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَكَفَى بِاللّهِ وَكِيلاً ﴾

**“Göylərdə və yerdə olan Allah üçündür. Allahın vəkilliyi kifayət edər.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə Allah vəd etdi ki, ərlə arvad bir-birlərindən ayrılacaqları halda hər ikisi Allahın geniş rəhmətindən ehtiyacsız ediləcək.

Bu ayələrdə hər şeyin Allaha məxsus olması ilə anladılır ki, kimsə Allahın boşanmış qadınlara kifayət etməyəcəyini düşünməsin. Kimsə təsəvvür etməsin ki, insanın təqvasının Allaha faydası var və ya Allah insanı qorumağa məcburdur. Çünki göylərdə və yerdə olan Allahındır və Allah istədiyi vaxt sizi aparıb yerinə başqalarını gətirər.

◘Həzrət Əli (ə) insanın Allahla rabitəsi haqqında buyurur: “Nə günah edənlərin günahı Ona zərər vurar, nə də ibadət edənlərin ibadəti Ona fayda verər.”[2]

---

[1] Bax: “Nur”, 32.
[2] “Nəhcül-bəlağə”, xütbə 193.

## *Bildirişlər*

1. Allahın qadirliyi və mülkiyyət sahibi olması Onun Öz vədlərini yerinə yetirəcəyinə zamindir.
2. Təqva tövsiyəsi bütün peyğəmbərlərin tövsiyəsidir. Bütün dinlərdə bu tövsiyənin təkrarı mühüm tərbiyə üsullarındandır.
3. İlahi göstərişlərin bütün dinlərdə olması onlara əməl edilməsini asanlaşdırır.
4. Göylərin və yerin sahibi olan Allahdan qorxmaq lazımdır, başqalarından yox!
5. Təqvasızlıq küfrə zəmin yaradır.
6. Allah mütləq varlıdır. Göylərə və yerə malik olan Allahın bizim ibadət və imanımıza ehtiyacı yoxdur.
7. Kafirlik insanı Allahın qüdrət dairəsindən çıxarmır.
8. Allah mütləq ehtiyacsız olduğundan sitayiş edilməlidir.
9. Allahın varlığı daimidir.
10. İnsanların iman və təqvasına Allahın ehtiyacı yoxdur.
11. Göylərin və yerin maliki olan varlığa təvəkkül edin.

**133.** ﴿ إِن يَشَأْ يُذْهِبْكُمْ أَيُّهَا النَّاسُ وَيَأْتِ بِآخَرِينَ وَكَانَ اللّهُ عَلَى ذَلِكَ قَدِيرًا ﴾

**“(Ey xalq,) əgər Allah istəsə, sizi aradan götürər və başqalarını gətirər. Allah bu işə qadirdir.”**

## *Bildirişlər*

1. Allahın kafirlərə möhlət verməsinin səbəbi Onun acizliyi yox, hikmətidir.
2. Malik olduğunuz imkan və mövqe daimi deyil. Nəyiniz varsa, Allahın iradəsinə bağlıdır. Özünüzə güvənməyin.

**134.** ﴿ مَّن كَانَ يُرِيدُ ثَوَابَ الدُّنْيَا فَعِندَ اللّهِ ثَوَابُ الدُّنْيَا وَالآخِرَةِ وَكَانَ اللّهُ سَمِيعًا بَصِيرًا ﴾

**“Hər kəs dünya mükafatı istəsə, (bilsin ki,) dünya və axirət mükafatı Allahın yanındadır. Allah daim eşidən və görəndir.”**

## *Nöqtələr*

◘İnsan Allahdan həm dünya, həm də axirəti, eləcə də, onlarda olan nemətləri istəyə bildiyi halda, təkcə dünya ilə kifayətlənərsə, dərin yanlışlığa uğramış olar.

◘Küfr və təqvasızlığa meyl səbəblərindən biri dünyanı əldə etmək ümididir. Ayədə bu ümidin gerçəkliyi rədd edilmişdir.

## *Bildirişlər*

1. İnsanda faydalanmaq istəyi var. Quran insanın bu meylindən onun tərbiyəsində istifadə edir.
2. İslam kompleks bir dindir və insanların dünya və axirət səadətini təmin etmək əzmindədir.
3. Həm dünya, həm də axirət Allahın əlindədir. Gəlin diqqətimizi artıraq və maddiyyatdan, dar baxışdan vaz keçək.
4. Dünyanı da Allahdan istəyək. Hər şey Onun əlindədir.
5. Allahdan həm dünya, həm də axirət istəyən möminlər udmuşlar.[1]
6. İlahi mükafat Allahın bizim əməllərimizdən xəbərdarlığına əsaslanır.
7. Gerçəkdə mömin və müxlis olmaq lazımdır, zahirdə yox! Çünki Allah eşidən və biləndir.

135. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاء لِلّهِ وَلَوْ عَلَى أَنفُسِكُمْ أَوِ الْوَالِدَيْنِ وَالأَقْرَبِينَ إِن يَكُنْ غَنِيًّا أَوْ فَقَيرًا فَاللّهُ أَوْلَى بِهِمَا فَلاَ تَتَّبِعُواْ الْهَوَى أَن تَعْدِلُواْ وَإِن تَلْوُواْ أَوْ تُعْرِضُواْ فَإِنَّ اللّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا﴾

**“Ey iman gətirənlər! Daim ədaləti bərpa edən olun. Özünüzün, valideyninizin, yaxınlarınızın zərərinə də olsa, Allah üçün şahid durun. Əgər (çəkişən tərəflərdən biri) varlı və ya fəqir olsa, Allah onlardan daha layiqdir. Nəfs istəklərinə tabe olmayın ki, ədalətə rəftar edə biləsiniz. Əgər dil dolaşdırsanız və ya (haqqa şahidlikdən) çəkinsəniz, (bilin ki,) Allah etdiyiniz işlərdən agahdır.”**

## *Nöqtələr*

◘Ayədəki “təlvu” sözü haqsız danışıq, təhrif, ədalətin icrasında təxir mənasını bildirir.

◘Ayənin bütün sözləri və cümlələri insanları ədalətə təşviq edir. Ədalətli olmaq və ədalətə şahidlik, eləcə də fərdiyyətçilik, millətpərəstlikdən uzaqlıq haqq-ədalət meyarıdır. Nə fəqirlik, nə var-dövlət, nə özüm, nə də qohum-əqrəba!

◘İnsanın şahidliyi bir neçə növdür: Zülmlə mübarizə ruhiyyəsi əsasında varlılara qarşı şəhadət; var-dövlət qazanmaq məqsədi ilə varlıların xeyrinə şəhadət; fəqirə etinasızlıq səbəbindən ona qarşı şahidlik; fəqirə ürək yanğısından doğan şahidlik.

[1] Bax: “Bəqərə”, 205.

Ayə bütün bu halları batil sayır və yalnız ədalətə əsaslanan şahidliyi qəbul edir.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Möminin mömin boynunda yeddi haqqı var. Onların ən vacibi insanın özünün və ya yaxınlarının zərərinə də olmuş olsa haqqı deməkdir.”[1]

## *Bildirişlər*

1. Ədalətin bərpası vacibdir, həm də iman şərtdir.
2. Ədalət uğrunda qiyam möminin xarakteri olmalıdır. “Qəvvam” sözü ədaləti daim bərpa etmək mənasını bildirir.
3. Qeyri-müsəlmana münasibətdə də ədalətə riayət edilməlidir.
4. Ədalət həyatın bütün sferalarında qorunmalıdır. Ədalətin bərpasında xüsusi bir hal qeyd olunmamışdır.
5. Şahid olmaq və haqqa şəhadət vermək vacibdir.
6. Şahidlikdə niyyət dünyəvi məqsədlərə çatmaq olmamalıdır.
7. İnsanın özünə qarşı etirafı mötəbərdir.
8. İlahi göstərişlər hər hansı yaxınlıqdan öndə gəlir.
9. İnsanın öz xeyrinə, yaxınlarının və fəqirlərin xeyrinə hərəkəti Allahın razılığına əsaslanmalıdır.
10. Fəqirlərin və varlıların gerçək faydası yalan şəhadət yolu ilə təmin olunmayacaq.
11. Qanun qarşısında hamı bərabərdir.
12. Nəfs istəklərinə itaət ədalətin icrasına mane olur. Qohumların, fəqirlərin və varlıların əsas götürülməsi nəfsə itaətin nişanəsidir.
13. Şəhadəti yerinə yetirmək vacibdir. Şəhadəti gizləmək və onu təhrif etmək qadağandır.
14. Ədalətin istənilən bir şəkildə qarşısını almaq və onu təxirə salmaq haramdır.
15. Ədalətin tənininin zamini ilahi elmə imandır.

**136.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ
وَالْكِتَابِ الَّذِيَ أَنزَلَ مِن قَبْلُ وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الآخِرِ
فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا﴾

**“Ey iman gətirənlər! Allaha, Onun peyğəmbərinə, peyğəmbərinə nazil etdiyi kitaba və daha əvvəllər nazil olunmuş kitaba (gerçəkdən) iman gətirin. Hər kəs Allaha, mələklərə, səmavi kitablara, peyğəmbərlərə və qiyamət gününə küfr etsə, həqiqətən, azmışdır. Uzun-uzadı bir azğınlıq!”**

[1] “Təfsire-Əl-Mizan.

## *Nöqtələr*

◘Ayə belə mənalandırıla bilər: Ey möminlər! Böyük addım atın, daha üstün dərəcələr əldə edin. İmanınızda həmişəlik möhkəm dayanın, ondan azca kənarlaşmayın.

◘İmanın dərəcələri vardır. Necə ki, başqa ayələrdə də bu məsələyə toxunulur: "Allah hidayət olunanların hidayətini artırır." ("Muhəmməd", 17) "Öz imanlarına iman artırsınlar." ("Fəth", 4)

## *Bildirişlər*

1. Mömin çalışmalı, daha üstün iman mərtəbəsinə çatmalıdır.[1]
2. Səmavi dinlər vahid hədəf və həqiqətə malikdir. Necə ki bir mədrəsənin siniflərinə bir müdir rəhbərlik edir.
3. Bütün peyğəmbər və səmavi kitablara iman zəruridir.

**137.** ﴿ إِنَّ الَّذِينَ آمَنُواْ ثُمَّ كَفَرُواْ ثُمَّ آمَنُواْ ثُمَّ كَفَرُواْ ثُمَّ ازْدَادُواْ كُفْرًا لَّمْ يَكُنِ اللّهُ لِيَغْفِرَ لَهُمْ وَلاَ لِيَهْدِيَهُمْ سَبِيلاً ﴾

**"Onlar ki, iman gətirdilər, sonra küfr etdilər. Növbəti dəfə iman gətirib, ikinci dəfə küfrə uğradılar. Sonra öz küfrlərini artırdılar. Şübhəsiz, Allahın onları bağışlayacağına və doğru yola hidayət edəcəyinə ümid yoxdur."**

## *Nöqtələr*

◘İlkin İslamda kitab əhlindən bir dəstəsi müsəlmanların hüzurunda iman gətirdiklərini bildirdilər. Onlar şübhə yaratmaq üçün yenidən kafir oldular. Küfrə qayıtmalarına səbəb kimi İslamı yetərsiz gördüklərini bildirdilər. Necə ki, yəhudi qövmü əvvəlcə Musaya iman gətirdi, sonra buzovpərəstliyə döndü, daha sonra tövbə edib allahpərəstliyə üz tutdu. Amma yenə də İsanı, İslam peyğəmbərini inkar edib öz küfrlərini artırdılar.

◘Bu ayənin oxşarı ilə əvvəllər də rastlaşdıq və bildirildi ki, belə kəslərin tövbəsi qəbul deyil, onlar gerçək azğındırlar.[2]

◘Gündə bir rəngə düşmənin səbəbi ya dini araşdırmaların yetərsizliyidir, ya da möminlərin əqidəsində süstlük yaratmaq qorxusu. "Ali-İmran" surəsinin 72-ci ayəsində də bu qurğunun üzərindən pərdə qaldırıldı. Onlar sübhə yaxın iman gətirir, günün sonunda kafir olurlar ki, müsəlmanlar çaşqın vəziyyətə düşsün.

◘Şəbəs ibn Rəbi kimiləri bu ayənin bariz nümunələrindəndir. Tarixi mənbələrdə bildirilir: Bu şəxs peyğəmbər dövründə İslamı qəbul etdi, peyğəmbərdən sonra dindən çıxdı. Sonra tövbə qılıb həzrət Əliyə (ə) qoşuldu. Amma həzrət Əliyə (ə) də sadiq qalmadı və onun komandanlığından çıxıb

---

[1] "Təfsire-Qummi", c. 1, s. 31.

[2] Bax: "Ali-İmran", 90.

Nəhrəvan döyüşünü qızışdırdı. Sonra yenə tövbə etdi və imam Həsənlə (ə) imam Hüseynə (ə) qoşuldu. O, imam Hüseynə (ə) dəvət məktubu yazdı, amma Kufədə imamın elçisi Müslümə xəyanət etdi. Kərbəlada Yezidin qoşununa qatıldı və imam Hüseynin (ə) qətlinə şükür əlaməti olaraq Kufədə məscid tikdi.[1]

## *Bildirişlər*

1. Bütün möminlər üçün dindən çıxmaq təhlükəsi var.(ərəbcə)
2. Əqidə süstlüyü son azğınlıq və ilahi bağışlanmanın əldən verilməsi ilə nəticələnir.

﴾ بَشِّرِ الْمُنَافِقِينَ بِأَنَّ لَهُمْ عَذَابًا أَلِيمًا ﴿ .138

**"Münafiqlərə müjdə ver ki, onlar üçün dərdli əzab var."**

﴾ الَّذِينَ يَتَّخِذُونَ الْكَافِرِينَ أَوْلِيَاء مِن دُونِ الْمُؤْمِنِينَ أَيَبْتَغُونَ عِندَهُمُ الْعِزَّةَ .139
فَإِنَّ العِزَّةَ لِلّهِ جَمِيعًا ﴿

**"Kafirləri möminlərin yerinə rəhbər və dost tutanlar izzəti onlarınmı yanında axtarırlar? Həqiqətən, bütün izzətlər Allahındır."**

## *Nöqtələr*

◘Bu ayənin kafirləri dost və rəhbər tutmaqdan ibarət məzmunu "Ali-İmran" surəsinin 28-ci ayəsində də bəyan olunmuşdur.

◘İlkin İslam dövründə münafiqlər Mədinə yəhudiləri və Məkkə müşrikləri ilə əlaqədə idilər. Onlar bu yolla müsəlmanlar məğlub olacağı təqdirdə zərərdən və mövqelərini itirməkdən amanda qalmaq fikrində idilər.

◘İzzət yalnız Allahın əlindədir. Çünki izzət qaynağı ya elmdir, ya da qüdrət. Allahdan qeyriləri elm və qüdrətdən bəhrəsizdirlər. "Şəbaniyyə" münacatında oxuyuruq: "Pərvərdigara! Mənim artımım və ya zərərim yalnız Sənin əlindədir, bir başqasının yox!"

## *Bildirişlər*

1. Kafirlərə bağlılıqda izzət axtarmaq münafiq sifətidir.
2. Kafirlərin möminlərə rəhbərlik etməyə haqqı yoxdur. Möminlər də kafirlərin hakimiyyət sıxıntısını qəbul etməməlidirlər.
3. Xarici siyasətdə kafir ölkələri ilə rabitəni genişləndirmək əvəzinə, müsəlman ölkələri ilə yaxınlıq fikrində olaq.

---

[1] Ayətullah Kumreyi, "Müslüm ibni Əqilin kitabı", s. 178.

140. ﴿وَقَدْ نَزَّلَ عَلَيْكُمْ فِي الْكِتَابِ أَنْ إِذَا سَمِعْتُمْ آيَاتِ اللّهِ يُكَفَرُ بِهَا وَيُسْتَهْزَأُ بِهَا فَلاَ تَقْعُدُواْ مَعَهُمْ حَتَّى يَخُوضُواْ فِي حَدِيثٍ غَيْرِهِ إِنَّكُمْ إِذًا مِّثْلُهُمْ إِنَّ اللّهَ جَامِعُ الْمُنَافِقِينَ وَالْكَافِرِينَ فِي جَهَنَّمَ جَمِيعًا﴾

**“Həqiqətən, Allah Quranda sizə (bu hökmü) nazil etmişdir ki, Allahın ayələrinin inkar və ya məsxərə olunduğunu eşitdikdə həmin adamlarla əyləşməyin ki, söhbəti dəyişsinlər. Yoxsa siz də onlar kimi olacaqsınız. Həqiqətən, Allah bütün münafiqləri və kafirləri cəhənnəmdə toplayar.”**

## *Nöqtələr*

◘“Ənam” surəsinin 68-ci ayəsi bu ayənin oxşarıdır. Ayədə Allahın rəsuluna xitabən buyurulur: “Əgər kimlərinsə Bizim ayələrimiz haqqında pis danışdığını görsən, onlardan üz döndər ki, söhbətin mövzusu dəyişilsin.”

## *Bildirişlər*

1. İnsan ətrafındakıların haqsız danışıqlarına biganə qalmamalıdır.
2. Günah məclisində sükut və xoş rəftarın özü günahdır.
3. Ya günahkar mühiti dəyişin, ya da həmin mühitdən uzaqlaşın.
4. Təkcə günah etməmək kifayət deyil. Günah məclisini pozmaq və başqalarının azğınlığının qarşısını almaq lazımdır.
5. Azad söz, açıq qəlblilik, xoş əxlaq, həya, xalqla keçinmə kimi bəhanələrlə dinin məsxərəsi qarşısında sükut etmək olmaz.
6. Təəssüb, dini qeyrət, mövqeli yanaşma gerçək iman şərtidir.
7. Küfrün təşviq və gücləndirilməsi, dinə istehza istənilən bir şəkildə haramdır.
8. Qarşı tərəfin düşüncə və əqidə baxımından düzgünlüyü onunla ünsiyyət şərtidir.
9. Həm rabitənin, həm də rabitəni qırmağın öz yeri var. Həm cazibə lazımdır, həm də dəfetmə.
10. Başqalarının günahına razı olan şəxs həmin günaha şərikdir.
11. Kafirlərin pis danışığı qarşısında sükut bir növ münafiqlikdir.
12. Axirət yoldaşlığı dünya yoldaşlığının mükafatıdır.

141. ﴿الَّذِينَ يَتَرَبَّصُونَ بِكُمْ فَإِن كَانَ لَكُمْ فَتْحٌ مِّنَ اللّهِ قَالُواْ أَلَمْ نَكُن مَّعَكُمْ وَإِن كَانَ لِلْكَافِرِينَ نَصِيبٌ قَالُواْ أَلَمْ نَسْتَحْوِذْ عَلَيْكُمْ وَنَمْنَعْكُم مِّنَ الْمُؤْمِنِينَ فَاللّهُ يَحْكُمُ بَيْنَكُمْ يَوْمَ الْقِيَامَةِ وَلَن يَجْعَلَ اللّهُ لِلْكَافِرِينَ عَلَى الْمُؤْمِنِينَ سَبِيلاً﴾

**“(Münafiqlər) o kəslərdir ki, daim (pislik məqsədi ilə) sizi izləyirlər. (Məqsədləri budur:) Əgər Allah tərəfindən sizə qələbə nazil olsa, desinlər**

**ki, məgər biz sizinlə deyildik? (İftixar və qənimətlərə də şərik olmalıyıq.) Əgər kafirlərə (qələbədən) bir bəhrə çatsa, desinlər ki, məgər biz sizi təşviq edən, sizi onların zərərindən və möminlər qarşısında təslimçilikdən qoruyan deyilik? Allah qiyamət günü sizin aranızda hakimlik edəcək. Allah heç vaxt kafirlərə müsəlmanlar üzərində qələbə yolu qərar verməmişdir.”**

## *Nöqtələr*

¤Quran müsəlmanların qələbəsini “fəth”, kafirlərin qələbəsini “nəsib” sözləri ilə yad etmişdir. Bununla bildirilir ki, kafirlərin xoş günü ötəridir və gerçək qələbə haqqındır.

¤“Nəstəhviz” “həvz”, “baldırın arxası” kökündən alınmışdır. Çünki dəvəçi dəvəni hərəkətə gətirmək üçün onun adı çəkilən hissəsinə qamçı vurur. Burada kafirlərin müsəlmanlar əleyhinə savaşa təşviq olunması nəzərdə tutulur.

¤Fəqihlər müxtəlif fiqhi məsələlərdə kafirlərin möminlər üzərində qələbəsinin mümkünsüzlüyünü sübut etmək üçün “lən yəcələllah”cümləsinə istinad edirlər. Əlbəttə ki, get-gəl, məlumat toplanması, təhsil, mədəni və iqtisadi mübadilələr kafirlərin hakimiyyəti və möminlərin zəlalətinə səbəb olmazsa, pis sayılmır. Çünki rəvayətdə oxuyuruq: «Çin ölkəsinə səfər bahasına olsa da təhsil alın.» Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Hər bir kafir əsir on müsəlmana elm öyrətsə, onu azad edirəm.” Məsum imamların dövründə müsəlmanlarla başqaları arasında bu sayaq müamilələr olmuşdur.

## *Bildirişlər*

1. Münafiqlər fürsətdən istifadə edirlər. Onlar imkan yaranan kimi öz xeyirlərinə bəhrələnirlər.
2. Münafiqlər kafirlərin casuslarıdır və onları müsəlmanlarla döyüşə təşviq edirlər.
3. Qiyamət günü Allahın haqq mühakiməsi ilə bütün hiylələr və nifaqlar aşkarlanar.
4. Möminlər kafirlərin hakimiyyətini qəbul etmək haqqına malik deyillər. Zalımın hakimiyyətinin qəbulu gerçək imanın olmamasını göstərir.
5. Elə bir iş görülməlidir ki, kafirlər müsəlmanlar üzərində hakimiyyətdən ümidlərini üzsünlər.
6. Kafirlər üçün müsəlmanlara nüfuz yolu açan istənilən bir proqram, əhd, get-gəl haramdır. Müsəlmanlar bütün siyasi, hərbi, iqtisadi, mədəni sahələrdə tam istiqlala malik olmalıdırlar.

**142.** ﴿ إِنَّ الْمُنَافِقِينَ يُخَادِعُونَ اللّهَ وَهُوَ خَادِعُهُمْ وَإِذَا قَامُواْ إِلَى الصَّلاَةِ قَامُواْ
كُسَالَى يُرَآؤُونَ النَّاسَ وَلاَ يَذْكُرُونَ اللّهَ إِلاَّ قَلِيلاً ﴾

**“Həqiqətən, münafiqlər Allaha qarşı məkr və hiylə edirlər. Halbuki Allah (əməllərinin cəzası olaraq) onlara qarşı məkr işlədir. Onlar namaza durduqda süstlüklə dururlar. Bu da özlərini xalqa göstərmək üçündür və Allahı çox az yad edirlər.”**

## *Nöqtələr*

◘Münafiq dini hökmləri zahirdə yerinə yetirən kəsdir. Onun heç bir ilahi məqsədi yoxdur. Namaz qılır, amma riyakarlıq, süstlük və qəflətlə. O güman edir ki, bu yolla Allahı aldada bilər. Halbuki özünün aldadıldığını bilmir. Allah onun batinindən xəbərdardır və yalanının cəzasını verir.

◘İmam Riza (ə) buyurmuşdur: “Allah onların hiyləsinin cəzasını verdiyindən bu ilahi cəza da “hiylə” adlandırılmışdır.”[1]

◘Həqiqi namaz aşiqanə, xalisanə və daimi olur. Peyğəmbər buyurmuşdur: “Namazı son vaxtında, süst halda qılanlar münafiq namazı qılırlar.”[2]

◘Quran möminlər haqqında danışarkən onların namazı bərpa etdiyini, münafiqlər haqqında danışarkən onların namaza durduğunu qeyd edir. Bərpa etməklə durmaq arasında fərq var.

## *Bildirişlər*

1. Yalan, namazda süstlük, riyakarlıq, Allah zikrindən qəflət nifaq nişanələrindəndir.
2. Münafiqlər bilməlidirlər ki, Allaha qarşı çıxmışlar.
3. Allahın cəzası əməllərimizə mütənasibdir.
4. Münafiqlərin namazının nə ruhiyyəsi, nə niyyəti, nə də miqdarı var.

**143.** ﴿ مُّذَبْذَبِينَ بَيْنَ ذَلِكَ لاَ إِلَى هَؤُلاء وَلاَ إِلَى هَؤُلاء وَمَن يُضْلِلِ اللّهُ فَلَن تَجِدَ لَهُ سَبِيلاً ﴾

**“(Münafiqlər) küfrlə iman arasında avaradırlar. Nə bu dəstədəndirlər, nə də o dəstədən. Allahın azdırdığı kəs üçün qurtuluş yolu tapmayacaqsan.”**

## *Nöqtələr*

◘Göydən asılmış vəziyyətdə olan və yerdə heç bir möhkəm dayanacağı olmayan hərəkət “təzəbzub” adlandırılmışdır.

## *Bildirişlər*

1. Münafiqlərin düşüncə və əqidə müstəqillikləri yoxdur. Daim başqalarına bağlı olan, məqsədsiz dolaşan münafiqlər o yan-bu yana vurnuxurlar.

---
[1] “Təfsire-Nurus-Səqəleyn”.
[2] “Dürrül-Mənsur”, c. 2, s. 237.

2. Münafiqin rahatlığı yoxdur. Çünki o hər an yeni mövqe tutmalı, tələsik qərara gəlməlidir.
3. Etiqadi mövqe və əqidə məsələlərində qətilik lazımdır.
4. Münafiq Allahın qəhr-qəzəbinə düçardır.
5. Nifaq dərmansız dərddir.

**144.** ﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الْكَافِرِينَ أَوْلِيَاء مِن دُونِ الْمُؤْمِنِينَ أَتُرِيدُونَ أَن تَجْعَلُواْ لِلّهِ عَلَيْكُمْ سُلْطَانًا مُّبِينًا ﴾

**“Ey iman gətirənlər! Möminlərin əvəzinə kafirləri dost və rəhbər seçməyin. Yoxsa Allah üçün öz ziddinizə aşkar dəlil və höccətmi qərar vermək istəyirsiniz?!**

## *Nöqtələr*

◘Möminlərin haqqı yoxdur ki, kafirlərin hakimiyyətini qəbul etsinlər. Münafiqlər isə kafirlərlə sıx rabitədədirlər. Quran kafirləri münafiqlərin şeytanı[1], münafiqlərin qardaşları[2] kimi tanıtdırır. 139 və 141-ci ayələrdə münafiqlərin kafirlərlə rabitələri aşkarlanır.

## *Bildirişlər*

1. Kafirlərin hakimiyyətinin qəbulu imanla uyğun gəlmir. Bir qəlbdə iki sevgi yerləşməz.
2. Təvəlla və təbərra (möminlərlə dostluq və kafirlərdən uzaqlıq) iman şərtidir.
3. Müsəlmanların zərərinə olan bütün münasibətlərdən, dostluqlardan və müqavilələrdən çəkinmək lazımdır.
4. Xarici siyasətdə müsəlmanların kafirlərə təslimçiliyinə aparan bütün siyasi, iqtisadi rabitələr, seçimlər, təyinatlar haramdır.
5. Zilləti qəbul edən müsəlmanın Allah qarşısında cavabı yoxdur.

**145.** ﴿ إِنَّ الْمُنَافِقِينَ فِي الدَّرْكِ الأَسْفَلِ مِنَ النَّارِ وَلَن تَجِدَ لَهُمْ نَصِيرًا ﴾

**“Şübhəsiz, münafiqlər odun (cəhənnəmin) ən aşağı dərinliyindədirlər. Onlar üçün heç vaxt heç bir köməkçi tapmazsan.”**

## *Nöqtələr*

◘Dənizin ən dərin nöqtəsi “dərk” adlanır. Dərindən başa düşülmüş bir mətləb haqqında “dərk olundu” deyirlər. Üzüaşağı gedən pillələr “dərk”,

[1] Bax: “Bəqərə”, 17.
[2] Bax: “Həşr”, 11.

üzüyuxarı gedən pillələr "dərəcə" adlanır. Necə ki, behiştin dərəcələri, cəhənnəmin dərkləri var.

## *Bildirişlər*

1. Cəhənnəmdə münafiqlərin yeri kafirlərin yerindən də pisdir.
2. Cəhənnəmin mərtəbələri və dərəcələri var.
3. Qiyamətdə münafiqlərin qurtuluşu üçün yol yoxdur.
4. Münafiqlər heç bir şəfaətə nail olmazlar.

**146.** ﴿ إِلاَّ الَّذِينَ تَابُواْ وَأَصْلَحُواْ وَاعْتَصَمُواْ بِاللّهِ وَأَخْلَصُواْ دِينَهُمْ لِلّهِ فَأُوْلَئِكَ
مَعَ الْمُؤْمِنِينَ وَسَوْفَ يُؤْتِ اللّهُ الْمُؤْمِنِينَ أَجْرًا عَظِيمًا ﴾

**"O şəxslər istisnadır ki, tövbə etmiş, (keçmişlərini) islah etmiş, Allaha pənah aparmış, ixlasla Allah üçün dinə üz tutmuşlar. Onlar möminlər zümrəsindədirlər. Allah tezliklə möminlərə böyük mükafat verəcək."**

## *Bildirişlər*

1. Tövbə yolu hətta münafiqlər üçün də açıqdır. Tövbə onları cəhənnəmin ən aşağı qatından behiştin ən yuxarı qatına qaldıra bilər.
2. İnsan azaddır və öz istiqamətini agah şəkildə dəyişə bilər.
3. Ən sərt hədələrlə yanaşı xalqa ümid verin.
4. Tövbə təkcə peşmançılığın izharı deyil. Tövbə hərtərəfli yenidənqurmadır.
5. Hər bir günahın tövbəsi bir şəkildədir. Münafiqin tövbəsi baş vermiş təxribatı aradan qaldırmaq, Allahdan qeyrisinə üz tutmaq əvəzində Allaha bağlanmaq və xalislikdir.
6. Əqidə və düşüncədə qatqı qadağandır.
7. Tövbə etmiş münafiqlər öz həmfikirlərindən ayrıldıqda qürbət hiss etməsinlər. Çünki onlar daha üstün dostlar tapmışlar.
8. Möminlər həqiqi tövbəkarları gülər üzlə qarşılayır, onları özlərindən sayırlar.

**147.** ﴿ مَّا يَفْعَلُ اللّهُ بِعَذَابِكُمْ إِن شَكَرْتُمْ وَآمَنتُمْ وَكَانَ اللّهُ شَاكِرًا عَلِيمًا ﴾

**"Əgər şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab istəsin? Bir halda ki, Allah daim haqtanıyan və biləndir."**

## *Bildirişlər*

1. İlahi cəzalar ilahi ədalətə əsaslanır. İlahi cəzada intiqam, qüdrətin nümayişi məqsədləri yoxdur. Əzabı doğuran insanın özüdür.

2. Allahın nemətlərinin tanınması və onlar müqabilində şükür edilməsi dəvətin qəbulu və iman zəminəsidir.

3. İnsanın şükür etməsinin ən bariz cilvəsi Allaha imandır.

4. Şükür həm qəzəbdən qurtuluşa, həm də daha çox lütf qazanılmasına səbəb olur.

5. Əgər şükür etsəniz, Allah da sizə münasibətdə haqqı itirməz.

6. Allah ehtiyacsız olsa da, Öz bəndəsinə təşəkkür edir. Biz nə üçün Ona şükür etməyək?!

# ALTINCI CÜZ

**148.** ﴿ لاَّ يُحِبُّ اللّهُ الْجَهْرَ بِالسُّوَءِ مِنَ الْقَوْلِ إِلاَّ مَن ظُلِمَ وَكَانَ اللّهُ سَمِيعًا عَلِيمًا ﴾

**"Allah pis sözün aşkarlanmasını sevmir. Yalnız sitəm olunmuş kəs istisnadır (danışa bilər). Allah eşidən və biləndir."**

## *Nöqtələr*

◘Ayə məzluma fəryad çəkmək icazəsi verir. Bu ayə "Şura" surəsinin qırx birinci ayəsinin oxşarıdır. Ayədə buyurulur: "Hər kəs zülm gördükdən sonra yardım arasa və intiqam alsa məzəmmət olunmaz."

◘Quran pisliklərin ifşasını dəfələrlə qadağan etmişdir. Pisliyin açıqlanması kəbirə günah sayılmışdır və bu günah üçün əzab vəd edilmişdir. "Nur" surəsinin 19-cu ayəsində də möminlərin pis işinin açıqlanması günah sayılmışdır.

◘"Mən zulimə" (zülm olunmuş) təbiri bir neçə cür mənalandırılmışdır:

1. "Mimmən zulimə" mənasında, yəni zülmə məruz qalmış kəsin fəryadı caizdir.

2. "Limənzulimə" mənasında, yəni insan özü də məzlum olmasa, başqa məzlumun yerinə fəryad çəkər.

3. "Əla min zummə" mənasında, yəni sakit oturub zülmü qəbul etmiş məzluma etiraz olaraq fəryad çəkilməsi. (Birinci ehtimal daha məntiqi görünür.)

◘İnsanın eybini xalqın qarşısında açmaq haramdır. Amma onların eybini özlərinə demək olar. Çünki peyğəmbər buyurmuşdur: "Mömin möminin güzgüsüdür."[1]

◘İmam Sadiq (ə) bu ayə haqqında buyurmuşdur: "Qonaqlıq edib, qonaqları xoşa gəlməyən şəkildə qəbul edən kəs zülm edənlərdən sayılır. Qonaq onun haqqında danışsa, eybi yoxdur."[2]

## *Bildirişlər*

1. Küllü və əsas qanun odur ki, xalqın eyblərinin ifşası və bəyanı haramdır. Yalnız xüsusi hallar istisnadır.

2. Xalqın eybinin ifşası istənilən bir şəkildə haramdır. (Şerlə, hekayə ilə, şikayətlə və ya başqa yolla.)

3. İslam cəmiyyətinin bir nişanəsi də odur ki, məzlum azad şəkildə zalıma qarşı səsini çıxara bilər.

4. Məzlum zalımın qeybətini edə bilər.

---

[1] "Bihar", c. 74, s. 233.
[2] "Vəsail", c. 12, s. 289.

5. İslam məzlumların himayədarıdır. Zalımlar bilsinlər ki, qeybətin haram olması onların zülmünə yol açmır.

6. Qanundan sui-istifadə qadağandır. Zalımlar bilsinlər ki, qeybətin haram olması onların zülmünə yol açmır.

7. Zalımın qeybətini yalnız məzlum edə bilər. Məzlum zalımın eybləri haqqında yox, zülmü haqqında danışa bilər.[1]

8. İslam cəmiyyətində zalıma ehtiram yoxdur. Zalım məhkum edilməli və xalqa tanıtdırılmalıdır.

9. İnsani dəyərlərə münasibətdə "əhəm" və "mühüm" (əhəmiyyətli və daha əhəmiyyətli) prinsipinə riayət olunmalıdır. Məzlumun müdafiəsi həya və sükutdan daha dəyərlidir.

10. Eyblərin ifşasında həddi aşmayın. Çünki Allah eşidən və biləndir.

**149.** ﴿ إِن تُبْدُواْ خَيْرًا أَوْ تُخْفُوهُ أَوْ تَعْفُواْ عَن سُوَءٍ فَإِنَّ اللّهَ كَانَ عَفُوًّا قَدِيرًا ﴾

**"Əgər aşkarda və ya gizlində yaxşı iş görsəniz və ya başqalarının büdrəməsini, pisliyini bağışlasanız, bilin ki, şübhəsiz, Allah bağışlayan və qadirdir."**

## *Nöqtələr*

◘Məzlum qüdrətli olduqda və zalımın bağışlanması tərbiyəvi təsir göstərdikdə bağışlamaq lazımdır. Amma sükut məzlumun zillətinə və zalımın güclənməsinə səbəb olduqda fəryad çəkmək lazımdır.

◘İntiqam və qisas haqq, əfv və bağışlama isə fəzldir. Həzrət Əli (ə) buyurmuşdur: "Düşməni bağışlamaq onun üzərində qalibiyyətin şükrüdür."[2]

## *Bildirişlər*

1. Yaxşılıqları təşviq etmək, pislikləri bağışlamaq lazımdır.
2. Bəzən zülmə qarşı fəryad, bəzən isə əfv dəyər olur.
3. Qüdrət olan yerdə bağışlamaq dəyərdir.

**150.** ﴿إِنَّ الَّذِينَ يَكْفُرُونَ بِاللّهِ وَرُسُلِهِ وَيُرِيدُونَ أَن يُفَرِّقُواْ بَيْنَ اللّهِ وَرُسُلِهِ وَيقُولُونَ نُؤْمِنُ بِبَعْضٍ وَنَكْفُرُ بِبَعْضٍ وَيُرِيدُونَ أَن يَتَّخِذُواْ بَيْنَ ذَلِكَ سَبِيلاً﴾

**"Şübhəsiz, Allaha və Onun rəsullarına küfr edən, Allahla Onun peyğəmbərləri arasında ayrılıq salmağa çalışan və "bəzi şeyə iman**

---

[1] "Təfsire-Əl-Mizan.

[2] "Nəhcül-Bəlağə", q. 10.

**gətirdik, bəzisinə yox" deyən kəslər bu arada yol tutmaq istəyirlər. (Ağıl və düşüncəyə yox, nəfs istəklərinə uyğun yol)**

**151.** ﴿ أُوْلَئِكَ هُمُ الْكَافِرُونَ حَقًّا وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَابًا مُّهِينًا ﴾

**"Həqiqətən, kafirlər elə həmin kəslərdir və Biz kafirlər üçün zəliledici əzab hazırlamışıq."**

## *Nöqtələr*

◘150-ci ayə mübtəda, 151-ci ayə xəbər yerindədir.

◘Yəhudilər və məsihilər nəfs istəklərinə, cahil təəssüblərinə və dəlilsiz baxışlarına xatir bəzi peyğəmbərləri qəbul edir, bəzilərindən isə üz döndərirdilər.

## *Bildirişlər*

1. Peyğəmbərlik Allahın daimi qanunudur və zəncir halqaları tək bir-birinə bağlıdır. Ona görə də bütün bu cərəyana etiqad lazımdır. İmamət də belədir. İmamlardan bəzisinə inanıb, bəzisini inkar etmək hamısını inkar etmək kimidir.
2. Allah və Onun rəsulu vahid bir cəbhədir və ortada ayrılıq yoxdur.
3. Allahı və peyğəmbərləri inkar etmək, Allaha iman gətirib peyğəmbərləri inkar etmək qadağandır. Doğru yol Allaha və peyğəmbərlərə iman yoludur.
4. Bütün səmavi dinlər rəsmi olaraq tanınmalıdır. (Əlbəttə, öz tarixi dönəmində)
5. İslama müxalif qanunların qəbulu dinə qarşıdır və qadağan edilmişdir.
6. Peyğəmbərlərin yolu varkən yeni yol salmaq küfrdür.
7. Cəhənnəm hal-hazırda mövcuddur.

**152.** ﴿ وَالَّذِينَ آمَنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلَمْ يُفَرِّقُواْ بَيْنَ أَحَدٍ مِّنْهُمْ أُوْلَئِكَ سَوْفَ يُؤْتِيهِمْ أُجُورَهُمْ وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا ﴾

**"Allaha və Onun rəsullarına iman gətirib, onların heç biri arasında ayrılıq salmayan kəslər o kəslərdir ki, tezliklə mükafatları onlara verilər. Allah daim bağışlayan və mehribandır."**

## *Bildirişlər*

1. Allaha və bütün peyğəmbərlərə iman zəruridir. Peyğəmbərlərin dərəcələri və vəzifələri fərqli olsa da, onların hər birinə iman gətirmək vacibdir.
2. Bütün varlığımız, əldə etdiyimiz yardımlar, imkanlarımız, istifadə etdiyimiz vasitələr Allahdandır. Buna baxmayaraq Allah yenə də mükafat verir.
3. Allah mükafat verərkən bizim nöqsanlarımızı hesaba almır.

153. ﴿يَسْأَلُكَ أَهْلُ الْكِتَابِ أَن تُنَزِّلَ عَلَيْهِمْ كِتَابًا مِّنَ السَّمَاء فَقَدْ سَأَلُواْ مُوسَى أَكْبَرَ مِن ذَلِكَ فَقَالُواْ أَرِنَا اللّهِ جَهْرَةً فَأَخَذَتْهُمُ الصَّاعِقَةُ بِظُلْمِهِمْ ثُمَّ اتَّخَذُواْ الْعِجْلَ مِن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَاتُ فَعَفَوْنَا عَن ذَلِكَ وَآتَيْنَا مُوسَى سُلْطَانًا مُّبِينًا﴾

**"Kitab əhli səndən onlar üçün səmadan kitab və bir yazı endirməyini istəyir. Şübhəsiz ki, Musadan bundan da böyüyü istənilmişdi. (Musaya) dedilər: Allahı bizə aşkar göstər!" Zülmlərinin cəzası olaraq onları bir şimşək bürüdü. Sonra onlara aşkar bir möcüzə gəlməsinin ardınca buzovpərəstlik yolunu tutdular. (Tövbədən sonra) Biz bu günahdan da keçdik və bağışladıq. Musaya aşkar bir höccət verdik."**

## *Nöqtələr*

◘Yəhudilər peyğəmbərdən Quranın Tövrat kimi birdəfəyə nazil olmasını istəyirdilər. Bu yalnız bir bəhanə idi. Allah onların cavabında buyurdu: "Hətta Quranı bütövlükdə, toxunulası bir namədə endirsək, kafirlər onu cadu sayarlar."[1]

◘İman gətirməkdə kafirlərin bəhanələri bir-birinə oxşayır. Müşriklər də Allahın rəsulundan eynən bunu istəyirdilər.[2]

## *Bildirişlər*

1. Əcdadlarının bəyənilməmiş əməlləri, düşüncələri və əxlaqı gələcək nəsillər üçün pis nümunə olur.
2. Bəni-İsrail haqq axtarışında deyildi. Onlar haqq axtarsaydılar, möcüzələrdən sonra buzovpərəstlik ardınca getməzdilər.
3. Kafirlərin iman gətirməməsi sizi narahat etməsin. Çünki bütün peyğəmbərlərin ətrafında inadkar adamlar olmuşdur.
4. Allah gözlə görünmür. Allahı gözlə görmək istəyi də zülmdür.
5. Haqqın inkarı və əqidə azğınlığı elə bu dünyada Allahın qəzəbi ilə nəticələnir.
6. İlahi rəhmət hətta buzovpərəstlik günahını da bağışlayır.
7. Peyğəmbərlər Allah tərəfindən himayə olunur.

154. ﴿وَرَفَعْنَا فَوْقَهُمُ الطُّورَ بِمِيثَاقِهِمْ وَقُلْنَا لَهُمُ ادْخُلُواْ الْبَابَ سُجَّدًا وَقُلْنَا لَهُمْ لاَ تَعْدُواْ فِي السَّبْتِ وَأَخَذْنَا مِنْهُم مِّيثَاقًا غَلِيظًا﴾

**"Biz Tur dağını onlardan (Bəni-İsraildən) əhd almağa xatir başlarının üzərində qərar verdik və onlara dedik: «Səcdə edən halda o qapıdan daxil**

---

[1] "Ənam", 7.
[2] Bax: "İsra", 93.

**olun.» Sonra dedik: «Şənbə günü (Allahın hökmlərini) pozmayın.» Onlardan möhkəm əhd aldıq.”**

## *Nöqtələr*

◘Bu ayənin oxşarı “Bəqərə” surəsinin 63 və 93-cü, eləcə də, “Əraf” surəsinin 171-ci ayəsində bəyan olunmuşdur.

◘«Allahın Bəni-İsraillə əhdi» dedikdə, “Bəqərə” surəsinin 40 və 84-cü, “Maidə” surəsinin 12-ci ayəsində qeyd olunanlar nəzərdə tutulur.

◘Müqəddəs məkanların xüsusi qaydaları var. Tur dağı, peyğəmbərlərin evləri, məscidlər, Məscidül-Həram, Kəbə haqqında xüsusi göstərişlər verilmişdir.[1]

Fiqh kitablarında və hədis mənbələrində məscidlərlə bağlı digər qaydalar da bəyan olunmuşdur.

## *Bildirişlər*

1. Tərbiyə prosesində bəzən qorxudan da istifadə olunur.
2. Tətil və ibadət vaxtında işə məşğul olmaq həddi aşmağın bir növüdür.

**155.** ﴿فَبِمَا نَقْضِهِم مِّيثَاقَهُمْ وَكُفْرِهِم بَآيَاتِ اللّهِ وَقَتْلِهِمُ الأَنْبِيَاء بِغَيْرِ حَقًّ وَقَوْلِهِمْ قُلُوبُنَا غُلْفٌ بَلْ طَبَعَ اللّهُ عَلَيْهَا بِكُفْرِهِمْ فَلاَ يُؤْمِنُونَ إِلاَّ قَلِيلاً﴾

**“Əhdi pozduqlarına, Allahın ayələrini inkar etdiklərinə, peyğəmbərləri nahaqdan öldürdüklərinə və “qəlblərimizə pərdə çəkilib” dediklərinə görə (onları cəzalandırdıq). Bəlkə də Allah küfrlərinə görə onların qəlblərini möhürləmişdir. Yalnız az bir qismi iman gətirər.”**

## *Nöqtələr*

◘İslam peyğəmbərinin dövründəki Bəni-İsrail, peyğəmbərləri öldürməmişdi. Amma onların ata-babaları bu cinayəti törətmişdilər. Peyğəmbər dövründəki yəhudilər öz ata-babalarının uyğun cinayətinə razı olduqlarından həmin cinayət onlara da aid edilmişdir.[2]

## *Bildirişlər*

1. Əhdi pozmaq küfr dərəcəsində olan bir günahdır, ya da küfr zəminəsi ola bilər.
2. Naşükürlük insanı o qədər alçalda bilər ki, peyğəmbərlərin vasitəsi ilə azad olanlar onları qətlə yetirərlər.
3. İnsan küfr və inadkarlıqla özü üçün süqut zəminəsi hazırlayır.

---

[1] Bax: “Taha”, 12; “Əhzab”, 53; “Əraf”, 31; “Tövbə”, 28; “Bəqərə”, 125.
[2] “Təfsire-Qummi”, c. 1, s. 157.

4. Əksəriyyət küfrə uğradığı bir zamanda az bir qismin iman gətirməsi sübut edir ki, insanın seçim və qərar çıxarmaq qüdrəti var. Demək, günahkar dost, mühit və quruluş insanın haqq yoldakı iradəsini dəyişməməlidir.

**156.** ﴿ وَبِكُفْرِهِمْ وَقَوْلِهِمْ عَلَى مَرْيَمَ بُهْتَانًا عَظِيمًا ﴾

**“Xalqa ağır böhtan atmaqla, böyük bir günaha batmaqla yol verdikləri küfrlərinə və sözlərinə görə (qəhr və qəzəbimiz onları bürüdü.)**

## *Nöqtələr*

◘“Məryəm” surəsinin 27-ci ayəsində də həzrət Məryəmə atılmış böhtan yada salınmışdır.

◘Həzrət Məryəmin zinada müqəssir sayılması əslində həzrət İsanın zinadan doğulmasının iddiası idi. Bu isə həzrət İsanın xalqın hidayəti və onlara rəhbərlik üçün layiqli olmaması fikrini yaradırdı. Beləcə, uyğun böhtan onların İsanı inkar etməsi dəlili idi.

◘Həzrət Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Sən İsa kimisən. Kimi İsanın anasına böhtan atdı, kimi də İsanın Allah olduğunu güman etdi.[1]

◘İnsana onda olmayan sifətlərin aid edilməsi ona görə böhtan adlandırıla bilər ki, pak insanlar bu sözləri eşitdikdə heyrətə (“böht”) gəlirlər.

◘Böyük böhtanın böyük də əzabı var. “Nur” surəsinin 23-cü ayəsində deyilir: Pak qadınları zinada ittiham edənlərin böyük əzabı var.”

## *Bildirişlər*

1. Böhtan küfr cərgəsində dayanır.

2. Günahkar cəmiyyətdə bəzən ən pak insanlar belə ən çirkin işlərdə suçlanır.

**157.** ﴿وَقَوْلِهِمْ إِنَّا قَتَلْنَا الْمَسِيحَ عِيسَى ابْنَ مَرْيَمَ رَسُولَ اللّهِ وَمَا قَتَلُوهُ وَمَا صَلَبُوهُ وَلَكِن شُبِّهَ لَهُمْ وَإِنَّ الَّذِينَ اخْتَلَفُواْ فِيهِ لَفِي شَكٍّ مِّنْهُ مَا لَهُم بِهِ مِنْ عِلْمٍ إِلاَّ اتِّبَاعَ الظَّنِّ وَمَا قَتَلُوهُ يَقِينًا﴾

**“(Əzabımız və lənətimiz onları bürüdü.) O söz ki, deyirdilər: “Biz İsa ibn Məryəmi, Allahın elçisini öldürdük.” Halbuki onlar İsanı öldürmədilər, dardan asmadılar. Amma işi dolaşıq saldılar. (İsaya oxşar birisini öldürdülər.) İsa haqqında ixtilafda olanlar özləri şəkdə idilər. Onlar yalnız gümanlara uyurdular və heç birinin öz dediyinə yəqini yox idi. Şübhəsiz, onu öldürməmişdilər.”**

---

[1] “Dürrül-Mənsur”, c. 2, s. 238.

158. ﴿ بَل رَّفَعَهُ اللّهُ إِلَيْهِ وَكَانَ اللّهُ عَزِيزًا حَكِيمًا ﴾

**“Əksinə, Allah onu Özünə tərəf qaldırdı. Allah qüvvət və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘İmam Sadiq (ə) “nə öldürdülər, nə də dardan asdılar, amma işi dolaşıq saldılar” cümləsi haqqında buyurmuşdur: “Həzrət Qaimin (ə) (Mehdinin) qeybi də bu cürdür. Həqiqətən, ümmət onu iş uzun çəkdiyi üçün dolaşıq salır. Bəziləri deyirlər: Qaim doğulmamışdır.” Başqaları deyir: “Doğulmuş və ölmüşdür.” O birilər isə belə deyirlər: “On birinci imamımız sonsuz idi...”[1]

◘İşin dolaşıq düşməsi amilləri və başqa birinin dara çəkilməsi bu şəkildə baş verdi:

1. Həmin şəxsi həbs edənlər rumlu idilər və İsanı tanımırdılar. (Ehtimal olunur ki, İsaya xəyanət edib onu müxaliflərə tanıtdıran kəs özü İsanın şəklinə düşdü və həbs edildi.)

2. İsanın tutulması əməliyyatı gecə keçirildi. Tutulmuş şəxs Allahdan şikayət etdi. Allahdan şikayət peyğəmbərlik məqamına uyuşmayan sifətdir.

4. İsanın həbsi və dara çəkilməsini xəbər verən bütün İncillər İsadan çox-çox sonra yazılmışdır. Bu kitablarda bir çox xatalar ola bilər.

5. Məsihilərin bir dəstəsi İsanın dara çəkilməsini qəbul etmir. Müxtəlif İncillərdə bu mövzuda ziddiyyətlər var və bu ziddiyyətlər mövzunu şübhəli göstərir.

## *Bildirişlər*

1. İnsan əxlaqi baxımdan o qədər süqut edə bilər ki, peyğəmbəri öldürməklə fəxr edər.
2. Batil iddialar qarşısında qətilik lazımdır.
3. İsanın həm doğuşu, həm dünyadan gedişi qeyri-təbii şəkildə baş vermişdir. Onun gedişi gələcək üçün ehtiyat tədbiri idi.
4. İslam peyğəmbərindən başqaları üçün də merac olmuşdur.
5. İsa Allahın qonağıdır.
6. İnsanın səmalarda yaşamaq imkanı var.
7. Allahın iradəsi bütün hiylələri puça çıxarır.

159. ﴿ وَإِن مِّنْ أَهْلِ الْكِتَابِ إِلاَّ لَيُؤْمِنَنَّ بِهِ قَبْلَ مَوْتِهِ وَيَوْمَ الْقِيَامَةِ يَكُونُ عَلَيْهِمْ شَهِيدًا ﴾

**“Kitab əhlindən elə bir kəs yoxdur ki, ölümündən qabaq ona (İsaya) iman gətirməsin. Qiyamət günü o həmin kəslərə şahid olacaq.”**

---

[1] Tusi, “Əl-Qeybət”, s. 170.

## *Nöqtələr*

◘Belə bir məna ehtimal olunur: Həzrət İsanın ölümündən qabaq bütün kitab əhli ona iman gətirər. Çünki şiə və sünni rəvayətlərinə əsasən, İsa dünyanın sonunda səmadan enər və əsrin imamının arxasında namaz qılar. Bir müddət yaşadıqdan sonra dünyasını dəyişər. Həmin gün məsihilər ona düzgün iman gətirər və onu Allahın oğlu saymazlar.[1]

## *Bildirişlər*

1. Bütün kafirlər və azğınlar ölüm astanasında həqiqətlər aşkar olan zaman ağıla gəlib iman gətirərlər. Amma bunun faydası olmaz.
2. Ölüm hamı üçün qəti bir qanundur. Bu qanuna hətta əsrlərcə ən üstün şəraitdə Allahın və mələklərin qonağı olan İsa da tabedir.
3. Peyğəmbərlər insanların şahidləridirlər.

**160.** ﴿ فَبِظُلْمٍ مِّنَ الَّذِينَ هَادُواْ حَرَّمْنَا عَلَيْهِمْ طَيِّبَاتٍ أُحِلَّتْ لَهُمْ وَبِصَدِّهِمْ عَن سَبِيلِ اللّهِ كَثِيرًا ﴾

**"Yəhudilər zülmə yol verdiklərinə və xalqın çoxunu Allahın yolundan uzaqlaşdırdıqlarına görə Biz əvvəllər onlara halal olmuş pak və xoşagəlimli şeyləri haram etdik."**

## *Nöqtələr*

◘Yəhudilərə haram edilmiş pak nemətlər dedikdə "Ənam" surəsinin 146-cı ayəsindəki haram hökmü nəzərdə tutula bilər. Bu qadağa indiki Tövratda da var.[2]

◘Fərd və cəmiyyətin halı və əməlləri onların ilahi nemətlərdən bəhrələnməsində və ya zavala uğramasında mühüm rol oynayır. "Fəcr" surəsinin 17-ci ayəsində oxuyuruq ki, bəzən məhrumluğun səbəbi yetimlərə diqqətsizlik olur. "Əraf" surəsinin 96-cı ayəsində oxuyuruq: "Əgər həmin məmləkət əhli imanlı və təqvalı olsaydı, səmanın bərəkətindən bəhrələnərdi."

Necə ki, hədisdə oxuyuruq: "Əkin məhsulları insanların yol verdiyi zülmə görə məhv olur."[3]

---

[1] "Təfsire-Əl-Mizan".
[2] Tövrat, "Sifre-Laviyan", f. 11.
[3] "Müstədrək", c. 13, s. 473.

### *Bildirişlər*

1. Zülm nemətlərdən məhrumluq zəminəsidir.
2. Bəzən iqtisadi məhrumiyyətlər və maddi sıxıntılar ilahi qəhr-qəzəb və cəzanın nişanəsi olur.
3. Bir nemətin haram edilməsində məqsəd təkcə insanın sağlamlığının qorunması deyil.
4. Əsl cəza qiyamətdə də olsa, dünya cəzaları bir xəbərdarlıqdır. Dünya çətinliyi günahkarlar üçün cəza, salehlər üçün imtahandır.
5. İstənilən bir yolla (təhrif, gizlətmə, bidət, fəsad, azğınlıq...) Allah yolunu bağlamaq nemətlərdən məhrumluq səbəbidir.

**161.** ﴿وَأَخْذِهِمُ الرِّبَا وَقَدْ نُهُواْ عَنْهُ وَأَكْلِهِمْ أَمْوَالَ النَّاسِ بِالْبَاطِلِ وَأَعْتَدْنَا لِلْكَافِرِينَ مِنْهُمْ عَذَابًا أَلِيمًا﴾

**“Onlara qadağan edilmiş sələm aldıqlarına görə və xalqın malını haqsız olaraq yedikləri üçün (pak şeyləri onlara haram etdik) onlardan olan kafirlər üçün dərdli əzab hazırlamışıq.”**

### *Nöqtələr*

◘Tövratda “Sifre-təsniyə” kitabında, iyirmi üçüncü fəsil, on doqquzuncu və iyirminci cümlələrdə sələmin qadağa hökmü gəlmişdir.[1]

### *Bildirişlər*

1. Sələmçilik zahirən gəlir mənbəyi olsa da, əslində məhrumiyyət və əzab səbəbidir.
2. Bütün səmavi dinlər insanlar arasındakı iqtisadi əlaqələrə, onların gəlir və çıxarının necəliyinə diqqətlidir.
3. Nə qədər ki, zülm, sələm və haram insanı küfrə aparıb çıxarmayıb, geriyə dönüş asandır. Bu sayaq günahlar küfr və əzab zəminəsidir.

**162.** ﴿لَّكِنِ الرَّاسِخُونَ فِي الْعِلْمِ مِنْهُمْ وَالْمُؤْمِنُونَ يُؤْمِنُونَ بِمَا أُنزِلَ إِلَيكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ وَالْمُقِيمِينَ الصَّلاَةَ وَالْمُؤْتُونَ الزَّكَاةَ وَالْمُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ أُوْلَئِكَ سَنُؤْتِيهِمْ أَجْرًا عَظِيمًا﴾

**“Amma yəhudi və möminlərin elmdə düşüncə sahibi olanları sənə və səndən əvvəlkilərə nazil olana imanlıdırlar. Onlar xüsusi ilə namazı bərpa edənlər, zəkat ödəyənlər, Allaha və qiyamətə inanandırlar. Tezliklə onlara böyük mükafat verəcəyik.”**

---

[1] “Təfsire-Nümunə”.

## *Nöqtələr*

◘Quranda dəfələrlə "səndən qabaqkılara nazil olmuş" ifadəsi işlənmişdir və bu, İslam dininin son din olmasını anladır.

◘Hədisdə deyilir: Zəkat ödəməyənlərin namazı qəbul deyil." İslam peyğəmbəri zəkat ödəməyən insanları məsciddən çıxarardı. Quranın bildirdiyinə görə, əsil namaz qılanlar xəsis deyil.[1]

## *Bildirişlər*

1. Tənqiddə insaflı olmaq lazımdır. Bu ayədə yəhudilərin möminləri onların zalımlarından və haramxorlarından ayrılır.
2. İnsanın ruhunda kök atmış bilik dəyərlidir.
3. Bütün ilahi dinlərdəki bütün üsullara iman zəruridir.
4. Dinin bütün əsaslarına iman bəsləmək ilahi dinlərin hamısında zəruri hesab olunmuşdur.
5. Namaz və zəkat bütün ilahi dinlərdə öz əksini tapsa da, əhəmiyyətli olduğu üçün ayrıca zikr edilmişdir.
6. Namaz zəkatdan ayrı deyil. Namaz əhli həm də infaq əhli olmalıdır.
7. Namazın xüsusi yeri var. (Ayədə namaz haqqında "muqimun" yox, "muqimin" sözünün işlədilməsi ərəb qrammatikasına əsasən üstünlük nişanəsidir.)

**163.** ﴿إِنَّا أَوْحَيْنَا إِلَيْكَ كَمَا أَوْحَيْنَا إِلَى نُوحٍ وَالنَّبِيِّينَ مِن بَعْدِهِ وَأَوْحَيْنَا إِلَى
إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَقَ وَيَعْقُوبَ وَالأَسْبَاطِ وَعِيسَى وَأَيُّوبَ وَيُونُسَ وَهَارُونَ
وَسُلَيْمَانَ وَآتَيْنَا دَاوُودَ زَبُورًا﴾

**"(Ey peyğəmbər,) Biz Nuha, ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi sənə vəhy etdik. (Eləcə də) İbrahimə, İsmailə, İshaqa, Yaquba, Əsbata (Yaqub övladlarına), İsaya, Əyyuba, Yunisə, Haruna və Süleymana vəhy etdik. Davuda Zəbur verdik."**

## *Nöqtələr*

◘Quranda iyirmi beş peyğəmbərin adı çəkilmişdir. Bu ayədə on bir peyğəmbərin adı yad edilir. Digər peyğəmbərlərin adlarına nəzər salaq: Adəm, İdris, Hud, Saleh, Lut, Yusif, Şüeyb, Zulkifl, Musa, İlyas, Yəsə, Zəkəriyya, Yəhya və Üzeyir.

◘Hədisdə deyilir: Əvvəlki peyğəmbərlərə vəhy olunanlar İslam peyğəmbərinə də vəhy edilmişdir.[1]

---

[1] Bax: "Məaric", 21, 22.

◘"Sibt" sözünün cəm forması olan "əsbat" sözü Yaqubun peyğəmbərliyə çatmış nəvələrinə və övladlarına işarədir.

◘"Zəbur" kitab mənasını ifadə edir. Terminoloji baxımdan "Zəbur" həzrət Davuda nazil olmuş kitabın adıdır. "Məzamire-Davud" qədim əhd (Tövrat) kitablarındandır. Bu kitabın yüz əlli fəsli var və hər fəsil bir "məzmur"dur.

## *Bildirişlər*

1. Vəhy və nübuvvət bəşər tarixində dəyişməz cərəyan və sünnədir.
2. Bir mövzu ilə bağlı tarixi nümunələrin bəyanı (məsələn, əvvəlki peyğəmbərlərə vəhy gəlməsi) iddianın sübut şivələrindəndir. Bu məlumatlardan xəbərdarlıq qəbul zəminəsidir.
3. İlahi dinlərin məqsədi, üslubu və mahiyyəti eynidir. Çünki bütün dinlər Allah tərəfindən qaynaqlanır.
4. Tarixdə dəfələrlə ilahi vəhy nazil olsa da, kitab əhli İslam peyğəmbərinin nübuvvətinə qarşı çıxdı. Nə üçün? Onunla başqa peyğəmbərlər arasında fərq qoyuldu, yoxsa əlavə tələblər vardı?

**164.** ﴿ وَرُسُلاً قَدْ قَصَصْنَاهُمْ عَلَيْكَ مِن قَبْلُ وَرُسُلاً لَّمْ نَقْصُصْهُمْ عَلَيْكَ وَكَلَّمَ اللّهُ مُوسَى تَكْلِيمًا ﴾

**"Bundan qabaq əhvalatını sənin üçün danışdığımız peyğəmbərlərə və haqqında danışmadığımız peyğəmbərlərə də vəhy etdik. Allah Musa ilə danışdı, xüsusi bir danışıqla!"**

## *Nöqtələr*

◘Quran surələri arasında "Hud" və "Şuəra" surələrində peyğəmbərlərin əhvalatı daha ətraflı bəyan olunur.

◘Bütün peyğəmbərlər Allahın həmsöhbəti olsa da, bu arada həzrət Musa "kəlimullah" adlandırılmışdır. Uyğun adlandırmanın belə bir səbəbi ola bilər ki, həzrət Musa Fironla mübarizə və Bəni-İsrailin inadkarlığına dözümdə daha çox və ardıcıl şəkildə Allahla rabitədə olmuşdur. O daha çox bildiriş aldığından "kəlimullah" kimi yad edilmişdir.

## *Bildirişlər*

1. Peyğəmbərlərin tarixi ilə tanışlıq o qədər faydalı və ibrətamizdir ki, Allah da bu məsələyə diqqət yetirir.
2. Peyğəmbərlərin sayı Quranda sadaladığından çoxdur.
3. Bütün tarixi dinləməyə nə ömür çatır, nə də buna ehtiyac var. Müəyyən həddə öyüd-nəsihət eşitmək zəruridir.

---

[1] "Təfsire-Nurus-Səqəleyn".

4. Bəzən Quranda bir hadisə bir neçə dəfə təkrarlanır. Bəzi hadisələrə isə, demək olar ki, toxunulmur. Məlum olur ki, Quran dastan yox, hidayət və tərbiyə kitabıdır.

**165.** ﴿ رُّسُلاً مُّبَشِّرِينَ وَمُنذِرِينَ لِئَلاَّ يَكُونَ لِلنَّاسِ عَلَى اللّهِ حُجَّةٌ بَعْدَ الرُّسُلِ وَكَانَ اللّهُ عَزِيزًا حَكِيمًا ﴾

**“Peyğəmbərlər (göndərdik) ki, müjdə verən və qorxudan idilər. (Bu səbəbdən ki,) peyğəmbərlərdən sonra xalqın Allah qarşısında bəhanəsi olmasın. Allah daim yenilməzdir və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘Bu ayə peyğəmbərlərin dəvətlərinin külliyyatını və onların iş üsulunu, besətlərinin məqsədini bəyan edir.

◘Əql də vəhy kimi ilahi höccətdir. Amma ağılın dərketmə dairəsi məhdud olduğundan o, təklikdə kafi deyil. Ona görə də peyğəmbərlər qeyb və axirət biliklərindən xəbər verirlər. Əql bu bilikləri əldə etməkdə acizdir.

◘Quran digər bir məqamda buyurur: Əgər biz peyğəmbərləri göndərməzdən qabaq onlara əzab versəydik, deyərdilər: Nə üçün bizə açıqlayan və xəbərdarlıq edən peyğəmbər göndərmədin?”

## *Bildirişlər*

1. Peyğəmbərlərin təbliğ üsulu qorxu və ümid kimi iki əsasa malikdir.
2. Peyğəmbərlərin besət fəlsəfəsi xalq üçün ilahi höccəti tamamlamaq, bəhanəyə yer qoymamaqdır. Peyğəmbərlərin gəlişindən sonra kimsə deyə bilmir ki, rəhbərimiz, yol göstərənimiz yox idi, bilmirdik.
3. Peyğəmbərlər şəxsi xarakter, fiziki səciyyə, ötən tarixçə, ictimai-siyasi mövqe, ailə münasibəti, eləcə də, möcüzə baxımından elə bir mərhələdə olmalıdırlar ki, kimsə üçün bəhanə yeri qalmasın.
4. Allah yenilməz və hikmət sahibi olduğundan kimsənin Ona qarşı dəlili yoxdur.

**166.** ﴿ لَّكِنِ اللّهُ يَشْهَدُ بِمَا أَنزَلَ إِلَيْكَ أَنزَلَهُ بِعِلْمِهِ وَالْمَلآئِكَةُ يَشْهَدُونَ وَكَفَى بِاللّهِ شَهِيدًا ﴾

**“(Kafirlər bəhanə gətirirlər) Amma Allah sənə nazil etdiyi barədə şəhadət verir ki, Öz elmi ilə sənə nazil etdi. Mələklər də (sənin haqq olmağına.) Şəhadət verirlər. Allahın şahidliyi (sənin üçün) kafidir.**

## *Nöqtələr*

◘Quranın uca maarifinin dərs oxumamış bir şəxsin dilindən, cahil, şirkə aludə mühitdə bəyan olması, xalqın dəyişməsi, təfriqədən vəhdətə, xəsislikdən isara, şirkdən tövhidə, cəhalətdən elmə, süqutdan mənəvi yüksəlişə, islami ümmətin təşkilinə çatması peyğəmbər və dinə edilmiş lütfə Allahın şəhadətidir.

## *Bildirişlər*

1. Haqsız zəiflətmələrin qarşısında yerli qüvvətləndirmələr gerçəkləşməlidir.
2. Dəvət yolunda peyğəmbərlərin də ilahi yardıma ehtiyacı var.
3. Hər bir din təbliğatçısının ən üstün arxası və ümid yeri Allah olmalıdır.
4. Vəhy qaynağı Allahın sonsuz elmidir. Bu səbəbdən də elmlərin inkişafı ilə hər gün Quran maarifinin üzərindən pərdə götürülür.
5. Əgər yerin bir guşəsində inadkar günahkarlar bəhanə gətirirlərsə, varlıq aləmindəki bütün mələklər sənin xeyrinə olaraq şəhadət verirlər.

**167.** ﴿ إِنَّ الَّذِينَ كَفَرُواْ وَصَدُّواْ عَن سَبِيلِ اللّهِ قَدْ ضَلُّواْ ضَلاَلاً بَعِيدًا ﴾

**“Şübhəsiz, kafir olub (şübhə, böhtan, təhqir təlqini ilə) xalqı Allahın yolundan kənarlaşdıran kəslər azdılar. (Qurtuluşdan) uzaq bir azğınlıq!”**

**168.** ﴿ إِنَّ الَّذِينَ كَفَرُواْ وَظَلَمُواْ لَمْ يَكُنِ اللّهُ لِيَغْفِرَ لَهُمْ وَلاَ لِيَهْدِيَهُمْ طَرِيقاً ﴾

**“Həqiqətən, kafir olub, zülm edən kəsləri Allah bağışlamaq və bir yola hidayət etmək fikrində deyil.”**

**169.** ﴿ إِلاَّ طَرِيقَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا أَبَدًا وَكَانَ ذَلِكَ عَلَى اللّهِ يَسِيرًا ﴾

**“Yalnız cəhənnəmin yoluna (yönəldilərlər) və həmişəlik onda qalandırlar. Bu (əzab) Allah üçün asandır.”**

## *Nöqtələr*

◘“Uzaq azğınlıq” dedikdə kafirlərin ikiqat azğınlığı nəzərdə tutulur. Onların bir azğınlığı küfr, digər azğınlığı başqalarının imanına maneçilikdir. Küfr özü bir azğınlıqdırsa da, insanın özünə zülmü, başqalarının doğru yola gəlişinə maneçilik isə tarix və bəşər nəslinə zülmdür.

◘168-ci ayədəki “zülm” təbiri başqalarının hidayətinə maneçiliyə də işarə ola bilər. Doğrudan da, düşüncə, əqidə və mədəniyyət zülmündən böyük zülm nədir?!

◘Ən ağır əzablar və ən sərt təbirlər müxtəlif təbliğatlar, böhtanlar, hədələr vasitəsi ilə haqqın eşidilməsinə mane olan kafirlərə aid edilmişdir. (Bağışlamadan və hidayətdən məhrumluq, əbədi cəhənnəm əhli olmaq.)

## *Bildirişlər*

1. Xalqı doğru yoldan ayıranlar özləri ağır bir azğınlıqdadırlar.
2. Küfr və zülm bir aradadır. Onların nəticəsi bağışlanma və ilahi hidayətdən məhrumluqdur.
3. Hidayətə mane olan zalım kafirlərin cəzası əbədi cəhənnəmdir.

**170.** ﴿ يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُمُ الرَّسُولُ بِالْحَقِّ مِن رَّبِّكُمْ فَآمِنُواْ خَيْرًا لَّكُمْ وَإِن تَكْفُرُواْ فَإِنَّ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَالأَرْضِ وَكَانَ اللّهُ عَلِيمًا حَكِيمًا ﴾

**"Ey xalq! Həqiqətən, peyğəmbər sizin Allahınız tərəfindən haqla (Quranla) birgə gəlmişdir. İman gətirin, bu sizin üçün daha yaxşıdır. Əgər (naşükürlük edib küfrə uğrasanız bilin ki), göylərdə və yerdə nə varsa Allahındır. Allah biləndir və hikmət sahibidir."**

## *Nöqtələr*

◘Kitab əhli, hətta müşriklər bir peyğəmbərin zühuru intizarında idilər. Ona görə də ayədə rəsul sözü konkret şəkildə bəyan olunur. Yəni bu, intizarı çəkilən həmin peyğəmbərdir. O gəlmişdir, ona iman gətirin.

## *Bildirişlər*

1. İslam bütün dünyanı dəvət edir. Bu din təkcə ərəb qövmünə aid deyil.
2. Peyğəmbərlərin dəvətinin genişlənməsi amili bu dəvətin haqq olmasıdır.
3. İman xalqın özü üçün faydalıdır. İnsan öz imanı ilə Allaha minnət qoymamalıdır. Əksinə, Allah bizi hidayət etdiyi üçün minnət qoymuşdur.
4. Xalqın nə küfrü Allaha ziyanlıdır, nə də imanı Allaha fayda verir.
5. Peyğəmbərlərin besəti və onların dəvətinin mahiyyəti ilahi elm və hikmətə əsaslanır.

**171.** ﴿يَا أَهْلَ الْكِتَابِ لاَ تَغْلُواْ فِي دِينِكُمْ وَلاَ تَقُولُواْ عَلَى اللّهِ إِلاَّ الْحَقَّ إِنَّمَا الْمَسِيحُ عِيسَى ابْنُ مَرْيَمَ رَسُولُ اللّهِ وَكَلِمَتُهُ أَلْقَاهَا إِلَى مَرْيَمَ وَرُوحٌ مِّنْهُ فَآمِنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلاَ تَقُولُواْ ثَلاَثَةٌ انتَهُواْ خَيْرًا لَّكُمْ إِنَّمَا اللّهُ إِلَـهٌ وَاحِدٌ سُبْحَانَهُ أَن يَكُونَ لَهُ وَلَدٌ لَّهُ مَا فِي السَّمَاوَات وَمَا فِي الأَرْضِ وَكَفَى بِاللّهِ وَكِيلاً﴾

**"Ey kitab əhli! Öz dininizdə həddi aşmayın və yalnız haqqı Allaha aid edin. Həqiqətən, Məsih, Məryəm oğlu İsa Allahın Məryəmə yetirdiyi elçi və**

**onun kəlməsidir. İsa Allah tərəfindən bir ruhdur. Belədirsə, Allaha və Onun rəsuluna iman gətirin. Üç üqnuma inanmayın. (Bu sözdən) əl götürün, bu, sizin faydanızadır. Allah bir olan məbuddur və övladı olmaq sifətindən pakdır. Haqq yalnız budur. Səmalarda və yerdə nə varsa Onundur. Varlıq aləmində tədbir və rəhbərlik üçün Allah yetər."**

## *Nöqtələr*

◘"Kəlimətullah" peyğəmbər və övliyalara verilən addır. Kəlmə bir mətləbi dinləyicinin zehnində formalaşdırdığı kimi, peyğəmbərlər və övliyalar da Allahın kəlmələrini bəyan edirlər. Hədisdə deyilir: "Biz, Allahın kamil kəlmələriyik."[1]

Kəlmə deyildikdə Allahın "kun fəyəkun" təbiri də nəzərdə tutula bilər. Bütün təbirlər kimi, bu təbir də kəlmədən yaranır.[2] Necə ki, "Ali-İmran" surəsinin 59-cu ayəsində İsanın yaranışı Adəmin yaranışına bənzədilmişdir.

◘İmam Sadiq (ə) "Onun ruhundan" təbiri haqqında verilən suala belə cavab vermişdir: "Məqsəd Allahın Adəm və İsada qərar verdiyi ilahi ruhdur."[3]

◘Məsihilər müqəddəs üçlüyə inanır, Allahı ata Allah, İsanı oğul Allah və Cəbraili bu iki Allah arasında vasitə sayırlar. Bu, şübhəsiz ki, küfrün bir növüdür. Quran buyurur: "Allahı üç Allahdan biri sayanlar kafirdir."[4] Məsihilərdən bir qrupu isə Həzrət Məryəmi Cəbrailin yerinə üç Allahdan biri bilirlər. Quran bu barədə buyurur: "Ey İsa! Sən xalqa demisənmi ki, məni və anamı iki Allah qərar verin?"[5]

◘Rəvayətdə həddi aşanlar nifrin edilmiş və beləri kafir müşriklərin ən pisi sayılmışlar.[6]

◘Əgər atanın olmaması Allahlıq dəlilidirsə, həzrət Adəm də Allah sayılmalıdır. Çünki onun nə atası var, nə də anası.

## *Bildirişlər*

1. Həddi aşmaq yersiz təəssüb nişanəsidir. Belə bir hal bütün dinlərdə qadağandır. Yəhudilər Üzeyiri, məsihilər isə İsanı Allahın oğlu sayırdılar.
2. Səmavi dinlərin bəlalarından biri dini rəhbərlərə münasibətdə ifrata varılmasıdır.
3. Bütün hallarda orta həddi gözləmək zəruridir. Allahın övliyalarına məhəbbət ifratçılıq səbəbi olmamalıdır.
4. Hətta peyğəmbərlərə münasibətdə həddin aşılması Allaha qarşı azğınlıqdır.

---

[1] "Təfsire-Ətbəyul-bəyan".
[2] "Təfsire-Əl-Mizan", "Fi zilalil-Quran".
[3] "Kafi", c. 1, s. 133.
[4] "Maidə", 73.
[5] "Maidə", 115.
[6] "Mizanul-hikmə".

5. Quran və İncildə həzrət İsa Allahın peyğəmbəri kimi tanıtdırılır. Onun nə Allah, nə də Allah oğlu olmasından söhbət gedir. Quranda İsa on yeddi dəfə Məryəmə aid edilmişdir. İncildə də həzrət İsa Allah yox, Allahın elçisi kimi zikr olunur. Həzrət İsa İncildə səksən dəfə özünü Allahın bəndəsi və rəsulu kimi təqdim etmişdir.[1]

6. İsanın qeyri-təbii yaranışı Allahın ayə və nişanəsidir. Necə ki "kəlmə" məna göstəricisidir.

7. İsa Allahın bir hissəsi yox, onun həyatverici qüdrətindən yaranmışdır.

8. Quran düzgün əqidəni bəyan, batil əqidəni rədd edir.

9. Allah cisim deyil ki, övladı olsun. Dini mətnlərdəki "Allahın əli" kimi ifadələr məcazi mənada işlənmişdir.)

10. Səmaların maliki olan Allahın övlad və şərikə nə ehtiyacı?!

11. Hər şey Allahdandır. Onun bəndəsi olub, yalnız Ona təvəkkül etmək lazımdır.

172. ﴿ لَّن يَسْتَنكِفَ الْمَسِيحُ أَن يَكُونَ عَبْداً لِّلّهِ وَلاَ الْمَلآئِكَةُ الْمُقَرَّبُونَ وَمَن يَسْتَنكِفْ عَنْ عِبَادَتِهِ وَيَسْتَكْبِرْ فَسَيَحْشُرُهُمْ إِلَيهِ جَمِيعًا ﴾

**"Həzrət İsa heç vaxt Allahın bəndəliyini təkəbbürlə qarşılamamışdı. Yaxın mələklər də belədir. Hər kəs Allaha bəndəlikdən boyun qaçırsa, təkəbbür göstərsə, (bilsin ki,) tezliklə hamını Öz yanında məşhur edər."**

## *Nöqtələr*

◘İmam Riza (ə) həmin dövrün məsihi rəhbəri Casliqə buyurdu: "İsanın hər işi yaxşı idi, amma ibadət əhli deyildi." Müsahibi imamın bu sözündən narahat oldu və dedi: "O çox ibadət edirdi." Həzrət soruşdu: "Kimə pərəstiş edirdi?" Müsahibi susdu. Anladı ki, imamın məqsədi abidin məbud ola bilməməsini anlatmaqdır.

◘Allaha ibadətə münasibətdə xalq üç halda olur: Bir dəstə təkəbbürlü, bir dəstə təslim, digər bir dəstə isə tələb edən. Həzrət Əli (ə) buyurmuşdur: "(Pərvərdigara,) mənim üçün Sənin bəndən olmaq iftixarı bəsdir."[2]

## *Bildirişlər*

1. Dini işlərdə "aşdan isti kasa" olmayın. İsa özünü Allahın bəndəsi bilir. Siz nə üçün onu Allahın oğlu sayırsınız?!

2. Məsih nəinki ibadət edirdi, o bütün varlığı ilə Allahın bəndəsi idi.

3. Yaxın mələklər Allaha bəndəlik edir. Nə üçün bu mələklərdən olan Ruhul-Qüdsü üç Allahdan biri sayırsınız?

4. İbadəti tərk etmənin qaynağı təkəbbürdür. Əgər ruhda təkəbbür halı olsa, bütün təhlükələr gözlənilir.

---

[1] "Təfsire-Furqan".

[2] "Bihar", c. 94, s. 92.

5. Hamı Allaha doğru qayıdasıdır. Qiyamətdən qorxaq və təkəbbür göstərməyək.

**173.** ﴿فَأَمَّا الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ فَيُوَفِّيهِمْ أُجُورَهُمْ وَيَزيدُهُم مِّن فَضْلِهِ وَأَمَّا الَّذِينَ اسْتَنكَفُواْ وَاسْتَكْبَرُواْ فَيُعَذِّبُهُمْ عَذَابًا أَلُيمًا وَلاَ يَجِدُونَ لَهُم مِّن دُونِ اللّهِ وَلِيًّا وَلاَ نَصِيرًا﴾

**“İman gətirib saleh işlər görənlərin mükafatını Allah kamil şəkildə verər. Allah Öz fəzlindən onlara daha artıq əta edər. Amma boyun qaçırıb təkəbbürə uğrayanları Allah dərdli əzabla cəzalandırar. Onlar Allahın (qəzəbi) qarşısında özləri üçün dost və yardımçı tapmayacaqlar.”**

## *Nöqtələr*

◘Kitab əhli ya peyğəmbəri üstün bilib ifrata varır, ya da özlərini üstün sayırdılar.[1] Onların digər bir məqsədi başqalarının təhqiri ola bilərdi.[2] Qiyamətdə bu işlərin heç biri fayda vermədiyindən iman və əməl lazımdır.

## *Bildirişlər*

1. Qurtuluş yolu iman və saleh əməldir.
2. İman əməldən öndə gəlir. İmansız əməl birüzlü əskinas (kağız pul) kimidir.
3. Əgər ilahi əxlaq sahibi olmaq istəyirsinizsə, fəhlənin haqqını tam ödəyin, bir az da artıq verin.
4. İman və saleh əməlsiz həzrət İsa və başqalarından heç bir şəfaət gözləməyin.

**174.** ﴿ يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُم بُرْهَانٌ مِّن رَّبِّكُمْ وَأَنزَلْنَا إِلَيْكُمْ نُورًا مُّبِينًا ﴾

**“Ey xalq! Rəbbiniz tərəfindən sizin üçün dəlil gəlmişdir. (Quran kimi) aydınladan bir nuru sizə doğru endirdik.”**

## *Nöqtələr*

◘Rəvayətlərə əsasən, ayədəki “bürhan” sözü peyğəmbərə, “nure-mubin” ifadəsi isə Qurana aiddir. Doğrudan da, peyğəmbər dinin dəlilidir. Çünki dərs oxumamış bir kəs belə bir maarif və kitab gətirmişdir. Zaman ötdükcə, elmlər inkişaf etdikcə dinin haqq olması və təlimlərinin dərinliyi aydınlaşır.

---

[1] Bax: “Maidə”, 18.
[2] Bax: “Bəqərə”, 11.

## *Bildirişlər*

1. Quran bütün nəsillər və əsrlərdə danışır. Quranın xitabı bütün dünyadır.
2. Nur və dəlil göndərilməsi Allahın rübubiyyət şənindəndir.
3. Quran dəlil, hidayət və nur kitabıdır.

**175.** ﴿ فَأَمَّا الَّذِينَ آمَنُواْ بِاللّهِ وَاعْتَصَمُواْ بِهِ فَسَيُدْخِلُهُمْ فِي رَحْمَةٍ مِّنْهُ وَفَضْلٍ وَيَهْدِيهِمْ إِلَيْهِ صِرَاطًا مُّسْتَقِيمًا ﴾

**“Allaha iman gətirib Ona bağlanan kimsələri (Allah) tezliklə Öz rəhmət və fəzlinə daxil edər. (Allah) onları Özünə doğru haqq yolda hidayət edər.”**

## *Nöqtələr*

◘Bu ayədə «Allaha bağlanmaq» dedikdə ilahi övliya və rəhbərlərə bağlılıq nəzərdə tutula bilər. Belə bir bağlılıq təfriqənin qarşısını alır. “Cameə” ziyarətində bu nöqtəyə toxunulur.

◘Əvvəlki iki ayədə iman və saleh əməl ilahi lütf əldə olunması vasitəsi sayılır. Bu ayədə isə iman və Allaha bağlılıq vasitə kimi tanıtdırılır. Bu onu göstərir ki, iman və Allaha bağlılıq həmin iman və əməldir və bu ikisi dəfələrlə Quranda birgə gəlmişdir.

## *Bildirişlər*

1. İlahi mükafatlar bizim haqqımız yox, Allahın fəzl və rəhmətidir. Şübhəsiz ki, məhdud zəhmətin əvəzi əbədi behişt ola bilməz.
2. Allah istədiyini hidayət etsə də, hidayət zəminəsi və vasitəsi insanın iman və bağlılığı ilə əldə olunur.
3. İman və ilahi bağlılıqdan sonra da hidayətə ehtiyac var. İnsan bir an belə ilahi hidayətdən ehtiyacsız deyil.
4. Doğru yol o yoldur ki, insanı Allaha çatdırsın.

**176.** ﴿يَسْتَفْتُونَكَ قُلِ اللّهُ يُفْتِيكُمْ فِي الْكَلاَلَةِ إِنِ امْرُؤٌ هَلَكَ لَيْسَ لَهُ وَلَدٌ وَلَهُ أُخْتٌ فَلَهَا نِصْفُ مَا تَرَكَ وَهُوَ يَرِثُهَآ إِن لَّمْ يَكُن لَّهَا وَلَدٌ فَإِن كَانَتَا اثْنَتَيْنِ فَلَهُمَا الثُّلُثَانِ مِمَّا تَرَكَ وَإِن كَانُواْ إِخْوَةً رِّجَالاً وَنِسَاء فَلِلذَّكَرِ مِثْلُ حَظِّ الأُنثَيَيْنِ يُبَيِّنُ اللّهُ لَكُمْ أَن تَضِلُّواْ وَاللّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**“(Ey peyğəmbər) səndən fətva istəyirlər. De ki, Allah “kəlalə” (yalnız atadan və ya ata və anadan olan qardaş və bacının irsi) haqqında sizə belə fətva verir: Əgər ölən kişinin övladı olmasa, amma bacısı olsa, ondan qalanın yarısı bacısınındır. Bacının da övladı olmadıqda, o bütün irsə sahib olur. Əgər iki bacı olsa, mirasın üçdə ikisi ona çatır. Əgər bir neçə**

**qardaş və bacı olsa, kişi iki qadının payına bərabər irs aparır. Allah sizin üçün hökmləri bəyan edir ki, azmayasınız. Allah hər şeyi biləndir.”**

## *Nöqtələr*

◘Həmin surənin 12-ci ayəsində bildirilir ki, bacı və qardaş bir-birindən irsin altıda biri qədərinə sahib olur. Burada buyurulur: Burada isə irsin yarısından söhbət gedir. Səbəb budur ki, əvvəldə bir anadan olan bacı və qardaşdan danışılırdı, burada isə yalnız ata və ya ata-anadan olan bacı-qardaşdan danışılır.[1]

◘Bacı və qardaş meyitdən o vaxt irs aparır ki, meyitin övladı, ya ata-anası olmasın. Əks təqdirdə, bacı və qardaşa pay çatmır.

◘“Nisa” surəsi ailə məsələləri mövzusu ilə də başladı və bu mövzu ilə başa çatdı.

## *Bildirişlər*

1. Dini məsələlər və hökmləri öyrənmək üçün dini rəhbərə müraciət olunması xalqın vəzifəsidir.
2. Din insanların dünya həyatı üçün proqram verir. İrs mövzusu bir tərəfdən iqtisadi, digər tərəfdən ailə ilə bağlı mövzudur. Din hər iki cəhətdən onun üçün hökmlər müəyyənləşdirmişdir.
3. İrsin bölünməsindəki fərqlər ailə üzvləri arasındakı fərqlərdən danışır. Ata-ana və övladlar bir sıradadır. Bacılar və qardaşlar isə növbəti cərgədədir.
4. Kişinin qadından ikiqat artıq irs alması ilahi elmə əsaslanır. Bu məsələdə qadınların zəif mövqeyə malik olduğu peyğəmbər dövrü rol oynamır.

[1] “Təfsire-Nümunə”.

Mündəricat

"ALİ-İMRAN" SURƏSİ ........................................................................3
"ALİ-İMRAN" SURƏSİNİN SİMASI ..............................................................3
DÖRDÜNCÜ CÜZ......................................................................................68
DÜŞMƏN BİZƏ NƏ ARZULAYIR? ...............................................................83
"NİSA" SURƏSİ .......................................................................................144
NİSA SURƏSİNİN SİMASI.........................................................................144
BEŞİNCİ CÜZ...........................................................................................164
ALTINCI CÜZ ..........................................................................................263